AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU

# AZƏRBAYCANDA TƏHSİL QURUCULUĞUNUN PRİORİTETLƏRİ: MÜASİR YANAŞMALAR

## BEYNƏLXALQ ELMİ KONFRANSIN

# MATERİALLARI

*Naxçıvan şəhəri, 5-6 iyun 2015-ci il*

Az 2015/536

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ
NAXÇIVAN MÜƏLLİMLƏR İNSTİTUTU

# "AZƏRBAYCANDA TƏHSİL QURUCULUĞUNUN PRİORİTETLƏRİ: MÜASİR YANAŞMALAR"

MÖVZUSUNDA

# BEYNƏLXALQ ELMİ KONFRANSIN

# MATERİALLARI

101954

104021

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ARXİV

*Naxçıvan şəhəri, 5-6 iyun 2015-ci il*

Ч31(2А)л0

*"Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar" mövzusunda konfransın Beynəlxalq səviyyədə keçirilməsinə Azərbaycan Respublikası Nazirlər Kabineti razılıq vermişdir.*

***Buraxılışa məsul:***

**Qulu Novruzov,**
Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru

***Elmi redaktoru:***

**Akif Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**"Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar"** ***mövzusunda Beynəlxalq elmi konfransın materialları.*** Naxçıvan, 05-06 iyun 2015-ci il. – Bakı: Mütərcim, 2015. – 364 səh.

A $\frac{4303000000}{026}$ 118-15

© ARTPİ, 2015

## BEYNƏLXALQ ELMİ KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

***Firudin İsa oğlu Qurbanov*** – Azərbaycan Respublikası Təhsil nazirinin müavini – *sədr*

***Piri Abbas oğlu Nağıyev*** – Naxçıvan Muxtar Respublikasının Təhsil naziri – *həmsədr*

***Saleh Heydər oğlu Məhərrəmov*** – Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, biologiya üzrə elmlər doktoru, professor – *həmsədr*

***Qulu Novruz oğlu Novruzov*** – Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru – *həmsədr*

***Oruc Qafar oğlu Həsənli*** – Naxçıvan Müəllimlər İnstitutunun rektoru, pedaqogika üzrə elmlər doktoru, professor – *həmsədr*

***N.V. Naумова*** – Samara Humanitar Akademiyasının ümumi və sosial psixologiya kafedrasının müdir, psixologiya elmləri namizədi, dosent – *üzv*

***Davud İbrahimoğlu*** – Türkiyə Respublikası, İstanbul Esenyurt Universitetinin dosenti, fəlsəfə doktoru – *üzv*

***K. Suha Aydın*** – Nersin Universitetinin rektoru, doktor, professor – *üzv*

***Mübariz Əsgər oğlu Nuriyev*** – Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent – *üzv*

***Akif Nurağa oğlu Abbasov*** – Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor – *üzv*

***Mehmet Önemli*** – Türkiyə Rəhbərlik və Elmi Tədqiqat Mərkəzinin əməkdaşı – *üzv*

***Yaqub Yaqub oğlu Məmmədov*** – Naxçıvan Müəllimlər İnstitutunun prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent – *üzv*

***Həsənəli Eyvazlı*** – Naxçıvan Müəllimlər İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent – *üzv*

***Kamal Həsən oğlu Camalov*** – Naxçıvan Dövlət Universitetinin dosenti, pedaqogika üzrə fəlsəfə doktoru – *üzv*

***Hümeyir Hüseyn oğlu Əhmədov*** – Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun şöbə müdiri, pedaqogika üzrə elmlər doktoru – *üzv*

***Azad Sevindik oğlu Novruzov*** – Naxçıvan Müəllimlər İnstitutunun pedaqoji fakültəsinin dekanı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent – *üzv*

***Vahid Məhəmməd oğlu Rzayev*** – Naxçıvan Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent – *üzv*

## MÜNDƏRİCAT

### ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİL

*Firudin Qurbanov*
MÜASİR DÖVRDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA MƏKTƏBDƏNKƏNAR TƏLİM VƏ TƏRBİYƏNİN ROLU ..... 13
*Qulu Novruzov*
MÜASİR MƏKTƏB, SOSİAL ÇAĞIRIŞLAR VƏ MÜƏLLİMLİK MİSSİYASI ..... 15
*Saleh Məhərrəmov*
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ ELEKTRON TƏHSİL ŞƏBƏKƏSİ ..... 19
*Oruc Həsənli*
ŞƏXSİYYƏTYÖNÜMLÜ KURİKULUMLARIN İDRAK MAHİYYƏTİ ..... 20
*Ənvər Abbasov*
12 İLLİK TƏHSİLİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ ..... 22
*Fərrux Rüstəmov*
MÜƏLLİM KADRLARI HAZIRLIĞINA YENİ YANAŞMA ..... 24
*İntiqam Cəbrayılov*
AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA İNNOVATİV FƏALİYYƏT AMİLİ ..... 26
*Rüfət Hüseynzadə*
TƏHSİl – TARİXİ İNKİŞAF PROSESİNDƏ. TƏHSİLİN BEŞİYİ – NAXÇIVAN, GƏMİQAYA ..... 28
*Н.В. Наумова, М.В. Дронкина, С.Н. Ярыгина*
ПАТРИОТИЧЕСКОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ И СТУДЕНЧЕСТВА ЧЕРЕЗ РЕАЛИЗАЦИЮ СОЦИАЛЬНЫХ ПРОЕКТОВ ПРИ ПОДДЕРЖКЕ ВНЕШНИХ ПАРТНЁРОВ ..... 32
*İsrafil Cəfərov*
TƏHSİLDƏ TƏHLÜKƏSİZLİK AMİLİ ..... 35
*Mirhəsən Eminov*
ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİLDƏ İNFRASTRUKTUR KOMPONENTLƏRİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ ..... 37
*Surə Seyid*
NAXÇIVANDA DİSTANT TƏHSİLİN TƏTBİQİ İMKANLARI ..... 40
*Müdafiə Mahmudov*
FASİLƏSİZ TƏHSİLİN BƏZİ MÜASİR PROBLEMLƏRİ ..... 42
*Lalə Allahverdiyeva*
ALİ TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİ ZAMANIN TƏLƏBİDİR ..... 45
*Razim Məmmədov*
ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİL ÜÇÜN BARİZ NÜMUNƏ ..... 47
*С. С. Воронков*
ПЕДАГОГИЧЕСКАЯ МАСТЕРСКАЯ КАК ФОРМА РЕАЛИЗАЦИИ ДЕТСКОГО ЭНЕРГЕТИЧЕСКОГО ПРОЕКТА ..... 50
*Bibixanım İbadova*
İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ TƏLİMİ PROSESİNDƏ ŞƏXSİYYƏTYÖNÜMLÜLÜYÜN NƏZƏRƏ ALINMASI ..... 52
*Qurban Qurbanlı*
ELEKTRON TƏDRİS LÜĞƏTLƏRİ ..... 54
*Н. И. Соколова*
КРЕАТИВНЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ ОБУЧЕНИЯ ИНОСТРАННОМУ ЯЗЫКУ В ФОРМИРОВАНИИ ЭКОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ СТУДЕНТОВ ..... 56
*Məlahət Əsgərova*
MÜƏLLİM VƏ TƏLƏBƏ ƏMƏKDAŞLIĞI – ƏSAS PEDAQOJİ TƏLƏB KİMİ ..... 58
*Məhəmməd Əkbərov*
TƏHSİLİN FƏLSƏFƏSİ VƏ PİFAQOR DOKTRİNASI ..... 60
*Asya Bəkirova*
HEYDƏR ƏLİYEV VƏ TƏHSİLİMİZ ..... 62



*Л.Б. Семенкова, Н.Т. Оразбекова*
ПЕДАГОГИЧЕСКОЕ МАСТЕРСТВО УЧИТЕЛЯ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ – ЭТО ПРОЯВЛЕНИЕ ПОСТОЯННОГО ТВОРЧЕСТВА ..... 63
*Lalə Məmmədli*
YENİ PEDAQOJİ TƏFƏKKÜR ŞƏRAİTİNDƏ TƏLƏBƏ GƏNCLƏRDƏ İDRAK FƏALLIĞINI İNKİŞAF ETDİRMƏYİN MÜHÜM İSTİQAMƏTLƏRİ ..... 66
*Офира Кафарова*
ИНФОРМАЦИОННЫЕ КОММУНИКАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ОБРАЗОВАНИИ ..... 67
*Xalidə Həmidova*
PEDAQOJİ KADRLARLA APARILAN MƏQSƏDYÖNLÜ İŞ – MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN NƏTİCƏYÖNÜMLÜ İDARƏEDİLMƏSİNİN ƏSASI KİMİ ..... 69
*Şərafət Baxışova*
XXI ƏSRDƏ MƏKTƏBƏQƏDƏR TƏHSİLİN MƏZMUNU ..... 71
*Elnarə Niftəliyeva*
MÜASİR TƏHSİL SİSTEMİNDƏ AZƏRBAYCAN DİLİNDƏ ENANTİOSEMİYANİN İZAHI ..... 73
*Tohid Məmmədov*
MÜASİR DÖVRDƏ TƏHSİLİN VƏ TƏRBİYƏNİN QARŞILIQLI ƏLAQƏSİ ..... 74
*Əhliman Dadaşzadə*
İNFORMASİYA CƏMİYYƏTİNDƏ TƏHSİLİN XÜSUSİYYƏTLƏRİ ..... 75
*Arzu Quliyeva*
MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİN QARŞILIQLI MÜNASİBƏTLƏRİNİN DÜZGÜN QURULMASI ..... 78
*Naibə Əhmədova*
TƏHSİLİN MƏZMUNUNDA AZƏRBAYCANLIQ PRİNSİPİNİN İFADƏSİ ..... 79
*İlqar Səfərli, Məftun Heydərov*
KREDİT TƏHSİL SİSTEMİNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU ..... 81
*Həcər Hüseynova*
ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ROLU ..... 83
*Məhəmmədəli Məmmədov*
ÜMUMTƏHSİL MƏKTƏBİ VƏ ALİ MƏKTƏB ARASINDA VARİSLİYİN PEDAQOJİ ƏSASLARI ..... 86
*Sənubər Məmmədova*
YENİYETMƏ GƏNCLƏRDƏ İNTERNET ASILILIĞI ..... 88
*Təranə İsmayılova*
KEYFİYYƏTLİ TƏHSİL ..... 89
*İlqar Abdullayev, Almaz Tağıyeva*
12 İLLİK ÜMUMİ TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ ..... 91
*Zülfiyyə Vəliyeva, Mehriban Quliyeva,*
SƏMƏRƏLİ İNNOVASİYA SİSTEMİ VƏ YENİ TƏHSİL TEXNOLOGİYALARI ..... 93
*Dilarə Rüstəmova, İlahə Əmirova*
ÖMRÜ BOYU TƏHSİLİN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ ..... 97

### TƏHSİLİN İDARƏ OLUNMASI

*Pirali Əliyev*
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN DİREKTORLARININ İDARƏETMƏ KOMPİTENSİYALARININ TƏKMİLLƏŞDİRİLMƏSİ ..... 99
*Şükür Qəribov*
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İDARƏ OLUNMASINDA PROQNOZLAŞDIRMA VƏ HESABATVERMƏ ..... 102
*Məmməd Kazımov*
TƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINDA İNTEQRATİV TƏLİMİN ROLU ..... 104
*Eldəniz Həsənli*
KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI İLƏ ƏHALİNİN MƏŞĞULLUQ SƏVİYYƏSİ ..... 106
ARASINDAKI ƏLAQƏ VƏ DÜNYA TƏCRÜBƏSİ ..... 106

*Afaq Əliyeva*
DİREKTORUN PEŞƏKAR BACARIQLARI MƏKTƏBİN İNKİŞAFINDA VACİB MEYARDIR ........ 108
*Azadə Əhmədova*
MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİNİN İDARƏ OLUNMASINDA SƏMƏRƏLİ TƏHSİL MODELLƏRİ ........ 110
*Müjkan Məmmədzadə*
PEDAQOJİ İDARƏETMƏ MƏDƏNİYYƏTİ ........ 113
*İlhamə Əsədova*
TƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİNDƏ ÖZÜNÜAUDİTİN ROLU ........ 115
*Aytən Güldost*
MÜASİR TƏLƏBLƏR SƏVİYYƏSİNDƏ MƏKTƏBƏ RƏHBƏRLİK ........ 116

## TƏHSİLDƏ İNNOVATİV TƏLİM METOADLARI VƏ TEXNOLOGİYALARININ TƏTBİQİ

*Абель Магеррамов, Насим Абышов, Ильгар Тагиев*
МНЕМОНИЧЕСКОЕ ЗАПОМИНАНИЕ УЧЕБНОГО МАТЕРИАЛА КАК ОДИН ИЗ ПРИЁМОВ ПОВЫШЕНИЯ ИНТЕРЕСА УЧАЩИХСЯ К ХИМИИ ........ 119
*Yaqub Məmmədov, Səminə Rüstəmova*
TƏHSİLDƏ İNTERNETDƏN İSTİFADƏYƏ MÜASİR YANAŞMALAR ........ 123
*Asif Hacıyev*
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ DƏRSLİKLƏRİNİN EKSPERTİZA MƏSƏLƏLƏRİ ........ 125
*Bilal Həsənli*
KURİKULUM ÜZRƏ ƏDƏBİYYAT DƏRSLİKLƏRİNİN TƏRTİBİNƏ YENİ YANAŞMANIN MAHİYYƏTİNƏ DAİR ........ 127
*Azad Novruzov*
RİYAZİYYAT MÜƏLLİMLİYİ HAZIRLIĞI İLƏ MƏŞĞUL OLAN ALİ MƏKTƏBLƏRDƏ TƏDRİS OLUNAN "RİYAZİ ANALİZ" KURSU İLƏ ORTA MƏKTƏBİN "CƏBR VƏ ANALİZİN BAŞLANĞICI" KURSU ARASINDA ƏLAQƏ MƏSƏLƏLƏRİ ........ 130
*Dilqəm Quliyev*
TƏHSİLDƏ MÜASİR TƏLİM METODLARI VƏ TƏLİM TEXNOLOQİYALARININ TƏTBİQİ YOLLARI ........ 131
*Xəzəngül Ramazanova*
BİLİKLƏRƏ YİYƏLƏNMƏYİN MÜHÜM ŞƏRTİ: ŞÜURLULUQ VƏ FƏALLILIQ ........ 133
*Asif Axundov, Rəna Quliyeva*
UŞAQ ANATOMİYASI, FİZİOLOGİYASI VƏ GİGİYENASI FƏNNİNİN KURİKULUMU VƏ ONUN XÜSUSİYYƏTLƏRİ ........ 135
*Afaq Qasımova*
ALİ MƏKTƏBDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ İKT-dən İSTİFADƏ TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN MÜHÜM VASİTƏSİDİR ........ 137
*Sevinc Kərimova*
YENİ PEDAQOJİ TƏFƏKKÜRÜN TƏLƏBİ – MÜƏLLİM-TƏLƏBƏ MÜNASİBƏTLƏRİ DÜZGÜN QURULMALIQIR! ........ 141
*Nərminə Məmmədova*
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TARİX FƏNNİNİN TƏDRİSİNDƏ AVADANLIQ VƏ TƏDRİS RESUSRLARINDAN İSTİFADƏYƏ MÜASİR YANAŞMA İSTİQAMƏTLƏRİ ........ 142
*Həsənəli Eyvazlı*
TƏLİMİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ PEŞƏ SEÇİMİNİN ROLU ........ 144
*Şəhla Əliyeva*
SOSİAL İNKİŞAF MƏKTƏBƏQƏDƏR TƏHSİLİN AKTUAL PROBLEMİ KİMİ ........ 146
*Tofiq Məmmədov*
TƏLİMDƏ STRATEJİ HƏDƏFLƏR VƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI TƏHSİLDƏ ........ 148



*Sahilə İbrahimova*
AZƏRBAYCAN DİLİNDƏ FONOSEMANTİKANIN ÖYRƏNİLMƏSİNDƏ MÜXTƏLİF METOD VƏ TEXNOLOGİYALARIN TƏTBİQİ ........ 150
*Məhbubə Əsgərova*
DİYARSÜNASLIQ MATERİALLARINDAN İSTİFADƏ ETMƏKLƏ III SİNİFDƏ HƏYAT BİLGİSİ FƏNNİNİN "KÜLƏK NECƏ YARANIR?" MÖVZUSUNUN TƏDRİSİ ........ 152
*Aynur Şahvələdova*
GƏNCLƏRİN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA İKT-nin ROLU ........ 154
*Etibar Məmmədov*
HELMİNT İNVAZİYALARININ YAYILMA XÜSUSİYYƏTLƏRİNİN TƏDRİSİNƏ DAİR ........ 155
*Elmin İmanov, Zəminə Abdullayeva*
MÜASİR DÖVRDƏ ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASININ AKTUAL PROBLEMLƏRİ ........ 157
*Aygün Zamanova*
MƏTN ÜZƏRİNDƏ İŞ LİNQVİSTİK BACARIQLARIN FORMALAŞMASI VASİTƏSİ KİMİ ........ 159
*Tamara Baxşəliyeva*
YENİ FƏNN KURİKULUMLARININ İBTİDAİ TƏLİMDƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ ........ 161
*Nərgiz Məmmədova*
ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞINA NAİL OLMAĞIN "AÇAR SÖZLƏR"dən İSTİFADƏ VASİTƏLƏRİ ........ 162
*Pəri Paşayeva*
YENİ TƏLİM METODLARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ ........ 164
*Zülfiyyə Salayeva*
ALİ MƏKTƏBLƏRDƏ EKOLOJİ TƏHSİLİN TƏKMİLLƏŞDİRİLMƏSİ ........ 167
*Səbinə İsmayılova*
BİOLOGİYANIN TƏDRİSİ –İNNOVATİV METODLAR ASPEKTİNDƏN ........ 168
*Dəyanət Musayev, Suğra Alıyeva*
TARİXİN TƏLİMİNDƏ ŞAGİRDLƏRDƏ TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASININ NƏZƏRİ ƏSASLARI ........ 171
*Sevinc Vəliyeva*
AZƏRBAYCAN DİLİ DƏRSİNDƏ TƏDRİS OLUNAN MƏTNLƏRİN ........ 173
ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏ OLUNMASINDA ........ 173
VƏ ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA ROLU ........ 173
*Cabir Tarıverdiyev*
RİYAZİYYAT DƏRSLƏRİNDƏ İNNOVATİV TƏLİM METODLARINDAN İSTİFADƏ İMKANLARI ........ 175
*Zərövşən Babayeva*
YENİ TƏLİM TEXNOLOGIYALARININ TƏDRİSDƏ TƏTBİQİ PROBLEMİ: MƏKTƏB TƏSRÜBƏSİ, ALINAN NƏTİCƏLƏR ........ 177
*Sevinc Mehdiyeva*
BİOLOGİYANIN TƏDRİSİNDƏ FƏNDAXİLİ İNTEQRASİYA VƏ VARİSLİYİN TƏMİN OLUNMASI ........ 180
*Samirə Paşiyeva*
TƏHSİLİN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ: İZAHLI LÜĞƏTLƏRDƏ İŞLƏNƏN ARXAİK KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ ........ 182
*Rəcəb Ağayev*
"DÜŞÜNÜRƏM, DEMƏLİ - VARAM" ........ 184
*Almarə Abbasova*
MÜASİR HƏNDƏSƏ DƏRSİNDƏ ŞAGİRDLƏRİN İDRAK MARAQLARININ İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARI ........ 186
*Könül Mollayeva*
TARİX DƏRSLƏRİNDƏ TƏDQİQATÇILIQ BACARIQLARININ FORMALAŞDIRILMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNDƏN İSTİFADƏNİN ROLU ........ 189
*Şəhla Mirzəyeva*
ƏNƏNƏVİ TƏLİMDƏN FƏAL TƏLİMƏ DOĞRU ........ 191
*Təranə Mirzəyeva*
SMART EDUCATION - KREATİV TƏLİM FORMASINA KEÇİDİN TƏMİNATÇISIDIR ........ 193

*Günel Seyidova*
DƏRSLİK KONSEPSİYASININ TƏTBİQİ TƏHSİL QURUCULUĞUNUN MÜHÜM HƏDƏFLƏRİNDƏN BİRİ KİMİ ........ 196

## TƏRBİYƏ TEXNOLOGİYALARI

*Akif Abbasov*
VALİDEYNLƏRİN VƏ MÜƏLLİMLƏRİN MÜHÜM VƏZİFƏSİ: BÖYÜYƏN NƏSLİN AİLƏ HƏYATINA HAZIRLANMASI ........ 198
*Fərahim Sadıqov*
MUĞAM FOLKLORU VƏ ONUN ELMİ-PEDAQOJİ, PSİXOLOJİ ƏSASLARI ........ 204
*Müseyib İlyasov*
MÜASİR AZƏRBAYCANDA TƏRBİYƏ KONSEPSİYASI ........ 207
*Çapay Quliyev*
MİLLİ MƏNLİK ŞÜURU ANLAYIŞININ MAHİYYƏTİ VƏ ONUN AŞILANMASI PSİXOLOGİYASI ........ 209
*Emilya Hüseynova*
FƏAL MÖVQE – ŞAGİRDLƏRİN FƏAL VƏTƏNDAŞ MÖVQEYİ QAZANMASINDA MÜHÜM AMİL KİMİ ........ 211
*İradə Əmirəliyeva*
PEDAQOJİ TƏMAYÜLLÜ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNDƏ TOLERANTLIĞIN TƏRBİYƏ OLUNMASI MÜASİR DÖVRÜN MÜHÜM TƏLƏBİ KİMİ ........ 212
*Ayaz Qasımov*
DAVRANIŞ VƏ ÜNSİYYƏT TƏRBİYƏSİ ........ 214
*Rəsul Əliyev*
TƏHSİL PROSESİNDƏ YENİ TƏRBİYƏ TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ZƏRURİLİYİ ........ 215
*Tahirə Hüseynova*
KİÇİK YAŞLI UŞAQLARIN MƏNƏVİ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASINDA OYUNLARIN ROLU ........ 217
*Firidə Müstafayeva*
ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR ........ 218
*Şəhla Süleymanova*
NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNDƏ HÜNƏR, CƏSARƏT, MƏRDLİK TƏRBİYƏSİ ÜZRƏ APARILAN İŞLƏRİN ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ ........ 220
*Kifayət Əhmədova*
GƏNC AİLƏLƏRDƏ UŞAQLARIN TƏRBİYƏSİ ........ 222
*Cem Söker*
"MUĞAN XAN" ƏFSANƏSİ AZƏRBAYCAN VƏ TÜRK FOLKLORUNUN DƏYƏRLİ QAYNAQLARINDAN BİRİ KİMİ ........ 223
*Lətifə Məcidova*
KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNDƏ AİLƏNİN ROLU ........ 225
*Məlahət Babayeva*
İLKİN DƏRSLİKLƏRİMİZDƏ AZƏRBAYCANÇILIQ PRİNSİPİNİN TƏTBİQİ (FOLKLOR NÜMUNƏLƏRİ ƏSASINDA) ........ 227
*Xatirə Vəliyeva*
TƏLİM VƏ TƏLİMDƏNKƏNAR VAXTLARDA MİLLİLİK PRİNSİPİNİN HƏYATA KEÇİRİLMƏSİ YOLLARI ........ 228
*Firuzə İskəndərova*
MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ ÜZRƏ İŞLƏ BAĞLI PEDAQOJİ VƏ PSİXOLOJİ ƏDƏBİYYATIN TƏHLİLİ ........ 230
*Rönət Süleymanov*
MUSİQİ MƏKTƏBLƏRİNDƏ TAR İXTİSASI ÜZRƏ MUĞAM TƏDRİSİ METODİKASI ........ 232
*Süleyman Hüseynov, Elvira Qaracayeva*
AZƏRBAYCAN İDEOLOGİYASININ GƏNC NƏSLƏ AŞILANMASI VASİTƏLƏRİ ........ 233



*Şəfəq Fazilova*
ŞAGİRD TƏFƏKKÜRÜNÜN FORMALAŞDIRILMASI PROBLEMLƏRİ ........ 235
*Elnarə İsmayılova*
GƏNC NƏSLİN TƏRBİYƏ EDİLMƏSİNDƏ AİLƏNİN ROLU ........ 237
*Arif İbragimov, Sabir Elçiev*
ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA SAĞLAM HƏYAT TƏRZİNİN VƏ FİZİKİ TƏRBİYƏNİN QARŞILIQLI ƏLAQƏSİ ........ 238
*Məhəmməd Əsgərov, Lütfiq Cəfərob, Zaur Hacıyev,*
FİZİKİ TƏRBİYƏ PROSESİNDƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN FORMALAŞMASINDA OLAN ƏSAS PROBLEMLƏR ........ 240
*Mətanət Abbasova*
TƏHSİLALANLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI ........ 242
*Hicran Şərifov*
XARİCİ ÖLKƏ TƏCRÜBƏSİNDƏ UŞAQ-GƏNCLƏR İDMAN- FİZİKİ TƏRBİYƏ HƏRƏKATI ........ 243

## PSİXOLOGİYA, KORREKSİYA PEDAQOGİKASI, İNKLÜZİV TƏHSİL

*Davut İbrahimoğlu*
ÖĞRENCI BAŞARISINDA ÖĞRETMENIN ETKILERI ........ 246
*Ramiz Əliyev*
MÜASİR DÖVRDƏ PSİXOLOGİYA ELMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ ........ 255
*Gültac Əliyeva*
PEDOLOGİYA ELMİNİN LƏĞV OLUNMASININ SOSİAL-PSİXOLOJİ TƏHLİLİ ........ 257
*Ləzifə Qasımova*
PEDAQOJİ ÜNSİYYƏT VƏ ONUN SOSİAL-PSİXOLOJİ MEXANİZMİ ........ 259
*Limunət Əmrahlı*
İKT-dən İSTİFADƏ ZAMANI KOQNİTİV FƏALİYYƏTİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR ........ 261
*Mehmet Önemli*
STUTTERING AT SCHOOL ........ 264
*Qulam Əzimli*
MÜASİR DÖVRDƏ ANOMAL UŞAQLARIN TƏLİM-TƏRBİYƏ İŞİNƏ CƏLB EDİLMƏSİ HAQQINDA FİKİRLƏR ........ 268
*Akif Quliyev*
TƏLƏBƏ GƏNCLƏRDƏ SOSİAL MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASININ PSİXOLOJİ MƏSƏLƏLƏRİ ........ 269
*Solmaz Həsənli*
SOSİAL FOBİYALI UŞAQLARIN DAVRANIŞ XÜSUSİYYƏTLƏRİ ........ 270
*Dilarə Dostuzadə*
EŞİTMƏSİ QÜSURLU MƏKTƏBLİLƏRİN TƏLİM PROSESİNDƏ İNKİŞAF ETDİRİLMƏSİ ........ 272
*Sevinc Orucova*
İCTİMAİ FƏALLIĞIN ELMİ-NƏZƏRİ TƏDQİQİ ........ 273
*Elmira Kərimova*
İNKLÜZİV TƏHSİL SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏHSİLİNİN MÜASİR MODELİ KİMİ ........ 275
*Tünzalə Əliyeva*
KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN YARADICILIQ QABİLİYYƏTLƏRİNİN XARAKTERİSTİKASINA DAİR ........ 277
*Nurəngiz Rzayeva*
AZƏRBAYCAN GÜZƏRAN PSİXOLOGİYASINDA DƏYƏRLƏR VƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ONLARIN ROLU ........ 278
*Nailə Hüseynova*
MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKLÜZİV TƏHSİLİN TƏŞKİLİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ KADR TƏMİNATI ........ 280

*Лала Иманова*
ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ КАК ПРИОРИТЕТ ОБРАЗОВАТЕЛЬНОЙ СИСТЕМЫ ... 282
*Reyhan Əhmədova*
MƏKTƏB PSİXOLOQUNUN FƏALİYYƏTİNİN MOTİVASİYA STRUKTURU ... 284
*Ayna Hacıyeva*
TƏLƏBƏLƏRİN ŞƏXSİYYƏTİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ ... 285
*Şəhla Kazımbəyli*
MİLLİ XARAKTERİN FORMALAŞMASINA TƏSİR EDƏN SOSİAL PSİXOLOJİ AMİLLƏR ... 287
*Aidə Nəbiyeva*
AUTİZMLİ UŞAQLARIN AİLƏLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ ... 289
*Hüseyn Mirzəyev*
TƏLİM PROSESİNDƏ YARANA BİLƏN EMOSİONAL MÜHİTƏ MÜNASİBƏTDƏ MÜƏLLİM OBRAZI ... 291
*Turanə Hüseynova*
TEMPERAMENT TİPLƏRİNİN XÜSUSİYYƏTLƏRİ VƏ PEDAQOJİ PROSESƏ ONUN TƏSİRİ ... 292
*Ofeliya Əlizadə*
DAVRANIŞ VƏ SOSİAL REFLEKSİYANIN QARŞILIQLI ƏLAQƏSİ ... 294
*Arzu Babayeva*
PEDAQOJİ PROSESDƏ ÜNSİYYƏTİN ROLU ... 296
*Cavid Əliyev*
KOLLEKTİVDƏ MÜNAQİŞƏNİN YARANMASININ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ ... 297
*Günay Axundova*
DİQQƏTİN PSİXOLOJİ QURULUŞU VƏ PSİXİ FƏALİYYƏTİN İDARƏ OLUNMASININ PSİXOPEDAQOJİ XÜSUSİYYƏTLƏRİ ... 299
*Aynur Vəliyeva*
ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASINDA İNKLÜZİV TƏHSİLİN ROLU ... 301
*Гюнель Ахмедова*
ПРОБЛЕМЫ РОДИТЕЛЕЙ ВОСПИТЫВАЮЩИХ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ ... 303
*Kifayət Əhmədova*
AİLƏDƏ QARŞILIQLI MÜNASİBƏTLƏR VƏ UŞAQLARIN PSİXİ İNKİŞAFINA ONUN TƏSİRİ ... 304

## RƏQABƏTƏQABİLİYYƏTLİ PEDAQOJİ KADR HAZIRLIĞININ AKTUAL PROBLEMLƏRİ

*Heydər Cəfərov*
MÜASİR MÜƏLLİMİN VALEOLOJİ KOMPETENSİYALARI ... 306
*Xalidə Talıbova*
MÜƏLLİMLƏRİN PEŞƏKARLIQ SƏVİYYƏSİNƏ QOYULAN MÜASİR TƏLƏBLƏR ... 308
*Fərmayıl Əsgərov*
YUXARI SİNİFLƏRDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ VƏ PEDAQOJİ ASPEKTLƏRİ ... 310
*Vüsal Qasımov*
MÜƏLLİMLƏRİN PEŞƏKAR İNKİŞAFINDA İKT- nin TƏTBİQİNİN ƏHƏMİYYƏTİ ... 311
*Yaqut Əzimzadə*
SƏRİŞTƏLİ MÜƏLLİM KADRLARININ HAZIRLIĞI TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN AMİLİ KİMİ ... 313
*İsmət Məmmədova, Zeynəb Hüseynova*
MÜƏLLİM ŞƏXSİYYƏTİ VƏ ONA VERİLƏN TƏLƏBLƏR TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİNİN ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ ... 315
*Leyla Həsənova*
MÜƏLLİM KADRLARININ HAZIRLIĞINDA PEDAQOJİ TƏCRÜBƏNİN ROLU ... 316



*Aygün Məmmədova*
ABŞ-da AZƏRBAYCAN LOBBİSİNİN FORMALAŞMASI ... 318
*P. Səfərov, Afaq Abdullayeva*
I DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ RUS-ERMƏNİ HƏRBİ-SİYASİ BİRLİYİNİN YARADILMASI ... 320
*Rahim Sadıqov*
SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ İDARƏETMƏNİN MODERNLƏŞDİRİLMƏSİNİ ZƏRURİ EDƏN ŞƏRTLƏR ... 323
*Təranə Mövsümova*
TƏHSİLALANLARIN ÜRƏK XƏSTƏLİKLƏRİNƏ QARŞI MÜBARİZƏ AMİLLƏRİ VƏ ONLARIN, ELMİ-PEDAQOJİ-FİZOLOJİ ƏSASLARI ... 325
*Qızıltac Şahbazova*
İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRİN TƏRBİYƏSİNDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN ROLU ... 326
*Vüsalə İsmayılova*
TƏHSİL PROSESİNDƏ ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PRİORİTET MƏSƏLƏLƏRİ ... 328
*Salatın Hacıyeva*
QRAFOLOGİYANIN QISA İNKİŞAF TARİXİ ... 330
*Südabə Məmmədova*
MÜASİR DÖVR ÜÇÜN XÜSUSİ İSTEDADLAR ÇOX ÖNƏMLİDİRLƏR ... 332
*Zeynab Zeynalova*
MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN HƏYATINDA DİDAKTİK OYUNLARIN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ ... 334
*Günay Şirəliyeva*
UŞAQLARIN ƏXLAQI MILLI MƏNƏVI ŞÜURUNUN FORMALAŞDIRILMASI YOLLARI ... 336
*Tünzalə Əliyeva*
KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN YARADICILIQ QABİLİYYƏTLƏRİNİN XARAKTERİSTİKASINA DAİR ... 338

## MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ

*Vahid Rzayev*
MUXTARİYYAT ƏRƏFƏSİ VƏ MUXTARİYYATIN İLK İLLƏRİNDƏ NAXÇIVANDA MƏKTƏB TƏHSİLİNİN VƏZİYYƏTİNƏ DAİR ... 340
*Kamal Camalov*
MOLLANƏSRƏDDİNÇİ PEDAQOQLARIN İCTİMAİ, İDEYA-SİYASİ GÖRÜŞLƏRİNƏ BİR NƏZƏR ... 342
*Vəfa Həsənova*
RƏŞİD BƏY ƏFƏNDİYEV ÜMUMİ TƏHSİL, MƏKTƏB VƏ TƏLİM MƏSƏLƏLƏRİ HAQQINDA ... 344
*Könül Həsənquliyeva*
MÜASİR DÖVRDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA YUSIF VƏZIR ÇƏMƏNZƏMİNLİ İRSİNDƏ AİLƏNİN ETNOPSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ ... 346
*Gülmira Hacıyeva*
MAARİF FƏDAİSİ ƏLİQULU QƏMKÜSAR ... 348
*Саида Пашаева*
ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА В ПРОСВЕТИТЕЛЬСКОМ ДВИЖЕНИИ АЗЕРБАЙДЖАНА КОНЦА XIX – НАЧАЛА XX ВЕКА ... 349
*Mehparə Əhmədova*
MƏMMƏD ARAZIN "ATAMIN KİTABI" POEMASINDA MƏNƏVİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ ... 351
*Muhammed Ali Altunkaynak*
FİNLANDİYA OGRETMEN YETİSTİRME PROGRAMI VE AZERBAYCANDA NİTELİKLİ OGRETMEN YETİSTİREBİLMEK İCİN YAPILMASI GEREKENLER ... 352

*Simnarə Heydərova*
AZƏRBAYCAN FOLKLORUNDA MƏNƏVİ-PSİXOLOJİ, ETİK ƏXLAQİ MƏSƏLƏLƏRİN ƏKSİ ....................356
*Aygün Orucova*
CƏLİL MƏMMƏDQULUZADƏ ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASININ ƏSAS PROBLEMLƏRİ BARƏDƏ ....................357
*Aybəniz Məmmədova*
MÜHACİRƏT ƏDƏBİ-NƏZƏRİ FİKİR VƏ MƏMMƏD SADIQ ARAN ....................359
*Sevda İsgəndərova*
AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMLARLA YENİYETMƏLƏRİN TANIŞ EDİLMƏSİ TƏCRÜBƏSİNDƏN ....................361





# MÜASİR DÖVRDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA MƏKTƏBDƏNKƏNAR TƏLİM VƏ TƏRBİYƏNİN ROLU

**Firudin Qurbanov,**
*Azərbaycan Respublikası Təhsil nazirinin müavini*
*iqtisadiyyat üzrə fəlsəfə doktoru*
E-mail: firudin.qurbanov@edu.gov.az

Şəxsiyyətin inkişafı pedaqoji prosesin tərkib hissəsi olaraq tərbiyə, təhsil və təlimin vəhdətindən ibarətdir. Pedaqoji prosesin bu tərkib hissələri bir-birindən ayrılıqda yox, bir-biri ilə əlaqəli şəkildə inkişaf etdirildikdə səmərəli nəticə verə bilər.

Bu baxımdan məktəbdənkənar təhsil uşaq, yeniyetmə və gənclərin maraq, meyil və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların istirahətinin, asudə vaxtlarının mənalı təşkilini təmin edir. Məktəbdənkənar təlim-tərbiyə könüllülük əsasında qurulur, ailə, təhsil müəssisələri, ictimai təşkilatlar, yaradıcılıq birlikləri, cəmiyyətlər, fondlar, əmək kollektivləri ilə birlikdə, həmçinin ayrı-ayrı vətəndaşların köməyi ilə aparılır.

Azərbaycanda məktəbdənkənar təhsil müəssisələri şəbəkəsinə uşaq-gənclər yaradıcılıq sarayları və ya evləri, klublar, bədii, estetik, texniki, ekoloji, turizm və diyarşünaslıq yönümlü mərkəzlər, uşaq-gənclər idman və şahmat məktəbləri daxildir. Məktəbdənkənar təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Dərnək məşğələləri;
2. Mədəni-kütləvi tədbirlərin, müsabiqələrin, idman yarışlarının keçirilməsi;
3. Təlimati-metodik işlər.

Məktəbdənkənar təhsil müəssisələrində məşğul olan uşaq, yeniyetmə və gənclərlə istirahət, bayram və tətil günlərində də iş aparılır.

Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində 368 məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Həmin müəssisələrə 165 406 şagird cəlb edilib. Onların təlim-tərbiyəsi ilə 6 071 pedaqoji işçi məşğul olur.

Hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində 82 Uşaq Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə 2 912 qrupda 41 159 uşaq məşğul olur və 1 571 pedaqoji işçi çalışır.

Uşaq Yaradıcılıq Mərkəzlərində əsasən «Bacarıqlı əllər», «Bədii qiraət», «Rəsm», «Xalçaçılıq», «Dram», «Bədii özfəaliyyət», «Məktəb teatrı», «Rəqs», «Gənc idmançılar», «Naxışlı tikmə», «Texniki estetika», «Fortepiano», «Xor», «Nağara», «Tar», «Heykəltəraşlıq», «Kukla teatrı», «Coğrafiya-diyarşünaslıq», «Foto», «Ağac üzərində oyma», «Qarmon», «İbtidai texniki modelçilik», «Dəmir üzərində döymə», «Tarix-diyarşünaslıq» və s. adlarda dərnəklər təşkil olunur.

Uşaq yaradıcılıq mərkəzlərində bütün təqvim ili ərzində dərnək üzvləri ilə müxtəlif mədəni-kütləvi tədbirlər, idman yarışları, müsabiqələr, sərgilər, bayram şənlikləri, ekskursiyalar keçirilir, onların respublika və beynəlxalq səviyyəli tədbirlərdə iştirakı təmin olunur. Bu müəssisələrin bir çoxunda «Sağlam həyat tərzi», «Etika qaydaları», yuxarı sinif şagirdləri ilə «Reproduktiv sağlamlığın əsasları» mövzularında təlim kursları, məşğələ və seminarlar təşkil edilir, narkomaniya, alkoqolizm, AİDS, tütünlə mübarizə və s. mövzularda geniş maarifləndirmə işləri aparılır, çoxsaylı tədbirlər keçirilir.

Respublikamızda 59 Texniki Yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərin 1 819 qrupunda 23 865 uşaq məşğul olur və 1 041 pedaqoji işçi çalışır.

Texniki yaradıcılıq mərkəzlərində əsasən «İbtidai texniki modelçilik», «Radioelektronika», «Elektrotexnika», «Bacarıqlı əllər», «İnformatika», «Texniki estetika», «Əyləncəli fizika»,

«Texniki ekologiya», «Gənc konstruktorlar», «Gəmi», «Avto», «Raket», «Təyyarə» modelçiliyi, «Robot texnikası», «Kimya – texnologiya» və s. adlarda dərnəklər fəaliyyət göstərir.

Texniki yaradıcılıq mərkəzlərinə cəlb olunan uşaq, yeniyetmə və gənclərin texniki yaradıcılıq potensialları inkişaf etdirilir, onlar erkən yaşlarından səmərələşdiricilik və ixtiraçılıq işlərinə cəlb olunurlar. Bu müəssisələrdə məşğul olan məktəblilər ümumtəhsil məktəblərində fizika, kimya, riyaziyyat, informatika, astronomiya dərslərində aldıqları nəzəri bilikləri konstruktiv fəaliyyətləri zamanı daha yaxşı mənimsəyirlər.

Texniki yaradıcılıq mərkəzlərində bütün təqvim ili ərzində dərnək üzvləri ilə müxtəlif mədəni-kütləvi tədbirlər, elmi-texniki yaradıcılıq müsabiqələri, sərgilər, texniki idman yarışları, ekskursiyalar keçirilir, onların respublika və beynəlxalq səviyyəli tədbirlərdə iştirakları təmin olunur.

Respublikada mövcud olan 4 Məktəbdənkənar Tərbiyə İşi Mərkəzinin 319 qrupunda 3 945 uşaq məşğul olur və 100 pedaqoji işçi çalışır. Bu mərkəzlərdə əsasən «Bədii qiraət», «Debat» klubu», «Rəsm studiyası», «Uşaq parlamenti», «İnformatika», «Elektrotexnika», «Kimya texnologiya», «Tarix-diyarşünaslıq», «Fortepiano», «Texniki estetika» və digər dərnəklər təşkil olunur.

Respublikamızda 10 Gənc Turistlər və Diyarşünaslıq Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərin 613 qrupunda 8 813 şagird məşğul olur və 214 pedaqoji işçi çalışır. Gənc turistlər və diyarşünaslıq mərkəzləri öz işini əsasən aşağıdakı istiqamətlər üzrə qurur:

1. Bizim irs;
2. İncəsənət aləmində;
3. Azərbaycan beynəlxalq aləmdə;
4. Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə;
5. Azərbaycanın tikintiləri üzrə yürüşlərdə;
6. Təbiətin sirlərinə doğru;
7. Kütləvilikdən turizm ustalığınadək.

Bu bölmələrdə aparılan işlərin əsas məqsədi tariximizi, soy-kökümüzü, mədəniyyət, ədəbiyyat və incəsənətimizi gənc nəslə öyrətmək, vətənimizin flora və faunası haqqında onlara bilik vermək, tarixi abidələrimizi qorumaq, vətənə məhəbbət hissi aşılamaqdır.

Gənc turistlər və diyarşünaslıq mərkəzləri respublikamızın tarixini, flora və faunasını, mədəniyyət abidələrini şagird və tələbələrə tanıtmaq, onlara sevdirmək məqsədilə ekskursiya, yürüş və gəzintilər təşkil edir, şagirdlərə milli dəyərlərimizin qorunması, torpağa sevgi, vətənə məhəbbət hissinin aşılanması istiqamətində mütəmadi iş aparır.

Təhsil Nazirliyi sistemində 161 uşaq-gənclər idman və şahmat məktəbi mövcuddur. Məktəblər uşaq və gənclər arasında yarışlar keçirir, respublika və beynəlxalq səviyyəli yarışlarda iştirak edir. UGİM-lərdə Olimpiya idman növləri (atletika, ağır atletika, akrobatika, boks, badminton, baydarka və kanoe, basketbol, bədii gimnastika, idman gimnastikası, üzgüçülük, velosiped idmanı, voleybol, futbol, həndbol, otüstü xokkey, qılıncoynatma, sərbəst güləş, yunan-roma güləşi, cüdo, sambo, taekvando, karate, kinkboksinq, stolüstü tennis, tennis, şahmat, dama) inkişaf etdirilir. İdmanın bu növləri üzrə 2 319 nəfər məşqçi-müəllim işləyir. Qeyd olunan idman növləri üzrə 5 578 qrupda 64 681 nəfər uşaq və gənc idmanla məşğul olur.

Təhsil Nazirliyi tərəfindən ölkədə ekoloji təhsil və maarifləndirmə prosesinin fasiləsizliyi, ekoloji biliklərin təbliğ edilməsi sahəsində məqsədyönlü işlər aparılır. Ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin fəaliyyəti gənc nəsildə erkən yaşlarından ekoloji təfəkkürün, mədəniyyətin, ətraf mühitə məsuliyyətli və humanist münasibətin formalaşması baxımından əhəmiyyətlidir. Uşaq və yeniyetmələrin asudə vaxtının səmərəli təşkili, əməli bacarıq və vərdişlərə yiyələnməsi, onların mənəvi və intellektual inkişafı, potensial yaradıcılıq istedadlarının aşkara çıxarılması, elmi tədqiqatçılıq qabiliyyətlərinin formalaşdırılması ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin əsas vəzifələrindəndir.

Ekoloji tərbiyə və təcrübəçilik mərkəzlərinin kompleks fəaliyyət proqramı ekoloji dərnəklərin fəaliyyətini, məktəblilərin asudə vaxtlarının səmərəli təşkilini, onların təbiətsevərlik, təbii sərvətlərə



qayğı və vətənpərvərlik ruhunda tərbiyəsini, ekoloji kütləvi tədbirlərin keçirilməsini, ekskursiya və ekspedisiyaların təşkilini və digər məsələləri əhatə edir.

Hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində 48 ekoloji tərbiyə və təcrübəçilik mərkəzi fəaliyyət göstərir. Bu mərkəzlərdə fəaliyyət göstərən 1 341 dərnəkdə 19 748 məktəbli ekologiyaya və ətraf mühitə aid biliklərə yiyələnirlər. Onlar ekoloji problemlərin yaranma səbəblərini öyrənir, onların həlli yollarını arayır, müstəqil mühakimə yürütmək baxımından və ətraf mühitin mühafizəsində əməli bacarıqlar əldə edirlər.

Həmçinin, Estetik Tərbiyə Mərkəzləri və Uşaq-Gənclər Fiziki Hazırlıq Klubuna cəlb olunmuş uşaqların sayı da durmadan artmaqdadır.

Təhsil alan uşaq və gənclərin vətənpərvərlik və dövlətçilik ruhunda tərbiyəsinin təşkili də prioritet məsələlərdəndir. İlkin hərbi bilik, bacarıq və vərdişlərin gənclərin inkişafına böyük təsiri olur. Bu məqsədlə məktəblərdə ənənəvi olaraq "Cəsurlar", "Şahin", "Sərhəd" hərbi-idman və turizm respublika oyunları keçirilir. Təhsil Nazirliyinin Gənclər və İdman Nazirliyi, Müdafiə Nazirliyi və Dövlət Sərhəd Xidməti ilə birgə həyata keçirdiyi belə tədbirlərə məktəblərdə böyük maraq yaranıb.

Uşaqların tərbiyəsində ailənin əsas rol oynadığı nəzərə alınaraq 2009-cu ildə BMT, UNİSEF, İnsan Hüquqları üzrə Müvəkkilliklə birgə ailə tərbiyəsi sahəsində fəaliyyət planı hazırlanıb və müvəffəqiyyətlə yerinə yetirilib.

Fiziki tərbiyə və idman dövlət üçün mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Məhz bunun nəticəsidir ki, Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin Respublikaya rəhbərlik etdiyi dövrlərdə ölkədə bədən tərbiyəsi və idmanın inkişafına xüsusi dövlət qayğısı göstərilib. Hazırda Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının fəaliyyətində bu sistem prioritet sahələrdən birini təşkil etməkdədir.

Qazanılan uğurlara, görülən təsirli tədbirlərə baxmayaraq, şagird şəxsiyyətinin formalaşmasında, layiqli vətəndaş kimi yetişməsində məktəbdənkənar və sinifdənxaric tərbiyə işlərinin əhəmiyyətini nəzərdən qaçırmamalıyıq. Gələcəyimiz olan gənclər mənəvi dəyərlərimiz əsasında formalaşmalı və humanist düşüncə tərzinə malik şəxsiyyət kimi yetişməlidirlər. Bu baxımdan məktəbdənkənar tədbirlərin keçirilməsi şagirdlərin əməksevər, vətənpərvər, hərtərəfli hazırlıqlı, mədəni, əxlaqlı və nəzakətli olmalarına, onların intellektual səviyyələrinin artmasına təsir edən ən vacib amillərdən biridir.

## MÜASİR MƏKTƏB, SOSİAL ÇAĞIRIŞLAR VƏ MÜƏLLİMLİK MİSSİYASI

**Qulu Novruzov,**
*Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru*
E-mail: gnovruzov@edu.gov.az

***Açar sözlər**: təhsildə əxlaqi-mənəvi dəyərlər, humanist pedaqogika, şəxsiyyətin formalaşması, müəllimlərin peşəkarlığı, təhsilin cəmiyyətdə rolu*
***Ключевые слова**: нравственно-духовные ценности в образовании, гуманистическая педагогика, формирование личности, педагогические компетентности, роль образования в обществе*
***Keywords**: moral and spiritual values in education, humanistic pedagogy, formation of personality, pedagogical competence, the role of education in society*

Azərbaycanın təhsil islahatları tarixi üçün əhəmiyyətli bir dövr yaşayırıq. Bu ilin yanvar ayında "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası ilə bağlı Fəaliyyət Planı təsdiq oundu. Təhsil nazirinin 29 mart 2015-ci il tarixli əmri ilə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının icrası üzrə Təhsil Nazirliyinin 2015-ci il üçün Tədbirlər Planı təsdiq olundu.

Dövlət Strategiyasında, eləcə də onun icrasını təmin etmək məqsədilə təsdiq olunmuş qeyd

olunan sənədlərdə əks olunmuş tədbirlərin sayı, həcmi və icra müddətləri təhsilin hər bir pillə və səviyyəsini əhatə edən, ciddi islahat mərhələsinə qədəm qoyduğumuzu deməyə əsas verir. Qarşıda təhsilin məzmunu, idarə olunması, təlim texnologiyaları, müəllimlərin peşəkarlıq səviyyəsi ilə bağlı çoxsaylı, həm də əhəmiyyətli tədbirlərin həyata keçirilməsi gözlənilir. Bütövlükdə bu islahat prosesi həm də son onillikdə Azərbaycanda aparılan təhsil islahatlarının qarşıya qoyduğu, lakin tam reallaşmasında tam uğur əldə olunmayan bəzi hədəflərin fəth olunması üçün şansdır.

Bu gün dünyada gedən qlobal və dinamik sosial-iqtisadi inkişafın təsiri ilə təhsili roluna və əhəmiyyətinə fərqli yanaşma zərurətini ortaya qoyur. Təhsil sektorunda aparılan islahatların nəzərə alınmalı ən vacib xüsusiyyəti sosial fəaliyyət sferası kimi təhsilin cəmiyyətin düşüncə və davranışına, eləcə də mövcud dəyərlərə təsir imkanları ilə bağlıdır. Demək, qloballaşma və beynəlxalq inteqrasiyanın qaçılmaz təsiri altında cəmiyyətimiz üçün heç də qoşma olmayan yeni dəyərlərin ayaq açması ilə üz-üzə qalırıq. Belə şəraitdə formalaşan yeni nəslin "itki vermədən" yad dəyərlər, yaxud dəyərsizlik burulğanından çıxarmaq həm cəmiyyət, həm də dövlət üçün əlahiddə əhəmiyyət daşıyır.

Qeyd olunanlar baxımından məktəbin və müəllimin missiyası üzərində dayanmağı lazım biliram. Uşaqların və gənclərin həyata hazırlığı üzrə məktəbdən başqa digər kütləvi sosial təsisatlar yoxdur. Məktəb isə əsasən uşaqlara bilik verməklə məşğuldur. Dərslər, ev tapşırıqları, qiymətləndirmələr, hazırlıqlar, testlər, ballar, məktəb birincisi, rayon birincisi və s. Təhsil alanları ictimai münasibətlərə, müasir əməyə, ailə həyatına, dəyərlərə sahib olmağa, maddi resurslardan rasional istifadəyə hazırlamaq missiyası bu günün məktəbi üçün daha ciddi xarakter almalıdır. Ola bilsin ki, yüz il əvvəllər məktəb şagirdlərə yalnız bilik verməklə kifayətlənə bilərdi, onilliklər əvvəl bilikdən əlavə uşaqlarda bacarıqların və dəyərlərin formalaşmasına, müsbət sosial vərdişlərin yaranmasına ciddi əhəmiyyət verməsin, ola bilsin ki...

Lakin yüksək texnologiyaların, virtual məkanın mobil kommunikasiya qurğularının həyatımızın ayrılmaz hissəsi olduğu bu dövrdə kollektiv ünsiyyətin olduğu unikal məkan kimi məktəbin fərqli missiyası ortaya çıxır. Bu məktəbin akademik fəaliyyəti də daxil olmaqla resurslarının ailə, cəmiyyət, xalq, dövlət üçün faydalı, hərtərəfli formalaşmış nəsil yetişdirmək missiyasıdır.

Təhsilin məqsədi uşaqların hərtərəfli və tam inkişafını təmin etməkdir. Təhsil prosesində yalnız uşağa şəxsiyyətinin fiziki intelektual aspektləri inkişaf etdirməli deyil, həm də uşağın yüksək əxlaqi-mənəvi təbiətini açılmalıdır. Müasir cəmiyyətin sosial, iqtisadi və siyasi stabilliyi və inkişafı üçün göstərilən keyfiyyətlərə malik şəxsiyyətlər ən qiymətli resurs və mühüm şərtdir. Ona görə də təhsilin məqsədləri və prioritetlərinə xüsusi diqqət yetirilməlidir. Bilik imtahanlarında yüksək nəticələr göstərən şagirdlərin praktik həyatda da eyni uğurları təkrarlaya bilməməsinə dair nümunələr hər birimizə məlumdur. İmtahanlardan sonrakı həyatda insanlar üçün daha vacib olan nədir - imtahan nəticələri, yoxsa insani keyfiyyətlər? Bu sual ətrafında düşünmək təhsilin aşağıdakı iki aspektinin harmonik inkaşafının mütləq şərtini ortaya qoyur:

- intelektual - bilik üçün təhsil
- əxlaqi-mənəvi - insani keyfiyyətlər üçün təhsil

Təlim prosesində bu aspektlərin balansı təmin olunarsa, məktəb hərtərəfli harmonik inkişaf etmiş insan yetişdirmək kimi müqəddəs vəzifəsini yerinə yetirmiş olar.

Bu gün müəllimin və məktəbin nə etməli olduğu barədə dünyada saysız-hesabsız tədqiqatlar aparılır, təhsilin səmərəliliyinin artırılması və keyfiyyətin təmin olunması üçün tövsiyə və təkliflərlə dolu geniş çeşiddə elektron və çap məhsulları zəngin pedaqoji resurslar baza süni daha da zənginləşdirir. Belə bir şəraitdə dərs planlaşdırmasının, təlim texnologiyalarının, sinif təşkilinin, məktəb idarə etməsinin, ümumilikdə tədris prosesinin "ideal variantını" müəyyən etmək cəhdi heç də ciddi görünmür.

Hələ 2000-ci ildə ABŞ təhsil tədqiqatçısı Veyd Karpenter ötən on il ərzində məktəb təliminə dair müxtəlif resurslarda təklif olunan 361 "yaxşı ideya" qeydə aldığını yazırdı. Lakin bu ideyaların tətbiqindən əldə olunan nəticələrin də adekvat məhsuldarlığı müşahidə olunmamışdır. Bu aşağıdakı kimi izah oluna bilər. "Yaxşı ideya"lar ya tətbiq olunmaq üçün real mexanizmə malik deyil, yaxud onları yaxşı tətbiq edə bilən icraçılar (təhsili və məktəbi idarə edənlər, xüsusilə də müəllimlər) azdır. Amma bu o demək deyil ki, "yaxşı ideya" baxımından təklif tələbi üstələyir. Əslində təhsilin keyfiyyəti ilə bağlı hər bir təklif, təşəbbüs, yaxud ideya təlimin real ehtiyaclarından irəli gəlir.



Müəllimlərin əksəriyyəti məqsədlərinin fundamental biliklərin öyrədilməsi olduğunu iddia etsələr də, şagirdlərin çoxu üçün məktəbdə uğur nəyi və necə öyrənməni anlamağa səthi yanaşmaya uyğunlaşması ilə bağlıdır. Bu reallığın yalnız Azərbaycan təhsili, yaxud məktəbinə xas olan cəhət kimi göstərmək yanlışlıq olardı. Hətta təhsil sahəsində uğurlu təcrübəyə malik ölkələrdə belə bu fakt təhsildə həllini gözləyən məsələlər sırasındadır.

Yeni Zelandiyada 15 yaşlı 700 şagird və onlara ingilis dili, riyaziyyat və təbiət fənlərindən dərs deyən 70-dən artıq müəllimin cəlb olunduğu tədqiqatın nəticələri maraqlıdır. Şagirdlər qeyd edirlər ki, onlar üçün təlim əsasən qiymətləndirmədə yüksək nailiyyət qazanmaq məqsədilə tədris olunmuş materiallardan əldə etdikləri biliyi nümayiş etdirmək deməkdir. Başqa sözlə təlim prosesi qiymətləndirmədə yüksək nəticə göstərməyə xidmət edir. Tədqiqata cəlb olunan müəllimlər isə əksinə iddia edirlər ki, onların apardığı tədris şagirdlərdə dərin bilik və zəruri bacarıqların formalaşmasına xidmət edir... Demək, təlim fəaliyyəti qiymətləndirmənin tələbləri çərçivəsində qurulmağa məhkum olmuşdur.

İnkişaf etmiş ölkələr, eləcə də təhsilə dəyər verən cəmiyyətlər üçün xarakterik olan yaxşı məktəb nümunəsi yaratmaq və bu nümunənin üstünlüklərini təqdim etmək ambisiyası təhsildə rəqabəti stimullaşdıran müsbət amil kimi çıxış edir. Yaxşı mənada bu ambisiya Azərbaycanda həm özəl, həm də dövlət məktəblərində özünü qabarıq şəkildə göstərir. Hər bir belə məktəb innovasiyalara açıq olduğunu, ən müasir təlim texnologiyalarını tətbiq etdiyini, fərqli proqram və resurslardan istifadə etdiyini iddia edir. Təlim prosesində bu istiqamətdə "dərinliyə varmaq" həqiqətən mi faydalı və nəticəyə ciddi təsir göstərir? Kanadalı məşhur təhsil tədqiqatçısı Maykl Fullan qeyd edir ki, məktəblərin qarşılaşdığı ən ciddi problemlərdən biri innovasiyaların qəbul olunmasına müqavimət deyil, çox həcmli müxtəlif innovasiyalarla həddindən artıq yüklənmək, onların fraqmentasiyası, kortəbii və koordinasiyasız qəbulundan irəli gələn çətinliklər, eləcə də nəticəsiz qeyri-peşəkar tətbiq cəhdləridir.

101954

ABŞ-ın məktəb tarixinin tanınmış tədqiqatçısı Dian Ratvitc yazır ki, məktəb o zaman uğurlu hesab oluna bilər ki, demək olar onun bütün şagirdləri yazı, oxu, hesabla yanaşı tarix, ədəbiyyat, təbiət fənləri, həmçinin xarici dildən yaxşı anlayışı olsun. Əgər məktəb şagirdlərə vicdan, şəxsi məsuliyyət, intelektual həvəs, mərhəmət, empatiya və mərdliyin əhəmiyyətini öyrətmirsə, o, uğurlu məktəb hesab oluna bilməz. Demək, məktəbin vəzifəsi təhsil alanlara zəruri bilik və bacarıqlar vermək deyil. Məktəbin şagirdləri şəxsiyyət kimi formalaşdırmaq, onları dəyərlərə sahib vətəndaş kimi hazırlamaq missiyası barədə çox danışılıb və yazılıb. Müasir Azərbaycan məktəbi və müəllimi bu vəzifənin öhdəsindən necə gəlir?

Hazırda Azərbaycanda həyata keçirilən intensiv təhsil islahatlarının səmərəliliyi və nəticələr baxımından uğurlu olması müəllimlərin və məktəblərin fəaliyyətindən çox asılıdır. Tədris müəssisəsi kimi məktəbin fəaliyyətini şərtləndirən ən ciddi amillərdən biri məhz müəllimlərin peşəkarlıq səviyyəsidir. Çünki özü peşəkarlığa və mükəmməl təhsilə malik olmayan müəllimlər adətən şagirdlərini öyrənməyə, oxumağa həvəsləndirməyə hazır olmur, yaxud bunu bacarmırlar. Ona görə də məktəb fəaliyyətinin səmərəliliyi, müəllimlərin hazırlıq səviyyəsi, eləcə də onların özlərinin öyrənmək, yenilikləri mənimsəmək səyləri ilə çox bağlıdır.

Təhsil alanların qeyd olunan keyfiyyətlərə malik şəxsiyyət kimi formalaşması üçün müəllimlər özləri dəyərlərin mütləq daşıyıcısı və xüsusi bacarıqlara sahib olmalıdılar. "Humanist pedaqogikanın Manifesti" əsasında yaradılmış müəllimin şərəf və qulluq kodeksinə görə digər keyfiyyətlərlə yanaşı müəllim:

- Mənəvi və maddini özündə sintez edən mənəvi humanizmin təhsil dünyasının yenilənməsinin əsası olduğunu qəbul edir və ona uyğun olaraq öz pedaqoji təfəkkürünü və yaradıcı təhsil təcrübəsini qurur;
- Hər bir şagirdin qeyri-məhdud imkanlarına inanır; inanır ki, hər uşaq öz yolunu, öz missiyasını daşıyır; bu inam onun optimist və yaradıcı peşə fəaliyyətinin mənbəyidir.
- Hər bir şagirddə xeyirxah şəxsiyyət, mədəniyyət insanı, mənəviyyat qəhrəmanı, Dünya vətəndaşı və öz Vətəninin patriotunu tərbiyə etməyə çalışır.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

- Şagirdlərdə həyatın mənasını anlamağa, özlərini dərində dərk etməyə, özünü təkmilləşdirməyə səy göstərməyə kömək edir.
- Şagirdlərlə və hər bir tərbiyə alanla ayrılıqda münasibətlərini və fəaliyyətini onların inkişafa, yetkinləşməyə, dərketməyə və azadlığa təbii meyllərinə uyğun olaraq qurur, onların hər birinə özlərində istedad və qabiliyyətlərini aşkara çıxarmağa kömək edir.
- Özünün təhsil prosesində subyektiv iradəsinin müstəsna əhəmiyyətini dərk edərək daima öz xarakteri, baxışları, pedaqoji məharəti və əxlaqi- mənəvi aləmini təkmilləşdirir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və onun icrası ilə bağlı təsdiq olunmuş plan və tədbirlər ölkəmizin təhsil sistemində hərtərəfli və əsaslı islahatların aparılmasına yönəlmişdir. Strategiyanın uğurla icrası Azərbaycanda keyfiyyət nəticələri və əhatəliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə malik təhsil sisteminin yaradılması ilə nəticələnməlidir. Bu hədəflərə çatmaq və mahiyyət və keyfiyyətcə Azərbaycan məktəbini irəliyə aparmaq üçün müəllimlərimizdən möhkəm iradə, əzm, peşəkarlıq və fədakarlıq tələb olunur.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
2. Biggs J. and Collis K., Evaluating the Quality of Learning: the SOLO taxonomy. New York. Academic Press.1982.
3. Diane Ravitch, Left back: A Century of Failed School Reforms. , New York, Simon&Schuster, 2000.
4. Fullan M., Stiegelbauer "The new meaning of educational change. Ontario Institute for Studies in Education", 1991
5. John Hattie., Visible Learning: A synthesis of over 800 meta-analyses relating to achievement. New York, Routledge, 2009.
6. Wade Carpenter., Ten Years of Silver Bullets: Dissenting Though on Education Reform, Phi Delta Kappan, Vol.81, No. 5, January 2000
7. Гликман И.З., В защиту школы – против апскулинга. Народное образование, №7, 2014.
8. Манифест гуманной педагогики. Кодекс чести и служения учителя. Грозный, 2015.
9. Мукажанова Р.А., Омарова Г.А. Методика преподавания дисциплины «Самопознание» в школе Алматы. ННПООЦ «Бобек», 2013.



Г.Н. Новрузов


**Современная школа, социальные ожидания и миссия учителя**


*Резюме*

В статье говорится о том, процессы глобализации и динамизация социально – экономического развития, охватившие весь мир, вынуждают искать альтернативные пути и в образовании. Реформы, проводимые в образовании, рассматривают также влияние социальной деятельности на процессы, идущие в обществе.

Результативность проводимых в республике реформ образования напрямую зависит от деятельности школ, от профессионализма учителей и от их готовности совершенствовать свои знания и усваивать инновации. Успешное внедрение в Азербайджане Государственной Стратегии по развитию образования должно увенчаться созданием образовательной системы, состоящей из учителей – профессионалов и менеджеров образования.



G.N. Novruzov


**Modern school, social expectations and the mission of the teacher**


*Summary*

The article notes that the processes of globalization and dynamization of social - economic development, to cover the whole world, are forced to seek alternative ways and in education. The reforms carried out in education, consider the impact of social activity on the processes taking place in society. The effectiveness of the reforms undertaken in the country depends on the education of schools, the professionalism of teachers and their willingness to improve their knowledge and absorb innovation. Successful implementation in Azerbaijan, the State Strategy for the development of education should be crowned with the establishment of an educational system consisting of teachers - professionals and managers of education.





M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası


# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ ELEKTRON TƏHSİL ŞƏBƏKƏSİ


**Saleh Məhərrəmov,**
*Naxçıvan Dövlət Universitetinin rektoru,*
*AMEA-nın müxbir üzvü, professor*
E-mail: salehmaharramov@mail.ru



***Açar sözlər:** elektron təhsil, rəqəmsal multimedia, infrastruktur, beynəlxalq əməkdaşlıq*
***Ключевые слова:** электронное обучение, цифровые мультимедиа, инфраструктура, международное сотрудничество*
***Key words:** e-learning, digital multimedia, infrastructure, international cooperation.*


Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2013-cü ili "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan etməsi, təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə İKT-nin tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətlərdən birinə çevrilmişdir. Müasir təhsil texnologiyalarının genişmiqyaslı tətbiqi ilk növbədə, təhsil müəssisələrinin kompüter avadanlıqları ilə təminatının köklü şəkildə yaxşılaşdırılmasını nəzərdə tutur. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə elmi-metodik bazanın təkmilləşdirilməsi, ümummilli səviyyədə vahid elektron təhsil məkanının təşəkkül tapması günün əsas tələbi olaraq qalır. Buna görə də Azərbaycan hökuməti İKT sahəsinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə uzunmüddətli Milli Strategiya həyata keçirməkdədir. Bu çərçivədə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) Azərbaycanda ali təhsil müəssisələrində elektron təhsil sisteminin yaradılması və potensialın gücləndirilməsinə dəstək verir.

Cənubi Koreya Azərbaycanda başqa sahələrlə yanaşı, təhsillə bağlı da bir sıra əhəmiyyətli layihələr həyata keçirib və keçirməkdədir. Bunlara misal olaraq Bakı Dövlət Universitetində və Azərbaycan Texniki Universitetində reallaşdırılan layihələri, Bakı şəhərində ali peşə təhsili mərkəzinin yaradılması ilə bağlı həyata keçirilən layihəni göstərmək olar. Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması bu layihələrin davamı və miqyasına görə Koreyanın həyata keçirdiyi ən irimiqyaslı layihədir.

29 yanvar 2013-cü ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə Koreya Respublikasının Xarici İşlər və Ticarət Nazirliyi arasında Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılmasına dair Qrant Sazişinin imzalanması mərasimi keçirilmişdir.

Qeyd edək ki, bu layihənin həyata keçirilməsində əsas məqsəd tələbələrə onlayn təhsil xidmətinin göstərilməsi üçün portal, distant təhsil, akademik işlər, elektron kitabxana və sairənin daxil olduğu elektron təhsil şəbəkəsinin yaradılması və yüksək keyfiyyətli təhsil mühiti üçün müasir informasiya-kommunikasiya texnologiyaları avadanlıqlarının yaradılması ilə rəqəmsal multimedia infrastrukturunun təkmilləşdirilməsi olmuşdur.

**"Naxçıvan Dövlət Universiteti üçün elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun yaradılması"** layihəsi ölkənin milli təhsil siyasətinə uyğun olaraq hazırlanmış və ehtiyacın qiymətləndirilməsi təhlilinə əsaslanır. Layihənin büdcəsi 3.5 milyon ABŞ dolları təşkil etməklə 36 ay müddətində davam etdirilmişdir.

24 fevral 2015-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Koreya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Çoi Suk İnin iştirak etdiyi tədbirdə NDU-da İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzinin açılışı həyata keçirilib. İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi kamera nəzarət sistemi, server və texniki təminat otaqlarından ibarətdir. Mərkəzdə 30 terabayt həcmində xüsusi serverlər və internet paylaşdırıcılar yerləşdirilib, 202 İP telefon quraşdırılaraq universitet vahid telefon şəbəkəsinə qoşulub. Mərkəzi server xüsusi təhlükəsizlik proqramları ilə təchiz olunub, otaqlarda yanğından mühafizə və kartla giriş sistemi yaradılıb. Layihə çərçivəsində tələbə və

müəllimlərin kodlaşdırılması aparılıb, tələbələr üçün 14 min İD tələbə bileti, müəllimlər üçün 2 min İD kart hazırlanıb. Universitetin professor-müəllim və tələbə kontingenti haqqında məlumatlar, idarəetmə ilə bağlı sənədləşmə işləri, müəllimlərin elektron imzaları yeni qurulmuş sistemə köçürülüb, tədris planları və mühazirələrin elektron bazası yaradılıb.

Kamera nəzarət sisteminə birləşdirilən 47 videokamera vasitəsilə imtahanların gedişini birbaşa izləmək, yaddaşda saxlamaq və universitet ərazisinə nəzarət etmək mümkündür.

Universitet televiziyasında yaradılan yeni infrastruktur video dərslərin hazırlanmasına və distant tədrisin tətbiqinə də imkan verəcək. Bu məqsədlə "Universitet" televiziyasına 2 televizor, 5 yaxa və 2 masaüstü mikrofon dəsti, 6 səs gücləndirici, 1 montaj kompüteri, 2 videokamera və 12 proyektor verilib, virtual studiya quraşdırılıb. Sistem onlayn dərslərin hazırlanması və studiya çəkilişlərin aparılması üçün xüsusi proqramla təmin olunub. Hazırda "Universitet" televiziyasının və "Nuhçıxan" radiosunun Naxçıvan şəhərində rəqəmsal formatda yayımına başlanılıb. Jurnalistika ixtisası üzrə təhsil alan tələbələr yaradılan şəraitdən istifadə etməklə təcrübi biliklərini daha da möhkəmləndirəcəklər. Layihəyə uyğun olaraq universitetə 350 kompüter alınıb, fakültələrdə 15 elektron kürsülü auditoriya, hər biri 29 kompüterlə təmin edilmiş 12 imtahan otağı yaradılıb. Universitet şəhərciyində 3900 metr optik kabel xətti çəkilib, tədris korpuslarının internet xətləri yenilənərək 14 server otağı qurulub. Həmçinin elektron kitabxanada yeni internet mərkəzi istifadəyə verilib. Fakültələrdə elektron cədvəllərin və məlumatların nümayişi üçün 30 monitor qoyulub, senat otağında policam kamera, 21 nəfərlik mikrofon, 3 elektron monitor və 1 elektron kürsü quraşdırılıb.

Əminik ki, görülən bütün tədbirlər universitetdə video konfransların təşkilinə, tədris, imtahan və qiymətləndirmə proseslərinin daha şəffaf və çevik formada aparılmasına imkan verəcəkdir.

С. Магеррамов

**Электронное обучение в Нахчыванском Государственном Университете**

*Резюме*

В статье идёт речь о работах, направленных на создание электронного обучения, цифрового мультимедиа и инфраструктуры, онлайн образования, учебной работы, электронной библиотеке, порталов и услуг для студентов НГУ.

S. Maherramov

**E-Learning network at Nakhchivan State University**

*Summary*

The article deals with the events on creating the e-learning, digital multimedia and infrastructure, online education , academic affairs, e-library and portal and services for the students at Nakhchivan State University.

## ŞƏXSİYYƏTYÖNÜMLÜ KURİKULUMLARIN İDRAK MAHİYYƏTİ

**Oruc Həsənli,**
*Naxçıvan Müəllimlər İnstitutunun rektoru*
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*əməkdar elm xadimi*
E-mail: oruchesenli@mail.ru

*Açar sözlər: idrak, təfəkkür, fərdi xüsusiyyətlər, fikrin sürəti, təfəkkür tənqidliyi*
*Ключевые слова: познание, мышление, индивидуальные особенности, скорость мысли, критичность мышления*
*Key words: cognition, mentality, individual features, speed of thought, mentality criticism*

Bu gün bizim qarşımızda çox mühüm vəzifələr durur. Belə ki, qlobal dünyanın insanları kimi özümüzün milli varlığımızı saxlamaqla yanaşı həm də ümumi düşüncə tərzinə, inteqrativ təfəkkürə sahib olmalı, inkişafı daha geniş miqyasda, ən azı Avropa kontekstində görməyi bacarmalıyıq. Əks



halda, dünyada aparılan beynəlxalq şəxsiyyəti qiymətləndirmənin tələbləri bizim üçün əl çatmaz bir səviyyəyə çevrilir.

Uşaqlarımızın hazırlığı hafizə məktəblərinin tələbləri ilə məhdudlaşar. Yəni sadəcə olaraq bütün dərslərdə olan materialları, mexaniki olaraq duyar, qavrayar, yadda saxlayıb müəllimə danışar (ən yaxşı halda). Ona görə də dünyada mövcud müsbət təcrübənin öyrənilməsi və ondan istifadə edilməsi ilə yanaşı ölkəmizdə strateji vəzifələri həyata keçirməyə qadir olan və özünün faydalılığı ilə dünya ölkələrinin potensial qüvvəsinə çevrilən ən mütərəqqi fəaliyyətlərə yaradıcılıqla yanaşmalıyıq. Belə ki, təfəkkür məktəblərinə keçməklə şagirdlər (hazırda 1-7-ci siniflərdə tətbiq edilir) yəni kitablarda olan materiallar və cisim və hadisələrin qanunauyğunluqlarını duyub, qavrayıb, yadda saxlamaqla məntiqi hafizədə həm də təfəkkürdə analiz-sintez etməklə əqli nəticə çıxarmalı, təcrübəyə tətbiq etməyi bacarmalı və nəticə çıxarmalıdırlar. Fikrimizcə bütün mənimsənilən materiallar idrak prosesində analiz-sintez olunmaqla bərabər həyata və təcrübəyə tətbiq olunmalıdır. Təfəkkür məktəblərində müəllim problem situasiyaları yaratmağı bacarmalıdır. Problemin qoyulması şagirdlərin yaş, bilik, intellekt səviyyəsinə uyğun olmalıdır. Problemin münasib və qanunauyğun qoyulması təfəkkürü fəallaşdırır.

Yeni təhsil kurikulumlarının tətbiqində idrak bacarıqlarının çox böyük əhəmiyyəti vardır. Təhsil alanın idrakı, ünsiyyət və psixomotor fəaliyyətləri əsasında həyati bacarıqlarını inkişaf etdirməklə onlarda milli və bəşəri dəyərlərin formalaşmasına zəmin yaratmalıyıq. Belə ki, təlimin forma və məzmununu elə seçməlidir ki, o şagirdləri düşündürməyə, özünü dərk etməyə, yaradıcı fəaliyyətə stimullaşdırsın. Tədqiqatçılar və ya "problemli təlim" metodu gerçəkliyin kəşfi və dərk edilməsinə yönəlmiş təbii təfəkkür prosesi ilə eyniyyət təşkil etdiyindən yaradıcı təlim metodikasının əsasını təşkil edir. Bu zaman təfəkkür aktı dövrünün tam strukturu sualın yaranmasında və təfəkkür prosesinin formalaşdırılmasından başlamış tapılan həllin isbatı və ya əsaslandırılmasına qədər təzahür etmiş olur. Yaradıcı başqa sözlə, reproduktiv təfəkkür prosesi təfəkkür aktının tam dövrünü ehtiva etməklə reproduktiv proseslərindən fərqlənir.

Bir sıra psixoloqların və mütəxəssislərin fikrinə görə şagird o vaxt düşünməyə başlayır ki, müəyyən çətinliklərlə üzləşsin və bu çətinliklərin aradan qaldırılmasının onun üçün mühüm əhəmiyyəti olsun. Hər bir tam təfəkkür aktında aşağıdakı mərhələlər müəyyən edilir:

1. Çətinlik hissetmə;
2. Onun müəyyən edilməsi;
3. Onun həlli planının irəli sürülməsi (hipotezin ifadə olunması);
4. Təklif olunan həldən çıxış nəticələrin ifadəsi (hipotezin məntiqi yoxlanılması);
5. Hipotezin qəbul və ya rədd edilməsinə imkan verən müşahidə və eksperimentlər.

Fikrimizcə düzgün qurulmuş təlim problemli olmalıdır. Müəllim şagirdlərin maraqlarını diqqət mərkəzində saxlamalı, yeri gəldikcə onların qarşısında gücləri çatan və həll edə bildikləri problemlər qoyulmalıdır. Həm də şagirdlərin fərdi idrak imkanlarını nəzərə almalıdırlar. O zaman yeni təfəkkür formalaşacaqdır. Yetişən nəsil göstərilən xüsusiyyətləri mənimsədikdən sonra gələcəkdə hər hansı problemlərin həll olunmasında çətinlik çəkməyəcəklər.

Fikrimizcə təfəkküryönümlü təlimin həyata keçirilməsi üçün müəllim hər bir şagirdin fərdi keyfiyyətlərini nəzərə almalıdır. Belə ki, sinifdə olan şagirdlərin ağlının keyfiyyətləri müəyyən olunması vacibdir. İkinci mərhələdə isə ağlın keyfiyyətlərinin inkişaf etdirilməsi vacib məsələlərdəndir. Ona görə də şagirdlərdə təfəkkürün fərdi xüsusiyyətlərinin inkişaf etdirilməsi vacib məsələlərdəndir.

Təfəkkürün fərdi xüsusiyyətləri aşağıdakı kimi təsnif olunur:

1. Ağlın müstəqilliyi; Bu başqasının köməyi olmadan qarşıya məqsəd, sual, məsələ qoyması. Bu məqsədə çatmaq, suala cavab tapmaq və ya məsələni həll etmək üçün yol tapmaqdan ibarətdir;

2. Təfəkkürün tənqidiliyi; Bu dərk olunan fikir və faktları ölçüb-biçmək, idrak obyektindəki səhv və uyğunsuzluqları axtarıb tapmaq və bunların səbəblərini araşdırmaqdır. Tənqidi təfəkkürə malik olan şagirdlər özlərinə məxsus düşüncə tərzi ilə fərqlənir, onlar hər bir hadisəni, idrak obyektini nəzərdən keçirir, qiymətləndirir, münasibətlərini bildirirlər;

Müəyyən olunmuşdur ki, təlim prosesində şagirdlərin böyük əksəriyyəti öz yazı işlərinə tənqidi surətdə yanaşmağa az-çox alışmış olurlar. Hətta onlar müxtəlif əməliyyatları bir-biri ilə yoxlamağa, məsələnin həllinin düzgün olub-olmamasını müəyyənləşdirməyə qabil olurlar.

3. Təfəkkürün çevikliyi; Geniş ağla malik olan adamlar müxtəlif bilik sahəsində yaradıcı surətdə düşünməyə qadir olurlar;

4. Təfəkkürün dərinliyi; Məsələnin mahiyyətinə nüfuz etmək, hadisələrin səbəbini açmaq, mürəkkəb hadisələrdən baş çıxarmaq, onların gələcək istiqamətini təyin etmək bacarığında ifadə olunur;

5. Əqlin genişliyi; Müxtəlif bilik sahələrində yaradıcı surətdə fikirləşmək bacarığından ifadə olunur;

6. Fikrin surəti; şagirdlər arasında fikrin surətinə görə də fərqlər mövcuddur. Belə ki, qarşıya çıxan məsələni, problem həll etməyə heç də şagirdlərin hamısı eyni vaxt sərf etmir. Biri bu məsələni tez, digəri isə gec dərk edir. Fikrin surəti qarşıya qoyulan suala qəti cavab almağa sərf olunan müddətlə təyin edilir.

**О. Гасанлы**

**Познавательная сущность личностно-ориентированных куррикулумов**

***Резюме***

В статье рассматриваются вопросы о сущности мышления, важности школ мышления, также о его этапах и индивидуальных особенностях при применении личностно-ориентированных куррикулумов.

**O. Hasanli**

**Cognitive essence of personality directed curriculums**

***Summary***

In the article mentality essence in personality directed curriculums apply, importance of mentality schools, stages of thinking, individual features of mentality were noted.

## 12 İLLİK TƏHSİLİN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

**Ənvər Abbasov,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent, əməkdar müəllim*
*ARTPİ*
E-mail: abbasov_anver@mail.ru

Azərbaycanda təhsil islahatlarının başlanmasından 15 ildən çox vaxt keçir. Bu müddətdə müstəqil respublika kimi Azərbaycanın bütün sahələrində olduğu kimi təhsildə də islahatyönümlü dəyişikliklərin aparılmasına başlanılmışdır. Bu gün də davam etməkdə olan bu islahatların əsas qayəsi dünyanın təhsil meridianına çıxmaq, ən inkişaf etmiş ölkələrin təhsil ənənələri fonunda daha mükəmməl bir sistemin yaradılmasına nail olmaqdan ibarətdir. Xüsusən ümumi təhsil sahəsində daha uğurlu nəticələrə gəlmək üçün səyləri birləşdirmək tələb olunur.

XXI əsrin ikinci onilliyində məktəb inkişaf edərək əvvəlki səviyyəsini keçmişdir. Onun hazırkı missiyası tam mənasında özünün fəaliyyət mövqeyində ifadə olunur. Bu mövqe həm humanist, həm humanitar, həm də demokratik mövqelərdən şərh olunmaqla müsbət aura yaradır. Təbii ki, özünün nöqsanları, çatışmazlıqları ilə birgə bu, belədir. Lakin unutmaq olmaz ki, bütün sahələrdə çatışan və çatışmayan paradoksallar bir-birini tamamlamaqla həm inkişafımızı tənzimləyir, həm də bizi səfərbər olmağa, fəaliyyətlərinin fonunda tənqidi xarakterdə yanaşmaları həyata keçirməyə sövq edir.

Ölkəmizin təhsil siyasətində 12 illik təhsil xüsusi bir xətt kimi dayanır. Onun reallaşdırılması hələ "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının təhsilin yenidən qurulması hissəsində xüsusi olaraq ifadə edilmişdir. Açıq şəkildə göstərilmişdir ki, 12 illik təhsil sisteminə keçiriləcəkdir. Yaddaş məktəbindən təfəkkür məktəbinə keçid təmin olunacaqdır. Bu əslində Azərbaycan məktəbi barədə müasir dövrün tələbinə uyğun zəruri mesajlar idi ki, onun təbii olaraq yaranması bizi daha da irəliyə doğru addımlamağa sövq edirdi. Bu zərurət birdən-birə yaranmamışdı. Onu zaman özü dünyaya , Azərbaycana bəxş etmişdi. Odur ki, hələ XX əsrin sonlarında bu məsələlər mütəxəssislərimizi narahat etmişdir. Mərhum professor Əbdül Əlizadə ötən əsrin sonlarında bu günü düşünərək yazırdı ki, "Görəsən, XXI yüzillikdə Azərbaycan məktəbi necə inkişaf edəcəkdir? Məktəblərimizdə hansı fənlər öyrəniləcək? Tədris planları və proqramları necə, hansı prinsip və meyarlarla müasirləşdiriləlidir. Təhsilin humanitarlaşdırılması və ya fənlərin inteqrasiyası kimi köklü məsələlər hansı yollarla həll olunmalıdır?". Doğrudan da, islahatın başlanğıc illərində belə proqnozların verilməsi daha çox məktəbin gələcəkdə daha yaxşı, ümumi siyasətə uyğun fəaliyyət göstərməsinə təsir göstərməkdən ibarət idi.

Ümumi təhsil məktəbinin 12 illik sistemə keçməsi, ilk növbədə, müəllimlərin, valideynlərin, eləcə də şagirdlərin düşünməsi üçün imkan yaradır. Yuxarıda göstərildiyi kimi maraqlı olanlar daha real təkliflərə sövq olunur. Bu araşdırmalarda yeganə yol daha real uyğunlaşma tapmaqdan ibarətdir. Məktəbin infrastrukturunun, tədris metodik və maddi-texniki bazasının, eləcə də kadr potensiyalının hansı müstəvidə qurulması barədə mülahizələr irəli sürməklə əlaqədardır.

12 illik ümumi təhsilin düşüncə müstəvisində qurulması dünyanın sınaqdan keçirdiyi bir təcrübə olsa da, bunun bizim üçün tamamilə yeni bir yanaşma kimi qəbul etmək olar. Uzun illər yaddaş məktəbi kimi özünü təsdiqləmiş ümumtəhsil məktəbinə düşüncəni fəallaşdıran, ona rəvac verən müasir intellektual məzmun, eyni zamanda demokratik və humanist prinsiplərə söykənən texnologiyalar, strategiyalar gəlməlidir. Belə məzmun və texnologiyaların hazırlanmasında iki mühüm şərtin nəzərə alınması zəruridir. Onlardan birincisi, cəmiyyətin arzu və istəyi, ehtiyacları, ikincisi, hazırkı şəraitdə dünyanın təhsil məkanında vahid ölçülər və tələbatlardır.

Bu iki şərtin yerinə yetirilməsi üçün çoxlu miqdarda kompleks tədbirlər, müxtəlif metodlar və texnoloji fəaliyyətlər hazırlanaraq həyata keçirilməlidir.

12 illik təhsilin qurulmasında başlıca cəhətlərdən biri onun infrastruktur məsələsidir. Bu barədə Dövlət strategiyasında açıq şəkildə qeydlər verilir, yuxarı siniflərin təmayüllər üzrə qurulacağı göstərilir. Lakin X sinfə qədərki səviyyələrə hansı siniflərin mənsub olunması göstərilmir: ibtidai və ümumi orta təhsil səviyyələrinin hansı sinifləri əhatə etməsi qeyri-müəyyən qalır. Əslində bu vəziyyətin yaranması təbiidir. Çünki qəbul olunacaq qərar barədə götür-qoy olunmalı, daha optimal bir təklif meydana çıxarılmalıdır.

Məktəb həm də 12 illik təhsil sisteminə keçməsi ilə inteqrativ xarakter daşımalı, bütün fəaliyyətlərin qurulmasında ona xüsusi önəm verilməlidir. İnteqrasiya ilkin olaraq təhsilin məzmun komponenti kimi təhsil səviyyələri üzrə səriştələrin (kompetensiyaların) müəyyən olunmasında, sonra həmin səriştələrə təminat verə biləcək fənlərin, yaxud fənn bloklarının yaradılmasında özünü büruzə verəcəkdir.

İlkin müzakirədən belə nəticə çıxarmaq olur ki, xüsusən icbari təhsil pilləsində daha çox inteqrasiyaların aparılmasına imkan vardır. Müəllimlər vaxt imkansızlığından şikayət etməklə şagirdlərin izafi vaxt itkisinə yol verdiklərini qeyd edirlər. Bu məsələnin zəruriliyini əsaslandıran vacib məsələdir. Lakin digər tərəfdən fənlərə elm sahəsi kimi yanaşaraq onun öyrədilməsini də təşkil edənlər vardır. İkili yanaşmaların olduğu belə məqamlarda araşdırmalara əsaslanaraq qazanılmış təcrübələrə istinad etmək daha düzgün nəticələrə gəlməyə imkan verir.

12 illik təhsilin bir mühüm xarakterik cəhəti də onun humanitar prinsiplər əsasında qurulmaqla humanitarlaşdırılmasıdır. Humanitarlaşdırma elitar tələblərin ödənilməsinə rəvac verməklə ümumi təhsildə hər hansı fənnin bu məqsədə xidmət göstərməsini tələb edir. Məsələn, fizika fənni üzrə məqsədlər zəruri biliklər əsasında səriştələrin formalaşdırılmasına yönəldilir. Yekunda təlimin keyfiyyət göstəricisi də bu ölçülərlə müəyyən olunur. Yaxud Azərbaycan dili fənninin nailiyyətləri nitq mədəniyyətinin formalaşdırılması ilə meydana çıxır.

Təhsilşünas alimlərin bəziləri humanitarlaşdırmanı humanitar fənlərin sayının, ona ayrılan saatların çoxaldılması ilə izah edirlər. Bu yanaşma tərzi müəyyən şərtlərdən biri olsa da, məsələnin mahiyyətini ifadə etmir.

12 illik təhsilin xarakterik cəhətlərindən biri də vaxt bölgüsü məsələsidir. Məlumdur ki, yeni konsepsiya ilə işləyənlərin və bu gün ibtidai siniflərdə dərs aparanların xeyli hissəsi qarşıya qoyduqları məqsədin həyata keçirilməsində çətinlik çəkdiklərini və bunun bilavasitə vaxt bölgüsü ilə əlaqəli olmasını bildirirlər. Doğrudan da, bu gün 45 dəqiqəlik akademik dərs saatının yetərli olmaması, bəzən müasir məqsədlərin reallaşmasına imkan verməməsi müşahidə olunur. Belə bir vəziyyətin aradan qaldırılması üçün müzakirələrin keçirilməsi zəruri hesab edilir.

Nəhayət, 12 illik məktəbin müəllim probleminin mövcud olması da sadaladığımız xarakterik cəhətlər içərisində xüsusi yer tutur. Belə ki, bu gün müəllim sayının keyfiyyət baxımından qədərincə olmaması ölkədə təhsilin inkişafına mənfi təsir göstərir.

Bugünkü müəllim müasir texnologiyaları mənimsəməklə ondan yeri gəldikcə istifadə edə bildiyi kimi həmin texnologiyaları yaratmağı, hazırlamağı da bacarmalıdır. Bu mənada müəllim həm adi, həm də elektron resurslardan, onların mahiyyət və məzmunundan xəbərdar olmalıdır.

**Ədəbiyyat**


1. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2001.
2. Əlizadə Ə.Ə., Sultanova İ.H Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı: ADPU, 2008.
3. Təhsil haqqında Azərbaycan Respublikasının qanunu. Bakı: Öyrətmən, 2009.
4. future_az İnkişaf konsepsiyası-2020.pdf
5. www.prezident.az Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası


## MÜƏLLİM KADRLARI HAZIRLIĞINA YENİ YANAŞMA


**Fərrux Rüstəmov,**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Əməkdar elm xadimi*
*ADPU*



***Açar sözlər:*** *müəllim, pedaqoji təcrübə, ali pedaqoji təhsil, strategiya*
***Ключевые слова:*** *учитель, педагогическая практика, высшее педагогическое образование, стратегия*
***Key words:*** *teacher, pedagogical practice, higher pedagogical education, strategy*


Ulu öndər Heydər Əliyevin və onun siyasi məktəbinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı məqsədyönlü və ardıcıl dövlət siyasəti nəticəsində təhsil sahəsində aparılacaq islahatların vahid konsepsiyası, aydın strategiyası və konkret dövlət proqramı hazırlandı, "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)", "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Sürətlə modernləşən respublikamızda təhsilin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi üçün yeni, daha səmərəli və təsirli addımların atılmasına ehtiyac yarandı. Həmin ehtiyacların ödənilməsi, ölkədə insan kapitalının davamlı inkişafı üçün şəraitin yaradılması, mövcud infrastrukturun təkmilləşdirilməsi, müasir düşüncəyə, yeni təhsil-tərbiyə texnologiyasına, əxlaqi-mənəvi saflığa, yüksək peşə və ixtisas hazırlığına malik pedaqoji, mühəndis-pedaqoji və elmi-pedaqoji kadr hazırlığının təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edildi.

Strategiyanın əsas məqsədi ölkədə səriştəli təhsilverənlərə, ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemi yaratmaqdır. Azərbaycanın təhsil sisteminin iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartlarına uyğun olması üçün strategiyada 5 istiqamət müəyyənləşdirilmişdir: 1) səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması; 2) təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi; 3) təhsildə nəticələrə görə cavabdehlik, şəffaf və səmərəli idarəetmə mexanizminin yaradılması; 4) ömür boyu təhsili təmin edən təhsil infrastruktunun yaradılması; 5) təhsil sisteminin dünya standartlarına uyğun maliyyələşdirilməsi.

Müəyyənləşdirilən bu istiqamətlərin həyata keçirilməsi akademik bacarığı, tədris təcrübəsi və peşəkarlıq səviyyəsi ilə fərqlənən keyfiyyətli müəllim kadrlarının hazırlanmasını, müəllim peşəsinin nüfuzunun yüksəldilməsini tələb edir. K.S. Stanislavski deyirdi ki, teatr asılqandan başlayır. Keyfiyyətli və səriştəli müəllim kadrlarının hazırlığının ilkin şərti pedaqoji peşəyə seçimin düzgün, obyektiv və şəffaf aparılmasından asılıdır. Bunun üçün isə, ilk növbədə, pedaqoji peşəyə sənəd



verən abituriyentlərin peşəyəyararlılıq səviyyəsi yoxlanılmalıdır. Elə buna görə də ali məktəblərə tələbə qəbulunun qaydaları təkmilləşdirilməli, ixtisaslar, xüsusi ilə də təhsil ixtisasları digər qruplardan ayrılmalıdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 12 yanvar tarixli qərarı ilə ali təhsilin bakalavriat səviyyəsi ixtisasları 8 qrupda təsnif olunduğu halda, ali məktəblərə qəbul zamanı bütün ixtisasların 5 qrupa bölünməsi ixtisas seçimində müəyyən problemlər yaradır. Keyfiyyətli müəllim kadrları yetişdirmək məqsədi ilə pedaqoji ixtisaslara sənəd verən abituriyentlərin peşəyəyararlılıq səviyyəsinin müəyyənləşdirilməsi, nitq və yazı mədəniyyətinin yoxlanılması üçün müsahibələrdən keçirilməsi, yüksək bal toplayanların pedaqoji peşəyə istiqamətləndirilməsi zəruri və vacibdir.

Cəmiyyətin tərəqqisi məktəbdən, məktəbin inkişafı isə müəllimdən asılıdır. Məktəblərimizdə öz peşəsinin vurğunu olan, peşəkarlığı, tədris uğurları, cəmiyyətdə yüksək nüfuzu ilə seçilən müəllimlərlə yanaşı, elmi-metodiki hazırlığı zəif, məktəbdən, şagirddən ruhən, qəlbən uzaq olan, hər cür yeniliyi "süngü" ilə qarşılayan, müqəddəs müəllim adına kölgə salan müəllimlər, vəzifə məsuliyyəti, təşkilatçılıq qabiliyyəti, kollektivi vahid məqsəd ətrafına səfərbər etmək baxımından müasir tələbləri ödəməyən, təhsilin müasir problemlərini, bu sahədəki islahatların mahiyyətini dərk etməyən, yaradıcılığı və təşəbbüskarlığı ilə fərqlənməyən məktəb direktorları da az deyil. Platon deyirdi ki, pinəçinin bir cüt ayaqqabını pis tikməsi bir nəfər afinalıya ziyan vurduğu halda, müəllimin pis işi, pis tərbiyəsi bütün Yunanıstana ziyan gətirir. Hesab edirik ki, cəmiyyət qarşısında öz borcunu və vəzifəsini dərk etməyən "diplomluların" məktəblərdən uzaqlaşdırılmasını, təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəldilməsini təmin etmək məqsədilə treninq mərkəzlərinin yaradılması, ayrı-ayrı ixtisaslar üzrə xarici ölkələrdən tanınmış mütəxəssislərin dəvət edilməsi, milli kadrların müvafiq ölkələrin elm və təhsil mərkəzlərində təcrübə keçməsi və qarşılıqlı əməkdaşlığın gücləndirilməsi, bu məqsədlə xarici təcrübənin (məsələn, Qazaxıstanın "Nazarbayev İntellektual Məktəbləri" Pedaqoji Ustalıq Mərkəzinin) öyrənilməsi məqsədəmüvafiq olardı.

Müəllimlərin əmək haqqı diferensiallaşdırılmalıdır. Bu, sağlam rəqabət mühitinin yaranmasını şərtləndirməklə bərabər Azərbaycan təhsilinin beynəlxalq rəqabətə davamlılıq göstəricilərinin yüksəldilməsinə zəmin yaratmış olardı. Avropada və Yaponiyada müəllimlər yüksək əmək haqqı alanlar kateqoriyasına aiddir. Yaponiyada müəllimlərin əmək haqqı dövlət qulluqçularının orta əməkhaqqından 25% çoxdur. Fransada kollec və lisey müəllimləri adi dövlət qulluqçularından 2 dəfə çox maaş alırlar.

Ötən əsrin ikinci yarısından başlayan, müasir dövrdə həyəcan doğuracaq bir həddə çatmış məktəblərdə gedən feminizasiya prosesinin qarşısını almaq məqsədilə oğlanların müəllimlik peşəsini seçmələri üçün zəruri tədbirlər görülməlidir.

Keyfiyyətli və səriştəli müəllim kadrlarının hazırlanması ali pedaqoji təhsil müəssisələrinin nəzdində baza məktəblərinin, təcrübə-istehsalat mərkəzlərinin yaradılmasının vacibliyini ön plana gətirir. Pedaqoji təhsilin vacib komponentlərindən biri olan pedaqoji təcrübənin səmərəliliyinin artmasına imkan yaradar. Pedaqoji təcrübənin məqsədi tələbəni həm fənn müəllimi, həm də sinif rəhbərinin funksiyası ilə tanış etmək və onu bu istiqamətdə gələcək fəaliyyətə hazırlamaqdır.

Ümumtəhsil məktəb şagirdlərinin pedaqoji peşəyə istiqamətləndirilməsi üçün təhsil müəssisələrində karyera və resurs mərkəzlərinin yaradılmasına, pedaqoji peşəyə qəbul üçün müvafiq bal həddinin müəyyənləşdirilməsinə, ümumtəhsil məktəbinin yekun imtahanının qəbul imtahanı ilə birləşdirilməsinə, pedaqoji peşə təhsilinin "sifariş-təklif" əsasında təşkilinə böyük ehtiyac vardır.

Pedaqoji ixtisaslar üzrə bakalavriat təhsil pilləsini uğurla bitirən, ən azı birillik internatura təhsili keçən, fəaliyyəti lisenziyalaşdırılan məzunlara müəllim işləmək hüququnun verilməsi, internatura təhsili üçün xüsusi proqramın (kurikulumun) hazırlanması keyfiyyətli müəllim kadrları hazırlığında mühüm amil kimi dəyərləndirilməlidir. Hesab edirik ki, ali təhsilin bakalavriat pilləsini bitirən məzunlardan müəllim işləmək istəyənlər ən azı bir il internatura keçməli, qabaqcıl müəllimlərin təcrübəsini öyrənməli, tədris prosesində şəxsən iştirak etməklə müəllimlik sənətinin sirlərini mənimsəməli, sonda isə elmi, metodik, pedaqoji qabiliyyətini peşəkarlıq səviyyəsini, şagirdlərlə işləmək bacarığını nümayiş etdirməli, tədris edəcəyi fənn üzrə dərslər verməli və buna müvafiq olaraq fəaliyyəti lisenziyalaşdırılmalıdır.

Tədrisin keyfiyyətini yüksəltmək, professor-müəllimlərin elmi-metodiki hazırlığını, peşəkarlıq səviyyəsini artırmaq məqsədilə 5 ildən bir keçirilən ixtisasartırma və stajkeçmə modelinin dəyişdirilməsi zəruridir. Belə ki, ixtisasartırma təhsil müəssisələri tərəfindən təklif edilən proqramlar bu təhsilə cəlb olunan müəllimlərin ehtiyaclarına uyğun hazırlanmır, ümumiyyətlə, bu

ehtiyacların dəqiq müəyyənləşdirilməsi sahəsində etibarlı mexanizmlər yoxdur. İndiki dövrdə tanınmış tədqiqatçı alimlərin xarici ölkələrin elm və təhsil mərkəzlərində ixtisasartırma və staj keçməsi daha səmərəli ola bilər.


**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, 2013, № 5
2. Ə. Paşayev, F. Rüstəmov. Pedaqogika. Bakı: Elm və təhsil, 2010.



**Ф.А. Рустамов**

**Новый подход к подготовке учительских кадров**

*Резюме*

С целью усовершенствования подготовки учительских кадров, на современном этапе усилена правовая нормативная база, произошли серьезные изменения в содержании высшего педагогического образования, срок педагогической практики повысился на 18 недель.

В тезисе определены причины допускаемых ошибок в подготовке учительских кадров.

**F.A. Rustamov**

**New approach to the preparation of teaching staff**

*Summary*

For the preparation of teaching staff the legal-normativ framework had been enhanced in modern Stage in Azerbaijan. Significant changes had been also made in the content of the higher pedagogical education . The alloted time of teaching practise increased to 18weeks.

The causes of mistakes in the preparation of teaching staff had been indentified in this report too.


# AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFINDA İNNOVATİV FƏALİYYƏT AMİLİ


**İntiqam Cəbrayılov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
E-mail: intiqamcebrayilov@mail.ru



***Açar sözlər:*** *təhsil, innovativ fəaliyyət, strategiya, konsepsiya, inkişaf, məzmun, istiqamət, amil, texnologiya, şəxsiyyət, sistem*

***Ключевые слова:*** *образования, инновационной деятельности, стратегия, концепция, развития, содержание, направление, фактор, технология, личность, систем*

***Keywords:*** *education, innovative activity, strategy, conception, development, content, direction, factor, technology, personality, system*


Təhsilin inkişafı üzrə innovativ fəaliyyət ilk növbədə təhsil sahəsində dövlət siyasətinin prinsiplərinə, dövlətin bu məsələ ilə bağlı qəbul etdiyi qərarlara, proqramlara, strategiyalara əsaslanmalıdır. Bu baxımdan son illərdə respublikamızda təhsilin inkişafı ilə bağlı olduqca ciddi, mühüm əhəmiyyət kəsb edən dövlət sənədləri, qərar və proqramlar qəbul olunmuşdur." Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" həmin qəbildən olan konseptual sənədlərdir. Araşdırmalar göstərir ki, təhsilin inkişafı, məzmunun innovasiyalarla zənginləşdirilməsi nəticə etibarilə ölkənin də inkişafına, cəmiyyətin ictimai-iqtisadi, mədəni həyatında köklü dəyişikliklərin, irəliləyişlərin baş verməsinə gətirib çıxarır. Bu baxımdan Azərbaycan Respublikasının inkişaf konsepsiyasında təhsil məsələlərinə xüsusi yer ayrılması olduqca təqdirəlayiqdir.

İnnovasiyalara əsaslanan təhsil texnologiyaları mənimsəmək, yaşayış şəraitini, rifah halını daha da yüksəltmək, əmək bazarında rəqabətə davam gətirmək, layiqli yer tutmaq üçün insanlara



geniş imkanlar yaradır. Təhsilalanın bilik və bacarıqları iqtisadi amilə çevrilməklə yanaşı onun zəngin mənəvi keyfiyyətlərə, nümunəvi davranışa, mədəniyyətə malik vətəndaş-şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır.

Bu gün ölkəmizdə təhsilin normativ-hüquqi bazası xeyli təkmilləşdirilmiş, maddi-texniki təminat, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlı mühüm əhəmiyyət kəsb edən geniş tədbirlər həyata keçirilmişdir. Lakin etiraf etməliyik ki, müasir dövrdə Azərbaycan təhsilinin modernləşdirilməsinə xidmət edən aşağıdakı problemlərə xüsusi diqqət yetirilməsi vacibdir:

1) təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılması( insan kapitalı inkişafının sürətləndirilməsi);

2) ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılması.

Bu müddəalar bir-biri ilə sıx bağlıdır. Bu müddəaların həyata keçirilməsi təhsilin keyfiyyətinin yüksəldilməsi və nəticə etibarilə yeni tipli şəxsiyyətin formalaşmasına, insan kapitalının inkişafına gətirib çıxarır. Təcrübə və elmi araşdırmalar göstərir ki, təhsilin keyfiyyətinin artırılması bir sıra amillərlə bağlıdır. Aşağıda qeyd etdiyimiz həmin amillər innovativ fəaliyyət baxımından mühüm əhəmiyyət kəsb edir:

1) təhsili idarəetmə sisteminin yenidən qurulması; 2) idarəetmə ilə bağlı insan resurslarının inkişaf etdirilməsi; 3) müəllim peşəsinin nüfuzunun yüksəldilməsi. Bu baxımdan Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında qeyd olunduğu kimi bu gün dünya ölkələri sırasında özünün keyfiyyət göstəricilərinə və əhatə dairəsinə görə aparıcı mövqeyi olan müasir təhsil sisteminin formalaşdırılması vacibdir. Belə bir təhsil sisteminin formalaşdırılması üçün beş strateji istiqamətdə müvafiq tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

1) səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması;

2) səriştəli təhsilverənlərin formalaşdırılması;

3) təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizminin yaradılması;

4) ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması;

5) iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin yaradılması.

Hər bir strateji istiqamətin özünün əhatə etdiyi məsələlər, konkret hədəfləri vardır. Birinci strateji istiqamətin əhatə etdiyi hədəflər bunlardır:

1) məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali ixtisas üzrə bütün pillə və səviyyələrin təhsil proqramlarının( kurikulumların) inkişafı.

İkinci strateji istiqamətin əhatə etdiyi hədəflər aşağıdakılardır:

1) təhsilverənlərin peşəkarlığının yüksəldilməsi;

2) təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması;

3) təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, eyni zamanda xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılması.

Üçüncü strateji istiqamətin hədəfləri isə aşağıdakı məsələlərdir:

1)təhsil sistemində tənzimləmə və idarəetmənin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi;

2) təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin yaradılması;

3) təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılması.

Dördüncü strateji istiqamətin hədəfləri aşağıdakı məsələlərdir:

1) təhsil müəssisələrində informasiya –kommunikasiya texnologiyalarına əsaslanan təlim metodologiyasına uyğun infrastrukturun yaradılması;

2) təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması;

3) distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, peşə tədris mərkəzlərinin, kampusların yaradılması.

Beşinci strateji istiqamət aşağıdakı vacib hədəfləri əhatə edir:

1)müxtəlif mənbələrdən istifadə etməklə təhsili maliyyələşdirmə mexanizminin təkmilləşdirilməsi;

2) təhsil müəssisələrinin adambaşına maliyyələşdirilməsinin tətbiqi,ödənişli təhsil xidmətlərinin göstərilməsinin dəstəklənməsi;

3) təhsilin İnkişafı Fondunun yaradılması, digər təşkilatlarla əlaqələrin inkişaf etdirilməsi, daha da möhkəmləndirilməsi.

Araşdırmalar göstərir ki, təhsilin inkişafına xidmət edən innovativ fəaliyyətin daim təkmilləşdirilməsi, dövrün tələbləri, elmi-pedaqoji baxımdan ardıcıl və sistemli olaraq yeniləşdirilməsi zəruridir. Məlumdur ki, innovativ fəaliyyətin özü elə yeniliklərin tətbiqi ilə müşayiət olunan fəaliyyətdir. Lakin bu fəaliyyət prosesində də yeniliklər tətbiq olunarkən elmi-pedaqoji tələblər nəzərə alınmalıdır. Bu baxımdan müvafiq inkişaf proqramlarının hazırlanması və onun fəaliyyət modelləri kimi qəbul edilməsi məqsədəuyğundur.

**Ədəbiyyat**


1. "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. "Azərbaycan" qəz., 2012, 30 dekabr
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
3. 3.Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013.
4. 4.Əlizadə H. Ə. Milli təhsil strategiyası ilə məktəbə doğru. Azərbaycan müəllimi qəz., 2014-cü il, 17 yanvar



**И.Джабраилов**

**Фактор инновативной деятельности развития образования в Азербайджане**

*Резюме*

В тезисе излагаются актуальные вопросы системы образования. Здесь, прежде всего, указывается на необходимость инновативной деятельности и ее значение в системе образования. Автор раскрывает сущность важнейщих компонентов системы образования на современном этапе.

**I. Jabrayilov**

**Factor of innovative activity in the development of Azerbaijan education**

*Summary*

Thesis deals with the actual issues of education system. First of all, it shows the importance of innovative activity and its significance in education system. The author reveals the essence of important components of education system at the present stage.


# TƏHSİL – TARİXİ İNKİŞAF PROSESİNDƏ. TƏHSİLİN BEŞİYİ – NAXÇIVAN, GƏMİQAYA


**Rüfət Hüseynzadə,**
*pedaqogika üzrə elmlər doktoru, professor,*
*Əməkdar müəllim*
*AMİ*
E-mail: Prof.rufat@mail.ru



*Açar sözlər: Naxçıvan, Gəmiqaya, Nuh peyğəmbər, təhsil, məktəb*
*Ключевые слова: Нахчыван, Гямигая, пророк Ной, образования, школа.*
*Summary: Nakhchivan, Gamigaya, Noah, education, skala.*


Çox qədim tarixə və zəngin mədəniyyətə malik olan, coğrafi cəhətdən türk islam dünyasının mərkəzində yerləşən Azərbaycan və bu yurdun qədim sakinləri hələ qədim zamanlardan yazı və oxu mədəniyyətinə sahib olmuş, dövrün, ictimai həyatın xüsusiyyətlərinə uyğun təhsil ocaqları yaratmış, insanları inkişafa, tərəqqiyə, yüksək əxlaqa səsləyən müdrik fikirlər söyləmişlər. Zaman-zaman ölkəmizə edilən basqınlar üzündən ulu babalarımızın yaratdıqları zəngin elmi, ədəbi və pedaqoji irsin mühüm bir qismi tələf edilmiş, böyük bir mənəvi xəzinə vətənimizdən çıxarılmış, başqa ölkələrə aparılmış və bir qismi də itirilmişdir.



Zəngin şifahi xalq ədəbiyyatımız – "Kitabi Dədə Qorqud", "Bilqamıs", "Alp Ər Tunqa", "Oğuz", "Ərkənəqun" kimi dastanlarmız, oğuznamələr, ustadnamələr xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatından, zəkasından, istək və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir. Qobustan, Gəmiqaya, Oğlanqala, Kültəpə, Orxon kitabələri və daha bir çox qayaüstü yazılı abidələrimiz xalqımızın yazı yazmaq, oxumaq, hesablamaq, rəsm çəkmək, rəqs etmək və s. mədəni, təhsil vərdişlərinə sahib olmasından xəbər verir. Tariximizin çox qədimliyini göstərən arxeoloji qazıntılar, əldə edilmiş maddi, mədəni nümunələr, xaraba şəhər və qəsəbələr Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanda hələ daş dövründən istifadə edilən duz mədəni və buradan tapılmış daş baltalar, buradakı duz müalicəxanası çox uzaq keçmişimizin mədəni səviyyəsindən xəbər verir. Bütün bunlar Azərbaycan xalqının hələ miladdan əvvəl mədəniyyətə, yazıya, oxuya, sistemli təlim-tərbiyə mədəniyyətinə, müalicə üsullarına sahib olduqlarını təsdiq edir.

Ulu öndərimiz Heydər Əliyev demişdir: "Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Əgər Azərbaycanın tarixi haqqında, ümumiyyətlə, bir çox işlər görülübsə, Naxçıvanın tarixi haqqında, qədim tarixi haqqında və Naxçıvanın bir diyar kimi öyrənilməsi – həm təbiətinin, həm adət-ənənələrinin, etnoqrafiyasının öyrənilməsi barədə çox az iş görülübdür" (1, 17).

Naxçıvanda tunc dövrünə aid Gəmiqaya abidəsi eramızdan əvvəl I-III minilliklərə aid edilir ki, üzərindəki rəsmlər, yazı, işarələr insanların bir-biri ilə ünsiyyət və əlaqə, öyrətmə-öyrənmə prosesini əks etdirir. Qayaüstü təsvirlərdə rəqs səhnələri o dövrün estetik zövqünü bildirir, ov səhnələri, örüş sahələri, keçi, maral, quş, habelə əmək alətləri dövrün peşələri olan ovçuluqdan, əkinçilikdən, maldarlıqdan xəbər verir, at, dəvə, ulaq, araba təsvirləri insanların istifadə etdikləri nəqliyyat növünü göstərir. Günəş, ağac, çay kimi rəsmlər qədim insanlarımızın inancından xəbər verir, daşlar üzərində düz xətlə çəkilmiş bir neçə xətt və ya çox xətt Gəmiqayalıların say anlayışından xəbərdar olmalarını bildirir. Gəmiqayalıların bəbir, canavar, ilan, dəvə kimi rəsmlərin müxtəlif vəziyyətlərdə daşlara döymə üsulla böyük məharətlə işləmələri bir tərəfdən o dövrün rəssamlığını, nəqqaşlığını göstərirsə, digər tərəfdən də şübhəsiz insanlara ətraf mühiti, ərazini onun flora və faunasını öyrədir. Gəmiqaya rəsmlərində bir atlının baş və ayağında geyim olması o dövrün peşələrini (toxuculuq, çəkməçilik və s.) təxmin etməyə imkan yaradır. Şübhəsiz böyüklər də əldə etdiyi bilik və təcrübələri, qazandıqları peşələri kiçiklərə öyrətmişlər və yaxud da kiçiklər böyükləri müşahidə etməklə müəyyən bilik, bacarıq və təcrübə əldə etmiş, tərbiyə qazanmışlar.

Gəmiqayanın ilk tədqiqatçısı akademik Vəli Əliyevin tədqiqatlarından məlum olur ki, Gəmiqayada 1500-ə yaxın yazı, rəsm daş və metal alətlərlə döymə, qazma, sürtmə yolu ilə həkk olunmuşdur. Onlar aşağıdakı kimi qruplaşdırılmışdır: 1) İnsan rəsmləri; 2) Araba rəsmləri; 3) Heyvan rəsmləri; 4) Müxtəlif mövzulu səhnələr; 5) İşarələr; 6) Qeyri-müəyyən təsvirlər (2, 24).

Gəmiqayalılar nəqliyyat vasitəsi kimi at, dəvə, ulaq və arabadan istifadə etmiş, maldarlıq, ovçuluq, əkinçiliklə məşğul olmuşlar. Buradakı araba rəsmləri diqqətimizi cəlb edir. Belə ki, qədim tarixi mənbələrdən, "Oğuznamə"lərdən məlum olur ki, arabanı kəşf edənlər Kanqlı tayfaları olmuşlar: "...Oğuz Kağanın çeriyində bacarıqlı, cüssəli, yaxşı bir kişi vardı. Bu kişi bir araba çapdı... Arabalar gedəndə "Kanq, kanq" deyə səs çıxarırdılar. Onun üçün arabaya "Kanğa" adı qoydular. Oğuz Kağan kanğaları gördü, güldü, ayıtdı.. Qoy yüklü arabaları əsirlər çəksin. Sənə verilən "Kanğaluğ" adı qoy kanğanı yada salsın"(4, 28). Bu ad Naxçıvanda məskunlaşmış qədim Kəngərli tayfasının adıdır.

Gəmiqayalılar müxtəlif təbiət hadisələrinə, çaya, ağaca, heyvana inanmış, onların təsvirlərini çəkmiş, Günəşə sitayiş etmişlər. Gəmiqayada günəşə sitayişi ifadə edən dairə ortasına nöqtə qoyulmuş rəsmlər vardır ki, bu da günəşi, işığı, tərəqqini ifadə edir.

Ümumiyyətlə, günəş, işıq, ziya insanların cahillikdən uzaqlaşıb tərəqqiyə, inkişafa yönəlməsini göstərən bir simvoldur. Hələ qədim Hindistanda V əsrdə cahilliyə, avamlığa qarşı mübarizə cəmiyyəti yaradılmışdır ki, bunun adına "Kurikul" deyilmişdir. "Ku" qədim hind dilində avamlıq, gerilik deməkdir. "Ru" və ya "Ra" – günəş, işıq, ziya deməkdir. "Kul" ailə, icma deməkdir. Beləliklə, "Kurikul" cahilliyə qarşı işığın, ziyanın mübarizəsi deməkdir. Hindistanda indi də

məktəbə Kurikul deyilir. Bu gün təhsilimizə daxil olan "Kurikulum" sözünün mənası və mahiyyəti buradan meydana gəlmişdir.

Tarixi fakt və etibarlı mənbələr bunu da göstərir ki, tarixdə ilk məktəb Naxçıvanda yaradılmışdır. Bu barədə bir qədər şərh verməyə ehtiyac duyulur.

Pedaqoji mənbələrdə göstərilir ki, qədim Yunanıstanda quldar balalarını xüsusi təlim-tərbiyə müəssisəsinə aparıb-gətirən, onların təlim tərbiyəsi ilə məşğul olan adamlara "Peydaqoqos" deyilirdi. Qədim yunan dilində "Paydas" – "uşaq" , "gogos" – "yola salan" deməkdir ki, "pedaqogika", "pedaqoq" sözləri də buradan meydana gəlmişdir. Oradakı xüsusi təlim tərbiyə müəssisəsinin adına "Şkola" deyilirdi ki, bunun da mənası kitablarda yazıldığı kimi qədim yunan dilində "Asudə vaxt keçirilən yer" deməkdir.

Pedaqogika elminin banisi, XVII əsrin görkəmli pedaqoqu Yan Amos Komenski yazır ki, yunanlar bu sözü – yəni "Şkola" sözünü Şumerlərdən götürmüşlər. Daha sonra o "Böyük didaktika" əsərində qeyd edir ki, tarixdə ilk məktəbi Nuhun oğlu Sam yaratmışdır. Adını Skala adlandırmışdır. (7, Глава 8, параграф 3. c. 23) Y.A. Komenski bu fikri bizim eradan əvvəl I əsrdə yaşamış yəhudi əsilli yunan filosofu İosif Flavidən götürmüş və ona əsaslanaraq bunu yazmışdır.

Qeyd edək ki, Naxçıvan şəhəri haqqında ilk məlumat tarixçi, filosof İosif Flaviyə (e.ə. I əsr) məxsusdur. Sonra yunan coğrafiyaşünası Klavdi Ptolomeyin (b.e. II əsri) "Coğrafiya" əsərində Naxçıvan şəhərinin adı ilk dəfə "Naksuana" (yun.Ναξουάνα, ing. *Naxuana*) şəklində qeyd olunmuş və şəhərin çoğrafi mövqeyi göstərilmişdir.

Orta əsr ərəb və fars dilli mənbələrdə şəhərin adı "Nəşavə", "Nəqçuan" şəkillərində işlənmişdir.

Henrix İohann Hübşman Naxçıvan toponimini Nuh peyğəmbərlə bağlı *"dünya tufanı"* hadisəsi ilə əlaqələndirir. Onun fikrincə "Naxçıvan" toponimi "törəyiş yeri" anlamını verməkdədir. Hübşmanın istinad etdiyi Bibliyadakı Nuh tufanı hadisəsinə əsaslanan versiyanın başqa bir yozumuna görə "Naxçıvan" sözü üç hissədən – "*Nax*" (Nuh), türk dillərində isim düzəldən şəkilçi olan "*-çı*" şəkilçisi və türk dilində yer, məkan bildirən "*van*" toponimik formatından ibarət olub, "Nuhçuvan" – Nuhçuların (Nuh tərəfdarlarının) məskəni", "*Nuhun diyarı*" deməkdir.

Yəhudi tarixçisi İosif Flavi Nuhun gəmisinin dayandığı yer olaraq "*Apobaterion*" (yun.Αποβατήριον) toponimini qeyd edir ki, bu toponim qrammatik tərcümədə "Naxidjevan" kimi səsləndiyini deyir və "ilk dayanacaq" anlamını verir. Adı çəkilən toponim məhz müasir Naxçıvan şəhərinə aid edilir (3, 56).

Naxçıvan Azərbaycanın və Şərqin ən qədim və iri şəhərlərindən olmuşdur. Şəhərin tarixi minilliklərin dərinliklərinə gedib çıxır: arxeoloqlar burada eramızdan öncə II və I minilliklərə aid çoxlu maddi mədəniyyət əşyaları tapmışlar.

Yerli sakinlər Naxçıvanın yerində qədim yaşayış məskəninin yaranmasını Böyük Daşqından sonra xilas olmuş Nuh peyğəmbər haqqında rəvayətlə bağlayırlar. Əfsanəyə görə, Nuhun gəmisi quruya yan almazdan öncə üç dəfə Kiçik Qafqazın dağ zirvələrinə toxunmuş və onlardan biri – Ağrıdağ iki yerə ayrılmışdır – Böyük Ağrıdağ və Kiçik Ağrıdağ.

Gəminin toxunduğu o biri sualtı dağ zirvələri isə Qapıcıq, İlandağ və Alagöz olub. Yerli sakinlər arasında dolaşan əfsanəyə görə, Nuh peyğəmbər daşqın çəkildikdən sonra burada ailəsi ilə, Ham, Sam, Yafəs adlı oğlanları ilə ömrünün sonuna qədər yaşamış və bu torpaqda da vəfat etmişdir. Akademik İsa Həbibbəyli uzun illik apardığı təhlil və tədqiqləri nəticəsində bildirir ki, Nuh tarixi şəxsiyyət olmuşdur (6, 86).

Son zamanlaradək Naxçıvanda yaşayan uzunömürlü ağsaqqallar, o cümlədən 106 il ömür sürmüş Əməkdar müəllim Lətif Hüseynzadə Nuh peyğəmbərin dəfn olunduğu yeri tanıyırmış. Realist məşhur rəssam Bəhruz Kəngərli "Nuhun qəbri" ni 1919-1920-ci illərdə 3 dəfə çəkmişdir (5, 18-19). Bu gün Nuhun qəbri və üzərində ucaldılmış böyük türbə Naxçıvandadır.

Y.A. Komenski qədim yunan filosofu İosif Flaviyə əsaslanaraq göstərir ki, Nuhun oğlu Sam (adını yuxarıda çəkdiyimiz filosoflar Sem kimi işlətmişlər) ilk yaratdığı məktəbin adını "Skala" qoymuşdur (5, Гл. 8, параграф 3. стр.23). "Skala" ilkin mənasında "pillə", "mərhələ" mənasını vermişdir. Rus dilində "Şkala"- "dərəcə", "mərhələ" deməkdir. Nuhun dövründə də pilləli, mərhələli məktəb yaradılmışdır. İngilis dilində məktəb mənasını verən "Skul", fransız dilində "Lekol", alman dilində "Şule", türk dilində "Okul", rus və belarus dillərində "Şkola" kəlmələri



"Skala" sözündən əmələ gəlmişdir.

Həmçinin rus dilində "Skala" qaya mənasında işlənməkdədir. Nuhun Gəmisi dağa deyil, məhz qayaya – Gəmiqayaya yön almış, orada dayanmışdır. Bəs bu ad – "Skala", Şkola" Şumerlərə necə gedib çıxmışdır ki, yunanlar da bunu oradan götürmüşlər.

Tarix kitablarında göstərilir ki, Şumerlərlə Arattalıların həmişə sıx əlaqələri, xüsusilə, müntəzəm olaraq sıx ticarət əlaqələri olmuşdur. Naxçıvan da Aratta dövlətinin tərkibində olmuşdur. Naxçıvan duzu at arabaları ilə Şumerlərə daşınmış və oradan əvəzində laciverd alıb gətirmişlər. Bu mübadilə mədəniyyətlərin də mübadiləsinə təsir etmişdir. Burada olan mədəniyyət Şumerlərə, şumerlərdə olan mədəniyyət bu tərəflərə yayılmışdır.

Burada olan mədəniyyət Şumerlərə, şumerlərdə olan mədəniyyət bu tərəflərə yayılmışdır.i haqqında və Naxçıvanın bir diyar kimi ö İki təkərli, dörd təkərli at arabalarının rəsmini biz Gəmiqayada aydın şəkildə görürük. Qayalarda həkk olunan başında papaq, əynində kürk, ayağında çəkmə olan at üstündə atlının rəsmi hələ o dövrün peşələrindən xəbər verir. İnsan ağlı təkəri kəşf edərək araba yaratmışdır. Bu qədim insanımızın yüksək zəkası, biliyi sayəsində mümkün olmuş, o kürk toxumuş, papaqçılıq, çəkməçilik kimi peşələrə yiyələnmişdir. Bizim insan vəhşi atı əhliləşdirmiş, sürət əldə etmiş, hündürə qalxaraq idarəçilik etmişdir. Mənbələrdə göstərildiyi kimi tarixdə atı əhliləşdirən ilk dəfə türklər olmuşdur. Demək bu yerlər qədim türk-oğuz yurdu olduğu bilinməkdədir.

Tədqiqatçı Şümeroloqlar – amerikalı Kramer, türkiyəli İlmiyyə Müəzzəz apardıqları tədqiqatlara əsasən bildirirlər ki, Şumerlər özlərinə Kəngər deyirdilər. Kəngər tayfaları isə Naxçıvandadır. Bu tayfa öz cəngavərlikləri ilə, şücaətləri ilə tarixdə məşhurdurlar. Generel Naxçıvanskilər, Naxçıvan xanları Kəngərli tayfalarıdır.

Görkəmli Qazax alimi, şairi, türkoloq Oljas Süleymenov "Az-ya" əsərində türk xalqlarına məxsus maraqlı bir məlumatı yazır ki, onun bilavasitə xalqımızın yazı mədəniyyəti ilə bağlılığı vardır: "Eramızdan əvvəl III əsr Çin salnaməçisi göstərir ki, Kanqyu ("Kanqlı") xalqı ənənəvi Çin yazısından fərqli olaraq eninə – horizontal xətlə yazılar yazırmış" (8, 134). Kanqlı tayfası bu gün Azərbaycanda yaşayan Kəngərlilərin qədim adıdır. Onlar barədə hələ bizim eradan əvvəl I əsrdə və bizim eranın I əsrində, Flavi, Strabon və Plini yazmışdır. Eramızın ilk əsrlərində Çin, Bizans, Alban, ərəb tarixçiləri öz əsərlərində Kəngərlilər haqqında maraqlı məlumatlar vermişlər. Kəngərlilər "Kitabi-Dədə-Qorqud"da "Qanlı", "Kanqlı" adı altında xatırlanır. "Qanlı qoca oğlu Qanturalı boyu"nda (6,183) "Qanlı"-"Kanqlı" kəlməsindəndir. Dədə Qorqudda deyilir: "Bu qədim soykökləridən biri olan kəngərlilərin qədim adıdır (6, 261).

Gəmiqaya ilə bağlı Şumer və Naxçıvan əfsanə və rəvayətləri demək olar ki, eyniyyət təşkil edir. Bütün bunlar onları deməyə əsas verir ki, Naxçıvan qədim mədəniyyət, elm, təhsil mərkəzi olmuş, burada sistemli təlim, yazı və oxu mədəniyyəti olmuşdur. Tədqiqatçı alim Əjdər Fərzəli öz dəyərli kitabında yazır:

"Gəmiqyalıların 32 hərfdən ibarət əlifbaları olmuş. Onların 9-u sait, 23 –ü isə samit olmuşdur. Hərflər müstəqil şəkildə həm də müəyyən bir sözü ifadə edir. Bu əlaməti Orxon Yenisey əlifbasında da görmək olur (6, 328). "Gəmiqayadakı təsvirlərin özü sübut edir ki, burada yüksək inkişaf etmiş mədəniyyət olmuşdur. Buradakı yazılar, işarələr, rəsmlər istedadlı rəssamlar və bilicilər tərəfindən çəkilmiş nadir sənət inciləridir. Bu rəsmlər qayaların köksündə bədii, həndəsi-riyazi dəqiqliklə qazılmış, həkk edilmişdir. Bunların hamısı sözlü işarələrdir və Tanrıçılıq – yaradılış inamını yer-göy əlaqələrini, kosmik düşüncəni əks etdirir... Gəmiqaya yüksək inkişaf mədəniyyətinin bir göstəricisidir" (6,50). Bu rəsmləri yaratmaq, iki təkərli, dörd təkərli arabalar kəşf etmək, atlı rəsmində gördüyümüz kimi atlının başında papaq, ayağında çəkmə, əynində kürk, yaxud da müqəddəs mənbələrdə göstərildiyi kimi üzüm suyundan – şərab hazırlayaraq Nuhun istifadə etməsi və s. o deməkdir ki, burada insanlar hərtərəfli bilik qazanmış, mənalı, məzmunlu bir elm, təhsil həyatı keçirmişlər.

**Ədəbiyyat**

1. Əliyev Heydər. Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin yaradılmasına həsr olunmuş müşavirədə nitq. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi. Bakı: Nurlan, 2005.

2. Əliyev V.Q. Gəmiqaya abidələri. Bakı: Azərnəşr, 1992.
3. Flavius Josephus, William Whiston, Paul L. Maier – The new complete works of Josephus, Revised and expanded edition, Kregel Academic, 1999, 56).
4. Oğuznamələr. Bakı: Bakı Universiteti nəşriyyatı, 1993.
5. Бехруз Бек Кенгерли. Каталог. Баку, 1947.
6. Аждар Фарзали. Ноев Ковчег и Гямигая –Гобустанский алфавит. Баку, 2014
7. Коменский Я.А. Великая дидактика. М.: Просвещения, 1999.
8. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988.
9. Süleymenov O. Az-Ya. Bakı: Azərnəşr, 1993.

**Р.Гусейнзаде**

**Образование в процессе исторического развития. Нахчыван колыбель образования**

***Резюме***

Богатое культурное наследие Нахчывана дает основание говорить р том, что с древних времен здесь были писменность, школа и системное образование. Нахчыван является одним из древнейших населенных пунктов. Древние памятники показывают, что Нахчыван является одним из культурных центров мира.

**R. Huseynzadeh**

**Historical education development**
**(Education – the cradle of Nakhchivan , Gemiqaya)**

***Summary***

Rich cultural cradle of Nakhchivan is one of the oldest human settlements . The ancient monuments, historic sites, shows that it is one of the cultural centers of space. Noah's Ark to the side of Nakhchivan Gamigaya sources . Noah's son opened the first school in the area sources

## ПАТРИОТИЧЕСКОЕ ВОСПИТАНИЕ ДЕТЕЙ И СТУДЕНЧЕСТВА ЧЕРЕЗ РЕАЛИЗАЦИЮ СОЦИАЛЬНЫХ ПРОЕКТОВ ПРИ ПОДДЕРЖКЕ ВНЕШНИХ ПАРТНЁРОВ

**Н.В. Наумова,**
*кандидат психологических наук,*
*зав.каф. общей и социальной психологии*
*Самарской гуманитарной академии,*
**М.В. Дронкина,**
*ведущий специалист Отрадненского отделения*
*Министерства образования и науки Самарской области,*
**С.Н. Ярыгина,**
*старший воспитатель*
*ДОО №11 г. Отрадного*

***Ключевые слова:*** *патриотизм, служение Отечеству, духовные ценности, формирование морали и нравственности, молодёжь, дети, социальный проект, взаимодействие, социальное партнёрство*
***Keywords:*** *patriotism, service to the Fatherland, spiritual values, the formation of morality, youth, children, social project, interaction, social partnership*

По мнению Буткевич В.В. патриотическое воспитание – это «формирование патриотизма как интегративного качества личности, заключающего в себе любовь к Родине и стремление к миру, внутреннюю свободу и уважение государственной власти, государственной символики, символики других стран, чувство собственного достоинства и дисциплинированность, гармоническое проявление национальных чувств и культуры межнационального общения».[2, 21]



Белоусов Н.А. определяет патриотическое воспитание как «воспитание патриота, формирование у человека духовных ценностей, отражающих специфику развития нашего общества и государства, национального самосознания, образа жизни, миропонимания и ответственности за судьбу Родины».[3, 36]

Общественная же наука в настоящее время обращает внимание на тот факт, что процессы консолидации общества значительно тормозятся в условиях количественного роста социального слоя населения, подменяющего идеи долга и служения Отечеству ориентацией на достижение индивидуального блага. Основной характеристикой ценностных ориентаций современного поколения молодых людей, по мнению И.А. Липского, является эклектичность, «... что характеризует ограниченность социализации, потерю доверия к предметному и природному миру, деформацию социальных отношений, нарастание растерянности в социальной ориентации личности». Бытие данного социального слоя не укладывается в границы Отечества, оно лишь пересекается с ним внешне территориально и ситуативно. Оно скорее определяется пространством рынка и пространством космополитической массовой культуры. Чрезвычайно трудным для молодого человека оказывается выбор между личной жизненной позицией (образами будущего, ожиданиями, стремлениями) и социальными тенденциями, определяющими включённость индивида в систему социальных связей и отношений. При этом, всё чаще акценты смещаются в пользу индивидуального (как естественной реакции на вызовы рынка), что проявляется в формах скептицизма, нигилизма по отношению к общественным интересам. Именно эти акценты, выступающие в качестве объективных детерминант воспитания патриотизма у обучающейся молодёжи не достаточно отражаются в педагогических исследованиях.

Психологи отмечают, что историческая память, это зафиксированные сознанием человека образы событий, их последовательность и логика, ценностные основы и духовные императивы, которые выражают личностную и социальную значимость и актуальность информации о прошлом в тесной связи с настоящим и будущим. Великая Отечественная война оценивается исторической памятью как наиболее значимое событие по ряду оснований.

Во-первых, потому, что эта память связана с историей каждой семьи, ибо это событие затронуло самые существенные и сокровенные стороны в личной жизни людей.

Во-вторых, это событие определило не только будущее нашей страны, но и всего мира и поэтому его оценка базируется не только на осознаваемом, но и на интуитивном признании роли этой войны в истории всего человечества.

В-третьих, Великая Отечественная война сформировала собственную символику, выступающую основой национальной и социально-политической идентификации многих поколений граждан СССР.

Существует крылатое выражение «Героями не рождаются, героями становятся». Хотелось бы перефразировать это высказывание следующим образом: «Патриотами не рождаются, патриотами становятся». Патриотизм не заложен в генах, это не природное, а социальное качество и потому не наследуется, а формируется. Следовательно, необходима организация целенаправленной работы по формированию и тренировке навыков патриотического поведения, необходимо увлечь молодое поколение примерами отечественной истории, напомнить ей, какой была преданность Родине, воинскому долгу в годы великой Отечественной войны. Определяющими символами этой эпохи были самоотверженность, мужество, храбрость наших соотечественников.

Для дошкольников молодые люди – студенты техникума были хорошим примером почитания подвига соотечественников. Дошкольники выступали в качестве инструмента воспитания у молодежи патриотических чувств. Студентам же, по своей сути людям очень активным, предоставлялась возможность проявить себя в качестве модераторов мероприятий патриотического характера.

Наиболее ярко проходила встреча участников круглого стола «Как мы, подрастающее поколение, можем отдать дань уважения героям Войны» (студенты, дошкольники, педагоги, родители). Во время проведения мероприятия воспитанники старших групп представили свои исследовательские проекты на тему «В каждой семье – герой». Ребята, не являясь очевидцами событий военных лет, трепетно и проникновенно рассказывали о героических судьбах своих родственников, опираясь на воспоминания близких. Все участники активно обсуждали главный

вопрос круглого стола. Было принято решение оформить территорию детского сада в духе героической истории страны: расписать веранды и соорудить на территории детского сада малые скульптурные формы.

Итогом проекта будет проведение городской акции «Солдатский платок». Молодые люди – студенты техникума и воспитанники детского сада №11 9 мая по дороге к стеле «Солдатские письма» пронесут полотно из «солдатских платков», на которых будут вышиты родственниками солдат: Ф.И.О., даты жизни участников боевых действий, работников тыла и другая информация, которую захотят оставить родственники ветеранов (быть может, пожелания будущим поколениям). Информация об акции распространяется участниками по всему городу задолго до события. По окончанию праздничного шествия полотно будет передано в музей города.

В процессе реализации проекта были достигнуты поставленные цели, а конечные результаты согласуются с первоначальными ожиданиями.

У воспитанников детского сада и студентов техникума:

- сформированы чувства патриотизма и сопричастности к истории Отечества;
- развиты представления о гражданско-нравственных идеалах и традициях;
- обеспечены условия для формирования в молодёжной среде осознанного отношения к труду, к выполнению долга перед Родиной, а также восстановление доверия между поколениями;
- активизировано молодёжное движение в информационно-просветительской и проектно-образовательной деятельности по укреплению в сознании детей дошкольного возраста и у сверстников духовно- нравственных ценностей па основе традиционных российских устоев.

В проекте принимало участие 24 студента Отрадненского государственного техникума, 50 воспитанников детского сада №11, 8 педагогов детского сада, 1 педагог-организатор техникума. Были привлечены социальные партнеры.

Таким образом, была профессионально организована работа педагогического коллектива по повышению патриотического потенциала подрастающего поколения, был выполнен намеченный план мероприятий, была оказана колоссальная поддержка социальных партнеров проекта, получена поддержка и понимание со стороны родителей воспитанников, было активизировано участие студентов в общественных делах, получен положительный отклик населения города Отрадный Российской федерации. Взаимное сотрудничество студенчества, детства и взрослости – весьма перспективно.

### Литература


1. Абдулаева, П.З. Некоторые аспекты государственного программирования гражданско-патриотического воспитания молодежи в высшем учебном заведении // Актуальные задачи педагогики: материалы V междунар. науч. конф. (г. Чита, апрель 2014 г.). Чита: Издательство Молодой ученый, 2014.
2. Буткевич, В.В. Патриотическое воспитание учащихся: история и современность: пособие для педагогов общеобразовательных учреждений, учреждений внешкольного воспитания и обучения Минск: Национальный институт образования, 2010.
3. Белоусов, Н.А. Патриотическое воспитание студентов как проблема педагогического образования // Патриотическое воспитание: история и современность: Сб. науч. ст. Мн., 2004.




# TƏHSİLDƏ TƏHLÜKƏSİZLİK AMİLİ


**İsrafil Cəfərov,**

*Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirinin müşaviri*

Email: ormanss@mail.ru



***Açar sözlər:*** *təhsil, tədris, təhsil ocaqları, təhlükəsizlik amili, informasiya.*

***Ключевые слова:*** *образование, учебные, учреждения, фактор безопасности, информация*

***Keywords:*** *the education,the teaching, education institutions, factor of safety, the information.*


Son illər respublikamızda aparılan sosial-iqtisadi siyasət nəticəsində ölkədə yüksək inkişafa nail olunmuş, əhalinin maddi rifahı xeyli yaxşılaşmış, yoxsulluğun səviyyəsi minimuma enmiş və Azərbaycan Respublikası orta gəlirli ölkələr sırasında yer tutmuşdur. Gerçəkləşdirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri sosial-iqtisadi həyatın yenidən qurulması və davamlı inkişafı üçün şərait yaratmışdır. Məhz elə bu səbəbdən təhsilimizin inkişafına da ölkə rəhbərliyi tərəfindən xüsusi diqqət ayrılır.

Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalisinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Həmin məqsədlə müxtəlif şəhər və rayonlarda 2500-ə yaxın məktəb binası tikilmiş və mövcud təhsil obyektlərində əsaslı təmir-bərpa işləri uğurla aparılmışdır. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

Qeyd olunanlarla yanaşı, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması da zəruridir.

Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi eyni zamanda göstərir ki, təhsildə təhlükəsizlik məsələlərinin təminatı olduqca vacib fəaliyyət istiqamələrindəndir. Belə ki, informasiya kommunikasiya texnologiyaların təhsil prosesində, habelə tədris prosesinin idarə olunmasında geniş tətbiqi nəticəsində təhsil şəbəkələrin və onların rəsmi internet səhifələrinin təhlükəsizliyin təmin olunmasında müəyyən süni çətinliklərin yaranması ehtimallarını obyektiv olaraq artırır. Məhz elə bu səbəbdən təhsil müəssisələrin rəhbərlərinin üzərinə mahiyyət etibarılə sahə üçün yeni sayılan vəzifə müəyyən olunur ki, bu da tədris müəssisənin informasiya təhdidlərdən qorunmasından ibarətdir.

Müəyyən təhsil müəssisələrində müxtəlif dövrlərdə baş vermiş terror aktları mütləq olaraq sözügedən istiqamətdə qabaqlayıcı tədbirlərin görülməsini vacib edir. Hesab edirəm sözügedən istiqamət artıq müasir təhsil menecmentin ayrılmaz hissəsidir.

Milli maraqlar və təhlükəsizlik məsələləri eyni zamanda ali və ümumi təhsil üzrə dərsliklərin elmi və metodiki baxımdan hazırlanması prosesində də mütləq olaraq nəzərə alınmalıdır.

Təhlükəsizlik məsələləri xüsusi olaraq ilk peşə-ixtisas təhsili müəssisələrində diqqət mərkəzində olmalıdır. Belə ki, burada təhsil alan kontingentinin xüsusiyyətləri müəyyən nəzarət mexanizmlərinin işlənilməsini tələb edir.

Təhlükəsizlik kontekstində təhsil müəssisəsinin idarə olunmasında başlıca problemlərdən biri təhsildə tənzimləmə, idarəetmə və nəzarət funksiyalarının dəqiq müəyyən edilməməsidir. Təhsil sistemini idarə edən orqanların səlahiyyətlərinin, funksiyalarının və məsuliyyətinin dəqiq müəyyənləşməsi, idarəetmə prosesində şəffaflığın və maraqlı tərəflərin iştirakının təmin edilməsi zəruridir.Təhsilin effektiv idarə olunması məqsədi ilə informasiya sistemi yaradılsa da, onun inkişafına ehtiyac duyulur. Təhsilin yüksək keyfiyyətini təmin etmək üçün təhsil sahəsində monitorinq, keyfiyyət və fəaliyyət göstəriciləri sistemi inkişaf etdirilməlidir.

Təhsil müəssisələrində internetə çıxış imkanları genişləndirilməklə, təhsildə informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi inkişaf etdirilməlidir. Qlobal iqtisadi inkişafın tələblərinə uyğun şəkildə beynəlxalq təcrübədən istifadə təhsil prosesində müasir informasiya texnologiyalarının sürətli tətbiqini zəruri edir. Bu sahədə mövcud problemlərdən biri Azərbaycan dilində müvafiq tətbiqi kontentin olmamasıdır.

Təhsil sisteminin milli təhlükəsizlik məsələləri ilə dolayısilə əlaqələndirən digər önəmli amil mövcuddur. Belə ki, təhsil sisteminin qarşısında duran strateji vəzifələrindən biri rəqabətə dözümlü kadrların hazırlanması olduğunu nəzərə alaraq, isbat edə bilərik ki, təhsilini inkişafı bilavasitə milli maraqların tərkib hissəsidir. Bu isə ölkəmizin tam mənada təhlükəsizliyin təmin olunması vəzifənin ayrılmaz hissəsidir.

Belə ki, təhsilin qarşısında ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək, milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq kimi vəzifələrin olduğunu nəzərə alaraq qeyd edə bilərik ki, təhlükəsizlik amili, o cümlədən milli təhlükəsizlik məsələlər təhsil prosesinin ayrılmaz hissəsidir.

**Ədəbiyyat**


1. Təhsil müəssisələrində tərbiyə işinin təşkilinin nəzəri və praktik problemləri. Bakı: Mütərcim, 2011.
2. S. Xəlilov. Təhsil, təlim, tərbiyə. Bakı, 2005.



**И.Джафаров**


**Фактор безопасности в образовании**


*Резюме*

В последние годы были предприняты важные шаги, направленные на развитие образования в стране. Развитие образования в стране, улучшение благосостояния населения, создают основу для налаживания жизни индивида. Считаю данное направление уже является неотъемлемой частью современного образовательного менеджмента.



**I.Ceferov**


**The factor of security in education**


*Summary*

In recent years, the country has taken important steps towards the development of education.Development of education in the country, as well as improving the welfare of the individual is ground for higher level of life.The experience of countries which achieved significant progress in the development of education show that education is very important activity of security at the same time. Some schools at various times as necessary to take preventive measures in this direction are definitely terrorist attacks. I think this direction is an integral part of modern education management.




# ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİLDƏ İNFRASTRUKTUR KOMPONENTLƏRİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ


**Mirhəsən Eminov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: mirhesenemin@yahoo.com



**Açar sözlər:** dövlət strategiyası, fəaliyyət planı, şəxsiyyətyönümlü, təhsil, infrastruktur, informasiya kommunikasiya texnologiyaları
**Key words:** state strategy, action plan, person oriented education, educational infrastructure, information and communication technologies
**Ключевые слова:** государственная стратегия, план действий, личностно ориентированное образование, образовательная инфраструктура, информационные и коммуникационные технологии


*Hesab edirəm ki, indi vaxt gəlib, biz mövcud məktəblərin təmirinə daha çox vəsait ayıraq. Çünki buna daha böyük ehtiyac var. Təhsilə qoyulan vəsait ölkəmizin gələcəyinə qoyulan vəsaitdir.*

*İlham ƏLİYEV*

Şəxsiyyətyönümlü təhsil tədris prosesində hər bir öyrənənə onun qabiliyyətinə, meylinə, bacarıqlarına, maraqlarına, subyektiv təcrübəsinə, fəaliyyətinə, təhsilinə, qazandığı bilik və bacarıqları reallaşdıra bilmək səriştəsinə və davranışına uyğun olaraq təlim verilməsini nəzərdə tutur. Deməli, müəllim istənilən nəticəni əldə etmək üçün əvvəlcə dərs dediyi şagirdlərin fərdi xüsusiyyətlərini psixoloji cəhətdən öyrənməli, onları nəzərə almaqla bu və ya digər pedaqoji üsullardan yaradıcı şəkildə istifadə etməlidir [5, 78].

Məlumdur ki, dünyada super gücə malik ölkələrin uğurlu və davamlı iqtisadi yüksəlişi insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilmişdir. Əlbəttə, bu prosesdə təhsil infrastrukturunun müasirləşdirilməsi xüsusi əhəmiyyət daşımışdır. Unutmaq olmaz ki, təhsil infrastrukturunun müasirləşdirilməsini təmin etmədən insanların rəqəmsal bilik və bacarıqlarının yüksəlməsinə nail olmaq mümkün deyil. Ona görə də çağdaş dünyamızda müasir təhsil infrastrukturunun modernləşdirilməsi zəruri amil hesab olunur.

"İnfrastruktur" termini adətən cəmiyyətin inkişafı üçün lazım olan texniki elementləri, yəni yolları, körpüləri, su təchizatını, kanalizasiya sistemini, elektrik şəbəkəsini, telekommunikasiyanı və s. ehtiva edir. İnfrastruktur fiziki komponent olaraq qeyd olunan sahələrin fəaliyyət göstərməsini şərtləndirir. Təhsil infrastrukturu isə şagirdlərin təhsil alması üçün lazım olan şəraiti və avadanlıqları nəzərdə tutur. İnfrastruktur normativləri adətən hökumət tərəfindən müəyyən edilir. Məsələn, 23 aprel 2012-ci il tarixdə "Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu normativləri"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabineti Qərar qəbul etmişdir. Qərarda qeyd olunur ki, ümumi təhsil müəssisəsinin tikintisi üçün torpaq sahəsinin ölçüləri mövcud şəraitdən və yerli xüsusiyyətlərdən asılı olaraq, layihə qabağı işlər zamanı yerli icra hakimiyyəti və ya bələdiyyə orqanları ilə razılaşdırılmalıdır Görülən işlər müvafiq qaydada təsdiq olunmuş baş plan və ya müfəssəl planlaşdırma layihələrində öz əksini tapmalıdır. Ayrılmış sahənin ən azı 50 faizi yaşıllıq sahə kimi nəzərdə tutulmalıdır. Eləcə də təhsil alanlar və müəllim kollektiv üçün tibb məntəqəsinin, elektrik enerjisi ilə təminatın və internet bağlantısının olması nəzərdə tutulur. Təhsillə bağlı əlavə infrastruktur komponentlərinə isə kompetensiyalar və ya öyrənməyin nəticələri, kompetensiyaların əldə olunmasına rəvac verən təhsil resursları, öyrənənlərin inkişafını müəyyənləşdirən qiymətləndirmə və bu inkişafı təsdiq edən məlumatlar və s. aiddir [10, 5].

Respublikamızda təhsil infrastrukturu komponentlərinin vəziyyəti daim diqqət mərkəzində saxlanılır. Hələ 2002-ci il oktyabr ayının 4-də ümummilli lider Heydər Əliyev "Azərbaycan

Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncam imzalamışdır. Həmin sərəncamda ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsi nəzərdə tutulurdu. Bu mühüm sənədin icrası ilə bağlı o zaman Təhsil Nazirliyi müvafiq təhlillər aparmış, real vəziyyət ətraflı şəkildə öyrənilmişdir. Məlum olmuşdur ki, respublikada fəaliyyət göstərən 4513 ümumtəhsil məktəbinin 1248-i birtipli layihə üzrə tikilmiş, 3265-i isə uyğunlaşdırılmış binalarda yerləşdirilmişdir.

Hazırda respublikanın təhsil sistemində davamlı inkişafa yönəlmiş əsaslı infrastruktur dəyişiklikləri aparılır, bir çox dövlət proqramları və layihələr həyata keçirilir. Ölkə başçısı cənab İlham Əliyev çıxışlarında daim vurğulayır ki, təhsilin infrastrukturunu yeniləşdirmədən, müasir tipli yeni məktəblər inşa etmədən, təlim-tədris prosesinə lazımi şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini nəzərə almadan gənc nəslin intellektual inkişafına nail olmaq mümkün deyil. Aparılan sosial-iqtisadi siyasət nəticəsində ölkəmizdə yüksək inkişafa nail olunmuş, təhsilin normativ-hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. Həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün regionlarında ümumi təhsilin infrastrukturu əhəmiyyətli şəkildə yeniləşmişdir. Həmin məqsədlə müxtəlif şəhər və rayonlarda 2500-ə yaxın məktəb binası tikilmiş və mövcud təhsil obyektlərində əsaslı təmir bərpa işləri uğurla aparılmışdır. Təhsil müəssisələrində informasiya kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

Təhsilin infrastrukturunun yeniləşdirilməsi sahəsində Heydər Əliyev Fondunun müstəsna xidmətləri xüsusi qeyd olunmalıdır. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Uşaq evləri və internat məktəbləri" proqramları çərçivəsində son 7 ildə 300-dən çox yeni məktəb, uşaq bağçası, uşaq evi, internat məktəbi binası tikilib istifadəyə verilmiş, əsaslı təmir və bərpa olunmuş, müasir avadanlıqlarla təchiz edilmişdir.

"2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"nın hazırlanması ilə bağlı Dövlət Komissiyasının yaradılması ölkəmizin ictimai-siyasi və sosial həyatında mühüm və əhəmiyyətli hadisə olmuşdur. Müstəqil Azərbaycanda informasiya cəmiyyətinin təşəkkülünü və biliklərə əsaslanan iqtisadiyyata keçid şəraitində yeni təhsil modelinin qurulmasını təmin edəcək Milli Strategiyanın hazırlanması təhsilin inkişafının dövlət siyasəti səviyyəsində prioritet istiqamət kimi nəzərdə tutulmasına, ölkə Prezidentinin təhsil sahəsinə göstərdiyi müntəzəm diqqət və qayğıya əyani sübutdur.

Sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil infrastrukturu təhsilin keyfiyyət göstəricilərinin inkişafına ciddi surətdə təsir göstərməkdədir. Eyni səbəbdən ölkəmizdə öyrənənlərin bilik və bacarıqlarına təsir edən informasiya-kommunikasiya texnologiyalarının təkmilləşdirilməsi daim diqqət mərkəzində saxlanır. Naxçıvan Muxtar Respublikasında da bu sahədə ciddi layihələr həyata keçirilir. Muxtar Respublikamızda təhsil infrastrukturunun yeniləşməsi məqsədilə aparılan tədbirlərə bir nümunə olaraq Şərur rayonunda böyük mütəfəkkir Cəlil Məmmədquluzadənin adını daşıyan Cəlilkənd tam orta məktəbini göstərmək olar. 130 yaşı tamam olan qocaman məktəbin 270 yerlik və 3 mərtəbədən ibarət binada 4-ü elektron lövhəli olmaqla, 15 sinif otağı, 2 kompüter otağı, ən müasir avadanlıqlarla təmin olunmuş kimya, biologiya, fizika laboratoriyaları, hərbi kabinəsi, şahmat otağı, müəllimlər otağı, tibb otağı, kitabxanası, bufeti və idman zalı vardır.

Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında infrastruktur komponentləri daim modernləşdirilir. 2015-ci ilin fevral ayının 24-də Naxçıvan Dövlət Universitetində başa çatdırılan "Elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturu" layihəsinin açılışı olmuşdur. Layihəyə uyğun olaraq 350 kompüter alınıb, universitetin fakültələrində 15 elektron kürsülü auditoriya, hər biri 29 kompüterlə təmin edilmiş 12 imtahan otağı yaradılıb. Fakültələrdə elektron cədvəllərin və məlumatların nümayişi üçün 30 monitor qoyulub, senat otağında policam kamera, 21 nəfərlik mikrofon, 3 elektron monitor və 1 elektron kürsü quraşdırılıb. Bütün bunlar universitetdə video konfransların təşkilinə, tədris, imtahan və qiymətləndirmə proseslərinin daha şəffaf və çevik formada aparılmasına imkan verir. Naxçıvan Dövlət Universiteti son illərdə təlimin müvəffəqiyyət və keyfiyyət göstəricilərinə görə Azərbaycanın ali məktəbləri sırasında ön cərgədədir. 2014-cü ilin nəticələri nəzərə alınmaqla



"Azərbaycanda ali məktəblərin reytinqinin müəyyən edilməsi" layihəsi üzrə müsabiqədə Naxçıvan Dövlət Universiteti reytinq cədvəlində birinci yeri tutmuşdur [13].

Müasir təhsil infrastrukturundan səmərəli istifadə etməklə, öyrənənlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla, innovativ təlim üsullarını tətbiq etməklə, ən əsası təlim prosesinin fərdiləşdirilməsini təmin etməklə və səriştəli müəllim kadrları formalaşdırmaqla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 19 yanvar tarixli Sərəncamı təsdiqlənmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı "Fəaliyyət Planı"nında nəzərdə tutulan nəticələri əldə etmək mümkün olar.

### Ədəbiyyat


1. Abbasov A.N. Seçilmiş əsərləri. 12 cilddə. İkinci cild. Bakı: Mütərcim, 2014.
2. Ahmadov H.H. The Strategy of Education in Azerbaijan. Saarbrücken, Germany, LAMBERT, AcademicPublishing, 2014.
3. Azərbərbaycan Respublikasinin Təhsil Qanunu. Bakı: Öyrətmən,1993.
4. Azərbaycan məktəbi, 1976, №1
5. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-Çap, 2002, 620 s.
6. English Teaching Forum, Volume 50, 2012 number 1
7. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010, 800 s.
8. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı: Mütərcim, 2011, 344 s.
9. "Kurikulum" jurnalı, 2008, №4
10. Якиманская, И. С. Личностно ориентированное обучение в современной школе / И. С. Якиманская. М. : 2002, 96 с.
11. http://azerdict.com
12. www.educators technology.com/...21st-century
13. http://azertag.az/xeber/834651


**М. Эминов**

**Роль и значение компонентов инфраструктуры в реализации личностно ориентированного образования**

*Резюме*

В статье рассматриваются роль и значение инфраструктуры в реализации личностно ориентированного образования. Обосновывается мысль, что инфраструктура относится к основным физическим и организационным структурам, необходимым в функционировании общества или предприятия. Инфраструктура образования включает в себя все условия и оборудования для учёбы. За последнее десятилетие в Азербайджанской Республике вложены большие инвестиции в улучшении образовательной инфраструктуры в общеобразовательных школах.

**M. Eminov**

**The role and importance of infrastructure components in the implementation of the person oriented education**

***Summary***

The article deals with the role and importance of the infrastructure components in the implementation of the personoriented education. Substantiates the idea that the term of infrastructure refers to the basic physical and organizational structures needed for the operation of a society or enterprise, or the services and facilities necessary for an economy to function. Education infrastructure includes, all conditions and equipment for study. Over the past decade, Azerbaijan Republic has made large investments in improving educational infrastructure by providing more computers and better internet access in secondary schools.

# NAXÇIVANDA DİSTANT TƏHSİLİN TƏTBİQİ İMKANLARI

**Surə Seyid,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: seyidsura2014@gmail.com

***Açar sözlər:*** *internet, təhsil, distant, elektron universitet*
***Key words:*** *internet, education, distance, electronic university*
***Ключевые слова:*** *интернет, образование, дистанционный, электронный университет*

Yeni texnologiyalar distant təhsilin imkanlarını genişləndirdi. XXI əsrdə distant təhsil dedikdə bu, təhsil alana öyrədilən məlumatın informasiya və kommunikasiya texnologiyaları vasitəsilə operativ çatdırılması, eyni zamanda öyrənilən materiallara testlər, məntiqi sxemlər, test-məşğələlər vasitəsilə nəzarətin artırılmasını və online imtahanların götürülməsi kimi başa düşülür. Distant təhsilin tətbiqinin uğurlu nəticələri təhsilalmanın bu formasına dövlət dəstəyinin necə yerinə yetirilməsindən asılıdır.

Azərbaycan Respublikasında təhsil islahatları hələ ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik illərinə təsadüf edir. 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunduqdan sonra bütün təhsil sistemində, o cümlədən ali təhsil pilləsində islahatların məqsədyönlü və planauyğun aparılmasına başlanılmışdır. Aparılan islahatların nəticəsi olaraq 10 il sonra ölkə Prezidenti İlham Əliyevin "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə dövlət proqrami"nın təsdiq edilməsi barədə sərəncamı tədrisin təşkilində Bolonya prinsiplərini əks etdirməklə bərabər distant təhsili də əhatə etmişdir. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planının 2.9-cu maddəsi məsafədən təhsilin təşkilini nəzərdə tutmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Sərəncamda Dördüncü strateji istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsasında təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması və digər tədbirlərlə yanaşı, distant təhsil kimi tədbirləri də əhatə etmişdir. Beləliklə, distant təhsilin inkişafına dövlət dəstəyi strategiyada da öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Təhsil Qanunda da təhsilalma formalarından biri də distant təhsil kimi göstərilib. Təhsil Qanunda "distant (məsafədən) təhsil – tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu təhsilalma forması" kimi dəyərləndirilib.

Naxçıvan Muxtar Respublikasında İnternet ilk dəfə 1999–cu ildə Naxçıvan Kompüter Mərkəzində abunəçilərin istifadəsinə verilmişdir. O zaman yalnız 8 abunəçi ilə internetə qoşulma imkanı əldə edən mərkəz qısa zamanda böyük inkişaf yolu keçmişdir. 10 may 2003-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən Naxçıvanda **nakhchivan.az** İnternet provayderi yaradılmışdır. 2006-cı ildən İnternet provayderin adı **nakhinternet.az** olaraq dəyişdirilmişdir. Həmin dövrdə yalnız Dial-up-la internetə qoşulmaqla internetin sürəti 56 kbt/san olmuşdur. 2005-ci ilin oktyabr ayından etibarən isə Naxçıvan şəhərində internet şəbəkəsinə ən müasir texnologiya ilə – ADSL (asimmetrik rəqəmli abunəçi xətti) yeni genişzolaqlı internet xidməti vasitəsilə qoşulma tətbiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 5 aprel 2010-cu il tarixli Sərəncamı ilə Naxçıvan MR Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində Naxçıvan MR İnternet Mərkəzi yaradılmışdır. Mərkəzin fəaliyyətinin əsas məqsədi Naxçıvan Muxtar Respublikası ərazisində inzibati və təsərrüfat obyektlərini, hüquqi və fiziki şəxsləri, muxtar respublika əhalisini internetlə təmin etmək, internetlə əlaqədar müxtəlif xidmətləri göstərməkdir. Mərkəz yüksək keyfiyyətli internet xidmətləri, web səhifələrinn tərtibatı və hazırlanması, domen adların qeydiyyatı,



elektron poçt və ünvanların ayrılması, server sahələrinin icarəyə verilməsi, şəbəkələrin layihələndirilməsi və qurulması işlərini həyata keçirir. Muxtar Respublikanın telekommunikasiya şəbəkəsi TAE (Trans-Asiya-Avropa ) fiberoptik magistral xəttinə qoşulub. Bütün informasiyalar bu magistralin üzərindən ötürülür. 2012-ci ilin avqust ayından başlayaraq Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanılmışdır. "Evədək optika" layihəsi imkan verir ki, hər abunəçiyə 10 mbt/san və ondan yuxarı sürətdə internet verilsin. Bu da elektron ticarət, məsafədən təhsilindən (distant) istifadə və s. üçün əlverişli internet sürətidir.

Hazırda Naxçıvanda internetdən istifadə edənlərin sayı 344 mindən çoxdur. Bu gün muxtar respublikanın ən ucqar dağ kəndlərində belə genişzolaqlı internet xidməti fəaliyyət göstərir. 2013-cü ildə Naxçıvanın yaşayış məntəqələrinin 85,3 faizində genişzolaqlı internet xidməti, 90 faizində isə simsiz internet xidməti göstərilib. Muxtar Respublikaya daxil olan internetin sürəti 2005-ci ildə 512 kbt/saniyə idisə, 2013-cü ildə bu sürət 1 Gbt/saniyəyə çatdırılıb.

Naxçıvan MR-də ali təhsil müəssisələrinə internet 8-10 mbt/san verilir. Tam orta məktəblərdə isə bu rəqəm 4-5 mbt/san arası dəyişir. Qeyd edək ki, elektronlaşma yalnız təhsil müəssisələrini əhatə etmir. 2013-cü ilin oktyabrında Naxçıvanda "Elektron hökumət" (e-hokumet.nmr.az) portalı da istifadəyə verilmişdir. Bu portal vasitəsilə muxtar respublikanın 34 dövlət orqanının xidmətlərindən yararlanmaq mümkündür.

2015-ci ildə Muxtar Respublikanın yaşayış məntəqələrinin 100 faizinin genişzolaqlı internetlə təmin edilməsi nəzərdə tutulub. Bu il Muxtar Respublikaya daxil olan İnternetin surətinin artırılaraq 5 GB/saniyə olması planlaşdırılıb.

Naxçıvan Dövlət Universitetində 2000-ci ildən başlayaraq Azərbaycan Respublikasında İKT-nin inkişafı ilə bağlı həyata keçirilən genişmiqyaslı dövlət proqramları, Naxçıvan MR-də bu sahədə həyata keçirilən islahatlar və universitet layihələrinin ali məktəbə qazandırdığı informasiya texnologiyaları ildən ilə artmağa başladı. 2005-ci ildən bu günədək ardıcıl həyata keçirilən Elektron – Naxçıvan beynəlxalq konfransları isə həm dövlət qurumlarının, həm də xarici ali təhsil müəssisələrinin İKT-nin gözü ilə Naxçıvanı tanımasına şərait yaratdı. Dövlət və ali təhsil müəssisəsinin qarşılıqlı işbirliyi ilə həyata vəsiqə alan tədbirlər isə NDU-nun paytaxt və regional ali məktəblər arasında İKT-nin tətbiqi imkanlarına görə ilk sıralarda yer tutmasına səbəb oldu. Qeyd edək ki, universitetin maddi-texniki bazası – elektron lövhə və proyektorla təchiz olunmuş 100-dən artıq auditoriya, 5000-dən yuxarı kompüter avadanlığı, Polycom kameralı auditoriyalar, Elektron kitabxana, internet portal və universitetin 110 ha ərazisini əhatə edən 10 mbt/san gücündə wi-fi simsiz internet xidməti Elektron Təhsil bazasının yaradılmasına geniş imkanlar açdı. Hazırda universitetdə müxtəlif ixtisaslar üzrə imtahanların kompüter vasitəsilə aparılması, bütün dərslərin, elmi-pedaqoji təcrübələrin nəticələrinin, təhsilin bütün sahələrinin mərhələ-mərhələ elektronlaşması, online dərslərin təşkili, magistr dissertasiyaları və diplom işlərinin elektron qəbulu və digər tədbirlər İKT imkanlarının öyrədən və öyrənən arasındakı münasibətlərin düzgün qurulması, obyektivlik, şəffaflıq, aktuallıq, peşəkarlıq kimi prinsiplərin tədrisdə tətbiqi ilə nəticələnmişdir.

Hazırda Naxçıvan Dövlət Universitetinin Azərbaycan ali təhsil məkanında 3,5 milyon dollarlıq dəyəri və genişmiqyaslı əhatə dairəsi ilə seçilən və Cənubi Koreyanın KOİCA şirkəti ilə birgə həyata keçirilən Elektron Universitet layihəsi isə aparılan məqsədyönlü tədbirlərin ən uğurlu nəticəsidir. Artıq Naxçıvan Dövlət Universitetinin elektronlaşması universitetə girişdən tutmuş, çıxışadək bütün proseslərin, tələbənin dərsə davamiyyətinin, elmi-pedaqoji potensialın, administrativ işlərin elektronlaşmasını əhatə edir.

Bu prosesləri isə distant təhsilə keçid və hazırlıq mərhələsi kimi də dəyərləndirmək olar. Distant təhsilin nəticələri o zaman uğurlu ola bilər ki, o mövcud bazanın təməlləri üzərində davam gətirə bilsin. Bəs, Distant təhsili həyata keçirmək üçün hansı meyarlar tələb olunur?

İlk növbədə sürəti 100 və ya 200 mb/san olan internet, ən müasir kompüter avadanlıqları, bu avadanlıqlardan sərbəst istifadə edən professor-müəllim heyəti və öyrənən tərəfin bütün bu prosesləri əldə etmə imkanı. Distant Təhsili həyata keçirən universitet buna nə qədər hazırdırsa onu qəbul edən cəmiyyət də buna o qədər hazır olmalıdır. Bütün bunlar onu deməyə əsas verir ki, Naxçıvan Muxtar Respublikasında distant təhsilə keçidi tam reallaşdırmaq olar.

Bu təhsilalma formasını tətbiq etməklə cəmiyyətin bütün təbəqələrinin təhsil almasına şərait yarada bilərik. Artıq yaşından, fiziki problemlərindən, iqtisadi və sosial durumundan asılı olmayaraq hər kəs təhsil ala biləcəkdir.


***Резюме***

В статье говорится о правовой базе дистанционного образования в Азербайджане, о созданных условиях дистанционного образования в Нахчыване, о возможности его применения, о будущей перспективе дистанционного образования и о пакете подготовленных предложений для внедрения этого вида образования.

***Summary***

The article describes the legislative base on the distance learning in Azerbaijan, as well as distance learning conditions made in Nakhchivan and their implementation, also the future prospects and the execution proposals of the distance learning.


## FASİLƏSİZ TƏHSİLİN BƏZİ MÜASİR PROBLEMLƏRİ


**Müdafiə Mahmudov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*ARTPİ*
E-mail: maxmudov45@mail.ru



***Açar sözlər:*** *fasiləsiz təhsil, texnologiya, modelləşmə, yanaşmalar, pedaqoji proses*
***Ключевые слова:*** *непрерывное образование, технология, моделирование, подходы, педагогический процесс*
***Keywords:*** *continuous education, technology, modeling, approaches, pedagogical process*


Ölkəmizdə ictimai inkişafın indiki mərhələsində sosial-iqtisadi, siyasi, mədəni və s. sferalarında xeyli dəyişikliklər baş verir və təhsilə münasibət dəyişilir. Ali məktəblərə böyük müstəqillik verilməsi yeni inteqrasiya formalarının tədqiqi məsələsini qarşıya qoyur. YUNESKO və Avropa Birliyi təhsil islahatları konsepsiyasına uyğun olaraq qida, geyim və mənzillə yanaşı təhsil insanın əsas tələbləri qrupuna aid edilir. İnsanın tələbatlarından yaranan belə bir irəliləyiş bir sıra səbəblərlə bağlıdır. Bunların içərisində müasir istehsalın intellektuallığı mühüm rol oynayır. İndiki zamanda istehsalat və ictimai həyat surətlə dəyişir, inkişaf edir, buna müvafiq olaraq təhsil sistemi daim yeniləşmə və təkmilləşmə tələb edir. Çünki sosial, iqtisadi, mədəni, siyasi və başqa sahələrdə şəxsiyyətin mənəvi cəhətdən inkişafı müəllimlərin və tələbələrin əməkdaşlığını, eyni zamanda ali məktəbin yeni modelinin yaranmasını qarşıya qoyur.

İnsan gəncliyində seçdiyi peşəsindən və bəzən həvəsləndirildiyi, mükafatlandırıldığı iş yerindən yeni sahələrin yaranması səbəbindən öz fəaliyyətini dəyişdirmək zərurəti qarşısında qalır. Bu da onda yeni fəaliyyət sahəsinə dair bilik və bacarıqlara yiyələnmək zərurəti yaradır. Bununla yanaşı, insanın gəncliyində konkret peşə və ixtisas üzrə aldığı ümumi bilik və bacarıqlardan bütün həyatı boyu istifadə etməsi kifayət etmir. Buna görə də fasiləsiz (ömürboyu təhsilin) təhsilin zəruri olduğunu dərk edərək digər sahələrdə də özünü sınamaq məcburiyyətində qalır. Özünü təhsil sayəsində insan əmək və məişət qayğılarının dar çərçivəsindən ayrılaraq özünün bütün bəşəriyyətə mənsub olduğunu duymağa başlayır. Aldığı biliklər ona nəinki planetin əsas hadisələrindən xəbər tutmaq, həm də özünün əhatəsində baş verən zərərli hadisələrin qarşısını almaq üçün hansısa addımlar atmasını təmin edir.

Təhsil sisteminin təkmilləşdirilməsi, o cümlədən müəllim hazırlığının modernləşdirilməsi aşağıdakı istiqamətlər üzrə həyata keçirilməlidir: Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyası; Bolonya müddəalarının həyata keçirilməsi; fasiləsiz təhsil sisteminin qurulması; professor-müəllim heyətinin hərtərəfli hazırlığı; kadr potensialının yeniləşdirilməsi; təhsilin inkişafı üzrə Dövlət Strategiyasının və dövlət təhsil standartlarının tələblərini nəzərə alaraq bütün təhsil sferasında islahatların həyata keçirilməsi; təhsilə elm və texnikanın son nailiyyətlərinin gətirilməsi; fasiləsiz təhsil sisteminin idarə olunmasının təkmilləşdirilməsi.

İndiki dövrdə mütəxəssislərin öz iş yerlərində əmək fəaliyyətlərinin xüsusiyyətlərini nəzərə almaqla bilik və bacarıqlarının tələb olunan səviyyəyə qaldırılmasına daha çox diqqət vermək lazımdır. Bu halda peşə üzrə fasiləsiz inkişaf resurslarına çıxış özünü əks etdirir. Son illərdə mütərəqqi ölkələrdə pedaqoji təhsilin yaxşılaşdırılması üçün verilən təkliflərdə aşağıdakı yanaşmalar daha da diqqəti cəlb edir: peşə üzrə giriş proqramı; yeni müəllimlərə təcrübəli həmkarlar tərəfindən məsləhətlər verilməsi; işlədikləri təhsil müəssisəsində müəllimlərin hazırlanması və ixtisasartırma tələbatlarının müzakirəsi proqramı; formal və qeyri-formal təlimdə alınmış biliklərin sonradan tətbiqi ilə peşə üzrə fasiləsiz təhsilin yaradılması; peşə üzrə fasiləsiz təhsilin inkişaf imkanlarına çıxışın olması.

Fasiləsiz pedaqoji təhsilin əsas səviyyələrindən biri stajkeçənin sınaq ili prosesində universitet və ya kollec məzununun məktəb şəraitinə adaptasiya dövründə nəzəri və praktik cəhətdən hazırlanmasını əhatə edir. Bu stajkeçmə pedaqoji tədqiqatlarda elə bir proses kimi xarakterizə olunur ki, bunun nəticəsində pedaqoji tədris müəssisələrinin məzunları tədrisin bir ili dövründə öz bilik və qabiliyyətlərini nümayiş etdirməkdən ötrü lazımı addımlar atırlar. Bir çox xarici ölkələrdə ali məktəb məzunu bu dövrdə stajkeçən adlanır. Müəllimin bir mütəxəssis olaraq təşəkkülünə yönəlmiş olan bu proses təlimin mütərəqqi modelinə, pedaqoji dəstəyə və müəllimin bacarıq və səriştələrinin təkmilləşdirilməsinə əsaslanır. Fasiləsiz pedaqoji təhsilin səviyyələrindən biri də ali təhsil müəssisələrinin pedaqoji müəssisələri yanında, təhsil mərkəzləri yanında və yerli təhsil orqanları yanında, Təhsil və Elm müəssisələri yanında qısamüddətli və uzunmüddətli kurslar keçməyi nəzərdə tutur. Aydındır ki, ali təhsil sistemində olduğu kimi, müəllimlərin ixtisaslarının artırılması sferasında da təhsil trayektoriyasının çevikliyinin və müstəqil seçiminin rolunun artırılmasına yönəlmiş dəyişikliklər baş verir.

Peşə üzrə fasiləsiz təhsilin inkişafının ən geniş yayılmış yollarından biri də peşəkar müəllimlərin ümumi problemlərini birlikdə həll edən və öz kompetensiyalarını inkişaf etdirən birliklərin, cəmiyyətlərin formalaşmasıdır. Bu kimi müəssisələrin başlıca vəzifəsi müəllimlərin öz pedaqoji fəaliyyətləri müddətində yığdıqları praktik biliklərin müəssisələrdaxili mübadiləsidir.

Adətən müəllimlərin yenidən hazırlanması təkmilləşdirmə institutları və ya ixtisasartırma institutları bazasında həyata keçirilir. Digər tərəfdən, pedaqoji ali məktəblərdə və orta ixtisas məktəblərində, pedaqoji tədqiqat müəssisələrində müstəqil hazırlığın nəticələri üzrə ixtisas imtahanı vermək olar. İndiki dövrdə təkmilləşdirmə institutları əsas etibarilə ibtidai məktəblər üçün müəllimlərin yenidən hazırlanmasını üzərinə götürür. İxtisasartırma institutları isə təhsilin orta pilləsi üçündür. Bəzi ölkələrin təkmilləşdirmə institutlarında müəllimlər əyani, qiyabi və qısamüddətli stajkeçmə şəklində təhsil ala bilər.

Araşdırmalar göstərir ki, pedaqoji ali məktəblərin tələbləri arasında təbiət elmləri fənlərinin öyrədilməsi zamanı ümumiləşdirmə və təsnifat əməliyyatlarının başlanğıc səviyyəsinin mənimsənilməsinin yetərsizliyi özünü əks etdirir. Bu çatışmazlıq dəqiq və fundamental elmlərin tədrisində də özünü göstərir. Təhsilin keyfiyyət problemi onun məzmununa müxtəlif yanaşmalar, tədrisdə yeni təlim texnologiyalarının tətbiqi və s. kimi əhəmiyyətli məsələlər bu gün öz həllini gözləyir. Deməli, bu problemlərin həlli diplomdansonrakı təhsildə öz müsbət həllini əks etdirir.

Təhsil sferasında informasiya prosesi sürətlə inkişaf edir və bu vəziyyət informasiya kommunikasiya texnologiyalarının inkişafında öz əksini tapır. Bu baxımdan müəllimlərin müasir informasiya texnologiyalarının tələblərinə uyğun hazırlığı tədris prosesinin ayrılmaz tərkib hissəsinə çevrilməlidir. İndiki dövrün tələblərinə uyğun müəllim hazırlığı qarşısında çox ciddi tələblər qoyulur.Lakin bəzən müəllimlərin öz peşəsindən uzaqlaşması halları da özünü göstərir. Diplomdansonrakı təhsildə müəllimlərin öz sənətindən uzaqlaşmasının qarşısını almaq üçün yeni, daha yüksək əmək haqqı sistemi qurulması və yüksək peşəkarlığı ilə seçilən müəllimlərin əməyinin stimullaşdırılması həyata keçməlidir. Bu da müəllimlərdə cavabdehliyi və işinə məsuliyyəti artırır. Diplomdansonrakı hazırlıq prosesində bəzən müvafiq dəyişikliklərin olmaması, müəllimlərin psixoloji düşüncə tərzində informasiya qıtlığı və s. təhsilin keyfiyyətli həyata keçməsinə imkan

yaratmaya da bilər. Buna görə hazırlıq prosesində belə hallar aradan qaldırılmalıdır. Onda internatura təhsil sistemində qarşıya qoyulan məqsədə nail olunar.

Təfəkkürün yüksək səviyyədə inkişafı müasir tələblərə uyğun yeni anlayış-ların dərindən mənimsənilməsində rol oynayır. Hazırda məktəblərdə təlim və tərbiyənin geniş şəkildə alternativ forması həyata keçirilir. Respublikamızda «Təhsil haqqında» qanuna əsaslanaraq məktəblərdə yeni-dənqurma prinsipi müasir tələblərə uyğun olaraq həyata keçirilir. Bunlardan biri də müəllim hazırlığının yeni təlim texnologiyalarının tələblərinə uyğun modernləşdirilməsi və inteqrasiyasından ibarətdir. Yəni, pedaqoji prosesdə müəllimlərin metodoloci və metodiki jəhətdən hazırlığı və təkmilləşdirilməsi öz həllini tapmalıdır.

Dünya iqtisadiyyatının texnoloji inkişaf yoluna qədəm qoyduğu indiki zamanda formalaşdırılmış peşəkar müəllimlərin hazırlanmasına böyük ehtiyac vardır və bu məqsədlə dünya təhsil sistemində səriştəli müəllimlərin hazırlanması mühüm rol oynayır. Burada başlıca problemlərdən biri də istər öz ölkəmiz üçün, istərsə də dünya ölkələri üçün hazırlanan peşəkarların kəmiyyətcə yox, keyfiyyətcə fərqlənməsidir. Bunun üçün təhsilin keyfiyyəti və sağlam mühit qarşıya çıxan problemlərin həllində rol oynayır.

Bu prosesin əsas xüsusiyyəti insanın, istehsalın inkişafının sənaye mərhələsindən informasiya mərhələsinə keçidi ilə bağlı olan fəaliyyət növünün dəyişilməsidir. Bu proses təhsil məzunlarını həyata və hazırkı informasiya məkanında peşə hazırlığının yeni anlayışı üzərinə gətirir, həm də təhsilin məzmununun həyata keçilməsi istiqamətində ənənəvi təsəvvürlərə yenidən baxılmasını tələb edir. Yeni təhsilə keyfiyyətcə yeni tələblərdən, fəaliyyət növlərinin genişləndirilməsindən, təkmilləşdirilməsindən və onlara müvafiq yeni bilik, bacarıq, vərdişlərin inkişafından ibarət olmalıdır. Gənclər elə bir baza (əsas) peşə təhsili almalıdırlar ki, gələcəkdə onlara yeni peşələri asanlıqla mənimsəmək imkanı versin.

Cəmiyyətdə gedən dəyişikliklərə bu və ya digər formada təhsil sistemi çox həssas reaksiya verməlidir. Bu isə yeni əldə olunan nailiyyətlərdən doğan tələbatları təhsil sistemi qarşısında qoymalı, müəllimlərin (öyrədənlərin) müasir tələblər səviyyəsində təkmilləşdirilməsinin sistemli şəkildə, mərhələ-mərhələ həyata keçirilməsi təmin olunmalıdır. Bu şəkildə yeniləşmə aşağıdakı nəticələrin əldə olunmasına geniş imkanlar açır:

- təhsilin müasirləşməsi, yeniləşmələrə uyğunlaşması təbii proses kimi baş verir və həyata keçirilir;
- cəmiyyətdə müəyyən ənənəvi təhsil səviyyəsinə malik olan nəsil, yeni ideya və dünyagörüşünə malik olan gənc nəsillə əvəz olunur.

Respublikamızda diplomdansonrakı təhsildə (fasiləsiz təhsildə) həyata keçirilən islahatlarla bağlı olan başlıca məsələlərdən biri də müəllim heyətinin pedaqoji və psixoloji hazırlığa nail olmasıdır. Dəqiq fundamental və həm də humanitar fənləri tədris edən müəllimlərin öz ixtisasının və pedaqoji-psixoloji hazırlığının yüksək səviyyədə olması, onların keyfiyyətli elmi-metodik hazırlığı tədris prosesinin səmərəliliyini şərtləndirən əsas məsələlərdən biri kimi bu problemin aktuallığını daha da artırır.

İnternaturada müəllim hazırlığının rolu və əhəmiyyəti onların hazırlığının güclənməsində, fasiləsiz təhsil almasında, kompüter üzərində proqramlaşdırmanın öyrənilməsində, tədris proqramlarını (kurikumlarını), pedaqogikanın yeni sahələrini, elektron resurslarını və s. gündəlik izlənilməsində özünü əks etdirir.

Azərbaycan Respublikası iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiya edilməsi həm də təhsil sistemi qarşısında müasir tələblərə uyğun bilik, bacarıq və vərdişlərə yiyələnməsini qoyur, hansı ki, bu problemin həllində müəllim hazırlığının rolu misilsiz əhəmiyyətə malikdir. Bütün sahələrdə olduğu kimi, təhsil sistemində baş verən yenilik, yeniləşmələr, modernləşmələr beynəlxalq təcrübələrə uyğunlaşdırılmalıdır, həm də müəllimlərə yeni təlim texnologiyalarını mənimsətmək, fasiləsiz təhsilə qoşulmaq və müasir tələblərə uyğun mövqeni seçmək kimi problemlər qarşıda durur. Göstərilən faktlar müəllimlərin müasir dövrün tələbləri və problemləri şəraitində peşəkarlığının fəallaşdırılmasına səbəb olur.



**Ədəbiyyat**


1. Качество высшего профессионального образования в начале XXI века. Материалы всероссийской научно – методической конференции, 13-15 сентября 2002 г. Тюмень: Изд. – во ТюмГУ, 2002.
2. M. Mahmudov. Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı: Elm və təhsil, 2010.
3. M. Mahmudov. Dünyada təhsil sistemləri. Bakı: Mütərcim, 2014.


**М. Махмудов**

**Некоторые современные проблемы непрерывного образования**

*Резюме*

В статье нашли свое отражение различные подходы к роли новых образовательных технологий в решении некоторых современных проблем непрерывного образования.

**M. Mahmudov**

**Modern problems of continuous education**

*Summary*

The article deals with some modern problems of continuous education. It reveals the role of new educational technologies and approaches in its solving.

## ALİ TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİ ZAMANIN TƏLƏBİDİR

**Lalə Allahverdiyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*
E-mail: lale232@box.az

***Acar sözlər:*** *təhsil sistemi, müasir problemlər, pedaqoji kadr hazırlığı, inkişaf mexanizmi, keyfiyyətin yüksəldilməsi*
***Ключевые слова:*** *система образования, современные проблемы, обучение персонала, механизм развития, улучшение качества.*
***Key words:*** *education system, modern problems, pedagogical personnel preparation, development mechanism, quality improvement*

Ali təhsilin modernləşdirilməsinin əsasını iqtisadiyyat və sosial sahənin, elmin, texnikanın, təlim texnologiyalarının, əmək bazarının vəziyyəti və onların inkişaf planları təşkil edir. Ona görə də əmək bazarının ixtisaslı kadrlarla, o cümlədən beynəlxalq tendensiyalara uyğun tələbatları müəyyənləşdirmək üçün monitorinq sistemi yaradılmış, daha çox ehtiyac olan və tələb olunan istiqamətlər müəyyənləşdirilmişdir

Təhsil sistemində aparılan islahatların keyfiyyəti və səmərəliliyi ilk növbədə pedaqoji kadr hazırlığı sahəsindəki islahatlarla səciyyələnir. Azərbaycan Bolonya prosesinə qoşulmaqla qloballaşma və bazar iqtisadiyyatı şəraitində ali təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində böyük rolu oynayan addım atdı.

Avropa ölkələrinin təhsil sistemlərinin inteqrasiyası və Ümumavropa ali təhsil məkanının yaradılması təhsilin keyfiyyətinin yüksəldilməsində xüsusi əhəmiyyət daşıyır. Çünki təhsil sahəsində dünyada və xüsusən Avropada gedən proseslər göstərir ki, Avropa təhsil sisteminin digər ölkələrin təhsil sisteminə inteqrasiyasının yeganə yolu Bolonya prosesidir.

Bolonya prosesinə qoşulmanın bir sıra xüsusiyyətləri vardır: kredit sisteminin təhsildə tətbiqi tələbələrin fəallığına və praktik biliklərinin artırılmasına, onlarda tədqiqat vərdişlərinin yaranmasına təminat verir, onların təhsildə daha yüksək göstəricilər əldə etməsi üçün stimul yaradır, zəif tələbəyə öz potensialından axıra qədər istifadə etməsi üçün imkan yaradır.

Təhsilin modernləşdirilməsi təhsil sisteminin davamlı inkişaf mexanizminin yaradılmasından

ibarət olduğundan, qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıda qeyd edilənlərə xüsusi diqqət yetirilməli və nəzərə alınmalıdır:

- Təhsil almaq üçün dövlət təminatı verilməli, bərabər imkanlar yaradılmalı;
- Məktəbəqədər, orta ümumi, peşə ixtisas və diplomdan sonrakı təhsilin müasir tələblərə cavab verən keyfiyyətə çatdırılması;
- Təhsil işçilərinin sosial statusunun artırılması və peşəkarlığının yüksəldilməsi;
- Təhsilin əsas subyektlərinin və təhsil prosesinin bütün iştirakçılarının rolunun artırılması.

Yüksək ixtisaslı müəllim kadrlarının hazırlanması, müasir tələblərə cavab verən dərslik və dərs vəsaitlərinin olması, tədris prosesinin düzgün qurulması, fənn proqramlarının düzgün tərtibi amilləri də təhsilin keyfiyyətinin yüksəldilməsini şərtləndirir.

Müəllim kadrların hazırlanması üçün ali məktəblərə ixtisasını dərindən bilən kadrlar cəlb olunmalı, təhsilin keyfiyyətinin yüksəldilməsi üçün pedaqoji əməyin keyfiyyətinin də stimullaşdırılması vacib məsələlərdəndir.

Təhsilin keyfiyyətinə təsir edən amillərdən biri kimi müasir tələbata cavab verən dərslik və dərs vəsaitlərinin olmasını qeyd etdik. Məlumdur ki, sovet dövründə Azərbaycan dilində olan fundamental dərsliklərin əksəriyyəti kiril əlifbası ilə yazıldığından bu istiqamətdə də tədbirlərin görülməsi zəruri məsələ kimi ortaya çıxdı. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə bu mühüm problem həll yolunu tapdı.

Keyfiyyətin yüksəldilməsi yolunda tədris prosesinin düzgün qurulması da mühüm şərtlərdən biridir. Mütəxəssisi hazırlamaq üçün lazım olan fənlərin düzgün seçilməsi, fənlərin tədrisinin ardıcıllığı düzgün planlaşdırılmalıdır. Bunlar isə öz əksini tədris planında tapır. Bu baxımdan tədris planlarının tərtibinə xüsusi fikir verilməlidir. Fənn proqramları da yüksək keyfiyyətli kadr hazırlığı işində əhəmiyyətli dərəcədə rol oynayır. Təhsildə kredit sistemini tətbiq edən ölkələrdə fənn proqramlarından istifadə olunmaması müşahidə edilir. Ancaq Azərbaycan Respublikasının təhsil sisteminə uyğun olaraq fənn proqramlarından istifadə edilir və təbii ki, bu proqramlar kredit sisteminə uyğun olaraq təkmilləşdirilməlidir.

Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət proqramı" əsasında yeni təhsil kurikulumlarının hazırlanması prosesinə başlanmışdır. Təhsil sistemimizdə Avropa təhsil məkanına inteqrasiya edilməklə bərabər dünya təhsil sisteminin təcrübəsi öyrənilərək onun tətbiqi planlaşdırılır.

Aparılmış təhlillərdən bu qənaətə gəlmək olar ki, Bolonya Bəyannaməsinin müddəalarının tətbiqi təhsilin keyfiyyətinin təmin olunması sistemini yaradır. Bu sistemin tətbiqi əsas islahatlardan biri olmaqla, təhsilin cəmiyyət üçün daha faydalı qurulmasına imkan verir, bütünlükdə təhsilin modernləşdirmə yolu ilə yenidən qurulmasını təmin edir.

### Ədəbiyyat


1. Abbasov A. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərslik. Bakı: Mütərcim, 2013.
2. Ağamalıyev R. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, prioritetlər, islahatlar. Bakı: Təhsil. 1998.
3. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
4. Təhsil sisteminin idarə olunmasının pedaqoji-psixoloji problemləri / nəşrə haz.: prof. A.Abbasov. Bakı: Mütərcim, 2011.



**Л.З. Аллахвердиева**


**Требование модернизации высшего образования**


*Резюме*

В статье были исследованы реформы в системе образования и их причины, сделан анализ результатов реформ, которыми являются качество и эффективность системы образования.





**L.Z. Allahverdiyeva**


**Moderniging of higher education is demand of time**


*Summary*

In the article refirms on education system their reasons are searched, analysis about the results of reforms quality and effectiveness are given.


## ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİL ÜÇÜN BARİZ NÜMUNƏ


**Razim Məmmədov**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMİ*
E-mail: r_mamedli@mail.ru



***Açar sözlər:** pedaqoq alim, təhsil və tərbiyə, etik-əxlaqi norma, aktual problemlər*
***Ключевые слова:** ученый-педагог, образование и воспитание, этическо-моральная норма, актуальные проблемы*
***Key words:** prof-scientist, education, ethical norms, skillful person, actual problem*


Respublikamızda aparılan təhsil islahatlarının strateji məqsədlərindən biri də gənclərimizi savadlı və səriştəli şəxs kimi formalaşdırmaqdan ibarətdir. Bu məsələ isə "müəllimin akademik bacarığından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır" (1). Müasir dövrdə bu nəcib işi həyata keçirmək üçün nümunəvi keyfiyyətlərə malik elm və təhsil xadimlərinin, peşəkar müəllim və pedaqoqların təcrübəsindən, iş üslubundan faydalanmaq olduqca zəruridir. Belə fədakar və qayğıkeş müəllimlərdən biri də həyatının 66 ilini elmə və təhsilə həsr etmiş, 20 ildən artıq M.V. Lomonosov adına Moskva Dövlət Universitetində kafedra müdiri işləmiş porfessor Əziz Şərifdir.

Azərbaycan ədəbiyyatının yüksəlməsində, onun tədqiqi və tədrisi tarixində 66 illik yaradıcılıq xidməti olan Ə. Şərif M.V. Lomonosov adına Moskva Dövlət Universitetində, M. Qorki adına Ədəbiyyat İnstitutunda, SSRİ EA-nın Şərqşünaslıq İnstitutunda, A.S. Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunda və P.Lumumba adına Xalqlar Dostluğu İnstitutunda fədakar elm xadimi və peşəkar müəllim kimi şərəfli iz qoymuşdur.

Ə. Şərifin elmi və pedaqoji fəaliyyətinin bir qismi Tiflis ictimai-ədəbi mühiti, böyük bir qismi isə M.V. Lomonosov adına Moskva Dövlət Universiteti ilə bağlı olmuşdur. Alimin bu ali təhsil ocağındakı fəaliyyəti haqqında S. Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivindəki şəxsi fondunda, eləcə də müxtəlif nüfuzlu dövri mətbuat orqanlarında kifayət qədər fakt və materiallar mövcuddur.

"Moskovskiy universitet" qəzetinin əməkdaşı O. Qorçinski "Kommunist" qəzetinin 29 mart 1964-cü il tarixində çap etdirdiyi "Onlar Moskvada oxuyurlar" sərlövhəli məqaləsində professor Ə.Şərifin Moskva Dövlət Universitetindəki pedaqoji fəaliyyətinə yüksək qiymət verərək yazırdı: "Professor Əziz Şərif öz fəaliyyətini çoxdandır ki, Moskva Universiteti ilə bağlamışdır. O, xeyli vaxtdır ki, filologiya fakültəsində Qafqaz xalqlarının ədəbiyyatı üzrə mühazirə oxuyur. Əziz Şərifin rus dilində yazdığı dərs kitabı bu yaxınlarda buraxılmışdır. O, Azərbaycan ədəbiyyatının tükənməz inciləri ilə indiyədək nə qədər adamı tanış etmişdir" (4).

Ə. Şərif bir sıra qiymətli elmi-ədəbi, pedaqoji monoqrafiya və dərsliklərin müəllifidir. O, özünün müxtəlif dövrlərdə Azərbaycan ədəbiyyatı və onun tədrisi ilə bağlı yazdığı məqalələri kitab şəklində nəşr etdirmək üçün 2 dekabr 1970-ci il tarixində Lomonosov adına Moskva Dövlət Universitetinin filologiya fakültəsinin Elmi Şurasının sədri professor A.Q. Sokolova məktubla müraciət etmişdir: "Hörmətli Aleksey Qeorgiyeviç! Uzun müddətdir ki, mən ədəbi-tənqidi və elmi-pedaqoji işlə məşğulam. Bu sahədə mən çoxlu məqalə və oçerklər yazmışam. Onların əksəriyyəti müxtəlif qəzet və jurnallarda, elmi məcmuələrdə, nüfuzlu konfransın materiallarında çap olunub. Bu yazılarda əsasən ədəbiyyatımızın klassik ədəbi ənənələri və müasir ədəbi prosesləri öyrənilmişdir.

Bütün bunlar mənə əsas verir ki, Sizə müraciət edib mənim məqalələrimin toplu şəklində çap

olunması üçün Moskva Dövlət Universitetinin filologiya fakültəsinin bu elmi planına salmağınızı xahiş edim. Toplu 15-20 çap vərəqi həcmində nəzərdə tutulub. Hörmətlə, professor Əziz Şərif" (7).

M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin dekanı, professor L.Q. Axdriyevin Ə. Şərifin kitabının nəşri ilə bağlı SSRİ Ali və Orta İxtisas Təhsil Nazirliyinin elmi-metodik işlər idarəsinin rəisi professor A.J. Boqomolova ünvanladığı 25 noyabr 1974-cü il tarixli məktubu olduqca maraqlıdır. Müəllif məktubda Əziz Şərifin hazırladığı dərs vəsaitinin əhəmiyyətindən söhbət açır, onun çapının universitetin nəşriyyatında deyil, nazirliyin qrifi ilə "Vısşaya şkola" nəşriyyatında çap olunmasını məqsədəmüvafiq hesab edərək yazır: "Lomonosov adına Moskva Dövlət Universitetinin filologiya fakültəsinin Elmi Şurasının qərarına əsasən 20 ildən artıq universitetdə SSRİ xalqları ədəbiyyatını tədris edən və bu kafedraya rəhbərlik edən professor Ə. Şərifin dərs vəsaitinin nəşri nəzərdə tutulmuşdur. Bu dərs vəsaiti dövlət universitetlərinin filologiya fakültəsinin tələbələri üçün hazırlanmışdır.

Dərs vəsaiti iki hissədən ibarətdir. Birinci hissəyə SSRİ xalqları ədəbiyyatının qarşılıqlı əlaqələrindən söhbət açan məqalələr daxil edilmişdir. Kitabın ikinci hissəsinə isə Azərbaycan ədəbiyyatının ən görkəmli klassiklərinin və müasir ədəbiyyat xadimlərinin həyat və yaradıcılığını əks etdirən maraqlı məqalələr salınmışdır.

Ə. Şərifin hazırladığı dərs vəsaitinin tezliklə çap olunmasını akademik Q.J. Lomidze və professor D.S. Komissarovun müsbət yazılı rəyləri mövcuddur.

Moskva Dövlət Universitetində işlədiyi dövrdə Ə. Şərif Azərbaycan ədəbiyyatını yüksəltmək və təbliğ etməklə yanaşı, həm də ədəbiyyatımızla bağlı müxtəlif qeyri-obyektiv fikirlərə ciddi iradlar bildirmiş, bu yazıların müəlliflərinə sərt mövqeyi ilə seçilmişdir. R.Q. Bikmuxametovanın "Filoloji təhsil sistemində SSRİ xalqları ədəbiyyatı kursu" məqaləsində ədəbiyyatımızın ciddi təhrif olunduğunu görən Ə.Şərif jurnalın redaksiyasına açıq məktub yazmış və məqalədə göstərilən faktların əsassız olduğunu qətiyyətlə bildirmişdir. Alim yazır ki, məqalə müəllifinin qədim ədəbiyyatlardan və onların inkişafının tarixi mərhələlərindən danışarkən rus, gürcü, erməni, Ukrayna, Baltikyanı xalqların ədəbiyyatını əsaslandırmağa çalışır, Azərbaycan ədəbiyyatına gəldikdə isə onun qədim dövründən söhbət açır, sonra isə heç bir əsas və arqument olmadan ədəbiyyatımızın inkişafının sovet hakimiyyəti qurulduqdan sonrakı dövrə təsadüf etdiyini bildirir. Bu əsassız fikirlə heç cür razılaşmayan Ə. Şərif açıq məktubda yazır: "Mənim fikrimcə, müəllifin Azərbaycan ədəbiyyatı haqqında düzgün təsəvvürü olsaydı bu ədəbiyyat barəsində belə əsassız fikirlər yürütməzdi. Azərbaycan ədəbiyyatı min illərdir ki, inkişaf edir, eləcə də oktyabr inqilabından (Böyük Oktyabr sosialist inqilabı nəzərdə tutulur – R.M.) sonra da bu inkişaf səngiməmişdir. Azərbaycan ədəbiyyatının Qətran Təbrizi (X əsr), Nizami Gəncəvi (XII əsr), İ.Nəsimi (XIV əsr), M.Füzuli (XV əsr), Vidadi və Vaqif (XVIII əsr), M.Ş.Vazeh, Q.Zakir, M.F.Axundov, S.Ə.Şirvani (XIX əsr) və başqa kimi dühaları yetişmişdir. Mən ancaq o şairlərin adını çəkdim ki, onların poeziyası əsrdən-əsrə keçərək yalnız Azərbaycan ədəbiyyatına deyil, dünya ədəbiyyatına da güclü təsir göstərmişdir. Məhz, bu ədəbiyyat bütün dövrlərdə olduğu kimi oktyabr inqilabından sonrakı ədəbiyyata da güclü təsir göstərmiş və bütün dövrlərdə də göstərəcəkdir. R.Q.Bikmuxametova kimiləri bəşəri dəyərlərə malik olan faktları hər hansı xalqın tarixindən silmək iqtidarında deyil" (7).

Moskva Dövlət Universitetində Azərbaycan ədəbiyyatının əsl təbliğatçısına çevrilmiş Ə. Şərif müxtəlif millətlərin nümayəndələrindən olan tələbələrə, aspirantlara ədəbiyyatımızla bağlı diplom işləri və namizədlik dissertasiyaları mövzuları vermişdir. Onlardan L. Rinqo "Sabirin siyasi satirası", N.Tixomirova "Səməd Vurğunun yaradıcılığı", J. Qocayeva "Nizaminin ictimai utopiyası", Q. Raytses "Cəlil Məmmədquluzadənin yaradıcılığında kəndli surətləri", Q. Fəxrəddinova "Böyük dayaq" romanının monoqrafik təhlili", A. Pankratova "Azərbaycan nəsrində Bakı neftçilərinin surəti", L.M .Suravtsova "S. Rüstəmin lirikasında vətənpərvərlik", R. Somova "M. Rahimin "Leninqrad göylərində", "Abşeron torpağında" və "Xəzər sularında" poemaları əsasında yazdığı diplom işləri maraqla qarşılanmışdır.

Ə. Şərif elmi-pedaqoji fəaliyyətlə yanaşı, həm də gənc mütəxəssislərin hazırlanmasına da böyük qüvvə sərf etmiş, yetişdirdiyi aspirantların hamısı alimin zəhmətini puç etməmişlər. "Sovet Gürcüstanı" qəzetinin 12 may 1976-cı il nömrəsində dərc olunmuş "Əzizlərin Əzizi" sərlövhəli



məqaləsində böyük alim deyir: "Onlardan (aspirantlardan – R.Məmmədov) çox razıyam. İndiyədək 34 aspiranta elmi rəhbər olmuşam. Hamısı da necə deyərlər üz ağardıb. Orta Asiya, Qafqaz, Əfqanıstan, Hindistan və digər yerlərdən də aspirantlar hazırlamışam. Yazıçı Yusif Şirvan, şair Atif Zeynallı, alim-tərcüməçi Çingiz Hüseynov ilk aspirantlarım olublar" (8).

Azərbaycanın bir sıra tanınmış ədəbiyyatşünas alimləri Ə. Şərifi özlərinin müəllimi hesab etmiş, onların peşəkar tədqiqatçı kimi formlaşamalarında bu müdrik insandan çox şey öyrəndiklərini fəxrlə etiraf etmişlər. Belə ziyalılardan biri də istedadlı ədəbiyyatşünas alim, akademik İsa Həbibbəylidir. Onun Ə. Şərifə ünvanladığı məktubunda oxuyuruq: "... Sizin heyrətamiz zəhmətkeşliyiniz, böyük fədakarlığınız, Mirzə Cəlil irsi ilə əlaqədar formalaşdırdığınız möhkəm tədqiqat ənənələri mənə həmişə "müəllimlik" edib. Bunun üçün Sizə ürəkdən minnətdaram".

Həmin məktubda İ. Həbibbəyli bir neçə dəfə Ə. Şərifin dərsini dinləməsini, institutdakı görüşlər zamanı onun söhbətlərinə heyranlıqla qulaq asmasını və ondan çox şey öyrəndiyini minnətdarlıq hissi ilə xatırlayır: "Mən Naxçıvan Pedaqoji İnstitutunu bitirmişəm. Siz 1967-ci ilin oktyabr ayının 8-də bizə iki dəfə dərs demisiniz. Sonralar dəfələrlə institutumuzdakı görüşlər zamanı söhbətlərinizi diqqətlə, heyranlıqla dinləmişəm. Bütün çap olunan kitablarınızı oxumuşam. Bir sözlə, hamıdan çox Sizdən öyrənmişəm" (7).

Tələbələrlə pedaqoji ünsiyyəti düzgün quran, onlara elmi və pedaqoji ideyalar aşılayan, gənclərə düzgün yol və istiqamət göstərən Ə. Şərif müəllimlik peşəsindən zövq almış, tələbələrlə ünsiyyətdən mənəvi rahatlıq duymuşdur. "Moskovskiy universitet" qəzetinin müxbirinin ona verdiyi: – Əziz Əliyeviç, Siz artıq neçə illərdir ki, universitetdə müəllim işləyirsiniz. Müəllimlik sənəti Sizə nə verir? – sualını qayğıkeş müəllim belə cavablandırmışdır: "Çox böyük rahatlıq! Mən görəndə ki, gənclərin gözləri mənə zillənib, özümü çox yaxşı hiss edirəm. Siz bilirsinizmi, tələbələr mühazirələrə çox diqqətlə qulaq asır, mühazirələrimin predmeti ilə maraqlanırlar. Bu təəccüblü deyil. Ona görə ki, Azərbaycan xalqının ədəbiyyatı çox zəngindir" (6).

Ə.Şərifin fikrincə, milli-mənəvi dəyərlərimizin qorunması, təlim-tərbiyə işinin düzgün qurulması, onun yüksəldilməsi, müəllim nüfuzunun artırılması, layiqli vətəndaşların yetişdirilməsi xalqımız üçün həmişə prioritet məsələ olmuş və gələcəkdə də olacaqdır. Çünki "təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onun biliyi və etik davranış səviyyəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir" (1).

### Ədəbiyyat


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan" qəz., 2013, 24 oktyabr
2. Şərif Ə. Keçmiş günlərdən. II kitab. Bakı, 1986.
3. Şərif Ə. İllər və arzular. "Ədəbiyyat və incəsənət" qəz., 1964, 25 yanvar
4. Qorçinski O. "Onlar Moskvada oxuyurlar" məqaləsi. "Kommunist" qəz., 1964, 29 mart
5. Mişiyev A. Elm və mədəniyyətimizin ağsaqqalı. "Sovet Gürcüstanı" qəz., 1985, 9 aprel
6. "Moskovskiy universitet" qəz., 1976, 16 mart
7. S. Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivi, f.255, s.7, s.v.192, v.1;4; s.v.193, v.3, 7, 9
8. "Sovet Gürcüstanı" qəz., 1976, 12 may


**Р. Мамедов**

**Яркий пример для личночтно ориентированного образования**


***Резюме***

**Одной из стратегических целей образовательных реформ проводимых в республике является формирование нашей молодежи грамотными и способными личностями. Для успешной реализации этого деликатного дела сегодня очень важно воспользоваться передовым опытом видных деятелей науки и образования профессиональных учителей и педагогов. Одним из таких отважных и заботливых наставников является Азиз Шариф, человек посвятивший 66 лет своей жизни науке и образованию, проработавший в течение более чем 20 лет завкафедрой МГУ им. М.В. Ломоносова.**

**R. Mammadov**

**A good sample for education of personality**

*Summary*

One of the strategic goals of educational reforms carried out in our Republic is to formulate our youth as educated and skillful people. It is very important to benefit the experience of outstanding scientist of professional teachers in order to succeed in this noble mission. One of this kind and hardworking teachers is Aziz Sharif who dedicated 66 years of his life to education and science, worked as the head of Department at Moscow State University named after M.V.Lomonosov.

## ПЕДАГОГИЧЕСКАЯ МАСТЕРСКАЯ КАК ФОРМА РЕАЛИЗАЦИИ ДЕТСКОГО ЭНЕРГЕТИЧЕСКОГО ПРОЕКТА

**С. С. Воронков,**
*средняя школа №12*
*г. Санкт – Петербург*

То, что будоражило умы всех без исключения здравомыслящих людей, детей и взрослых, год назад случилось – человечество вступило в новый век и новое тысячелетие. Воспитание достойных жителей XXI века стало одной из важнейших задач работы педагогов, психологов, методистов. Благодаря разнообразным формам, методам, приемам обучения и воспитания ребята погружались в мир таинственной истории, рациональной математики, вдохновенной литературы, строгой физики, вездесущей биологии и многие другие миры. На основе этого формировалось мировоззрение, складывалась полноценная, адекватная картина окружающего мира, с которой и должно было подрастающее поколение войти в новый век.

Но как показывает практика, выпускники школ, обладая большим багажом знаний, совершенно не умеют применять их в реальной жизни. Для них затруднительно смотреть на вещи, в случае необходимости, иными глазами, логически преобразовывать всю систему понятий об окружающем мире для достижения целей своей работы, и в конечном итоге целей своей жизни. И это – серьезная проблема современной педагогики в целом и каждой школы, каждого педагога в частности. Школа №12 Василеостровского района Санкт – Петербурга не являлась исключением до недавнего времени. Но с 1999 года в ней стал работать Клуб, в который вошли юные любители биологии, экологии, психологии, химии. Почему не "кружок", а "Клуб"? Потому, что любой ученик может прийти, пообщаться, получить консультацию у педагога или помощь у товарища (не стоит забывать, что этот коллектив разновозрастный), принять участие в дискуссиях, конференциях, экскурсиях и мастерских.

Результаты мастерской четко не программируются мастером детально. Это может быть и только развитие мотивации к дальнейшему познанию, а может и создание завершенных проектов на основе открытых знаний.

Работу по детскому энергетическому проекту мы также решили провести в форме мастерской, посчитав эту форму работы, на основании всего вышеперечисленного, оптимальной для решения сложнейших вопросов энергосбережения.

Мастерская носит название "Каким теплом согреты?". Её цель – создать условия для всестороннего раскрытия и понимания учениками понятий "энергия", "энергетика", осознания сущности энергетических процессов в природе, их роли в жизни человека.

Предполагаемый результат мастерской: создание проекта – модели оптимального энергосбережения человека. Этапы мастерской и их описание:

1) Приветствие собравшихся

Слово мастера: зачитываются короткие отрывки из детских сказок "Морозко", про Василису Прекрасную, про Бабу Ягу, про Змея Горыныча и т. п.



Задание: попробуйте мысленно перенестись в события этих сказок, представить себя героями и описать, что заставляет вас двигаться, извергать огонь, согреваться от мороза.

Ученики: работают индивидуально, потом желающие высказываются.

Посадка: классическая или по группам (произвольно).

2) Задание: уже не раз в ваших высказываниях звучало слово "тепло". Какие ассоциации оно у вас вызывает? Запишите их.

Сходите в гости к своим одноклассникам, дополните свои списки и поделитесь своими мыслями.

Запишите на доске самые интересные, на ваш взгляд, ассоциации.

Ученики: работают индивидуально и коллективно.

3) Задание: а сейчас попробуйте сформулировать и перечислить, какие вопросы у вас возникали в детстве или возникают сейчас по поводу всего вышеперечисленного?

Ученики: предлагают варианты – откуда тепло в теле человека? Откуда тепло в батареях? Откуда свет в лампочке? и т. д.

4) Задание: для ответов на все эти вопросы мы разделимся на группы. Все эти вопросы объединяет одно общее слово, один общий ответ – "энергия". Давайте изучим это понятие.

Ученики: получают материалы для работы в группах:

I группа – ядерная и ветровая энергия;

II группа – солнечная, тепловая и геотермическая энергия;

III группа – гидроэнергия и гравитационная энергия;

IV группа – химическая, биохимическая энергия;

V группа – психическая энергия.

Ученики самостоятельно изучают предложенные им материалы, обсуждают прочитанное, пытаются собрать из предложенных вещей (бумага, картон, клей, пластилин, настольная лампа, вентилятор, емкости с водой, миниатюрный электронагреватель) элементарные модели, рисуют, пишут рассказы и т. п.

Далее – выступления представителей групп.

5) Мастер: руководствуясь расстановкой мебели на мастерской (столы образуют пятиугольник), мастер предлагает натянуть веревочки от 1, 2 и 3 столов к двум стульям, стоящим в центре класса и снабженным чистыми табличками.

Задание: вы изучили различные виды энергии. Из них получают два самых важных для нас вида. Давайте подпишем таблички ("электромагнитная" и "механическая").

Не возникли у вас вопросы по поводу веревочек? Давайте это обсудим.

Ученики: получают карточки с заданиями на группу:

Столы № 1, 2, 3 – обсудить достоинства и недостатки своих источников энергии, столы 4, 5 – обсудить возможности получения электротока из их энергий.

В процессе обсуждения можно "ходить в гости", дополнять выводы друг друга. Далее – выступления.

6) Мастер: вводит понятие "энергетика".

Задание: дайте определения этому слову, приведите ваши мысли, ассоциации.

Ученики: работают индивидуально и в группах. Выдвигаются предположения о том, что энергетика – это наука и отрасль хозяйства человека.

Задание: ответить на вопросы энергосоциометрии: С каким видом энергии вы бы объединились для совместной службы человеку? Какой источник энергии вы считаете невыгодным, неэффективным в энергообеспечении человека?

Примечание: Данная методика является психологической и отражает взаимосвязи людей в небольшом коллективе. С помощью нее у ученика сложится первичное представление о будущей энергетической модели, интегрирующей в себе самые эффективные источники энергии.

7) Перегруппировка: необходимо сесть так, чтобы в каждой новой группе было по одному представителю от старой.

Задание: используя знания о различных видах энергии, их достоинствах и недостатках попробуйте создать универсальную модель – источника электрического тока и механической энергии.

Ученики: работают в группах, озвучивают результаты.

Рефлексия. Это метод самоанализа своих чувств, эмоций, отношения к происходящему, «потерь и приобретений» в процессе работы на мастерской. Подведение итогов. Окончание мастерской.

Мастерская завершена. На столах остается огромное количество накопленного за это время материала: списки ассоциаций, детские вопросы, рассуждения, выводы, наброски и окончательные варианты проектов. Получили бы мы это, проводя работу по традиционной технологии? Я сомневаюсь. Безусловно, подготовка мастерской и ее проведение требует больше времени и сил от преподавателя, чем подготовка урока.

Но силы потрачены не впустую. Ведь ребята сами пришли к своим выводам, сами сделали открытия. Кроме того, почти у каждого ученика остается какой-то "огонек", стимул продолжить эту работу, еще что-то с чем-то объединить, создать свою новую модель. А может быть ему просто захочется выключить лишний свет, понимая, что пока еще наши электростанции не такие совершенные, или согреть теплом своего дома, а главное, своего сердца, замерзающее на улице животное. Вот и свершилось экологическое воспитание.

**Литература**


1. Гримак Л.П. Резервы человеческой психики. М. Политическая литература. 1987.
2. Окунев А.А. Урок? Мастерская? Или… СПб, Просвещение. 2001
3. Энциклопедический словарь юного техника. М. Педагогика. 1988.


## İBTİDAİ SİNİFLƏRDƏ AZƏRBAYCAN DİLİ TƏLİMİ PROSESİNDƏ ŞƏXSIYYƏTYÖNÜMLÜLÜYÜN NƏZƏRƏ ALINMASI


**Bibixanım İbadova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTPİ*



***Açar sözlər:*** *şəxsiyyətyönümlülük, nitq mədəniyyəti, dəyər, kompetensiya, inteqrativlik.*
***Ключевые слова:*** *личностно-ориентированное, культура речи, интегративность, ценность, компетенция.*
***Key words:*** *curriculum, language, integrative, subject, communicative skills*


Azərbaycanda aparılan təhsil islahatı nəticəsində fənyönümlü təhsil sistemindən şəxsiyyətyönümlü təhsilə keçildi. Şəxsiyyətyönümlülük ifadəsinə müxtəlif aspektdən yanaşılır: Müəllim-şagird münasibətlərində şəxsiyyətyönümlülük, səriştəyə əsaslanan təhsilin məzmununda şəxsiyyətyönümlülük və s.

2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli kurikulumu)" sənədi və 2007-ci ildə onun əsasında "İbtidai siniflər üçün fənn kurikulumları" hazırlanıb təsdiq edildi. Fənn kurikulumları şəxsiyyətyönümlü olub şagirdlərdə daha çox kompetensiyaların formalaşmasına istiqamətlənmişdir. Yəni şagird məzmunu mənimsəməklə yanaşı, öyrəndiklərini praktik şəkildə tətbiq etməyi bacarmalıdır. "Şəxsiyyətyönümlü kurikulumlar bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikuluma görə, insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktiki bacarıq və vərdişlər əhatə edilir, onun əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilir" [1, səh.33].

7 ilə yaxındır ki, ümumtəhsil məktəblərinin ibtidai siniflərində fənn kurikulumları tətbiq olunur. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisində əsas məqsəd kiçikyaşlı məktəblilərin şifahi və yazılı nitq inkişafının istiqamətlərini müəyyən etməkdir Bu vaxta qədər məktəbdə təhsil alan hər bir şagirdin Azərbaycan ədəbi dilinin normalarına yiyələnməsi ön plana çəkilirdi. Bu gün isə



Azərbaycan dili fənn kurikulumunda şagirdlərdə nitq mədəniyyəti, kommunikativ bacarıqların formalaşdırılması fənnin əsas məqsədi kimi nəzərdə tutulmuşdur. Azərbaycan dili üzrə ibtidai sinfin sonunda gözlənilən nəticələr sənəddə aşağıdakı kimi verilmişdir:

- sərbəst, düzgün, sürətlə, şüurlu, ifadəli oxuyur və savadlı yazır;
- dialoqa girir, öz fikirlərini sərbəst və ardıcıl ifadə edir;
- oxuduğu və dinlədiyi mətnlərə münasibət bildirir;
- ayrı-ayrı mətnlərdən əsas faktları seçib qruplaşdırır, kiçikhəcmli mətnlər qurur;
- Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi dəyərləri, mədəniyyəti incəsənəti, adət-ənənələri haqqında ilkin məlumatları sadə formada təqdim edir;
- lüğətlərdən, məlumat kitablarından, kataloqlardan istifadə edir [3,15 səh].

Əvvəlki proqramlardan fərqli olaraq, Azərbaycan dili fənn kurikulumu inteqrativ xarakterə malikdir. Yəni artıq oxu və yazı ayrıca deyil, fənn üçün müəyyən edilmiş məzmun xətləri dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydaları bir-birilə əlaqəli, inteqrativ tədris olunur. Dilin öyrədilməsi yaradıcı bir prosesdir. Dil və nitq təfəkkürün, idrakın inikasıdır. Dili öyrənməklə şagirdin yaradıcı təfəkkürü inkişaf edir. Yaradıcı təfəkkür isə şəxsiyyətin formalaşması üçün mühüm amillərdəndir. Şagirdin şəxsiyyət kimi formalaşmasında dinləmə, fikrini sərbəst ifadə etmə bacarıqları mühümdür. Bu, oxu və dil qaydalarına yiyələnməklə mümkündür. Dil qaydalarına yiyələnmək dedikdə, nitqin düzgünlüyü, səlisliyi, aydınlığı nəzərdə tutulur. Həmin bacarıqlar məzmun standartlarında öz əksini tapmışdır. Məsələn, "1. 1.2. Dinlədiyi fikrə münasibətini bildirir", [3, 21]. "2.2.6. Müxtəlif bədii mətnləri (nəzm, nəsr) fərqləndirir" və s. [3, 22].

Məzmundakı yenilik təlim strategiyalarında da yeniliyə səbəb oldu. Standartlardakı fəaliyyətlər (münasibət bildirir, fərqləndirir və s.) təhsilalanları tədqiqatçılığa, axtarışa, təhsilverənləri isə müasir təlim texnologiyalarından, İKT-dən, kollektiv, qruplarda, cütlərdə, fərdi iş formalarından istifadə etməyə yönəldir. Bu isə müəllimdən yüksək peşəkarlıq tələb edir.

Məzmun standartlarının reallaşmasında dərsliklər də xüsusi əhəmiyyətə malikdir. "Şagirdləri fəaliyyətə sövq etməklə tətbiqi xarakter daşıması yeni dərsliklərin əsas keyfiyyətlərindən hesab edilir, onlarda bacarıqları formalaşdıra bilmək imkanının olması üstün cəhət kimi dəyərləndirilir. Bunun üçün kifayət qədər müxtəlif növ çalışma və tapşırıqlardan istifadə edilməsi tələb olunur" [2, 15]. Fənlər üzrə yeni təhsil proqramlarına (kurikulumlara) uyğun hazırlanmış dərsliklər, o cümlədən Azərbaycan dili dərslikləri şagirdlərin məntiqi, yaradıcı və tənqidi təfəkkürünün, şifahi və yazılı nitqinin inkişafına, vətənə məhəbbət, milli adət-ənənələrimizə bağlılıq və s. kimi dəyərlərin formalaşmasına imkan yaradır.

Azərbaycan dili , eyni zamanda, digər fənlər üçün açardır. Səlis oxuya bilməyən, oxuduğunun məğzini dərk etməyən şagirdin hər hansı fəndə yüksək uğur qazanması qeyri-mümkündür.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan dili fənn proqramının ibtidai siniflərdə tətbiqi gənc nəslin şəxsiyyət kimi formalaşmasına zəmin yaradır.

**Ədəbiyyat**


1. Abbasov Ə.M., Yeni kurikulumlarının səciyyəvi xüsusiyyətləri. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, 2008.
2. İsgəndərov İ. Yeni dərsliklər necə olmalıdır? // Kurikulum", 2008, № 2
3. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.



**Б.Ибадова**

**Учет личностно-ориентированности в процессе обучении азербайджанского языка в начальных классах**

***Резюме***

Одним из основных целей образовательных реформ является личностно-ориентированность. В основном это было учтено при составлении курикулума Азербайджанского языка. Курикулум Азербайджанского языка формирует речевую культуру и коммуникативные навыки школьников. Новый курикулум языка носит интегративный характер. Способность слушать и понимать, говорить, читать и писать не преподаются по отдельности, а связаны между собой в единой форме. Это также помогает понимать речевую культуру, которая является одним из факторов формирования личности.

B.Ibadova

**Taking into account personal-orientation in the process of learning the Azerbaijani language in primary school**

*Summary*

One of the main goals of education reform is a student-oriented. This was mainly accounted for in the preparation of curriculum Azerbaijani language. Curriculum of Azerbaijan language forms of speech culture and communication skills of students. New Curriculum language have an integrated character. The ability to listen and understand, speak, read and write are not taught separately and connected to each other in a uniform manner. It also helps to understand the culture of speech, which is one of the factors of personality formation

## ELEKTRON TƏDRİS LÜĞƏTLƏRİ

**Qurban Qurbanlı**
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent Naxçıvan Dövlət Universiteti*
E-mail: qurbanliqurban1@gmail.com

***Açar sözlər:*** *elektron leksikoqrafiya, tədris leksikoqrafiyası, elektron tədris lüğətləri, tədris vəsaitləri, Azərbaycan dili*
***Ключевые слова:*** *электронная лексикография, учебная лексикография, электронные учебные словари, средства обучения, азербайджанский язык*
***Key words:*** *electronic lexicography, teaching lexicography, electronic learning dictionaries, teaching aids, Azerbaijani language*

Elektron leksikoqrafiyanın mühüm bir qolunu elektron tədris lüğətləri təşkil edir. İqtisadi-siyasi və mədəni əlaqələrin intensiv şəkildə artdığı və getdikcə genişləndiyi müasir dövrdə xalqların birbaşa ünsiyyəti məsələlərinə diqqətin artırılması zəruridir. Birbaşa ünsiyyət isə daha çox dillərin öyrənilməsi, elmi-texniki, mədəni sahələrdə qarşılıqlı yaxınlaşma nəticəsində reallaşa bilər. Bu məsələdə elektron tədris vasitələri, o cümlədən dillərin öyrənilməsinə istiqamətlənmiş lüğətlər mühüm vasitədir. Elektron tədris lüğətlərinin başqa lüğətlərdən üstünlüklərini şərtləndirən cəhətlər aşağıdakılardır:

- elektron tədris lüğətlərinin auditoriyası çox genişdir. İnternetə çıxışı olan istənilən istifadəçi dünyanın hansı ölkəsində yaşamasından asılı olmayaraq bu lüğətlərdən bəhrələnməklə arzuladığı dili öyrənə bilər;
- elektron tədris lüğətləri sərhəd tanımır, ictimai-siyasi quruluşundan, demokratik dəyərlərə, insan hüquqlarına münasibətdən asılı olmayaraq, istənilən ölkədə bu lüğətlərdən maneəsiz istifadə etmək olar;
- bu qəbildən olan lüğətlərdən istifadənin daha səmərəli və optimal olması üçün sözlərin dünyanın dillərində transkripsiyası, tələffüzü də verilə bilər. Tələffüz edilən söz və ifadələr istifadəçilərin öyrənmək istədikləri dilə daha dərindən və səmərəli şəkildə yiyələnmələrinə imkan yaradır;
- elektron tədris lüğətlərində lazım gəldikdə audio və video materiallardan istifadə etmək olar. Bu öyrənilən dilin mənimsənilməsini daha da asanlaşdırır. Audio və video materiallar xarici dilin mənimsənilməsi prosesində əyani vasitə funksiyası daşıyır;
- nəzərə almaq lazımdır ki, müəyyən dildə danışan hər bir auditoriya üçün tədris lüğətləri fərqli şəkildə hazırlanmalıdır. Məsələn, Azərbaycan dilini öyrənmək istəyən ingilisdilli auditoriya üçün nəzərdə tutulmuş elektron lüğətləri və digər tədris vəsaitləri rusdilli auditoriyada istifadə oluna bilməz. Həmin lüğətin eyni zamanda rusdilli istifadəçilərə təqdim olunması məqsədəuyğun deyil və onun səmərəsi gözlənilən dərəcədə olmayacaq;
- ingilis dilində hər hansı bir sözün dəqiq tələffüzünü istifadəçiyə mənimsətmək üçün həmin sözü Azərbaycan dilindəki sözlə əlaqələndirib izah etmək lazımdır. Bu rusdilli öyrəncilər üçün səmərəli sayıla bilməz. Onlar üçün daha çox Azərbaycan və rus dillərində ayrı-ayrı sözlərin qarşılaşdırılması və bu kontekstdə izah səmərə verə bilər.



Bu sadalananlar elektron tədris lüğətlərinin praktik istifadəsinin ən ümumi cəhətlərini əhatə edir. Konkret situasiyada bir çox başqa cəhətlər də aşkarlana bilər ki, bunların da sistemləşdirilməsi və təhlili daha mükəmməl tədris lüğətlərinin və vəsaitlərinin yaradılması üçün əsas rolunu oynaya bilər.

Elektron tədris vasitələri və lüğətlərinin yaradılması məsələləri dövlət səviyyəsində də haqlı olaraq narahatlıq doğurur. "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında Azərbaycan Respublikası Prezidentinin 23 may 2012-ci il tarixli sərəncamında bu haqda deyilir: "Azərbaycan dilində internet resurslarının qıtlığı, elektron və interaktiv dərsliklərin yoxluğu, Azərbaycan dilini öyrənən əcnəbi dilli insanlar üçün tədris vəsaitlərinin bir çox hallarda müasir tələblərə cavab verməməsi narahatlıq doğurur. Sovet dövründə Azərbaycan dilçilərinin dünya elmində gedən proseslərdən təcrid olunması ilə ölkəmizdə dilçilik sahəsindəki nəzərə çarpan boşluq hələ də aradan qaldırılmamışdır".

Sərəncamdan da aydın göründüyü kimi, müasir dövrdə müstəqil Azərbaycan Respublikasında internet resursların yaradılması, interaktiv dərs vəsaitlərinin, elektron tədris lüğətlərinin tərtib olunub hazırlanması sahəsində dönüş yaradılması vaxtı çatmışdır.

Məsələn, ingilis dilində danışan, ingilisdilli əcnəbilər üçün Azərbaycan dilində tədris vəsaitinin hazırlanması çox vacib məsələdir. Analoji olaraq, rusdillilər üçün də xüsusi olaraq belə bir dərsliyin hazırlanması zəruridir. Gələcəkdə bu işlərin coğrafiyasını və səmərəliliyini artırmaqla Azərbaycan dilinin əcnəbilərə öyrədilməsi sahəsində dönüş yaratmaq olar.

Elektron avadanlığın tədris prosesinə cəlb olunması Azərbaycan təhsil sistemində yeni yanaşma metodlarının işlənib hazırlanması və tətbiqini ön plana çəkmişdir. Kompüterlər təhsilin ilk pillələrində ibtidai siniflərdə də uğurla istifadə olumaqdadır. Tədris proqramlarının elektron variantlarının internetə qoyulması təkcə şagirdlərin deyil, valideynlərin də bu proqramla tanış olmasına, lazım gəldikdə dərsə hazırlaşma prosesində uşaqlara düzgün istiqamət seçməkdə köməklik göstərməsinə imkan yaradır. Məktəb proqramı çərçivəsində orta məktəb şagirdləri üçün nəzərdə tutulmuş orfoqrafiya, orfoepiya, izahlı, ikidilli və çoxdilli tərcümə lüğətlərinin, xarici dillərin tədrisi ilə bağlı hazırlanmış dərslik və danışıq kitabçalarının mükəmməl elektron variantlarının yaradılması və elektron məkanda yerləşdirilməsi qısa zamanda həyata keçirilməlidir. Əks halda, Azərbaycan təhsili dünyadan təcrid olunmuş vəziyyətə düşmüş olar. Əgər orta məktəb dərslikləri, dərs vəsaitləri, müxtəlif tipli lüğətlər internetdə yerləşdirilmiş olsa, dərslik çatışmazlığı və axtarışı probleminə son qoyular. Şagirdlərin kitab əldə etmək üçün kitab mağazalarına, kitabxanalara getməsinə ehtiyac duyulmayacaq. İnternetin vasitəçiliyi ilə kitabxana hamının evinə gələcək, hamının evində zəngin elektron kitabxana olacaq.

Elektron tədris lüğətləri hazırlanarkən təhsilin səviyyələri hökmən nəzərə alınmalıdır. İbtidai siniflər üçün olan tədris lüğətləri onların səviyyəsinə uyğun leksikanı əhatə etməkidir. Lazım gəldikdə orada şəkil və səsli tələffüz elementlərindən isifadə oluna bilər. Məsələn, əgər biz şagirdə dovşan haqqında məlumat vermək istəyiriksə, onun Azərbaycan, ingilis, rus və ya başqa dillərdə tələffüz formalarını da səsli izahla verməli, "dovşan" sözünü cümlələrdə işlətməli, onun rəngli şəkillərini nümayiş etdirməli və dovşanla bağlı şeir və mahnılardan parçalar səsləndirməli və yazılı şəkildə nümayiş etdirməliyik. Belə elektron tədris lüğətlərinə müxtəlif modifikasiyalarda internetdə rast gəlmək mümkündür. Həmin nümunələr əsasında Azərbaycan məktəblərinin ibtidai sinifləri üçün orijinal tədris lüğətləri hazırlamaq olar. Tədrisdə istifadə olunduqca, sınaqdan keçə-keçə həmin lüğətlər təkmilləşəcək, nəticədə müasir təhsilə, dünya standartlarına uyğun gələn elektron tədris lüğəti alınacaqdır.

Təbiidir ki, orta məktəbin yuxarı sinifləri üçün nəzərdə tutulmuş tədris lüğətləri həm strukturuna, həm də mahiyyətinə görə fərqli olacaq. Burada strukturu və mahiyyəti müvafiq siniflər üçün nəzərdə tutulmuş tədris proqramları müəyyənləşdirir. Təhsilin yuxarı pillələrində – ali məktəblərin bakalavr və magistratura pillələrində, eləcə də doktoranturalarda tədris lüğətlərinin daha mükəmməl və mürəkkəb formalarından istifadə olunur. Burada artıq dərin ixtisaslaşma gedir və ayrı-ayrı sahələri əhatə edən terminoloji leksika ön plana keçir.

Elektron tədris lüğətlərinin strukturu və məzmunu ilə daha dərindən və konkret tanış olmaq üçün axtarış sistemlərinə müraciət etmək olar. Azərbaycan tədris lüğətlərinin də müxtəlif axtarış sistemlərində tapıla bilməsi üçün və internetdə öz layiqli yerini tutması üçün hələ çox işlər görülməlidir.


**Ədəbiyyat**

1. Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı (http://www.president.az/articles/7744)
2. Əliquliyev R., Ələkbərova İ. Vikipediya. Virtual ensiklopediya. Bakı: İnformasiya Texnologiyaları, 2012.
3. Qurbanlı Q. Elektron lüğətlər və onlardan təhsildə istifadə imkanlarına dair. – Bakı Qızlar Universitetinin elmi əsərləri, №2 (16). Bakı, 2013.
4. Mahmudov M. Kompüter dilçiliyi. Bakı: Elm və təhsil, 2013.
5. 5.http://www.dilmanc.az/az
6. 6.http://az.wikipedia.org/wiki/dilmanc
7. www.poliglot.az



**Г. Гурбанлы**

**Электронные учебные словари**

***Резюме***

В работе представлены сведения об электронной учебной лексикографии как составной части учебной лексикографии вообще. В ней характеризуются виды и типы существующих электронных учебных словарей, определяются место и роль их среди средств обучения, в том числе учебных пособий на различных ступенях образования в условиях широкого применения информационно-коммуникативных технологий, также говорится о проделанной работе в этой области и ее перспективах в Азербайджане.

**G. Gurbanli**

**Electronic learning dictionaries**

***Summary***

The work informs about the electronic-teaching lexicography as a part of general teaching lexicography. It characterizes kinds and types of existing e-learning dictionaries. It defines their place and role among the teaching aids in the different levels of education in the condition of widespread use of ICT. It also deals with the work done and to be done in this field in Azerbaijan.


# КРЕАТИВНЫЕ ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ ОБУЧЕНИЯ ИНОСТРАННОМУ ЯЗЫКУ В ФОРМИРОВАНИИ ЭКОЛОГИЧЕСКОЙ КУЛЬТУРЫ СТУДЕНТОВ


**Н. И. Соколова,**

*старший преподаватель, к. пед. н., доцент Финансового Университета*

*Москва*

E-mail: Ntlsokol668@gmail.com



***Key words:*** ecological culture, creative technology, pedagogical designing


На основе исследований подтверждено, что от выбора педагогической технологии зависит характер достигаемых результатов образования. Основными побудительными причинами, которые порождают возникновение и практическое использование педагогических технологий, называют следующие:

- необходимость внедрения в педагогику системно/деятельностного подхода;
- потребность в осуществлении личностно/ориентированного обучения во всех звеньях образовательной системы;
- возможность экспертного проектирования технологической цепочки процедур, методов, форм взаимодействия учеников и учителя, обеспечивающих гарантированные результаты обучения в вузе».

В качестве критериев того, что деятельность преподавателя в некотором фрагменте педагогического процесса протекает на технологическом уровне, могут быть выделены следующие:

- наличие чётко и диагностично заданной цели, т. е. корректно/измеримого представления понятий, операций, деятельности студентов как ожидаемого результата обучения, способов диагностики достижения этой цели;
- представление изучаемого содержания в виде системы познавательных и практических задач, ориентировочной основы и способов их решения;
- наличие достаточно жёсткой последовательности, логики, определённых этапов усвоения материала;
- указание способов взаимодействия участников учебного процесса на каждом этапе, а также их взаимодействие с информационной техникой;
- мотивационное обеспечение деятельности преподавателя и студентов, основанное на реализации их личностных функций в этом процессе (свободный выбор, креативность, состязательность, жизненный и профессиональный смысл);
- указание границ правилосообразной (алгоритмической) и творческой деятельности преподавателя, допустимого отступления от единообразных правил;
- применение в учебном процессе новейших средств и способов переработки информации;
- полная управляемость процессом обучения;
- гарантированность конечного результата.

Таким образом, можно констатировать, что педагогические технологии проектируют не только механизм управления педагогическим процессом, но и механизмы воздействия на личность студента.

На настоящий момент существует несколько нетрадиционных, креативных подходов к обучению:

- бихевиорально/технологический подход, основанный на стимульно/реактивном научении как главном объяснении человеческого поведения;
- компьютерная метафора, идеей которого является представление о том, что работа компьютера является подобием работы мозга человека, а перерабатываемая компьютером информация сравнивается со знаниями и поведением человека;
- теория поэтапного формирования умственных действий. П. Я. Гальперин, являясь основателем данной теории, развивал идеи о порождении познавательных процессов путём перехода от практической деятельности к внутренней психической;
- контекстное обучение, при котором основным понятием является контекст. Объяснение любого психического явления требует изучения как контекста, в котором оно происходит, так и внутренней природы самого явления [2] .

Каждый из вышеперечисленных подходов, помимо очевидных достоинств, имеет и ряд недостатков. Например, «теория поэтапного формирования умственных действий» ограничена сферой применения, так как не любое содержание поддаётся превращению в материальные действия, а в «компьютерной метафоре» не следует считать машину основанием концепции образования. Компьютер может быть лишь средством обучения. Не смотря на эти недочёты, нельзя отрицать огромного образовательного креативного потенциала данных педагогических технологий.

В настоящее время сформировался ряд инновационных педагогических технологий, таких как «проблемное обучение», «модульное обучение», «развивающее обучение», «активное (комплексное) обучение» и др. Некоторые из них отличаются от традиционного объяснительно/иллюстративного подхода лишь психологической основой и отношению к обучаемому. Но в педагогическом управлении в таких технологиях появляется новая черта — обратная связь от учащегося к педагогу.

Помимо перечисленных подходов существует большое количество образовательных систем, теорий, технологий, таких как методическая система интенсивного обучения В. Ф. Шаталова, коллективный способ обучения В. К. Дьяченко, когнитивно / аффективная модель (Ф.

Уильямс) и др. Можно с уверенностью сказать, что данные технологии, имея целью развитие познавательной активности личности, её творческих способностей, обладают высокой эффективностью при подготовке компетентного специалиста. Но для формирования ключевых учебных компетентностей (какой является экологическая компетентность) необходимы учебные задачи проектного характера .

Проанализировав различные педагогические подходы и образовательные технологии в области окружающей среды, можно констатировать, что интеграция знаний по экологии может осуществляться на основе междисциплинарных понятий, и их круг достаточно обширен, например, иностранный язык и экология и т. д. Специфической особенностью этих понятий является то, что они кроме познавательного аспекта несут ценностно/нормативную нагрузку. К числу таких понятий можно отнести «окружающую среду человека», «ноо/сферу», «здоровье человека», «устойчивое развитие», «загрязнение окружающей среды» и др. Это означает, что возможна интеграция в экологическом образовании на основе содержательного компонента. Широкое распространение в последнее время получила интеграция знаний на основе методов исследования, таких как наблюдение, прогнозирование, моделирование. Но наиболее важной формой интеграции экологического содержания является объединение знаний вокруг деятельностного аспекта. Данная форма отражает объективный процесс развития прикладных областей экологического знания.

Следует констатировать, что главным в экологическом образовании для устойчивого развития является его общекультурная, деятельностная направленность, которая нацелена на воспитание таких качеств личности, которые обеспечивают ей готовность и способность к экологически безопасным действиям в окружающей среде [4, 6].

### Литература


1. Блинников В. И. Экологическое образование будущего учителя: экоцентрический подход/ МПГУ, ОГУ. Москва-Орёл, 2002. 212.
2. Вербицкий А. А. Новая образовательная парадигма и контекстное обучение. М.: Исследовательский центр проблем качества подготовки специали/
3. стов, 1999.
4. Глазачев С. Н., Перфилова О. Е. Экологическая компетентность: становление, проблемы, перспективы. / РИО МГГУ им. М. А. Шолохова, 2008.
5. Глазачев С. Н., Глазачева А. О. Экологическая культура — метафора эпохи перемен // Вестник Международной академии наук. Русская секция, 2008, № 2


## MÜƏLLİM VƏ TƏLƏBƏ ƏMƏKDAŞLIĞI – ƏSAS PEDAQOJİ TƏLƏB KİMİ


**Məlahət Əsgərova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*
E-mail: a.malahat@gmail.com



*Açar sözlər: əməkdaşlıq, pedaqoji əməkdaşlıq, müəllim-tələbə əməkdaşlığı, təlim əməkdaşlığı*
*Ключевые слова*: сотрудничество, педагогическое сотрудничество, сотрудничество учителя и студента, учебное сотрудничество
*Keywords: cooperation, pedagogical collaboration, teacher and student ratio, teaching ponavatelnye processes, educational cooperation*


Əməkdaşlıq sistemində müəllim-tələbə münasibətlərinin özünəməxsus rolu vardır. Ənənəvi təlimdə və tərbiyə prosesində belə bir ideya əsas götürülürdü ki, pedaqoji prosesdə müəllim – subyekt, tələbə isə obyektdir, müəllim – öyrədən, tələbə – öyrənəndir, müəllim dərsdə əsas simadır. Bu, əslində tələbənin pedaqoji prosesdə bərabərhüquqlu iştirakçı kimi fəaliyyət göstərməsinin qarşısını alır, onun müstəqilliyinə, yaradıcı fəallığına mane olurdu.



Əməkdaşlıq pedaqogikası müasir dövrümüz üçün aktuallıq daşıyır, müəllimlə yanaşı, tələbəni də subyekt kimi qəbul edir. Bu isə tələblərinin təlim və təlimdənkənar vaxtlarda həyata keçirilən məşğələlərdə hüquqlarının genişləndirilməsini nəzərdə tutur, onları müstəqilliyə, yaradıcı fəallığa, təşəbbüskarlığa ruhlandırır. Deməli, yeni pedaqoji təfəkkür şəraitində iki subyektin (müəllim və tələbənin) qarşılıqlı fəaliyyət göstərməsindən ötrü real imkanlar açılır. Daha təcrübəli şəxslə (müəllimlə) nisbətən az həyat təcrübəsinə malik şəxs (tələbə ilə) arasında əməkdaşlıq yaranır, qarşılıqlı anlama, bir-birini başadüşmə, öz qənaətlərini, rəylərini, mülahizələrini birlikdə bölüşmək, ümumi nəticəyə gəlmək, birlikdə elmi həqiqəti aşkara çıxarmaq, ziddiyyətli, mübahisəli məsələləri müzakirə edərək qənaət hasil etmək və s. bu kimi müsbət hallar baş verir. Pedaqoji əməkdaşlıq sayəsində müəllim və tələbə münasibətləri düzgün qurulur, müəllim və tələbələr arasında anlaşılmazlıqlar aradan qalxır.

Kursdan kursa keçdikcə pedaqoji əməkdaşlığın xarakterində yeni cəhətlər üzə çıxır. Müəllim tələbədə belə inam yaratmalıdır ki, elmi biliklər onların tamdəyərli, ahəngdar və hərtərəfli inkişafından, yaxşı mütəxəssis kimi yetişməsindən ötrü son dərəcə vacibdir.

Pedaqoji və psixoloji ədəbiyyatda müəllim-tələbə, müəllim-şagird əməkdaşlığın yaxşılaşdırılmasına yönələn bir sıra şərtlər irəli sürülür. Həmin şərtləri onlara öz qənaətlərimizi də əlavə etməklə aşağıdakı şəkildə ifadə edə bilərik:

1. Pedaqoji əməkdaşlıq proqram materialını daha yaxşı mənimsəməkdə və ona uyğun həyati bacarıqlara yiyələnməkdə tələbəyə kömək edir;
2. Tələbələrin idrak fəallığı və yaradıcı müstəqilliyi yüksəlir;
3. Bilik və bacarıqların aşılanmasına az vaxt sərf olunur;
4. Təlim prosesi tələbələrin marağıma səbəb olur;
5. Tələbələrin qarşılıqlı münasibətlərinin xarakteri zənginləşir, auditoriyada xoş mənəvi və psixoloji mühit bərqərar olur;
6. Tələbələrdə borc, məsuliyyət, özünənəzarət, tənqid və özünütənqid kimi müsbət keyfiyyətlər inkişaf edir;
7. Təlimin təhsilləndirici, tərbiyələndirici, inkişafetdirici kimi mühüm funksiyaları uğurla həyata keçir.

Müəllim-tələbə əməkdaşlığının səmərəlilik göstəriciləri aşağıdakılardan ibarətdir:

1. Emosional səylər (əməkdaşlığa marağın və istəyin olması; bunun sabit xarakter daşıması; özünə inam; birgə əməkdaşlıq və qarşılıqlı kömək; tədris prosesinin digər subyektləri ilə münasibətlərdə xeyirxahlıq və s.);
2. İntellektual səylər (təlimə – mühazirələrə və seminar məşğələlərinə tələbatın olması; sabit idrak maraqları; özünüqiymətləndirmə və özünə nəzarət qabiliyyətləri və s.;
3. İradi səylər (idrak fəallığı; qarşılıqlı fəaliyyət üçün zəruri bacarıq və vərdişlərə yiyələnmək; müstəqil qərar qəbul etmək bacarığı; öz davranışını qarşıda duran məqsədə uyğun olaraq tənzimləmək və s.).

### Ədəbiyyat


1. S.A. Kərimova. İlkin pedaqoji kadr hazırlığında müəllim-tələbə münasibətlərinin səmərəli qurulması yolları: Ped.f.dok. ...dis. Bakı, 2013.
2. L.A. Məmmədli. Tələbələrin idrak fəallığının inkişaf etdirilməsi yolları: Ped.f.dok. ...dis. Bakı, 2014.


**М. Аскерова**

**Сотрудничество учителя и студента – важное педагогическое требование**


***Резюме***

«Педагогика сотрудничества» включает в себя многочисленные инновационные процессы в образовании. Учитель занимает важное место в организации педагогического процесса, основанного на педагогическом сотрудничестве. В школьных педагогических коллективах необходимо осуществлять систематическую деятельность по подготовке каждого учителя к внедрению педагогики сотрудничества.

**M. Askerova**

**Teachers and cooperation studenta – important pedagogical requirements**

***Summary***

"Cooperation in Education" includes a numerous innovative processes in education. The teacher plays an important role in the organization of the pedagogical process, based on the pedagogical collaboration. The school pedagogical collectives necessary to carry out systematic activities to prepare for the introduction of each teacher pedagogy cooperation.

# TƏHSİLİN FƏLSƏFƏSİ VƏ PİFAQOR DOKTRİNASI

**Məhəmməd Əkbərov,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Xəzər Universiteti*

*Açar sözlər:* kurikulum, təhsil fəlsəfəsi, riyaziyyatın tədrisi, Pifaqor doktrinası
*Ключевые слова:* куррикулум, философия образования, преподавание математики, доктрина Пифагора.
*Key words:* curiculum, educational philosophy, teaching mathematics, the doctrine of Pythagoras

Təhsil fəlsəfəsinin əsasında belə bir tələb də durur ki, təhsilalana dünyanın həm mənəvi, həm də maddi reallıqlarını tanıdan biliklər verilməlidir. Müasir dövrdə ümumtəhsil fənlərinin, o cümlədən riyaziyyatın tədrisində əsas məqsəd ümumtəlim nəticələrinə uyğun olaraq təhsilalanlara elmi biliklər verməklə yanaşı onlarda fəlsəfi yanaşmalara münasibəti də müntəzəm inkişaf etdirməkdən ibarətdir.

Alimlərin fikrincə, insanın süzgəcindən keçən əsas biliklər (sosial miras), təhsil proqramlarının nüvəsini təşkil edən nəzəri dərslər riyaziyyat, təbiət elmləri və xarici dillərdir.

Pifaqor teoreminin öyrədilməsi zamanı da bunlar nəzərə alınmalıdır. Teoremin özünün şərhi də bu istiqamətə yönəldilməlidir.

Pifaqor teoremi həndəsənin çox mühüm problemlərindən biri olub VIII sinfin həndəsəsində xatırlanır. Bu teorem düzbucaqlı üçbucağın iki tərəfi məlum olduqda üçüncü tərəfi tapmağa imkan verir.

Pifaqordan sonra əsrlər boyu bir çox riyaziyyatçılar bu teoremin müxtəlif cür isbatını vermişlər. İndi Pifaqor teoreminin 100-dən artıq müxtəlif isbatları məlumdur. Məsələn, görkəmli Azərbaycan riyaziyyatçısı Nəsirəddin Tusi özünün Evklid həndəsəsinə həsr olunmuş əsərində bu teoremin 48 müxtəlif isbatını vermişdir.

Sokrata qədərki yunan filosofu kimi tanınan Pifaqor dünyanın ən böyük filosoflarından biridir, lakin onun yazılı mənbələri demək olar ki, olmadığı üçün Pifaqor təlimi və doktrinası haqqında, eləcə də onun sonrakı inkişafı barədə bilmədiklərimiz çoxdur.

Pifaqor fəlsəfə tariximizdə, əsasən, riyaziyyat və rəqəmlər haqqında yarım elmi və mistik simvollar müəllifi kimi və bəzən etik normaların yaradıcısı kimi məşhurlaşmışdır. Pifaqorçuların səma cisimləri haqqında fərziyyələri də maraq doğurur. B.e.ə. III əsrdə fəlsəfi istiqamət kimi pifaqorçuluq aradan çıxsa da, II əsrdən sonra dini-fəlsəfi istiqamətli məktəblərlə birləşərək yenidən fəaliyyət göstərməyə başlamışdır. "Hər şey harmoniya və rəqəmlərdən ibarətdir". Fikri Pifaqor fəlsəfəsinin başlanğıc prinsipidir. Maraqlıdır ki, fəlsəfə sözünü ilk dəfə işlədən Pifaqor özünü də filosof adlandırmışdır. Kainatı kosmos adlandıran ilk şəxs də Pifaqor olmuşdur. Bertran Rassel yazır ki, riyaziyyat deduktiv sübutu əsaslandırma kimi məhz Pifaqordan başlayır. Ümumiyyətlə filosofiya, kosmos, simvol, simvolika, katet, parabola, hiperbola, ellips, optika, eklertika və s. sözləri də ilk dəfə Pifaqor işlətmişdir.

Samoslu Pifaqor qədim dünyanın demək olar ki, bütün ölkələrində olmuşdur. Məsələn, Misirdə 22 il, Babilistanda 12 il yaşamışdır. Onun məktəbində poezya, tibb, musiqi, elm, xüsusilə də riyaziyyat bir-birini əvəz etmişdir. Səciyyəvi haldır ki, Pifaqor özünü yer üzərində "ilkin və təbiətin kökündən" kosmik səsləri başa düşən yeganə adam hesab edirdi.

Pifaqor təqribən eramızdan əvvəl 580-ci ildə doğulub. Pifaqor həndəsəsinin inkişafı yolu öz başlanğıcını Milet məktəbindən götürüb. O, təsadüfi olmayaraq həndəsədə ilkin anlayışlar kimi 3



məfhumu nöqtə, xətt və səth əlaqələrini əsas kimi qəbul etmişdir. O zaman ən böyük problemi kvadratın çoxaldılması problemi hipotenuzun kvadratı teoreminin meydana çıxmasına təkan verdi və bu da Pifaqorun adı ilə bağlı oldu.

Pifaqor iddia edirdi ki, Olimpiya oyunlarında iştirak edən şəxslər 3 təbəqədən olduğu kimi, həyatda da 3 növ insan mövcuddur. Ən aşağı siniflər alqı-satqı etmək üçün gələnlər, onlardan bir az üst siniflər isə yarışmağa gələnlər idi. Ən üst (ali) səviyyədə olanlar isə sadəcə izləməyə gələn seyrçilər idi. Pifaqora görə, insanlar ağıl, şərəf, mənfəət sevənlər kimi də qruplaşdırıla bilər.

Pifaqorun kosmologiyası ilə bağlı daha çox problemlər mövcud olmuşdur. Pifaqorçulara qədər öz təsisçisinin nüfuzuna bu qədər hörmət bəsləyən bir məktəb çətin ki, tapılsın. "Ustad belə dedi" onların şüarı idi. Digər tərəfdən isə çox az məktəb yeni şərtlərə uyğunlaşaraq bu cür inkişaf potensialı göstərmişdir. Pifaqor Anaksimenin kosmik sistemindən başlamışdır. Təsadüfi deyildir ki, Aristotel bildirdi ki, Pifaqor dünyanı kənardan "hüdudsuz kütləvi tənəffüs forması" kimi göstərirdi və bu "hava" (air) "qeyri-məhdud" (the unlimited) kimi müəyyən edilirdi. Onun təliminə görə hadisələr "sərhədsiz" (the unlimited) şəkildən sərhədlərini aşıb inkişaf edərkən böyük dəyişiklik müşahidə edirik. Biz sadəcə olaraq reyrfaksiya və kondensasiyadan başqa heç bir "xaric olunma" hissi etmirik. Belə ki onun əvəzinə sərhədləri olmayan qeyri-məhdud ölçüdə bu proseslərə rəvac verən "limit nəzəriyyəmiz" vardır. Bu, Pifaqorun fəlsəfəyə böyük töhfəsidir və biz bunu anlamağa çalışmalıyıq. Qəribə olsa da, çərçivəsi məhdud olanın funksiyası məhz musiqi və tibb sənətlərində göstərilir və bunların pifaqorçular üçün nə qədər önəmli olduğunun şahidi oluruq. Odur ki, onların hansı mənanı kəsb etməsini bilmək təbidir.

Pifaqor musiqili qammaların uyğun intervallarını müəyyənləşdirən ədədi nisbəti ixtira etmişdir. Pifaqor öz qarşısına həqiqətən ilahi bir məsələ – kainatın quruluşunun əsas prinsipini (arxe) üzə çıxarmaq məsələsini qoymuşdur ki, bu da ibtidai formasız xaosu nizamlanmış məqsədəuyğun kosmosa çevirir. Belə bir prinsiplə bir-birinə zidd element və tendensiyaların rəqəm harmoniyasını qəbul etmişdir. Pifaqorçular harmoniyanı "müxtəlif qarışıqların birləşməsi və müxtəlif fikirliyin razılığı" kimi başa düşürdülər.

Buradan belə bir qənaətə gəlmək olur ki, pedaqoqlar, həmçinin yaradıcı müəllimlər hər bir elmi kəşf, o cümlədən yenilik və ətraf aləmdə baş verən dəyişikliklərə uyğun olaraq təhsil siyasətlərini və metodlarını yeniləməyə səy göstərməli və buna hazır olmalıdırlar.

Beləliklə, nəticədə Pifaqor doktrinasından danışan müəllim onun haqqında dərslikdə olmayan bu məlumatları verməklə şagirdlərdə bu böyük filosof-riyaziyyatçının şəxsiyyəti haqqında da aydın təsəvvür yaratmış olur.

**М. Акберов**

**Философия оброзование и доктирина Пифагора**

**Резюме**

В статье автор пытается философски проанализировать доктрину Пифагора. Философия Пифагора и его школа оказали влияние на основы математики и физики, даже несмотря на дисциплину. Школа Пифагора сочетала в себе как религию, так и математику. Философия Пифагора была источником вдохновения для Платона и Аристотеля, чьи влияния, несомненно, неизмеримы. Далее, статья исследует основы геометрии Пифагора, космологию и мистику.

**M. Akbarov**

**Philosophy of education and Pythagoras Doctrine**

**Summary**

The article makes an attempt to philosophically make some analyses of Pythagorean doctrine. It states that the philosophy of Pythagoras and his school has impacted the very fiber of mathematics and physics, even the western tradition of liberal education no matter what the discipline. The school of Pythagoras was every bit as much a religion as a school of mathematics. Pythagorean philosophy was the prime source of inspiration for Plato and Aristotle: the influence of these philosophers is without question and is immeasurable. The article further investigates the basics of Pythagorean geometry, cosmology and mysticism.

# HEYDƏR ƏLİYEV VƏ TƏHSİLİMİZ

**Asya Bəkirova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*ARTPİ*
E-mail: bekirova-asya@mail.ru

***Açar sözlər:*** *təhsil, Azərbaycan dili, ədəbiyyat, mədəniyyət, ünsiyyət*
***Ключевая слова:*** *образование, Азербайджанский язык, литература, культура, общение*
***Keywords:*** *The education, Azerbaijan language, literature,culture, communication*

Xalqının milli adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına böyük qayğı ilə yanaşan Heydər Əliyev Azərbaycan elinin və dilinin xilaskarıdır. Onun təşəbbüsü və fəal iştirakı ilə tarixən vətəndaşlıq hüququ qazanmış Azərbaycan dili anlayışının qanuni haqqı onun özünə qaytarıldı. O qeyd edirdi: "Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Ancaq hesab edirəm ki, öz dilimiz ilə – Azərbaycan dili ilə fəxr edə bilərik. Çünki dilimiz zəngin bir dildir. Onu yad ünsürlərdən qorumalıyıq". Bu mənada Heydər Əliyevin Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində gördüyü ən böyük xidmətlərdən biri dilimizə Dövlət statusunun verilməsidir. Xüsusilə, Azərbaycan dili və əlifbası, xalqımızın mənəvi dəyərləri ilə bağlı Heydər Əliyev cənablarının imzaladığı tarixi fərman və sərəncamlar bu istiqamətdə olduqca əhəmiyyətli işlərin görülməsinə imkan yaratmışdır. Belə fərman və sərəncamların verilməsi milli qeyrət, mənəvi saflıq, dövlətə, xalqa, onun dilinə sədaqət, nəhayət, bu sahədə dərin bilik tələb edirdi. O, insanlara anlatdı ki, Azərbaycan dili sadəcə olaraq bir ünsiyyət vasitəsi kimi yox, ulu babalarımızın, aqillərimizin bizə yadigar qoyduqları bu dil tarixdir, mənəviyyatdır, Azərbaycan xalqının varlığı və Azərbaycan adlı müstəqil dövlətin əsas simvoludur.

Heydər Əliyevin böyüklüyü ondan ibarət olmuşdur ki, o, dediyi sözü axıra çatdırmış, verdiyi qərarların reallaşmasına həm şərait yaratmış, həm də ciddi nəzarət etmiş və qarşıya qoyduğu məqsədə nail olmuşdur. Həqiqətən, o, vətənə və xalqa sədaqət nümunəsi olmuşdur. Ulu öndərimiz Heydər Əliyev bütün Türk dünyasının sevgisini qazanmış, ömrünü bütünlüklə doğma vətəninə həsr etmiş, xalqımızın ürəyində görkəmli siyasətçi kimi özünə əbədi abidə qoymuşdur. Elə bilirəm ki, Heydər Əliyev şəxsiyyətinin keçdiyi şanlı ömür yolunu qələmə almağa bir ömür də azlıq edər. Onun ən ümdə amalı Azərbaycanın gələcəyini xoşbəxt görmək idi. Heç şübhəsiz, bu, belədir. Onun zəngin həyatı, fədakar fəaliyyəti, dərin və nurlu zəkası, gənc, müstəqil dövlətimizin dirçəlişini, demokratik cəmiyyətin təşəkkül tapmasını, əsaslı iqtisadi dəyişikliklər prosesini mümkün etmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyev əvəzolunmaz fəaliyyəti boyunca digər sahələrlə yanaşı, ədəbiyyat məsələləri ilə daim məşğul olmuş, ustad sənətkarların yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin nəşri tədqiqi, təbliği, onun dünya miqyasında tanıdılması, müasir ədəbi prosesin inkişafı üçün hər cür şərait yaradılması istiqamətində son dərəcə böyük işlər görmüş, nəhəng tədbirlər həyata keçirmişdir. Onun bütövlükdə xalq sənətinə, adət-ənənəsinə, şifahi söz sənətimizin ayrı-ayrı nümunələri barədəki qiymətli fikirləri, folklorun toplanması, nəşri, tədqiqi, gələcək nəsillərə çatdırılması sahəsində həyata keçirdiyi misli görünməyən çoxşaxəli tədbirlər xüsusi dəyərə malikdir.

Nadir şəxsiyyət olan Heydər Əliyev klassik ədəbiyyat məsələsini də xüsusi diqqətdə saxlamışdır. "Xalqımızın tarixində ədəbiyyat qədim dövrlərdən öz yerini tutubdur və xalqımızın inkişafında çox böyük rol oynayıbdır" deyən ulu öndərimiz klassik ədəbiyyata yalnız bədii mədəniyyət amili kimi yanaşmamış, ona tariximizin, ədəbiyyatımızın qədimliyinin ifadəsi baxımından da yüksək qiymət vermiş və qeyd etmişdir ki, ədəbiyyat, tarix xalqın sərvətədir, bu sərvəti qorumaq isə hər birimizin, xüsusən gənclərin borcudur. Bu baxımdan yanaşdıqda, Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

Çox sevindirici haldır ki, onun varisi olan İlham Heydər oğlu Əliyev bu irsin layiqli davamçısı və xalqın yolgöstərənidir. Bu, bizim üçün aydın olan bir həqiqətdir.



İnanırıq ki, unudulmaz, yaddançıxmaz ulu öndərimizin irsi hələ neçə-neçə traktatların mövzusu olacaq. Heydər Əliyev indi cismən bizdən ayrılsa da, ruhən həmişə bizimlədir. O, bizim və bizdən sonrakı nəslin qəlbində daima yaşayacaq. Bu gün nəinki Azərbaycanın və onun bölgələrində, digər dövlətlərdə də Heydər Əliyevin şərəfinə möhtəşəm abidələr qoyulur, ruhuna dualar oxunur. Ulu öndərimizin ölməz ideyaları prezident İlham Heydər oğlu Əliyev tərəfindən bu gün də həyata keçirilir, hər zaman yaşayır və yaşayacaqdır.

**Ədəbiyyat**

1. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı: Ozan, 1999.
2. Vilayət Əliyev. Heydər Əliyevin dil siyasəti. Bakı: Nurlan, 2003.
3. A. Axundov. Dil mədəniyyəti, Bakı. 1992.

**А.М. Бекирова**

**Гейдар Алиев и образование**
***Резюме***

**В статье говорится об общенациональном лидере Гейдаре Алиеве, о его политической деятельности, о самостоятельности Азербайджана, о его заботе к образованию, высокой оценке нашей литературы.**

**A.M. Bakirova**

**Heydar Aliyev and education**
***Summary***

In the article, Heydar Aliyev's policy, education, literature of Azerbaijan, and it is under special attention to high assessment given by independent care about.

# ПЕДАГОГИЧЕСКОЕ МАСТЕРСТВО УЧИТЕЛЯ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЫ – ЭТО ПРОЯВЛЕНИЕ ПОСТОЯННОГО ТВОРЧЕСТВА

**Л.Б. Семенкова,**
*старший преподаватель Каспийского общественного университета*
**Н.Т. Оразбекова,**
*старший преподаватель Каспийского общественного университета*

***Ключевые слова***: *культура учителя, педагогическая деятельность, самосовершенствование, педагогическое мастерство, учащиеся, знания, умение.*
***Key words***: *Culture Teachers and teaching, self-improvement, pedagogical skills, students, knowledge, skills.*

**Реализация современной политики в образовании невозможна без педагога, владеющего высоким профессионализмом, творческим потенциалом, занимающего ведущие интеллектуальные позиции в обществе.**

**Современный педагог, работая над интеллектуальной насыщенностью содержания образования, высоким уровнем методики обучения, стремясь познать, полюбить ученика и помочь ему сотворить себя, продумывает степень своего участия в обновлении и развитии школы. Поэтому задача управленческой деятельности администрации школы не только формировать и развивать положительное мнение учителей о своих способностях, но и вовлекать их в различные виды инновационной педагогической деятельности, помочь педагогу оценить свое «Я».**

**Учитель – профессионал – этот вопрос всегда волновал детей и их родителей, так как хорошее образование является одной из значимых духовных ценностей современного общества.**

Педагогический профессионализм определяется через понятие «педагогическое мастерство» , которое может рассматриваться и как идеал педагогической деятельности, побуждающий педагогов к самосовершенствованию, и как эталон, содержащий оценку эффективности педагогического труда. Педагогическое мастерство зачастую воспринимается как важнейшее профессиональное качество личности учителя и воспитателя.

Одним из важнейших критериев педагогического мастерства в современной педагогике считается результативность работы учителя, проявляющаяся в стопроцентной успеваемости школьников и таком же (стопроцентном) их интересе к предмету, то есть педагог – мастер, если умеет учить всех без исключения детей. Профессионализм педагога наиболее ярко проявляется в хороших результатах тех учеников, которых принято считать не желающими, не умеющими, не способными учиться.

При характеристике понятия «педагогическое мастерство» возникает ряд проблемных вопросов:

Может ли каждый учитель и воспитатель овладеть педагогическим мастерством?

Педагогическое мастерство – это врожденное качество или ему можно обучить каждого желающего?

Что является критериями педагогического мастерства?

Как и в каких «единицах» можно измерить количество и качество педагогического мастерства у представителей педагогических профессий.

Главными элементами, определяющими личность учителя, принято считать: профессионализм, компетентность, продуктивность, социально направленные личностные качества.

Личность педагога в традиционной системе обучения:

При использовании данной технологии учитель основное внимание отводит трансляции готового учебного содержания.

Более всего при подготовке к урокам учитель озабочен поиском наиболее эффективных вариантов изложения нового материала и сопровождающей рассказ наглядности.

При этом преподнесение учащимся информации, определенной рамками программы, практически всегда происходит в форме монолога учителя. В связи с этим в учебном процессе возникает много проблем. Главными из них являются: низкий уровень навыков общения, невозможность получить развернутый ответ ученика с его собственной оценкой рассматриваемого вопроса. Педагог идет в класс с готовым знанием, он пытается включить ученика в свою деятельность, подчинить своему режиму. В такой системе имеется несоответствие установок учителя и ученика, установки учителя ориентированы на социальный заказ, на безусловное, прохождение программ.

Педагогическое мастерство – это высший уровень педагогической деятельности, проявляющийся в творчестве учителя, в постоянном совершенствовании искусства обучения, воспитания и развития человека. Педагогическое творчество рассматривается как состояние педагогической деятельности, при котором происходит создание принципиально-нового в организации учебно-воспитательного процесса, в решении научно-практических проблем.

Педагогическая деятельность – это проявление постоянного разностороннего творчества. Она предполагает наличие у учителя-воспитателя совокупности творческих способностей, качеств, исследовательских умений, среди которых важное место занимают инициативность и активность, глубокое внимание и наблюдательность, искусство нестандартно мыслить, богатое воображение и интуиция, исследовательский подход к анализу учебно-воспитательных ситуаций, решению педагогических задач, самостоятельность суждений и выводов.

Педагогическое мастерство, прежде всего, связано с личностью педагога, с комплексом качеств, которые способствуют обеспечению высокого уровня самоорганизации профессиональной деятельности. Набор качеств учителя-профессионала, помогающий ему обеспечивать учебно-воспитательный процесс на высоком творческом уровне, достаточно обширен. Важнейшими из них являются гражданственность и патриотизм, гуманизм и



интеллигентность, высокая духовная культура и ответственность, трудолюбие и работоспособность. Главные качества педагога-мастера – человеколюбие и умение общаться с людьми. Педагогическое мастерство с технологической точки зрения – это система, основными компонентами которой являются высокая общая культура, гуманистическая направленность, профессиональные знания и умения, творчество и педагогические способности, технологическая компетентность.

Общая культура педагога – не только компонент педагогического мастерства, но и своеобразный механизм, на основе которого развиваются профессионально значимые качества педагога.

Важнейшей частью педагогического мастерства являются профессиональные знания и умения. Это, прежде всего философские, психолого-педагогические, социальные, специальные и дополнительные знания. Профессиональные знания учителя формируются на всех уровнях (методологическом, технологическом, творческом) и становятся базой педагогического сознания и мышления, а психолого-педагогическая эрудиция – необходимой предпосылкой успешной работы учителя.

Уровень педагогического мастерства зависит от уровня технологической компетенции и определяется на основе следующих основных критериев: 1) целесообразности (по направленности), 2) творчества (по содержанию деятельности), 3) технологичности (по уровню педагогической техники), 4) оптимальности (по выбору эффективных средств), 5) продуктивности (по результату). Чем выше технологичность педагога, тем выше уровень его мастерства.

В заключении хочу сказать, что педагогическое мастерство учителя оценить трудно, практически невозможно выработать единые критерии, так как с точки зрения разных людей – директора, завуча, методиста, коллеги, ученика и его родителя, учёного, бизнесмена..... взгляд на педагогическое мастерство разный.

**Литература**


1. В.А. Крутецкий, Н.С. Лукин. Психология подростка. М.: Просвещение, 1995.
2. Ю.Д. Жданов. Требования к специалистам физической культуры и спорта. Ижевск, 1999.
3. Ю.Д. Жданов. Новые направления в системе подготовки специалистов физической культуры и спорта. Ижевск, 1999.
4. Ж.К. Холодов. Технология теоретической профессиональной подготовки в системе специального физкультурного образования. М., 1996.
5. А.А. Райзих. Средства и методы физической культуры в социальном воспитании подростков. Омск, 1997.


***Резюме***


Мастерство учителя – динамическая характеристика. Процесс совершенствования учителя бесконечен. Современный педагог, работая над интеллектуальной насыщенностью содержания образования, высоким уровнем методики обучения, стремясь познать, полюбить ученика и помочь ему сотворить себя, продумывает степень своего участия в обновлении и развитии школы. Педагогическое мастерство – это высший уровень педагогической деятельности, проявляющийся в творчестве учителя, в постоянном совершенствовании искусства обучения, воспитания и развития человека.


***Summary***


At the stage of teaching skills of future teachers need to form a humanistic orientation and teaching culture, to acquire the necessary knowledge and skills, the ability to develop and master the technique of teaching. Culture teacher – it means teaching activities, the foundation of teaching skills and teaching skills condition. In the professional work of teachers is based on the potential of their identity, and improving the overall culture allows him to develop creativity and pedagogical skills.

# YENİ PEDAQOJİ TƏFƏKKÜR ŞƏRAİTİNDƏ TƏLƏBƏ GƏNCLƏRDƏ İDRAK FƏALLIĞINI İNKİŞAF ETDİRMƏYİN MÜHÜM İSTİQAMƏTLƏRİ

**Lalə Məmmədli,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ARTPİ*
E-mail: lale23@mail.ru

***Açar sözlər:*** *fəallıq, idrak fəallığı, idrak fəaliyyətinin aktivləşdirilməsi*
***Ключевые слова:*** *активность, познавательной активность, активизация познавательной деятельности*
***Keywords:*** *activity, cognitive activity, activation of cognitive activity*

Məlum olduğu kimi, idrak fəallığının əsasında dərketmə dayanır. Dərketmə həqiqətin aşkara çıxarılmasına kömək göstərir. Həqiqət problemi dialektikada və idrak nəzəriyyəsində böyük əhəmiyyətə malik məsələdir. Tələbələrin təşəbbüskarlıqlarının, müstəqilliklərinin, özfəaliyyətlərinin artırılması, sərbəst mühakimə yürütmək bacarıqlarına imkan yaradılması yeni pedaqoji təfəkkür şəraitində son dərəcə vacibdir. Gənclər təfəkkür əməliyyatlarına daha yaxından cəlb olunmalı, onların təxəyyülünün tərbiyə olunması qayğısına qalınmalıdır. Bu mənada tələbə oğlan və qızlarda idrak fəallığının formalaşdırılması hər bir ali məktəbin qarşısında duran ümdə və təxirəsalınmaz vəzifələrdən biridir. Tələbə gənclərin idrak fəallığının formalaşdırılması vəzifələrinin yerinə yetirilməsi məqsədilə vacibdir ki, tələbə bilikləri hazır şəkildə almaqdan daha çox bilikləri fikirləşmək, axtarmaq, müstəqillik, yaradıcılıq qabiliyyəti göstərmək əsasında özləri toplasınlar. Müəllimin vəzifəsi tələbələrin diqqətini tədris materialına, ayrı-ayrı mövzulara, problemlərə cəlb etmək və bu yolla idrak fəallığını qüvvətləndirməkdən ibarət olmalıdır.

Qeyd etmək lazımdır ki, idrak fəallığının formalaşdırılmasının zəruri şərtlərindən biri tələbələrin müstəqil işə cəlb olunmasıdır. Ali məktəblərdə mühazirə və seminar məşğələləri zamanı tələbələrin fəal olmaları üçün onlara müstəqillik vermək lazımdır. Gənclər proqram materialları üzərində işləyərkən, yeni mövzunu öyrənərkən hansı səmərəli üsul və priyomları tətbiq etməyi başa salmaq faydalıdır. Həm də tələbələrə özünəzarət vərdişləri aşılanmalıdır. Tələbələrdə müstəqil öyrənmək vərdişlərini yaradan müəllim çalışmalıdır ki, onların müstəqil işləri məqsədyönlülüyü və müstəqilliyi ilə səciyyələnsin.

Müəllim müstəqil işlərin sayını və keyfiyyətini artırmalı, çalışmalıdır ki, problemi tələbələrin özləri irəli sürsünlər. Bu da mühümdür ki, müəllim problem situasiyanın çətinliyinin optimal səviyyəsini (onun çətinliyini və gücəmüvafiqliyini) müəyyən edib həyata keçirməyi bacarsın.

Tələbələrdə idrak proseslərinin (diqqət, qavrayış, təfəkkür, təxəyyül, duyğu, hafizə və s.) səviyyəsi nə qədər yüksək olarsa, təlimdə bir o qədər uğurlar qazanılar. Ona görə də tələbələrin idrak proseslərini fəallaşdırmaq, başqa sözlə, stimullaşdırmaq, istiqamətləndirmək müəllimin mühüm vəzifəsi olmalıdır.

Müstəqil işin i hər bir növü tələbələrin psixi fəallığını yüksəldir. Bu, bir həqiqətdir ki, təlim prosesini optimallaşdırmağın, tədris olunan materialların səmərəliliyinin artırılmasının başlıca istiqaməti tələbələrin idrak imkanlarını formalaşdırmaqdan ibarətdir.

Yeni pedaqoji təfəkkürün tələbi belədir ki, hər bir təhsil alanın, o cümlədən tələbənin şəxsiyyətinin inkişafı məqsədilə zəruri və lazımi şərait yaradılsın. Ona görə də təlimin fəal formalarından faydalanaraq idrak fəallığı inkişaf etdirilməlidir. Təhsilalan heç də yalnız dinləyici deyil, idrak fəaliyyətində fəal iştirakçıdır. O öz əməyi ilə bilik və məlumatlar əldə edir. Həmin bilik və məlumatlar möhkəm olmalıdır. Fəal təlim şəraitində tələbə təlim fəaliyyətinin subyekti ola bilir, müəllimlə dialoqa girir, idrak prosesində fəal iştirak edir, yaradıcı, axtarıcı, problem xarakterli tapşırıqları yerinə yetirir.

Müəllim təkcə tələbələrin onun tərəfindən təklif olunan bilikləri mənimsəməsinə çalışmamalı, eyni zamanda hər bir təhsilalanların şəxsiyyətinin, idraki qabiliyyətlərinin inkişafını təmin etməli, ona müstəqil fəaliyyət göstərmək, məsuliyyət daşımaq bacarıqları aşılamalı.

Tələbələr fəaliyyətə o zaman maraq göstərir ki, onda həmin fəaliyyətdə iştirak etmək arzusu olsun, müvafiq motiv təzahür etsin. Motiv – qısamüddətli vəziyyət, yaxud da şəxsiyyətin sabit-stabil keyfiyyətidir. İdrak fəaliyyətinin xarakteri və nəticəsi hansı motivin üstünlük təşkil



etməsindən, onun həlledici olmasından çox dərəcədə asılı olur. Təhsilalanlar yalnız maraqlarına, meyillərinə, təmayüllərinə görə deyil, eyni zamanda bilik, bacarıq və vərdişlərinə, fəaliyyətlərinə görə fərqlənirlər. Müəllimin səyi ona doğru yönəlməlidir ki, tələbələrdə ümumiləşdirməyə, başlıcanı ayırd etməyə, şablon olmayan həll yolunu axtarıb tapmağa tələbat yaransın.

Təlim prosesində pedaqoji qarşılıqlı əlaqə də diqqət mərkəzində olmalıdır. Məktəbdə təlim-idrak fəaliyyətinin subyekti kimi tələbələrin təşəkkülü, ilk növbədə onun ali məktəbdə təlimi prosesində baş verir, inkişafın şərtlərindən biri olmaq etibarilə onun fəaliyyətinin tərzi çıxış edir. Odur ki, yaradıcı təfəkkürün gedişi və inkişafına təlim-idrak fəaliyyətinin üslubunun təsiri imkanlarını diqqət mərkəzinə gətirmək lazımdır. Tələbələrin idrak fəallığının səmərəli şəkildə inkişaf etdirilməsi müəllimin təlim prosesini necə idarə etməsindən asılıdır.

**Ədəbiyyat**

1. http://www.ses-news.az/index.php?action=static_detail&static_id=146530)
2. Q.İ. Şukina. M.Q. Kazakina, V.A. Semyonov, Y.A. Vinoqradov. Məktəb pedaqogikası. Bakı: Maarif, 1982.

**Л.А. Мамедли**

**Основные направления развития познавательной активности у студентов в условиях нового педагогического мышления**

*Резюме*

Развитие познавательной активности студентов выдвигается в современный период как важная педагогическая проблема. Активизация, стимуляция и направление познавательной активности студентов одна из главных задач педагога. В статье характеризуются условия развития познавательной активности студентов на разных этапах обучения, так же отмечается, что развитие познавательных качеств студентов имеет свои особенности. В данной статье автор рассматривает пути реализации данного вопроса на уровне современных требований.

**L.A. Mammadly**

**Main areas of students cognitive activity in the new pedagogicalthinking**

*Summary*

Development of informative activity of students in the modern period put forward as an important pedagogical problem. Activation, stimulation and direction of cognitive activity of students is one of the main objectives of the teacher. The article characterizes the conditions of development of informative activity of students at different grade levels, as well noted that the development of the cognitive qualities of students has its own characteristics. In this article the author considers the realization of this issue at the level of modern requirements.

# ИНФОРМАЦИОННЫЕ КОММУНИКАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ОБРАЗОВАНИИ

**Офира Кафарова,**
*доктор философии по педагогике, и.о.доцента,*
*БГУ*
E-mail: ofirakafarova@gmail.com

***Ключевые слова:*** *педагогическая технология, информация, методы, средства обучения*
***Açar sözlər:*** *pedaqoji texnologiya, informasiya, metodlar, təlim vasitələri*
***Keywords:*** *pedagogical technology, information, method, means of instruction*

Последние годы внимание педагогической общественности направлено на новые педагогические технологии. В документах ЮНЕСКО технология обучения рассматривается как системный метод создания, применения и определения всего процесса преподавания и усвоения знаний с учётом технических и человеческих ресурсов и их взаимодействия, ставящей своей задачей оптимизацию форм образования. Выделяют технологии традиционные и инновационные. Традиционные технологии имеют множество недостатков

(усреднение объёма знаний и темпа изучения, слабая самостоятельность работы учащихся, опора на запоминание). Это создаёт проблемы в будущей профессиональной деятельности человека, так как он оказывается неподготовленным к самостоятельной творческой работе. Сегодня необходимо совершенствование существующих методик и применение новейших технологий (современных аудиовизуальных средств, ТСО, информационных средств обучения), которые способствуют повышению интереса, самостоятельности, творческой активности студента в усвоении знаний, формировании умений, навыков, их практическом применении. В связи с этим применение новых информационно-коммуникационных технологий в образовании позволит эффективно решить сразу три задачи: обучить методам работы с информацией, методам создания новых знаний и, самое важное, – методам поддержания необходимого уровня знаний о развивающемся мире. Основным средством ИКТ для любой системы образования является персональный компьютер, возможности которого определяются установленным на нём программным обеспечением (системные программы, прикладные программы, инструментальные средства для разработки программного обеспечения). В современных системах образования широко распространены универсальные офисные прикладные программы и средства ИКТ. С появлением компьютеров и средств ИКТ образование приобрело новое качество – возможность оперативно получать информацию из любой точки земного шара. Через глобальную компьютерную сеть Интернет возможен мгновенный доступ к мировым информационным ресурсам (электронным библиотекам, базам данных, хранилищам файлов). Такие технологии активно применяются для передачи информации и обеспечения взаимодействия преподавателя и обучаемого в современных системах открытого и дистанционного образования.

Разработка современных технологий в образовании должна вестись в соответствии со следующими принципами:

- принцип целостности технологии, представляющей дидактическую систему;
- принцип воспроизводимости технологии в конкретной педагогической среде для достижения поставленных целей;
- принцип нелинейности педагогических структур и приоритетности факторов, влияющих на механизмы самореализации соответствующих педагогических систем;
- принцип адаптации процесса обучения к личности учащегося и его познавательным способностям;
- принцип потенциальной избыточности учебной информации, создающий оптимальные условия для формирования обобщённых знаний. Таким образом, с помощью технологий обеспечивается возможность достижения эффективного результата в развитии личностных свойств в процессе усвоения знаний, умений, навыков.

Современный преподаватель должен не только обладать знаниями в области ИКТ, но и быть специалистом по их применению в своей профессиональной деятельности. Доступными стали и другие средства ИКТ: электронная почта, рассылка, новости, чаты. С помощью сетевых средств ИКТ возможен широкий доступ к учебно-методической и научной информации, организация оперативной консультационной помощи, моделирование научно-исследовательской деятельности, проведение виртуальных учебных занятий (лекции, семинары) в реальном режиме времени (видеозаписи, телевидение, образовательные электронные книги), дистанционное обучение, что позволяет совершенствовать организацию преподавания, повысить индивидуализацию обучения и продуктивность самоподготовки учащихся, усиливать мотивацию к обучению, активизировать процесс обучения, привлекать к исследовательской работе, обеспечивать гибкость процесса обучения и быстрый доступ к достижениям педагогической практики.

### Литература


1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
2. Балафанов Е.К., Бурибаев Б., Даулеткулов А.Б. Новые информационные технологии: 30 уроков по информатике. Алматы, 2001.
3. Гуттарц Р.Д., Чебышева Б.П. Компьютерная технология обучения // Информатика и образование. М., 2000, № 5





4. Игнатова И.Г., Н.Ю. Соколова. Информационные коммуникационные технологии в образовании // Информатика и образование. М., 2003, № 3
5. Kərimov Y.Ş. Təlim prosesində yeni texnologiyalar. Bakı: Mütərcim, 2011
6. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: Mütərcim, 2006.
7. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.


**O.Qafarova**


**Təhsildə İKT-nin tətbiqi**

***Xülasə***

Məqalədə müəllif İKT-texnologiyaların tətbiqinin təlim prosesinin səmərəliləşdirilməsi, onun məhsuldarlığının yüksəldilməsi, tapşırıqların optimal həcminin təmin olunması, elmi informasiyanın mənimsənilməsi imkanlarını genişləndirilməsi məsələlərini araşdırır.


**O.Qafarova**


**IT texnologies in education**

***Summary***

In article author maps the application of IT technologies increases effectiveness of learning process, boosts its productivity, provides optimal volume of exercises, and expands opportunities of learning of scientific information.


## PEDAQOJİ KADRLARLA APARILAN MƏQSƏDYÖNLÜ İŞ – MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNİN NƏTİCƏYÖNÜMLÜ İDARƏEDİLMƏSİNIN ƏSASI KİMİ


**Xalidə Həmidova,**

*fəlsəfə doktoru proqramı üzrə doktorant*

*ARTPİ*

E-mail: musayevaxalide@mail.ru



***Açar sözlər**: idarə etmə, pedaqoji kadr, nəticəyönümlülük, formalar, işin planlaşdırılması, kadr potensialı, idarə olunma texnologiyası, idarə etmənin metodologiyası*

***Ключевые слова:** управление, преподавательский состав, эффективность, формы, бизнес-планирование, кадровые ресурсы, технологии управления, методики управления*

***Keywords:** management, teaching staff, effectiveness, forms, business planning, human resources, technology of management, management techniques*


Təhsilin nəticəyönümlü idarə olunması pedaqogikanın aktual problemlərindən biridir. Məktəbəqədər təhsil müəssisələrinin təlim-tərbiyə prosesinin səmərəliliyinin idarə edilməsində pedaqoji kadrların üzərinə böyük vəzifələr düşür. Məktəbəqədər təhsil müəssisələrində idarəetmə fəaliyyətinin əsas məsələlərindən biri də burada innovativ fəaliyyətin təşkilidir. Müasir dövrdə məktəbəqədər təhsil müəssisəsinin müdirinin əsas vəzifələrinə hər bir kadr üçün özünü inkişafa, həyata keçirə bilmədiyi işlərin reallaşmasına köməklik göstərmək, yəni onların peşəkar inkişafına dəstək olması daxildir. Məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri daim öz qarşılarına məqsəd qoymalıdırlar: necə edim ki, hər bir tərbiyəçi fəal və təşəbbüskar olsun? Hansı yolla passiv kadrları da işə cəlb edim? və s. Aydındır ki, kadrlarla iş məktəbəqədər təhsil müəssisəsinin müdirinin üzərinə düşən ən məsuliyyətli işlər sırasına daxildir.

Kadrlar dedikdə bura məktəbəqədər təhsil müəssisələrinin bütün işçiləri nəzərdə tutulur . Doğrudur, məktəbəqədər təhsil müəssisəsinin rəhbərinin idarə etmə prosesində bütün heyətlə işləməyi nəzərə almalıdır. Burada yalnız pedaqoji kadrlarla aparılan işədən danışacağıq. İstənilən müəssisənin təməlini orada işləyənlər təşkil edir. Kadrların idarə edilməsi prosesi mürəkkəb və çox şaxəli prosesdir. Pedaqoji kadrları idarəetmə prosesi, məqsədyönlü şəkildə aparılmalıdır. Bu məqsədyönlü idarəetmə prosesinə kadrların seçilməsi siyasəti , onların işinin təşkili prinsip və

metodları daxildir. Məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri effektiv idarəetmə prosesini təşkil etmək üçün müstəqil qərarlar verməli və kadrların imkanlarından düzgün istifadə etməlidir. Pedaqoji kadrlarla işin idarə olunmasının əsas funksiyaları aşağıdakı kimi təyin edilə bilər: pedaqoji kadrların idarə edilməsi işinin formalaşdırılması; kadrlarla işin planlaşdırılması; kadr potensialının ehtiyaclarının müəyyənləşdirilməsi; kadrların mütəmadi ixtisaslarının artırılması və ya təkmilləşdirilməsi.

Məktəbəqədər təhsil müəssisələrinin nəticəyönümlü idarə edilməsi üçün rəhbər pedaqoji kadr aşağıdakı xüsusi xarakterik xüsusiyyətlərə malik olmalıdır:

- təşkilatçılıq bacarıqlarına; idarəetmə üzrə peşəkar bilik və bacarıqlara; öyrənmək və inkişaf etmək imkanına; liderlik bacarıqlarına.

Kadrların idarə edilməsi işinin sistemini onun həyata keçirilməsi, formalaşması mexanizminin mahiyyətini müəyyən edən nəzəri və metodoloji fikir, eləcə də təşkilati və praktiki yanaşmalar təşkil edir.

Buraya aşağıda kı göstəricilər daxildir:

- kadrların idarə olunması işinin metodologiyasının hazırlanması; kadrların idarə olunması işinin sisteminin formalaşdırılması; kadrların idarə olunması işinin texnologiyalarının hazırlanması.

*Kadrların idarə olunması işinin metodologiyasına* kadrların idarə olunması prinsipləri, təşkilatın məqsədlərinə uyğun şəxslərin davranış formalarını, onlara nəzarətin təşkilinin məqsədləri, nəzarəti təşkiletmə üsulları daxildir.

*Kadrların idarə olunması işinə sisteminə* məqsədlərin və funksiyaların formalaşması, təhsil, inkişaf, qəbul və inzibati qərarların həyata keçirilməsi, kadrların və məktəbəqədər təhsil müəssisəsinin rəhbərinin şaquli və üfüqi funksional əlaqələrinin formalaşması daxildir.

*Kadrların idarə olunması işinin texnologiyalarına* kadrların işə qəbulu və azad edilməsi, onların bacarıqlarının qiymətləndirilməsi, peşəkar inkişafı və uyğunlaşması, motivasiya və iş təşkilatçılığı qabiliyyətləri, etik normalar əsasında münasibətlərin qurulması, konfliktlərin həlli və təhlükəsizlik, kadrların sosial vəziyyətlərinin inkişafı, ixtisasartırma və yenidən hazırlanmanın idarə olunması daxildir.

*Kadrların idarə edilməsi işinin əsas prinsiplərinə* səmərəli rəyin formalaşdırılması, sistematiklik, tamlıq (vəhdət), ədalətlilik, əməkdaşlıq, insaniyyət, şəffaflıq, tolerantlıq, müqayisəlilik daxildir.

Bu gün məktəbəqədər təhsil müəssisəsinin rəhbərlər işini düzgün təşkil etmək üçün daim yeni və fəal iş formaları hazırlamalıdır. Bu zaman tərbiyəçilərin fəaliyyətə cəlb edilməsi, onlarla dialoqun qurulması daha da asanlaşır. Kadrlarla iş formalarına müzakirələr, qərarlar, nəticələrin çıxarılması, yarışmalar və s. daxildir.

Kadrlarla iş formalarının əsas məqsədləri özünü təhsilə stimullaşdırma, sərbəstliyin və fəallığın artırılması, özünüqiymətləndirməni və əməkdaşlıq bacarıqlarının formalaşmasına xidmət etməlidir.

Məktəbəqədər təhsil müəssisəsinin rəhbəri kadrlarla üç istiqamətdə işini qura bilər. Bu zaman o ənənəvi, yeni və ən yeni metodlardan istifadə edə bilər. Ənənəvi metodlara - treninq, pedaqoji otaq, " şən və hazırcavablar klubu", "Kim? Harda? Nə zaman?", seminar-praktikum, "dəyirmi masa", pedaqoji rinq və s., yeni metodlara həmfikirlər birliyi, işgüzar oyunlar, auksionlar, fikirlər fırtınası, master klas, yaradıcılıq saatları və s., ən yeni metodlara keyfiyyət dərnəkləri, pedaqoji emalatxana, sürətli kökləmə, koucink sessiyalar, keys metod və s. daxildir.

Göstərilən metodlardan istifadə əsasən tərbiyəçini kreativ düşünməyə, problemli situasiyadan çıxış vəziyyəti tapmağa, ümumiyyətlə pedaqoji heyətin fəallığı yüksəltməyə yönəldilməlidir.

Hər bir rəhbər onun məktəbəqədər təhsil müəssisəsinə xarakterik olan kadr problemini görə bilməli, lazım olan taktikanı seçərək tətbiq etməyi bacarmalıdır. Arzu və fəaliyyət arasındakı fərqi hiss etməli, idarəetmədə nəticələri əldə etmək üçün daim yeniliklər axtarmalıdır. Bunun üçün kadr siyasəti yürüdərkən aşağıdakıları əsas tutmalıdır:

- hansı resurslara malikdir ?; hansı nəticələri əldə etmişik?; işimizdə nədən razı deyilik? yeni tələblərə uyğun nəyi dəyişmək istəyirik? hansı nəticələrə nail olmalıyıq?



**Ədəbiyyat**


1. Денякина Л.М. Новые подходы к управленческой деятельности в дошкольном образовательном учреждении М.: Новая школа, 2007.
2. Белая К.Ю., Третьяков П.И Дошкольное образовательное учреждение — управление по результатам. Сфера, 2007
3. R. Məmmədzadə, A. Abdullayev, F. Kərimova, R. Cabbarov, S. Rəsulov, Ə. Quliyev. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı, 2008.


**Х. Хамидова**

**Целенаправленная работа профессорско преподавательского состава-как основа результативнымуправлением дошкольных оброзовательных учреждений**


*Резюме*

В тезисе доклада говорится о концептуальных вопросах управления дошкольным образованием. Рассматриваются методы и инструменты управления делами персонала. Говорится о том, что руководители дошкольных образовательных учреждений должны организовать эффективное управление образовательным процессом, должны принимать самостоятельные решения. Были развиты методология, системы, технологии и принципы управления персоналом.


**Kh. Hamidova**

**Purposeful work of the faculty – as a basis for effective management of preschool institutions**


*Summary*

In teezis report referred to the conceptual issues of the preschool education. explained about the methods and tools in the process of effective management of the affairs of the staff. Said that the leaders of preschool educational institutions should form the effective management of the process should take independent decisions, the right to use and talks with staff. Were developed methodology for managing personnel, systems, technologies and principles.

Preschool facilities management activities of the main issues discussed. It is said that the process of purposeful management of personnel policies, including its principles and methods. In this case, the heads of educational institutions necessary for effective management process to organize and staff to make decisions about their proper use potensionalından exceeded.


## XXI ƏSRDƏ MƏKTƏBƏQƏDƏR TƏHSİLİN MƏZMUNU


**Şərafət Baxışova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: elmi.hisse.08@mail.ru



***Açar sözlər:*** *kurikulum, metodlar, formalar, vasitələr, prinsiplər, keyfiyyətin yüksəldilməsi, dünyəvi və ictimai elmlər*
***Ключевые слова:*** *курикулум, методы, формы, средства, принципы, повышение качества, мировые и общественные науки*
***Key words:*** *curriculum, methods, form, funds, principles, improving the quality, global and social sciences*


Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda birinci strateji istiqamət səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir. Sərəncamın başlıca məqsədi müasir və innovativ təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla, onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməkdir.

Biz elə bir dövrdə yaşayırıq ki, daim inkişaf etmək, öz işimizdə yenilikləri tətbiq etməliyik.

Dünyanın qabaqcıl ölkələrinin təhsil sisteminə istinad edilməsi, Avropa təhsil sisteminə inteqrasiya bu gün məktəbəqədər təhsil sistemində də əsaslı dəyişikliklərin aparılmasını tələb edir. Məktəbəqədər təhsilin inkişafı ilə bağlı dövlət proqramı çərçivəsində uşaq bağçalarının maddi-texniki bazası gücləndirilsə də, məktəbəqədər təhsilin məzmununda da dəyişiklik etmək lazımdır. Təhsilin yeniləşməsi məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçilərindən bu sistemdə baş verən innovasion dəyişikliklərin tendensiyalarını (cərəyanlarını) bilməsini tələb edir.

Azərbaycanda cəmiyyətin sifarişinə uyğun tələbyönümlü yeni, müasir tələblərə cavab verən məktəbəqədər təhsil sistemi qurulmalıdır. O, təkamül yolu ilə, yeni keyfiyyət dəyişiklikləri aparılmaqla tədricən dəyişdirilməli, sosial, uşaqyönümlü təhsil sisteminə adaptasiya olunmalıdır.

Hazırlanmış məktəbəqədər təhsilin kurikulumunun tətbiqi məktəbəqədər təhsilin məzmununun yenidən qurulması ilə nəticələnəcək desək yanılmarıq. Məktəbəqədər təhsilin məzmununun yeniləşməsi, onun hər şeydən əvvəl keyfiyyətinin yüksəlməsi ilə əlaqədardır.

Məktəbəqədər təhsilin kurikulumu uşaqların maraq və ehtiyaclarına cavab verən ilkin bir sənəddir. Məktəbəqədər təhsilin kurikulumunda inkişaf sahələrinin müəyyənləşdirilməsi və onların əsaslandırılması cəmiyyətin tələbatına görə optimal məzmunun zəruri təlim standartlarının və indikatorlarının dəqiqləşdirilməsində mühüm rol oynayır.

Məktəbəqədər təhsilin kurikulumu və onun bir komponenti olan standartlar özünün şəxsiyyətyönümlülük və nəticəyönümlülük səviyyəsi ilə dəyərləndirilir. Təlimin məzmununun müəyyən edilməsi standartların müəyyən edilməsi ilə əlaqədardır. Şəxsiyyətyönümlü və nəticələrə əsaslanan məktəbəqədər təhsilin kurikulumu bir sənəd olaraq uşaqların şəxsiyyət kimi formalaşmasına istiqamətlənmişdir. Məktəbəqədər təhsilin kurikulumu hazırlanarkən təbiətin, cəmiyyətin, iqtisadi inkişafın qanun və qanunauyğunluqları nəzərə alınmışdır ki, onun öyrənənlərdə formalaşdırdığı qabiliyyətlərin, bacarıqların tətbiqi obyektiv gerçəkliyin düzgün qavranılmasını təmin etsin. Şəxsiyyətyönümlü məzmun inteqrativ məzmunu ilə seçilir. Oradakı məşğələlərin adlandırılmasında, məzmunun müəyyənləşdirilməsində şəxsiyyətin formalaşması üçün əhəmiyyət kəsb edən və bilavasitə insanın şəxsi fəaliyyəti üçün lazım olan tələblər əsas götürülür. Məzmunun interaktiv xarakterdə hazırlanması onun bir neçə cəhətdən keyfiyyətinə təsir göstərir. Bütün bunlar bütövlükdə təhsilin humanist prinsipi əsasında qurulmasına təminat verir. Təhsildə humanizmin dərəcəsi şəxsiyyətin, cəmiyyətin mədənilik səviyyəsini müəyyənləşdirir. Bu baxımdan birinci növbədə təhsilin məzmunu, onun fasiləsizliyi humanizm prinsipləri üzərində qurulmalıdır. Şəxsiyyətyönümlülük və uşaqyönümlülük anlayışlarının hər ikisi müasir pedaqogikada istifadə olunur. Məlumdur ki, mahiyyət etibarı ilə bu iki anlayışlar bir-birindən fərqlənir. Şəxsiyyətyönümlülük uşaqyönümlülüklə müqayisədə daha geniş məna daşıyır. Burada təhsilin fəlsəfəsində böyük dəyişikliklərin olması tələb edilir. Şəxsiyyətin inkişafının mədəniyyətlə, başqa sözlə, dəyərlərlə ölçülməsi mühüm şərt kimi gözlənilir. Nəzərdə tutulan bütün bilik və bacarıqların nəticə etibarı ilə səriştələr kimi formalaşdırılması vacib hesab edilir.

Bütün bunlar onu göstərir ki, məktəbəqədər təhsilin məzmununun yenidən qurulmasında adı çəkilən prinsiplər çox əhəmiyyətli rol oynayır. Müasir təhsilin əsas məqsədi dünyəvi və ictimai elmlərin subyekti olmaq imkanına malik fəal, şüurlu, məsuliyyətli, konstruktiv şəxsiyyətin inkişaf etdirilməsindən ibarətdir. Məktəbəqədər təhsilin məzmunu sistemli xarakter daşımalıdır. Bu, uşağın dərk etdiyi obyekt və hadisələr arasındakı qarşılıqlı əlaqəni təmin edir. Bununla uşağın idrakının məlumat dairəsi genişlənir və nəticə kimi artıq böyük məktəbəqədər yaşlı uşaq qazanılmış bilik sistemində yeni əlaqələr qurmaq bacarığını mənimsəyir. Bu bacarıq dərketmə vasitəsi kimi çıxış edir. Həmçinin konkretlik çərçivəsindən çıxmağa imkan verir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004), I kitab. Bakı: Çaşıoğlu, 2005.
2. Əhmədov A., Abbasov Ə. Məktəbəqədər təhsilin konseptual problemləri. // Kurikulum, 2011, № 2
3. İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. Bakı: Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, 2002.





**Ш.А. Бахышева**

**Дошкольное образование в преддверии XXI века**

*Резюме*

В статье раскрывается сущность содержания новой программы – курикулума дошкольного образования, которая служит повышению качества обучения и воспитания детей дошкольного возраста. Это документ, в котором указываются пути, формы, методы и средства, контроль, оценивание и механизмы, определяющие уровень развития детей. Определены также принципы, которые обеспечивают развивающее обучение.

**Sh.A. Bakhishova**

**Preschool education at the begining of XXI century**

*Summary*

The article reveals the nature of the content of the new program – Curriculum preschool education programs which improve the quality of training and education of pre- school children. This document which indicated shows ways, forms, methods and tools, monitoring, evaluation and mechanisms that determine the level of development of children. We have also identified princips which provide development training.


# MÜASİR TƏHSİL SİSTEMİNDƏ AZƏRBAYCAN DİLİNDƏ ENANTİOSEMİYANİN İZAHI


**Elnarə Niftəliyeva,**
*ADPU*
E-mail: Kama-565@mail.ru



***Açar sözlər**: enantiosemiya, lüğət tərkibi, söz, leksik*
***Ключевые слова**: энантиосемия, состав словаря, речь, лексический*
***Key words**: enantiosemiya, dictionary content, speech, lexical*


Azərbaycan dili dünyanın inkişaf etmiş və zəngin dillərindən biridir. Dilimizdə olan bütün sözlərin hamısı birlikdə Azərbaycan dilinin lüğət tərkibini təşkil edir. Dilimizin lüğət tərkibindəki sözlərin hamısının mənasını bilmək o qədər də asan deyildir. Ancaq dilimizdə elə leksik sfera vardır ki, oraya daxil olan sözlərin mənasını hər bir azərbaycanlı həmişə və hər yerdə bilir. Bu dairəyə daxil olan sözlər dilimizin əsas lüğət fondunu təşkil edir (2, 56).

Müasir Azərbaycan dilinin leksikologiyası bu dildə danışan xalqın tarixi ilə əlaqədar olaraq yaranmış lüğət tərkibinin müasir vəziyyətini öyrənir (3, 10). Lüğət tərkibində maraqlı söz qruplarından biri də eyni səs kompleksinə malik olan sözlərin bir-birinə əks olan mənaları bildirməsidir. Belə sözlər dildə enantiosemiya hadisəsini yaradır.

Müasir Azərbaycan dilində enantiosemiya hadisəsi maraqlı bir dil hadisəsi kimi mövcuddur. Ancaq indiyə qədər bu hadisə diqqətdən kənarda qalmış, araşdırılmamışdır. Qeyd etdiyimiz kimi enantiosemiya eyni səs kompleksinə malik olan sözün bir-birinə əks olan mənaları bildirməsidir (5, 176). Məsələn:

başıdolu: (1, 241).
a) ağıllı, dərrakəli.
b) sərxoş, kefli.
canalan (1, 282):
a) cəllad, adam öldürən, qaniçən.
b) füsunkar, dilbər.
dad:
a) nəşə, ləzzət.
b) fəryad, fəğan (1, 31).

Yunan sözünün ifadə etdiyi mənlara diqqət yetirək: "Yaman günün ömrü az olur."- pis mənada; "O, yaman şəkil çəkə bilir."- yaxşı mənada ifadə olunmuşdur (4, 59).

Enantiosemiya hadisəsi dilin lüğət tərkibində gedən bir prosesdir. Bu prosesin tarixi dilin qədim dövrləri ilə bağlıdır.

Enantiosemiya hadisəsi ilə yaranan sözlər eyni səs kompleksinə malik olub, müxtəlif mənaları bildirməsinə görə omonimlərə yaxınlaşır. Lakin omonimlərdən fərqli olaraq burada bir-birinə əks olan mənalar bildirilir. Bir-birinə əks olan mənaları bildirməsinə görə enantiosemiya hadisəsi ilə

yaranan sözlər antonimlərə də yaxınlaşır. Ancaq antonimlər müxtəlif səs kompleksinə, fonetik tərkibə malik əks mənalı sözlər olduğu halda, onlar isə (enantiosemiya) eyni fonetik tərkibli, əks mənalı sözlərdir (5, 176).

Enantiosemiya yunan sözüdür, (enantios-qarşı, əks + səma- işarə) sözdə antonimik mənaların inkişafı, mənaların qütübləşdirilməsi deməkdir. Bu hadisənin tədqiqinə maraq heç də azalmır, çünki enantiosemiya çoxşaxəlidir, sonadək öyrənilməmişdir.

"Enantiosemiya"- bir sözün iki məna daşıdığı situasiyanı ifadə etmək üçün istifadə olunan terminlərdir: birinci mənada enantiosemiya "var" mənasını, ikinci mənada isə "deyil" anlayışını ifadə edir.

**Ədəbiyyat**


1. A. Ağamusa. Azərbaycan dilinin izahlı lüğəti. I cild. Bakı, 2005.
2. A. Babayev. Azərbaycan dili. Bakı, 2004.
3. S. Cəfərov. Müasir Azərbaycan dilinin leksikologiyası. II hissə. Bakı, 2005.
4. H. Həsənov. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 1987.
5. B. Xəlilov. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 2005.



**Э.Нифталиева**

**Процесс енантосемия в современной Азербайжанском образование**

*Резюме*

"Энантиосемия" термин используемый для выражения слов, которые обозначают одинаковый смысл. Эти слова имеют одинаковый фонетический комплекс, Это явление происходит в словарном составе языка. История этого процесса связано с древними периодам языка.

**E. Niftaliyeva**

**Enantosimiya processin modern Azerbaijan educatio system**

*Summary*

The article deals with "enantiosemiya" the term which shows situation that carry two meanings. It has opposite meanings. This process happens in vocabulary. The history of this process is connected with the ancient history of language.


## MÜASİR DÖVRDƏ TƏHSİLİN VƏ TƏRBİYƏNİN QARŞILIQLI ƏLAQƏSİ


**Tohid Məmmədov,**
*AMİ-nin Sumqayıt filialının baş müəllimi*
E-mail: tohid.mamedov@mail.ru



***Açar sözlər:*** *təhsil, mədəniyyət, emosional, vətənpərvərlik, müstəqil*
***Ключевые слова:*** *образование, культурф, эмоциональное, патриотическое, независимая*
***Key words:*** *educational, cultural, emotional, patriotic, independent*


Müasir dövrdə təhsilin və tərbiyənin qarşılıqlı əlaqəsi mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Bu gün xalqımıza məxsus əxlaqi keyfiyyətlərin böyüməkdə olan nəslə çatdırılması, onların bu keyfiyyətlər əsasında tərbiyəsi olduqca vacibdir. Bu cəhətdən təhsil müəssisələrinin qarşısında böyük işlər durur.

İnkişaf edən ölkələrin təcrübələrinə nəzər salarkən görünür ki, cəmiyyətin inkişafı üçün yaradıcı, müstəqil düşünən şəxslər yetişdirmək lazımdır. Azərbaycan təhsilinin əsas məqsədi yüksək savadla yanaşı həm də yüksək mədəniyyətə və tərbiyəyə malik, cəmiyyətə yararlı vətəndaşların yetişdirilməsi olmalıdır. Bunun üçün dövlət atributları ilə uşaqları yaxından tanış etmək, himnimizi onlara öyrətmək, bayrağımız, milli gerbimiz haqqında əxlaqi, milli mənəvi dəyərlərimiz barədə onlarda geniş təsəvvür yaratmaq, onlara mədəni davranış vərdişlərini, nitq mədəniyyətini aşılamaq, hər bir uşağı vətənpərvərlik, böyüklərə hörmət, qayğıkeşlilik, məsuliyyətlilik, mənfi hallara qarşı barışmazlıq müsbət əxlaqi keyfiyyətlər ruhunda tərbiyə etmək lazımdır. Bu məqsədi layiqincə



həyata keçirmək üçün respublikanın hər yerində təlim-tərbiyə müəssisələrində də ardıcıl, sistemli məqsədyönlü tərbiyə işi aparılmalı, sadalanan keyfiyyətlərin böyüməkdə olan nəslə aşılanmasında daha geniş imkanlara malik olan əxlaq tərbiyəsi gücləndirilməlidir. Uşaq bağçalarında, məktəblərdə əxlaqi mövzularda keçirilən tədbirlərdən, aparılan söhbətlərdən, rəsm, yaradıcılıq müsabiqələrindən guşələrdən geniş istifadə olunmalı, tərbiyəçilər, müəllimlər bu istiqamətdə yaradıcı axtarışlarını gücləndirməlidirlər [(1 №8 (8017)].

Müəllimin tərbiyə prosesində müvəffəqiyyət qazanmasında başqa üsul və metodlarla yanaşı poeziyadan istifadə etməsi də müəyyən rol oynamalıdır. Poeziya sagirdləri ruhlandırmalı onların emosional və vətənpərvərlik hissini gücləndirməlidir. Bu cəhətdən Azərbaycanın Xalq Şairi Məmməd Arazın şerləri daha çox diqqəti cəlb edir. Onun şerlərində vətənpərvərlik və milli iftixar hissləri çox güclüdür:

Vətən mənə oğul desə nə dərdim?
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harada, nə vaxt, nə dərdim.
Xəzanımdır, xəzanımdır, xəzanım [(3 №12(81 21)].

Müstəqil Azərbaycan təhsil sistemini beynəlxalq sistemə inteqrasiyası üçün, bu sahədə çoxlu dəyişikliklər, inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni əsrdə cəmiyyətin və insanların inkişafı üçün, yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşdırmalı, yetişdirməlidir. İndi hər birimiz bilirik ki, Azərbaycan təhsilinin qarşısında duran ən əsas məsələlərdən biri yüksək mədəniyyətli, mütərəqqi dünyagörüşlü, insan hüquq və azadlıqlarına hörmət etməklə müstəqil və yaradıcı düşünmə qabiliyyətinə malik, vətənpərvər şəxsiyyət yetişdirməkdir. Təhsil sisteminin qarşısında duran bu məsələnin həlli üçün ilk növbədə, müəllim özü keyfiyyətcə dəyişməli, "repreduktor" rolundan imtina etməli və yeni bir rolu biliklərin əldə edilməsi yolunda bələdçi qəbul etməlidir [( 2 №15 (80 71)]. Ulu öndər Heydər Əliyev yetişməkdə olan gənc nəsil haqqında belə deyərdi: " Hamımızın ümumi vəzifəsi yetişməkdə olan yeni nəsildə vətənpərvərlik, millətə sədaqət, vətən uğrunda şəhid olmağa hər an hazır olmaq hissi formalaşdırmaqdır. Ola bilsin ki, gənc nəsil əla oxumasın, lakin o torpağını qorumağa, onun uğrunda şəhid olmağa hər an hazır olmalıdır".

**Ədəbiyyat**


1. Y. Əliyev." Əxlaq tərbiyəsi düzgün qurulanda" , "Azərbaycan müəllimi" qəz., 2003,
2. T. Əfəndiyeva "Müasir müəllim necə olmalıdır" "Azərbaycan müəllimi" qəz., 2004, 9 aprel
3. X. Babayev "Coğrafiyanın tədrisində Məmməd Araz poeziyasından istifadə", "Azərbaycan müəllimi" qəz., 2005, 25 mart


## İNFORMASİYA CƏMİYYƏTİNDƏ TƏHSİLİN XÜSUSİYYƏTLƏRİ


**Əhliman Dadaşzadə,**
*AMİ-nin Sumqayıt filialının baş müəllimi*
E-mail: ehliman@mail.ru



***Açar sözlər:*** *informasiya, cəmiyyət, təhsil, texnologiya, xüsusiyyət*
***Ключевые слова:*** *информация, общество, образование, технология, особенность*
***Key words:*** *information society, education, technology, feature*


İnformasiya cəmiyyəti həm də sivilizasiyanın inkişafının növbəti mərhələsi kimi xarakterizə olunur. Bu baxımdan, informasiya cəmiyyətinin tarixi kontekstdən mahiyyətini dərk etmək üçün, bütövlükdə, sivilizasiyanın inkişaf tarixinə nəzər salmaq, əvvəlki cəmiyyətlərin xüsusiyyətlərini bilmək lazımdır. Sivilizasiyanın inkişaf mərhələləri aşağıdakılardır:

-Aqrar cəmiyyət;
-Sənaye cəmiyyəti;
-İnformasiya cəmiyyəti.

Sivilizasiyanın inkişaf mərhələsi kimi cəmiyyət – hər hansı bir xalqın, dövlətin və ya bütövlükdə bəşəriyyətin tarixi inkişafının konkret mərhələsidir.

Aqrar cəmiyyət – sivilizasiyanın inkişafının ilkin mərhələsi olub, maddi sərvətlərin əsas hissəsinin kənd təsərrüfatı hesabına formalaşdığı cəmiyyətdir.

Sənaye cəmiyyəti – sivilizasiyanın inkişafının ikinci mərhələsi olub, maddi sərvətlərin, əsasən, təbii resursların hasilatı və emalı, həmçinin sənaye məhsulları hesabına formalaşdığı cəmiyyətdir.

İnformasiya cəmiyyəti – sivilizasiyanın inkişafının hazırkı mərhələsi olub, informasiya biliklərin əsas maddi sərvətə çevrildiyi cəmiyyətdir.

İnformasiya cəmiyyəti – informasiya-kommunikasiya texnologiyalarının təsiri nəticəsində bilik və informasiyanın insan fəaliyyətinin bütün sferalarında əsas rol oynadığı cəmiyyətdir. İnformasiya cəmiyyətinin əsas xüsusiyyətləri bunlardır:

Cəmiyyətdə informasiyanın, biliklərin, informasiya texnologiyalarının rolu artır;

Telefon, radio, televiziya, İnternet, ənənəvi və elektron mətbuatdan istifadə etməklə cəmiyyət sürətlə informasiyalaşır;

İnsanların səmərəli informasiya əlaqəsini, onların ümumdünya informasiya resurslarına çıxışını, informasiya məhsullarına və xidmətlərinə tələbatını təmin edən qlobal informasiya məkanı formalaşır. İnternet informasiya cəmiyyətinin əsasını təşkil etməklə, onun formalaşmasında həlledici rol oynayır. Başqa sözlə, İnternet informasiya cəmiyyətinin ən mühüm atributu və əsas təkanverici qüvvəsidir. Görkəmli Amerika sosioloqu M. Kastelsə görə, İnternet sənaye cəmiyyətinin formalaşmasında elektrik hansı rolu oynayırdısa, informasiya cəmiyyətinin formalaşmasına da İnternet həmin rolu oynayır. İnformasiya cəmiyyətinin qlobal xarakter alması da İnternetin xüsusiyyətləri, imkanları ilə bağlıdır. Məhz İnternetin imkanları hesabına İnformasiya cəmiyyətində insan fəaliyyətinin bir sıra sahələrində zaman və məkan məhdudiyyətləri aradan qalxır.

İnformasiya cəmiyyətində təhsilin xarakterik xüsusiyyətləri bunlardır:

-*Çeviklik* (Tələbənin özü üçün münasib olan vaxtda, yerdə və tempdə məşğul olmaq imkanı, fənnin öyrənilməsi üçün konkret vaxtın müəyyən edilməməsi)

-*Modulluq* (Müstəqil tədris kursları dəstindən – modullardan fərdi və qrup tələbatlarına uyğun tədris planı hazırlamaq imkanı)

-*Paralellik* (İş yerindən ayrılmadan, paralel olaraq təhsil almaq)

-*Əhatəlilik* (Çoxlu sayda tələbənin eyni vaxtda bir çox tədris informasiyasına (e-kitabxana, verilənlər bankı, bilik bankı və s.) müraciət etmək, İnternet vasitəsilə tələbələrin bir-birləri və müəllimlərlə ünsiyyət qurmaq imkanı)

-*Qənaətcillik* (Tədris obyektlərindən və infrastrukturundan, texniki vasitələrdən, nəqliyyat vasitələrindən istifadə, dərs vəsaitlərinin çap edilməsi xərclərinə qənaət)

-*Texnolojilik* (tədris prosesində informasiya-kommunikasiya texnologiyalarının ən yeni nailiyyətlərindən istifadə imkanı)

-*Sosial bərabərlik* (Yaşayış yerindən, sağlamlıq vəziyyətindən, maddi təminatından asılı olmadan hər kəsin təhsil alması üçün bərabər imkanların yaradılması)

-*Beynəlmiləlçilik* (Təhsil xidmətləri bazarında dünya təhsil nailiyyətlərinin ixracı və idxalı)

Bu cəmiyyətdə müəllimin rolu dəyişir və genişlənir. Müəllimin bilik inhisarçılığına son qoyulur. Kompüter və İnternet müəllimin daşıdığı ənənəvi funksiyaların bir hissəsini öz üzərinə götürür. Müəllim daha çox konsultant, koordinator, nəzarətçi rolunda çıxış etməyə başlayır. Müəllimdən öz biliklərini daim yeniləmək, təkmilləşdirmək, texnoloji yenilikləri çevik şəkildə mənimsəmək tələb olunur. Bu cəmiyyətdə tələbədən müstəqil öyrənmə, yeni biliklərə can atma vərdişləri sayəsində yaradıcılıq və intellektual potensialın artırılması, müasir informasiya-kommunikasiya texnologiyaları ilə işləmək bacarığı, müstəqil qərar qəbuletmə qabiliyyəti tələb olunur.

İnformasiya cəmiyyətinə xas olan tədris vasitələri:

-Elektron tədris nəşrləri;

-Öyrədici kompüter sistemləri;



-Audio-video tədris materialları.

Ölkəmizdə informasiya cəmiyyəti quruculuğu Azərbaycan Respublikasının İnkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2013) əsasında həyata keçirilir. Milli Strategiyanın əsas məqsədi informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etməkdir.

Milli Strategiyanın həyata keçirilməsini təmin etmək məqsədi ilə "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" ("Elektron Azərbaycan") qəbul edilmiş və həyata keçirilmişdir.

Hazırda Milli Strategiyada irəli vəzifələri yerinə yetirmək üçün "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı" ("Elektron Azərbaycan") həyata keçirilir.

Ölkəmizdə informasiya cəmiyyətinin hüquqi əsaslarının müəyyən edilməsi istiqamətində bir sıra qanunlar qəbul edilmişdir.

Ümumtəhsil məktəblərinin İKT ilə təminatı Proqramı (2005-2012). Bu proqramın məqsədi Azərbaycan Respublikasında yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltməyə xidmət edən, bütün pillə və səviyyələrdə vətəndaşlara təhsil almaqla bərabər imkanları təmin edən, ölkə təhsil informasiya sisteminin dünya təhsil sisteminə inteqrasiyasına imkan verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq idi.

Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012). Bu Proqramın məqsədi bunlardır:

-Təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi

-Elektron təhsil texnologiyalarının tətbiqinin genişləndirilməsi

-Təhsil sistemində idarəetmənin informasiyalaşdırılması

-Kadr potensialının gücləndirilməsi

-Normativ hüquqi bazanın təkmilləşdirilməsi

Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişaf üzrə Dövlət Proqramı (2009-2013) ölkəmizdə informasiya cəmiyyətinin qurulması baxımından mühüm əhəmiyyətə malikdir. Proqramın əsas məqsədi bunlardır:

-Ölkədə kosmik sənayenin yaradılması və inkişaf etdirilməsi

-Dövlət strukturlarının peyk rabitəsində olan tələbatının ödənilməsi

-Regionlarda əhalinin teleradio yayımına artan tələbatının təmin edilməsi

Ölkənin beynəlxalq rabitə kanallarının artırılması və kosmik fəzadan səmərəli istifadə etməklə iqtisadi, sosial, elmi, mədəni, təhlükəsizlik və s. sahələrinin inkişaf etdirilməsi

Hal-hazırda bu proqram uğurla həyata keçirilir.

### Ədəbiyyat


1. Abbasov Ə.M., Əliquliyev R.M., Ağayev F.T. "Web səhifələrin yaradılması" Bakı, 2002.
2. http://portal.edu.az Azəri pagini
3. Təhsilin aktual problemləri Az RTP İnsu. Bakı, 2007

# MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİN QARŞILIQLI MÜNASİBƏTLƏRİNİN DÜZGÜN QURULMASI

**Arzu Quliyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*AMİ*
E-mail: arzu@gmail.com

***Açar sözlər:*** *tolerantlıq, pedaqoji tolerantlıq,* müəllim və tələbələrin qarşılıqlı münasibətləri, *pedaqoji tolerantlığın formalaşdırılması*
***Ключевые слова:*** *толерантность, педагогическая толерантность, взаимоотношения между учителем и студентом, формирование педагогической толерантности*
***Key words:*** *tolerance, pedagogical tolerance, the relationship between teachers and student, formation of pedagogical tolerance*

Pedaqoji tolerantlığın səmərəliliyi müəllim və tələbə münasibətlərinin düzgün qurulmasından xeyli dərəcədə asılıdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Bu çox mühüm əhəmiyyətli dövlət sənədində milli təhsilimizin inkişafına nail olmaq üçün beş streteji istiqamət diqqət mərkəzinə gətirilmişdir.

İkinci strateji istiqamətdə təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutulur. Oxuyuruq: "Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir" (1).

Göründüyü kimi, səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı ...təlim metodologiyasının yaradılmasını" nəzərdə tutur.

Müəllim tələbəni fəaliyyətin əsas sahəsində – ali təhsil müəssisəsində görür, onun yoldaşlarını, dostlarını, çətinliklərini, uğurlarını bilir. Ona görə də səriştəli müəllim əslində yaxından tanıdığı tələbə oğlanlar və qızlarla qarşılıqlı münasibətlərə hazır olmalıdır. Tələbənin yaş və fərdi xüsusiyyətlərinə, temperament tiplərinə bələd olmaq bir yandan təhsilalanlarla ünsiyyəti asanlaşdırır, digər tərəfdən, müəllimin tərbiyənin məqsədlərinə nail olmağı stimullaşdırır.

Bu, bir həqiqətdir ki, müəllimin tələbələrlə qarşılıqlı münasibətləri heç də həmişə əlverişli olmur. Bir sıra hallarda bu, müəllimin rəhbərlik üslubunun xarakterindən irəli gəlir.

Tədqiqatlardan, müşahidə və sorğulardan görünür ki, müəllimlə tələbələrin qarşılıqlı münasibətlərinin alınmamasına bir çox hallarda məhz müəllimin pedaqoji mərifəti, pedaqoji nəzakət və etikanı gözləməməsi; onun əsəbi, hövsələsiz, səbirsiz olması, intolerantlıq nümayiş etdirməsi, təhsilalana etibar etməməsi, ədalətli, prinsipial, humanist olmaması, sözü ilə əməli arasındakı uyğunsuzluq səbəb olur.

Digər cəhət tələbələrin özləri ilə bağlıdır. Yəni səbəbkar tələbələr olurlar. Mühazirə və seminar məşğələlərinə gecikmə və gəlməmək halları, müəllimin haqlı tələblərini yerinə yetirməmə, iradlarını pis qarşılamaq, müəllimə cavab qaytarmaq da müəllim-tələbə münasibətlərini dözülməz edir. Bəzi tələbələr bir sıra hallarda dözümlülük, tolerantlıq göstərmək əvəzinə, müəllimin onun taleyini, onun təlim müvəffəqiyyətini düşünərək və nümunəvi davranışına nail olmağa çalışdığını nəzərə almayaraq, intolerantlıq nümayiş etdirir.

Tolerantlıq müəllimin ən zəruri peşə və şəxsi keyfiyyətlərindən biridir. Pedaqoji peşə sahibləri bu mühüm keyfiyyətə yiyələnməli, tələbələrlə qarşılıqlı münasibətlərdə dözümlülük



nümayiş etdirməlidirlər. Tolerant keyfiyyəti başqa şəxsdə, o cümlədən tələbələrdə formalaşdırmaq istəyən müəllim ilk növbədə özü hövsələli, səbirli, tədbirli olmalı, yerli-yersiz özündən çıxmamalıdır. Tərbiyə işində onun şəxsiyyəti, özünü necə aparması mühüm əhəmiyyətə malikdir.

Müəllim təlim prosesində, auditoriyadankənar tədbirlərdə tolerantlıq üzrə tələbələr arasında iş aparmalıdır. Bu mənada pedaqogika və psixologiya ali məktəb fənlərinin rolu böyükdür. Pedaqoji tolerantlığın tərbiyə olunması üzrə adları çəkilən fənlərin geniş imkanlarından faydalanmaq mümkündür.

**Ədəbiyyat**

1. Əmirəliyeva İ.B. Tələbələrdə tolerantlığın formalaşdırılmasının nəzəri-metodoloji əsasları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2011, № 4
2. 2 Əmirəliyeva İ.B. Tələbələrdə tolerantlığın formalaşdırılmasının pedaqoji şərtləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2011, № 1
3. Əmirəliyeva İ.B. Təlim prosesində tələbələrdə tolerantlığın formalaşdırılması sahəsində müəllimin rolu. "Müəllim hazırlığına yeni yanaşmalar" monoqrafiyasının fəsli. Bakı: Mütərcim, 2012.
4. Əmirəliyeva İ.B. Auditoriyadankənar tədbirlər prosesində tələbələrdə tolerantlığın formalaşdırılması // Naxçıvan Müəllimlər İnstitutunun Elmi xəbərləri, 2012, № 4

# TƏHSİLİN MƏZMUNUNDA AZƏRBAYCANLIQ PRİNSİPİNİN İFADƏSİ

**Naibə Əhmədova,**
*tarix üzrə fəlsəfə doktoru,*
*ADPU*
E-mail: naiba_66@mail.ru

***Açar sözlər:*** *azərbaycançılıq, dövlətçilik, mədəniyyət birliyi, təhsil, təlim-tərbiyə*
***Ключевые слова:*** *Азербайджанство, государственность, культурное сообщество, образование, обучение*
***Keywords:*** *azerbaijanism, statehood, culture community, education, training*

Müasir Azərbaycanın son illərdə sürətli inkişaf tempinə görə regionda və dünyada siyasi nüfuzu və iqtisadi qüdrəti artır və geniş vüsət alan qloballaşma prosesləri ölkənin sosial-iqtisadi və mədəni həyatına güclü nüfuz edir və etməkdədir. Cəmiyyətin stabilliyi, onun yüksələn xətlə inkişafı təhsildən, təlim-tərbiyə işindən xeyli dərəcədə asılıdır. Ulu öndər Heydər Əliyev demişdir: "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bır sahəsidir.

Bu sahədə təbiidir ki, ictimai humanitar elmlərin rolu böyükdür. Elmi-texniki tərəqqinin sürətlə inkişafı təhsilin məzmununda daha çox aktuallıq kəsb edir. Belə bir şəraitdə Azərbaycan xalqının, millətinin öz varlığını, milli dilini, mədəniyyətini, tarixi dəyərlərini qoruyub saxlaması, milli ənənələrin inkişaf etdirilməsi həyati zərurətə çevrilir. Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişafı ölkəmizdə milli və bəşəri düşüncəyə malik yeni nəslin yetişdirilməsini tələb edir. Bütün bunlar ulu öndər Heydər Əliyevin zəngin irsindən irəli gəlir. Heydər Əliyev azərbaycançılıq məsələsindən bəhs edərkən demişdir : " Hər kəsin milli mənsubiyyəti , onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam ".Vətən-dil birliyi, mədəniyyət birliyi olan insanların yaşadığı, əcdadlarının doğulduğu , dəfn olunduğu, xalqın ,millətin formalaşdığı, tarixi abidələr yaratdığı yerdir.

Təhsilin məzmununda azərbaycançılıq prinsipi Azərbaycan tarixinin tədrisində necə nəzərə alına bilər? Dünyanın mədəni xalqları içərisində öz qədimliyi ilə seçilən Azərbaycan xalqı çox qədim tarixə malikdir və hər bir Azərbaycan gənci bu tarixi öyrənməyə borcludur. Tarix hər bir xalqın , o cümlədən Azərbaycan xalqının da milli özünüdərkinin əsas sütunlarından birini təşkil edir. Qədim yunanlar əbəs yerə tarixi "Cəmiyyətin müəllimi " adlandırmayıblar. Qədim çinlilər isə tarix haqqında belə deyirdilər: "Keçmişi öyrənmək lazımdır, çünki o gələcəyin müəllimidir.

Azərbaycan tarixi bəşəriyyətin ta qədim çağlarından bu günə qədər baş vermiş ən mühüm hadisələrini öyrənir. Burada əsasən Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri olması, onun dövlətçilik ənənələri, Azərbaycan xalqinin, onun milli, sosial, əxlaqi mənəvi dəyərlərinin təşəkkülü və formalaşması, Azərbaycanın geosiyasi məkanda mövqeyi və rolu, bəşər cəmiyyətinin inkişafına təsir məsələləri, Azərbaycanın məruz qaldığı təcavüzlər və onlara qarşı mübarizə, Azərbaycanın tarixi səxsiyyətləri, maddi və mənəvi mədəniyyət abidələri haqqında sistemli məlumatların mənimsənilməsi təmin olunur. Bunula yanaşı gənclərdə tarixi hadisələri təhlil etmək və onlara münasibət bildirmək, əlavə faktlar toplamaq və sistemləşdirib təqdim etmək, tarixi mənbələrlə işləmək bacarıqları formalaşdırılır, onlarda vətənpərvərlik, milli iftixar hissləri aşılanlr.

Azərbaycan xalqının zəngin dövlətçilik ənənələri olmuşdur. Hələ e.ə. III minillikdə Urmiya gölü hövzəsində Aratta, Lullubi, Kuti dövlət qurumları, sonra Manna, Midiya, Atropatena, Albaniya kimi mərkəzləşmiş dövlətlərin yaranması Azərbaycan xalqının zəngin dövlətçilik ənənələrindən xəbər verir. Böyük dövlətçilik təcrübəsi olan xalq qüdrətlidir. Tarixi ən çətin sınaqlarında belə Azərbaycan öz dövlətçilik ənənələrini unutmamışdır.

Azərbaycan xalqı dünyanın ən qədim xalqlarından biridir. Xalqımızın əcdadları tarixi torpaqlarında Dərbənddən Zəncana qədər olan geniş bir ərazidə yaranmış və formalaşmışdır. Azərbaycan qədim türklərin məskənidir. Xalqımız tarix boyu türkçülüyünü qorumuş, dilini, mədəniyyətini unutmamış, əksinə daha da zənginləşdirmişdir. Əlbəttə, yazılı mənbələrin kifayət qədər olmaması Azərbaycan tarixinin bütün sahələrini və dövrlərini eyni səviyyədə tədqiq etməyə, qaranlıq məsələləri işıqlandırmağa imkan vermir. Lakin qədim zamanlardan azərbaycanlıların soykökünün bu ərazi ilə bağlı olması, Azərbaycan xalqının yaranması və formalaşmasında bilavasitə iştirak edən türk etnoslarının qədimdən burada yaşamaları fikrini qaynaqlar təsdiqləyir. Tarix boyu Azərbaycanda məskunlaşan və müxtəlif dillərdə danışan etnoslar azərbaycanlılarla yaxın iqtisadi və mədəni əlaqədə olmuşdur. Azərbaycan xalqının etnik azlıqları öz ətrafında toplaması qarşılıqlı təsirə də səbəb olmuşdur. Həmin təsir isə Azərbaycan mədəniyyətinin çoxşaxəli zənginləşməsinə şərait yaratmışdır.

Azərbaycançılıq prinsipi sırf elmi mahiyyət kəsb edir. O fəlsəfi, tarixi, pedaqoji – metodik ideyalardan qaynaqlanmış baxışlardır. Azərbaycan tarixinin tədrisində bu ideyaların nəzərə alınması, ümumi prinsip kimi qəbul olunması hər şeydən əvvəl, vətən tarixinin obyektiv öyrədilməsinə təminat verir. Digər tərəfdən azərbaycançılıq ideyalarının əsas götürülməsi bütövlükdə təlim-tərbiyə sistemini məzmunca yeniləşdirir, gənc nəslin şəxsiyyət kimi yetişməsini şərtləndirir. Müasir dövrün tələbi budur ki, təhsildə şəxsiyyətyönümlülük, nəticəyönümlülük prinsiplərinə ciddi diqqət yetirilsin, bu cür təhsil isə azərbaycançılıq ideyalarından qaynaqlanmalıdır.

### Ədəbiyyat


1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. Ağayev Ə. Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz. Bakı, 2000.
3. Ağayev M.H. Pedaqoji fikir tarixində tərbiyə və təhsil. Bakı, 2011.
4. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı, 2002.



***Резюме***

Основной идеей независимого Азербайджанского государства является азербайджанство. Каждый азербайджанец должен гордиться своей национальной принадлежностью, мы должны развивать азербайджанство – язык, культуру, национально-духовные ценности, обычаи и традиции Азербайджана. Это чрезвычайно важный фактор, свидетельствующий о нашей национальной самобытности, азербайджанстве.

***Summary***

One of the greatest legacies that Azerbaijan has inherited from the past is a strong educational system. Formal education began at the turn of the last century and coincided with Azerbaijan's oil boom. It became even more widespread and prominent during the Soviet period.




# KREDİT TƏHSİL SİSTEMİNDƏ TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ROLU


**İlqar Səfərli,**
**Məftun Heydərov,**
*Sumqayıt Dövlət Universiteti*
E-mail: i.safarli@mail.ru



***Açar sözlər:*** *məktəb, təhsil, tələbə, müəllim, pedaqoji*
***Ключевые слова:*** *школа, образование, студент, преподаватель, педагогический*
***Key words:*** *school, education, student, teacher, pedagogical*


XXI əsr informasiya texnologiyaları əsri olduğundan tam əminliklə demək olar ki, müasir dövrdə informasiya cəmiyyətinin inkişafı və bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti ilk növbədə onların informasiya kommunikasiya texnologiyalarından (İKT) səmərəli istifadə səviyyəsi ilə təyin edilir. Hal-hazırda respublikamızda da bütün sahələrdə İKT-nin tətbiqi istiqamətində aparılan islahatlar, demək olar ki, bütün fəaliyyət sferalarını, xüsusilə də təhsil sahəsini əhatə edir.

Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətləri və prioritetləri 2003-cü ildə imzalanan "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"sı ilə müəyyən olunub. Daha sonra, "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" sənədində nəzərdə tutulan fəaliyyət planı və vəzifələr də ölkənin inkişafında İKT-nin müstəsna əhəmiyyətə malik olduğunu göstərir. 2005-ci ildə təsdiq edilən bu "Elektron Azərbaycan" Dövlət Proqramında həm də təhsil sisteminin təkmilləşdirilməsində İKT-nin tətbiq edilməsi, İKT sahəsində ümumi maarifləndirmə üzrə xüsusi tədbirlər nəzərdə tutulmuşdur.

Respublikamızın təhsil sistemində, xüsusilə Boloniya prosesinin başlıca tərkib hissəsi olan kredit sistemi ilə fəaliyyət göstərən təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsi üçün İKT-nin təhsil sisteminə tam inteqrasiyası əsas və ən başlıca şərtdir. Çünki, demək olar ki, kredit sistemi ilə fəaliyyət göstərən ali təhsil müəssisələrində informasiya texnologiyaları təhsilin səviyyəsini yüksəldən əsas atributlardan biridir. Hal-hazırda Bolonya prosesinə qoşulan ali məktəblərdə təhsil alan tələbələrin informasiya texnologiyalarından geniş istifadə etməklə öz işlərini keyfiyyətli qurmalarına imkan yaranır. Belə ki, kredit sistemi tətbiq olunan təhsil prosesində aktiv təlim metodlarından geniş istifadə olunur ki, bu da informasiya texnologiyaları olmadan mümkün deyil. Buna görə də tələbələrin informasiya texnologiyaları ilə işləmək bacarıqları və vərdişləri olmalıdır.

Kredit sistemində biliyə nəzarət formaları müxtəlifdir. Bunlardan informasiya texnologiyalarından istifadə olunmasına nəzər salaq:

- Tələbələrə tədris prosesinin lazımi materialları təqdim olunduqda, bunlar həm çap, həm də elektron versiyasında verilir.
- Tələbələr elmi-tədqiqat işlərində, kurs işlərində, referatların, buraxılış işlərinin, magistr dissertasiyalarının yazılmasında internetdə olan materiallardan və elektron kitabxanalardan istifadə edirlər və topladıqları materialları kompüterdə yazaraq müəllimə təqdim edirlər.
- Yazılı formada müxtəlif fənlərin tədrisində testlərdən istifadə edirlər ki, bu testlər də ya blankda, ya da kompüterlərdə aparılır və mövcud mülahizələrdən tələbə düzgün olanını seçməlidir.
- Tələbələr tərəfindən öyrənilən mövzuların qiymətləndirilməsi üçün sorğu metoduna və testlərə əsaslanan formadan istifadə oluna bilər. Sorğular biliklərin mənimsənilməsi, proqrama dair çatışmazlıqların aradan qaldırılması məqsədilə aparıla bilər. Bu sorğular kompüter və e-mail vasitəsilə keçirilə bilər.

Bir sözlə, kredit sistemində tədris zamanı tələbələrin kompüter və informasiya texnologiyalarından istifadə etməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Kredit təhsil sistemində İKT-nin tətbiqi istiqamətində müəyyən işlər görülərək- internet bağlantıların yaradılması, internet-texnologiyaların tədris prosesinə tətbiqi kimi məsələlər öz həllini tapacaq. Təhsil müəssisələrində internetin şəbəkəsinin qurulması ilə tələbələrin daima internet resurslarından, pulsuz informasiya axtarış sistemlərindən istifadə edə bilmələri və geniş informasiya bazasına malik Web-səhifələr yaradaraq elektron forumlar təşkil etmələri üçün şərait yaradılmalıdır. Buna görə də ali təhsil müəssisələrinin maddi-texniki bazalarının artırılmasına, onların lazımi elektron vasitələri, müvafiq avadanlıqlarla təmin olunmasına xüsusi diqqət göstərilməlidir. Tədris prosesində internet texnologiyalardan istifadə sahəsində, mövcud texnologiyanın tədris prosesinə inteqrasiyası istiqamətində, elmi-metodik təminatın gücləndirilməsi sahəsində vəziyyətin yaxşılaşdırılmasına imkan yaradacaq.

Bolonya prosesi ilə fəaliyyət göstərən təhsil müəssisələrindəki kitabxanalarda elektron kataloqlar yaradaraq tələbələrin istifadəsinə verilməli, onların internet resurslarından istifadə edərək, nəinki ölkə kitabxanaları, hətta dünya kitabxanaları ilə işləmələri üçün imkan yaradılmalıdır. Bir çox ali məktəblərin kitabxanalarında isə bir az da irəli gedərək idarəetməni təkmilləşdirmək üçün müasir informasiya texnologiyalarının yaratdığı imkanlardan istifadə etməyə başlayıblar. Bu sahədə daha çox təcrübə və böyük imkanları olan ölkələrin təcrübəsinin öyrənilərək respublika kitab fondunun, elektron sənədlərinin toplu kataloqlarının yaradılması, avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərinin tətbiqi, “Azərbaycan kitabxanaları”- veb-portallarının yaradılması hər bir nəslin nümayəndəsi, xüsusilə də tələbələr üçün daha əhəmiyyətlidir. Çünki hər bir tələbə internetin köməyilə iş yerini tərk etmədən, heç bir məsafə qət etmədən və ya istənilən vaxtda lazımi informasiyanı əldə edə biləcək. Artıq Respublikamızda Kitab.az Elektron kitabxana şəbəkəsi fəaliyyət göstərir. Kitab.az-ın məqsədi Azərbaycanın aparıcı ali təhsil ocaqlarının və eləcə də Azərbaycan müəlliflərinin müxtəlif mövzularda də dillərdə olan kitablarından istifadə üçün şərait yaratmaqdır. Hal-hazırda Kitab.az Elektron kitabxana şəbəkəsinin Elektron kataloq üzrə layihəsində bütün Universitetlər və elmi-tədqiqat institutları iştirak edirlər. Bundan başqa Personal Kitabxanalar, Korporativ Kitabxanalar, “Jurnallar” bölməsi və Forum servisləri oxucuların istifadəsinə verilmişdir. Əlbəttə ki, bütün bunların köməyi ilə hər kəs kimi tələbələr də lazımi informasiyanı tez bir müddətdə alaraq öz biliklərini artıracaqlar. Ona görə də hər bir ali məktəbin elektron kitabxanasının yaradılması, inkişafı və informasiya ehtiyatlarına çıxış üçün strategiyasının müəyyənləşdirilməsi məqsədəuyğundur.

Kompüter və informasiya texnologiyalarının tədrisdə tətbiqinə daha bir misal olaraq test texnologiyasını göstərmək olar. Test texnologiyası zamanın ən mühüm tələbi olub, İKT-nin tətbiqi ilə daha effektiv olmaqla, keyfiyyətli testlərin yaradılması və praktiki tətbiqi, test nəticələrinin ciddi elmi-statistik şəkildə araşdırılması, mobilliyi və innovasiya xarakterli olması ilə fərqlənir. Bu testlərin təhsil sisteminin formalaşdırılmasında, təhsilin keyfiyyətinin yüksəldilməsində, təhsilin kütləviləşdirilməsi istiqamətində mühüm rolu vardır.

Bir sözlə, kredit sistemində İKT-nin tətbiqi və istifadəsi bütün tələbələrə təhsil almaq imkanlarını yaxşılaşdırmağa, təhsilin keyfiyyətini yüksəltməyə imkan verəcək ki, bütün bunlar sayəsində də respublikamızın ali təhsilində, təhsilin keyfiyyətinin yüksəldilməsi yolunda uğurlu nəaliyyət qazanacağıq.

Ümumiyyətlə, kreditli təhsil sistemində məhz informasiya texnologiyalarının tətbiqi nəticəsində təkcə ölkə səviyyəsində deyil, bütün dünya səviyyəsində təhsil alanların biliyinin keyfiyyətcə artırılmasına nail olmaq olar. Belə ki:

- təhsilin məzmunu Avropa ölkələrinin təhsil məkanının tələblərinə uyğunlaşacaq,
- Avropa və dünya ölkələri mütəxəssislərinin, alimlərinin Azərbaycanın ali məktəblərinə cəlb olunma imkanları genişləndiriləcək,
- ali məktəblərin diplomları Avropa ali məktəblərinin diplomlarına uyğunlaşdırılacaq,
- beynəlxalq təcrübələrə müvafiq meyarlar müəyyənləşdirməklə ali təhsilin keyfiyyəti yüksələcək,
- Azərbaycanda hazırlanan mütəxəssislər beynəlxalq aləmdə rəqabətə davamlı olacaq,



- kredit təhsil sisteminə keçid bizim ali məktəblərin təqdim etdiyi sənədlərin xaricdə tanınmasına şərait yaradacaq.

**Ədəbiyyat**


1. “2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı”, Bakı, 2008.
2. Əliquliyev R., Mahmudova R. “Yeni informasiya texnologiyalarının təhsildə tətbiqi imkanları”, Konfrans materialı, 2007.
3. Bayramova U. “Təhsildə kredit sisteminin tətbiqində informasiya texnologiyalarından istifadə”, Konfrans materialı, 2007.
4. Kitab.az Elektron Kitabxana Şəbəkəsinin təqdimatı, İnternet materialı.


**Роль икт в улучшение качества образования в кредитной системе**


*Резюме*

Внедрение и использование информационно-коммуникационных технологии в системе кредитного образования дает возможность каждому человеку получать хорошее образование и повышать качество образования.


**Role of the ict in improving qualitu of the education credit system**


*Summary*

In the credit educational system the applying and usage of information technologies will allow to everybody to improve orrortimities of getting education and will rise the quality of education.


## ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ROLU


**Həcər Hüseynova,**
*filologiya üzrə elmlər doktoru, dosent*
*ADPU*
E-mail: hacerhuseynova@mail.ru



***Açar sözlər:*** *şəxsiyyətin tərbiyəsi, əxlaqi dəyərlər, vətənpərvərlik, azadlıq, adət-ənənə, ana-ata sevgisi*
***Ключевые слова:*** *воспитание, моральные ценности, патриотизм, свобода, любовь к родителям, традиция*
***Key words:*** *discipline, moral values, patriotism, freedom, love of mother-father, custom-tradition*


Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqın həyatında çox önəmli dəyişikliklər, cəmiyyətin iqtisadi, siyasi, mənəvi həyatında mühüm irəliləyişlər baş verdi. Ölkəmizin həyatının bütün sahələrində inkişaf gözə çarpacaq dərəcədə yüksəliş baş verdi. Xalqın siyasi iradəsi, milli birliyi zəminində təhsilalanın şəxsiyyəti, intellekti, onun həqiqi bir vətəndaş kimi tərbiyəsi yeni keyfiyyət qazandı. Müasir dövrdə təhsilimizin səviyyəsini yüksəltməklə biz gənclərin bilik, bacarıq və vərdişlərini, dünyagörüşünü inkişaf etdirməyə nail ola bilərik. Lakin nəzərə almaq lazımdır ki, insanın biliyini, dünyagörüşünü inkişaf etdirmək nə qədər önəmlidirsə, onun bir şəxsiyyət kimi mənəvi aləmini zənginləşdirmək, onda hələ kiçik yaşlarından müsbət əxlaqi keyfiyyətlərin formalaşmasına nail olmaq daha zəruridir.

Azərbaycan Respublikası Təhsil qanununda göstərildiyi kimi, yaradıcı şəxsiyyət və vətəndaş formalaşdırmaq zəruri tələblərdən biridir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2013- cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın birinci istiqamətində şəxsiyyətyönümlü təhsilin məzmununun inkişaf etdirilməsi nəzərdə tutulur. Dövlət Strategiyası müasir dövrdə vətənə layiqli vətəndaş və ən əsası dövlətin, dövlətçiliyin gələcək inkişafı naminə şəxsiyyət yetişdirməyi qarşıya məqsəd qoyan, bu problemin həllinə, inkişafına yönəldilmiş konseptual bir sənəddir.

Şəxsiyyətin əxlaqi-mənəvi dəyərlər əsasında tərbiyəsi də şəxsiyyətin yetişdirilməsində bir

pillədir. Əxlaqi-mənəvi tərbiyə dedikdə şagirdlərin şüuruna, duyğularına, davranışına məqsədyönlü, mütəşəkkil təsir etməklə onlarda əxlaqi keyfiyyətlərin, vətəndaşlıq yetkinliyinin formalaşdırılması vacibdir. Yüksək mənəvi keyfiyyətlərə malik harmonik şəxsiyyətin formalaşması üçün bu prosesə təsir edən amillər müəyyənləşdirilməlidir ki, həmin amillər sırasında dahilərin söylədiyi kəlamlar diqqət mərkəzində durmalıdır. Məsələn, Sokratın "özünü dərk et" ideyası bunlardan biridir. Sokrata görə, insana kainatı dərk etmədən əvvəl özünü dərk etməli, "Mən kiməm? Biz kimik?" suallarına cavab tapmalıdır.

Hər bir xalqın tarixi təkamül prosesinin əsasını dövlətçilik ənənələri ilə yanaşı, həm də zəngin milli-mənəvi irs, əxlaqi-mənəvi dəyərlər müəyyən edir. Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı tarixən formalaşmış zəngin milli-mənəvi, əxlaqi dəyərləri ilə dünya mədəniyyətinə əvəzsiz töhfələr vermişdir.

Artıq elə bir qloballaşma dövründə yaşayırıq ki, milli-mənəvi, əxlaqi dəyərlərimiz üçün təhlükə yaranıb. Xalqın mənəvi irsini, dəyərlərini qorumaq, genetik yaddaşını, tarixi kimliyini gələcək nəsillərə ötürmək hər bir vətəndaşın mənəvi borcudur. Ulu Öndər Heydər Əliyev deyidi: " Gənclərimiz milli ruhda, milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır. Biz öz dəyərlərimizi qoruyub saxlamalıyıq. Azərbaycan xalqının milli mentaliteti onun böyük sərvətidir".

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, onlara əxlaqi-mənəvi dəyərlərin aşılanması təhsil müəssisələrinin qarşısında duran aktual problemlərdən biridir. Bu vəzifənin həyata keçirilməsinin müxtəlif üsulları, yolları və vasitələri vardır. Həmin vasitələrdən biri də əxlaqi-mənəvi dəyərlərimizin qorunub saxlandığı və gənc nəslə ötürülməsi vacib sayılan, bəlkə də, elə bu vəzifəni həyata keçirmək məqsədilə yaradılan ədəbi əsərlərdir.

Azərbaycan ədəbiyyatı tarixində şifahi və yazılı ədəbi dilimizin başlanğıcı hesab etdiyimiz ortaq türk ədəbi abidəmiz "Kitabi-Dədə Qorqud"dan başlayaraq ta bu günümüzə qədər bütün ədəbi əsərlərdə xalqımılzın əxlaqi-mənəvi dəyərləri qorunub saxlanılır və gələcək nəsillərə ötürülür. Dərs prosesində həmin əxlaqi dəyərlərə şagirdlərin, tələbələrin diqqətinin yönəldilməsi, onların düzgün təbliği məsələsi isə müasir müəllimlərin qarşısında duran birinci və əsas vəzifədir.

"Dədə Qorqud kitabı"nda və o zamandan başlayaraq bu günə qədər yaranan müasir ədəbi nümunələrdə gənclərin tərbiyəsi əsas ideya istiqaməti olaraq dəyərləndirilmişdir. "Dədə Qorqud"dan başlayan belə bir ənənə, yol ondan sonra yaranan yazıçı əsərlərində davam etdirilmişdir. "Kitabi-Dədə Qorqud" dastanının aparıcı xətti, əsas motivi vətənpərvərlik motividir. Geriliyə, ətalətə qarşı mübarizə motividir. Biz də məhz bu cəhətə önəm veririk. Dastanın və eləcə də hər bir boyun əsas mövzusu qəhrəmanlıq və vətənpərvərlikdir. Dastanda yalnız vətən yolunda mübarizə deyil, xalqın mənəvi cəhətləri, məişəti, arzu və istəkləri, adət-ənənələri geniş planda öz əksini tapmışdır.

Dastanda hər boyun öz qəhrəmanı olsa da, mərkəzi qəhrəman Qazan xandır. Qazan xan bütün keyfiyyətləri ilə dünya ədəbiyyatında analoqu olmayan müsbət qəhrəmandır. Qazan xan ətrafında toplaşan igidlərin hər birinə qayğı ilə yanaşır, qadınlara hörmət edir. Qazan xan üç ildə bir dəfə ailəsini götürüb evindən çıxar, bütün mal-dövlətini kasıblara paylayarmış. Belə bir humanist qərar, belə bir demokratiya, bəlkə də, bu günə qədər heç bir böyük, aparıcı dövlətin tarixində və ya hər hansı bir bədii əsərdə rast gəlinməmiş bir hadisədir. Dastanın tədrisi zamanı məhz bu cəhəti şagirdlərin diqqətinə çatdırmaq, xüsusilə vurğulamaq mühümdür. Bu, dünyada analoqu olmayan bir hadisədir. "Dədə Qorqud" qəhrəmanları xarici basqınçılara qarşı birgə vuruşur, vətən, namus, el uğrunda mübarizə aparırdılar. Bugünkü gənclərimiz onlardan örnək alıb, vətəni qorumağı babalarından öyrənməlidirlər. Dərs prosesində bunlar vurğulanmalıdır. "Kitabi-Dədə Qorqud" dastanının bütün boylarında xalq qəhrəmanlarının igidliyindən danışılır. Dastanın hər boyu el-obaya, ata-anaya, bacı-qardaşa ülvi məhəbbətin canlı salnaməsidir; mərdlik və qəhrəmanlığın, yer üzərində səadət və bəxtiyarlığın qüdrətli himnidir. Sadaladığımız məsələlər "Dədə-Qorqud"dan üzü bəri yaranan bütün bədii nümunələrdə müşahidə edilmiş, bütün yazıçıları, eyni zamanda Mir Cəlalı bütün yaradıcılığı boyu düşündürən məsələlər olmuşdur.

Mir Cəlal şifahi xalq ədəbiyyatının gözəl ənənələrini layiqli şəkildə davam etdirən Azərbaycan yazıçılarından biridir. Yazıçı bütün yaradıcılığı boyu şifahi ədəbiyyata biganə qalmamış, sələfləri kimi həm bu ədəbiyyata rəğbət bəsləmiş, həm də bu ədəbiyyatdan



bəhrələnmişdir. "Kitabi-Dədə Qorqud" motivləri Mir Cəlalın yaradıcılığının ana xəttini təşkil edir. Arada yalnız zaman və məkan fərqi var. Bu qədim oğuz dastanı türk xalqlarının yaratdığı milli mədəniyyətin ən zəngin, ən ulu qaynaqlarından biridir.

Əsərlərində "Kitabi-Dədə Qorqud" motivləri Mir Cəlalın mövzuları ilə birləşərək bir həmahənglik, uyğunluq yaratmışdır. Yəni həmin mövzuları, həmin cəhətləri biz "Bir gəncin manifesti"ndə, "Yaşıdlar"da, "Açıq kitab" romanında, "Anaların üsyanı", "Vətən yaraları", "Boz adam", "Döyüşçünün dedikləri" və digər hekayələrində görürük. Bu əsərlərin qəhrəmanları Mərdan, Firidun, Qüdrət, Nəriman və başqa obrazlar Qazan xan kimi, Beyrək kimi vətəni sevən, vətən uğrunda mübarizə aparan Azərbaycan oğullarıdır. Vətənpərvərlik mövzusu, qəhrəmanlarımızın təsviri isə bu gün – torpaqlarımızın düşmən tapdağın da olduğu, hər gün sərhədlərimizin pozulduğu bir vaxtda olduqca aktualdır. Bu mövzuya həsr olunmuş bədii əsərlərin torpaqları müharibə şəraitində olan Azərbaycanımızı qoruya biləcək gənclərin tərbiyəsində böyük rolu vardır.

Yuxarıda söylədiklərimizdən belə bir nəticə çıxır ki, şagirdlərimizi, tələbələrimizi pis əməllərdən uzaqlaşdırmaq üçün, onları vətənə, dövlətə, valideynlərə, böyüklərə sevgi, hörmət ruhunda tərbiyə etmək, həqiqi şəxsiyyət kimi yetişdirmək üçün ən önəmli vasitələr elə müdriklərimizin bizə miras qoyduğu bədii əsərlər, hikmətli sözlərdir. Müasir dünyada tətbiq edilən humanist təhsilin əsas şərtlərindən biri də tərbiyəvi məzmunlu aforizmlərin, ata sözlərinin əzbərlədilməsidir. Mir Cəlalın vətənpərvərlik, azadlıq haqqında bir neçə aforizmini diqqətinizə çatdırım: *1. Azadlıq verilməz, alınar. 2. Azadlığı qorumaq onu fəth etmək qədər müqəddəsdir. 3. Zəncirləri qırmaq üçün əql gücü də, əl gücü də lazımdır.* Bütün dünya təhsil sistemində uğurla həyata keçirilən humanist pedaqogikanın əsas tələbləri bunlardır: qarşındakılara, yəni şagirdlərinə, tələbələrinə 1. şəxsiyyət kimi yanaş; 2. özün nümunə ol.

Azərbaycan xalqının isə belə nümunələri saya gəlməz. Müstəqilliyini əldə etmiş Azərbaycan 90-cı illərdən mənfur qonşuların hücumları ilə üzbəüz dayanmışdır. Tarixən düşmənin qarşısına sinəsi ilə sipər olan milli qəhrəmanlarımız olub və indi də vardır. Ulu babalarımızın yolunu şərəflə davam etdirən Əlif Hacıyev, Mehdi Abbasov, Aqil Quliyev, Əfqan Hüseynov, Mübariz İbrahimov, Azərbaycanın bayrağını müqəddəs sayaraq həyatından üstün tutan Ramin Səfərov və başqaları bu gün xalqımızın tarixini yaradırlar. Hər birinin həyatı yazılmamış bir dastandır. Təhsil müəssisələrində onların qəhrəmanlıqları zaman-zaman tədris edilməli, nümunə göstərilməlidir. Yalnız bu yolla gələcək Azərbaycanımızı qoruya bilən, Vətənini, xalqını müqəddəs bilib qoruyan, sevən azərbaycanlılar, həqiqi şəxsiyyətlər, vətəndaşlar yetişdirib, tərbiyə edə bilərik.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
2. H. Əliyev Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.
3. M. Cəlal. Seçilmiş əsərləri. 4 cilddə. Bakı, 1967/68
4. Ш.А. Амонашвили. Гуманная педагогика. М., 2011.


**Х.Гусейнова**

**Роль учебных заведений в формировании личности**

*Резюме*

В статье нашли свои отражение духовное воспитание школьников и формирование национального воспитания в духе патриотизма. Здесь также отмечена необходимость национальных ценностей, национальных обычаев, традиции.

**H.Huseynova**

**The role of educational institutions in personality shaping**

*Summary*

Forming in the article of the national spiritual upbringing of the pupils, upbringing being in the patriotism spirit has been reflected their. Of the national cost here, necessity of the folk custom traditions have been marked.

# ÜMUMTƏHSİL MƏKTƏBİ VƏ ALİ MƏKTƏB ARASINDA VARİSLİYİN PEDAQOJİ ƏSASLARI

**Məhəmmədəli Məmmədov,**
*riyaziyyat üzrə fəlsəfə doktoru*
*Sumqayıt Dövlət Universiteti, dosent*
E-mail:integral-59@mail.ru

***Açar sözlər:*** *məktəb, təhsil, tələbə, müəllim, pedaqoji*
***Ключевые слова:*** *школа, образование, студент, преподаватель, педагогический*
***Key words:*** *school, education, student, teacher, pedagogical*

Müstəqil respublikamızda sosial-iqtisadi həyatın inkişafı böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsinə yeni təfəkkür tərzi ilə yanaşmağı, əvvəlki təhsilin ən mütərəqqi cəhətlərinin təkmilləşdirərək yeni təlim şəraitinə uyğunlaşdırmağı və hərtərəfli inkişafın yeni pedaqoji sistemini hazırlamağı tələb edir [1]. Bu baxımdan fasiləsiz təhsilin ilkin pillələrindən biri olan orta məktəb ilə ali məktəb təlimi arasında varisliyin imkan və yollarının uzlaşdırılması aktual bir məsələ kimi xüsusi tədqiqat aparılmasını tələb edir. Təhsilin ilkin pillələrindən biri olan orta məktəb pilləsinə məktəb hüdudunda fəaliyyət göstərən və həmin dairədə də qapanıb qalan təlim prosesi kimi deyil, ali məktəbə, ali təhsil təliminə bünövrə, bazis prizmasından yanaşmaq zəruridir. Didaktik prinsiplərin mövcud təlim şəraitinə tətbiqi baxımından yanaşdıqda orta məktəb və ali məktəb arasında yalnız hər hansı bir əlaqə deyil, varislik – yəni orta məktəbdə öyrədilənlərin ali məktəbdə inkişaf etdirilməsi, bacarıq və vərdişlərə çevrilməsi istiqamətində iş getməlidir. Orta məktəbdə şagirdlərin ali məktəbə hazırlanmasına, onlara müəyyən biliklər verilməsinə diqqət yetirilsə də varisliyin yolları, pedaqoji əsasları, tədris materialları arasında varisliyin uyğunlaşdırılması kimi məsələlər tədqiq olunmamışdır. Hər iki təhsil müəssisəsində təlimin əsas prinsipi tədris və bilik inkişafı olduğuna görə bütün fəaliyyət təfəkkürün inkişafına yönəldilməlidir. Mütəxəssislərin qeydləri göstərir ki, lazımi fiziki və əmək hazırlığına malik olmayan, müşahidə qabiliyyəti zəif inkişaf etmiş şagirdlərin məktəbdə təlim fəaliyyəti də aşağı səviyyədə olur, təlim materiallarını mənimsəmək çətinləşir və proses mürəkkəbləşdikcə geriləmə çoxalır. Deməli, tərbiyənin həmin növlərinə məktəb təlimində müvəffəqiyyətlə başlamaq, çətin təlim tapşırıqlarının yerinə yetirilməsi yolunda iradi keyfiyyətlər nümayiş etdirmək bacarığı formalaşdırmaq mövqeyindən yanaşmaq lazımdır. Orta məktəblərdə əsas fəaliyyət növü olan fənlərin ilkin tədrisi təhsilin əsaslarına hazırlıq xarakteri daşımalı, öyrətmənin vasitəsi, səmərəli didaktik əsas rolunu oynamalıdır [2], [3].

Orta məktəb və ali məktəb arasında varislik savad təliminə münasibətdə daha aydın görünür. Əgər hər iki təhsil pilləsində təlim vahid tələblər, müvafiqlik, materialların yaş və konkret təcrübəyə uyğunlaşdırılması, inkişaf etdiricilik və s. pedaqoji prinsiplər əsasında təşkil olunarsa, uşaqların bilik və bacarıqlarından əməli nəticələr əldə etmək olar. Lakin varislik prinsipinin konkret olaraq savad təlimi məşğələlərinə tətbiqində bəzi amilləri nəzərə almaq lazımdır.

Hazırlıq səviyyəsinin müxtəlifliyinə baxmayaraq ali məktəbdə tələblərin inkişafı fənn müəllimlərindən, onların pedaqoji ustalığı, dərsin təşkili və quruluşundakı fəaliyyətindən, tətbiq etdiyi üsul və vasitələrin səmərəliliyindən, tələbələrə fərdi yanaşma qabiliyyətindən asılıdır. Məlumdur ki, eyni şəraitdə eyni fənni tədris edən müəllimlərin təlim göstəriciləri bərabər səviyyədə olmur. Lakin orta məktəb təhsilinin şagirdlərin ali məktəb fəaliyyətində əhəmiyyətli rolu danılmaz faktdır. Çünki orta məktəblərdə təlim-tərbiyənin qarşısında qoyulan əsas tələb şagirdlərdə elə bacarıq və vərdişlər formalaşdırmaqdır ki, ali məktəb fəaliyyəti bunlar üzərində təşkil və inkişaf etdirilə bilsin. Təhsilin hər iki mərhələsi arasında varisliyin pedaqoji əsasını təlim və tərbiyə prosesinə vahid tələblərlə yanaşma prinsipi təşkil edir. Orta məktəb və ali məktəb arasında əlaqə və varisliyin təmin olunmasında həm orta məktəbin, həm də ali məktəbin qarşısında konkret məqsədlər dayanır [4].

Varisliyin təmin edilməsində ali məktəbin vəzifələri daha genişdir. Savad təliminin hazırlıq dövründə pedaqoji diaqnostika nəticəsində müəllim şagirdləri hərtərəfli öyrədir, əgər tələbə orta



məktəbdən gəlmişsə, onun təlim-tərbiyə baxımından bütün keyfiyyətləri ortaya çıxarılır. Bu zaman ali məktəb orta məktəb təliminin keyfiyyətinə dair pedaqoji mətbuat vasitəsilə sifarişlər və müəyyən məlumatlar verə bilər. Ali məktəb nəzərə almalıdır ki, orta məktəb təliminə ali məktəb təlim-tərbiyəsinin bir parçası, ali təhsilin bünövrəsi kimi yanaşmaq lazımdır. Buna uyğun olaraq ali məktəb orta məktəbə müəyyən didaktik tələb və tövsiyələr verə bilər, çünki orta məktəb təlim-tərbiyəsinin səviyyəsi ali məktəbə əməli yardım xarakteri daşıyır. Ali məktəb isə öz növbəsində, orta məktəbin şagirdlərdə formalaşdırdığı bilik və bacarıqları ali məktəbdə veriləcək yeni məzmunda əlaqələndirərək istifadə etməlidir. Ali məktəb orta məktəbin şagirdlərin şüurunda, davranışında formalaşdırdığı sərvəti qiymətləndirməli və ona fəal münasibət bəsləməlidir [5].

Orta məktəb və ali məktəb arasında varisliyin təmin olunması üçün spesifik iş növlərindən istifadənin əhəmiyyətinin də qeyd etmək lazımdır. Bu iş növlərinin bir qismi təlim, bəziləri isə təlimdən kənar xarakter daşıyır. Ali məktəb rəhbərliyi ilə görüş, ali məktəblə tanışlıq, 15 sentyabr bilik gününün bayram şəklində təşkili, qəbul imtahanlarında yüksək nəticə qazanmış tələbələrin ali məktəb tərəfindən mükafatlandırılması, birinci kurs tələbələri arasında bilik və idman yarışları, müəllimlərin ilk dərslərdə ali məktəb həyatı ilə bağlı məqsədyönlü müsahibəsi və s. işlər tələbələrin ali məktəblə bağlı psixoloji çətinliklərinin, "vahimənin" aradan qaldırılmasına səbəb olur, tələbələrin ali məktəb həyatına tez uyğunlaşmasına kömək göstərir.

Məlumdur ki, orta məktəb məzunlarının əksəriyyəti yaxın ərazilərdə yerləşən ali məktəblərdə oxumağı daha üstün tuturlar. Belə şəraitdə konkret orta məktəb müəllimləri ilə konkret ali məktəb müəllimləri arasında aşağıdakı pedaqoji əməkdaşlıq formalarından istifadə etmək olar:

1. Təlim prosesində varisliyi təmin etmək üçün ali məktəb müəlliminin orta məktəbdə aparılan dərsləri dinləməsi. Bunun nəticəsində müəllim varisliyi düzgün təşkil etmək üçün forma və yollar, metodlar müəyyənləşdirir.

2. Aparılan müşahidələrin nəticələri hər iki müəssisənin təşkil etdikləri elmi-praktik seminarlarda, pedaqoji mühazirələrdə və s. tədbirlərdə müzakirə olunur.

3. Orta məktəbin yuxarı sinif şagirdləri və birinci kurs tələbələrinin birgə iştirakı ilə bağlı tədbirlərin keçirilməsi şagirdlərin ali məktəb həyatına uyğunlaşdırılmasına kömək göstərir.

4. Orta məktəb məzunlarının tələbə olduqdan sonra əvvəl oxuduqları məktəblərə dəvət olunması, onların ali məktəb həyatı haqqında şəxsi təəssürat və müşahidələri ilə bağlı söhbətlərinin dinlənilməsi.

5. Orta məktəblərdə və ali məktəbin birinci kurs proqramlarında təlimin məzmunu, metod və vasitələri üzrə qabaqcıl müəllim-pedaqoqların və ali məktəb müəllimlərinin rəy sorğusunun, təcrübə mübadiləsinin aparılması varisliyin pedaqoji əsaslarının təkmilləşdirilməsinə əhəmiyyətli təsir edir.

6. Keçirilən bütün tədbirlərdə ali məktəbin orta məktəbə və orta məktəbin ali məktəbə olan tələblərinin aydınlaşdırılması varisliyin həyata keçirilməsini təkmilləşdirir, məzmun, forma, metod və vasitələrdən istifadədə uyğunluq və əlaqəni təmin edir.

Bütün bunlarla yanaşı, varislikdən istifadəni zəruriləşdirmək üçün proqramların tərtibində hər iki təhsil müəssisələrinin birgə işinə nail olmaq lazımdır. Əgər proqramda varislikdən istifadəyə konkret tələblər qoyularsa, onları yerinə yetirmək müəllimlərin həm vətəndaşlıq, həm də vəzifə borcu kimi qiymətləndirilir.

Beləliklə, orta məktəb və ali məktəb arasında varisliyə vahid təlim-tərbiyə vasitələrinin daha səmərəli şəraitdə həyata keçirilməsi vasitəsi kimi yanaşmaq lazımdır. Varislik prinsipi bütövlük, tamlıq, sistemlilik, fasiləsizlik anlayışlarının vəhdəti olmaqla təlimdə müvəffəqiyyətin və inkişafın vacib amilidir.

**Ədəbiyyat**

1. Azərbaycanın təhsil siyasəti (1998-2004). I cild. Bakı: Çaşıoğlu, 2005
2. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007
3. Həmzəyev M. Pedaqoji psixologiya. Bakı: Nurlan, 1991
2. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006
3. Kazımov N. Təlim keyfiyyətini yüksəltməyin yolları. Bakı, 1996

# YENİYETMƏ GƏNCLƏRDƏ İNTERNET ASILILIĞI

**Sənubər Məmmədova,**
*267 nömrəli məktəb-liseyin müəllimi*
E-mail: huseynli_s@mail.ru.

***Açar sözlər:*** *gənc, internet, yeniyetmə, təhsil, intellekt, inkişaf, asılılıq*
***Ключевые слова:*** *молодой, интернет, подросток, образование, интеллект, развитие, зависимость*
***Keywords:*** *young, internet, education, intelligence, development, addictive teenage*

Müasir təhsilin əsas məqsədi tədrisin səmərəliliyini və keyfiyyətini artırmaqla yanaşı vətənimizi inkişaf etdirə biləcək intellektli gənclər yetişdirməkdir. Aydındır ki, elmin, texnikanın sürətlə inkişaf etdiyi bir dövrdə İnternetdən istifadə labüddür.

İnternet – mədəniyyət dünyasını çevirməyə imkan verəcək həmin dayaq nöqtəsidir. İnternet – mədəniyyətin kütləvi informasiya vasitələrində təqdim edilməsinin yeni və olduqca səmərəli üsuludur. Dünya mədəniyyətinə təsir miqyasına görə İnternet fenomenini yazı və kitab nəşrinin icad edilməsi ilə müqayisə etmək mümkündür.

Yeniyetmələrin İnternetə , dərin marağı texnolojidən çox psixoloji-pedaqoji və sosial problemdir.

Psixoloqların rəyinə görə, anonimlik və qadağaların olmaması gizli komplekslərdən azad olmağa gətirib çıxardır, insanların öz davranış tərzlərini dəyişməyə, özlərini daha sərbəst hiss etməyə və hətta bəzi mənəvi sərhədləri aşmağa sövq edir [1].

"İnternet asılılığı" –Heç nə ilə qarşısı alınması mümkün olmayan İnternetdən istifadə etmək arzunu təsvir edən termindir. Son vaxtlar mütəxəssislər arasında da "kompüterdən patoloji istifadə" anlayışı da məşhurlaşmışdır, bu da kompüterin peşəkar və ya təhsil maraqlarından çıxaraq informasiya əldə etmək üçün mənbə kimi, eləcə də insanlarla əlaqə qurmaq vasitələrinə xidmət edir [3].

İlk dəfə bu termini, pozğunluq halı kimi 1995-ci ildə amerikalı doktor Ayven Qoldberq işlətmişdir. Qoldberqin məqsədi bu pozğunluq halının rəsmi psixiatrik standartlara daxil edilməsi olmamışdır, onun təklif etdiyi təsvir psixoaktiv maddələrdən sui-istifadə etməklə bağlı pozğunluğun təsvirinə əsaslanır. Qoldberq bu pozğunluğun aşağıdakı əsas əlamətlərini göstərmişdir:

1. İnternetdən istifadə xəstəlik yaradan mənfi stress vəziyyəti və ya distress yaradır;
2. İnternetdən istifadə fiziki, psixoloji, şəxsiyyət, iqtisadi və ya sosial statusa xələl gətirir. [4]

Yeniyetməyə İnternetə daxil olmağı qadağan etmək mümkün düyül, lakin ondan savadsız və məntiqsiz istifadə etmək nəticəsində yaranan mənfi halların qarşısını almaq bizdən asılıdır, bunun üçün ona özünü şəbəkədə düzgün aparmağı öyrətmək lazımdır. Asılılığın həll edilməsinin ən sadə və mümkün üsulu – digər asılılığın əldə edilməsidir: sağlam həyat tərzi, canlı təbiətlə ünsiyyət, şəkil çəkmək kimi yaradıcılıq və tətbiqi məşğuliyyət bir qayda olaraq insanı asılılıqdan xilas edir.

Psixoloqların rəyinə görə, yeddi yaşınadək uşaqlarda, eləcə də 12 yaşınadək yeniyetmələrdə virtual və real dünyalar çox vaxt eyni olur, buna görə də onlar birincisi, kompüterin ekranında gördükləri ilə ekrandan kənar, həqiqətdə baş verənləri ayırd edə bilmirlər; ikincisi, kifayət qədər təhsilli olmadıqlarından xeyri-şərdən ayıra bilmirlər, nəticədə bu cür həddi-buluğa çatmamışlar özlərini kompüter qəhrəmanları (eləcə də "mənfi personalar") kimi aparmağa başlayırlar [7] .

Qlobal şəbəkədə olaraq yeniyetmə özünü həddi-buluğa çatmış kimi qələmə verə bilər (bunu real həyatda etmək olduqca çətindir) və adi həyatda onun üçün çətin olacaq fəaliyyət növlərinə çıxış əldə edə bilər: auksionlarda iştirak etmək, şübhəli maliyyə sövdələşmələri bağlamaq, müəyyən etik-əxlaqi normalardankənar həddi-buluğa çatmışlarla şəbəkə ünsiyyətinin aparıldığı yerlərə daxil olmaq və s. Bundan əlavə, həddi-buluğa çatmamış uşaq valideynlərindən "gizli" İnternet vasitəsilə virtual qumar oyunlarında iştirak edə, bu əyləncələrə ailə büdcəsindən küllü miqdarda pul sərf edə bilər. [7]

Uzun müddət virtual ünsiyyətə aludə olan yeniyetmələr canlı ünsiyyətin nə olduğunu yaddan çıxarır və canlı söhbətdə aqressiv, kobud və bəzi hallarda cinayət meyilli olurlar. Bu cür aqressivliyi respublikamızda da bəzi yeniyetmə və gənclər arasında müşahidə etmək olar.



İnternet istifadəçilərinin 10 nəfərindən birində asılılıq xəstəliyi müşahidə olunur.

İnternet-əlaqələrin genişləndirilməsi üçün unikal vasitədir, lakin o, tam mənada insan ünsiyyətini əvəz edə bilməz. İnternetlə artıq dərəcədə maraqlanan insanlar bəzən reallığın sərhədlərini itirirlər. Bu İnternet asılılığına və ya sağlamlığa ciddi təhlükə yaradan addiksiyaya gətirir.

Beləliklə qlobal, şəbəkələrdə yaranmış mühit böyüyən nəsildə mənfi psixoloji xüsusiyyətlərin formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

Sözsüz ki, müasir şəraitdə yeniyetməni şəbəkə resurslarından istifadədən təcrid etmək mümkün deyil (və bu düzgün də deyil). Lakin, kompüter şəbəkələrinin mənfi informasiya təsirini neytrallaşdırmaq üçün yollar aranmalıdır. Bu prosesdə xüsusi rolu ailə oynamalıdır. Daxil olan informasiyalara obyektiv qiymət verən və onun filtrlənməsini həyata keçirən "böyüklərin iştirakı" gəncin informasiya axınlarında düzgün istiqamət almasına imkan verəcəkdir. Çox vaxt valideynlərə yeniyetmələrin qlobal şəbəkədəki fəaliyyət proseslərinə nəzarət etməsi kifayət qədər çətin olur. Xaricdə belə bir praktika mövcuddur və "Valideyn nəzarəti" adlanır və istifadəçilərə baza üzrə bir neçə milyon saytı filtrləşdirərək (siyahı daima yenilənir) tam şəkildə İnternetdən istifadə etmək, keyfiyyətli kontentə çıxış əldə etmək imkan verir [9].

Yeniyetmələrin İnternetdə qalmalarını təhlükəsiz etmək üçün istənilən avadanlıqdan: onların kompüterindən, noutbukundan, planşetindən və ya smartfonundan şübhəli saytlara daxil olmanı bloklaşdıran və mənfi , "təhlükəli" informasiyalara aparan bannerlərin, istinadların, təsvirlərin qəflətən görünməsini qadağan edən xüsusi operatorların yaradılması məqsədəuyğun hesab olunur. Bu tədbirlərin həyata keçirilməsi öz məntiqi, düşüncəsi, ağlı, potensial enerjisi ilə yeni biliklər qazanan və müasir dövrün bütün çətinliklərindən baş çıxara bilən hərtərəfli intellektli gənclərin formalaşmasına mühüm kömək edər.

**Ədəbiyyat**

1. 1."Azərbaycanda internet və onun sosial-psixoloji aspektləri"http://vugar-hagverdiyev.blogspot.com.
2. Novikov A.M. Allahım, məni dəli olmağa qoyma. // Xalq təhsili, 2005, № 5
3. 3.Voyskunskiy A.Ye. İnternetdən asılı olaraq psixologiyanın aktual problemləri // Psixoloji jurnal, 2004, № 1
4. 4.Dubinina, T.M. Uşaqlar İnternetdı // Təhsildə İKT, 2008, № 14
5. 5.Qinzburq E. Kompüter bədbəxtlik gətirəndə // Rusiyada təhsil, 2006, № 11
6. 6.Panov S İnternet-asılılıq: səbəb və nəticələr // Müəllim, 2007, № 5
7. 7.Issues for DSM-V: Internet AddictionJerald J. Block, M.D.http://ajp.psychiatryonline.org

# KEYFİYYƏTLİ TƏHSİL

**Təranə İsmayılova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: teraneler@mail.ru

***Açar sözlər:*** *keyfiyyətli təhsil, demokratik prinsiplər, tərbiyə, şəxsiyyət, bilik, bacarıq, vərdiş, məzun*
***Ключевые слова:*** *качество образования, демократические принципы, образование, личность, знания, умение, навыки, абитуриент*
***Key words:*** *quality education, democratic principles, education, identity, knowledge, ability, skills, entrant*

Təhsil sosial həyatımızın ən lazımlı sahəsidir. Məhz keyfiyyətli təhsil cəmiyyəti intellektual, mədəni və mənəvi cəhətdən zənginləşdirir. Təhsildə keyfiyyət prinsipi aktual məsələlərdən ən önəmlisidir desək, yanılmarıq. Təhsildə keyfiyyətə maddi texniki baza, yüksək səviyyəli kadrlar, müasir tələblərə cavab verən məzmun və obyektiv qiymətləndirmə kimi komponentlər daxildir. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsi binasının əsaslı təmirdən sonra

təşkil olunmuş açılış mərasimində Azərbaycan Respublikasının Təhsil Naziri cənab M. Cabbarov çıxış edərkən demişdir: "Ümumiyyətlə təhsilin keyfiyyəti yalnız maddi-texniki bazanın gücləndirilməsi ilə kifayətlənə bilməz. Bu zəruri, lakin kifayət etməyən şərtdir" ("Azərbaycan müəllimi" qəzeti. 4 aprel 2015-ci il).

Keyfiyyətli təhsil hər şeydən əvvəl mənəviyyatı zəngin, yüksək mədəniyyətə malik bir şəxsiyyətin, insanda özünü realizə etmənin və özünü inkişaf etdirmənin, özü-özünü tərbiyələndirmənin, nizamlamanın, insanlar arasında sülh və əmin-amanlıqla yaşama kimi bilik, bacarıq və vərdişlər formalaşdırır. Keyfiyyətli təhsil şagirdə təbiət və cəmiyyət haqqında müəyyən biliklər verməklə kifayətlənmir, həmçinin insanı cəmiyyət içərisində layiqli mövqe qurmağa, nəticədə isə yaxşı vətəndaş kimi formalaşmağa kömək edir.

Dahi ingilis yazıçısı Kiplinq (1865-1936) yazırdı: "Təhsil yer üzərində yaranmışların ən xeyirlisidir, əgər o yüksək keyfiyyətə malikdirsə. Əks təqdirdə təhsil tamamilə faydasızdır".

Keyfiyyətli təhsilin məqsədi, onun strategiyası ilə sıx bağlıdır. Aydın ifadə edilmiş hədəflərin yoxluğu, nəticələrin cəmiyyətin yeni tələbləri ilə ayaqlaşmaması, ənənəvi strategiyalardan əl çəkə bilməmək təhsilin məhsuldarlığını aşağı salan səbəblərdəndir. Təhsilin ənənəvi strategiyaları inkişaf etmək istəyən insanın ümumi və xüsusi qabiliyyətlərini tormozlayan bir səbəbdir.

Keyfiyyətli təhsilə müxtəlif nöqteyi-nəzərdən baxaq:

1. **Valideyn.**Onlar övladlarının fərdi inkişafını, aldığı bilik və bacarıqları təhsilin keyfiyyəti ilə əlaqələndirirlər.

1. **Müəllim.** Müəllimlər üçün təhsildə keyfiyyət tədris materialları ilə təmin edilmiş keyfiyyətli tədris planının mövcudluğu, şagirdlərin intellektual inkişafı, təhsilin motivasiyalaşdırılması, şagirdlərin yaradıcılıq qabiliyyətləri hesab olunur.

2. **Təhsili idarəedənlər.** Rəhbərlik üçün təhsilin keyfiyyəti məzunların ali məktəblərə qəbulu, statististik göstəricilər daha çox önəmlidir.

3. **Biznes və sənaye** üçün təhsilin keyfiyyəti məzunların iş yerlərində göstərdikləri peşəkarlıq, bilik və bacarıqlardır.

4. **Cəmiyyət** üçün təhsilin keyfiyyəti şəxsiyyətli, tərbiyəli, mədəni dəyərlərə malik olan vətəndaşın mövcudluğudur.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsi binasının əsaslı təmirdən sonra təşkil olunmuş açılış mərasimində Azərbaycan Respublikasının Təhsil Naziri cənab M. Cabbarov çıxış edərkən bunları demişdir: "Biz kəmiyyət-keyfiyyət məsələsinə diqqət yetirəndə, təbii olaraq başa düşürük ki, əgər 30 il bundan əvvəl 100 məktəb məzmunu şərti olaraq 15-i, 18-i tələbə adını qazanırdısa, bu gün 100 məzunun artıq 40-a yaxını tələbə olur. İstər-istəməz ali təhsilin kütləviləşməsi prosesi təhsilalanların keyfiyyətinə, bilik və bacarığına da təsir göstərir. Əgər bu analogiyanı nəzərə alsaq, ali təhsil müəssisələri əldə etdiyi xammala müəyyən təsir etmək gücündə olmalıdır. Həmin xammalın keyfiyyəti də sözsüz ki, son məhsulun, yəni ali təhsil müəssisəsinin məzmunun keyfiyyətinə təsir göstərir" ("Azərbaycan müəllimi" qəzeti, 4 aprel 2015-ci il).

Keyfiyyətli təhsil Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməli, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamalı, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamalıdır.

**Ədəbiyyat**


1. Д. В. Овсянко. «Управление качеством». «Высшая школа менеджмента», 2011.
2. Г.В. Макотрова . «Исследовательский потенциал личности школьника». //«Управление образованием» Научно методический журнал, №5/2014, səh, 70-79
3. "Təhsil Haqqında" Azərbaycan Respublikasının qanunu





***Резюме***

В статье раскрываются аспекты качества образования. Указана роль качественного образования в формировании интеллектуальной, культурной и духовно богатой личности в обществе. Сделана попытка раскрыть понятие «качество образования» с разныхпозиций.

***Summary***

The article describes aspects of the quality of education. Set the role of quality education in the formation of intellectual, cultural and spiritual rich person in society. Made an attempt to uncover the notion of "quality of education" from different positions


## 12 İLLİK ÜMUMİ TƏHSİLİN AKTUAL PROBLEMLƏRİ


**İlqar Abdullayev,**
*Bakı şəhəri Binəqədi rayonu, 301 №-li tam orta məktəbin tarix müəllimi,*
E-mail: ilqar.heyderoglu@mail.ru
**Almaz Tağıyeva,**
*Bakı şəhəri, Nizami rayonu, 250 №-li tam orta məktəbin ingilis dili müəllimi*
E-mail: almaz.tagiyeva.2015@mail.ru



***Açar sözlər:*** *12 illik təhsil, müəllim, şagird, nailiyyət, əmək haqqı*
***Ключевые слова:*** *12тилетнее образование, учитель, учащиеся, успех, зарплата*
***Key words:*** *12 years education, teacher, student, achievement, salary*


Hazırda respublikamızda təhsil sahəsində nəzərə çarpacaq uğura nail olmaq isə etiraf edək ki, elə də asan iş deyil. Çünki bu sahədə artıq xeyli problemlər yığılmışdır. Artıq neçə ildir ki, ali məktəblərə qəbulda abituriyentlərin ümumi səviyyələrinin çox aşağı olması və buna müvafiq olaraq yığılan balların kifayət qədər olmaması ilə əlaqədar keçid ballarının sonradan aşağı salınmasının şahidi oluruq. Üstəlik şagirdlərin az-çox bal toplamalarına kömək edən əsas amillərdən biri də onların repetitor yanında hazırlaşmalarıdır. Digər tərəfdən isə, müxtəlif adlar altında sözün həqiqi mənasında "yağışdan sonra çıxan göbələklər" kimi günü – gündən çoxalan kurslar az qala orta məktəbləri tamam sıradan çıxarıblar... Bəli, nə gizlətməli, hazırda təhsil sahəsi "ən pullu" sahələrdən biri sayıldığına görə bir çox işbaz adamların bu sahəyə "maraq göstərmələri" başa düşüləndir. Amma bu zaman unudulmamalıdır ki, bu günün şagirdi sabahın əsgəridir (əlbəttə bu zaman əsasən oğlan uşaqları nəzərdə tutulur). Ordu həyatında isə müasir silahlarla yüksək səviyyədə rəftar edə bilmək üçün müxtəlif elmi biliklərə, xüsusilə kompüter savadına kifayət qədər dərindən yiyələnməyin zəruriliyindən danışmaq, zənnimcə, artıqdır. Təsadüfi deyildir ki, möhtərəm prezidentimiz İlham Əliyev cənabları bu baxımdan çox düzgün olaraq göstərmişdir: "Müasir dünyada hər şeyi elm, bilik, savad həll edir"

Lakin bu gün istəsək də, istəməsək də etiraf etməliyik ki, şagirdlərin ali məktəblərə qəbulda repetitor yanında hazırlaşmaları həlledici amilə çevrilib və yaxın gələcəkdə bu halın aradan qaldırılacağını güman etmək sadəlövhlük olardı. Belə ki, heç kəsə sirr deyil ki, hələ Sovet dönəmində, xüsusilə son dövrlərdə başqa sahələrdə olduğu kimi təhsil sahəsində də bir sıra ciddi problemlər özünü çox qabarıq şəkildə göstərirdi. Özəl ali məktəblərin buraxdığı"ali təhsilli müəllimlər" isə o vaxta qədər onsuz da ağır vəziyyətdə olan təhsilin vəziyyətini daha da ağırlaşdırdı. Belə ki, dövlət ali məktəblərinə daxil ola bilməyən, bilik səviyyələri açıq-aşkar çox aşağı olan abituriyentlər pullarını verib o dövrlərdə "yağışdan sonra çıxan göbələklər" kimi çoxalan özəl ali məktəblərin tələbələri olurdular. Gəlin özümüzdə cəsarət tapıb həqiqətin gözünün içinə dik baxaq və belə bir suala cavab tapaq:-- Belə özəl ali məktəblərin (yaxud da bir tanışımın düzgün olaraq dediyi kimi "dükan"ların)yetirmələrindən müasir dövrün tələblərinə cavab verən müəllim gözləməyə dəyərmi? Bu zaman o da unudulmamalıdır ki, müəyyən istisnalarla elə sovet dönəmində yumşaq şəkildə desək o qədər də yüksək biliyi olmayan abituriyentlərin (əsasən qızların) pedaqoji institutlara axışdıqları dövrdə müəllimlik sənəti öz nüfuzunu xeyli itirdi. Belə ki, o dövrlərdə müəllimlik diplomunu qız uşaqlarına sanki bir cehiz kimi "təşkil" edirdilər. Sonradan isə ali məktəblərə qəbulun test üsulu ilə aparılmağa başladığı dövrdə bu sahədə bir qədər irəliləyiş hiss

olundu. Amma yuxarıda göstərdiyimiz kimi o qədər də yox. Belə ki son dövrlərin statistik rəqəmlərinə nəzər salsaq ali məktəblərə qəbul üçün keçid ballarının getdikcə aşağı düşdüyünün şahidi oluruq (Məsələn, 2009-2010-cu tədris ilində 700 bal toplamış abituriyentlərin sayı 7 nəfər idisə, 2010-2011-ci tədris ilində onların sayı 4-ə endi. Sonrakı illərdə də bu sahədəki rəqəmlər elə də ürəkaçan olmamışdır. Bu qəbildən olan misalların sayını artırmaq da olar.)Bəli, orta məktəblərdə tədrisin səviyyəsinin ilbəil aşağı düşməsi şəksizdir. Heç kimə sirr deyil ki, ali məktəblərə qəbulun səviyyəsi ilə orta məktəblərdə keçilən dərsin səviyyəsi arasındakı uçurum getdikcə dərinləşir. Bunun bir səbəbi də onunla bağlıdır ki, müəllimin əmək haqqı çox aşağı olduğu üçün istedadlı, bilikli, dərin səviyyəli abituriyentlər pul qazanmaq üçün daha münasib sahə hesab edilən Tibb institutuna, müxtəlif universitetlərin hüquq, gömrük fakültələrinə, və s. üz tuturlar. Ona görə də müəllim korpusu içində həqiqi intellektualların sayı getdikcə azalır. Millətin gələcək inkişafını təmin edəcək təhsildə köklü islahat zəruri idi. Bu baxımdan təhsilin 12 illik olmasını yalnız alqışlamaq olar. Belə ki, 12 illik təhsilin tətbiq edilməsi nəticəsində təhsil nazirliyi işçilərinin də bildirdikləri kimi tədris proqramları nisbətən yüngülləşəcək, şagirdlərin fənlər üzrə həftəlik təlim yükü azalacaq. Təhsil proqramlarının yüngülləşməsi ilə tədris prosesində psixoloji gərginlik minimuma enəcək və bu amil şagirdlərin sağlamlığına, təhsilin keyfiyyətinə müsbət təsir göstərəcək. Proqram materiallarının sinifdə mənimsənilməsi, ev tapşırıqlarının həcminin nisbətən azaldılması şagirdlər üçün inkişafetdirici tədbirlərin həlli imkanları genişlənəcəkdir. Aydındır ki, əlavə dərs saatları yaranacaqdır ki, bu da müəllimlərin maddi vəziyyətlərinin müəyyən qədər yaxşılaşmasına kömək edəcəkdir.

11-12-ci sinifləri əhatə edəcək tam orta təhsil səviyyəsi şagirdlərin meyil və marağı əsasında müxtəlif təmayüllər üzrə xüsusi tədris planları və təhsil proqramları (kurikulum və s.) tətbiq edilməklə təşkil olunacaqdır ki, bu da ali məktəblərə hazırlıq üçün hərtərəfli şərait yaradacaq və reperitorluğun qarşısını müəyyən qədər alacaqdır.

Lakin bütün bu işlərin həyata keçirilməsindən danışarkən müəllimlərin rolunu ayrıca qeyd etmək istərdim. Belə ki, müdriklərdən birinin dediyi kimi məktəb bir cismə bənzər ki, onun da ruhu müəllimdir.

Düşünürəm ki, bu sözlər tədrisdə müəllimin rolunu kifayət qədər düzgün əks etdirir. Bu baxımdan təxminən 30 illik iş stajı olan bir müəllim kimi təklif edərdim ki, müəllimlərin əmək haqqı sistemində də ciddi şəkildə islahat aparılsın. Düzdür, son dövrlərdə Bakı şəhəri üzrə təhsil idarəsindəki məktəblər sistemində çalışan və bu idarə tərəfindən təşkil edilən imtahanlarda iştirak edən müəllimlərin əmək haqqı müəyyən qədər artırılmışdır. Lakin yaxşı olardı ki, daha savadlı, daha məhsuldar müəllimə digər müəllimlərdən nəzərə çarpacaq dərəcədə-hətta deyərdim 2-3 dəfə çox əmək haqqı verilsin. Burada daha məhsuldar müəllimi seçmək üçün "İlin ən yaxşı müəllimi" müsabiqəsində müəyyənləşdirilmiş tələb və meyarlardan, ola bilsin ki, bəzi başqa metodlardan da istifadə etmək olar.(Yaranacaq ajiotajın qarşısını almaq üçün). Zənnimcə, belə olduqda digər geri qalan müəllimlərin də öz üzərlərində daha çox çalışmaları üçün stimul yaranar.

Biz müəllimlər yalnız tədris etdiyimiz fənnə şagirdlərin qəlbində əsl sevgi, məhəbbət hissi aşılamaqla, yaxud da yazının əvvəlində verilmiş epiqrafda göstərildiyi kimi onların qəlbində tədris etdiyimiz fənnə qarşı sevgi şamı yandırmaqla daha böyük nailiyyət qazana bilərik. Bu baxımdan da 12 illik təhsil sistemindən son dərəcədə yaradıcılıqla, səmərəli səkildə istifadə etməliyik.

### Ədəbiyyat

1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" . "Azərbaycan nüəllimi" qəz., 2013, 25 oktyabr

**12 – летней общие образование**

*Резюме*

В статье говорится о необходимости к переходу на 12-летнее образование в нашей республике, об актуальных причинах, проблемах важных предпосылках и т.д. Автор обосновал важную роль перехода на 12-летнее образование в развитии будущего страны.



**The actual problems of 12 years sekondary education**

*Summary*

The reasons of passing 12 years sekondary education, the factors make itnecessary and etc. has been involved in this article in our Republic. The author grounded in his speech that the 12 years secondary education would play the important role in the future development of our republic, too.

## SƏMƏRƏLİ İNNOVASİYA SİSTEMİ VƏ YENİ TƏHSİL TEXNOLOGİYALARI

**Zülfiyyə Vəliyeva,**
*AMİ-nin əməkdaşı, Milli məsləhətçi*
E-mail: zulfiyye-veliyeva@mail.ru

***Açar sözlər:** müəllim, peşəkarlıq, pedaqoji səriştəlilik, pedaqoji proses.*
***Ключевые слова:** учитель, профессионализм, педагогическая компетенция, педагогический процесс.*
***Key words:** teacher, professionalism, pedagogic competence, pedagogic prosess.*

Ulu öndərimiz Heydər Əliyevin 15 iyun 1999-cu il tarixli "Azərbaycan Respublikası Təhsil Sahəsində İslahat proqramı" haqqında fərmanı ilə başlayan təhsil islahatının ən böyük uğurları məhz təhsilin keyfiyyətinin yüksəldilməsi ilə dəyərləndirilir desək, səhv etmərik. Hər bir ölkənin dünyada mövqeyini insanın bilikləri və insan kapitalı müəyyənləşdirir. Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdi həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (bundan sonra – Strategiya) Azərbaycan Respublikasında, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirləri nəzərdə tutur. Həyata keçirilən dövlət proqramları çərçivəsində müasirləşdirmə, ilk növbədə, qabaqcıl texnologiyaların və idarəetmə üsullarının, elmi nailiyyətlər əsasında yaradılan innovasiyaların ölkənin sosial-iqtisadi həyatına uğurlu tətbiqi ilə bağlıdır. Ölkədə təhsilin müasir tələblərə cavab verən normativ hüquqi bazası yaradılmışdır. Təhsil sisteminin bütün pillələrində müəllimlərin bilik, bacarıq və peşəkarlıq qabiliyyətləri müasir tələblərə uyğun yüksəlmədədir.

*Təhsil sisteminin qarşısında duran başlıca vəzifələri içərisində:*

- ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;
- məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;
- milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq kimi çox ciddi məsələlərin həlli dayanır. Bu məsələlərin həll olunduğu yer məktəbdir. Məktəblərdə hökm sürən psixoloji atmosfer övladlarımızın həyat yoluna, mənəvi dəyərlərinə və əqidələrinə, milli identifikasiyasına və vətəndaşlıq hisslərinə bilavasitə təsir edir. Yeni təlim texnologiyalarının Fəal və interaktiv təlim

metodlarının, innovasiyaların, informasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqi təhsilin keyfiyyətinin artmasına öz töhfəsini verməkdədir. Bu işdə peşəkar, səriştəli, işinin ustası olan müəllim təhsil uğurlarının təminatçısı, pedaqoji kollektivləri düşündürən mühüm məsələlərin həlli yolunda yardımçımızdır. Azərbaycan təhsil sisteminin getdikcə dünya təhsil sisteminə inteqrasiyası, fərdi komponentlərin tədris prosesinə daxil olması təhsil müəssisələrinin hansı səviyyədə işləməsi və hələlik fəaliyyətlərinin proqnozlaşdırılması, təhsil müəssisələrində təlim-tərbiyə prosesinin iştirakçısının və nailiyyətinin vaxtında qiymətləndirilməsini gündəmə gətirmişdir. Eyni zamanda üç əsas istiqamətə diqqət yetirmək vacibdir:

- *təlimin məzmunu (təhsilin dövlət standartları, fənn kurrikulumları) – uşağa nəyi, hansı həcmdə öyrətmək.*
- *təlim üsulları (pedaqoji texnologiyalar, FİTT) uşağı necə öyrətmək.*
- *öyrətdiyi mühit (tədris prosesinin təşkili və təlim-tərbiyə prosesinə təsir edən amillər) – uşağı hansı şəraitdə öyrətmək.*

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasını reallaşdıran əsas vasitə kimi "Açıq təhsil" modelinin qurulması və tətbiqi nəzərdə tutulur. Bu modelin reallaşdırılması nəticəsində:

- Müəllim – təhsil prosesinin istiqamətləndiricisi və koordinatoru rolu oynayacaq. "Öyrənənə hörmətlə yanaşmaq, Öyrədənin əsas göstəricisi olmalıdır" devizi altında çalışan müəllimlərimiz şagirdlərimizə elmlərin əsasını dərindən öyrənməyə və məktəbdə aldıqları bilikləri həyatda işlətməyə kömək etməlidir, təhsilin məzmunu uşaqlarımızda dərrakəni inkişaf etdirməyə, hadisələrin səbəblərini dərk etməyə və düzgün qərar qəbul etmək bacarıqları aşılamağa xidmət etməlidir. Təhsilin keyfiyyətini yüksəltmək üçün pedaqoji-metodiki bacarıqları, fənn üzrə bilikləri artırmaq, innovativ təlim metodologiyasının və resursların mənimsənilməsi üçün hər bir müəllimi ixtisasartırma tədbirlərinə cəlb etməklə, təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılmasının vacibliyi, öz həllini gözləyən vacib məsələlərdir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında Fasiləsiz Pedaqoji Təhsil və Müəllim Hazırlığının Konsepsiyası və strategiyası. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmişdir.
2. M. Mərdanov, R. Ağamalıyev, A. Mehrabov.T. Qardaşov. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, 2003.
3. R. Ağamalıyev. Azərbaycan təhsili XXI əsrə doğru: idarəetmə, problemlər, islahatlar. Bakı, 1998.


## İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN FƏALİYYƏTİNDƏ İNTERNETİN ROLU


**Mehriban Quliyeva,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: quliyeva.mehriban@list.ru



***Açar sözlər:*** *İnternet, ineraktiv təlim, təlim texnologiyaları, müəllim, şagird*
***Ключевые слова:*** *Интернет, интерактив обучения, технологии обучения, учителей, школьников*
***Key words:*** *Internet, ineraktiv training, learning technologies, teacher, student*


XXI yüzillin əvvəlləri olmasina baxmayaraq, İKT həyatimizin bütün sahələrinə sürətlə daxil olmuşdur. Əlbəttə ki bu bizim təhsilimizdən də yan keçməmiş və öz müsbət təsirini göstərməkdədir. Müasir dövrdə şagirdlərin hərtərəfli inkişafı üçün İnternetdən istifadə onların faydalı biliklərə yiyələnməsinə və özlərinin şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Bu gün dünyaya göz açan uşaqlar XXI yüzilin sonunda dünyəvi məsələləri həll edəcək və bəşəriyyəti yaşadacaqlar.

XXI əsrdə yaşayacaq nəsillərin təlim-tərbiyəsinin sağlamlığının xoşbəxt həyatının təməli, bu günümüzdən başlayır. Bu təməli düzgün atmaq üçün, şagirdləri dərin və hərtərəfli biliklərlə təmin etməli, onlarda bacarıq və vərdişlər formalaşdırılmalı, şəxsiyyət kimi yetişdirməlidir. Bu baxımdan



hər bir yaradıcı müəllim gələcək nəslin düzgün inkişafı və hərtərəfli informasiya ilə təmin olunmasına çalışmalıdır. Bunun üçün müasir dövrümüzün əsas resursu olan İnternetlə sıx əlaqədə olmalı və İnternetin üstünlüklərindən öz təlim və tədrisində istifadə edib yararlanmalıdır.

İnternetin və yeni texnologiyaların sayəsində pedaqoqun qarşısında geniş imkanlar yaranır. Müasir təlim metodlarından və İKT-dən istifadə sinif mühitində dəyişiklik etməyə və müəllim və şagird arasında, şagirdlərin öz aralarında və məktəblə ev arasında baş verən qarşılıqlı əlaqələr qurmağa imkan verir.

Son zamanlar Azərbaycan Respublikasının təhsil ocaqlarında tətbiq olunan müasir təlim metodikalarından biri olan interaktiv təlim üsullarından və İKT-dən geniş istifadə olunur.

Təhsilimizdə yeni konseptual sənəd olan Kurikulumun qəbulu, onun üsul və metodlarından istifadə, ineraktiv təlimə keçid nəticəsidir ki, internetdən və elektron resurslardan istifadə edilməyə başladı.

Dövlətimizin təhsil müəssisələrinə göstərdiyi qayğının nəticəsidir ki, bütün ümumtəhsil məktəbləri elektron vasitələrlə təmin edilmiş və internetin istifadəsinə yeni imkanlar yaradılmışdır. Bu isə müəllimləri elektron resurslarla işləməsinə böyük imkanlar yaratmışdır. Hər bir qabaqcıl müəllim öz işində uğur qazanmaq və faydalı olmaq üçün elektron resurslardan yerində istifadə etməlidir.

Təhsilin tələblərinə uyğun olaraq ibtidai sinif müəllimləri tədris prosesində istənilən fənni öyrədən zaman internetdən yəni elektron resurslardan istifadə edərək yeni mövzunu şagirdlərə ətraflı mənimsədə və dərsi zənginləşdirə bilər.

Hər bir müəllim tədris tələbinə uyğun olaraq dərslikdəki mətni qəzet məqaləsi ilə əvəz etməyə və ya mətn oxunuşu əvəzinə şagirdlərə hər hansı bir hadisə haqqında danışmağa, fotoşəkil və rəsm əsəri təqdimat nümayiş etdirməyə, bilgisayar və proyektordan istifadə etməyə, bir sözlə, onu daha rəngarəng etməyə hazırlaşsa, dərs bir o qədər gözəl keçər.

İbtidai sinif müəllimləri I-IV sinif tədris prosesində İnternetin bütün imkanlarından istifadə edərək tədris materiallarını daha maraqlı və tez qavranılan formada zənginləşdirə bilərlər. Mövzuya uyğun musiqi parçasının seçilməsi və ya müxtəlif təqdimatlardan istifadə şagirdlərdə yeni mövzuya qarşı canlı maraq yaradır, onlarda kəskin reaksiya doğurur, diskussiyaya girməyə, materiallara uyğun hərəkətə sövq edir. Bu şagirdlərin yeni biliklər qazanması və onları yaddaşda saxlayıb mənimsəməsi üçün daha faydalı olacaq, sərbəst düşüncə vərdişləri aşılayacaqdır.

Müəllimlər öz təhsil və tədrislərində internetdən istifadə etməklə yanaşı, şagirdlərdə də internetdən düzgün istifadə bacarıqlarını formalaşdırmalıdırlar. İbtidai sinif dərsliklərində elə mövzular var ki, onların tarixi əhəmiyyətinə və gizli məqamlarına yer verilmədiyi üçün onları əlavə resurslardan, elektron qəzetlərdən, axtarış saytlarından araşdırmaq və ətraflı məlumat toplamağa ehtiyac vardır. Buna görə də şagirdlərin internetdən bir resurs kimi istifadəsi təmin edilməli, onların öz bilik və bacarıqlarının formalaşması və müstəqil bir şəkildə informasiya axtarışı və toplaması üçün imkanlar yaradılmalıdır.

İbtidai sinif müəllimlərinin tədris prosesini zənginləşdirmək üçün internetdə bir çox sosial şəbəkələrdə qruplar təşkil edərək informasiya mübadiləsi aparır və iş təcrübələrini bir-biri ilə paylaşaraq təhsil prosesinə yeniliklər gətirirlər. Bu qrup və bloqlarda yaradıcı müəllimlərin hazırladığı təqdimat formalı dərslər paylaşılır və digər həmkarları tərəfindən müzakirə olunaraq nəticəyə gəlinir, çatışmazlıq və üstünlükləri qeyd edilir və digər müəllimlər öz iş təcrübələrində bu təqdimatlardan istifadə edirlər.

İbtidai sinif müəllimlərinin fəaliyyətində internetin rolu çox əhəmiyyətlidir. Son zamanlarda artıq bu məsələ daha da əhəmiyyətli olmağa başlamışdır. Bunun sayəsində müəllimlərin imkanları daha da çoxalmış və tədris prosesinə öz təsirini göstərməkdədir.

İbtidai sinif müəllimlərinin fəaliyyətində internetin yaratdığı imkanlardan bir neçəsini qeyd edək.

Birincisi internetdən və sosial qruplardan, bloqlardan istifadə müəllimə problemli məsələlərin daha çox əhəmiyyət kəsb edən hissələrinə diqqət yönəldərək "özünəməxsus" tədris prosesini təşkil etməyə imkan verir.

İkincisi, təhsildə internetin köməyi ilə məktəblilər təlimatlanaraq təkcə fənn bilikləri deyil, eləcə də müasir texniki vasitələrlə işləmək, ilk növbədə, İnternetdə informasiya axtarışı və onun effektiv işləməsi biliklərini əldə edirlər.

Üçüncüsü isə İnternet tədris prosesini aktivləşdirib canlandırır, onun imkanları ilə şagirdin tapşırığı yerinə yetirilməsinə, yaradıcı yanaşmasına şərait yaradır.

Müəllim və şagird arasında olan münasibətin, psixoloji mühitin dəyişdirilməsi yeni təlim metodlarının tətbiq edilməsinin əsas şərtidir. Metodlarsız qarşıya qoyulan məqsədə çatmaq, nəzərdə tutulmuş məzmunu öyrənmək, şagirdlərin idrak fəaliyyətini təşkil etmək mümkün deyil.

Dərsdə müasir təlim texnologiyalarını tətbiq etməklə, ənənəvi təlim sistemini dəyişərək ona tədqiqat xarakteri verməkdən və biliklərin mənimsənilməsi prosesində şagirdi əsas sima etmək və onu təlimin subyektinə çevirmək mümkündür. Belə ki, bu prosesdə müəllim biliklərin əldə edilməsi yolunun bələdçisi, şagird isə tədqiqatçı, bilikləri kəşf edən rolunu oynayır. Müasir təlim texnologiyaları tədrisin səmərəliliyini artırmağa kömək edir. Əgər öyrənilən biliklər müasir həyatla, cəmiyyətin inkişafı ilə əlaqələndirilmirsə həmin bilik şagird üçün mənasız yükə çevrilir. Belə olduqda şagirdlərin elmi biliyə marağı azalır, şüurluluq və fəallıq səviyyəsi aşağı düşür. Ona görə də müəllim ayrı-ayrı mövzuların öyrənilməsi zamanı keçirilən materialın həyati əhəmiyyətini şagirdlərə başa salmalıdır. Hər kəsə məlumdur ki, ənənəvi izahedici – illüstrativ izahetmə metodu ilə şagirdlər passiv olaraq müəllimin hazır şəkildə verdiyi bilikləri əzbərləmiş olur. Bu da uşaqlarda müstəqilliyi, sərbəstliyi məhdudlaşdırır, şagird təlim prosesinin tam hüquqlu iştirakçısı yox, təlim prosesinin obyekti olur. Beləliklə, şagirdlər təlimə yaradıcılıqla yanaşmır, onların elmə, elm öyrənməyə maraqları azalır və təlimin səviyyəsi aşağı düşür. Bütün bu çatışmazlıqların aradan qaldırılmasında müasir təlim texnologiyalarından istifadə etmək daha məqsədəuyğundur

Müasir təlim texnologiyaları şagirdlərdə daim sərbəst düşünmə və işləmə bacarığını artırır, müqayisə edərək nəticə çıxarmaq qabiliyyətini inkişaf etdirir, müəllimləri daim öz üzərində daha çox işləməyə, çalışmağa vadar edir, şagirdlərə müstəqil biliklərin əldə edilməsi yollarını öyrənməklə onların vaxtdan qənaətlə istifadə etmələrinə nail olmaq imkanı yaradır.

Dərsdə hamı müəyyən bir problemin həlli ilə məşğul olarsa, onların digərinə maneçilik və səs-küyü olmaz. Şagirdlərdə tədricən yeni təlim vərdişləri, bacarıqları formalaşacaq, onların təfəkkürü daha yaxşı inkişaf edəcək.

Bir sözlə, müasir təlimi səciyyələndirən yeni strukturu, məzmun və forma ilə yanaşı, müasir metodlar – yeni təlim texnologiyaları – interaktiv təlim metodları artıq məktəblərdə özünə geniş yer tapmışdır.

İnteraktivlik müəllimin iştirakı ilə şagirdlərin müxtəlif informasiya mənbələri və ya bir-biri ilə ünsiyyət prosesində yeni biliklər əldə etməsinə imkan verilən bütün təlim metodlarının məcmusundan ibarətdir.

Beləliklə belə bir nəticəyə gəlmək olar ki, təhsil prosesində hər bir müəllimin İnternetdən istifadəsi onların yaradıcı fəaliyyətinə təsirini göstərir və tədris işlərinin ayrılmaz bir sahəsinə çevrilməkdədir.

**Ədəbiyyat**


1. Əliyev H.Ə Təhsil millətin gələcəyidir. I-IV kitab, Bakı, 1997.
2. Ağayev Ə.Ə Təhlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006.
3. Şirinova N. İnteraktiv metodlardan necə istifadə edirəm // İbtidai məktəb və məktəbəqədər tərbiyə 2002, № 1
4. Zeynalov Z. Yeni pedaqoji texnologiyalar və müasir dərs "Azərbaycan müəllimi" qəz., 2002.
5. Yeni pedaqoji təfəkkürün inkişafı Müəllim fəaliyyətinin əsas istiqamətləri. Bakı, 2000.



***Резюме***

Благодаря Интернету и новым технологиям, имеются широкие возможности для педагогов. Современные методы обучения, а также для изменения использования ИКТ в классе и преподавателя и студентов, между студентами себя и между школой и домом позволяет строить взаимные отношения.

***Summary***

Thanks to the Internet and new technologies, there are ample opportunities to educators. Modern teaching methods, and to change the use of ICT in the classroom and the teacher and students, between students themselves and between the school and the home allows you to build reciprocal relationships.




# ÖMRÜ BOYU TƏHSİLİN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ


**Dilarə Rüstəmova,**
*S.M. Qənizadə adına 1 nömrəli tam orta məktəbin direktoru*
E-mail: rustemova_dilare@mail.ru
**İlahə Əmirova,**
*S.M. Qənizadə adına 1nömrəli məktəbin müəllimi*



***Açar söz:*** *fasiləsiz təhsil, fəaliyyət, idarəetmə, fərd*
***Ключевье слова:*** *беспеперывное образование, действие, управление, индивид*
***Key words:*** *incessantly education, action management, individual*


Son dövrlərdə yaşlıların təhsilinin təşkilinə həm ölkəmizdə həm də beynəlxalq miqyasda böyük diqqət yetirilir. Elmi-texniki tərəqqi insanların bilik vərdişlərinin daim artırılması tələbini zəruriləşdirilmiş ,ixtsasartırma və yenidənhazırlanma təısilinin əhəmiyyətini daha da aktuallaşdırmışdır. Cəmiyyətdə, iqtisadi həyatda, elm və mədəniyyətdə, təhsil sistemində və bir çox sahələrdə hər il yeniliklərlə zəngin olan sürətli inkişaf baş verir. Bu səbəbdən də yaşlıların təhsili ölkəmizdə fasiləsiz təhsil sistemi kimi qiymətləndirilir. Onların həyat fəaliyyətini müasir dövrün tələblərinə uyğunlaşdırmaq üçün təhsil xidmətlərinin yeni keyfiyyətlə təşkilinə ehtiyac yaranır.

Mövcud təhsil sistemlərində təhsilalmışlar üçün ixtisasartırma ,kadrların yenidən hazırlanması, yaşlıların təhsili və s. Həmişə aktual olmuşdur. Bunun əsas

səbəbi təhsil komponentlərinə yönəlmiş yeni informasiya axının istelakı ilə baglıdır

Bildiyimiz kimi təhsil institutunun əsas vəzifəsi, digər Sosial İnstitutların tələbləri əsasında insanların təhsil almasını təmin etməklə, cəmiyyətdə müəyyən sosial vəzifəni yerinə yetirəcək kadr hazırlamaqdır. Keçən əsrin ortalarından başlayaraq sosial institutlarda rəqəmsal texnologiyaların geniş tətbiqi, informasiyanın qloballaşması prosesləri təhsil sistemlərində keyfiyyətcə fərqli islahatlar aparılmasını zəruri etdi. Bu islahatların mövcud pedaqoji kadrların iştirakı ilə aparılacağını nəzərə alsaq. Hər hansı bir islahatın ilk mərhələlərinin fasiləsiz təhsil elementlərini əhatə etməsinin zəruriliyi ortaya çıxır. Aparılması nəzərdə tutulmuş islahatların gedişatı bu ilk mərhələlərin yerinə yetirilməsinin müvəffəqiyyət dərəcisindən asılıdır.

Fasiləsiz təhsil, keçən əsrin 80-ci illərindən başlayaraq informatlaşan dünyada

mühüm məna yükü daşyan bir anlama çevrilmişdir. Həndəsi silsilə ilə artan iformasiyanı istehlak etmək üçün insanın daimi – fasiləsiz təhsilə olan ehtiyacını artırmışdır.

Təhsilin keyfiyyətinə tələblərin artması, yeni tələblərin əmələ gəlməsi kadrların fasiləsiz təhsilprosesinə qoşulmasını zəruri edir.Fasiləsiz təhsildən kənarda qalan keyfiyyətli təhsildən danışmaq düzgün deyil. Belə ki,informasiyanın yenilənməsi təhsilalanın,təhsilini bitirməmiş,öyrəndiyi mövzuların təkrar öyrənilməsini tələb edir.Bu səbəbdən fasiləsiz təhsilə əsas təhsilin bir hissəsi kimi baxılmamalıdır əsas təhsil özü fasiləsiz xarakter daşımalıdır.

İşə götürülənlərin "qara fəhləyə ehtiyacı azalmış, müasir rəqəmsal texnologiya-ları idarə edən, fasiləsiz təhsil prosesinə qoşularaq peşəkarlıq səviyyəsini artıran işçilərə tələbatı artmışdır. Bütün dünyada, o cümlədən Azərbaycanda ali peşə təhsil alanların sayının durmadan artması bu tendesiya ilə bağlıdır. Fasiləsiz təhsildən kənar düşmüş kadrın peşəkarlıq səviyyəsini bir neçə il ərzində itirməsi təhlükəsi reallığa çevrilmişdir. Bu tendesiya xüsusilə İKT sahəsindəki mütəxəsislər arasında daha güclüdür.

Aydındır ki, fasiləsiz təhsil kütləvi xarakter daşımalıdır. Yəni bu təhsil hazır da təhsil alanlarla artıq təhsil almışları əhatə etməlidir. Ənənəvi Təhsil Sistemi va- sitəsilə bu tələblərin hətta cüzi hissəsini ödəmək qeyri mümkündür. Ənənəvi Təhsil Sistemi vasitəsilə fasiləsiz təhsili təmin etmək üçün tələb olunan maliyyə ehtiyaclarını hətta qismən ödəmək dövlətin imkanları xaricindədir.

Fasiləsiz təhsili təşkil etmək üçün təhsil yönəmli İKT-dən istifadə olunmalıdır.

Təhsilalan istədiyi vaxt bu sistemlərin tədris resurslarından istifadə edərək təhsil səviyyəsini yüksəltmək imkanında olmalıdır. Kompüter və kommunikasiya xərcləri o qədər aşagı düşməlidir ki,

sosial statusundan asılı olmayaraq hər bir şəxs fasiləsiz təhsil prosesinə qoşularaq , ömrü boyu təhsil almaq imkanı yaransın.

İnkişaf etmiş ölkələrdə fasiləsiz təhsilin əsas təhsilə inteqrasiya olunması prosesi getsə də hələ də real nəticələr yoxdur.

Azərbaycanda fasiləsiz təhsil,bir neçə xırda istisnalarla, Avropadakından fərq-lənmir. Burada ən əsas fərq fasiləsiz təhsilin təşkili formasıla bağlıdır. Azərbaycan

Respublikasında fasiləsiz təhsilin tərkibinə daxil olan ixtisasartırma, kadrların ye-nidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi.təkrar ali təhsil və orta ixtisas təhsili, dərəcələrin yüksəldilməsi, yaşlıların təhsili təhsilyönlü İKT sis-

temləri tətbiq edilmədən, ənənəvi üsullarla təşkil olunub

Kütləv xarakter daşıyan fasiləsiz təhsili tamamilə təmin edəcək yeganə forma –təhsilyönlü İKT-dən istifadə etməkdir. İnkişaf etmiş ölkələrdə fasiləsiz təhsili əsasən distant formada təşkil edilir.

Distant təhsil əsasən təhsildə məkan problemlərini həll etmək üçün nəzərdə tutulmuş, XVIII əsrin sonlarından başlayaraq istifadə olunmuşdur.

Hal-hazırda fasiləsiz təhsil əsas təhsilə yardım məqsədilə təşkil olunur və ƏTS-də ki tədrislə bağlı problemləri azaltmaq və ya yumşaltmaq məqsədi güdür.

Dünyanın qabaqcıl ölkələrində təhsil sahələrində aparılan islahatlar təhsilin tədricən virtuallaşmanı göstərir. Yeni elmi tədqiqatlar artıq istismara buraxılmış müxtəlif distant təhsil proqram təminatları bu fikri bir daha sübut edir.

Aydındır ki, təhsilin keyfiyyətini yüksəltmək üçün birinci növbədə pedaqoji kadrların fasiləsiz təhsilə cəlb olunması vacibdir. Təhsil sistemində aparılması zəruri olan bütün islahatlar bu cəlb olunmuş pedaqoji kadrlar vasitəsilə realizə olunacaq. Pedaqoji kadrların real fasiləsiz təhsilə cəlb etmədən, təhsildəki hər hansı problemi həll etməkdən danışmaq yersizdir.

### Ədəbiyyat


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası.
3. "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi qaydaları barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il tarixli, 163 nömrəli qərarı.






# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN DİREKTORLARININ İDARƏETMƏ KOMPİTENSİYALARININ TƏKMİLLƏŞDİRİLMƏSİ


**Pirallı Əliyev,**
*pedaqogika üzrə elmlər doktoru*
*ARTPİ*
E-mail: piralibexbud56@mail.ru



***Açar sözlər:*** *direktorun idarəetmə kompitensiyası, məqsədlərin müəyyənləşdirməsi, məzmun, struktur, mühit, təşkilati iş, prioritetlər, ölçmələr, maliyyələşdirmə resursları, keyfiyyətin idarəolunması*
***Ключевые слова:*** *компетенции директора, цель, содержание, структура, среда, приоритеты финансовые ресурсы, управление качеством, организационная работа*
***Key words:*** *principals' management competences, setting goals, content, structure, environment, organizing, prirorities, measures, financial resources, quality management*


Azərbaycan Respublikası inkişaf edərək regionun lider dövlətinə çevrilmişdir. İnkişaf informasiya- kommunikasiya texnologiyaları, iqtisadiyyat, o cümlədən təhsil sahəsində əsaslı islahatların həyata keçirilməsini zəruri etmişdir. Bu mənada "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda əksini tapan başlıca problemlərdən biri də təhsilin idarə olunması işinin yenidən qurulmasıdır. Dövlət Standartlarının tələbləri əsasında ümumtəhsil məktəblərinin direktorlarının idarəetmə kompetensiyaları təkmilləşdirilməlidir. Təhsil rəhbəri bütün sahələrdə öndə olmalı, bir lider kimi kollektivi gələcəyə aparmağı bacarmalıdır. Bu gün rəhbər işçidən çeviklik, yaradıcı düşünmək, təşəbbüskarlıq, işgüzarlıq, nəticəyönümlülük, məsuliyyəti bölüşmək və stresslərə qarşı dözümlülük kimi keyfiyyətlər tələb olunur. Özünün və kollektivin işinin təşkil olunması, şəxsiyyətlərarası ünsiyyətin yaradılması, işin planlaşdırılması, pedaqoji kollektivdə motivasiyanın yaradılması kimi sosial-psixoloji kompitensiyaların dəyəri artır. Ümumi təhsilin idarə olunmasında demokratiklik, sistemlilik və şəffaflıq mühüm amil kimi meydana çıxır, fəaliyyətin səmərəli planlaşdırılması və nəzərdə tutulan tədbirlərin icrası çevik nəzarət mexanizminin müəyyənləşdirilməsini tələb edir.

Ümumtəhsil məktəblərinin direktorlarının kompetensiyaları sırasında fəaliyyətin planlaşdırılması mühüm yer tutur (5). Məktəbin strateji fəaliyyət planında (üçillik dövrü əhatə edir) məktəbin vəzifəsi, məqsədləri, prioritetləri göstərilir və o, fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi üçün əsas rol oynayır. Planlaşdırmadan əvvəl təhsil müəssisəsində özünüqiymətləndirmə işi aparılmalıdır. Bu zaman məqsədlərin və prioritetlərin əldə olunması ilə bağlı işlər haqqında məlumatlar toplanır və təhlil olunur. Bu proses ildə bir dəfə həyata keçirilir və üçüncü (sonuncu) ildə bu məlumatlar fəaliyyət nəticələri haqqında üçillik hesabata daxil edilir. Bu mərhələdə məktəbin əldə etdiyi nəticələrlə bağlı xarici yoxlama (yəni, məsləhətçilər, ekspertlər və ya yoxlayıcılar tərəfindən) aparılır və növbəti məktəb planına daxil edilmək üçün məqsədlər, dəyişikliklər və prioritetlər haqqında tövsiyələr hazırlanır. Beləliklə, yeni üçillik plan hazırlanır və bu planda ötən üç il ərzində məktəbin fəaliyyətini əks etdirən məlumatların təhlili nəticəsində müəyyən olunmuş və yeni planlaşdırma dövrü üçün nəzərdə tutulmuş məqsədlər, prioritetlər və tədbirlər əks olunur (8;9). Ümumtəhsil məktəblərində hazırlanan hesabatvermələrin təhlilindən aydın olur ki, bu işlərdə vahid prinsip yoxdur. Hesab edirik ki, ümumtəhsil müəssisələrinin hesabatvermə prinsiplərinə aşağıdakılar aiddir: məktəbin növbəti üçillik fəaliyyət planını hazırlamaq məqsədilə ötən dövrdəki fəaliyyətinin təhlili və qiymətləndirilməsi; məktəbin məqsəd və vəzifələrini əks etdirən illik planların tərtib edilməsi; məktəbin fəaliyyətini tənzimləyən hüquqi-normativ sənədlərdən istifadə olunması; məktəbin əsas fəaliyyət göstəricilərinin (əsas fənlər-Azərbaycan dili və riyaziyyat üzrə təlim nəticələri, ictimai rəy, şagirdlərin davamiyyəti, məktəb təhsilini başa vuranların sayı və s.) müəyyən olunması; mövcud məlumatlar əsasında məktəbdə

özünüqiymətləndirmə prosesinin təşkil edilməsi (üçillik dövr üçün); məktəbin nailiyyətlərinin müstəqil ekspertlər tərəfindən qiymətləndirilməsi (üçillik dövr üçün); fəaliyyət göstəriciləri aşağı olan məktəblərin işinə müdaxilə və lazımi yardımın göstərilməsi.

Planlaşdırmada ümumtəhsil məktəblərini idarə edənlərin işinin istiqamətləri öz əksini tapmalıdır (1). Direktorun idarəetmə işinin istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:təlim keyfiyyətinin idarəolunması; inkişaf etmiş xarici ölkə təcrübəsinin öyrənilərək tətbiqinin idarəolunması; dərsdənkənar təlim-tərbiyə işinin idarəolunması; fənn kurikulumlarının tətbiqinin idarəolunması; məktəbdaxili qiymətləndirmənin idarəolunması; məktəblilərin sağlamlığının idarəolunması; məqsədlərin: strategiya, taktika, inteqrasiya, proqnozlaşdırma, koordinasiya və icra mexanizminin təsnif olunması; uşaqların I, V və X siniflərə seçim meyarlarının tətbiqinin idarəolunması; istedadlı uşaqların diaqnostikası, sahələr üzrə bölüşdürülməsi və onların olimpiadalarda, müsabiqələrdə iştirakının təşkilinin idarəolunması; IX siniflərdə peşəyönümü işinin idarəolunması; statistikanın təhlilin idarəolunması; İKT-nin tətbiqinin idarəolunması; resursların yaradılmasının idarəolunması; məktəb sənədlərinin dövriyyəsi və uçotunun idarəolunması; maliyyənin idarəolunması; idarəetmədə hesabatlılığa riayət olunması; təsərrüfat fəaliyyətinin idarəolunması; təlim-tərbiyə işləri üzrə direktor müavinlərinin işinin idarəolunması; tərbiyə işləri üzrə direktor müavininin (təşkilatçı) işinin idarə olunması; sinif rəhbərlərinin işinin idarəolunması; uşaq birliyi rəhbərlərinin işinin idarəolunması; fənn birləşmələrinin işinin idarəolunması; valideyn komitəsinin, valideyn-məktəb assosiasiyalarının işinin idarəolunması; icmanın məktəblə əlaqəli işinin idarəolunması; məktəb psixoloqunun işinin idarəolunması; müəllimlərin özünütəhsilinin, yenidən hazırlanmasının idarə olunması.

Ümumtəhsil məktəblərinin idarə olunması işinin sistemini və onların fəaliyyət nəticələrini yoxlamaq və təkmilləşdirmək üçün hesabatvermə mexanizmini formalaşdırmaq və tətbiq etmək lazımdır. Hesabatvermə sistemi təhsil müəssisələrinin üçillik inkişaf planlarının, bu planların icrası üzrə illik hesabatların və üçillik fəaliyyət hesabatının hazırlanmasını tələb edir. Bu sistemdən istifadə edərək, təhsil müəssisəsi öz fəaliyyətini təkmilləşdirmək üçün yeni vəzifələr, məqsədlər və strategiyalar müəyyənləşdirir. Bu sistemdə təhsil müəssisəsi təlim nəticələri, kurikulumun icrası və tədris prosesi, şagirdlərin sosial təminatı və məktəb mühitinə təsir edən amillər (məsələn, təhlükəsizlik), məktəbin idarə olunması, vəsaitlərdən istifadə və bu kimi digər əsas göstəricilər haqqında məlumatlar toplayır (12). Bu zaman təhsil müəssisəsinin fəaliyyət göstəricilərinin təhlili olunması və təkmilləşdirilməsinin strateji xətt üzrə aparılmasına yardımın göstərilməsini tələb edir.

Ümumtəhsil məktəblərinin direktorları idarə etmədə müasir səriştələrə malik olmalıdırlar. Bu mənadatəlim və tədris proseslərinin dərindən başa düşülməsi məktəbə səmərəli rəhbərliyin əsasını təşkil edir. Bu xüsusiyyət məktəb rəhbərlərini digər təşkilatların rəhbərlərindən fərqləndirir. Deməli, təhsil müəssisəsinə rəhbərlik edən şəxs həm təhsil, həm də təşkilatçılıq sahəsində rəhbərlik və idarəetmə üzrə bilik və bacarıqlara malik olmalıdır. Adətən təhsil sahəsində rəhbərlik (siyasətin işlənib hazırlanması) və idarə etmə üzrə (kurikulumun təhlili) bilik və bacarıqları direktorun əmək fəaliyyəti dövründə qazanılır (11). Bundan sonra təşkilatçılıq sahəsində rəhbərlik (dəyişikliyin həyata keçirilməsi) və idarəetmə (kadrların idarə edilməsi sahəsində) bilik və bacarıqları formalaşır.

Məktəb direktorlarına aşağıdakı səriştələr aşılanmalıdır: dəyişikliklər aparmaq səriştəsi; insanların dəyişikliklərə münasibətini təhlil edib qiymətləndirmək səriştəsi; təhsil sahəsində gələcək perspektivləri və təhsilin məqsədlərini müəyyən etmək səriştəsi; dəyişikliyin aparılmasına yardım etmək üçün pedaqoji kollektivi və valideynləri işə cəlb etmək səriştəsi; strateji məqsədləri müəyyən etmək və prioritet tədbirləri hazırlamaq səriştəsi; planlaşdırmaq, cədvəl və qrafik hazırlamaq səriştəsi; kurikulumu qiymətləndirmək səriştəsi; şəbəkələr və birliklər yaratmaq bacarığı.

➢ kadrları idarəetmə səriştəsi (14): pedaqoji kollektivi və maraqlı tərəfləri məktəbin məqsədləri ətrafında birləşdirmək səriştəsi; fəaliyyəti qiymətləndirmək və peşə hazırlığına olan ehtiyacı müəyyən etmək səriştəsi; təlim yükünü bölüşdürmək və fəaliyyəti yoxlamaq səriştəsi; danışıqlar aparmaq və münaqişələri həll etmək səriştəsi; şəxsiyyətlərarası münasibətlər yaratmaq səriştəsi; ünsiyyət səriştəsi; səlahiyyət və cavabdehliyi bölüşmək səriştəsi; pedaqoji kollektivi və başqalarını strateji fəaliyyət xətti ətrafında birləşdirmək səriştəsi; kadrları işə cəlb etmək və seçmək səriştəsi; sağlam və işgüzar kollektiv formalaşdırmaq səriştəsi; kadrları işə hazırlamaq və onlara məsləhət vermək səriştəsi.

➢ maliyyə vəsaitlərini idarəetmə səriştəsi: maliyyə sisteminin tələblərinə riayət etmək səriştəsi; smeta hazırlamaq və maliyyə vəsaitlərini planlaşdırmaq səriştəsi; maliyyə vəsaitlərini idarəetmə səriştəsi; vəsaitləri təlim-tədrisin məqsəd və nəticələrinin əldə olunmasına yönəltmək səriştəsi.

➢ qərarvermə prosesinin təşkili və idarəolunması üzrə səriştələr: qərarvermə metodlarına bələdlik səriştəsi; pedaqoji kollektivin alternativ fəaliyyət istiqamətlərini müəyyənləşdirməkdə yardım etmək səriştəsi; demokratik qərarçıxarma sistemini yaratmaq səriştəsi; iclaslara səmərəli rəhbərlik səriştəsi; problemləri və münaqişələri həll etmək səriştəsi; qərarvermə və riskləri qiymətləndirmək səriştəsi.

➢ informasiya texnologiyalarını idarəetmə səriştəsi: yeni texnologiyalardan istifadə üzrə səriştələr; texnoloji plan hazırlamaq səriştəsi; idarəetməyə yardım etmək məqsədilə texnologiyalardan istifadə etmək səriştəsi; məlumat bazasından, planlaşdırma və rabitə proqramlarından istifadə etmək səriştəsi; təlim prosesinə, hesabatvermə işlərinə və planlaşdırmaya yardım etmək məqsədilə yeni texnologiyaların istifadəsinə şərait yaratmaq səriştəsi.

➢ hesabatvermə sistemini tətbiq etmə və fəaliyyəti təkmilləşdirmə səriştəsi: hesabatvermə sisteminin tələblərinə riayət etmək səriştəsi; təhsil müəssisələrinin səmərəli fəaliyyətinə təsir edən amillər haqqında məlumata malik olmaq səriştəsi; məktəbin fəaliyyətinin inkişaf planlarını hazırlamaq səriştəsi; nailiyyətlər haqqında illik hesabat hazırlamaq səriştəsi; məlumatları təhlil etmək və dəyişikliklərə olan ehtiyacı müəyyən etmək səriştəsi; inkişaf strategiyalarını və məqsədlərini müəyyən etmək səriştəsi; məlumatların toplanmasının səmərəli mexanizmini yaratmaq səriştəsi; məlumat bazalarını istismar etmək səriştəsi.

### Ədəbiyyat


1. Abdullayev R.R., Məmmədov S.M., Quliyev S.M. İdarəetmənin əsasları. Bakı, 2014
2. Hacıyev İ. Məktəbdaxili nəzarətin təşkilati-pedaqoji məsələləri. Bakı: Maarif, 1966
3. Əhmədov N. Məktəbdaxili nəzarətin forma və metodları. Bakı: Maarif, 1988
4. Məktəb direktorunun məlumat kitabı. Bakı: Maarif, 1965; 1975
5. Rzayev O., Məmmədov S., İsmayılov Ş. Təhsilin idarəolunmasının əsasları. Bakı, 2012
6. İsmixanov M., Bəxtiyarova R. Məktəbin idarə edilməsi (pedaqoji institut və universitet tələbələri üçün dərs vəsaiti). Bakı, 2012
7. Шакуров Р.Х. Социально-психологические основы управления: руководитель и педагогический коллектив. М., Просвещение, 1990
8. Максимовое Л., Шибанова Е. Настольная книга директора школы. М., ООО Издательство АСТ, 2002
9. Симанов В.С. Педагогический менеджмент: Ноу-Хау в образовании. М., Высшее образование, 2007
10. Советова Е. Справочник заместителя директора школы по учебно-воспитательной работе. Ростов н/Д: Феникс, 2008
11. California Department of Education website: http://api.cde.ca.gov/
12. California Accountability and Improvement: http://www.cde.ca.gov/
13. Kentucky: www.kde.state.ky.us/growthchart.asp
14. Colorado: Department of Education: www.state.co.us
15. Michigan: http://www.ses.standardandpoors.com/
16. OfSTED (UK):www.ofsted.gov.uk

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İDARƏ OLUNMASINDA PROQNOZLAŞDIRMA VƏ HESABATVERMƏ

**Şükür Qəribov,**
**ARTPİ-nin böyük elmi işçi**
E-mail: shukur.qeribov@mail.ru

*Açar sözlər: ümumtəhsil məktəbi, proqnozlaşdırma, hesabatvermə, optimallaşdırma, sistemləşdirmə, şagird, şəxsiyyət, dinamika, müəllim, məzmun, mahiyyət*
*Ключевые слова:общеобразовательная школа, прогнозирование, отчётность, систематизация, ученик, личность, динамика, учитель, содержание, сущность*
*Key words:secondary schools, proqnozlasdırma, reporting, optimization, systematization, students, personality, dinamika, teachers, content, nature*

Ümumtəhsil məktəblərinin idarəolunmasındaproqnozlaşdırma menecment prosesinin ilkin funksiyası olub özündə məktəbin qarşısına qoyduğu məqsədə çatmaq yollarını və vasitələrini birləşdirən prosesi əks etdirir. Proqnozlaşdırma prosesində müxtəlif müddətləri əhatə edən proqramlar işlənib hazırlanır.

Proqnoz – bu məqsədi, məzmunu, həcmi, metodları, ardıcıllığı, yerinə yetirilmə müddəti göstərilməklə müəyyən vaxtda yerinə yetirilməsi nəzərdə tutulan və qabaqcadan gözlənilən nəticələri anlaşılan fikirlərin məcmusudur.

Proqnozun tətbiqi məktəb rəhbərliyini aşağıdakı üstünlüklərlə təmin edir:

1) Məktəbdə yerinə yetirilən proseslərin koordinasiyasını yaxşılaşdırır;
2) Məktəbin yeni mühitində baş verən dəyişikləri tez nəzərə almaq imkanı verir;
3) Məktəb üçün əlverişli imkanların reallaşdırılmasını mümkün edir;
4) Məktəbdə həyata keçirilən informasiya mübadiləsini yaxşılaşdırır;
5) Məktəbə rəhbərliyin optimal bölüşdürülməsinə kömək edir;
6) Rəhbər heyətin vəzifə və məsuliyyətini dəqiq müəyyən edir;
7) Pedaqoji işçilərin öz işlərini daha yaxşı icra etməyə, təhsil menecerləri isə öz qərarlarını daha ətraflı əsaslandırmağa və reallaşdırmağa sövq edir;
8) Məktəbdəki nəzarət prosesini yaxşılaşdırır.

Proqnozlaşdırma prosesi idarəetmə qərarlarının işlənib hazırlanmasına, qəbuluna və eləcə də reallaşdırılmasına kömək edən amillərdən biridir. Proqnozlaşdırma prosesi çərçivəsində idarəçilik fəaliyyətinin 4 əsas funksiyasını fərqləndirmək olar:

1) ehtiyatların bölüşdürülməsi;
2) yeni mühitə adaptasiya;
3) daxili koordinasiya;
4) məktəb rəhbərliyinin strateji uzaqgörənliyi.

Məktəbdə şagird şəxsiyyətinin formalaşdırılması üçün yaradılan mühit məktəbdənkənar ətraf mühitlə adaptasiya münasibətini yaxşılaşdıran tədbirləri əhatə edir. Hər bir məktəbin şagirdlərinin həm xarici mühitin əlverişli imkanlarına, həm də mümkün olan təhlükələrinə adaptasiya olunmaları zəruridir. Bunun üçün məktəbi idarə edənlər müvafiq situasiyaları aşkar etməyi və məktəbin strategiyasının ətraf mühitə səmərəli uyğunlaşmasını təmin etməlidirlər. Uğurla fəaliyyət göstərən məktəblərdə proqnozlaşdırma zamanı hökumət və bütövlükdə cəmiyyətlə qarşılıqlı münasibətlər qurmaq daha mükəmməl təlim prosesi sistemlərinin işlənib-hazırlanmasına yeni və daha əlverişli imkanların yaradılmasına gətirib çıxarır.

Daxili koordinasiya-məktəbdaxili proseslərdə effektli inteqrasiyaya nail olmaq məqsədilə məktəbinın güclü və zəif tərəflərini əhatə edən fəaliyyətlərin koordinasiyasıdır. İstər böyük, istərsə də kiçik məktəblərdə daxili proseslərin effektliyinin təmin edilməsi təhsil menecerlərin fəaliyyətlərinin ayrılmaz hissəsidir.

Məktəbin strategiyanın dərk edilməsi dedikdə keçmiş strateji planlardan bəhrələnmək yeni məktəb idarəetmə modelinin yaradılması yolu ilə təhsil menecmentlərinin təfəkkür tərzinin



müntəzəm olaraq inkişaf etdirilməsini nəzərdə tutan fəaliyyəti başa düşülür. Keçmiş təcrübədən bəhrələnmək qabiliyyəti məktəbə özünün strateji istiqamətlərini dəqiqləşdirmək və strateji təhsil menecmenti sahəsindəki peşəkarlığını yüksəltmək imkanı verir.

Strateji təhsil menecmenti prosesi özündə dinamik dəyişkən və qeyri-müəyyən mühit şəraitində məktəb qarşısında duran məqsədlərə nail olmaq üçün zəruri olan ardıcıl hərəkətlərin (funksiyaların) məcmusunu birləşdirir. Bu məktəbə mövcud potensialdan optimal istifadə etmək və beynəlxalq tələblərə uyğunlaşmaq imkanı verir. Dinamik, dəyişkən, qeyri-müəyyən mühit şəraitində proqnozlaşma özündə bir sıra strateji istiqamətləri birləşdirir.

Strateji proqnozlaşdırma özündə məktəbin təlim prosesinin məqsədinin seçilməsi, həlli üsullarını, həmçinin buna nail olmaq üçün nələr edilməli olduğunu birləşdirir. O bütün idarəetmə qərarlarının əsasını təşkil edir.

Ümumtəhsil məktəblərinin idarə edilməsi işlərində əsas amillərdən biri də hesabatvermədir. İdarəetmədə keyfiyyətin yüksəldilməsinin əsas formaları proqnozlaşdırma və planlaşdırmadırsa, hesabatvermə də onun audutüdür. Ümumtəhsil məktəblərinin idarəedilməsidə hesabatvermə aşağıdan yuxarıya doğru hesabatların hazırlanaraq verilməsi proqnozların və planlaşdırmanın icrasının nə dərəcədə həyata keçirilməsindən və proqnozun təhlilində keyfiyyətin yüksəldilməsinə gedən dinamikaya bir baxış xarakteri daşıyır.

Ümumtəhsil məktəblərində sinif rəhbərlərinin, məktəb uşaq birliyi rəhbərlərinin, məktəb psixoloqlarının, metodbirləşmə rəhbərlərinin, məktəb metodiki şuralarının, direktor müavinlərinin, məktəb direktorlarının Məktəb Şuralarına və yuxarı icra orqanlarına yarımillik, illik hesabatlar hazırlanması məqsədəuyğundur.

Məktəbin üç illik və ya beş illik fəaliyyəti haqqında yuxarı icra orqanları, yaxud müstəqil qurumlar və ekspertlər tərəfindən də hesabatlar hazırlana bilər. Hesabatlar hazırlanarkən ümumtəhsil məktəblərinin hüquqi normativ sənədlərinə uyğun olaraq əsasnamələr əsasında məktəbin proqnozlaşdırma və planlaşdırmasında nəzərdə tutulan işlərin icrası haqqında hazırlanmalıdır.

### Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009.
2. Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum) // Kurikulum, 2008, №1
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., ,2013, 25 oktyabr
4. A. İmran. Menecment. Bakı: Nurlan, 2007.

**Ш. Гарибов**

**Прогнозирование и отчётность в управлении общеобразовательными школами**

***Резюме***

В статье излагаются значение, оформление внедрения прогнозирования в общеобразовательных школах, основанное на международный опыт. Даются сведения об определении форм отчётности, модернизации системы в общеобразовательных школах. Суть отчетности в управлении общеобразовательными школами заключается в подаче отчетов снизу вверх, в осуществлении прогнозирования и планирования работы и в анализе прогнозирования и динамики повышения качества управления.

**Sh. Garibov**

**Forecasting and reporting in the management of public schools**

***Summary***

The article outlines the importance of forecasting design implementation in secondary schools, based on international experience. Provide information on the definition of reporting forms, and upgrading the system in secondary schools. The essence of accountability in the management of public schools is filing reports from the bottom up, in the implementation of forecasting and planning and forecasting and analysis of the dynamics of improving the quality of management in connection with a new approach to this problem.

# TƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏ OLUNMASINDA İNTEQRATİV TƏLİMİN ROLU

**Məmməd Kazımov,**
*pedaqogika üzrə fəlsəfə doktoru ,dosent*
E-mail: memmedkazim@mail.ru

***Açar sözlər:*** *keyfiyyət, idarəetmə, metodlar, idarəetmə funksiyaları, istiqamətləndirmə, inteqrativ təlim, istiqamətlər, mövzuların əlaqəli tədrisi*
***Ключевые слова:*** *качество, управление, методы, функции управления, направленность. интегративное обучение, преподавание взаимосвязанных тем*
***Key words:*** *quality, management , methods, management functions ,integrative teaching, interrelated teaching of topics*

Təhsildə keyfiyyətin idarə olunması özünün bir çox xüsusiyyətlərinə görə digər idarəetmə formalarından fərqlənir. Keyfiyyətin idarə olunması təkcə tədrisin təşkilindən asılı deyil o, həm də idarə edənlərin məsələyə hansı aspektdən yanaşmasından da asılı olaraq dəyişir. Təhsil sistemində keyfiyyət dedikdə təhsilin nəticələrinə uyğun, əvvəlcədən müəyyən edilmiş normativlərə (təhsil standartlarına ) müvafiq öyrənənlərin səviyyəsi, ümumi halda isə təhsil sisteminin durumu başa düşülür. Təhsilin nəticələri təkcə öyrənənin təhsilini başa vurduqda yiyələndiyi bilik və bacarıqların səviyyəsi deyil, həm də onun dünyaya münasibətini göstərən şəxsi keyfiyyətlərdir. Deməli, təhsil sistemində keyfiyyətə öyrənənlərə verilən bilik, bacarıq və dəyərlərin müvafiq dövlət standartlara və cəmiyyətin tələbatına hansı səviyyədə uyğunluğunu müəyyən edən başlıca kateqoriya kimi baxmaq lazımdır. Elmi-pedaqoji ədəbiyyatda təhsilin keyfiyyətinin idarə olunmasını müəyyən etmək üçün istifadə olunan yanaşmaları aşağıdakı kimi xarakterizə etmək olar.

- Keyfiyyətin idarə olunmasını təmin etmək üçün, idarə olunanın hər bir obyekti üçün anlayışın məna tutumu əvvəlcədən müəyyən edilməlidir;
- Təhsilin keyfiyyətinin idarə olunmasında hər hansı bir obyekti xarakterizə edən elementlər nəzərə alınmalıdır;
- Təhsilin keyfiyyəti mürəkkəb struktura malik olduğundan onun idarə olunma üsulları haqqında hər hansı bir fikir formalaşdırmaq onun tərifini dəqiq vermək mümkün olmur:

İdarəetmənin əsas subyektləri olan təhsil müəssisələrinin rəhbərləri, pedaqoji heyət, tələbələr təhsilin keyfiyətinin idarəolunmasının müxtəlif səviyyələrində dayanır və onların tədrisə münasibətləri əlaqəli şəkildə xarakterizə olunur. İdarəetmənin subyektləri ardıcıl olaraq aşağıda göstərilən idarəetmə funksiyalarını yerinə yetirməlidir:

- Keyfiyyətin idarə edilməsiin məqsədli təhlili;
- Keyfiyyətin idarə olunmasını planlaşdırarkən verilən tələblərin həyata keçirilməsi;
- Keyfiyyətin idarə olunmasında ümumi rəhbərlik və fərdi nəzarətin tətiq edilməsi;
- İdarəolunmada təkrar təhlilin aparılması.

Təhsilin keyfiyyətinin idarəolunmasının səmərəli olmasını təmin edən xarakterik xüsusiyyətlər içərisində ən əsas yerlərdən birini tutan keyfiyyətin səmərəli idarə olunmasına təlim prosesinin qanunauyğunluğuna uyğun olmasıdır. Təhsildə keyfiyyətin idarə olunmasının düzgün təşkil edilməsində iştirak edən şəxslərin peşəkarlıq səviyyəsinə daha yüksək tələblər qoyulur. Bu tələblər bir neçə formada qruplaşsa da ən məqsədəuyğunu aşağıdakılardır:

1. Təhsili idarə edənlər qoyulan məsələyə yaradıcı yanaşmalıdır;
2. Təhsilin keyfiyyətini idarəedənlərlə tədrisdə iştirak edənlər (idarəolunanlar) arasında anlaşılan münasibətlərin qurulması və təşəbbüskarlığa imkan yaradılması;
3. Təhsilin idarə edilməsində qərarların qəbul edilməsi zamanı sərbəstliyin verilməsi, hər bir şəxsin təklif və ideyalarına rəğbətlə yanaşılması;



4. Təhsilin idarə olunmasının keyfiyyətinin yüksəldilməsi məqsədilə idarəolunma qaydalarına yeni yanaşmaların tətbiqinin ön plana çəkilməsi və yaradıcı xarakterli axtarışların təmin olunmasına şəraitin yaradılması.

Təhsilin keyfiyyətini günün tələbi səviyyəsində idarə edilməsinin təşkil olunmasında əsas rol oynayan amillərdən biri də təhsilin inteqrativ təlimin tələbləri səviyyəsində qurulmasıdır. Fənlərin qarşılıqlı əlaqəli şəkildə tədrisi zamanı fəndaxili və fənlərarası əlaqələr möhkəmlənir və az vaxtda çox biliyin əldə olunmasını təmin edir. İnteqrativ təlimdə şagirdlərin yüksək fəallığı həyata keçirilir, şagirdlər yorulmur, məsələlərdə boş dayanma hallarına yol verilmir. Hər hansı mövzunun mahiyyətini şagirdlərin vəhdətdə dərk etmələri üçün digər fənlərə müraciət olunur və bu zaman təlimin vəzifələri səmərəli həll olunur, təlimin təşkilində iteqrativ yanaşmalar məqsədyönlü şəkil alır, nəticədə sinifdə təlim keyfiyyətinin yüksəldilməsi asan, məqsədyönlü idarə olunur. İnteraktiv mühüm pedaqoji problem olduğu üçün yüksək bacarıqlara malik şəxsiyyətin formalaşdırılmasında da məqsədli şəkildə istifadə olunur. Beləliklə, inteqrativ təlim zamanı təhsilin idarə olunmasının keyfiyyətinin yüksəldilməsi məhz inteqrativ təlimin təşkilindən də asılı olması müəyyənləşir. Prof. A. Mehrabov "Müasir təhsilin konseptual problemləri "əsərində göstərir ki, keyfiyyətin idarə olunmasında inteqrativ təlim metodları önəmli rol oynayır. Təhsil müəssisələrində aparılan təhsil islahatlarının əsas məqsədi təsildə keyfiyyətin təmin olunması və onun səmərəli idarə olunmasını təmin etməklə, tədris prosesinin səmərəliliyini artırmaq və inteqrativ təlimin pedaqoji prosesdə geniş tətbiqinə nail olmaqdır. Dərslərin fənlərarası əlaqəli şəkildə təşkil olunması. Müəllimlərin mövzuları aydınlaşdırarkən fəndaxili inteqrasiyasının təşkili, peşəkarlıq səviyyəsinin yüksəldilməsi, tədrisdə inteqrativ təlimdən istifadə etməklə auditoriyanın idarə olunmasının keyfiyyətinin yüksəldilməsinə nail olmaq olar. Bu məsələ olduqca vacib olan bir sıra komponentlərin tətbiqindən də asılıdır. Bu komponentlərdən biri də fəndaxili əlaqəli təlimdə keyfiyyətin yüksəldilməsinə nəzarətin düzgün təşkil olunmasıdır.

**Ədəbiyyat**

1. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
2. Kərimov Y.Ş. Təhsilin aktual problemləri. Bakı: Mütərcim, 2007.
3. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
4. Məmmədzadə R. H., Abdullayev A.T. və başqaları. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı: Müəllim, 2008.
5. Сажина С.Д. Технология интегрированного занятия. М., 2008.

**М. Казимов**

**Роль интегративного обучения в управлении качеством**
***Резюме***

В статье говорится о внедрении различных методов в управлении качеством, о правильном выборе управленческих функций и о внедрении интегративного обучения для повышения качества обучения. Здесь также затронута тема правильного выбора подходов в управлении качеством образования. В статье эти подходы рассмотрены в отдельности, даны рекомендации и указаны пути повышения качества образования.

**M. Kazımov**

**The role integrative teaching in the quality management**
***Summary***

The present article points to the practice of some methods for the quality management , correct choice of management functions, and practice of inteqrative teaching to raise quality of education. Moreover , the article talks about correct choice of approaches for quality management in education. The approaches are dealt with separately in the article. Furthermore, the article focuses special attention on the ways and methods of raising quality management in education.

# KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFI İLƏ ƏHALİNİN MƏŞĞULLUQ SƏVİYYƏSİ ARASINDAKI ƏLAQƏ VƏ DÜNYA TƏCRÜBƏSİ

**Eldəniz Həsənli**
*Azərbaycan Universiteti*

***Açar sözlər:*** *bazar iqtisadiyyatı, kiçik və orta sahibkarlıq, əhalinin məşğulluğu, əmək ehtiyatları, bazar münasibətləri*
***Ключевые слова:*** *рыночная экономика, малый и средний бизнес, занятость населеня, трудовые ресурсы, рыночные отношения*
***Key words:*** *market economy, small and average ownership, employment of people, labour reserves, market relationships*

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, bazar iqtisadiyyatına keçid üçün hansı formanın seçilməsindən asılı olmayaraq dövlət məşğulluqla bağlı lazım olan bütün tədbirləri həyata keçirməlidir. Bu dövlətin, əsasən son yarım əsr ərzindəki, iqtisadi tarixinin təhlili göstərir ki, onlar ölkədə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsini məşğulluğun səviyyəsinin artırılmasının ən optimal yolu hesab edirlər. Sənaye neçə inkişaf etmiş dövlətlərin təcrübəsi sübut edir ki, kiçik və orta sahibkarlığın inkişafı nəinki ölkə iqtisadiyyatının inkişaf amilləri, həm də cəmiyyətin sosial-siyasi sabitliyini təmin edən amildir. Kiçik və orta sahibkarlıqla məşğul olanlar iqtisadi böhran vaxtı kütləvi müflisləşməyə baxmayaraq, çətinə düşdükləri hallarda, çeviklik göstərərək iqtisadi çətinliklərə uyğunlaşmağa çalışırlar və çox vaxt buna nail olurlar. Onlar çıxış yolunu iri müəssisələrin etdikləri kimi istehsalın azaldılmasında və işçilərin ixtisar edilməsində deyil, əmək haqqının azaldılmasında və iş vaxtının uzadılmasında görürlər.

Kiçik və orta sahibkarlığın inkişafının əhalinin məşğulluğunun artırılmasında əhəmiyyətli, həlledici rol oynadığı iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi ilə sübut edilməkdədir. Bunu ABŞ və Yaponiyanın daha aydın görmək olar. Belə ki, ABŞ-da xüsusi bölmədə məşğul olan işçi qüvvəsinin 52-59%-ə qədəri kiçik və orta müəssisələrin payına düşür. ABŞ və digər inikşaf etmiş ölkələrdə hər il iqtisadiyyatda yaradılan yeni iş yerlərinin 60-85, bəzən 95%-i kiçik və orta biznesinin payına düşür. Eyni zamanda, kiçik və orta biznes sferasına daxil olan müəssisələr yeni işçi qüvvəsinin hazırlanmasında, ilk dəfə işə başlayanların işlə təmin olunmasında əhəmiyyətli rol oynayırlar. Bu tipli müəssisələr yeni işə başlayanların 70%-ə qədərini işlə təmin edirlər.

Aparılan araşdırmalar nəticəsində ABŞ-ın iqtisadçı alimlər belə nəticəyə gəlmişlər ki, daha iri korporasiyalar yeni iş yerləri yaradan əsas mənbə funksiyasını itirirlər. Belə ki, hələ 1969-1971-ci illər ərzində ABŞ-da yaradılan yeni iş yerlərinin 96% kiçik biznesin, 4 % isə iri korporasiyaların payına düşmüşdür. 1981-1982-ci illərdə iri biznes 1 mln 600 min mövcud iş yerini ləğv etdiyi halda kiçik biznes tərəfindən 2 mln 650 min yeni iş yeri yaradılmışdır [109, 15].

Yaxud ikinci dünya müharibəsindən sonra sürətlə inkişaf edən Yaponiyada da kiçik və orta müəssisələr əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində aparıcı rol oynayırlar. Belə ki, bütövlükdə Yaponiya iqtisadiyyatında məşğul olanların 80,6 faizə qədəri kiçik və orta müəssisələrin 74,4 faizi, topdansatış və pərakəndə satış ticarətdə işləyənlərin isə 87,0 faizə qədəri kiçik və orta müəssisələrdə çalışırlar. [86, 44].

Bundan əlavə, Tailandda keçən əsrin 80-ci illərin ortalarında kiçik kapitalist müəssisələri ölkədəki bütün müəssisələrinin 93,5 faizini təşkil edirdi. Emaledici sənayedə çalışanların 54,8 faizi bu müəssisələrin payına düşürdü [105, 79].

Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini qazandıqdan sonra inkişafın prinsipcə yeni formasına, tamamilə başqa bir iqtisadi sistemə keçməyə başladı. Bu isə, öz növbəsində obyektiv surətdə yeni şəraitə uyğun olaraq, həll edilməsi vacib olan bir çox ciddi problemlər yaratmışdır. Bunların arasında ən vacibi respublika üçün öz ciddiliyinə və sosial əhəmiyyətinə görə xüsusilə seçilən əhalinin məşğulluğu problemidir. Belə ki, bütünlüklə dövlətin və hər bir ayrıca fərdin rifah halının yüksəlməsi məhz səmərəli məşğulluq səviyyəsinin təmin edilməsindən çox asılıdır.

Aparılan tədqiqatlar göstərir ki, hər bir ölkədə məşğuluq səviyyəsi, əvvəla, onun malik olduğu



əmək qabiliyyətli əhalisinin, ölkənin qanunvericiliyinə zidd olmayan, onların hamısınınmı, yoxsa müəyyən bir hissəsininmi cəmiyyət üzvlərinin şəxsi və ictimai tələbatlarının ödənilməsi ilə bağlı olan və bir qayda olaraq, onlara qazanc (əmək gəliri) gətirən hər hansı bir fəaliyyət dairəsində işləməsini, ikincisi, həmin fəaliyyət dairələrində müxtəlif siniflərə, sosial qruplara məxsus olan əhalinin iştirakının nə səviyyədə olmasını göstərir.

Əhalinin məşğulluq səviyyəsini xarakterizə edən göstəricilər sisteminə aşağıdakılar aid edilir:

1. İqtisadi fəal əhalinin sayında məşğulların xüsusi çəkisinə görə. Bu göstərici məşğul olanların iqtisadi fəal əhalinin ümumi sayına nisbəti kimi müəyyən olunur.

2. Əmək ehtiyatlarının tərkibində məşğul əhalinin xüsusi çəkisinə görə. Məşğul əhali əmək ehtiyatlarının tərkib hissəsi olduğundan, əmək ehtiyatlarının ümumi həcmində məşğul olanların xüsusi çəkisi də müəyyən olunur. Bu cür müəyyən edilən məşğulluq səviyyəsi göstəricisi, öz həcminə görə əvvəlki göstəricilərdən aşağı olur.

Məlum olduğu kimi, sovetlər dövründə bütün keçmiş SSRİ-də olduğu kimi, Azərbaycanda da məşğulluq səviyyəsi-ictimai istehsala və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilmiş əmək qabiliyyətli əhalinin sayını mövcud əmək ehtiyatlarının sayına bölmək və %-lə ifadə etməklə müəyyən edilirdi. Həmin dövrdə keçmiş SSRİ hökuməti tərəfindən qəbul edilmiş sərəncamlar SSRİ Mərkəzi Statistika Komitəsi və SSRİ Dövlət Plan Komitəsinin metodiki göstəricilərinə əsasən, rəsmi dövlət sənədlərində və sosial-iqtisadi planlarda, əmək ehtiyatlarına aşağıdakı əhali qrupları daxil edilirdi:

İşləməyən I və II qrup əmək və müharibə əlilləri, müəyyən güzəştlər və qocalığa görə təqaüd aldığından, işləməyən 50-59 yaşında kişilər və 45-54 yaşında qadınlar istisna olmaqla, əmək qabiliyyəti olan 16-62 yaşında olan kişilər və 16-57 yaşında qadınlar;

Dövlət müəssisələri və idarələrində, korperativ və ictimai təşkilatlarda, habelə kolxozlarda işləyən 60 və yuxarı yaşında kişilər, 55 və yuxarı yaşında qadınlar, 16 yaşından kiçik yeniyetmələr [95].

Metodik tövsiyələrdən göründüyü kimi keçmiş SSRİ-də bu və ya digər əhali qruplarının əmək ehtiyatlarının tərkibinə daxil edilməsində əsas prinsip kimi, onların müəyyən yaş həddinə və əmək qabiliyyətinə malik olması götürülmüşdü. Əhalinin məşğulluğunun təmin edilməsinə gəldikdə isə, yeganə yol bütün əmək qabiliyyətli əhalinin yalnız ictimailəşdirilmiş istehsal dairəsinə və istehsaldan ayrılmaqla təhsilə cəlb edilməsi hesab olunurdu. Ancaq keçən əsrin 80-cı illərinin ikinci yarısından başlayaraq, bütünlükdə keçmiş ittifaqda, o cümlədən Azərbaycan iqtisadiyyatında yaranmış böhranlı vəziyyətlə əlaqədar olaraq, digər mühüm problemlər kimi, əhalinin məşğulluğunun təmin edilməsi problemi də tam kəskinliyi ilə meydana çıxdı.

Bazar münasibətləri şəraitində tam məşğulluq anlayışının, həmçinin onun məzmununun yeni tərzdə dərk edilməsi və həyata keçirilməsi üçün uyğun mexanizmlərin olmasına, aparılan məşğulluq siyasətinin maksimum dərəcədə işsizliyin qarşısının alınmasına və deməli, məşğulluğun mümkün dərəcədə tam və səmərəli olmasının təmin edilməsinə yönəldilməsi məqsədəuyğundur. Bu isə, ilk növbədə Azərbaycanda mövcud olan əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin müəyyən edilməsini tələb edir.

Təsadüfi deyil ki, keçmiş İttifaqın dağılması ərəfəsində, daha dəqiq desək, 1990-cı ildə SSRİ miqyasında, sonra isə 1991-ci ilin ortalarında Azərbaycanda əhalinin məşğulluğu haqqında xüsusi qanunlar qəbul edildi. Qeyd etmək lazımdır ki, ilk dəfə 27.VII.1991-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasına əsasən yenidən işlənib hazırlanmış və yeni "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu 2.VII.2001-ci ildə yenidən qəbul edilmişdir.

Ancaq təəssüflər olsun ki, bu qanunda da irəli sürülən bir çox müddəalar, bazar münasibətləri cəhətdən inkişaf etmiş ölkələrdə mövcud olan müvafiq anlayışlara və Beynəlxalq Əmək Təşkilatının (BƏT) "məşğul" və "işsiz" əhali anlayışları ilə bağlı müddəalarına tam uyğun gəlmədiyindən, Azərbaycanın milli xüsusiyyətləri nəzərə alınmaqla, bu qanunda yenə də müəyyən dəyişikliklər edilməsinə ehtiyac vardır. Respublikamız Beynəlxalq Əmək Təşkilatına üzv qəbul edildiyindən, bu, həm də əmək bazarında yaranmış vəziyyətin başqa ölkələrlə müqayisəli şəkildə öyrənilməsi üçün zəruridir.

Э. Гасанлы

**Связь между развитем малого и среднего бизнеса и уровнем занятости населения и международная практика в этой сфере**

*Резюме*

В статье рассматриваются вопросы развития рыночной экономики в развитых странах мира, роль занятости населения в развитии малого и среднего предпринимательства, дается сравнение состояния нашего рынка труда с другими странами.

E. Hasanli

**Link between small and average business development with employment level of people and world practice**

*Summary*

In the article development of market economy in developed countries, people employment in small and average ownership development employment problems in Azerbaijan, studying status of labour market in comporison with other countries were stated.

## DİREKTORUN PEŞƏKAR BACARIQLARI MƏKTƏBİN İNKİŞAFINDA VACİB MEYARDIR

**Afaq Əliyeva,**
*ARTPİ-nin şöbə müdiri*
E-mail: pedaqoq-7@mail.ru

***Açar sözlər:** məktəb direktoru, müasir idarəetmənin tələbləri, məktəbin strateji inkişaf planı, müəllimlərə peşəkar dəstək, tədris prosesi, demokratik prinsiplər.*
***Key words**: director of the school, the demands of modern management, strategic development plan for schools, professional support of teachers, the learning process and democratic principles*
***Ключевые слова**: директор школы, требования современного менеджмента, стратегический план развития школы, профессиональная поддержка учителей, учебный процесс и демократические принципы*

Təhsil müəssisəsinin fəaliyyətinin uğuru ona kimin rəhbərlik etməsindən – direktorun kim olmasından çox asılıdır. Yeni cəmiyyətdə, yeni şəraitdə məktəbin idarə edilməsi məktəb direktorundan nəinki tədris prosesinin təşkilini bacarmağı, eyni zamanda onu maksimal effektli etməyi tələb edir. Bu günkü məktəbdə tədris olunan elmlərin əsaslarının məzmunu və metodlarının intensiv şəkildə yeniləşdirilməsi prosesi gedir, təlim-tərbiyə işi dərinləşir və çoxcəhətli olur, məktəbin sosial funksiyaları genişlənir. Bu vəzifələrin uğurla həyata keçirilməsi məqsədə istiqamətləndirilmiş, yüksək səviyyədə təşkilatlanmış və səfərbər edilmiş pedaqoji kollektivə müyəssər ola bilər. Yaxşı təlim və tərbiyə edə bilən kollektivin formalaşdırılması, ilk növbədə, direktorun işidir. "Məktəb direktoru – bu məsul vəzifə bir çox ixtisası özündə birləşdirir. O, müəllimi, metodisti, dövlət inspektorunu, təsərrüfatçını, tədris prosesi təşkilatçısını, yaşlı və uşaq kollektivləri tərbiyəçisini bir şəxsdə birləşdirməlidir. Burada elmi idarəetməyə nəinki hərtərəfli, mükəmməl yiyələnmək, həm də həqiqi fədakarlıq, seçdiyi işə son dərəcə sədaqətli olmaq tələb edilir" (2).

Məktəb işinin məzmununu dərindən bilmədən, müasir şəraitdə cəmiyyətdə və təhsildə baş verən gerçəkliklərin mahiyyətini dərk etmədən məktəbi idarə etmək mümkün deyildir. Dövlət məktəb rəhbərlərindən idarəçilikdə demokratik prinsiplərə istinad etməyi, məktəbin qarşısında duran məsələlərin həllinə yaradıcı yanaşmağı, bütün işçilərdən işgüzarlığı, intizamlılığı, operativliyi, təşkilatçılığı, şəxsi məsuliyyət hissinin aşılanmasını israrla tələb edir.

Məktəb direktoru ilk növbədə pedaqoqdur, tərbiyəçidir. Onun biliyi, təşkilatçılıq qabiliyyəti və enerjisi təlim-tərbiyə prosesinin durmadan təkmilləşdirilməsinə, onun səmərəliliyinin yüksəldilməsinə yönəlməlidir. Təşkilati məsələlərin mahiyyəti sadəcə ondan ibarətdir ki, hər kəs



ona verilən səlahiyyətlər çərçivəsində məsuliyyət daşıyaraq öz işi ilə məşğul olsun. Bu adi gündəlik həyati qayda, idarəetmə elminin və təcrübəsinin əsasıdır. Rəhbər idarəetmə sisteminin mərkəzi fiquru – siması, işin başında duran şəxsdir. Hər hansı idarəetmə prosesində, o cümlədən məktəbin idarə olunmasında başlıca mövqe rəhbərə – direktora məxsusdur. Rəhbərin müəyyənedici rolu ondan irəli gəlir ki, ona qərar qəbul etmək səlahiyyəti verilir, o, "nə etmək, necə etmək" məsələsini müəyyənləşdirir və bunun üçün məsuliyyət daşıyır.

Digər sahələrdə olduğu kimi, təhsil sistemində də rəhbər müxtəlif, lakin qarşılıqlı surətdə bir-birini tamamlayan funksiyaları – inzibatçılıq, təşkilatçılıq, mütəxəssislik (pedaqoqluq, tərbiyəçilik), ictimai xadimlik – yerinə yetirir.

Bir təşkilatçı kimi direktor işçilərin əməyinin səmərəliliyini təmin etmək üçün müvafiq iş şəraiti yaratmalı, qarşıya qoyulan vəzifələrin işçilər tərəfindən vaxtında və tələb olunan qaydada yerinə yetirilməsi ilə bağlı məqsədyönlü və tənzimləyici tədbirlər görməli, vəzifələrin uğurla həlli üçün tələb olunan ilkin şərtləri, metodları, resursları (ehtiyatları) müəyyənləşdirməlidir.

Məktəb direktoru öz ixtisasının elmi-nəzəri və praktik əsaslarını dərindən bilən, peşəsinin ustası olan bir mütəxəssis olmalıdır. Rəhbər məsələləri düzgün, savadlı qoymağı, səriştəli təhlil etməyi, onların yerinə yetirilməsinə effektli nəzarət etməyi, işçilərə ixtisaslı tövsiyə verməyi, təlimatlandırmağı bacarmalıdır. Məktəb rəhbəri, eyni zamanda özünün bütün fəaliyyəti, insanlara münasibəti və şəxsi mənəvi keyfiyyətləri ilə bir tərbiyəçi kimi çıxış edir. Onun qəbul etdiyi qərarların ədalətliliyi, sözü ilə əməlinin vəhdəti işçilərə də, şagirdlərə də, valideynlərə də tərbiyəvi təsir göstərir. İdarəetmə, ilk növbədə, insanların idarə olunması ilə bağlı olduğundan onlara əmrin gücü ilə deyil, inandırmanın gücü ilə təsir etdikdə idarəetmə tərbiyəvi təsir göstərir. Ona görə də məktəb rəhbərləri qəbul edilən qərarların, verilən əmrlərin, sərəncamların, göstərişlərin, görülən tədbirlərin tərbiyəvi nəticələrini həmişə nəzərdə saxlamalıdır.

Menecment ortaya çıxan problemlərin sayını azaltmağa imkan verən sistemli yanaşmanı, təhsil xidmətlərinin göstərilməsində proqnozlaşdırmanı və davamlılığı nəzərdə tutur. Direktor öz məktəbində tədris proseslərinin məqsədli inkişafına rəhbərlik edir. O, demokratik dəyərləri, ədalət prinsipini, etik davranış normalarını, fasiləsiz təhsilin vəzifələrini əldə əsas tutaraq özünü böyüməkdə olan nəslin təlim-tərbiyəsinə həsr edir. Məktəb direktoru təhsil prosesinin müxtəlif iştirakçıları arasında lider, vasitəçidir. Bu özünü direktorun məktəbdə həyata keçirdiyi strateji məqsədlərdə, məktəb mədəniyyəti, ənənələri və müsbət ab-havada göstərir. Direktor məktəbdə tədrisin yüksək səviyyədə dəstəklənməsinə nəzarət edir və məktəb həyatında qarşılıqlı hörmət mühitinin yaradılmasına xidmət edir.

O, uşaqların sağlamlığı və təhlükəsizliyi, insan resurslarının idarə edilməsi, maliyyə və hesabatlılıq, ümumiyyətlə, yerli əhalinin və cəmiyyətin tələbatına dair qanunvericiliyin və dövlət siyasətinin tələbləri kimi problemlərin əhəmiyyətini başa düşməlidir. Direktor mütəmadi olaraq öz kollektivinin fəaliyyətini yoxlamalı, situasiyadan asılı olaraq məktəbin idarəetmə üslubunda lazımi dəyişikliklər etməlidir. Öz nüfuzundan, sosial bacarıqlarından istifadə etməklə o, münaqişələri daha səmərəli həll etməyə çalışmalıdır. Direktor məktəb kollektivində etimad mühiti, tədris prosesində müəllimlər və şagirdlər arasında müsbət ab-hava yaratmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan dilinin izahlı lüğəti. III c. Bakı, 2006.
2. Mehdizadə M.M., T.Ə. Allahverdiyev, Q.H. Əliyev. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. Bakı, 1980.
3. Педагогический словарь. М., 1960.

**Профессиональные навыки директоров является важным критерием в развитии школы**

***Резюме***

**Современная директор этой работы, наиболее важная часть его работы – для достижения целей стратегического плана для осуществления непрерывного инновационного процесса и является ли внести изменения. Управление в первую очередь на управлении людьми с властью заказать их не влияет на силу убеждения, когда она влияет на образовательную администрацию.**

**An important criterion in the development of professional skills of directors**

***Summary***

Modern director of that work, the most important part of his work – to achieve the goals of the strategic plan for the implementation of a continuous process of innovation and whether to make changes. Management primarily on the management of people with the power to order them is not affected by the power of persuasion when it affects the educational administration.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏSİNİN İDARƏ OLUNMASINDA SƏMƏRƏLİ TƏHSİL MODELLƏRİ

**Azadə Əhmədova,**
*Baki şəhəri 11 №-li körpələr evi-uşaq bağçasının müdiri*
E-mail:azada. ahmadova l23 @gmail.com

***Açar sözlər:*** *idarəetmənin yeni modelləri, pedaqoji texnologiyalar, pedaqoji proses, məktəbəqədər təhsil, inteqrativ təlim modeli*
***Ключевые слова:*** *новые модели управления, педагогические технологии, педагогический процесс, дошкольная образование, модель интегративного обучения*
***Key words:***, *the new management model, educational technology, educational process, early childhood education, the model of integrative laming*

Məktəbəqədər təhsilin müasir inkişaf mərhələsi onun yeniləşməsi tendensiyası ilə xarakterizə olunur, təlim prosesinin sistemi və texnologiyaları yeniləşdirilir, müasirləşdirilir. Bu da pedaqoji prosesin təşkilinə yeni ideya və yanaşmaları tətbiq edərək, uşaqların şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Təhsil sistemi, məktəbəqədər təhsil müəssisələrində konkret olaraq pedaqoji prosesdə inkişaf edir və yeni uğurlar qazanır. Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin səmərəli idarəolunması yollarının müəyyən edilməsi onun yeni məzmunun müəyyənləşdirilməsini ön plana çəkir [1,3] .

Məlumdur ki, məktəbəqədər təhsilin effektiv inkişafı o şərtlə təmin edilə bilər ki, onun tədris-təlim fəaliyyətini reallaşdıran mükəmməl pedaqoji ənənəsi olmaqla yanaşı, həm də kifayət qədər inkişaf etmiş innovasiya sistemi formalaşsın.Məktəbəqədər təhsilin inkişafı nəticəsində pedaqoji prosesin idarəedilməsində elə keyfiyyət dəyişilmələri aparılmalıdır ki, bu dəyişikliklər nəticəsində tədris-təlim prosesində daha yüksək nailiyyətlər əldə edilsin.

İstənilən sosial sistemin idarəedilməsində kollektiv idarəolunma həlledici rol oynadığından, təhsil müəssisəsində idarəetmə sisteminin əsas struktur komponenti olan pedaqoji kollektivin və onun rəhbərinin birgə fəaliyyətinin elmi əsaslarla qurulmasına böyük ehtiyac vardır. Xüsusi tədqiqatların və aparılmış təhlilin nəticələri göstərir ki, idarə olunmada təkcə pedaqoji kollektivin funksiyalarını genişləndirməklə qarşıya qoyulmuş məqsədə çatmaq olmaz. Bu problemlərin həllində pedaqoji kollektivin və rəhbərin işinin diferensiasiyasından və əlaqələndirilməsindən də istifadə etmək vacibdir.

Qeyd etmək lazımdır ki, hələ də ənənəvi metodlarla işləyən və əksəriyyət təşkil edən məktəbəqədər təhsil müəssisələrində təhsilalanların bacarıqlarının inkişaf etdirilməsinə lazımınca qayğı göstərilmir.

Məktəbəqədər təhsil müəssisələrində tələb olunan və belə çətin vəziyyətdən çıxmağın iki yolu vardır:

- təhsil müəssisəsi zamanın tələbələrinə uyğun olaraq intensiv şəkildə dəyişməli və yenidən qurulmalıdır;
- təhsil müəssisəsində mövcud olan ənənəvi təhsil sistemi tədricən təkmilləşdirilərək müasir, inovasiyalı təhsil modeli ilə əvəz olunmalıdır.

Məktəbəqədər təhsil müəssisələrinin ikinci yolla inkişafına şərait yaradılmalı və onları bu istiqamətdə yeni-yeni addımlar atmağa yönəltmək lazımdır. Təhsil müəssisəsinin yeniləşməsi və inkişafı üçün zamanın tələblərinə uyğun yeni pedaqoji sistem yaradılmalı, müasir təlim



texnologiyalarından istifadənin yeni üsulları mənimsənilməlidir. Bunu isə böyük sürətlə həyata keçirmək mümkün olmadığından, təhsil müəssisələrində innovasiya fəaliyyəti tədricən özünə həqiqi mənada yer almalı, bu sahədə mədəni səviyyə yüksəlməli, tətbiq edilən yeni modelin effektivliyi sıradan çıxarılmamalıdır.

Son illərdə təhsil müəssisələrinin idarə olunmasına dair tədqiqatçı pedaqoqlar tərəfindən yeni modellər işlənilmişdir. İnkişaf etmiş ölkələrdə təhsil müəssisəsinin idarə olunmasının və təhsilvermə (təhsilləndirmə) prosesinin, təhsil müəssisəsinin məqsədindən, onun əhatəsindən, kadr potensialından, maddi-texniki bazasından və s. asılı olaraq müxtəlif modellərdən istifadə olunur. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

- təhsil müəssisəsində idarəetmənin seqment tipli təşkili modeli;
- idarəetmənin üfüqi məsləhətvermə strukturlu xətti təşkili-modeli;
- idarəetmənin kollegial təşkili modeli;
- idarəetmənin matris tipli təşkili modeli;
- idarəetmənin modul tipli təşkili modeli;

İdarəetmənin göstərilən modelləri prof A.Mehrabovun "Azərbaycan təhsilinin müasir problemləri" monoqrafiyasında [4] və digər əsərlərində [6,8] geniş və hərtərəfli izah edilmişdir. Burada isə bu modellərin məqsəd vəvəzifələrinə dair qısa məlumatların verilməsini məqsədmüvafiq hesab etmişik. İdarəetmənin seqment tipli təşkili modeli qapalı xarakterli olub, müəllimlərin müstəqilliyinə geniş yer verməyi ön plana çəkir. Bu halda hər bir müəllimə yaxud tərbiyəciyə təlim-tədris prosesində öz metoduyla işləməyə üstünlük verilir. O, prosesin tələblərinə müvafiq təlim prosesinin təşkili formasını, dərs materiallarınınplanlaşdırılmasını sərbəst yerinə yetirir, uşaqlarla necə işləməyi, onların fəaliyyətini hansı üsullarla qiymətləndirməyi müəyyənləşdirir. İdarəetmənin bu modelində valideynlərlə əlaqələr yalnız şagirdlər vasitəsilə yaradılır və valideynlər müxtəlif inkişaf strategiyasına müdaxilə etmirlər. Təhsil müəssisəsinin rəhbəri fənn müəllimləri ilə idarəedici-təşkilatçı münasibətləri əsasında kompleks idarəedici, əlaqələndirici rolunu oynayır. Müəssisədə tədris qruplarında biliklərə yiyələnmədə, əsasən koqnitiv (idraki) üsullara üstünlük verilir.

İdarəetmənin üfüqi məsləhətvermə strukturlu xətti təşkili modelində təhsil üzrə şaquli məsləhətvermə bölmələri ilə yanaşı, üfüqi məsləhətvermə bölmələri dəfəaliyyət göstərir. Müəllimlər metodbirləşmənin işində fəal iştirak edir, fənn metodbirləşmələri isə tədris-təlim posesinin səmərəli qurulmasında məsləhətçi funksiyalarını yerinə yetirirlər. Belə tipli modeldə təhsilvermə ilə məşğul olan qurumlar, həm də idarəetmə funksiyasını yerinə yetirirlər. Bu model idarəetmənin seqmentativ təşkili modelindən, əsasən koordinasiya mexanizmi ilə fərqlənir, bu halda menecment və iyerarxiya əlaqələrinə (xidməti pillələrin bir- birilə əlaqələndirilməsinə) xüsusi diqqət verilir. Bu modeldə müəllimin müstəqilliyi saxlanılır, onun tədris fəliyyətinə müdir (müavinlər) ciddi nəzarət etmir. Rəhbərlik müəllimə yalnız müəyyən tövsiyyələr verir, onu tələb olunan tədris vasitələri ilə təmin edir, onun fəaliyyəti tədris ilində iki dəfə başqa müəllimlər tərəfindən qiymətləndirilir və sonda müvafiq qərarlar qəbul edilir. Uşaqların gələcəkdə hansı ümumtəhsil məktəblərində təhsillərini davam etdirməsi ilə bağlı düzgün məsləhətlər verilir, idarəedici orqan —► müdir —►müavinlər —► orta menecerlər—► tərbiyyəçilər kimi iyerarxiya strukturunun mahiyyəti açılır və səmərəliliyi qiymətləndirilir. Qeyd etmək lazımdır ki, bu modeldə təhsillə bağlı bütün bölmələrdə əlaqələr şaqulidir, yalnız fəaliyyətin qiymətləndirilməsində əlaqələr üfüqidir. İdarəretmənin kollegial təşkili modelində tədris-təlim prosesi ilə məşğul olan bütün bölmələr üfüqi olaraq idarəedilir. Əvvəlki idarəetmənin təşkili modellərindən fərqli olaraq tədris-təlim prosesinin təşkilinə məsuliyyət menecer işi ilə məşğul olanların üzərinə düşür, yəni məsuliyyət ümumi kollektivin olur. İdarəetmənin kollegial təşkili modelində məsləhətvermə strukturlarına daha geniş səlahiyyətlər verilir. Kollegial təşkil modelinin inkişafetdirici funksiyaları birinci və ikinci modellərə nisbətən xeyli yüksəkdir. Bu modeldə təhsil müəssisəsi tədrisi məsələlərində xarici ekspertlərlə də əməkdaşlıq edə bilir. Bu modelin zəif cəhəti kimi innovasiyaların tətbiqində çətinliklərin meydana çıxma ehtimalının böyük olmasıdır. Bu isə təklif olunan layihələrin tətbiqi zamanı mübahisələrin yaranmasına gətirib çıxardır. Lakin, bu mübahisələr rəhbərin iştirakı ilə birlikdə həll edilir, bu halda rəhbər özünü birinci şəxs kimi aparır, işini prosesin

məqsədəmüvafiq gedişinə uyğun qurur.

İdarəetmənin matris tipli təşkili modelinin tətbiqi o biri modellərdən fərqli olaraq iki əsas üzərində qurulur. Burada xüsusi təşkil olunmuş yarımbölmələrdə uşaqların tədris-təlim işinin idarə edilməsi daha da təkmilləşdirilir. İdarəetmənin matris tipli modelində təşkiletmə işləri daha da inkişaf etdirilərək yaradılmış xüsusi bölmələr ( ümumi işlər, tərbiyəçilər, maliyyəçilər və b.) idarəetməyə aid bütün işləri icra edirlər. Onlar gördükləri işləri əlaqəli, sistemli, inteqrativ formada yerinə yetirirlər. Tədris və idarəetmə bölmələri arasında əməkdaşlıq və birgə işin təşkili bu qurumlar arasında da inteqrativlik şəraitində həyata keçirilir. Bu modeldə bölmələrə müdir və onun müavinlərindən ibarət menecer komandası, idarəetmə orqanının və təhsil müəssisəsinin aparıcı bölmələrinin nümayəndələri rəhbərlik edir. Müdir iki əsas vəzifəni yerinə yetirir: təhsil müəssisəsini yeni vacib informasiyalarla təmin etmək və müəssisənin inkişaf strategiyasını reallaşdırmaq, müavinlər isə strategiyanın düzgün həyata keçirilməsinə, meydana çıxan problemlərin həllinə və inkişafın stimullaşdırılmasına məsuldurlar.

### Ədəbiyyat


1. Подласый Н.П. Педагогика (новый курс). М.: Владос, 1999.
2. Козлова С.А., Куликова Т.А. Дошкольная педагогика. М.: Издательская, 2004.
3. Həsənov A.M. Məktəbəqədər pedaqogika. Bakı: Nasir, 2000.
4. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
5. Kərimov Y.Ş. Müşahidə pedaqoji tədqiqat metodu kimi // ARTPİ-nin Elmi əsərləri, Bakı, 2006.
6. Mehrabov A.O. Təhsilin fundamentallığı: şəxsiyyət və nəticəyönümlü təhsilin qurulmasına doğru // Azərbaycan məktəbi, 2006, № 4
7. Логинова В.И., Саморикова И.Г. Дошкольная педагогика. М., 1988.
8. Mehrabov A.O. Müasir təhsilin metodoloji problemləri. Bakı: Mütərcim, 2012.



**А. Ахмедова**

**Эффективные образовательные модели в управлении дошкольными учреждениями**

*Резюме*

Уровень образования определяется политическим, социальным, экономическим, культурным развитием общества и выводит на передний план новое содержание, применение педагогических и учебных технологий, эффективных путей управления педагогическим процессом в дошкольных образовательных учреждениях. В статье исследуются психопедагогические вопросы использования новых моделей в управлении педагогическим процессом дошкольных образовательных учреждений, связи между моделями управления и обучения, анализируется роль руководителя в управлении как основной фактор, обобщаются результаты и даются соответствующие рекомендации.



**A.Ahmadova**

**Effective educational model in the management of pre-school establishments**

*Summary*

The definition of education political, social, economic and cultural development of society, brings to the fore a new content, the use of teaching and laming technology, efficient ways to manage the process of teaching in preschools. This article investigates the use psycho-new models in the management of the pedagogical process of preschool educational institutions, the relationship between the models and the student-managed education, examines the role of leader in the management as a major factor summarizes the results and provides recommendations.




# PEDAQOJİ İDARƏETMƏ MƏDƏNİYYƏTİ


**Müjkan Məmmədzadə,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*AR TPİ*
E-mail: mujkan@mail.ru



***Açar sözlər:*** *pedaqogika, tələbə, müəllim, tərbiyə, pedaqoji fəaliyyət.*
***Ключевые слова:*** *педагогика, студент, учитель, образование,управление, педагогическая деятельность*
***Keywords:*** *pedagogy, student,teacher, education,pedagogical activity*


Təhsilin əsas məqsədlərini həyata keçirmək üçün səriştəli yanaşmadan istifadə edərək şəxsiyyətdə hansı səriştələrin formalaşdırılması problemi mühüm əhəmiyyət kəsb edir. Ona görə də insanın müasir cəmiyyətdə öz yerini müəyyənləşdirmək üçün tələb olunan bacarıqları əldə edə bilməsi məsələləri önə çəkilir. Eyni zamanda müəyyən edilmiş səriştələrin tətbiqi nəticəsində bilikli, bacarıqlı, müstəqil düşüncəli, özünüidarəetmə qabiliyyətli şəxslərin yetişdirilməsi məsələləri əsas vəzifə kimi irəli sürülür. Araşdırmalar göstərir ki, ilk növbədə tələbələrin gələcək fəaliyyətində əsas rol oynayan sosial və həyati bacarıqlarla, motivasiya ilə bağlı olan səriştələrin və idarəetmə mədəniyyətinin formalaşdırılmasıdır.

Cəmiyyətin aktual problemlərindən biri gənc nəslin düzgün, məqsədyönlü istiqamələndirilməsi, onların yetkin həyata hazır olması üçün idarəetmə üzrə işin düzgün qurulmasıdır. Böyüməkdə olan gənc nəslin peşəyönümü və təhsilinin nizama salınmasında meydana çıxan problemlərin düzgün nizamlanması və təşkil olunması strateji əhəmiyyətə malik olmaqla, cəmiyyətin bütün sahələri ilə əlaqəlidir.

Müəllimin peşə keyfiyyətləri sırasına elə keyfiyyətləri daxil etmək lazımdır ki, həmin keyfiyyətlər onun usta müəllim kimi fəaliyyətinin əsas göstəricilərini əks etdirsin, onlar müəllimin həm peşə biliklərini, həm də ixtisas biliklərini (bilik, bacarıq və vərdişlərini), həm də psixoloji-pedaqoji mədəni keyfiyyətlərini özündə əks etdirə bilsin və bütövlüklə müəllim şəxsiyyətinin tamlığına səbəb olsun. Başqa sözlə desək, müəllimin pedaqoji ustalığını təmin edə bilən və əsl müəllim olmaq üçün lazım olan bütün keyfiyyətləri, xüsusiyyətləri özündə cəmləşdirə bilən keyfiyyətlər kimi təzahür etsin.

Gələcək müəllimin mədəni keyfiyyətlərinin formalaşdırılmasının başlıca istiqamətləri üzrə sistemli və məzmunlu işin aparılması tələbələrin peşə hazırlığında xüsusi yer tutur. Pedaqoji kadr hazırlığının əsas tərkib hissələrindən birini təşkil edən bu məsələ tədrisin birinci ilindən başlayaraq diplom alana kimi davam etdirilməlidir. Bu baxımdan müəllimin mədəni keyfiyyətlərinin formalaşdırılmasının başlıca istiqamətləri üzrə ayrı-ayrı keyfiyyətlərin məzmununu nəzərdən keçirək.

Müəllimin ümumi mədəni keyfiyyətlərində yüksək mənəvi və əxlaqi keyfiyyətlər üstünlük təşkil etməlidir. Müəllim təmizlik və paklıq rəmzidir. Buna görə də gələcək müəllimlərin peşə hazırlığında onların yüksək milli və bəşəri əxlaqi keyfiyyətlərə yiyələnmələrinə də ciddi fikir vermək lazımdır. Tələbələrə müvafiq auditoriya məşğələlərində (məsələn, pedaqogika, psixologiya, etika və s. fənlərin uyğun mövzularının tədrisində) və auditoriyadan kənar tədbirlərin keçirilməsində doğru danışmağın, düzgün hərəkət etməyin və bunların bir-birinə uyğun gəlməsinə nail olmağın müəllim üçün həlledici əhəmiyyət daşıması başa salınmalı və onlarda bu keyfiyyətlərin tərbiyə edilməsinə nail olunmalıdır.

Pedaqoji prosesdə müvəffəqiyyətin əsasında uşaqlara sevginin və məhəbbətin, bunlarla yanaşı, hörmət və tələbkarlığın dayanmasını tələbələrə aşılamaq mühüm əhəmiyyət daşıyır. Tələbələrə anlatmaq lazımdır ki, tələbkarlığı azaltmadan uşaqlara hörmət etmək, mehribanlıq göstərmək onların sadə uşaq qəlbində müəllimi ucaldır və özünə qarşı hörmət və məhəbbəti artırır.

Tələbələr bu keyfiyyətlərin müəllim adı ilə yanaşı olduğunu anlamlıdırlar. Bu baxımdan, aşağıdakı mərhələləri vacib hesab edir və bu mərhələlər üzrə tələblərdə bir sıra keyfiyyətlərin formalaşdırılmasını zəruri hesab edirik:

- tələbələrin yüksək mənəvi keyfiyyətlər haqqında təsəvvürlərini genişləndirmək, onların mənəvi şüurunun formalaşdırılması;
- müəllimin mənəvi keyfiyyətlər üzrə toplanmış biliklər və təcrübə əsasında onların mənəvi əqidəsini formalaşdırması;
- mənimsədikləri mənəvi keyfiyyətləri, mənəvi şüuru və əqidələri əsasında tələblərin mənəvi davranış normalarına əməl etmələrinə nail olunması.

Müəllim yüksək mənəvi və əxlaqi keyfiyyətlərlə bərabər ümumi mədəniyyətə də malik olmalıdır. Ümumi mədəniyyət olmadan tələbələrdə pedaqoji mədəniyyəti formalaşdırmaq qeyri-mümkündür. Çünki müəllim özü böyük mədəniyyət sahibi olmalı və yüksək mədəniyyəti ilə seçilməlidir.

Eyni zamanda tələbələrə ümumi mədəniyyətə yiyələnməli olduqlarını da çatdırmaq və onlarda buna tələbat yaradılmalıdır.

Bunlara aşağıdakılar aiddir:
- cəmiyyətin müəyyənləşdirdiyi əxlaqi-etik normalara yiyələnmək;
- ziyalılıq keyfiyyətlərinə malik olmaq;
- ağıl, ünsiyyət, hörmət və tələbkarlığın vəhdətinə nail olmaq;
- yüksək dünyagörüşünə malik olmaq, hadisə və prosesləri dialektik qiymətləndirməyi və təhlil etməyi bacarmaq;
- milli və ümumbəşəri mədəniyyətə yiyələnmək və s.

Ümumi mədəniyyət daha geniş məfhum kimi peşə mədəniyyətini də özündə birləşdirir. Həm də ümumi mədəniyyət peşə mədəniyyəti ilə məhdudlaşdırmaq olmaz. Bura peşə mədəniyyətindən daha geniş olan elə mədəni keyfiyyətlər daxildir ki, bunlar bilavasitə insanlığı, vətəndaşlığı xarakterizə edir. Bu baxımdan ali məktəblərdə gələcək müəllimlərlə bu istiqamətdə aparılan işlərə geniş yer verilməli və yüksək mədəniyyətli, mədəni keyfiyyətlərə malik mütəxəssislər formalaşdırılmasına nail olunmalıdır.

Fikrimizcə, peşə fəaliyyəti prosesində fəaliyyətin bu mərhələlər üzrə reallaşdırılması mənəvi və əxlaqi keyfiyyətlərin tələblərdə gündəlik davranış normalarına çevrilməsinə səbəb olur.

### Ədəbiyyat


1. A.N. Abbasov. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərslik. Bakı: Mütərcim, 2013.
2. Təhsil müəssisələrində tərbiyə işinin təşkilinin nəzəri və praktik problemləri. Bakı: Mütərcim, 2011.


**М. Мамедзаде**

**Культура педагогического управления**


*Резюме*

Творческая самореализация студентов, совершенное овладение своей специальностью требуют постоянного внимания развитию профессиональной компетенции. Студент со сформированной культурой управления начинает оценивать навыки и интерес к выбранной профессии. Формирование педагогической культуры у будущих учителей это важная педагогическая проблема, являющаяся составной частью подготовки кадров.


**M. Mammadzada**

**Teaching management culture**


*Summary*

The creative self-realization of students, the mastering of specialities demand the permanent attentiveness to the development of competencies. Once obtained the managerial culture, the student starts to evaluate his skills and interest towards the choosen profession. The building up the pedagogical culture of future teachers is the essential pedagogical problem, one of the main integral parts of the staff training.




## TƏHSİLİN KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİNDƏ ÖZÜNÜAUDİTİN ROLU


**İlhamə Əsədova,**
*ARTPİ- nin elmi işçisi*
E-mail: ashadova@inbox.ru



***Açar sözlər:*** *monitorinq, pedaqoji kadr, kollegial, səmərəli fəaliyyət, qiymətləndirmə, təhsil sferası, şəxsi keyfiyyət, cari planlaşdırma*

***Ключевые слова:*** *мониторинг, педагогические кадры, оценка, сфера образования, личные качества, текущее планирование*

***Key words:*** *monitorinq, pedagogical staff, collegial, effective work, assessment, dynamic, education sector, personal qualities, this planning*


Təhsil sisteminin əsas istiqamətlərindən biri ümumtəhsil məktəblərində yüksək nəticələrin əldə edilməsinə xidmət edən məktəbin idarəetmə xidmətinin günün tələbləri səviyyəsində təşkilidir. Təhsilin keyfiyyəti idarəetmə obyektidir. Yanlış haldır ki, ümumtəhsil məktəblərin keyfiyyətindən söz düşərkən ali məktəblərin qəbul göstəriciləri fakt kimi göstərilir. Ümumtəhsil məktəblərinin qarşısındakı məqsədi ancaq ali məktəbə abituriyent hazırlığı ilə yekunlaşdırmaq birtərəfli mövqe olub, tərbiyə, şəxsiyyətyönümlülük məsələlərini kölgədə qoyur. Unutmaq olmaz ki, ümumi təhsil – nəzəri və təcrübi fəaliyyət vasitəsilə şəxsiyyətin formalaşmasına, onun intellektual, sosial və fiziki inkişafına, təhsilini davam etdirməsinə, əmək fəaliyyətinə başlaması üçün zəmin yaradılmasına yönəlmiş məqsədəuyğun prosesdir.

Ümumtəhsil məktəblərində idarəetmənin təşkili dedikdə, rəhbərliyin məktəb daxilində həyata keçirməli olduğu sahələri nəzərdə tutulur. Məktəb direktoru ilk növbədə təşkilati işi formalaşdırmağı bacarmalıdır. Bu məqsədilə müəllimləri, şagird və valideyn kollektivini və ayrı-ayrı şagirdləri idarəetməyə cəlb etmək, həmçinin tərbiyə, tədris, təlimati – metodik təşkilatçılıq və təsərrüfatçılıq fəaliyyətinə diqqət yetirilir. Təşkilatçılıq işi: məktəbin kadrların seçilib yerləşdirilməsi; pedaqoji kollektiv arasında təlim-tərbiyə və ictimai tapşırıqların dəqiqləşdirilməsi; özfəaliyyət orqanları və şagirdlərin yaradıcı birliklərinin işinin təşkili; pedaqoji kadrların yüksək işgüzarlığını təmin etmək üçün şəraitin yaradılması; optimal rejimin təmin olunması; ümumməktəb kollektivinin dəqiq və mürəkkəb iş rejiminin qaydaya salınması; işçilərin hüquq və vəzifələrinin müəyyənləşdirilməsi kimi aktual məsələləri əhatə edir. Qarşıya qoyulan məqsədlərin həlli, keyfiyyətli təhsilin təşkilinə zəmin yaradır, məktəbin idarə olunmasında əsas məsələlərdən biri olan özünüauditin düzgün təşkilini ön plana çəkir.

Özünüaudit real vəziyyətin öyrənilməsinə və dövlət standartlarının əsas götürməklə məktəbin fəaliyyət planının hazırlanmasına xidmət edən **diaqnostik**, vəzifə bölgüsünə uyğun olaraq sahələr üzrə planlaşdırılan məsələlərin həyata keçirilməsinə nəzarət xarakterli yol verilən nöqsanların vaxtında aradan qaldırılmasına xidmət edən **cari** və qoyulan məqsədlə son nəticə arasında uyğunluğu aşkara çıxaran özünüqiymətləndirmə, keyfiyyətin göstəricisi olan yekun auditdir.

Keyfiyyət, qısaca, gözləmələri aşmaq, davamlı inkişafın bir ifadəsi, dinamik bir anlayışdır. Təhsildə keyfiyyət – öyrənənərə verilən bilik, bacarıq və dəyərlərin müvafiq dövlət standartlarına və cəmiyyətin tələbatına uyğunluğu kimi başa düşülür. Təhsilin keyfiyyətinin idarə olunması sistemi **keyfiyyət, fəaliyyətin səmərəliliyi** və **monitorinq** kimi üç anlayışın vəhdətini təşkil edir. Keyfiyyət fəaliyyətin xarakteristikasıdır, səmərəliliyin qiymətləndirilməsi keyfiyyətin müəyyən edilmə üsuludur, monitorinq isə bu üsulun reallaşdırılması mexanizmidir.

Özünüaudit bir tərəfdən məktəb rəhbərliyinin müəllimlərin iş səriştəliyinin müəyyən olunması və obyektiv qiymətləndirilməsi, onların hansı istiqamətdə əlavə təhsilə olan ehtiyaclarının öyrənilməsi baxımından əhəmiyyətlidir. Digər tərəfdən, müəllimləri öz üzərində işləməyə sövq edir, müəllimlər arasında rəqabət yaradır.

Ümumtəhsil məktəblərinin idarəolunmasında özünüaudit işinidən istifadənin optimallaşdırılması günün tələbidir. *Optimallaşdırma* (latınca optimus sözündən götürülüb, mənası "ən yaxşı" deməkdir) ümumi mənada bir çox növ mümkün şərtlərdən, vasitələrdən, istiqamətlərdən və

s. ən yaxşısının, səmərəlisinin, ən əlverişli olanının seçilməsidir. Pedaqoji fəaliyyətdə optimallaşdırma elə mexanizmin seçimini tələb edir ki, müəllimin gücü və təhsil alanların şəraitə uyğun olaraq az vaxt sərf edərək ən yaxşı nəticələr əldə etməsini təmin etsin. Təlim prosesini optimallaşdırma iki yolla həyata keçirilir: a) intensiv və ekstensiv yol. **İntensiv yol** təlim prosesinin daxili ehtiyatlarını işə salmaqla bağlıdır. **Ekstensiv yol** təlim prosesinə əlavə qüvvə, vaxt və vəsait cəlb olunmasını nəzərdə tutur.

Real vəziyyətin yaxşılaşdırılması üçün reallaşdırılması vacib olan vəzifələr çoxdur. Təhsildə mərkəzi və yerli idarəetmə orqanları arasında hesabatvermə məsələlərinin araşdırılması və onların təkmilləşdirilməsi yolları diqqət mərkəzində dayanmalıdır.

**Ədəbiyyat**


1. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
2. Süleymanova A. Təhsilin əsasları. Bakı: Təhsil, 2014.
3. Məmmədzadə R. Təhsildə keyfiyyət apacı istiqamətlərdən biri kimi. Bakı, 2010
4. https://uz.wikipedia.org/wiki/Audit



**И. Асадова**


**Роль самоаудита в управлении качеством образования**


***Резюме***

В статье дается краткая информация о цели и задачах самоаудита, подчеркивается важность его использования при управлении общеобразовательными школами.



**I. Asadova**


**Role selfaudit in management of quality education**


***Summary***

The quality in education at the level of the time requirements in the organization about the role of the school that serves management service is özünüauditin tezsdə. The quality of education in management of quality, efficiency and monitoring concepts, their unity is named as the three. Özünüauditin spoke about the aims and objectives of the operation, ümumtəsil özünüaudit işinidən optimal-laşdırılmasının highlights the importance of control of the schools.


## MÜASİR TƏLƏBLƏR SƏVİYYƏSİNDƏ MƏKTƏBƏ RƏHBƏRLİK


**Aytən Güldost,**
*ADPU*
E-mail:elmi hisse.08@mail.ru



***Açar sözlər:*** *Təhsil, mənəvi, psixoloji, mühit, məktəb, şagird, demokratik*
***Ключевые слова:*** *Образование, духовная, психологическая, экологическая, школа, студент, демократический*
***Keywords:*** *Educational, spiritual, psychological, environmental, school, student, democratic*


Məktəbin idarə edilməsi, bütün dövrlərdə müxtəlif xalqların diqqət mərkəzində olmuşdur. Məktəb rəhbəri şagirdləri, valideynləri, pedaqoji kollektivi idarə edir. Bunun üçün o, pedaqoq və təşkilatçı olmalı, yüksək idarəçilik qabiliyyətinə, intellektə malik olmalı, hüquq və iqtisadi bilikləri dərindən mənimsəməlidir. O, öz kollektivində müəllim rolunun qayğısına qalmalı, pedaqoqların ixtisasının artırılmasına və yaradıcılıq qabiliyyətlərinin üzə çıxmasına şərait yaratmalıdır. İstənilən idarəçiyə, idarə fəaliyyətinin müvəffəqiyyətini təmin edəcək xüsusi keyfiyyətlərə malik olmaq lazımdır .

Müasir məktəb direktoru, hər şeydən əvvəl öz ixtisasına mükəmməl yiyələnmiş usta müəllim, məktəb işinin ən incə cəhətlərini bilən, ən azı 5 il pedaqoji iş stajına malik olmalı, pedaqoji kollektivi qarşıda duran təlim-tərbiyə vəzifələrinin həllinə doğru istiqamətləndirməyi bacaran təşkilatçı və yüksək səviyyəli rəhbər olmalıdır O, təkcə rəhbərlik etdiyi kollektivdə, işlədiyi rayonda və ya şəhərdə deyil, eyni zamanda özünün nümunəvi işinə görə rayonun hüdudlarından kənarda da tanınmalıdır. Belə məktəb direktoru pedaqoji işə rəhbərlikdə demokratik rəhbərlik üslubuna daim əməl etməlidir. Demokratik rəhbərlik üslubu dedikdə, rəhbər pedaqoji kollektivlə məsləhətləşir, həmkarlarının fikirlərinə qulaq asır, öz üstünlüyünü büruzə vermir və tənqidə dözümlə yanaşır, öz qərarlarının nəticələrinə və icraçıların səhvlərinə görə məsuliyyətdən qaçmır və işçilərin imkanlarına, onların intellektual və peşəkar potensialına arxalanır.

Rəhbərin peşəkar bacarığına – bu gün hər zamankından daha çox inzibati, diaqnostika və tədqiqat keyfiyyəti daxildir. İdarəçinin əsas şəxsi keyfiyyətlərindən biri özünəəminlikdir. O, hər şeyi bilir, bacarır. Əgər bilmirsə, onda çıxış yolunu tapmalıdır. Özünə güvənən rəhbər tabe olan üçün nəyi bildirir? Hər şeydən əvvəl belə idarəçiyə, çətin vəziyyətdə etibar etmək olar, onun yanında sabahkı gün haqqında düşünmək daha asandır, o, müəyyən psixoloji rahatlığı verir, işə motivasiyanı təmin edir və yüksəldir.

Müasir rəhbər – öz üzərində peşəkar və şəxsi keyfiyyətlər üstündə daim işləyən şəxsiyyətdir. Menecer bir neçə ilə öz təşkilatının perspektivini, sosial şəraitə və resurslara əsaslanaraq qabaqcadan görən strateq və əmr etməməyə çalışan liderdir .

Beləliklə, müasir təhsil meneceri yuxarıda göstərilən insani keyfiyyətlərlə yanaşı, menecer – liderin növbəti xüsusiyyətlərinə malik olmalıdır :

1) İstənilən işçi əlçatandır, problemlərin müzakirəsində səsinin tonu həmişə xeyirxahdır;
2) çətin vaxtda günahkarı tapmağa çalışmır və nasazlıqların səbəbinin axtarır;
3) göstəriş vermir, əmr etmir, lakin ciddi nəzarəti etibarla əvəz edir və inandırır;
4) vahid komanda ilə işin kollektiv formalarını inkişaf etdirməyə çalışır;
5) kollektivdə yaxşı psixoloji iqlim formalaşdırır, başqalarının sıxışdırılmasının (təhqirin ) hesabına digər işçilərin maraqlarını təmin etmir;
6) bütün kollektivi problemlərin həllində səfərbər edir , heç kim kollektivdən kənarda qalmır;
7) dəyişiklikləri təqlid etmir və işdə müsbət dəyişiklikləri həyata keçirməyə çalışır.

Menecer – lider eyni zamanda:

a) Konstruktivdir – yalnız çatışmazlıqların səbəblərini açmır , həm də ən rasional yolları , onların aradan qaldırılması üsullarını tapır və işin keyfiyyətini yaxşılaşdıra bilir;
b) dominantdır – əsas olanı seçir və xırda şeylərdə batmır;
c) mobildir – müxtəlif xüsusiyyətləri (yeri, vaxtı, şəraiti ) nəzərə alaraq, yeni sahədə əldə edilmiş bilikləri nəzərdən keçirir;
ç) metodistdir – ardıcıllıqla, məqsəddən yayınmadan, idarə və psixoloji- pedaqoji vəziyyətləri dərk edir;

Qərarların qəbul edilməsi və idarə funksiyalarının icra edilməsi zamanı kollektivi idarəetmənin aşağıdakı prinsiplərini misal göstərmək olar :

Deməli, idarəetmənin uğuru məktəbdaxili informasiya sisteminin mövcudluğundan asılıdır. Hər bir təhsil meneceri insanlar haqqında" məcburi minimum informasiyaya " malik olmalıdır. Koordinasiya – idarə fəaliyyətinin əsas məsələsidir .

Yuxarıda qeyd olunanlara əsaslanaraq nəticə çıxarmaq olar ki, yaxşı rəhbər sərəncamlar verən , hüquqi normativ – aktları yaxşı bilən təşkilatçı deyil. O, həm də əməyə maksimal sədaqətlə bağlı olan pedaqoji kollektivə ilham verən liderdir .

**Ədəbiyyat**


1. "Təhsil haqqında " Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
2. R.Məmmədzadə. İdarəetmə mədəniyyəti. Bakı, 1999.
3. R.Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: Müəllim, 2010.
4. http://otvet.mail.ru/question
5. http://ext.spb.ru/management-educational- institution/.html
6. http://vizitka-svetlana.blogspot. Html

А.Гюльдост

**Руководство школой на уровне современных требований**

*Резюме*

Профессионализм и компетентность тесно взаимосвязаны. В статье раскрываются основные особенности педагогического профессионализма и характерные аспекты компетентности учителя.

A.Guldost

**School education led to modern standards in azerbaijan**

*Summary*

In this article, main features of pedagogic professionalism and distinctive characteristics of teacher competence are introduced.





## МНЕМОНИЧЕСКОЕ ЗАПОМИНАНИЕ УЧЕБНОГО МАТЕРИАЛА КАК ОДИН ИЗ ПРИЁМОВ ПОВЫШЕНИЯ ИНТЕРЕСА УЧАЩИХСЯ К ХИМИИ

**Абель Магеррамов,**
*академик,*
**Насим Абышов,**
*доктор философии по педагогике*
E-mail: nasimabishov@gmail,com
**Ильгар Тагиев,**
*доктор философии по педагогике*
E-mail: tibo1@rambler.ru

***Ключевые слова:** химия, познавательный интерес, методы, учащиеся, связь с жизнью, мнемоника.*
***Açar sözləri:** kimya, fənnə maraq, metodlar, şagirdlər, həyat ilə əlaqə, mnemonika.*
***Keywords:** chemistry, learning interest, methods, students, connection to life, mnemonika.*

*Ученик, который учится без желания, – это птица без крыльев.*
**Саиди**

Из всех предметов, которые изучаются в школе, яркие воспоминания остаются только от химии. Химия – одна из самых привлекательных и чудесных наук. Можно с уверенностью считать, что химия единственный предмет, который учащиеся ждут с нетерпением. В своей книги преподаватель химии из Александрии, штат Виргиния Ян Гач так пишет: " Не бойтесь химии. Хотя она кажется трудным предметом, на самом деле это не так. К сожалению, изучение основ химии подобно попыткам читать стихи на французском языке, если вы говорите только по-английски. Хотя и встречаются более-менее знакомые слова, они никак не складываются во что-либо понятное нормальному человеку [1]". В своих работах Я. Гач использовал знание химии для того, чтобы обучать, просвещать, а самое главное неправильными и ненаучными, упрощёнными способами предлагать учебный материал учащимся и тем самым привить интерес к предмету.

Когда ребята сталкиваются с этим предметом в учебном процессе, интерес к химии пропадает. К причинам такого резкого падения интереса к предмету можно отнести следующее:

–монотонное объяснение учебного материала;
–однообразные химические эксперименты;
–сложные формы подачи урока;
–неверный выбор методов, приёмов, средств обучения и др.

В нашем случае, если речь идёт о предмете химии, то можно добавить к выше сказанным – сложные названия веществ и множество формул. Все эти недостатки приводят к низкой мотивации к изучению предмета. Между тем надо отметить, что в современных условиях развития общества знание химии является очень важным. Химия окружает нас с бесчисленными полезными и вредными веществами, с которыми мы имеем дело. Поэтому химия как наука нужна всем: строителю, повару, шоферу, садоводу, врачу. Сбылись пророческие слова великого русского учёного М.В.Ломоносова: "Широко распростирает химия руки свои в дела человеческие... Куда не посмотрим, куда не оглянемся, везде

обращаются пред очами нашими успехи ее прилежания".

Важная и значимая роль в организации учебного процесса отводится учителю. Каждый учитель желает, чтобы интерес к его предмету не уменьшался, а, наоборот, не только вызывал и усиливал этот интерес, но и помог бы понять сущность химического процесса, происходящего вокруг нас. Учитель должен организовать все необходимые условия, чтобы учащийся превратился от пассивного слушателя в активного соучастника учебного процесса. Для этого необходимо использовать на уроках объяснения учебного материала комплексные приёмы, направленные на развитие воображения, мышления и памяти. Каждый из этих типов развития в сознании формируется по-своему. Например, основной приём формирования воображения при изучении химии – образное представление не существующего химического объекта, удерживаемого в сознании, которым возможно мысленно манипулировать.

Для развития памяти в процессе обучения требуется реализации следующих приёмов запоминания[2]:

1. *Осмысленное запоминание* – система приемов, основанная на осмысленном восприятии, образном представлении и ассоциировании с известными фактами, понятиями из учебного материала.

2. *Эмоциональное запоминание* – использование интересного и необычного учебного материала, способного вызвать яркую эмоциональную реакцию учащихся. Например, на уроках химии для запоминания учебного материала можно использовать стихотворные приёмы:

- правило для безопасности: *"Сначала вода, Потом кислота,*
*Иначе случится Большая беда"*.

3. *Установление связей* между запоминаемым объектом и конкретными символами, буквами, графическими изображениями, используя при этом опорные конспекты, памятки и схемы.

4. *Запоминание путём повторения информации* – регулярное повторение учебного материала позволяет с помощью органов чувств воспринять и сохранять его в сознании.

5. *Запоминание без записей* – не прибегая к записям разного рода информации, воспроизвести её устно, что способствует развитию речи учащихся. Например, в химии факты, имена выдающихся химиков, химические термины, названия и т.п.

Среди всех методов, приёмов и средств повышения познавательного интереса к предмету можно выделить *мнемонический подход*, способствующий развитию памяти и к запоминанию.

*Мнемоника* (греч. Mnemonika – искусство запоминания)-система различных приёмов, облегчающих запоминание и увеличивающих объём памяти путём образования искусственных ассоциации [3]. Этот приём обучения любого предмета предлагает свои способы запоминания с помощью ассоциаций, что вызывает эмоциональную реакцию учащихся и образную память. Система мнемонических приёмов были у древних египтян, греков, римлян. В средние века мнемоника не разрабатывалась. Её возрождение началось в 16в., и она получила большое развитие в 17-19вв. В современной науке интерес к мнемонике утрачен, но в последние годы в связи с большим объёмом информации и сложности в учебных материалах, целесообразно использовать мнемонические правила как один из приёмов обучения, способствующий повышению интереса к предмету.

Таким образом, уже в давности учёные осознавали, что любая деятельность человека связана с памятью. Не случайно в греческой мифологии существует богиня памяти – *Мнемозина* – автором этого слова является Пифагор Самосский. Наши движения, впечатления, переживания, знания не исчезают бесследно, а сохраняются в памяти, которая является связью между прошлым и будущим. Чтобы память функционировала и развивалась, необходимо чаще её использовать, что поможет человеку добиваться успехов в учёбе и в работе.

Рассмотрим примеры мнемонических приёмов для запоминания некоторых законов,



правил, понятий и формул предметов, изучаемых в школе[4, 5]:

• *русский язык и литература:*

- В каком году родились Пушкин, Лермонтов, Гоголь?

Пушкин родился в 1799 году, за один год до начала 19 века. Гоголь на 10 лет моложе Пушкина – родился в 1809 году, а Лермонтов родился в 1814 году – на 5 лет моложе Гоголя.

- последовательность падежей в русском языке:

*Ирина* (именительный), **Родила**(родительный), **Девчонку**(дательный), **Велела** (винительный),**Тащить**(творительный),**Пелёнку**(предложный).

• **математика:**Биссектриса -это крыса, которая бегает по углам и делит их пополам.

• **физика:** – основные цвета в спектре, расположенные в порядке убывания:

**"Каждый Охотник Желает Знать, Где Сидит Фазан".**

**красный, оранжевый, жёлтый, зелёный, голубой, синий, фиолетовый**

**"Как Однажды Жак Звонарь, Головой Свалил Фонарь".**

В современных условиях обучения учащимся легче запомнить:

**"Каждый Оформитель Желает Знать, Где Скачать Фотошоп".**

- Закон Кулона:

Используя мнемонический прием можно этот закон запомнить – **о чем поёт петух**: F

= , эту формулу физики называют – **КУ-КА-РЕ-КУ**, где $q_1$- КУ , k- КА , εr – РЕ, $q_2$ – КУ.

• *химия:*

*- как запомнить названия алканов?*

*Милый* – метан

*Этичный* – этан

*Практичный* – пропан

*Барашек* – бутан

*Пасётся* – пентан

*в горах* – гексан

Гималаях – гептан

Один – октан

*это Нонсенс* – нонан

*- для запоминания условий прохождения химических реакций:*

Говорят, если реакция свершается, то при этом **осадок** получается

Или **газ** выделяется, или **запах** появляется, или **вещество** нагревается, То есть органами чувств реакция определяется.

Примеры можно продолжить, но хотелось бы показать реализацию мнемонических приёмов при объяснении учебного материала на уроках химии из личного опыта преподавания:

***1. Тема урока: "Простые и сложные вещества".***

Учитель даёт формулировку понятию "простые вещества": Вещества, состоящие из атомов одного и того же элемента, называют простыми. Например, все элементы Периодической системы являются простыми. Затем учитель обращает внимание учащихся на то, что в настоящее время известно 117 химических элементов, то есть простых веществ, но в природе их число достигло свыше 400. В чём причина? На этот вопрос можно ответить, ознакомившись с понятием **аллотропия** – способность некоторых химических элементов существовать в виде двух или нескольких простых веществ, отличающихся друг от друга строением и свойствами.

Учитель предлагает учащимся мнемоническое запоминание основных элементов, которые образуют аллотропные модификации в следующей последовательности:

углерод | **C** | алмаз, графит, карбин и фуллерен;

| | | | |
|---|---|---|---|
| кислород | O | кислород $O_2$ и озон $O_3$ |
| фосфор | P | белый, красный и чёрный |
| сера | S | кристаллическая и пластическая |

Таким образом, образуется английское слово – **"COPS"**(так называют полицию США), и учащимся легче запомнить, так как они насмотрелись фильмов о них.

2. *Тема урока*: Определение ионов железа(+2) и (+3).

Для распознавания соединений железа (II) и (III) проводят качественные реакции на их ионы. Среди них можно выделить реакции определения ионов железа, используя особую группу солей, которые называются комплексными. Особенностью этих соединений является то, что они имеют одинаковый качественный состав и отличаются друг от друга количественным атомным составом калия, что вызывает сложности их запоминания. Используя мнемоническое правило, можно упростить процесс запоминания комплексных солей для определения ионов железа (+2) и (+3).

Реактивом на ионы $Fe^{+3}$ является комплексное соединение $K_4[Fe^{+2}(CN)_6]$ – гексацианоферрат(II)калия или желтая кровяная соль (Ж.К.С), в результате этой реакций образуется синий осадок ("берлинская лазурь").

Реактивом же на ионы $Fe^{+2}$ является комплексная соль$K_3[Fe^{+3}(CN)_6]$ – гексацианоферрат(III)калия или красная кровяная соль (К.К.С), в результате этой реакций также выпадает осадок синего цвета (турнбулёва) синь.

Как же запомнить названия этих соединений, и соответствующий им атомный состав калия? Надо отметить, что учитель использует приёмы запоминания, не подозревая, что они являются мнемоническими, и в нашем случае приём получился экспромтом.

Итак, вашему вниманию предлагаем следующий приём запоминания названия комплексных солей железа(II) и (III), используемые для определения ионов железа (+2) и (+3):

Первый реактив – $K_4[Fe^{+2}(CN)_6]$, желтая кровяная соль (Ж.К.С.), **II.**
Второй реактив – $K_3[Fe^{+3}(CN)_6]$, красная кровяная соль (К.К.С.), **III.**

Используя мнемоническое правило, выделяем в названиях комплексных соединений первые буквы и соответствующие им валентности: в первом соединении эта буква **Ж и II,** а во-втором **К** и **III.** Последовательность букв в алфавите и чисел поможет ребятам легче запомнить названия соединений, соответствующих формуле.

Таким образом, использование мнемонических приёмов в учебном процессе способствует:

- повышению и развитию познавательного интереса учащихся к уроку, и в целом к предмету;
- установлению связи между объектами, хорошо известными учащимся, и запоминаемым;
- развитию памяти, активизации мышления и обеспечивает системность, сознательность усвоения знаний, в результате повышается успеваемость.

Конечно, же, используя мнемонические приемы, мы не решаем всех проблем, которые возникают при обучении, но она явна, помогает отчасти их решать.

**Литература**


1. Ян Гач. Химия. М.: АСТ. Астрель, 2007.
2. Современные технологии в процессе преподавания химии. С.В.Дендебер, О.В. Ключикова. М., 2007.
3. Большой Советский Энциклопедический словарь.
4. http: //ru.wikipedia. org / wiki / мнемоника
5. http: // nashol. com / tag / mnemotehnika /





**A.M.Məhərrəmov, N.Ə.Abışov, İ.B.Tağıyev**

**Şagirdlərin kimya fənninə marağını artırmaq üçün materialın mnemonic yadda saxlanması tədris üsullardan biridir**

***Xülasə***

Məqalədə müəlliflər kimya fənninə marağı artırmaq üçün mnemonik qaydalardan istifadəsinin əhəmiyyəti və vacibliyini göstərilər. Müəllimlərə tövsiyə olunur ki, kimyanın tədrisi prosesində dərs materialının izahatında müxtəlif bu qaydalardan istifadə etsinlər.

**A.M.Maharramov, N.A.Abıshov, İ.B.Taqiyev**

**Mnemonic memorization of training material as one of the methods of improving students' interest in chemistry**

***Summary***

The article authors show importance and meaningfulness the use of mnemonic rules in the increase of interest to the subject chemistry. İt is offered to the teachers in the chemical process of teaching in explanation of educational material to use these rules.


# TƏHSİLDƏ İNTERNETDƏN İSTİFADƏYƏ MÜASİR YANAŞMALAR


**Yaqub Məmmədov,**
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*
E-mail: yagubmammadov@yahoo.com
**Səminə Rüstəmova,**
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: samina_rustamova@mail.ru



***Açar sözlər:*** *şəbəkə, resurs, təhsil, kompüter, informasiya*
***Ключевые слова:*** *сеть, ресурс, образование, компьютер, информация*
***Key words:*** *network, resource, education, computer, information*


Müasir pedaqoji praktikada elektron təlim vasitələrinin tətbiqi təhsil sisteminin inkişaf etdirilməsində aparıcı rollardan birini daşıyır. Bu baxımdan, qabaqcıl təlim-texnoloji komplekslərdən, xüsusi olaraq internet texnologiyalarının təhsil imkanlarından təlim prosesində istifadə olunması, təhsilin keyfiyyətinin yüksəldilməsində mühüm amildir. İnternet texnologiyalarının təlim prosesində tətbiqinin didaktik-metodoloji və metodik əsaslarının tədqiq edilməsi, elektron tədris sistemlərinin effektivliyinin artırılması, nəticə etibarilə təhsilin keyfiyyətinin yüksəldilməsi baxımından xüsusi aktuallıq kəsb edir.

Hər kəsə məlumdur ki, XXI əsrdə informasiya-kommunikasiya texnologiyaları sahəsi ən geniş yayılmış sahələrdən biridir. Müasir dünyada insanların ən yaxın dostu olan kompüter texnologiyası, o cümlədən internetin insanlara təsiri ilə bərabər təhsilə də təsiri danılmazdır. İnformasiya-kommunikasiya texnologiyası təhsil sahəsində istifadə edilməyə başladıqdan sonra bir sıra yeni metodlar ortaya çıxmış və dərslərin tədrisinə müsbət təsir etmişdir.

İnformasiya-telekommunikasiya texnologiyalarının inkişafının müasir mərhələsində, peşəkarlığa tələbat artmışdır. Müasir müəllim, internetdə lazımi məlumatı axtarmaq, informasiya mübadiləsi üçün elektron poçtdan istifadə etmək, informasiya şəbəkələrini bilmək kimi vərdişlərə malik olmalıdır. Gələcək müəllimlərin ümumi pedaqoji mədəniyyətinin bir hissəsi də informasiya mədəniyyətidir. Gələcək müəllimlər gündəlik peşəkar fəaliyyətləri ilə əlaqədar olaraq internet texnologiyalarından istifadə etməlidirlər ki, müxtəlif məktəblərdəki həmkarları ilə peşəkar informasiya mübadiləsində olsunlar, öz sahələrinə aid bilik və məlumatlar əldə etsinlər, əldə edilən məlumatları təhlil etsinlər.

Dünyada kompüter şəbəkələrindən, internetdən istifadəyə müasir yanaşmalar təhsil prosesində on-line dərslərin, virtual siniflərin təşkilini, məktəblər arasında telekonfransların, diskussiyaların

yaradılmasını tələb edir. İnternet texnologiyalarından istifadə, istifadəçiləri müasir telekommunikasiyanın bütün resursları ilə təmin edərək, bugünkü istifadəçilər üçün proqram, proqram vasitələri və sistemləri ilə təlimlər təşkil etməyə imkan verir. Bu baxımdan, tədrisin inkişafı istiqamətində perspektivli araşdırma aparmaq və təhsil sahəsində davamlı qlobal informasiya mühitinin yaratmaq və inkişaf etdirmək lazımdır.

İnternet ictimaiyyət üçün imkan verir ki, tədris materialları və mürəkkəb interaktiv sistemlər, kompüter modelləri, virtual öyrənmə mühitləri və s. ibtidai dərslik şəklində təqdim edilsin.

İnternetin informasiya ehtiyatlarından istifadə edən müəllimlər şagirdlərin idrak fəaliyyətini daha səmərəli idarə edə bilər, tez təlim və təhsil nəticələri izləmək üçün xüsusi pedaqoji bacarıqlarını artıra bilər.

İnternetin informasiya ehtiyatları ibtidai və orta məktəb şagirdlərini tapşırıqlar, özünü təhsil və asudə fəaliyyəti üçün lazım olan material öyrənmək üçün təmin edəcək. Qəbul imtahanlarına hazırlaşan şagirdlər lazım olan tədris materiallarını, institutlar, universitetlər və akademiyalara qəbul şərtləri haqqında informasiyaları internetdən tapa bilərlər.

İnternet, məktəblərdə diqqət tələb edən bir sıra məsələlər qaldırır. İnternetin informasiya ehtiyatlarından istifadə edərək keyfiyyətli təhsili təmin etmək, telekommunikasiyadan peşəkar istifadə fəaliyyətini həyata keçirmək müəllimlərin qarşısında duran əsas vəzifələrdən biridir.

Respublikamızda təhsilin informasiyalaşdırılması sahəsində çox mühüm işlər görülmüş, müəllim təlim sistemi yaradılmış, təhsil portalları inkişaf etmiş və demək olar ki, bütün məktəb fənləri üzrə elektron tədris resursları nəşr olunmuşdur. İnternetdə yaradılmış təhsil portalları şagirdlərin İKT-nin istifadəsində tədrislərinin yaxşılaşdırılmasına müsbət təsir göstərir.

Keyfiyyətli, səmərəli, gələcəyə istiqamətlənmiş, beynəlxalq standartlar əsasında qurulmuş təhsil sisteminin inkişaf etdirilməsi cəmiyyətimizin qarşısında duran əsas və ən vacib məsələlərdən biridir.

### Ədəbiyyat


1. Информатика: Учебник. 3-е изд. / Под ред.проф. Н.В.Макаровой и др. М.: Финансы и статистика. 2003.
2. Ю.Блек. Сети ЭВМ: протоколы, стандарты, интерфейсы. Перевод с англ. М.: Мир, 1990.
3. S.Q.Kərimov, S.B. Həbibullayev, T.İ İbrahimzadə. İnformatika: Ali məktəb tələbələrü üçün dərslik. Bakı, 2002.
4. В.Г.Олифер, И.А.Олифер. Компьютерные сети. Принципы, технологии, протоколы. 3-е изд. СПб.: Питер. 2006.



**Я.Мамедов, С.Рустамова**

**Современные подходы к использованию интернета в образовании**

***Резюме***

В статье рассматриваются современные подходы к использованию Интернет технологий в образовании и усовершенствования обучения с помощью информационно-коммуникационных технологий.

**Y.Mammadov, S.Rustamova**

**Modern approaches to the use of the internet in education**

***Summary***

In the article modern approaches to the use of İnternet technologies and teaching improvement with the help of information communication technologies were stated.




# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ DƏRSLİKLƏRİNİN EKSPERTİZA MƏSƏLƏLƏRİ


**Asif Hacıyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*ARTPİ*
E-mail:haciyev_asif@mail.ru



***Açar sözlər:** dərslik, məzmun, keyfiyyət, standart, ekspertiza, qiymətləndirmə meyarları*
***Ключевые слова:** учебник, содержание, качество, стандарт, экспертиза, критерии оценивания*
***Kew words:** textbook, content, quality, expertise, evaluation criteria*


Müasir dərslik təhsil standartlarında nəzərdə tutulmuş bilik və bacarıqların reallaşmasını təmin edən ən mühüm informasiya qaynağı olub təlim prosesinin təşkilində başlıca vasitə rolunu oynayır. O, konkret fənn üzrə sistemləşdirilmiş təlim materialını özündə əks etdirməli, sinfin anlam səviyyəsinə uyğun olmalı və şagirdlərin özünütəhsilinə xidmət etməlidir. Dərsliyin strukturu məntiqi, məqsədyönlü ardıcıllıqla elə dəqiq qurulmalıdır ki, təlim prosesinin yaradıcı, motivasiyaedici və inteqrativ formada təşkilində müəllimin başlıca yardımçısı olsun. O, eyni zamanda, şagirdlərin elmi dünyagörüşünün formalaşmasında və həyati əhəmiyyət kəsb edən praktik vərdişlərə yiyələnməsində müstəsna rol oynamalıdır. Bununla belə, nəzərə alınmalıdır ki, informasiya texnologiyasının yüksək sürətlə inkişaf etdiyi hazırkı mərhələdə dərslik biliklərin yeganə mənbəyi deyil, onların əldə olunmasında ötürücü funksiya daşıyan vasitələrdən biridir.

Məhz buna görə də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması ilkin strateji istiqamət kimi götürülmüş və konkret hədəflər göstərilməklə şərh olunmuşdur. Yaxın onillik üçün dəqiqiliyi ilə müəyyənləşdirilən belə hədəflərdən biri də "kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin olunması" (1, 13) problemidir.

Etiraf etmək lazımdır ki, Azərbaycan alimləri ilə müqayisədə dərsliklərin konseptual əsasları ilə bağlı rus pedaqoqları daha məqsədyönlü və geniş aspektli tədqiqatlar aparmışlar. Bircə bu faktı demək kifayətdir ki, XX yüzilliyin 70-ci illərindən başlayaraq "Məktəb dərsliklərinin problemləri" adı altında bu gün də aktuallığını itirməmiş mövzuları əhatə edən silsilə xarakteli 25-dən çox kitab nəşr olunmuşdur. Həmçinin tanınmış pedaqoqlar D.D.Zuyevin "Məktəb dərsliyi" (6) və V.P.Bespalkonun "Dərslik nəzəriyyəsi: didaktik aspektlər" (2) adlı monoqrafiyaları bu sahədə qazanılmış təcrübəni ümumiləşdirib yeni ideyalar vermək baxımından dövr üçün olduqca önəmli tədqiqatlar sayılır.

Əgər D.D.Zuyevə görə, məktəb dərslikləri fənnin elmi əsasları və şagirdlərin idrak fəaliyyəti üzərində qurulmalıdırsa, V.P.Besapalkonun fikrincə, hər hansı müəyyən pedaqoji prosesə uyğun işlənilməli, təlimin məqsəd, məzmun və təşkilati formalarının informativləşmiş modelini əks etdirməlidir.

Tanınmış rus didaktı İ.Y.Lernerə görə, müasir yanaşmada məktəb dərslikləri konkret sahə ilə bağlı bilik, bacarıqların pedaqoji baxımdan uyğunlaşdırılmış sistemini, buna müvafiq mənimsənilmə fəaliyyyətini və təlim prosesində qaşılıqlı əlaqədə tətbiq edilmə əməliyyatını əks etdirməlidir (ətraflı bax: 5). Dərslik nəzəriyyəsi sahəsində olduqca dəyərli tədqiqatların müəllifi olan tanınmış rus pedaqoqu A.V. Xutorskoy isə onlara daha geniş kontekstdə, yəni təhsil sisteminin fəlsəfi-pedaqoji konsepsiyası, məqsəd, vəzifə, pedaqoji texnologiyaları, məzmun və vasitələri, diaqnostikası, nəticələrin yoxlanılması, qiymətləndirilməsi və refleksiyası baxımından yanaşaraq, bu şəkildə açıqlama verir:

"Dərslik – təhsil prosesinin müəyyən təlim sistemi çərçivəsində həyata keçirilən və onun yerinə yetirilməsi üçün lazımi şərtləri əhatə edən hərtərəfli informativləşmiş fəaliyyət modelidir" (4).

Dərsliyi təhsil mühitinin məqsəd, prinsip, məzmun və texnologiyasını özündə əks etdirən və bu prosesi reallaşdırmağa imkan yaradan model kimi səciyyələndirən alim onları bilikyönlü və şəx-

şəxsiyyətyönlü olmaq üzrə təsnif edir. Bilikyönlü dərsliklər fənnin müvafiq elm sahəsinin məntiqinə uyğun informativ məlumatlar məcmusu və onların öyrənilməsi əsasında təşkil olunur. Şəxsiyyətyönlü dərsliklər isə strukturca bu məqsədin həyata keçirilməsini təmin edən fəaliyyət növləri üzərində qurulur. Belə ki, burada keçilən fənnin, onun əhatə etdiyi hər bir mövzunun mahiyyəti, qaldırılan problemlərin həlli yolları müstəqil fəaliyyət prosesində açıqlanır, tədqiqatçılıq yolu ilə ümumiləşdirmə, sistemləşdirmə, tətbiqetmə bacarıqları formalaşdırılır. Bu tipli dərsliklərdə praktik olaraq müasir dərsin bütün mərhələləri əksini tapmalıdır.

Məktəbin şəxsiyyətyönlü dərsliklərlə təmin edilməsi həm də onların pedaqoji ekspertizasının obyektiv aparılmasından asılıdır. Dərsliklərlə bağlı ekspert qruplarının təşkili müxtəlif ölkələrdə fərqli qurumlar tərəfindən həyata keçirilir (ətraflı bax: 3). Ölkəmizdə bu sahədə müəyyən təcrübə əldə edilməsinə baxmayaraq, hələ də müasir tələblərə cavab verməyən dərsliklərin məktəblərə yol açdığı müşahidə olunmaqdadır. Bu danılmaz faktdır və bir neçə amillə izah edilə bilər:

– birincisi, dərslik müəlliflərinin peşəkarlıq səviyyəsi kifayət dərəcədə yüksək deyil və onlar qoyulan bütün göstəricilərə əməl etməkdə çətinlik çəkirlər;

– ikincisi, dərslikləri ekspertizadan keçirən təcrübəli mütəxəssislərin indiki mərhələdə azlığıdır;

– üçüncüsü, pedaqoji ekspertizanın aparılmasının işlək optimal variantının müəyyənləşdirilməməsidir.

Əgər bu sahədə xüsusi marağı olan nəşriyyatların maliyyə dəstəyi ilə təşkil edilən təlim kursları vasitəsilə daha keyfiyyətli mütəxəssis: müəllif və ekspert hazırlığına nail olmaq mümkündürsə, ekpertizanın artıq bir neçə ildir ki fəaliyyət göstərən və təcrübədə müəyyən dərəcədə özünü doğruldan təşkili formasını qabaqcıl təhsil sisteminə malik ölkələrin təcrübəsinə uyğunlaşdırmaqla təkmilləşdirmək mümkündür. Ekspetizanın təşkili formasının təkmilləşdirilməsinə gəlincə, öncə dərsliklərin məzmun, struktur və metodik işlənilməsi ilə bağlı standartlar və hər bir standartın qiymətləndirilmə meyarları hazırlanmalıdır. Müəyyən işçi qrupu tərəfindən hazırlanan bu standartlar və qiymətləndirmə meyarları hər bir məktəb dərsliyinin ümumi (didaktik) və xüsusi (metodik) tələblər baxımından obyektiv dəyərləndirilməsinə imkan yaratmalıdır. Bütün standartların qiymətləndirmə meyarlarının vahid şkala üzrə aparılması da dərsliyin elmi əsaslar üzrə təhlil edilib dəyərləndirilməsini təmin edərdi. Məsələn:

Standart: (məzmunu)

| № | Qiymətləndirmə meyarları | 0 | 1 | 2 | 3 | 4 |
|---|---|---|---|---|---|---|
| 1.1 | | | | | | |
| 1.2 | | | | | | |
| 1.3 | | | | | | |

Bu şkalada hər bir bal müəyyən keyfiyyət göstəricisini əks etdirir. Məsələn:
o – "qane etmir";
1 – "qismən qane edir";
2 – "müəyyən şərtlər daxilində qane edir";
3 – "əsasən, qane edir";
4 – "tam qane edir".

Hər bir standartın yekun balı qiymətləndirmə meyarları üzrə verilmiş balların toplanaraq onların ümumi sayına bölünməsi ilə çıxarılır. Məsələn, Standart 1-də 4 qiymətləndirmə meyarı varsa, onların balları toplanaraq 4-ə bölünür, yaxud Standart 2-də 6 qiymətləndirmə meyarı varsa, yenə də qiymətləndirmə meyarlarının balları toplanaraq alınmış cəm 6-ya bölünür. Dərsliklərin (və yaxud müəllim üçün metodik vəsaitlərin) ümumi balı hər bir standart üzrə alınmış balların toplanmasına əsasən çıxarılmalıdır. Belə olduqda bəzən subyektiv səciyyə daşıyaraq heç bir arqumentlə əsaslandırıla bilinməyən qiymətləndirmə nümunələrinə yol verilməz. Ekspertlərin verdiyi rəy isə konkretləşdirilmiş standartlar və qiymətləndirmə meyarlarına əsasən yazılıb yekun ballarla təsdiqlənər.



Deyilənlərə əsasən belə bir qənaətə gəlmək mümkündür ki, şəxsiyyətyönlü məktəb dərsliklərinin hazırlanması müasir didaktik tələblərə nə dərəcədə əməl edilməsindən və pedaqoji ekspetizanın obyektiv aparılmasından asılıdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Azərbaycan məktəbi, 2013 № 5
2. Беспалько В.П. Теория учебника: дидактический аспект. М.: Педагогика, 1988.
3. Dərsliklərin hazırlanması, ekspertizası və nəşri sahəsində beynəlxalq təcrübə. Bakı, 2013.
4. Хуторской А.В. Место учебника в дидактической системе. // Эйдос; интернет-журн. 2005 (электронный курс) – Режим доступа: http://www/eidos.ru.—yuornal/2005.0608.htm.
5. Лернер И.Я. Методологические проблемы дидактической теории построения учебника / Каким быть учебнику: Дидактические принципы построения. / Под ред. И.Я.Лернера, Н.М.Шахмаева. М., 1992, ч.1
6. Зуев Д.Д. Школьный учебник. М.: Педагогика, 1983.


**А.Гаджиев**

**Вопросы экспертизы школьных учебников**

***Резюме***

Повышение качества образования во многом зависит от подготовки учебников на основе современных педагогических требований. Поэтому, новые учебники проходят экспертизу до предоставления их для использования школьниками. В докладе затронуты вопросы разработки определенных стандартов и критерий оценивания, обеспечивающих объективность экспертизы.

**A.Hacıyev**

**Expertise issues of the textbooks for secondary schools**

***Summary***

Improving the quality of education is highly dependent on the preparation of textbooks on the basis of modern pedagogical requirements. Therefore, new textbooks are being examined before the use. The article highlights that in order to ensure the objectivity of the expertise certain standards and evaluation criteria must be developed in the first place.

## KURİKULUM ÜZRƏ ƏDƏBİYYAT DƏRSLİKLƏRİNİN TƏRTİBİNƏ YENİ YANAŞMANIN MAHİYYƏTİNƏ DAİR

**Bilal Həsənli,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent,*
*əməkdar müəllim*
*AMİ*
E-mail: bilalhasanli@yahoo.com

***Açar sözlər***: yaradıcı yanaşma, ədəbiyyat dərsləri, müəllim, şagird, təlim, təhsil, tədris, interaktiv, inteqrativ
***Ключевые слова***: творческий подход, уроки литературы, учитель, ученик, обучение, образование, преподавание, интерактивный, интегративный
***Key words:*** creative approach, literature lessons, teacher, student, training, education, teaching, interactive, integrative

Məktəb islahatının müasir mərhələsi pedaqoji elmlərdə, o cümlədən ədəbiyyat tədrisində yeni metodik təfəkkürün bərqərar olması, yeni inkişaf meyillərinin, ideyaların yaranması və tətbiqi ilə əlamətdardır. Müasir məktəbdə ədəbiyyat tədrisinə yeni yanaşmanın mahiyyəti fənn kurikulumunda öz əksini tapmışdır. Ədəbiyyat kurikulumunun ümumi orta və tam orta təhsil pillələrində qarşıya qoyduğu məqsəd və vəzifələr təlimə ənənəvi baxışın, metodik istiqamətin dəyişdirilməsini qaçılmaz etmişdir.

Müasir məktəbdə ədəbiyyat tədrisinə yeni yanaşma bədii əsərin şagird – oxucuya mənəvi, estetik, və emosional təsirinin gücləndirilməsi, həyati bacarıqların aşılanması, şagirdlərdə

müstəqilliyin, özünüdərkin tərbiyə olunması, oxucu qavramasının, mütaliəyə, ədəbiyyatın öyrənilməsinə marağın inkişafı, təlimə yaradıcı münasibətin formalaşdırılmasını nəzərdə tutur.

Ədəbiyyat təliminə yeni yanaşma ilk növbədə kurikulum ideyalarını əks etdirən yeni konsepsiya əsasında dərslik, vəsaitlərin yaradılması və bu zəmində tədrisin elm və mədəniyyətin müasir səviyyəsinə çatdırılması, təlim-tərbiyə prosesinin humanistləşdirilməsi, diferensiallaşdırılması, yeni təlim texnologiyalarından istifadə, fəndaxili və fənlərarası inteqrasiyanın, fəal, interaktiv təlim metodlarının sistemli tətbiqi ilə bağlıdır.

Kurikulum üzrə yeni nəsil "Ədəbiyyat" dərsliklərinə məktəblilərin mənəvi-estetik tərbiyəsinin daha da gücləndirilməsi, onlarda milli və ümumbəşəri dəyərlər, həyati bacarıqlar formalaşdırılması baxımından əhəmiyyətli əsərlər daxil edilmişdir. [3; 5.] Belə ki, təlim materiallarının mövzu, probem və janr müxtəlifliyinə xüsusi diqqət yetirilmiş, dərsdə müzakirə və sinifdənxaric oxu üçün vətənpərvərlik, məktəb, bilik, əmək, təbiətə məhəbbət, mənəvi saflıq və s. mövzularda yüksək ideya-bədii dəyərə malik bədii əsərlər seçilmişdir. Azərbaycan ədəbiyyatı ilə yanaşı, dünya ədəbiyyatından seçmələrə yer verilməsi, əsərin humanist istiqaməti, şagird şəxsiyyətinə müsbət təsirinin nəzərə alınması, məktəblinin inkişafı məqsədlərinə, maraq dairəsinə, yaş və qavrama xüsusiyyətlərinə uyğun olmasına xüsusi diqqət yetirilmişdir. Bədii nümunələr seçilərkən mədəni-tarixi ənənələrimiz, milli ədəbi təhsil sisteminin zəngin təcrübəsi nəzərə alınmışdır.

Kurikulum üzrə "Ədəbiyyat" dərsliklərini səciyyələndirən başlıca cəhətlər:

- Şagirdlərə milli və ümumbəşəri mənəvi dəyərlər aşılanmasına zəmin yaradır, onların ədəbiyyata, mütaliəyə marağını gücləndirir, axtarıcılığa, tədqiqatçılıq fəaliyyətinə, fərqli mənbələrdən yeni biliklər əldə etməyə sövq edir.
- Məntiqi, tənqidi, yaradıcı (bədii) təfəkkürü inkişaf etdirir.
- Tətbiqi xarakter daşımaqla zəruri həyati bacarıqların formalaşmasını təmin edir.
- Fəndaxili və fənlərarası inteqrasiya imkanlarını reallaşdırmağa zəmin yaradır.
- Fəal/interaktiv təlim şəraitinin yaradılmasını təmin edir.
- Şagirdlərin fərqli idraki imkanlarının nəzərə alınmasına şərait yaradır.

Dərsliklərə aşağıdakı tədris materialları daxil edilmişdir:

- Dərsliyin metodik strukturu, ondan istifadə qaydaları üzrə tövsiyələr;
- Azərbaycan və xarici ölkələrin şifahi və yazılı ədəbiyyat nümunələri;
- Əsərin məzmununun mənimsənilməsi və təhlili üçün sual və tapşırıqlar;
- Şifahi və yazılı nitqin inkişafı üçün sual və tapşırıqlar;
- Ədəbiyyat nəzəriyyəsi materialları;
- Ümumiləşdirmə və layihələr üzrə tapşırıqlar;
- Formativ və summativ qiymətləndirmə materialları;
- Yaradıcı tətbiqetmə, müxtəlif mənbələrdən istifadə ilə bağlı sual və tapşırıqlar;
- Bədii mətnlərdə şagirdlərə tanış olmayan sözlərin lüğəti;
- Qısa ədəbiyyatşünaslıq lüğəti.

Dərsliklərdə kurikulum üzrə fənn standartlarının tələblərinə uyğun olaraq, ədəbiyyat nəzəriyyəsi materialları (nağıl, təmsil, hekayə, epitet, bənzətmə və s. haqqında məlumat) verilmişdir. Ədəbiyyat nəzəriyyəsi üzrə biliklərdən bədii əsərlərin öyrənilməsi prosesində istifadə olunması, nəzəri biliklərin bədii mətnin məzmununun öyrədilməsi və təhlili prosesində tətbiqi məqsədilə hər mövzu üzrə sual və tapşırıqlar sistemi işlənilmişdir.

Dərsliklərə əsərin təhlili üçün "Oxuyun. Fikirləşin. Cavab verin" başlıqlı mətnlər daxil edilmişdir. Əvvəlki dərsliklərdə şagirdlərin bədii mətni müstəqil təhlil etmələrini nəzərdə tutan, onlara istiqamət verən bölmələrin daxil edilməməsi təlim prosesində ciddi problemlər yaradırdı. Bu mənada yeni dərsliklərə daxil edilən, əsərin mövzusu, ideyası, obrazların xarakteri və s. təhlili üçün sual və tapşırıqlar sistemindən ibarət mətnlər şagirdlərin əsərin ideya-bədii məzmununu müstəqil dərk etməsi, təhlil bacarıqlarının formalaşdırılmasında əhəmiyyətli rol oynayır.

Şagirdlərin diqqətini yazıçının bədii dil, üslub sənətkarlığına yönəldən, əsərdəki bədii gözəlliyin, obrazlılığın başa düşülüb qiymətləndirilməsi ilə bağlı sual və tapşırıqlar da dərsliklərin məziyyətini artıran cəhətlərdəndir.

İfadəli oxu ilə bağlı tapşırıqların dərsliklərə daxil edilməsi müsbət dəyərləndirilməlidir.



Doğrudur, əvvəlki dərsliklərdə də "Şeiri ifadəli oxuyun" tipli tapşırıqlar vardı. Lakin ifadəli oxuya necə hazırlaşmaq, onu necə həyata keçirmək barədə konkret istiqamətin, nümunələrin olmaması təcrübədə həmin tələbin reallaşdırılmasına imkan vermirdi.

Dərsliklərdə ədəbiyyat nəzəriyyəsi anlayışlarının sadə şəkildə izahı, konkret nümunələrlə aydınlaşdırılması da diqqəti cəlb edir. «Müstəqil iş üçün», «Sinifdənxaric oxu üçün», «Ədəbiyyat nəzəriyyəsi» başlıqlı bölmələr dərsliklərin metodik aparatını zənginləşdirmişdir. Bu bölmələr şagirdlərin hər bir konkret mövzu üzrə bilik və bacarıqlarını dərinləşdirməyə və genişləndirməyə imkan yaradır.

Dərslikdəki təlim materiallarında ayrı-ayrı siniflərdə şagirdlərin hazırlıq səviyyəsinin fərqli olması nəzərə alaraq, sual və tapşırıqların çoxvariantlılığı təmin edilib, konkret şəraitə uyğun olaraq müəllim və şagirdlər üçün seçim imkanları gözlənilib. Şübhəsiz, müəllim təqdim olunan sual və tapşırıq nümunələrinə ehkam kimi yanaşmamalı, təklif olunan ideyalardan, metodik istiqamətlərdən yaradıcılıqla bəhrələnməlidir. Metodik tövsiyələr işlənərkən belə bir cəhət əsas götürülmüşdür ki, hər bir müəllim təqdim olunan yeni tipli dərs nümunələrindən, dərslərin quruluşundan, metodik sistemindən çıxış edərək öz dərs nümunələrini yarada və tətbiq edə bilər.

Təlim məqsədlərinin (nəticələrinin) düzgün müəyyənləşdirilməsi kurikulumdakı məzmun standartlarının reallaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir. Təlim məqsədləri dərsdə şagird nailiyyətlərinə aparan yoldur. Bu baxımdan hər ədəbiyyat dərsində hər üç məzmun xəttini əhatə edən alt standartlara uyğun təlim məqsədlərinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılmışdır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəzeti, 25 oktyabr 2013 N41 (8558).
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni kurikulumu. V-XI siniflər. "Azərb.müəllimi" qəzeti, 24 dek. 2010 N 50.
3. Hüseynoğlu S., Həsənli B., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı: Bakı nəşriyyatı, 2012.
4. Hüseynoğlu S., Həsənli B., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı: Bakı nəşriyyatı, 2014.


**Б.Гасанлы**

**О сущности нового подхода к составлению современных учебников литературы**

*Резюме*

В статье отмечается, что новый подход к обучению литературе связано в первую очередь с созданием учебников и методических пособий на основе современной концепции, отражающей идеи куррикулума. Новые учебники должны создавать основу для достижения современного уровня науки и культуры в преподавании, гуманизации учебно-воспитательного процесса, дифференциации, использовании новых технологий обучения, осуществлению внутрипредметной и межпредметной интеграции, системному применению интерактивных методов.

**A.Hasanli**

**On the essence of the new approach to the compilation of modern literature textbooks**

*Summary*

The article notes that the new approach to teaching literature associated primarily the creation of textbooks and teaching aids on the basis of the modern concept, reflecting the ideas of the curriculum. New textbooks should provide a basis for achieving a modern level science and culture in the teaching, the humanization of the educational process, the use of new learning technologies, the implementation of Intra and interdisciplinary integration, systemic use of interactive methods.

# RİYAZİYYAT MÜƏLLİMLİYİ HAZIRLIĞI İLƏ MƏŞĞUL OLAN ALİ MƏKTƏBLƏRDƏ TƏDRİS OLUNAN "RİYAZİ ANALİZ" KURSU İLƏ ORTA MƏKTƏBİN "CƏBR VƏ ANALİZİN BAŞLANĞICI" KURSU ARASINDA ƏLAQƏ MƏSƏLƏLƏRİ

**Azad Novruzov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Müəllimlər İnstitutu*

***Açar sözlər:*** *orta məktəb, ali məktəb, riyazi analiz, funksiya, əlaqə*
***Ключевые слова:*** *средняя школа, высшее учебное заведение, математический анализ, функция, связь*
***Key words:*** *secondary school, higher education, mathematical analysis, function, relation*

Ali məktəblərdə riyazi analiz kursunun yüksək səviyyədə mənimsənilməsinə nail olmaq üçün, onunla orta məktəbdə tədris olunan cəbr və analizin başlanğıcı kursu arasında varisliyi həyata keçirmək lazımdır. Bu məqsədlə ali məktəbin fənn müəllimi tədris edəcəyi hər bir mövzudan əvvəl müvafiq biliklərin orta məktəb dərsliyindən təkrar edilməsini müstəqil iş kimi tələbələrə tapşırmalıdır.

Riyaziyyat fakültəsinin riyazi analiz kursu məzmunu etibarı ilə əsas iki məqsədə xidmət edir:

1) gələcək riyaziyyat müəllimlərinin ixtisas və peşə hazırlığı üçün zəruri olan biliklərlə silahlandırılması,

2) riyaziyyatçı ixtisasına yiyələnmək üçün tələbənin zəruri olan biliklərlə silahlandırılması.

Ali təhsilin iki pilləli olması tələb edir ki, bakalavr səviyyəsində riyazi analiz kursu proqramına daxil edilmiş bəzi mövzuları mücərrədlikdən azad etmək və onlara nəzəri-praktik xarakter vermək lazımdır. Çünki riyaziyyat müəllimliyi peşəsini seçən tələbələrin çox cüzi bir hissəsi bakalavr təhsilindən sonra sırf riyaziyyatla məşğul olurlar. Odur ki, tədris vaxtını gələcək riyaziyyat müəllimi üçün zəruri olan və günün tələblərinə cavab verən problemlərin öyrənilməsinə həsr etmək lazımdır. Bunu Azərbaycan Respublikasının yeni təhsil konsepsiyası tələb edir.

Orta məktəbdə cəbr və analizin başlanğıcı kursunda riyazi obyekt kimi funksiya anlayışı öyrənilir, onun vasitəsilə müxtəlif tətbiqi xarakterli praktik məsələlər həll edilir, funksiyanın araşdırılması vasitəsilə həm də həndəsə və fizikada bir sıra məsələlər həll edilir. Orta məktəb riyaziyyat kursunun ayrı-ayrı bölmələrinin təlim üçün nəzərdə tutulan məqsəd və vəzifələrini araşdırmaqla, bu kursla müəllim hazırlığı ilə məşğul olan ali məktəblərin riyazi kursları arasındakı varisliyi aşkar etmək və bununla da gələcək riyaziyyat müəllimlərinin ixtisas və peşə hazırlığında mühüm rol oynayan tədris materialının optimal məzmununu və tədrisi məsələlərini müəyyənləşdirmək lazımdır.

Ali məktəblərin riyazi analiz kursuna daxil olan mövzuların əksəriyyəti qismən və ya propedivtik səviyyədə orta məktəb riyaziyyat kursuna daxildir. Misal üçün bəzi mövzuların məzmununa müraciət edək:

1.Həqiqi ədədlər çoxluğu, düz xətt üzərində həqiqi ədədlərin təsviri, həqiqi ədədin modlu, ədədi aralıqlar haqqında şagirdlər beşinci sinifdən başlayaraq ilkin məlumatlar alırlar. Ali məktəbdə həmin mövzunun tədrisi müvafiq biliklərin genişləndirilməsi, dərinləşdirilməsi və elmi cəhətdən əsaslandırılması məqsədini daşıyır.

2. Funksiya anlayışı haqqında orta məktəbdə şagirdlər kifayət qədər bilik almış olurlar. Şagird, ədədi funksiya, onun təyin oblastını, qiymətlər çoxluğunu tapmağı bacarır, qrafiki anlayışını, təkliyini, cütlüyünü, dövrülüyünü araşdırır, mürəkkəb funksiya, tərs funksiya anlayışlarını bilir. Triqonometrik, qüvvət, üstlü, loqarifmik və s. funksiyaların təriflərini və xassələrini bilir, qrafiklərini qururlar. Odur ki, həmin materialların ali məktəbdə tədrisində elə bir problem ortaya çıxmır.



3. Orta məktəbdə şagirdlər funksiyanın törəməsi anlayışını, törəmənin hesablanmasının əsas qaydaları ilə tanış olur, törəmənin həndəsi və fiziki mənasını tətbiq edirlər. Bu biliklər ali məktəbdə bünövrə rolunu oynayır. Lakin burada məsələlər daha geniş və dərindən nəzərdən keçirilir.

4. Ota məktəbdən ibtidai funksiya anlayışını bilir, bəzi funksiyaların ibtidai funksiyasını tapırlar. Qeyri müəyyən inteqral anlayışını bilir, elementar funksiyaların inteqral cədvəlini və inteqrallama qaydalarının köməyi ilə bir çox funksiyanın inteqralını hesablayırlar. Müəyyən inteqrala aid xeyli biliklərə malik olurlar. Ali pedaqoji məktəbin riyazi analiz kursunda qeyri-müəyyən inteqral, inteqralın varlığı üçün zəruri və kafi şərtlər, inteqralın xassələri, əsas inteqrallama düsturları, rasional, irrasional və transendint funksiyaların inteqrallanması, müəyyən inteqral, xassələri, müxtəlif inteqrallanan funksiyalar sinifləri, müəyyən inteqralı tətbiqləri, qeyri məxsusi inteqrallara aid geniş material tədris olunur.

Bu məsələləri kifayət qədər və geniş şərh etmək olar. Bir sözlə hər iki kurs arasında həm varislik və həm də əlaqələr mövcuddur. Buna görə də həm riyazi analiz kursunun ali məktəbdə tədrisi prosesində, həm də riyaziyyatın tədrisi metodikası fənninin tədrisi zamanı bu məsələləri diqqətdə saxlamaq lazımdır.

# TƏHSİLDƏ MÜASİR TƏLİM METODLARI VƏ TƏLİM TEXNOLOQİYALARININ TƏTBİQİ YOLLARI

**Dilqəm Quliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor,*
E-mail: d.quliyev@ mail.ru

***Açar sözlər:*** *milli strategiya, innovasiya, interaktiv, İntensiv, ekstensiv, qnostik, konstruktiv,pedaqoji texnologiya, pedaqoji əsaslar, bilik, bacarıq və vərdişlər*
***Ключевые слова:*** *Национальная стратегия, инновация, интерактивный, интенсивный, екстенсивный, конструктивный, педагогическая технология, педагогические основы, знание, навыки и умения*
***Key words:****National strategy, innovation, interactive, intensive, extensive, constructive, pedagogical technology, pedagogical basis, knowledge, ability and habits*

2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiyanın hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamının başlıca məqsədi müasir və innovativ təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla, onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməkdir.

İnnovasiya sözü ingiliscə, "innovation" sözündən götürülmüşdür. Mənası "yenilik" deməkdir. Pedaqoji innovasiya dedikdə, təlim, tərbiyə, təhsil prosesinin gedişini və nəticələrini yaxşılaşdırmaq məqsədilə pedaqoji sistemdə həyata keçirilən yenilik başa düşülür. İnnovasiya pedaqoji sistemin daxili ehtiyatları hesabına baş verir. İnnovasiya sözünün əvvəlindəki "in" hissəsinin mənası da daxili deməkdir. Pedaqoji sistemin yeniləşməsi çox vacib və aktual ideyadır. Çünki təhsil cəmiyyətin simasıdır.

Pedaqogikada innovasiya iki yanaşmadan ibarət olub, qabaqcıl pedaqoji təcrübənin nəticəsi kimi, pedaqoji ustalıq və şəxsi yenilik kimi araşdırılır: birincisi, adətən innovasiya, yenilik kimi, pedaqoji ustalıq və şəxsi yenilik kimi araşdırılır: birincisi, adətən innovasiya, yenilik dövründən sonra uzun mübarizələrin nəticəsi kimi cəmiyyət tərəfindən tətbiq edilməsi üçün bir model olaraq qəbul olunur ( bunun əsasında sonralar yeni pedaqoji texnologiyalar yarana bilər). İkinci yanaşmada isə innovasiya yenilik kimi qəbul olunmayaraq birinciyə arxalanır. Kazan araşdırmaçısı İ.Qareeyev belə bir nəticəyə gəlmişdi ki " XX əsrdə metodik sistem, müəllif məktəblərini yaratmış üc qrup novator müəllim olub. Əsrin əvvəlində S. Frene, M.Montessori, D.Düi, R.Şteyner, S.T.Şatski, M.M. Pistrak, A.Smacarenko və başqaları. Əsrin ortalarında V.S.Suxomlinski, Ş.Amonaşvili, L.Zankov,V.V.Davıdov , C.Lısenkova və s. XX əsrin axırında Y.Konarjevski, O.Cametis, Q.Qabdulin, V.Şatalov, V.Dyacenko, Q.Lozanov, F.Bunyatova , P. Erdniyev və başqaları olmuşlar (2008).

Professor Y.Kərimov "Təlim metodları" (2009) kitabında yazır: "Keçən əsrin axırlarında praktik novator müəllim Fatma Bünyatova yeni interaktiv texnolqiyanın üzərində işləmişdir. O, bu gün yeni kimi səslənən bir çox məsələləri qeyri-dəqiqliklərə yol verməklə bir qədər səthi olsa da 10-15 il əvvəl qoymuş və müəyyən nəticə almışdır.

Müəllimin şərhinə daxil olan təlim metodlarına nəql, izah, məktəb mühazirəsi, müsahibə, təlim diskussiyası, illüstrasiya metodu, demonstrasiya metodu, videometod, çalışmalar, laboratoriya metodu, problemli-laborator metod, praktik metod, idraki (didaktik) oyunlar, proqramlaşdırılmış təlim metodları, öyrədici-nəzarət metodu, situasiya metodu, kitab üzərində iş metodu daxildir.

Hazırda interaktiv metodlar, fəal təlim metodları, təlim texnologiyaları anlayışlarına tez-tez rast gəlirik. Xarici beynəlxalq təşkilatlar, milli qurumlar, müasir təlim metod və texnologiyalarının təbliği müəllimlər arasında yayılması ilə əlaqədar 20 ilə yaxındır ki, seminarlar, mühazirələr, layihələr keçirirlər. Öyrənilən yeni tərz, metod, vasitə və yanaşmalar yaradıcılığı, müstəqilliyi inkişaf etdirməklə yanaşı, insan şəxsiyyətini, onun insanlara, təbiətə, cəmiyyətə münasibətini, mənəvi dünyasını və s. inkişaf etdirməli, zənginləşdirməlidir. Əvvəlcə, interaktiv sözü haqqında: "interakriv" anlayışı ingilis dilindən dilimizə, o cümlədən digər dillərə keçmədir. Hazırda "interaktiv pedaqogika", "interaktiv təlim", "interaktiv" təlim metodları" və yaxud, yığcam olaraq "interaktiv metodları" ifadələrinə tez-tez rast gəlirik. Yeni anlayış kimi meydana çıxan "interaktiv pedaqogika" ifadəsini ilk dəfə 1975-ci ildə alman tədqiqatçısı Hans Frits işlətmişdir. Alimin tədqiqatlarında interaktiv prosesin məqsədi bu proses iştirakçılarının davranış modelini dəyişdirmək və yaxşılaşdırmaqdır. O, interaktiv metodlar haqqında interaktiv tərbiyə prosesi kimi danışır. Belə ki, alimə görə, təlimdə interaktivliyi müəllim və şagirdin qarşılıqlı təsir – əməkdaşlıq qabiliyyəti kimi izah etmək olar. İnter – (*ingilis dilində Enter*) – ara (*insanlar arası*), qarşılıq (insanların qarşılıqlı anlaşması, əməkdaşlığı, işi) və s. kimi başa düşülür. Bəs, fəal təlim metodları nədir? Bu anlayış XX əsrin 80-cı illərindən Azərbaycanda işlənməyə başlamışdır. "Fəal" sözü bəlli olduğu kimi daha işlək, hərəkətdə, təsirdə olan mənasını verir. Fəal təlim metodlarının interaktiv təlim metodları ilə yaxınlığı mahiyyətindən doğur, lakin seçim təsirinə görə bir-birindən fərqlənir.

Pedaqoji sistemin təkmilləşdirilməsinin iki yolu var: 1) İntensiv (fransızca – gücləndirmək, məhsuldarlığı artırma); 2) Ekstensiv (latınca – genişləndirmək, uzatmaq). İntensiv yol – pedaqoji sistemin inkişafını daxili ehtiyatlar hesabına həyata keçirməyi nəzərdə tutur. Ekstensiv yol isə pedaqoji sistemin inkişafı üçün əlavə qüvvələrin (investisiyaların), yeni vasitələrin, avadanlıqların, texnologiyaların, kapital qoyuluşunun cəlb edilməsidir.

Pedaqoji texnologiya dedikdə, qarşıya qoyulmuş məqsədə uyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarəti həyata keçirmək üçün əməliyyatlar kompleksi başa düşülür. Pedaqoji texnologiyada müəllimin fəaliyyətini aşağıdakı funksional komponentlərə ayırmaq olar: 1) Qnostik (idraki) komponent, 2) Layihələşdirici komponent, 3) Konstruktiv komponent, 4) Təşkilatçılıq komponenti, 5) Kommunikativ (ünsiyyət) komponent.

Qnostik komponentə daxildir: təlim, təhsil-tərbiyənin məqsədləri, tədris etdiyi fənnin məzmunu barədə biliklər, şagirdləri öyrənmək, təlim prinsiplərini və texnologiyalarını öyrənmək, öyrədici və tərbiyəedici məşğələlər keçirmək və s.

Layihələşdirici komponent. Uzaq məqsədləri (perspektivləri), əməliyyatları, vasitələri özündə birləşdirir; layihələşdirmə cinsi fərqlər nəzərə almaqla həyata keçirilməlidir. Konstruktiv komponent. Qarşıdakı məşğələni hazırlamaq üçün əməliyyatlar komplektini nəzərdə tutur Təşkilatçılıq komponenti.

Pedaqoji texnologiyalarda əməliyyatlar və hərəkətlər fiziki cəhətdən hiss olunur. Psixoloji texnologiyalar gizli xarakter daşıyır. Bu, konkret insanın psixikasında baş verən əməliyyatlar və hərəkətlərdir. Amma pedaqoji və psixoloji texnologiyalar arasında dəqiq sərhəddi müəyyənləşdirmək olduqca çətindir. Pedaqoji texnologiyalara təlim texnologiyası, tərbiyə texnologiyası, inkişaf texnologiyası, diaqnostika texnologiyası aiddir. Təlim texnologiyası dedikdə, bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar komplekti başa düşülür.

Tərbiyə texnologiyası dedikdə, nisbi, sabit və müntəzəm olaraq ümumiləşən münasibətlərin, məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar komplekti başa düşülür. İnkişaf texnologiyası təlim və təhsil-tərbiyə texnologiyası ilə əlaqədardır.



Pedaqoji sistemin təkmilləşməsi iki yolla həyata keçirilir: 1. İntensiv yol 2. Ekstensiv yol. İntensiv yol pedaqoji sistemin daxili ehtiyatlarını işə salmaqla bağlıdır. Məsələn, yeni metodlar tətbiq etməklə şagirdlərə müstəqil iş bacarıqları aşılanmaqla onları özünütəhsilə cəlb etmək intensiv yoldur. Ekstensiv yol pedaqoji prosesə əlavə vaxt və vəsait cəlb olunmasını nəzərdə tutur.

**Ədəbiyyat**


1. Abbasov A.N. Pedaqogika. Bakı, 2000.
2. Kərimov Y. Təlim metodları. Bakı, 2007.
3. Mahmudov M.C. Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı: Elm və təhsil, 2009.
4. 4.Mehrabov A. və b. Pedaqoji texnologiyalar. Bakı, 2006.
5. 5.Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.
6. Veysova Z. Fəal (interaktiv) təlim: Müəllim üçün vəsait. Bakı, 2007.



**Д. Гулиев**

**Пути применения современных методов обучения и методов технологии в системе образования**

***Резюме***

**Значение указа президента Азербайджанской Республики о подготовке национальной стратегии по развитию образования в Азербайджане нашли отражение в данной статье. Указаны современные методы обучения, включенные в комментарии преподавателя, пути совершенствования педагогической системы. Проанализированы функциональные компоненты деятельности преподавателя в педагогической технологии.**

**D.Guliyev**

**The ways of application of the modern training methods and training technology in the education prosses**

***Summary***

The essence of the order of the president of Azerbaijan Republic about the preparation of national strategy on Azerbaijan education development was explained in this article. The methods of modern training included to the teacher's explaination, the ways of pedagogical system development were given. The functional components of teacher's activities in pedagogical technology were analyzed.


## BİLİKLƏRƏ YİYƏLƏNMƏYİN MÜHÜM ŞƏRTİ: ŞÜURLULUQ VƏ FƏALLILIQ


**Xəzəngül Ramazanova,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*AMİ-nin Zaqatala filialı*
E-mail: x.ramazanova@gmail.com



***Açar sözlər:*** *şüurluluq, fəallıq, şüurluluq və fəallıq prinsipi, юзцняняарят, юзцнцгиймятляндирмя, тялим технолоэийалары*

***Ключевые слова:*** *сознательность, активность, принцип сознательности и активности, самоконтроль, самооценка, технология обучения*

***Key words:*** *consciousness, the activity, the principle of consciousness and activity, self-control, self-esteem, education technology*


Təhsili o zaman keyfiyyətli hesab etmək olar ki, nəinki şagirdlər, həm də təhsil prosesinin üzvləri olan müəllimlər də müəyyən nailiyyətlərə malik olsunlar. Əsas məqsəd təhsilalanları, o cümlədən kiçik yaşlı məktəbliləri təkcə biliklərə yiyələndirmək deyil, onlara həyati bacarıqlar formalaşdırmaqdan ibarətdir.

Keçilən dərslərin səviyyəsinin yüksəldilməsində təlimin prinsiplərinin, o cümlədən elmilik, sistemlilik, əyanilik və s. prinsiplərin rolu böyükdür. Həmin prinsiplərin arasında şüurluluq və fəallıq prinsipi özünəməxsus əhəmiyyət daşıyır.

Şüurluluq insan fəaliyyətinin məqsədini və istiqamətini tənzimləyən xassələrdir. İkincisi, insanın özünü və dünyanı dərk etmək və dəyişdirmək üzrə onun fəaliyyətində təzahür edən, özünün iradəsini və mübarizə əzmini tənzimləyən xassələridir. İnsan fəaliyyətinin məqsədini və istiqamətini müəyyən etməyə imkan verən və eyni zamanda iradəni və mübarizə əzmini tənzimləyən şüurluluğun bu iki tərəfi bir-birilə sıx şəkildə bağlıdır. Onlar şəxsiyyətin təbiəti və cəmiyyəti dərk etməyə və dəyişdirməyə yönəlmiş bütün fəaliyyətini nizama salır və nəzarətdə saxlayır. Şüurluluq özünütəkmilləşdirməyə şərait yaradır. Şüurluluğun bir sıra üstünlükləri vardır.

Fəallıq anlayışı müxtəlif işlənir. Məsələn, fəal insan, fəal həyat mövqeyi, fəal təlim, fəal həyat tərzi. Fəallıq anlayışı son dərəcə geniş məna daşıyır.

Фяаллыг дедикдя, мцяллимин тялим вя тярбийянин вязифялярини йериня йетирмяйя истигамятлянмиш ягли, мяняви, ирадя вя физики гцввяляринин сяфярбярлийя алынмасы анлашылыр.

"Fəallıq prinsipi" təlim prosesinin səmərəliliyinin artırılmasında və optimallaşdırılmasında önəmli rola malikdir.

Təlimin şüurluluq və fəallıq pedaqoji rəhbərliyin şagirdlərin şüurlu, fəal, yaradıcı fəaliyyəti ilə qarşılıqlı əlaqəsini nəzərdə tutur. Şüurluluq təlimin məqsəd və vəzifələrinin dərk olunmasında, faktları tam bilməkdə, materialı dərindən anlamaqda, öyrənilən materialın mahiyyətinə nüfuz etməkdə, onu şüurlu şəkildə təcrübəyə bacarıqla tətbiq etməkdə meydana gəlir. Şüurluluğun əsasında məktəblilərin əqli, fikri, həmçinin nitq-fikri fəallığı durur. Lakin iradi və fiziki fəallığın əhəmiyyəti də mühümdür. Bu unudulmamalıdır.

Tədqiqatlar göstərir ki, şagirdlərin fəallığının ən zəruri cəhəti təlim posesində özünənəzarət və özünəqiymətin olmasıdır. Ona görə də müəllimin mühüm əsas vəzifələrindən biri təhsilalanlarda fəaliyyətə tələbatı və vərdişləri inkişaf etdirmək olmalıdır.

Təlim texnologiyaları sırasında özünənəzarət və özünüqiymətləndirmə vacib element hesab olunur. Biliklərə şüurlu və fəal yiyələnməkdə özünənəzarət və özünüqiymətləndirmə xüsusi əhəmiyyət daşıyır. Proqram materialına şüurlu yiyələnmə və fəallığa nail olunması ibtidai sinif şagirdlərinin bu materialın dərsdə müəllim tərəfindən şərhi zamanı və ya evdə mövzunu öyrənərkən hansı səviyyədə diqqətli olmasından xeyli dərəcədə asılıdır. Keyfiyyət göstəriciləri bir çox kompleks məqsədlərlə müşayiət olunur. Həmin məqsədlər aşağıdakılardır:

1. Təlimin səviyyəsinin modelləşdirilməsi. Diqqət keyfiyyətə yönəlməlidir.

2 I-IV sinif şagirdlərinin təlim fəaliyyətinə nail olmaq. Bu, planlaşdırılmış keyfiyyət səviyyəsinə malik olmağı doğru istiqamətlənir.

3. Keyfiyyətin əldə edilməsi .

4. Keyfiyyətinin diaqnozlaşdırılması..

5. Təhsildə keyfiyyətin müəyyənləşdirilməsi məktəblilərin uğurlarının obyektiv qiymətləndirilməsi ilə şərtlənir. Məktəblinin təlim nəticələri onun fəaliyyətlərinin yekun nəticəsi kimi ortaya çıxır. Müəllim təlim nəticələrinə əsasən onun tədris fəaliyyətini dəyərləndirir.

Məktəblinin yiyələndiyi biliklər və məlumatlar o zaman keyfiyyətli olur ki, onun nəticələri qarşıdakı məqsədə və şagirdin proqnozlaşdırılmış inkişaf səviyyəsinə uyğun olsun. Unutmaq olmaz ki, təhsilin nəticələri özündə nəticənin necə, hansı yollarla, nəyin hesabına əldə olunmasını göstərməlidir.

Təhsil məqsədlərini müəyyən edərkən aşağıdakı cəhətlərə fikir verilməlidir:

1. Məqsəd irəli sürülərkən problem və tələbatlar təhlil olunmalı, başqa bir tərəfdən imkan və vasitələr nəzərdə tutulmalıdır;

2. Məqsəd aktuallığa malik olmalı, əsas problemlərin həllinə yönəlməlidir;

3. Məqsəd şagirdin yaxın inkişaf məkanında olmalıdır;

4. Məqsəd aydın olmalı, ehtiyac və zərurət olduqda onlar təshih edilməlidir.

5. Məqsədlər konkret müəyyənləşdirilməlidir. Bu, ona görə lazımdır ki, onların həyata keçirilib-keçirilmədiyini bilmək mümkün olsun. Onun yerinə yetirilmə müddəti də dəqiq və düzgün müəyyən edilməlidir;

6. Məqsəd təlimin vəzifələrinə uyğun olmalı, stimullaşdırıcı, motivləşdirici, maraqlandırıcı olmalıdır;



7. Xüsusi xarakterə malik konkret məqsədlər böyük və uzunmüddətli vəzifələrə tabe olmalıdır;

8. Məqsədlər kompleks şəkildə formalaşdırılmalıdır. Əsas məqsəd və vəzifələr müəyyənləşdirilərkən şagirdlərin xüsusiyyətləri diqqət mərkəzində dayanmalıdır;

Müasir mərhələdə təlim prosesinin monitorinqini təlimin keyfiyyətinə nəzarəti həyata keçirən son dərəcə mühüm mexanizm hesab edilə bilər.

**Ədəbiyyat**

1. Подласый И.П. Педагогика: 100 вопросов – 100 ответов: Учеб. пособие для вузов. М.: Владос-пресс, 2004.
2. A.N. Abbasov. Pedaqogika: Dərslik. Bakı: Mütərcim, 2013.

**Х.С. Рамазанова**

**Сознательность и активность важное условие овладения знаний**

***Резюме***

Активность и сознательность школьников связаны между собой. Характер активности учащихся является главным показателем меры сознательного отношения его к обучению. Через сознательность к активности – такова взаимосвязь этих двух принципов. Сознательность без активности зачастую приводит к пассивной созерцательности, а активность без сознательности – к нецелесообразным действиям. Поставленные учителем задачи можно решить только через осознанную активность школьников. Принцип сознательности и активности личности в обучении и воспитании должен вести к единству сознания и поведения.

**Kh.S. Ramazanova**

**Important condition mastery of knowledge: consciousness and activity**

***Summary***

Active and conscious students linked. The nature of the activity of the students is the main indicator of its measures conscious attitude to learning. So the researchers note, through awareness and the activity – is the relationship between these two principles. Consciousness of inactivity often leads to passive contemplation and activity without consciousness – to inappropriate actions. Teacher posed problems can be solved only through the conscious activity of schoolchildren. The principle of consciousness and activity of the person in training and education should lead to the unity of consciousness and behaviour.

## UŞAQ ANATOMİYASI, FİZİOLOGİYASI VƏ GİGİYENASI FƏNNİNİN KURİKULUMU VƏ ONUN XÜSUSİYYƏTLƏRİ

**Asif Axundov,**
*biologiya üzrə fəlsəfə doktoru, dosent*
**Rəna Quliyeva,**
*baş müəllim*
*Naxçıvan Dövlət Universiteti*

***Açar sözlər:*** *kurikulum, şagird yönümlülük, inteqrativlik, səxsiyyət yönümlülük, təlim texnologiyası*
***Ключевые слова:*** *курикулум, направленности ученика, интегративность, направленности личности, технология обучения*
***Key words:*** *curriculum, student orientation, integration,orientation of the individual, education technology*

Ümumi təhsilin məzmunu təhsilalanların yaş, fizioloji, psixoloji xüsusiyyətləri nəzərə alınmaqla onların dünyagörüşünün və şəxsiyyətinin formalaşmasını, bazar iqtisadiyyatına uyğun zəruri bilik və bacarıqlara yiyələnməsini, əqli, fiziki, mənəvi, estetik inkişafını, müstəqil əmək və təhsil həyatına hazırlanmasını, cəmiyyətin faydalı və məhsuldar üzvünə çevrilməsini təmin edir.

Həmçinin həmin çərçivə sənədində təhsilin məzmununa dair ümumi tələblər aşağıdakı kimi göstərilmişdir.

-təhsilin məzmununu təhsilalanların və cəmiyyətin tələbatına, dövlətin təhsil siyasətinə uyğunlaşdırmaq.

-məzmunu nəticəyönümlülük, şəxsiyyətyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında müəyyənləşdirmək.

-təhsilalanların təlim marağını, potensial imkanlarını, sağlamlığının təhlükəsizliyini nəzərə almaqla onların davamlı inkişaflarını təmin edən, müstəqil həyatda lazım olan zəruri biliklərin və əqli, informatik, kommunikativ, psixomotor bacarıqların aşılanmasını təmin etmək.

-təhsilin məzmununa şagirdlərin ümumi inkişafına xidmət etməyən, tətbiqi xarakterdə olmayan, məzmunu ağırlaşdıran məlumatyönümlü məsələlərin daxil edilməsinə yol verməmək.

Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir.

Təhsilin keyfiyyət səviyyəsi ölkədə qəbul olunan dövlət standartları əsasında beynəlxalq və ümumavropa təhsil pillələri üzrə müvafiq keyfiyyət göstəriciləri sisteminə

-Təhsil proqramları

-Abituriyentlərin hazırlıq səviyyəsi

-Maddi texniki baza

-İnfrastruktur

-İnformasiya resursları

-Təhsil verənlərin peşəkarlığı və elmi pedaqoji səviyyəsi

-Mütərəqqi tədris texnologiyaları

uyğun olaraq müəyyən edilir.

- Keyfiyyətlik – təhsilin mövcud standartlara, normalara, sosial iqtisadi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu;
- Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;
- Sistemlədirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasının daimi artırılmasını təmin etmək, təhsil alanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq;
- Dövlət əmək bazarının tələblərinə uyğun olaraq ixtisaslı kadr hazırlığı istedadlı şəxslərin təhsilinin davam etdirilməsinə təminat verir, sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır;
- Təhsil proqramına tədris planı, fənlər üzrə tədris proqramları, metodik təminatla bağlı tövsiyələr, qiymətləndirmə və digər müvafiq təhsil texnologiyaları aiddir;
- Yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya, inteqrasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq;

Yuxarıda göstərilən prinsipləri əsas tutaraq, insanın ən ümdə tələbatı onun həyatını, sağlamlığını və mənəvi dəyərlərini qoruyub saxlamaqdır.

Respublikamızda ümumi təhsil sistemində islahatlar yeni mərhələyə qədəm qoymuşdur. İnsanların yaşayış tərzi, tələb və ehtiyacları dəyişdikcə təhsilin məzmununun dəyişməsi də labüddür.

Dünya təhsil sisteminə inteqrasiya təhsilin məzmununun yeniləşdirilməsini və keyfiyyətinin yüksəldilməsini tələb edir. Son zamanlar daha çox məntiqi düşünməyə, nəzəri biliklərin tətbiqinə, hadisə və proseslərin mahiyyətinin dərk edilməsinə yönələn biliklərə üstünlük verilir.

Yeniyetmə şagirdlər yalnız kitab və müəllimin izahlı şərhi ilə kifayətlənmir, özü məntiqi düşünməyə, axtarmağa, araşdırmağa və tədqiqatçılığa doğru meyl göstərir. Bu baxımdan ənənəvi metodlarla keçirilən dərslər yeniyetmə üçün maraqsızdır. Müşahidələr göstərir ki, bu cür dərslərdə onlar müəllimə qulaq asmaqdansa, özləri problemli situasiya üzərində işləməyi daha üstün tuturlar.

Təlim prosesində şagirdlərin, tələbələrin bu yaş dövrünə xarakterik olan xüsusiyyətləri nəzərə alınaraq fənnin tədrisi zamanı təlim metodlarından düzgün istifadə olunarsa, dərsdən yayınma, gecikmə, təlimə marağın azalması kimi həyata keçirməyin ən optimal variantı interaktiv təlim metodlarından istifadə etməkdir.



Kurrikulum təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir. Onun əsasını təhlil, tətbiq və qiymətləndirmə təşkil edir. Kurikulum islahatının əsas məqsədi cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla təhsilin keyfiyyətini yüksəltmək və onun inkişafını təmin etməkdir.

Uşaq anatomiyası, fiziologiyası və gigiyenası fənni təbiət və sosial fənn sahələrinə aid müəyyən elementləri əhatə edir. Fərdin özünü bioloji, psixoloji, sosial və mənəvi dəyərləri ilə bütöv bir varlıq kimi dərk etməsi və reallaşdırması üçün lazım olan bilik, bacarıq və dəyərlər sistemi formalaşdırmağa və onu təkmilləşdirməyə kömək edən interaktiv fəndir. Bu baxımdan şəxsiyyətyönümlü uşaq anatomiyası, fiziologiyası və gigiyenası fənn kurikulumu bilavasitə həyati bacarıq və vərdişlərə üstünlük verilməsi ilə fərqlənir. Bu kurikuluma görə insanın gələcək həyat fəaliyyətində lazım olacaq praktik bacarıq və vərdişlər əhatə edilir, onun əqli fəaliyyətlə bağlı qabiliyyətlərinin formalaşdırılması ön plana çəkilir.

Fənn kurikulumları hazırlanarkən, uşaq anatomiyası, fiziologiyası və gigiyenası fənninin kurikulumunda qarşıya qoyulan əsas məqsəd elə şagirdlər yetişdirməkdir ki, onlar öz hüquqlarını dərk etməsini, başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmasını, insanlara, təbiətə, ekologiyaya, həssas və qayğıkeş münasibət bəslənməsini, həmin məsələlərlə bağlı öz fikirlərini bildirməyi bacarmalıdırlar. İnsan həyatı və sağlamlığının qorunması ilə bağlı ən zəruri təhlükəsizlik qaydalarını bilib və əməl etməlidirlər.

Mənəvi keyfiyyətlərin (düzlük, ədalətlilik, humanistlik) mahiyyəti barədə mülahizələrini şərh edib, şəxsi həyatlarında bu keyfiyyətlərə əməl etdiklərini nümayiş etdirməlidirlər. İqtisadi biliklərdən məişətdə istifadə etməyi bacarmalıdırlar.

Cəmiyyətdə baş verən hadisələri, insan-təbiət, insan-cəmiyyət münasibətlərini öz yaş səviyyələrinə uyğun şərh etməyi bilməlidirlər.

Zərərli vərdişlərin insan həyatı üçün təhlükəli olduğunu və ağır nəticələr verdiyini konkret nümunələr əsasında şərh edib, sağlam həyat tərzi keçirdiyini gündəlik fəaliyyətində nümayiş etdirməyi bacarmalıdır.

## ALİ MƏKTƏBDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ İKT-dən İSTİFADƏ TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN MÜHÜM VASİTƏSİDİR

**Afaq Qasımova,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*dosent*

***Açar sözlər:*** *ali məktəb, Azərbaycan tarixi, təlimin məqsədi, təhgsilə müasir yanaşmalar, təlimin müasir prinsipləri*

***Ключевые слова:*** *вуз, история Азербайджана, цели обучения, современные подходы к образованию, современные принципы обучения*

***Key words:*** *higher school, history of Azerbaijan, purposes of teaching, moden approaches to education, modern principles of teaching*

Ali məktəbdə Azərbaycan tarixinin tədrisində İKT-dən istifadənin həm təlim, həm də tərbiyəvi əhəmiyyəti var. İKT-dən istifadə prosesində tələbələrin təlimə həm marağı yüksəlir, həm də təlimin səmərəliliyi artır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev «Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramının təsdiq edilməsi haqqında» sərəncam vermişdir (18, №40). 21 avqust 2004-cü il tarixli 2005-2007-ci illərdə ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan bu proqram yeni informasiya kommunikasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir.

Ali təhsilin bakalavriat pilləsində Azərbaycan tarixinin tədrisində informasiya kommunikasiya texnologiyalarından istifadə probleminin həlli üçün aşağıdakı tələbələr gözlənilməlidir:

1) Ümumi didaktik sahəsində aparılan informasiya kommunikasiya texnologiyalarına dair tədqiqatların nəticələrindən ali təhsilin bakalavr pilləsində Azərbaycan tarixinin tədrisində yaradıcılıqla istifadə edilməsi;

2) Ali məktəbldərdə keçmişdə və indiki mütəxəssis hazırlığının təşkilinin və qabaqcıl Azərbaycan tarixi müəllimlərinin iş təcrübəsinin öyrənilməsi və yaradıcıllıqla istifadə edilməsi;

3) Xarici ölkələrin ali məktəblərinin müsbət iş təcrübələrinin öyrənilməsi və bunun öz ali məktəblərimizə tətbiq edilməsi;

4) Respublikamızda ali təhsil müəssisələrinin Azərbaycan tarixi müəllimi kadrları hazırlığı prosesində tələbələrin təlim xüsusiyyətlərinin, təhsilin məzmunu, məqsədi və vəzifələrinin və innovasiyanın inkişaf tendensiyasının nəzərə alınması.

Biliklər ciddi şəkildə dərindən dərk edilərək sıx əlaqədə, sistemli şəkildə mənimsənilməli, hafizədə möhkəmləndirilməlidir. Bir çox hallarda tarixi hadisələrin, proseslərin ardıcıllığını, xronologiyaları tələblər yaddaşlarında saxlamaqda çətinlik çəkirlər. K.D. Uşinski yazırdı: «Pərakəndə, əlaqəsiz biliklərlə dolu olan beyin – hər şeyi qaydasız şəkildə tökülmüş anbara oxşayır ki, burada anbar sahibinin özü heç bir şeyi tapa bilmir» (2, 355). Lakin informasiya kommunikasiya texnologiyaları mənbələri tapmaqda tələbələrə kömək edir, onlara mövzu ilə bağlı lazımı informasiyaları əldə etməyi, tarixi fakt və hadisələrlə bağlı qeydlər götürməkdə geniş imkanlar açır.

Qeyd etmək lazımdır ki, müəllim bu gün tədris prosesində ən çox istifadə etdiyi şifahi şərh və bir sıra ənənəvi metodlarla və dərsin sadə elementləri olan əyani vasitələrə istinad etməklə çox sürətlə artan informasiya axının öhdəsindən gələ bilməz. O, yalnız problemin qismən həllinə nail ola bilər ki, bununla da lazım olan nəticəni əldə etmək mümkün olmur. Deməli, müəllim istər-istəməz Azərbaycan tarixi fənninə müvafiq tarixi hadisə və prosesləri tələbələrə geniş məzmunda çatdıra biləcək müasir tədris kompleksi yaradılmasına nail olmağa çalışmalıdır. Müasir tədris kompleksi siyahısına yeni İKT vasitələri-elektron lövhələr («ağıllı lövhə»), elektron poçt, göndərişlər siyahısı, elektron elanlar lövhəsi, telekonfranslar, web-forumlar, www serverlər və s. əlavə olunur. İnformasiya bolluğunun yaranması və müxtəlif elektron tədris nəşrlərinin və resurslarının əldə edilməsi imkanının artması Azərbaycan tarixi müəlliminin tədris prosesindəki funksiyalarını dəyişdirir. Müəllim artıq yeganə informasiya mənbəyi kimi yox, daha çox məsləhətçi kimi, fəaliyyət göstərməyə başlayır (6, 18).

Xarici ölkələrin alimlərindən S.Peypert N.F. Talızina, E.İ.Maşbits, B.S.Gerşunski, S.İ.Kuznetsov, N.D.Nikandrov, V.M.Monaxov, N.V. Karçevskaya, L.V.Axmetvaleyeva, A.L.Denisova, respublikamızın tədqiqatçılarından İ.H.İsmayılov, S.S.Həmidov və başqaları informasiya kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi haqqında elmi tədqiqatlar aparmışlar. Bu işləri çox dəyərli hesab edirik. Bu tədqiqatların təhlili nəticəsində müəyyən etdik ki, ali təhsilin bakalavr pilləsində Azərbaycan tarixinin tədrisində informasiyadan istifadənin səmərəliliyini artırmaq üçün özünün tam işlənilməmiş problemidir və problemin işlənilməsinə böyük ehtiyac vardır.

Tədrisin informasiya kommunikasiya texnologiyaları əsasında keyfiyyətinin yüksəldilməsində müəllimin rolunun xüsusi qiymətləndirildiyi «The İKT course» kitabında müəllimin dərs prosesində fəaliyyəti əsasən aşağıdakı kimi səciyyələndirilir: Dərs prosesinin planlaşdırıcısı kimi, müəllim dərsdən əvvəl dərsi planlaşdırır, tədris ediləcək materialı öyrənənlərin bilik səviyyəsinə uyğunlaşdırır, pedaqoji texnologiyaya uyğun təlimin münasib informasiya vasitələrini hazırlayır, dərs prosesində ortaya çıxa bilən problemləri nəzərə alır. Məsələn, dərs prosesində istifadə olunan texniki vasitədə nasazlıq yaranmasını müəllim nəzərə almalı və alternativ tədbir görməlidir (3).

Müşahidələrlərdən aydın olur ki, ali məktəb müəllimləri yüksək elmi dünyagörüşünə malik, elmi-nəzəri cəhətdən yüksək potensiala sahib olsalar da, onların çoxu ənənvi mühazirələr deyir, seminarlarını da mövzuya uyğun ədəbiyyatlar əsasında ənənvi qaydada keçirlər. Onların böyük əksəriyyəti İKT-yə, təlimdə yeni texnologiyalardan istifadəyə həvəs göstərmirlər. Bütün yuxarıda sadaladığımız problemləri və çatışmazlıqları törədən səbəblər bunlardır:



1. Təhsil Nazirliyi və onun digər qurumları öz diqqətlərini əsasən orta məktəbə yönəldiblər.
2. Ali məktəbə rəhbərlik edənlər təlimdə yeni innovasiyalardan istifadəyə biganədirlər.
3. Ali təhsil müəssisələri texniki vasitələrlə lazımı dərəcədə təmin edilməyib.

İnformasiya kommunikasiya texnologiyalarının ali təhsilin bakalavr pilləsinə daxil edilməsi məsələlərinin pedaqoji-nəzəri cəhətdən təhlili və anlanması prosesi çox ləng gedir və bu da digər fənnlər kimi Azərbaycan tarixinin tədrisinə də mənfi təsir göstərir. Azərbaycan tarixi təlimində informasiya kommunikasiya texnologiyaları ilə bağlı bəzi problemlər və onların həll olunma mexanizmləri aşağıdakı cədvəldə göstərmişik.

| | | |
|---|---|---|
| 1 | Azərbaycan tarixi təlimində İKT sistemini yaradacaq mütəxəssislərin azlığı | 1. Ölkədə və xaricdə çalışan yüksək ixtisaslı mütəxəssisləri müəyyən etmək<br>2. Ali məktəbin Azərbaycan tarixi fakültəsində VTS (virtual təlim sistemi) ixtisası üzrə bölməni yaratmaq<br>3. İKT sahəsində təhsil alan potensiallı tələbləri müəyyən edib VTS ixtisası üzrə təhsil almalarını təmin etmək |
| 2. | Azərbaycan tarixi təlimində İKT sisteminin istismarı ilə bağlı mütəxəssislərin kifayət qədər olmaması | 1. «VTS vasitələrilə elektron dərsliklərin yaradılması» mövzusunda treninq<br>2. «Elektron dərsliklərin tələbləri» mövzusunda treninq<br>3. «İKT və TYQKS (Təhsildə Yoxlama, qiymətləndirmə və Keçid sistemi) tələbləri əsasında testlərin hazırlanması» mövzusunda treninq |
| 3 | Təhsil müəssisələrində VTS sisteminin istismarı üçün texniki vasitələrin çatışmazlığı | 1.Tam texniki təminatı olan müəssisələrdə VTS-in tam virtual variantı tətbiq olunacaq<br>2. Tam texniki təminatı olmayan müəssisələrdə VTS-in kağız variantı tətbiq olunacaq |
| 4. | Azərbaycan tarixi müəllimlərinin və tələbələrin İKT-dən istifadə etməsi ilə bağlı problemlər | 1. İKT-nin tələbləri əsasında hazırlanmış «Azərbaycan tarixinin tədrisində informasiya kommunikasiya texnologiyaları»<br>2. VTS-in «elektron dərsliklərindən (virtual və kağız variantları) istifdə qaydaları» mövzusunda treninq |

Bu baxımdan informasiya kommunikasiya texnologiyalarının ali təhsilin bakalavr pilləsində istifadə probleminin baxılmasına ehtiyac vardır.

Ali məktəbin bakalavriat pilləsində təlim prosesində kompüterin funksiyalarını müəyyənləşdirərkən E.İ.Maşbits (4) kompüterin tədris vasitəsi və ya öyrədici bir vasitə olduğunu qeyd edir. E.İ.Maşbitstin fikrincə, əgər informasiya kommunikasiya texnologiyalarından sadəcə tədris vasitəsi kimi istifadə olunarsa, onda onun funksiyaları elmin, istehsalat və digər fəaliyyət sahələrində yerinə yetirdiyi funksiyalardan çox az fərqlənir. Öyrənənlərin kompüterlə qarşılıqlı əlaqəsi «istifadəçi EHM» əlaqə sisteminə tamamilə uyğun gəlir. Lakin bu cür sistemlərdə kompüter tədris vasitəsi olmur (4, 24). Kompüterlərdən tədris vasitəsi kimi istifadə etdikdə onun əsas funksiyası tədris fəaliyyətini idarə etməkdən ibarət olur.

İnformasiya kommunikasiya texnologiyalarından tədris vasitəsi kimi istifadə etmək kompüterli təlimin tiplərindən asılıdır. E.İ.Maşbitst kompyuterli təlimin iki tipini qeyd etmişdir:

«1) Təlim-tərbiyə prosesində müasir təlim, həm məqsədləri, həm də prinsipləri əsas götürülməlidir; 2) Eləcə də interaktiv iş formalarına geniş yer verilməlidir». (4, 24-26). İnteraktivlik

– öyrənənlər sistemi arasında, həmçinin sistemin ayrı-ayrı hissləri arasında, dialoq rejimində informasiya mübadiləsini nəzərdə tutur. Bu iş formaları aşağıdakılardır:

1. Kollektivlə iş;
2. Qrup şəklində iş;
3. Fərdi şəkildə aparılan iş;
4. Multimediya texnologiyalarından istifadə;
5. Tarix təlimində kompüter texnologiyalarından istifadə;
6. Elektorn poct kitabxana, media vasitələrindən istifadə;
7. Modul təlim texnologiyalarından istifadə;
8. Problemli təlim texnologiyaları;
9. Tarixin məsafədən təlimi.

Nəticə olaraq deyə bilərik ki, ali təhsilin bakalavr pilləsində İKT-dən istifadə prosesində Azərbaycan tarixinin tədrisi aşağıdakı qeyd edilən sistem üzrə aparıldıqda;

a) motivləşmənin optimal səviyyəsinin yüksəldilməsi;

b) fərdi təlim təmin edilir, tələbələrin müstəqil bilik əldə etmək üçün bacarıq və vərdişləri formalaşır, idrak marağı, tədris və elmi yaradıcılığı inkişaf edir;

c) tələbələr əqli fəaliyyətdə ardıcıl olurlar və az vaxt sərf etməklə daha çox bilik qazanmağa nail olurlar, onlarda yeni biliklərə yiyələnməyə maraq yaranır, təlim materialı şüukrlu və dərindən mənimsənilir;

d) ali təhsilin bakalavr pilləsində informasiya kommunikasiya texnologiyalarından istifadə şəraitində Azərbaycan tarixi təliminin səmərəliliyinin yüksəldilməsinə kömək edir;

e) tələbələrin marağı, şüurluluğu, fəallığı məşğələlərin bütün mərhələlərində ənənəvi məşğələlərdə olduğundan daha məhsuldar və səmərəli olur.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminat proqramının (2005-2007-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. «Xalq qəzeti», 2004, 22 avqust
2. Ушинский К.Д.Сборник сочинение.т,5,1949.
3. Spart M. Pulverness A. William M.The TKT course. Cambridge University, 2nd ed. Press,2011



**А. Гасымова**


**Использование икт в преподавании истории азербайджана в вузах является важным средством повышения качества обучения**


*Резюме*

В статье раскрывется влияние рационального использования информационно-коммуникационных средств в преподавании истории Азербайджана. Приведена классификация информационно-коммуникационных средств. Выражено отношение к проблеме с указанием методической литературы.



**A. Gasimova**


**Usage fors ict at teaching of history of azerbaijan is the important device of the improve of the quality of education in the higher school**


*Summary*

The influence of the effective usage from the informational communicational devices at teaching of history of Azerbaijan to the quality of education is opened in the article. The classification of the information and communication technologies is given. i tis commented to the problem in the methodical literature.




## YENİ PEDAQOJİ TƏFƏKKÜRÜN TƏLƏBİ – MÜƏLLİM-TƏLƏBƏ MÜNASİBƏTLƏRİ DÜZGÜN QURULMALIQIR!


**Sevinc Kərimova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*AMİ-nin Sumqayıt filialı*



***Açar sözlər:*** *yeni pedaqoji təfəkkür, müəllim-tələbə münasibətləri, qarşılıqlı anlama, qarşılıqlı hörmət*
***Ключевые слова:*** *новое педагогическое мышление, отношения учителя и студентов, взаимопонимание, взаимоуважение*
***Keywords:*** *new pedagogical thinking, teachers and students relations, mutual understanding, mutual respect*


Bu, bir həqiqətdir ki, hər hansı şəxsin ləyaqətli şəxsiyyət, nüfuzlu, sayılıb-seçilən, hörmət bəslənilən olmasından ötrü onun özünə, həmyaşıdlarına, özündən yaşlılara, başqalarına münasibəti təqdirediləm olmalıdır. Münasibətin gözəlliyi etikanın başlıca tələblərindən sayılır.

Müstəqil dövlət quruculuğunda, cəmiyyətimizdə tələbələr özünəməxsus xüsusi yer tutur. Tələbə oğlan və qızlar dünyada və respublikamızda ziyalıların sayını artıran özünəməxsus bir qrupdur. Onların əsas vəzifələrinə daxildir: biliklərə yiyələnmək, təlim əməyinə məsuliyyətlə yanaşmaq, özəhsillə məşğul olmaq, mühazirələrdə diqqətli olmaq, seminar və praktik məşğələlərə hazırlıqlı gəlmək,; mühazirədə qeydlər aparmaq, öz üzərlərində daim çalışmaq, ixtisasını sevmək, mənəvi dünyasını zənginləşdirmək və s.

İnstutut və universitetlərin ayrı-ayrı kurslarında, adətən eyni yaşlı tələbələr təhsil alsalar da, onların arasında müxtəlif yaşlı oğlan və qızlara da rast gəlinir. Bəzən yaş və dünyagörüşü baxımından müxtəlif səviyyədə olan tələbələr bir yerdə oxuyurlar. Professor-müəllim heyəti, tərbiyə işləri üzrə prorektorlar, ailədə isə ata-analar gənclərdə öz qüvvələrinə, həyata, insanlara, dinc quruculuq işlərinə, gələcəyə inam, nikbinlik yaratmalı, onların bədbinliyə qapılmalarına, məyus olmalarına imkan verməməlidirlər. Məqsədyönlü auditoriyadankənar iş oğlan və qızların qarşılıqlı münasibətlərini müsbət istiqamətə yönəltməlidir. Təhsil müəssisələrində tərbiyə prosesini səmərəli qurmaqla mənəvi şüurun və düşüncənin, mənəvi davranış və adətlərin, mənəvi davranış təcrübəsinin və rəftar tərzinin, mənəvi təfəkkürün inkişafına nail olmaq mümkündür.

İnsan münasibətləri qarşılıqlı hörmətə və səmimiyyətə, qarşılıqlı anlamaya, qarşılıqlı güzəştə getməyə, bir-birinin vəziyyətini (sevincli və kədərli anlarını) başa düşərək ona uyğun hərəkət etməyə, bir-birinin köməyində durmağa və s. əsaslanır. Belə mövqe onlar arasındakı münasibətlərdə əlverişli, müsbət mənəvi və psixoloji mühit yaradır. Müəllim-tələbə münasibətlərində də belədir.

Müəllim-tələbə münasibətləri istər təlim prosesində, istərsə də auditoriyadankənar vaxtlarda səmərəli qurulmalıdır. Qarşılıqlı hörmətə, qarşılıqlı anlamaya əsaslanan münasibət müəllim-tələbənin ünsiyyətini asanlaşdırır, onları bir-birinə yaxınlaşdırır, müəllimin nüfuzunu yüksəldir, tələbə bir şəxsiyyət kimi qiymətləndirildiyini görüb təlimə maraq göstərir, elmlərə əzmlə yiyələnir, istedad və qabiliyyətini göstərir. Pedaqoji proses düzgün qurulduğu ali məktəblərdə tələbəyə pedaqoji prosesin bərabərhüquqlu üzvü kimi baxılır.

Ünsiyyət tələbə-müəllim münasibətlərində böyük rol oynayır. Müəllim–tələbə münasibətlərinin düzgün qurulması gənclərin təhsilinə, ali məktəbdə pedaqoji prosesin səmərəli təşkilinə inkan verir. Müəllimin şəxsiyyəti, peşəkarlığı, səriştəsi, nəzəri və metodik hazırlığı bu münasibətlərdə başlıca məsələdir.

Ulu öndər Heydər Əliyev deyirdi: «Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır» (1).

Tələbə oğlan və qızların mənəvi simasının formalaşmasında, daxili aləminin və əxlaqının saflaşmasında onlar arasındakı qarşılıqlı münasibətlərin xarakteri əhəmiyyətlidir. Tərbiyə prosesinə sosial həyatdakı münasibətlər də təsir göstərir. Bu təsir müsbət və mənfi olur. Ona görə də pedaqoji prosesin uğurlu aparılması üçün yaradılmış şərait, lazım olan şərtlər yalnız tələbə şəxsiyyətinin mənəvi cəhətdən təşəkkülünə və inkişafına kömək göstərəcək münasibətləri qaydaya salmamalıdır.

Tələbələr başəriyyətin qazandığı sosial və mənəvi təcrübəyə yiyələnməlidirlər. Onları etiketdə öz əksini tapmış düzgün hərəkət, rəftar qaydaları ilə tanış etməli və çalışmaq lazımdır ki, həmin tələbləri yerinə yetirsinlər. İctimai yerlərdə, institut və universitetin daxilində tələb olunan qayda və normaları gözləmək, bir-biri ilə, böyüklərlə münasibətlərində, öz-özlərinə münasibətlərində müsbət nəticələr verir. Tələbə şəxsiyyəti təkcə pedaqoji prosesin subyekti kimi nəzərdən keçirilə bilməz. O, gələcəyin mütəxəssisi, ailə başçısıdır. Ona görə başa düşmək lazımdır: tələbə şəxsiyyəti həm də sosialdır. Onun şəxsiyyəti formalaşma obyektindən ibarət olmaqla həmişə fəaldır. Tələbənin şəxsiyyəti eyni zamanda ictimai münasibətlərin obyekti sayılır. İnsan öz şüurunda mənəvi ideya və anlayışları, qayda və normaları əks etdirərək fəal şəkildə obyektiv münasibətlərə qoşulur, mənimsədiklərinə və yaratdıqlarına subyektiv münasibətə yiyələnir.

**Ədəbiyyat**


1. Ümummilli lider Heydər Əliyevin Azərbaycan müəllimlərinin qurultayında nitqi. «Azərbaycan müəllimi» qəz., 1998, 1 oktyabr


# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TARİX FƏNNİNİN TƏDRİSİNDƏ AVADANLIQ VƏ TƏDRİS RESUSRLARINDAN İSTİFADƏYƏ MÜASİR YANAŞMA İSTİQAMƏTLƏRİ


**Nərminə Məmmədova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ARTPİ*
E-mail: nermine_m@mail.ru.



***Açar sözlər:*** *avadanlıq və tədris resursları, tarix dərsi, məktəb, tarix müəllimi*
***Key words:*** *tools and Instruments, history lesson, school, history teacher.*
***Ключевые слова:*** *оборудование и учебные ресурсы, урок истории, школа, учитель истории*


XXI əsrin fərdlərini yetişdirən müəllimlərin fəaliyyətində faydalandıqları təhsil texnologiyaları və tədris resurslarının yeri və əhəmiyyəti danılmaz bir gerçəklikdir [1,12]. Sinifdə olan şagirdlər fərqli inkişaf səviyyəsinə və öyrənmə üsullarına malikdirlər. Öyrətmə fəaliyyətləri şagirdlərin nə qədər çox duyğu orqanlarına təsir edərsə, öyrənmə uzun müddətli olacaq və öyrənilən daha gec unudulacaq [3,14]. Tədqiqatlara görə insanların:

- oxuduqlarının 10%-i ;
- eşitdiklərinin 20%-i;
- gördüklərinin 30%-i;
- söylədiklərinin 70%-i;
- görüb eşitdiklərinin 50%-i;
- edib söylədiklərinin 90%-i yaddaşda qalır [3].

Fərdi fərqlilikləri nəzərə alaraq hazırlanmış avadanlıq-tədris resurslarından istifadə edilməsi, təhsil mühitinin zənginləşməsini təmin edərək öyrənmək imkanını artırır [2,15]. Şagirdlərin, öyrəndiklərindən zövq almalarını, dərsdə fəal iştirakını, öyrənilənin mənimsənilməsini və uzun müddət yaddaşda qalmasını avadanlıq-tədris resurslarından istifadə təmin edə bilir. Müəllimlər öyrənməyi konkret hala gətirmək, qalıcılığı təmin etmək və öyrətmə fəaliyyətlərinin keyfiyyətini artıra bilmək üçün avadanlıq-tədris resurslarından faydalanmalıdırlar [6].Tarix müəllimlərinin dərslərdə istifadə edəcəkləri xəritə, təpəgöz proyektoru, proyeksiya aparatı, film, slayd, şəkil, sxem, qrafik, birinci əldən qaynaqlar, rəsm və s. bu kimi avadanlıq-tədris resursları məsələsində kifayət qədər məlumat sahibi olmaları lazımdır [7].

Tarix fənni təbiətən keçmiş zamanda insanların zaman və məkan ilə əlaqəsindən ortaya çıxmış olan hadisə və faktları araşdırır. Şagirdlər müşahidə edə bilmədikləri və şahid olmadıqları keçmiş dövrlərə aid bir çox hadisələrlə qarşı-qarşıya qalırlar [4]. Bu səbəbdən də bir çox şagirdlər



tərəfindən anlaşılması çətin, mücərrəd bir fənn olaraq görünür və onların yetərincə diqqətlərini çəkmir [18]). Şagirdlərin bir qismi tarix dərslərini çox vaxt anlayışları, fakt və hadisələri əzbərləmək məcburiyyətində olduqları bir dərs olaraq görürlər [9].

"Şagirdlərdə tarixi anlayış bacarığının qazandırılmasında tarix xəritələrində təqdim edilən məlumatlar, müxtəlif qrafiklərdə verilən vizual, riyazi məlumatlar, tarixi fotoşəkil və memarlıq abidələrinin şəkilləri kimi fərqli vizual materiallarından istifadə böyük əhəmiyyətə malikdir".

Şagirdlərin tarixi bilik və bacarıqlarını inkişaf etdirmək üçün müəllimlər əsasən aşağıdakı sxemdə göstərilən avadanlıq və tədris resurslarından istifadə edirlər.

Tarix dərslərində şagirdlərin ən çox vizuallığı ön plana çıxardığı üçün diqqətlərini çəkən avadanlıq təpəgöz proyektoru, proyeksiya aparatı və kompüterdir.

Tarix müəllimlərinin dərslərdə zövq alaraq istifadə etdikləri materiallar arasında xəritə əhəmiyyətli yerlərdən birini tutur. Xəritə istifadə etmək dərsdə izah ediləcək mövzunu asanlaşdırır [5].

Tarix müəllimlərinin dərslərdə tez-tez istifadə etdikləri resurslar arasında şəkil, fotoşəkil və qrafiklər xüsusi yer tutur. Adətən qrafiklərdən dərslərdə mücərrəd məlumatları konkret məlumatlara çevirmək üçün istifadə edilir [20].

Tarix müəllimlərinin dərslərdə sevərək istifadə etdiyi materiallar arasında yazılı resurslar: mənbə və köməkçi kitablar, dərs kitabları, qəzet, birinci əldən mənbələr, o cümlədən mənbə, lövhə, gerçək əşya da vardır. Məsələn, şagird tarixin hər hansı bir keçmiş dövrünə aid köhnə pul gördüyü zaman sanki tarixə toxunduğunu hiss edir. O dövr dərhal şagirdin gözündə canlanır. Ona görə tarix dərslərində gerçək əşya istifadə etməyin də böyük əhəmiyyəti vardır.

Tarix müəllimlərinin dərslərdə istifadə etdikləri avadanlıq-tədris resurslarının *əhəmiyyəti:*

- vizuallıq mövzuların daha yaxşı öyrənilməsini və anlaşılmasını və möhkəmlənməsini təmin edir;
- təhsildə qalıcılığı, uzun müddətli yaddaşı təmin edir;
- dərsi konkretləşdirərək, monotonluqdan qurtardığı üçün şagirdin dərsdən zövq almasını təmin edir;
- şagirdlərin məlumatı sürətli bir şəkildə öyrənməsini təmin edir;
- şagirdlərin araşdırmağa sövq etməsini və öyrənməyi cazibədar hala gətirməsini təmin edir;
- şagirdlərə fərdi yanaşmağı təmin edir;
- şagirdlərin fərqli dünyagörüşü və fəaliyyətlərinin inkişaf etdirilməsini təmin edir;
- şagirdlərin keçmişi hiss etməsi və anlamasını təmin edir;
- şagirdlərin dərsə aktiv olaraq qatılmasın təmin edir;
- *tarix – əzbərdir* anlayışının dəyişməsini təmin edir [10].

Tarix müəllimlərinin dərslərdə avadanlıq-tədris resursu istifadəsində ən çox qarşılaşdıqları *çətinliklər:*

- kompüter, təpəgöz proyektoru və proyeksiya aparatının qeyri-kafiliyi;
- xəritə və əksetdirici pərdələrin az sayda və istifadəyə yararlı olmaması;
- elektron avadanlıqlarda yaranan texniki qəzalar;
- tədris proqramında avadanlıq-tədris resurslarının istifadəsinə kifayət qədər vaxt verilməməsi;
- şagirdlərin atlaslarını sinfə gətirməmələri;
- ağıllı taxta üçün infrastrukturun olmaması;
- müəllimlərin avadanlıq və resursdan istifadə zamanı şagirdləri dərsə motivasiya etməkdə çətinlikçəkmələri;
- müəllimlərin elektron avadanlıqla işləmək üçün kifayət qədər bilik və bacarıqlarının olmaması;
- bir çox hallarda tarix otağının başqa məqsədlərlə də istifadə edilməsi;
- bəzi avadanlıq-tədris resurslarının şagirdin səviyyəsinə uyğun olmaması;
- milli tədris resurslarının qeyri-kafi olması;
- resursların saxlanacağı bir yerin olmaması;
- sinif mühitində şagirdlərin çox olması;

Tarix müəllimlərinin avadanlıq-tədris resurslarının istifadəsində rastlaşdıqları ən böyük çətinlik elektron avadanlıqlarının məhdud sayda olmasıdır.

Bir çox hallarda məktəblərdə bir texnologiya sinfinin olması da istənilən zaman ondan istifadəni çətinləşdirir. Hətta, hər hansı bir mövzuyla əlaqədar slayd olsa belə, proyeksiya aparatı bir yerdə olduğundan ondan səmərəli istifadə etmək olmur.

Bu baxımdan hər sinifdə proyeksiya aparatının olması zəruridir. Bundan başqa bir çox hallarda proyeksiya otağının qapadılması kafi olmur. Digər bir çətinlik isə elektron avadanlıqlarda yaranan texniki qəzaları aradan qaldırmaq üçün texniki təminatın olmamasıdır. Bəzən hətta məktəb rəhbərliyi texnologiyaya kifayət qədər əhəmiyyət vermir və müəllimlərə də mane olurlar. Bunlardan başqa, dərs prosesində mövzuya kifayət qədər saat ayrılmadığı üçün slayd izləməyə zaman çatmır.

**Ədəbiyyat**


1. ALKAN, C. (1998) Eğitim teknolojisi, Ankara: Anı yayıncılık.
2. Yalın, H. İ., Öğretim teknolojileri ve materyal geliştirme. Ankara, Nobel Yayın Dağıtım Ltd. Şti. 2007.82.
3. DEMİREL, Ö., SEFEROĞLU, S.S.ve YAĞCI, E. (2004) Öğretim teknolojileri ve materyal geliştirme, Ankara: Pegem a yayıncılık.
4. PAYKOÇ, F. (1991) Tarih öğretimi, Anadolu Üniversitesi A.Ö.F. Anadolu Üniversitesi yayın no: 408 A.Ö.F. yayın no: 167.
5. ZAMAN, S.,GÜNAL, H. ve ZAMAN, N. (2011) Tarih öğretmenlerinin harita kullanımı ile ilgili düşünceleri üzerine bir araştırma: Erzurum örneği, Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 15(2), 205-218.
6. ADIGÜZEL, A. (2010) İlköğretim okullarında öğretim teknolojilerinin durumları ve sınıf öğretmenlerinin bu teknolojileri kullanma düzeyleri, Dicle Üniversitesi Ziya Gökalp Eğitim Fakültesi Dergisi, 15, 1-17.
7. 7.AVCIOĞLU, H. (2012) Zihin engelliler sınıf öğretmenlerinin araç-gereç kullanımına ilişkin görüşleri, International Journal of New Trend in Arts, Sports□Science Education, 118-133 http:// www. iojpe. org/ojs/ index. php/ IJTASE/ article/ view/ 59/73 EriĢim Tarihi: 29.05.2013.
8. ÖZTAŞ, S. (2008) Tarih öğretimi ve filmler, Kastamonu Eğitim Dergisi, 16(2), 543-556.
9. DEMİRCİOĞLU, Ğ.H. (2007) Tarih öğretiminde filmlerin yeri ve önemi, Bilig, 42, 77-93 http://www.yesevi.edu.tr/files/article/120.pdf EriĢim Tarihi: 03.06.2013.
10. 10.Aydın GÜVEN, ZEYNEP TAŞYÜREK,Tarih öğretmenlerinin derslerde kullanmış olduqları araç-gereçler haqqındakı görüşleri.Turkish Studies- International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 8/11 Fall 2013, p. 149-162, ANKARA-TURKEY.


## TƏLİMİN TƏKMİLLƏŞDİRİLMƏSİNDƏ PEŞƏ SEÇİMİNİN ROLU


**Həsənəli Eyvazlı**
*filologiya üzrə fəlsəfə doktoru*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: e.eyvazli@gmail.com



***Açar sözlər:*** *Yeni islahat, peşəkarlıq, təlimin təkmilləşdirilməsi, peşə seçimi, təhsilin məqsədi*
***Ключевые слова:*** *реформы, усовершенствование обучения, выбор профессии, цель образования*
***Key words:*** *new reform, professionalism, training improvement, choice of profession, teaching purpose*


Müasir günümüzdə peşə seçiminin düzgün təşkili məktəblərin qarşısında duran mühüm problemlərdəndir. Bir çox hallarda məktəbin son sinfinə gəlib çatan şagird öz gələcək həyatının istiqamətini müəyyən edə bilmir. Yəni hansı ali məktəbin, hansı peşə istiqamətinin onun gələcək həyatı üçün da lazımlı olacağını, ona uğur gətirəcəyini, cəmiyyətə hansı istiqamətdə gərəkli olacağını düşünüb tapa bilmir. Elə bunun nəticəsidir ki, bir çox hallarda orta məktəbi başa vuran



şagirdlər özləri istəmədən xarakterlərinə, arzularına uyğun olmayan peşələrə üz tuturlar. Bəzən də valideynlərinin arzu və istəklərinə uyğun olaraq müəyyən bir peşəni seçməli olurlar. Hər iki halda şagird özünün istəmədiyi istiqamətə yönəlmiş olur. Bəs onda şagird nə etməlidir? Öz həyat yolunu necə müəyyənləşdirməlidir? Yeni təhsil islahatının qarşıya qoyduğu ən mühüm problemlərdən biri elə budur. Əgər hər il orta ümumtəhsil məktəblərini qurtaran minlərlə tələbələrin hamısı ali təhsil müəssisələrinə qəbul olunsalar, onda hansı problemlər ortaya çıxa bilər?

Şagird 11 il orta məktəbdə təhsil alır. Bu illər ərzində müəllimin qarşısında qoyulan vəzifə təkcə ona bilik öyrətmək deyil, eyni zamanda yaşadığı ərazi üçün məqbul hesab edilən peşələr və onların xüsusiyyətləri haqqında məlumat verməlidir. Bununla da iş bitmir. Müəllim dərs dediyi sinifdəki şagirdlərin qabiliyyətlərinin, bacarıqlarının istiqamətini öyrənməli və şagirdləri də o istiqamətə yönəltməlidir. Lakin bu yönəldici təbliğat kor-koranə deyil, düşünülmüş şəkildə həyata keçirilməlidir.

Yeni təhsil islahatı təfəkkürün inkişafını ön plana çəkir. İslahat qanununda göstərilir ki, "təhsil təkcə bilik, bacarıq və vərdişlərin məcmusu və ya təlimin nəticəsi olsaydı, onda təlim prosesində iştirak edənlərin hamısının biliyi, bacarığı və vərdişləri eyni olmalı idi. Təhsil sadəcə bilik, bacarıq və vərdişlərin məcmusu deyil, təfəkkür prosesinin nəticəsidir". Belə olan halda hər bir müəllim şagirdlərin bilik, bacarıq və vərdişlərə yiyələnməzdən əvvəl peşələrə maraq dairələrini öyrənməli və bu istiqamət üzrə praktik fəaliyyətlərinin həyata keçirilməsini təmin etməlidir.

Bu işlər kortəbii deyil, düşünülmüş halda həyata keçirilməlidir. Birinci mərhələdə şagirdlərin yaşadığı və ətraf bölgələrdəki peşə sahələri düzgün müəyyənləşdirilməlidir. Həmin sahələrdə işləyənlərin iş şəraiti, davamlılığı, cəmiyyətə və ya dövlətə xeyri və nəhayət maddi gəliri dəqiqləşdirilməlidir. İkinci mərhələdə respublika səviyyəsində mövcud olan iş sahələri nəzərdən keçirilməlidir.

Müəyyənləşdirilən peşələr üzrə şagirdlərin təkcə marağı deyil, həm də biliyi, qabiliyyəti və dərketməsi nəzərə alınmalıdır.

Məlumdur ki, məktəbdə təhsilin və təlimin əsaslı həyata keçirilməsi üçün ailə ilə məktəbin qarşılıqlı əlaqəsi vacib şərtlərdəndir. Buna görə şagirdlərin peşələrə istiqamətləndirilməsində aşağıdakı mühüm şərtlər nəzərə alınmalıdır:

1. Regionda fəaliyyət göstərən peşə məktəblərinin profili müəyyənləşdirilməlidir.
2. Hər bir valideynlə əlaqə genişləndirilməli, uşağına təklif olunan peşə istiqamətinin mahiyyəti üzrə maarifləndirilməlidir.
3. Regionda mövcud olan peşələrin hansına uyğun qabiliyyətinin olması şagirdə başa salınmalıdır.
4. Mövcud iş sahələrində tələb və təklifin öyrənilməsi həyata keçirilməsi həyata keçirilməlidir.

Yeni təhsil islahatı qanununda da göstərildiyi kimi "Təhsil sahəsində islahatın əsas məqsədi məktəbəqədər, orta, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ-hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikası Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatının demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir".

Bu gün ölkəmizdə yeni təhsil islahatının tətbiqi sahəsində iş aparan tədqiqatçı pedaqoq-alimlər dünya təcrübəsinə əsaslanaraq aşağıdakılar nəzərə almışlar:

- şagirdlərin yaş səviyyəsi, dərketmə qabiliyyəti, maraq və ehtiyacları;
- müəllimin peşəkarlıq səviyyəsi;
- Fənnin məqsədləri;
- standartın reallaşmasına xidmət edən təlim məqsədləri və s.

Bu deyilənləri nəzərə alaraq bugünkü gəncliyin peşəkarlıq səviyyəsini, yaş səviyyəsini, dərketmə qabiliyyətini, maraq və ehtiyaclarını nəzərə alaraq gələcək həyata düzgün istiqamətləndirmək üçün hələ orta məktəbdə ciddi iş aparılmalıdır. Çünki bu gün dövlətimiz istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafına paralel qaydada nəzarət edir və gənclərin demoqrafik inkişafının düzgün həllinə çalışır.

Ümumtəhsil məktəbləri də təhsilin inkişaf etdirilməsində və təlimin təkmilləşdirilməsində bu mühüm amilləri nəzərə almalıdır.

# SOSİAL İNKİŞAF MƏKTƏBƏQƏDƏR TƏHSİLİN AKTUAL PROBLEMİ KİMİ

**Şəhla Əliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: aliyevashaxla@mail.ru

*Açar sözlər: məktəbəqədər, sosial, fəaliyyət, aktual, problem*
*Key words: pre-school, social , activities , urgent, problem*
*Ключевые слова: дошкольное, социальное, деятельность, проблема, актуальное*

Təhsil sisteminin təkmilləşdirilməsi üzrə müasir ideyalar cəmiyyətin, elmin, mədəniyyətin inkişafına uyğun olaraq onun məzmun və metodlarının optimal şəkildə yenilənməsinə olan tələbatların reallaşdırılması ilə bağlıdır. Təhsil sisteminin inkişaf etməsini istəyən cəmiyyətin əsas məqsədi – bəşəriyyətin qlobal problemlərini həll etməyə qadir olan dünya birliyində böyüməkdə olan nəsli aktiv yaradıcı həyat fəaliyyətinə hazırlamaqdır.

Cəmiyyətin müasir inkişaf şəraitində bu məqsədin reallaşmasına demokratik kübar təhsilin ali forması kimi təyin olunan elmi-humanist təhsil sisteminin paradiqması kömək edir ki, o da, mədəniyyət və dünyagörüşlərin sərbəst şəxsiyyətlərarası dialoqu, inkişafetdirici təhsil texnologiyalarının optimal tətbiqi, bütün təhsil qaydalarının təbii humanitarlaşdırılması, müasir aləmin qavranılması əsasında dünya mədəniyyətinin bilik və dəyərlərinin uşaqlar tərəfindən şüurlu şəkildə mənimsənilməsini təmin edir.

Uşaqlıq – insan həyatının doğulandan psixoloji yetkinliyə çatana kimi olan dövrüdür ki, bu dövr ərzində onun sosial inkişafı, cəmiyyətin üzvü kimi təşəkkül tapması baş verir. Sosial inkişaf prosesi zamanı uşaq yaşadığı cəmiyyətin dəyərlərini, ənənələrini, mədəniyyətini mənimsəyir. Oynayarkən, məşğul olarkən, böyüklərlə və yaşıdları ilə ünsiyyətdə olarkən o, digər insanlarla yaşamağı, onların maraqlarını, cəmiyyətdə qəbul olunmuş davranış norma və qaydalarını nəzərə almağı öyrənir, yəni sosial cəhətdən səriştəli olur.

Kiçik vətəndaşın sosial inkişafına nə təsir edir? Şübhəsiz ki, bu prosesin kökləri ilk öncə ailə ilə bağlıdır. Məhz ailə bilikləri, dəyərləri, münasibətləri, ənənələri nəsildən nəslə ötürür. Ailədə olan abu-hava, uşaq və valideynlər arasında olan isti münasibətlər, ailə daxilində qəbul olunmuş və valideynlərin öz uşaqlarına ötürdüyü norma və qaydalarla təyin olunan tərbiyə üslubu – bunların hamısı körpənin ailədəki sosial inkişafına böyük təsir göstərir. Lakin uşaq bağçaya gedirsə, o günün çox hissəsini orada keçirir və bu zaman onun sosiallaşması prosesinə tərbiyəçilər və uşaq bağçasının digər işçiləri də cəlb olunur.

Qrupun tərbiyəçisi uşaq üçün çox vacib bir insandır. Uşaq ona etibar edir, onun şübhəsiz nüfuza, mümkün olan bütün müsbət keyfiyyətlərə – gözəlliyə, xeyirxahlığa, müdrikliyə malik olduğuna inanır. Bu təəccüblü deyil, çünki uşağın uşaq bağçasındakı həyatı bütövlükdə əsasən böyükdən asılıdır. Uşağın nəzərində məhz o, oynamaq və ya gəzməyin, şəkil çəkmək və ya qaçmağın, hətta sakitcə oturub dinləməyin vaxtını təyin edir. Tərbiyəçi müxtəlif maraqlı oyun, rəqs, məşğələ, tamaşalar qurur, kitablar oxuyur, nağıllar, hekayələr danışır. O, uşaqlar arasında baş verən münaqişələri həll edir, qaydalar qoyur, o hər şeyi bilir və hər zaman kömək edə, təriflәyə, bəzən isə fikir verməyə və hətta danlaya bilər.

Uşağın həyatında tərbiyəçi mühüm əhəmiyyət kəsb edir. Onun şəxsiyyətinin, təfəkkürünün və davranışının formalaşdırılması üzrə əsas məsuliyyət tərbiyəçinin üzərinə düşür.

Bundan başqa, uşaqla qarşılıqlı təsir taktikasını və onun davranışına nəzarət üsullarını düzgün seçməklə tərbiyəçi ailənin qeyri-əlverişli təsirini əhəmiyyətli dərəcədə bərpa edə bilər.

Uşağın sosial inkişafının əsas şərtlərindən biri cəmiyyətin inkişafı, münasibətlərin qurulması, yaşıdları ilə dostluq münasibətlərinin formalaşmasıdır.

Sosial inkişaf prosesi mürəkkəb bir prosesdir ki, onun gedişində uşaq bəşəriyyətin ümumi yaşayış normalarını mənimsəyir və özünü sosial subyekt olaraq daim kəşf edir, təsdiqləyir. Uşaq



azadlıq dərəcəsinin genişləndirilməsinə olan meylliklәri qorumaqla, özünün subyekt fəallığını dərk etməklə, sosial aləmə daxil olmaqla onun qarşısında sosiallığın mənimsənilməsi imkanları açılır.

Məktəbəqədər yaş dövründə fəaliyyətin inkişafetdirici potensialı onun spesifik xüsusiyyətləri ilə bağlıdır:

- reallığın çoxsaylı problemlərini tez qəbul etmək;
- təxəyyüldə bütöv obyekti qura bilmək imkanını təmin edən universal plastiklik;
- təşəbbüskarlıq;
- motivasiyanın praqmatik olmaması;
- çoxfunksiyalılıq;
- sinkretiklik;
- məna tərəfinin əməliyyat-texniki tərəflə müqayisədə üstünlüyü;
- emosional dolğunluq və ifadəlilik;
- uşağın böyük obrazına istiqamətlənməsi .

Artıq məktəbəqədər yaş dövründə, sosial təcrübə ictimai təcrübənin qavranılmasının nəticəsi olaraq sosiallaşdırma-fərdiləşdirmə prosesi zamanı mühüm əhəmiyyət kəsb edir.

Sosial inkişaf iki yolla həyata keçirilir: -

- insanın sosial reallıqla və ətraf aləmlə təbii qarşılıqlı təsirinin gedişində və insanın sosial mədəniyyətə məqsədyönlü şəkildə qoşulması prosesində;
- sosial mədəniyyətin müxtəlif aspektlərindən ibarət olan məqsədyönlü təhsil vasitəsilə.

Məktəbəqədər yaşlı uşaqların sosial inkişaf məsələlərinin reallaşdırılması, pedaqoji metodologiyanın ümumelmi səviyyəsinin əsas yanaşmalarına uyğun olaraq qurulan bütöv pedaqoji sistem olduqda daha effektli olur.

Sosial inkişaf probleminin əsas konseptual tezislərinə qısaca nəzər saldıqda aşağıdakı nəticələrə gəlmək olar:

– sosial inkişaf sosiallaşdırma-fərdiləşdirmənin nəticəsi olmaqla, ardıcıl, çoxtərəfli prosesdir. Sosiallaşdırma-fərdiləşdirmənin gedişində insanın "ümumi sosiallığa" qoşulması və özünü sosial mədəniyyətin subyekti olaraq daim kəşf etməsi, təsdiqləməsi baş verir;

– məktəbəqədər yaş dövrü insanın sosial inkişafının senzitiv dövrüdür;

– məktəbəqədər yaşlı uşaqların sosial inkişafı, əşyavi aləmin və insanlar arasındakı münasibətlər aləminin mənimsənilməsi üzrə aktual, müxtəlif istiqamətli fəaliyyətdə həyata keçir;

– məktəbəqədər yaşlı uşaqların sosial inkişafının əsas istiqamətləri bunlardır: sosial istiqamətlənmə, reflektor tənzimləmə, təqlid, emosional identifikasiya, normativ və induktiv tənzimləmə, sosial təcrübə, mədəniyyəti yaratma, nəzarət, qiymətləndirmə, refleksiya;

– sosial inkişaf həm sosial amillərin təbii təsiri zamanı, həm də məqsədyönlü, təşkil olunmuş pedaqoji prosesdə həyata keçirilir;

– məktəbəqədər yaşlı uşaqların sosial inkişafının effektivliyi pedaqoji prosesin proqramının, texnologiyasının və təşkilinin qurulmasına olan əsas yanaşmaların: akseoloji, kulturoloji, humanistik, antropoloji, sinergetik, polisubyekt, sistemli-strukturlu, kompleks, işgüzar, mühit, şəxsi-istiqamətləndirici yanaşmaların həyata keçirilməsi ilə müəyyənləşir;

– məktəbəqədər yaşlı uşaqların sosial inkişafının məzmunu sosial identifikasiyanın bu və ya digər yaş dövründə üstünlük təşkil edən müxtəlif əsasları ilə müəyyənləşir: kiçik məktəbəqədər yaş dövrü – növ və nəsil identifikasiyası; orta məktəbəqədər yaş dövrü – növ, nəsil, cinsi identifikasiya; yuxarı məktəbəqədər yaş dövrü – növ, nəsil, cinsi, milli, etnik, hüquqi identifikasiya.

Hər bir uşağın sosial inkişafının effektivliyi məktəbəqədər yaşlı uşaqların yaş, cinsi, milli xüsusiyyətləri nəzərə alınmaqla nəticələrin vaxtında və keyfiyyətli monitorinqi ilə müəyyənləşir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Dövlət standartı və proqramı. Bakı, 2010.
2. Əliyeva Ş.Q.Məktəbəqədər təhsilin aktual problemləri. Bakı: ADPU, 2010.
3. Əliyeva Ş.Q.Məktəbəqədər pedaqogika. Bakı, ADPU, 2010.
4. Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: "АРКТИ", 2006.

Ш.Алиева

**Социальное развитbе как актуальная проблема дошкольного образования**

*Резюме*

Процесс социального развития, сложный процесс. В ходе этого процесса ребенок усваивает общие житейские нормы и будучи социальным субъектом самоутверждается.

Ребенок защищая свою предрасположенность, осознавая субъективную активность, вступает в социальный мир, и перед ним открываются социальные возможности.

Sh.Aliyeva

**Social development of the child as urgent problem of the pre-school education**

*Summary*

Process of social development is complex process that child appropriates general life normses of the mankind in his going-away and social subject and always discovers yourself, affirms. Child inclinations being are opened opportunities appropriating in front of him of the sociality including to social world with perceiving his subject activity with guarding

## TƏLİMDƏ STRATEJİ HƏDƏFLƏR VƏ İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI TƏHSİLDƏ

**Tofiq Məmmədov,**
*pedoqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: tofiqm.rambler.ru

***Açar sözlər:*** *informasiya-kommunikasiya texnologiyaları, kompyuter, təlim prosesi, təlimdə müasir texnologiyalardan istifadə, strateji hdflər, təlimdə fərdiləşmə*
***Ключевые слова:*** *инфopмационно-коммуникационные технологии, компютер, процесс обучения, использование современных технологий обучения, стратегический цель*
***Key words:*** *Information-communication texnology, computers, the use of modern teaching texnologies, strategic targets, teaching specializing*

İKT-dən cəmiyyətin bütün infrostukturlarda («Elektoon Azərbaycan» «Asan Xidmət» Dövlət Proqramı) tətbiq edən və «Azərbaycan-2020; Gələcəyə baxış» İnkişaf Konsepsiyasını həyata keçirməyi özünə strateji hədəf seçmiş ölkə Azərbaycandır.

Göstərilən keyfiyyətləri özündə ehtiva edən bir ölkənin təməlində mün-təzəm yeniləşən, təkmilləşən, yüksək keyfiyyətli təhsil sistemi dayanmalıdır. Bu hədəflərə çatmaq üçün 2013-cü il 24 oktyabr tarixli Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin sərəncəmi ilə «Azərbaycan Respublikasında təhsil ininkişafı üzrə Dövlət Strategiyası» qəbul edilmişdir.

Təhsil strategiyasında «səriştəyə əsaslanan təhsilin şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması» ön plandadır. Sual oluna bilər sriştəyə əsaslanan təhsil dedikdə nə başa düşülür? Səriştəyə əsaslanan təhsilin formalaşması üçün öncə onu tədris edən mütəxəsisin səriştəli olması zəruridir. Bu tip mütəxəsis bir sıra keyfyyətlərə malik olmalıdır: Bu keyfiyyətlər içərisində aşağıdakılar proritet təşkil edir:

1. Təhsil verdiyi sahə üzrə peşəkar olmaqla yanaşı öz ixtisasını mükəmməl bilməlidir.
2. Müasir təlim texnologiyalarından, xüsusi ilə İKT-dən baş çıxarmaqla yanaşı, onu tədris prosesində səmərəli tətbiqetmə bacarıqlarına malik olmalıdır.
3. Təlimalanın səriştəliliyi onun mənimsədiyi bilik və bacarıqları səmərəli şəkildə təcrübədə tətbiq etməsi ilə müəyyən edilir.

Strageyada nəzərdə tutulan təhsilin şəxsiyyətyönümlüyü dedikdə isə təhsilalanların keyfiyyətli təhsil alması ilə ynaşı azərbaycançılıq ideyalarına sadiqlik, mili mənəvi dəyərlərə, insan hüquq və azadlıqlarına hörmət edən, tolerant, müstəqil və kreativ düşüncəyə malik, müasir təlim



texnologiyaların-dan istifadə etməyı bacaran vətəndaş və şəxsiyyətin formalaşdırılması nəzərdə tutulur.

Bu keyfiyyətlərin formalaşdırılmasında öyrənənlərin ünsiyyətqurma və təqdimetmə bacarıqlarının inkişaf etdirilməsinin xüsusi rolu vardır. Bu keyfiyyətlərin formalaşdırılması üçün tədris prosesində təlimalanın – öz fikr və düşüncələrini sərbəst, səbirlə, təmkinlə, tələsmədən ifadə etməsi çox vacibdir. BMT-nin bütün üzv dövlətlərinin qəbul etdiyi üçüncü minilliyin inkişaf məqsədləri kimi qlobal tərəfdaşlıün inkişaf etdirilməsi istiqamətində göstrilir ki, informasiya-kommunikasiya texnologiyalarından (İKT) bəhrələnmək imkanı yaradılmalıdır. İnkişaf etməkdə olan bütün ölkələr üćün cox böyük əhəmiyyətə malik olan İKT, cəmiyyətin və iqtisadiyyatın inkişafına ciddi təsir göstərir. İKT sektoru cəmiyyətin və iqtisadiyyatın müasir infrastrukturunun əsası olmaqla ölkə iqtisadiyyatının, mədəniyyətinin, elmin, təhsilin, səhiyyənin, təhlükəsizliyin, idarəetmənin inkişaf etdirilməsinin əsas mənbələrindən birinə cevrilir. Son illər təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi və təhsildə onun tətbiqinin dünya standartları səviyyəsinə çatdırılması ölkəmizdə prioritet istiqamətlərdən biri olmuşdur. Bu dövrdə təhsil sistemində İKT-nin tətbiqi sahəsində müxtəlif Dövlət Proqramları, layihələr və tədbirlər hazırlanıb həyata keçirilmişdir ki, bu da ölkənin təhsil sahəsində aparılan islahatların çox vacib mərhələlərindən biri olmaqla təhsil müəssisələrində İKT infrastrukturunun qurulmasına yönəlmişdir.

Təhsildəki mənfi halların aradan qaldırılmasında İKT-dən istifadə etməklə təlimin fərdiləşməsinin xüsusi rolu vardır. Təlimin fərdiləşdirilməsinin tədris prosesində təmin olunması başqa təlim prinsiplərinə nisbətən müəllim üçün bir qədər çox vaxt aparır. Müəllim hər bir şaüird üçün proqramın tələblərini üözləməklə fərdi tapşırıqlar tərtib etməli olur. Sinifdə 20 şaüird olarsa, hər şaüirdə 5 tapşırıq hazırlansa, sinif üçün 100 tapşırıq hazırlamaq lazımdır. Öz işini sevən və yaradıcı fəaliyyətlə məşğul olan müəllim üçün bu bir o qədər də çətinlik törətmir. Riyaziyyat dərslərində bu işi təşkil etmək bir o qədər problem deyildir. Beləki, riyaziyyat dərsliklərində kifayyət qədər tapşırıqlar vardır. Bu tapşırıqları şagirdlərin sayına müvafiq olaraq tərtib etmək olar. Əgər çatışmazlıq olarsa əlavə ədəbiyyatlardan və ya müəllim tərəfindən də şagirdlərin bilik səviyyəsinə uyğun olaraq tərtib edilə bilər. Kifayyət qədər kompüteri olan məktəblərdə-bir şagirdə bir kompüter prinsipi ilə, təlmin fərdiləşməsi daha yaxşı təşkil olunar.

Təlimdə İKT-dən istifdə etməklə onun fərdiləşdiləşməsi təmin olunduqda, şaüirdlərin bir-birindən köçürmə kimi mənfi halların qaşısını almaq olar. Təlimin fərdiləşməsi hər bir şaüirdə verilmiş tapşırığın (verilən tapşırıqlaqar məzmunca eyni formaca müxtəlif olur) sərbəst öz bilik və bacarığına müvafiq həll olunmasını şərait yaranır. Tədrisin bu formada təşkili şaüirdləri həmdə üələcəkdə ali məktəblərə qəbul olması üçün test imtahanlarına hazırlaşmasına zəmin yaradır. Şaüird artıq dərk edir ki, o yalnız öz biliyinə üüvənməklə imtahanlarda müvəffəqiyyət qazana bilər.

Taşrıqlar tərtib edilərkən şaüirdlərin bilik səviyyəsi nəzərə alımalıdır. Şaüirdlərin kompüterləri müəllimin stolundakı kompüterlə əlaqəli olmalıdır ki, hər bir şaüirdlərin işinə müəllim tərəfindən nəzərəti etməsi mümkün olsun. Aparılan sorğular, müşahidələr üöstərir ki, İKT vasitəsi ilə təşkil olunan dərslər şaüirdləri çox maraqlandırmaqla yanaşı, həmdə onların təlimə həvəsini artırır.

Təlim prosesində şaüirdlərin müstəqilliyinin inkişaf yolları və qaydaları müxtəlif olub, qabaqcıl müəllimlərin dərslərində ayrı-ayrı formada, tədris işinin sadə və mürəkkəb növlərində özünü aydın üöstərir, bu isə öz növbəsində müxtəlif didaktik pryomların tədbiqi ilə şərtlənir. Dərsin bütün mərhələləri şaüirdlərə yüksək ideya tərbiyə etməklə yanaşı, vətənimizə, xalqımıza ən layiqli vətəndaşlar kimi yetişib müstəqil həyata qədəm qoymasına şərait yaratmalıdır.

**Ədəbiyyat**

1. «Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası».
2. Məmmədov T. Ə. Təhsildə İKT. Naxçıvan: Əcəmi, 2011.
3.Гершунский В. С. Компютер в зале сфера образование. М., 1987.
4.www/. edu.gov.az.
5/. www/.mektebli/.president.az.

# AZƏRBAYCAN DİLİNDƏ FONOSEMANTİKANIN ÖYRƏNİLMƏSİNDƏ MÜXTƏLİF METOD VƏ TEXNOLOGİYALARIN TƏTBİQİ

**Sahilə İbrahimova,**
*ADPU-nun filologiya fakültəsinin tyutoru*
E-mail: Sahila.ibrahimova@yahoo.com

*Açar sözlər: paronimlər, antonimlər, şeir, səs, prinsip, semantik*
*Ключевые слова: паронимы, антонимы, стихотворения, звук, принцип, семантическое*
*Key words: paronims, antonyms, poetry, sound, in principle, semantic*

Qloballaşma gedən dünyamızda təhsil islahatları ilə yanaşı, dünyada gedən elmi yeniliklərə inteqrasiya da son dərəcə əhəmiyyətlidir. Dövrümüz texnologiya əsridir və İTdan nəinki yazılan məlumatların verilməsindən, o cümlədən insan psixologiyasını müxtəlif aspektlərdən araşdırmaq, o cümlədən də sözlərdəki səsin məna tutumunu da analiz etmək indi mümkündür. Sözlərdəki səsin mənasını dilçilikdə fonosemantika adlı elmi öyrənir ki, bu elm Avropa və Rusiyada keçən əsrin ortalarından dinamik şəkildə inkişaf etməsinə baxmayaraq, Azərbaycan elmində hələki bir yenilikdir. Fonosemantikanı öyrənmək bizə leksikanın psixologiya ilə əlaqəsini göstərmiş, eyni zamanda sözdəki hər bir səsin məna ilə bağlılığını sübut etmişdir.

Azərbaycan dilində fonosemantikanı öyrənmək üçün daha çox leksik kateqoriyalardan istifadə olunur. Çünki, omonim, sinonim, antonim, paronim və tabu sözlər fonosemantik baxımından maraqlı olur. Misal üçün omonimlər yalnız məna fərqi ilə seçilən sözlərdir ki, onların fonosemantik xüsusiyyətlərini öyrənmək son dərəcə əhəmiyyətlidir. Antonimlik isə bir-birinə zidd anlayışların qarşı-qarşıya qoyulması nəticəsində yaranır. Antonimliyin konsepsiyasında əsas xüsusiyyət onun cüt olmasıdır: bu cütlüyün biri pozitiv, biri isə neqativ olur. Neqativ tərəfin fərqləndirici xüsusiyyəti özündə "deyil" mənasını daşımasıdır. Semantik baxımından da antonimlər oxşar mənalarına görə bir-birinə qarşı qarşıya qoyulmuş "müsbət" və "mənfi" (şərti olaraq) komponentlərlə xarakterizə olunur:

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Əvvəl | 19 | 54% | 62 | 40% | 19 | 14% |
| Sonra | 73 | | 22 | | 5 | |
| Yavaş | 44 | 43% | 36 | 36% | 20 | 7% |
| Cəld | 87 | | 0 | | 13 | |
| | | | | | | |
| Az | 100 | 46% | 0 | 35% | 0 | 11% |
| Çox | 54 | | 35 | | 11 | |

Aparılan tədqiqatlar sübut edir ki, antonim cütlüklərin əksəriyyəti yalnız leksik anlamın əksmənalılığı ilə deyil, eyni zamanda fonosemantik ziddiyyət üzərində də qurulub.

Paronimlərin fonosemantikasını öyrənərkən biz, onların (paronimlərin) nitqi və bədii əsərləri zənginləşdirdiyinin şahidi olduq. Paronimlər semantik nöqteyi-nəzərdən kəskin şəkildə fəqli olsalar da, fonosemantik nöqteyi-nəzərdən olduqca yaxındırlar. Paronimlərin fonosemantikası onlardan bədii əsərlərdə üslubi priyom kimi istifadə etməyə imkan verir. Paronimlərin öyrənmək üçün biz poliqram aparatından bəhs etdik. Poliqram vasitəsilə: fon-reaksiya-bərpa-fon effekti qeydə alınmışdır.

Məlumdur ki, dildəki fonetik hadisə və qanunlar hər bir milli dilin öz xüsusiyyətləri əsasında yaranır. Hər sinonim sözün məna çalarının təsviri üçün müsbət, mənfi və neytral səs əlamətləri faizlə hesablanmış, sonra isə sinonim cütlüyünün konnotativ əlamətlərinin fərqi qruplara görə təyin edilmişdir. Fərq dominant sinonim cütlüyü ilə müqayisə edilərək tapılmışdır. Belə ki, məhz dominantlıq sinonimlər üçün "hesablama nöqtəsi" təşkil edir:



| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Gözəl | 89 | 51% | 61 | 35% | 29 | 17% |
| Qəşəng | 76 | 45% | 11 | 62% | 7 | 5% |
| Göyçək | 42 | 39% | 36 | 48% | 26 | 9% |
| | | | | | | |
| Cəld | 87 | | 0 | | 13 | |
| Az | 100 | 46% | 0 | 35% | 0 | 11% |
| Çox | 54 | | 35 | | 11 | |

Onu da qeyd edək ki, fonosemantikanın hesablanması üçün poliqram aparatından, antonim və sinonimləri öyrənərkən isə A.P.Juravlovun məşhur sorğu üsulundan istifadə etmişik. Bu metodlardan savayı başqa texnologiyalar və proqramlar da mövcuddur. VAAL proqramı buna misaldır. 1992-ci ildə rus alimlərinin tərtib etdiyi bu proqrama hazırda müxtəlif dillərin lüğətlərini artırmaqla sözlərin, mətnlərin fonosemantik mənasını açmaq mümkün olur.

Ümumiyyətlə Azərbaycan dilində leksik kateqoriyaların fonosemantikasını öyrənmək bizə lüğət fondumuzdan düzgün istifadə etməyə, hər bir sözə zərgər həssaslığı yanaşaraq onun ən xırda məna çalarına qədər incələməyə imkan verir. Leksik və poetik paronimlərin fonosemantikasını öyrənərkən müxtəlif əsərlərin bədii mətni tədqiqata cəlb olunur ki, bu da onların məna qatlarına daha dərindən nüfuz etməyə imkan verir. Tabu sözlərin fonosemantikasını öyrənərkən hər bir sözün yaranma etimologiyası araşdırılır, məfhumun daşıdığı məna fonosemantik aspektdən də təhlil olunur.

Sözlərin fonosemantikasını öyrənmək bizə müxtəlif texnologiyadan istifadə etmək zərurəti yaradır. Nəticədə biz, yeni aparatlar, proqramlar və onların işləmə texnikası ilə tanış oluruq. Bundan əlavə leksik kateqoriyaların fonosemantikasını öyrənmək üçün tərtib etdiyimiz cədvəllər əsasında müxtəlif sorğular aparırıq. Bu sorğular isə bizə həm sosiallaşmada, həm də müştərək elmi mübadilədə olmağa vasitə olur.

### Ədəbiyyat

1. B. Xəlilov. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008.
2.Воронин С.В. Основы фоносемантики. Л., 1982.
3.Воронин С.В.Фоносемантикаиграмматика // Проблемы фоносемантики / Тезисы выступлений на совещании. М., 1989.
4. Журавлев А.П. Вопросы семантики. Калининград, 1978.
5. Горелова И.И.Фоносемантическиефункциипродленных гласных // Проблемы фоносемантики. М.: Свет, 1989.

**С. Ибрагимова**

**Применение различных методов и технологий в изучении фоносемантики в азербайджанском языке**

*Резюме*

В результате исследования выявлено, что паронимическую аттракцию в лирических стихотворениях можно весьма часто назвать конструктивным принципом. Ход лирического сюжета стихотворения и образная структура их развернутых фрагментов могут существенно направляться звуковой формой ключевых слов.Здесь также говорится об антонимии и синонимической парадигмы.

**S. Ibrahimova**

**Application of various methods and technologies in studying of phonosemantics in the Azerbaijani language**

*Summary*

It is known that the at the semantic paronims attraksiya, antonimic paradiqms and antonims are always associated with the formation of the art image. Which is similar to the sound of those words are put in positions more figures. Paronims` relationships and comparisons with the various components of metaphor further develop these relations.

# DİYARŞÜNASLIQ MATERİALLARINDAN İSTİFADƏ ETMƏKLƏ III SİNİFDƏ HƏYAT BİLGİSİ FƏNNİNİN "KÜLƏK NECƏ YARANIR?" MÖVZUSUNUN TƏDRİSİ

**Məhbubə Əsgərova,**
*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*
E-mail: mahas131@mail.ru

*Açar sözlər: Həyat bilgisi, təhsil, tərbiyə, şagird, müəllim, diyarşünaslıq, Naxçıvan.*
*Ключевые слова: знание о жизни, образование, воспитание, школьник, предподаватель, краеведение, Нахчыван*
*Key words: life knowledge, study, educational, student, teacher, ethnographic, Nakhchivan*

Xüsusilə də ibtidai siniflərdə diyarşünaslıqla bağlı biliklərin verilməsinə ehtiyac duyulur. Öyrədilən biliklər kiçik yaşlı məktəblilərin həyatı, yaşadığı yerin (kəndin, şəhərin, rayonun və s) təbiəti, tarixi, adət-ənənələri və s ilə əlaqələndirildikdə mənimsəmə səviyyəsi yüksəlir. Çünki bu yaş dövründə şagirdin təxəyyülü müəyyən əyani vasitəyə istinad etmədikdə, o, təsvir edilən hadisəni aydın təsəvvür edə bilmir. Onların təxəyyülü xarici aləmdən aldığı canlı təəssüratdan bəhrələnir. Odur ki, müəllim mövzunun diyarşünaslıq imkanlarını müəyyənləşdirməli və təlim prosesində onlardan istifadə etməlidir.

Həyat bilgisi fənninin "Evimiz-yer kürəmiz" bölməsinin "Külək necə yaranır?" mövzusunu diyarşünaslıq materiallarından istifadə etməklə keçmə mümkündür:

*MÖVZU: Küləklər necə yaranır?*
*Məzmun xətti:* Təbiət və biz. Sağlamlıq və təhlükəsizlik.
*Standart: 1.1.1.* Varlıq və hadisələr arasındakı əlaqəni sadə formada şərh edir.
1.1.2. Maddələrin və hadisələrin təbiətini öyrənmək üçün kiçik təcrübələr aparır və nəticələri izah edir.
4.3.1. Fövqəladə halları səciyyəvi xüsusiyyətlərinə görə izah edir.
*Məqsəd: 1.*Təbiətdə küləyin təsiri ilə baş verən dəyişiklikləri sadə şəkildə şərh edir
2. Küləyin yaranmasının səbəbini sadə formada izah edir.
3. Təbiətdə baş verən hadisələri müşahidə edərək düzgün nəticələr çıxarır
*İnteqrasiya:* Riyaziyyat. 2.3.2, 4.1.1; İnf 1.2.2; F.t. 2.2.3.
*Dərsin tipi:* Yeni bilik və bacarıq formalaşdıran.
*İş formaları:* Qruplarla iş.
*İş üsulları:* Müzakirə, müşahidə.
*Resurslar:* Dərslik, iş dəftəri, iş vərəqləri.

DƏRSİN GEDİŞİ.

*Motivasiya:* Mövzusunun tədrisinə başlayarkən müəllim şagirdlərə "Hansı təbiət hadisələrini tanıyırsınız" – sualını verdi. Cavabları təhlil edərək, müəllim qeyd edri ki, təbiət hadisələrindən biri də küləkdir. Lakin bu təbiət hadisəsini digərlərindən fərqləndirən bəzi xüsusiyyətlər vardır.

*Tədqiqat sualı:* Müəllim: "Küləyi digər təbiət hadisələrində fərqləndirən xüsusiyyətlər hansılardır?

*Tədqiqatın aparılması:* Dərslikdəki "Külək necə yaranır?" mətni oxunur. Bu mətn vasitəsilə şagirdlər küləyin səmada buludları hərəkətə gətirdiyini, soyuq havanın isti yerlərə doğru hərəkəti nəticəsində yarandığını, onu əhəmiyyəti, zərərləri barədə məlumatları öyrənməklə yanaşı, respublikamızın paytaxtı Bakı şəhərinin "küləklər şəhəri" adlandığını, bunun səbəbinin isə Bakının Xəzər dənizinin sahilində yerləşməsi olduğunu, dəniz kənarında yerləşdiyinə görə burada tez-tez küləklərin əsdiyini, Bakı və Sumqayıt şəhərlərində əsən sərin küləyin "Xəzri", isti küləyin isə



"Gilavar" adlandığını öyrənirlər. Mətnin oxunuşu qurtardıqdan sonra müəllim Naxçıvanın iqlimi ilə bağlı məlumatları şagirdlərə çatdırır:

- Naxçıvan Muxtar Respublikasında ən küləkli yer Culfa rayonudur. Bu ərazi özünəməxsus relyefə malik olduğundan burda, xüsusilə də Araz çayına yaxın yerlərdə mütəmadi olaraq və əsasən bir istiqamətə külək əsir. Buna görə burdakı ağaclara nəzər yetirsəniz görəcəksiniz ki, onlar bir istiqamətə əyilmiş vəziyyətdə dayanmışlar. Lakin Naxçıvan şəhərinin relyefi elədir ki, burda o qədər də çox və güclü külək olmur.

Sonra şagirdləri 4 qrupa bölünür. Qruplara iş vərəqi verilir:

| Küləyin yaranma səbəbləri | Küləyin təbiətə təsiri | Küləyin varlığını necə hiss etmək olar |
|---|---|---|
| | | |

*İnformasiya mübadiləsi:* Qrup nümayəndələri cavabları təqdim etdilər. Qruplar bir-birilərini aşağıdakı meyarlar üzrə qiymətləndirdi:

| Qrupun nömrəsi. | Tapşırığın tam və düzgün yerinə yetirilməsi | Dinləmə bacarığı | Dərsdə fəallıq (sualların verilməsi,səhvlərin müəyyən edilməsi) | Əməkdaşlıq | Cəmi |
|---|---|---|---|---|---|
| I | | | | | |
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

*İnformasiya müzakirəsi:* Qrupla öz cavablarını təqdim etdikdən sonra müəllim şagirdlərə aşağıdakı sualları verir, müzakirə aparılır: Bakı nə üçün "küləklər şəhəri" adlanır? Külək necə yaranır? Naxçıvanda "Xəzri" və "Gilavar" küləkləri olurmu?

*Tətbiqetmə:* Şagirdlər iş dəftərinin 14-cü səhifəsindəki tapşırıqları yerinə yetirir və müəllim onların düzgünlüyünü yoxlayır.

*Nəticə və ümumiləşdirmə*: Dərsin sonunda müəllim şagirdlərin diqqətini tədqiqat sualına yönəldir, şagirdlər belə nəticəyə gəlirlər ki, külək hava kütlələrinin yerdəyişməsi ilə bağlı yaranır. Təbiətdə küləyin öz funksiyası var. O, buludları müxtəlif məsafələrə qovur, bitkiləri tozlandırır. Tozlanma olmasa bitkilər bar verməz.

*Qiymətləndirmə:* Müəllim şagirdlərin dərsdəki fəaliyyətini nəzərə alaraq qiymətləndirmə aparır:

*Ev tapşırığının verilməsi:* Dərsin sonunda müəllimə şagirdlərə ev tapşırığı olaraq bir həftə ərzində Naxçıvan üçün hava proqnozunu dinləyib külək haqqında məlumatı qeyd etmələrini tapşırdı.

Bu cür ev tapşırığının verilməsi diyarşünaslıq baxımından çox əhəmiyyətlidir.

**Ədəbiyyat**

1. O. Həsənli. Şagird şəxsiyyətinin formalaşdırılması prosesində diyarşünaslıq materiallarından istifadənin sistemi. Bakı: Elm, 2002. -
2. Mehdiyeva G, Bayramova F. Həyat bilgisi: Ümumtəhsil məktəblərinin III sinfi üçün dərslik. Bakı: Aspoliqraf, 2010.

# GƏNCLƏRİN ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA İKT-nin ROLU

**Aynur Şahvələdova,**
*fəlsəfə doktoru proqrami üzrə doktarant*
*ADPU*
E-mail: hisse.08@mail,ru

*Açar sözlər: informasiya-kommunikasiya texnologiyaları, gənclərin şəxsiyyəti, gənclərin təhsili, sosial şəbəkə, internet-addiksiya, İnternet aludəçiliyi, asılılıq sindromu*
*Ключевые слова: информационные и коммуникационные технологии, идентичность молодых людей, воспитание молодежи, социальные сети, интернет-зависимость, синдром зависимости*
*Keywords: information and communication technologies, the identity of young people, youth education, social networking, internet-addiksiya, Internet addiction, dependency syndrome*

İKT-nin gənclərin təhsilində inteqrasiya olunması təlim prosesinin faydalılığını artırır. Kompüter tətbiq olunan dərslərdə öyrənənlərin imkanları daha çox olur: öz əməyinin nəticəsini müşahidə etməklə fəallığı artır əks əlaqə səmərəli olur. Tədqiqatçı fəaliyyəti atır, fərdi şəkildə tədris materialı ilə işləmək təlim prosesini daha da canlı və məzmunlu edir (1, 14).

Təlim prosesində İKT-nin istifadə olunması gənclərin təhsilə marağını artırmaqla yanaşı, onların yaradıcı qabiliyyətinin inkişafına təkan verir. Dərs prosesində İKT-dən istifadə edən müəllim də öz fikir və mülahizələrini daha aydın tələbələrə çatdıra bilir.

İKT-in gənclərin fəaliyyətini və həyat tərzinə sirayət edərək onların hər tərəfli inkişafına səbəb olmasına baxmayaraq, müşahidələr göstərir ki, bu gün artıq «kütləvi kompüterləşmə» prosesinin mənfi davranışların formalaşmasına; insanların internetdən öz ixtisasları, peşələri və yaradıcılıqları üzrə istifadə etməsi ümumilikdə cəmiyyətin inkişafına və intellektual səviyyənin yüksəlməsinə gətirib çıxardır. Lakin psixoloqların fikrincə, internet müəyyən məsələləri həll etməklə yanaşı, həm də əvvəllər məlum olmayan yeni problemlər yaratmaqla cəmiyyət üçün potensial təhlükə mənbəyinə çevrilir. İnternetdən hazır məlumatlar almağa öyrəşən və belə məlumatları doğru sayan istifadəçilər öz fəaliyyətlərində onlara istinad etdikdə hadisə və faktlara münasibətdə obyektivlik itir. Digər bir təhlükə bəzi insanların özlərindən asılı olmayaraq işləri ilə əlaqədar, bəzilərinin isə sadəcə əylənmək məqsədilə internetdən çox istifadə etməsi və bununla əlaqədar vaxtlarının böyük hissəsini kompüter qarşısında keçirməsidir. Belə vəziyyət onları sağlamlığında, ailəsində, məktəbində və ya işində problemlər əmələ gətirir.

Həkim-psixatorların fikrincə, kompüterdən, internetdən düzgün istifadə olunmamağı bir çox nevroz, psixi və yuxu pozuntularının meydana çıxmasına səbəb olur. Bu da sonda yuxu pozuntularına, aqressiyaya və digər mənfi əlamətlərə gətirib çıxarır. Ümumiyyətlə, psixoloqlar bu gün internet-asılılığı və ya internet-addiksiya adlanan bir xəstəliyin mövcud olduğunu qəbul edirlər. Artıq ABŞ-da, Kanadada, Rusiyada, Çində, Cənubi Koreyada və bir sıra digər ölkələrdə internet-asılılığı bir xəstəlik kimi tanınır və tibb müəssisələrində onun müalicəsi aparırlar.

Virtual məkan genişləndikcə internetdə mövcud olan sosial şəbəkələrin də sayı artır. Danılmaz faktdır ki, bu şəbəkələrin əsas istifadəçi kütləsi gənc nəslin nümayəndələridir . Bu səbəbdən də gündəlik həyatımızda sosial şəbəkələrin müsbət tərəflərini müşahidə etsək də, kifayət qədər mənfi tərəflərini də görürük. Son dövrlərdə gənclərin həyatında "Facebook", " Twitter" terminləri ayrılmaz xarakter daşıyır. Sosial şəbəkələrdə yaradılan müxtəlif qrupların təsiri altına düşən gənclər rahatlıqla idarə oluna bilirlər. Bu A.V. Petrovskinin fikirləri ilə müəyyən qədər uyğunluq təşkil edir. İnformasiya və telekommunikasiya texnologiyalarının inkişafı mərhələsində insanların fəaliyyəti əksər halda kompüterləşmişdir. Müşahidə etsək görərik ki, hətta ən adi bir məşğuliyyət kompüterləşmə prosesinin nəticəsi kimi həyata keçirilir. Buna görə də informasiya-kommunikasiya texnologiyalarının gənclərin psixologiyasına və davranışına təsirinin mahiyyəti araşdırmaq lazımdır.



**Ədəbiyyat**

1. 1.Вильямс Р., Маклин К. Компьютеры в школе. М., 1988.
2. 2.Бабко и др. Кувт-86 работников народного образования // Информатика и образование, 1988, № 1
3. 3.AdemGüneş. Çoçukterbiyesinde doğru bilinen yanlışlar, 2013. NesilYayınQrupu)

**А.Шахвеледова**

**Роль ИКТ в формировании личности молодежи**

*Резюме*

С внедрением новых технологий использование компьютера и интернета стали неизбежной необходимостью в нашей повседневной жизни. Интернет был первоначально разработан, чтобы облегчить общение и исследование. Однако резкое увеличение использования Интернета в последние годы привело к ее патологическому использованию. В нашей стране интернет зависимость особенно проявляется у молодых людей, которые более опытны в интернете и использовании компьютера.

**A.Shahvaladova**

**The role of youth in shaping the identity of ICT**

*Summary*

With the introduction of new technologies, computer and internet use have become an unavoidable necessity in our daily lives. Internet was originally designed to facilitate communication and research. However the dramatic increase in use of internet in recent years has led to its pathologic use. As a developing country with an increasing rate of internet access and computer use is at high risk for this disorder. In our country, this disorder is especially seen in young people who are more skilled in internet and computer use.

# HELMİNT İNVAZİYALARININ YAYILMA XÜSUSİYYƏTLƏRİNİN TƏDRİSİNƏ DAİR

**Etibar Məmmədov,**
*biologiya üzrə elmlər doktoru*
*Naxçıvan Dövlət Universiteti*

***Açar sözlər:** helmint, invaziya, parazit, yayılma, epizootoloji*
***Ключевые слова:** гельминт, инвазия, паразит, распространение, эпизоотический*
***Key words:** helminthes, invasion, parasites, distribution, epizootological*

Helmint invaziyalarının aydınlaşdırarkən ilk növbədə helmint növlərinin müəyyənləşdirilməsi əsas rol oynayır. Belə ki, kənd təsərrüfatı heyvanları adətən, bir neçə helmintə birdən yoluxurlar. Sahib orqanizmində daha yaxşı inkişaf edib, çoxala bilən helmint növü həmin heyvan üçün xarakterik helmintozun törəməsinə səbəb olur. Ona görə də müəyyən coğrafi iqlim şəraitində, parazit helmint faunanın aydınlaşdırılmasında epizootoloji müşahidələrin aparılması mühüm şərtlərdən biridir. Bölgənin parazit helmint faunasını öyrənmədən, epizootik prosesin proqnozlaşdırılması qeyri-mümkündür. Bunun üçün hər hansı fermer və şəxsi təsərrüfatlarda saxlanılan heyvanlarda parazitlik edən helmint növünü və heyvanın yoluxma dərəcəsini müəyyən etmək üçün kəsilmiş və eləcə də ölmüş heyvanların daxili orqanları laboratoriyada helmintoloji müayinə edilir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı heyvanlarının helmintfaunası antropogen faktorların təsirindən nəzərəçarpacaq dərəcədə dəyişə bilir.

Tələbələrin diqqətinə çatdırılır ki, helmint invaziyalarının əsasını törədicinin biologiyasını və ekologiyasını sistemli şəkildə öyrənməklə, ətraf mühit ilə həssas orqanizm arasında coğrafi əlaqələrin hərtərəfli müəyyənləşdirilməsi təşkil edir. Bu cur yanaşma, epizootik prosesdə, helmintlərin bioloji inkişaf zəncirinin əsasını təşkil edən helmint populyasiyasına müstəqil sistem kimi baxmağa, eləcə də bu prosesdə iştirak edən müxtəlif faktorları öyrənməyə imkan verir (3, 25-46).

Helmintlər çoxhüceyrəli orqanizmlər olmaqla, kifayət qədər böyük ölçülərə, özünəməxsus

miqrasiya yollarına malikdirlər və parazitlik etdikləri orqanizmlərdə orqan, toxumaları mexaniki zədələnmələrə məruz qoyurlar. Eyni zamanda onlar əsas sahibin orqanizmində invazion mərhələyə çatmaqla, ontogenetik inkişaf prosesinin müxtəlif mərhələlərində onlara patogen təsir göstərmək qabiliyyətinə malikdirlər. Bəzi helmintlər sürfə mərhələsində, eləcə də yetkin formada parazitlik etdikləri orqanizmdə bağırsaq divarını zədələməklə müxtəlif yoluxucu xəstəliklər üçün infeksiya qapısı açır, daxili qanaxmalara, bağırsaq keçməzliyinə səbəb olurlar.

Geohelmintlərin inkişafı əsasən abiotik mühitdə, yəni aralıq sahibsiz başa çatır. Lakin, biohelmintlər öz inkişaflarını müxtəlif orqanizmlərdə mərhələlərlə başa çatdırırlar, yəni onların inkişafı üçün bir sahib orqanizmi kifayət etmir (2, 154-169).

Helmintlərin yayılma prosesinin öyrənilməsində, eləcə də helmintozlara qarşı səmərəli antihelmint tədbirlərin aparılması üçün müvafiq parazitlərin invazion mərhələyə çatması, əsas sahibin orqanizminə düşməsi və keçdiyi yolun müəyyənləşdirilməsi vacib şərtlərdəndir. Biohelmintlər invazion mərhələyə çatana qədər biotik mühitdə, yəni müxtəlif canlı orqanizmlərin – ilbizlərin, yağış qurdunun, həşəratların, gənələrin, xərçəngkimilərin bədənlərində inkişaf mərhələləri keçirirlər. Buna görə də biohelmintlərin yayılması daha çox onların inkişafında rol oynayan aralıq və əlavə sahiblərin yaşadığı arealdan asılıdır. Onların inkişafına həmçinin, iqlim və antropogen faktorlar da təsir edir. Biohelmintlər içərisində zooantropohelmintozlar xüsusi çəkiyə malikdirlər. Bu helmintlərin törədiciləri müxtəlif inkişaf mərhələlərində insanları, eləcə də kənd təsərrüfatı heyvanlarını yoluxdurmaq qabiliyyətində olur.

Epizootik və epidemik proseslərin mürəkkəb qarşılıqlı əlaqəsi nəticəsində zooantroponoz törədiciləri olan bu helmintlər insanlar və heyvanlar arasında invaziya zəncirini yaradırlar. Bu zaman aralıq sahibləri kimi onurğalı heyvanlar iştirak edir. Belə helmintozların törədiciləri həm biohelmintlər (fassiola, exinokokk), həm də geohelmintlər (trixostrangilidilər) ola bilir.

İnvazion mərhələyə, yəni yetkin mərhələyə çatmaq üçün, helmint bir neçə inkişaf mərhələsi keçirərək, əsas sahibin orqanizminə düşür. Geohelmintlərdə də analoji inkişaf müşahidə edilir. Abiotik şəraitdə inkişaf edən nematod yumurtalarından sahibin bağırsaqlarında sürfələr çıxır. Gələcək inkişafında həmin sürfələr qan damarlarında, ağ ciyər və qara ciyərdə mürəkkəb miqrasiya yolu keçirlər. Bəzi helmintlər sürfə mərhələsini də abiotik mühitdə – torpaqda, bitki çürüntüləri üzərində başa çatdırırlar (1, 12-19).

Helmintlər kifayət qədər inkişaf etmiş canlılar olmaqla, ontogenezdə xarici mühit şəraitinə uyğun olan inkişaf mərhələləri keçirirlər. Onların çoxalmasında mühüm rol oynayan bu mərhələlər, helmintlərin filogenetik inkişafında sərbəst yaşama tərzindən parazit həyata keçmək ilə əlaqəlidir.

Törədicinin inkişaf mərhələlərinin araşdırılması epizootik prosesin öyrənilməsində, helmintozların profilaktikasında, müvafiq tədbirlərin aparılmasında mühüm rol oynayır. Əksər helmintozlar zamanı orqanizmdə hər hansı klinik əlamətlər müşahidə edilmədiyindən, onların gedişi xroniki olur. Mövcud məlumatlara görə həssas orqanizmdə helmintlərin yetkin mərhələlərinin yaşama müddəti müxtəlifdir. Orqanizmə daxil olan helmint yumurta və sürfələrinin miqdarı, yoluxdurma intensivliyi, heyvanlarda nəinki, patoloji proseslərin inkişafına, həmçinin gələcəkdə epizootik prosesin saxlanılmasına, yəni digər heyvan qruplarının yoluxmasma səbəb olur. Heyvanların invazion helmint yumurta və sürfələri ilə yoluxmasından sonra orqanizmdə müəyyən fizioloji dəyişikliklər və zəif immunoloji proseslər baş verir.

Qeyd etmək lazımdır ki, helmintozlara qarşı orqanizmin spesifik immunoloji reaksiyası olmur, lakin, bəzi orqan və toxumalardakı immun hüceyrələrdə müvafiq antigenlərin sintezi ola bilir.

Bütün bunları yekunlaşdıraraq belə nəticəyə gəlmək olur ki, helmintlərin yayılma prosesin öyrənilməsi, bu və ya digər helmintoz törədicisinin yumurta və sürfə mərhələlərinin aşkar edilməsi, helmint xəstəliklərinə qarşı spesifik müalicə, profilaktik tədbirlərin aparılmasında başlıca şərtdir. Helmintoz törədicilərinin yayılma xüsusiyyətləri tədris olunan zaman onların inkişafında abiotik və biotik amillərin rolunun qeyd olunması da vacibdir.

**Ədəbiyyat**


1. Бакулов И.А. Методические указания по эпизоотологическому обследованию. М.: Колос, 1982.
2. Котельников Г.А. Гельминтологические исследования животных и окружающей среды. М.: Колос, 1984.





3. Филиппов В.В. Эпизоотология гельминтозов сельскохозяйственных животных. М.: Агропромиздат, 1988.


Э. Мамедов

**О преподавании особенности распространения гельминтных инвазии**


*Резюме*

В статье рассматриваются особенности эпизоотического процесса при гельминтозах. Выявлено что, основой эпизоотологии гельминтозов является системный подход к изучению болезней с учетом биологии и экологии возбудителя и восприимчивости животного, географический связь между объектами хозяйственной деятельности человека и окружающей средой. Использование системного подхода дает возможность рассмотреть популяции гельминтов в эпизоотическом процессе как самостоятельные системы в биологической цепи развития гельминтозов, позволяющие раскрыть всю сложность участвующих при этом разнообразных факторов.


E. Mammadov

**On teaching features of distribution of helminth invasions**


*Summary*

In the article are considered the features of the epizootological process by helminthosis. Is revealed that the basis of the epizootology helminthosis is the system approach to theinvestigation of illnesses on consideration of biology and ecology of the agent and receptivity of an animal, of the geographical connection between the objects of man's economic activity and the environment. The methods of the system approach enable yo regard the populations of the helminths in the epizootological process as independent systems in the biological circuit of development of helminthosis and let reveal the various factors, which have an influence on them.


## MÜASİR DÖVRDƏ ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASININ AKTUAL PROBLEMLƏRİ


**Elmin İmanov,**
*Bakı şəhəri, 6№- li tam orta məktəbin tarix müəllimi,*
E-mail: elminimanov@yahoo.com
**Zəminə Abdullayeva,**
*Salyan şəhər 12 №-li uşaq bağçasının müəlliməsi,*
E-mail: zaminaabdullayeva@mail.ru



***Açar sözlər:** təhsil, şəxsiyyət, iqtisadiyyat, bağça, məktəb*
***Ключевые слова:** образование, личность, экономика, ясли, школа*
***Key words:** education, pertonality, economy, kidergarden, school*


Təbiidir ki, respublikamızın belə bir iqtisadi inkişaf tempini saxlaması, onun gələcəkdə də ən güclü, qüvvətli, yüksək səviyyədə inkişaf etmiş dövlətlər sırasında olması üçün bu gün böyüməkdə olan gənc nəslin necə formalaşması ən mühüm, aktual problemlərdən biri olaraq qalır. Böyüməkdə olan gənc nəslin, şəxsiyyətin formalaşması prosesi prosesinin isə hələ bağçadan başlaması isə heç kəsə sirr deyil. Qəhrəmanların qəhrəmanlıqlarını əks etdirən fotoalbomlar, sənədlər uşaqların yaş dövrünə uyğun olaraq keçirilən müxtəlif bilik və idman yarışlarının əhəmiyyəti xüsusilə qeyd edilməlidir. Belə ki, hələ erkən yaşlarında olan, dünyagörüşləri təzə – təzə formalaşmaqda olan bağça uşaqlarına qəhrəmanlarımızın həyatından, apardıqları mübarizədən danışanda təbiidir ki, onlarda da vətənpərvərlik, vətəni candan artıq sevmək, düşmənə nifrət, doğma yurda məhəbbət və s. kimi müsbət keyfiyyətlər aşılanır. Hələ üstəlik artıq uşaq bağçalarında tətbiq edilən kurikulum proqramları bağça uşaqlarının orta məktəblərə hazırlanmalarında, onlarda müxtəlif elmlərin əsasları haqqında ilkin təsəvvürlərin, anlayışların yaranmasında xüsusilə əhəmiyyətlidir. Bağça dövründən sonra isə şagirdlərin şəxsiyyətinin formalaşdırılmasında orta məktəblər müstəsna dərəcədə böyük rol oynayırlar. Belə ki, şagirdlər orta məktəblərə qədəm qoyduqdan sonra öz iradələrindən asılı olmayaraq yeni bir dünyaya düşmüş olurlar. Həftənin 5-6 gününün əksər hissəsini məktəb divarları arasında keçirən şagirdlərin şəxsiyyətinin formalaşdırılmasında təbiidir ki. buradakı ab-hava,

mikromühüt böyük rol oynayır. Təbiidir ki, orta məktəblərin ibtidai siniflərində təhsil alan şagirdin şəxsiyyətinin formalaşmasında ibtidai sinif müəllimlərinin üzərinə xüsusilə böyük yük düşür. Çünki orta məktəblərin ibtidai sinif müəllimləri hər gün öz sinfinin şagirdləri ilə ardıcıl olaraq bir neçə fənn üzrə məşğul olur. Təbiidir ki, belə təmasda da müxtəlif rollu oyunların, kompüterdən istifadə etməklə verilən videofilmlərin şagirdlərə təsiri nəticə etibarı ilə onların şəxsiyyətinin formalaşmasında oynadığı rol şəksizdir.

Hələ ibtidai sinifdə oxuyarkən şagirdlərin kollektiv şəkildə şəhidlər xiyabanına, müxtəlif muzeylərə, tarixi yerlərə, qədim memarlıq abidələrinə ekskursiyalara çıxmaları onların təsəvvürlərini daha da genişləndirir, biliklərini isə zənginləşdirir. Aydındır ki, bütün bu göstərilənlər şagirdlərin şəxsiyyətinin formalaşdırılması prosesinə çox müsbət təsir edir, yuxarıda göstərildiyi kimi onlarda vətənpərvərlik, vətəni candan artıq sevmək, vətən yolunda lazım gələrsə ölümə belə getməyə hazır olmaq kimi keyfiyyətlərin yaranmasına səbəb olur.

Göstərilməlidir ki, müasir dövrdə şəxsiyyətin formalaşdırılması işində kifayət qədər böyük rol oynayacaq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)"nda deyilir:

Ümumi orta təhsili başa vurmuş şagird aşağıdakıları bacarmalıdır:

-Ətraf aləmi dərk etmək üçün müşahidə, ölçmə, hesablama, təcrübə, qiymətləndirmə üsul və vasitələrindən istifadə etməyi;

-Təbiətdəki əsas qanunauyğunluqların mahiyyətini və onların qarşılıqlı əlaqəsini izah etməyi;

-Təlim prosesində yaradıcılıq tələb edən işləri müstəqil yerinə yetirməyi;

-Təlim tapşırıqlarını yerinə yetirmək üçün müxtəlif informasiya mənbələrindən (lüğətlər, ensiklopediyalar, kompüter, internet, dövri mətbuat və s.) istifadə etməyi;

-İctimai davranış, habelə müvafiq təhlükəsizlik və tibbi – gigiyena qaydalarına, sağlam həyat tərzi normalarına əməl etməyi.

Göründüyü kimi, "Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları)"nda verilən müddəalar da müstəqil respublikamızın gələcəkdə daha da çiçəklənən, güclü, qüvvətli bir dövlətə çevrilməsində əsas rol oynayacaq şəxsiyyətin formalaşdırılmasında mühüm rol oynayan amillərdəndir.

### Ədəbiyyat


1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual problemləri. Bakı: Maarif, 2005.
2. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002.
3. Əlizadə Ə.Ə. Məktəblinin psixologiyası. Bakı: Elm, 1990.
4. Сарджвеладзе Н. И. Личность и ее взаимодействие с социальной средой. АН ГССР, Тбилиси, Мецниереба, 1989.



**Э.Иманов, З.Абдуллаева**


**Актуальные проблмы формирования личности в современный период**


***Резюме***

Автор отмечает, что, в настоящее время наша республика развита с экономической стороны на высшем уровне, даже среди южнокавказских стран 70% экономики попадает на ее долю.

Особенно отмечается, что, в будущем для поддержания этого развития молодое поколение должно быть высокообразованным и грамотным.



**E.Imanov, Z.Abdullayeva**


**Actual problmy formation of personality in the modern period**


***Summary***

In this report the author vrites the highly development of economy of our republik and even shovis that 20% of economy between southern Caucasion countries falls on its share. But he espessially stretses that in order to keep this development prezent day of youth must have an education in high levee and must be erudite and literate.




# MƏTN ÜZƏRİNDƏ İŞ LİNQVİSTİK BACARIQLARIN FORMALAŞMASI VASİTƏSİ KİMİ


**Aygün Zamanova,**
*ADPU-nun filologiya fakültəsinin tyutoru*
E-mail: aygun_zaman@mail.ru



***Açar sözlər:*** *mətn, linqvistik bacarıq, nitq vərdişləri, səmərəlilik, təlim*
***Keywords:*** *text,linguistic skills, habits of speech, efficiency, training*
***Ключевые слова:*** *текст, лингвистические умения, речевые навыки, эффективность, обучение*


Ümumi təhsilin bütün səviyyələrində tədris edilən Azərbaycan dili şagirdlərdə mədəni nitq və idraki bacarıqların formalaşması məqsədi daşıyır. Buna görə də dil və təfəkkürün qarşılıqlı əlaqədə inkişafı təlim prosesinin mahiyyətini, məzmununu, strukturunu səciyyələndirən mühüm xətt kimi həmişə diqqət mərkəzində olmuş və bu gün də öz aktuallığını saxlamaqdadır. Məqsəd aydınlığına baxmayaraq, qarşıya qoyulan vəzifələrdə dilin linqvistik qayda və qanunlarının öyrənilməsi həmişə önə çəkilmişdir. Bu isə şagirdlərin nəzəri hazırlığının praktik nitq vərdişləri ilə zəif əlaqələndirilməsinə gətirib çıxarmışdır. Kurikulum islahatı çərçivəsində Azərbayvan dili təliminin, əsasən, nitqin fəaliyyət növlərinə uyğun müvafiq istiqamətlər – məzmun xətləri üzrə standartlaşdırılmış fəaliyyətlər formasında işlənilməsi (6, səh. 6-34) tədrisin nəticəyönümlü proses kimi qurulmasını zəruriləşdirdi.

Məlumdur ki, dil dərsləri şagirdi düzgün düşünməyə, düşündüklərini aydın ifadə etməyə təhrik edir. Fikir isə mətn formasında verilir. Ona görə də fikrin anlaşıqlı ifadəsində mətni təşkil edən komponentlərin məntiqi və qrammatik bağlılıqda şüurlu mənimsənilməsi hazırki mərhələdə dil dərslərində aparılan işlərin mərkəzində durur. Belə bir yanaşma bilikyönümlü ənənəvi dil dərsləri ilə nəticəyönümlü müasir dərsləri fərqləndirən amillərdən biri olub, öyrənmə obyektinin səs, söz, cümlə üzərindən mətn üzərinə köçürülməsinə şərait yaratdı. Bu heç də təsadüfi yanaşma olmayıb, linqvistik və metodik əsaslara malikdir.

"Nitq yaradıcılığı prosesinin məhsulu" olan mətnin (3, səh. 18) linqvistik xüssusiyyətləri onun başlıca dil vahidi kimi araştırılmasını ortaya qoydu. O.İ.Moskalskaya bunu belə əsaslandırır: "Nitqin bitmiş fikir ifadə edən əsas vahidi cümlə deyil, məhz mətndir; çümlə-ifadə mətnin xüsusi növü olub, fərdi hadisədir. Mətn sintaktik səviyyədə ən yüksək vahiddir" (4, səh. 9). Bu fikirlər Q.Y.Solqanik tərfindən bir qədər də konkretləşdirilmiş şəkildə izah olunur: "Mətn – mühüm linqvistik anlayışdır. Onda dil və nitq haqqında bütün məlumatlar yerləşib. Mətn – gerçək ünsiyyət vahididir. Faktiki olaraq biz mətnlə yazır, mətnlə düşünürük. Buna görə də onun öyrənilməsinin zəruriliyini subut etməyə ehtiyac yoxdur" (5, səh. 8). Fikrin ifadəsində dil vahidi kimi cümlə və mətnin oynadığı rolu müqayisəli təhlilə cəlb edən Q.Kazımov isə qeyd edir: "Ünsiyyətin əsas vahidi olan cümlə bitmiş fikir ifadə etsə də, onun ifadə etdiyi fikir bitkinliyi nisbi xarakter daşıyır. Cümlə onu əhatə edən cümlələr birliyində, mətn mühitində struktur-semantik xüsusiyyətlərinin tam şəkildə üzə çıxara bilir. Cümlələrin müəyyən fikir ətrafında əlaqəli birliyi mətnin yaranmasına səbəb olur" (2, 433).

Beləliklə, deyilənlərdən belə bir nəticə çıxır ki, mətn cümlə ilə müqayisədə fikrin daha bitkin ifadəsində aparıcı mövqedə dayanır. Görünür, elə bu səbəbdən son dövrlərdə dil təlimi ilə bağlı yazılmış metodik tədqiqatlarda mətn üzərində aparılan işlərə xüsusi əhəmiyyət verilmişdir. Rus metodistlərindən L.P.Fedorenko, M.R.Lvova, T.A.Ladıjenskaya, V.P.Kapinos, N.A.İppolitova və başqalarının əsərlərində mətn didaktik təlim vahidi kimi diqqət mərkəzinə gətirilmişdir. Dil dərslərində mətn üzərində işin təşkili problemini geniş şərh edən N.A.İppolitova belə bir müddəa ilə çıxış edir: "Məhz mətn didaktik materialın bünövrəsini təşkil edir ki, onun vasitəsilə şagirdlərə müvafiq biliklər verilir və başlıca kommunikativ bacarıqlar formalaşdırılır; məktəblilərin nəticəyönlü ünsiyyətə alışdırılması üçün onları mətn qurmağa öyrətmək, buna müvafiq mətn nümunələri göstərmək, onların strukturunu, dil xüsusiyyətlərini, kommunikativ imkanlarını və s. mənimsətmək lazımdır" (1, səh. 119). Göründüyü kimi, dil təlimində mətn üzərində iş bir-biri ilə

rabitəsiz əlaqədə verilən söz və cümlə üzərində işlə müqayisədə daha səmərəli vasitə rolunu oynamaqdadır. Bu baxımdan şagirdlərin təkcə nitq vərdişlərinin deyil, həm də linqvistik bilik və bacarıqlarının inkişafında mətn üzərində aparılan müxtəlif xarakterli işlər xüsusi əhəmiyyət kəsb edir. Lakin məktəb təcrübəsinin təhlili göstərir ki, şagirdlərin dinləyib anlama, danışma, oxu və yazı bacarıqlarının inkişafında mətn didaktik material kimi götürülüb üzərində sistemli iş aparılırsa, linqvistik bacarıların formalaşdırılması yenə də ənənəvi qaydaya uyğun olaraq söz və cümlə üzərində işlərlə yerinə yetirilir. Müşahidələrimiz göstərir ki, bu, iki amillə izah oluna bilər:

1. Azərbaycan dilini tədrisi metodikasında mətn üzərində iş imkanları ayrıca tədqiqat mövzusu kimi hərtərəfli araşdırılmamışdır;

2. Təlimin məzmununu əks edirən müvafiq dərsliklərdə linqvistik bacarıqların inkişafı mətn üzərində işlə zəif əlaqələndirilmişdir.

Tədqiqat göstərir ki, dil fakt və hadisələrini müzakirə prosesində mənimsəməyə yönəlmiş müasir dərslər məhz bədii və ya publisistik səciyyə daşıyan yığcam mətnlər üzərində müxtəlif səciyyəli fikri əməliyyatlar vasitəsilə keçirilməlidir. İlkin mərhələdə fərdi qaydada mətn üzərində müşahidə, alınmış mülahizələrin sinif kollektivi ilə birgə müzakirəsi, təhlili öyrənilməsi tələb olunan dil hadisəsinin ümumilşdirilməsinə və yekun olaraq tətbiqinə gətirib çıxarır. İdraki fəaliyyətin bütün mərhələlərindən keçən bu mənimsəmə prosesi şagirlərin linqvistik bacarıqlarının dərsdən dərsə, sinifdən sinfə inkişafını sürətləndirir. Bu zaman mətnin linqvistik təhlili konkret dil sahəsi üzrə (məsələn, fonetik, leksik və qrammatik təhlil) aparıla bilindiyi kimi, bu təhlil növlərini hamısını əhatə edən kompleks təhlil formasında da yerinə yetirilə bilər. Bu zaman aşağıdakı amillər xüsusi olaraq nəzərə alınmalıdır:

1. Mətn seçiminin linqvistik qaydaya uyğunluğu.

Müəllim elə mətnlər üzərində iş qurmalıdır ki, burada müvafiq bacarıqların yaradılması üçün lazımi dil faktları öz əksini tapsın və şagirdin diqqəti həmin faktlara asanlıqla yönəldilə bilsin.

2. Mətnin qoyulan şərtə və ya şərtlərə uyğun tərtibi.

Eksperimentin nəticəsi göstərir ki, mətnin linqvistik baxımdan araşdırılması və təhlili şagirdlərin dil duyumunun, məntiqi və tənqidi təfəkkürlərinin inkişafında əsas rol oynayan vasitələrdəndir. Bu iş sistemli şəkildə aparılmalı və ona təlim prosesinin mühüm komponenti kimi baxılmalıdır.

**Ədəbiyyat**


1. Ипполитова Н.А. Текст в системе обучения русскому языку в школе: Учеб пособие для студентов пед. вузов. М.: Флинта, 1998.

2. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis: Ali məktəblər üçün dərslik. Bakı: Elm və təhsil, 2010.

3. Гальперин И.Р. Текст как объект лингвистического исследования. М.: Ком. Книга, 2006.

4. Москальская О.И. Грамматика текста. М.: Высшая школа, 1981.

5. Солганик Г.Я. Стилистика текста: учебное пособие. М.: Алинта,



А.Заманова


**Работа над текстом как средство формирования лингвистических навыков**


*Резюме*

Эффективность языковых уроков оценивается развитием речевых и познавательных навыков учащихся. А привитие этих навыков тесно связано с использованием дидактических материалов. Исследование показывает, что систематические работы над текстом являются основным средством формирования лингвистических навыков.



A.Zamanova


**Work on the text means of formation of linguistic skills**


*Summary*

Efficiency of language lessons is measured with the development of speech and cognitive skills. Gaining of this ability is closely linked with the use of didactic materials. The research shows that work carried out systematically on the text plays a main role in the formation of linguistic skills.




## YENİ FƏNN KURİKULUMLARININ İBTİDAİ TƏLİMDƏ TƏTBİQİ MƏSƏLƏLƏRİ


**Tamara Baxşəliyeva**

*Naxçıvan Müəllimlər İnstitutu*



***Açar sözlər:** kurikulum, problem situasiya, əks əlaqə, biliyin fəallığı, ibtidai təhsil.*

***Ключевые слова:** курикулум, проблем ситуации, обратная связь, активность познаний, начальное учение*

***Key words:** curriculum, problem situation, countertie, perception activity, primary teaching*


Şagirdlərin idrak fəaliyyətlərini onların təfəkkürləri ilə əlaqədardır. Məhz təfəkkür vasitəsi ilə biliklər başa düşülür, yadda saxlanılır. Buna görə də təlim işi elə təşkil olunmalıdır ki, burada təfəkkürün bütün növləri (tənqidi, məntiqi, yaradıcı) inkişaf etdirilsin. Təfəkkürün inkişafında əks-əlaqənin rolu böyükdür. Məlum olduğu kimi əks əlaqə şagirdlərdən müəllimə ötürülən informasiyadır. Şagirdləri müstəqil olaraq düşünməyə sövq etmək, öyrəndikləri biliklər əsasında yeni bilikləri üzə çıxarmaq, onları müstəqil olaraq tətbiq etmək təlimin təşkilinin əsas amillərindən biridir.

Məsələn, ibtidai siniflərdə "İsmin quruluşca növləri"ni keçərkən müəllim fəal təlimin Klaster (şaxələndirmə)üsulundan istifadə edə bilər:




Bu üsulun vasitəsilə şagirdlər söz nədir, sadə, düzəltmə, mürəkkəb söz nədir? İsim nədir? Sözdüzəldici və sözdəyişdirici şəkilçilər nədir? Haqqında təsəvvürlər əldə edirlər və hansı biliklər əsasında yeni biliyin öyrənilməsini dəqiqləşdirirlər. Bu və ya buna bənzər üsullar əks-əlaqənin ən düzgün formalarından biri sayılır. Müasir təlimin prinsiplərindən biri də fərdiləşdirməkdir. Şagirdlərin fərdi fərqlərini nəzərə almaq, onların bilik və qabiliyyətləri əsasında yeni bilik aşılamaq təlimdə mühüm şərtlərdən biridir. Bunun üçün sinif müəllimi I sinfə gələn şagirdlərdə diaqnostik test aparılmalıdır. Dərs boyu fərdi fərqlərin ən adi imkanlarını biliyinin psixoloji xüsusiyyətlərini, dərsə münasibətini nəzərə almaq dərdə mühüm problemlərin həlli üçün ilkin şərait yaradır. əgər dərsdə problem həll etmək lazım gəlirsə müəllim birinci növbədə şagirdlərin fərdi fərqlərini, onların şəxsi qabiliyyətlərini nəzərə alıb, hər bir şagirdi diqqətlə öyrənməlidir.

Şagirdlərin fərdi fərqlərinin əsas xüsusiyyətlərindən biri sinif şagirdlərinin müxtəlif hazırlıq səviyyələrini nəzərə alıb, onların ümumi inkişafının təmin edilməsidir. Lakin bundan bəzən sinif müəllimləri yanlış nəticə çıxarırlar. Belə ki, sinifdə oxuyan şagirdləri zəif, orta, qüvvətli oxuyan kimi götürüb qruplaşdırırlar. Bu da uşaqların bir-birinin yanında utanmasına, pis oxuyanları

"laqeyd", yaxşı oxuyanları "fəal" kimi tanımasına gətirib çıxarır. Belə hal uşaqların tərbiyəsinin ümumi inkişafına öz mənfi təsirini göstərə bilər. Uşaqları belə qruplara bölmək onlarda acizlik-ötkəmlik, bacarıqsızlıq, özünəinamsızlıq, məğrurluq, qürurluluq hallarının baş verməsinə gətirib çıxarır ki, bu da onların tərbiyəsinin düzgün inkişafına mənfi təsir göstərir.

Təlimdə bu halların qarşısının alınmasının ən səmərəli yolu qruplarla işdir. Qrup işi şagirdlər arasında əməkdaşlıq, bir-birinin fikrinə hörmətlə yanaşma, bir-birini dinləmə bacarığı, özünü, qrupunu və digər qrupları obyektiv qiymətləndirmə kimi müsbət keyfiyyətlər aşılayır. Həmçinin, qrup işində müəllim şagirdlərin ən elementar bacarıqlarını da yüksək qiymətləndirir, bu da şagirdlərdə özünə inam və fərəh hissi doğurur.

Şagirdlərin müstəqil şəkildə qrupda fəaliyyət göstərməsi onların idrak qabiliyyətini yüksəldir. Müstəqil öyrənmədə müstəqil düşünmə, dərketmə, yoxlama və sübuta yetirmə halları daha çox öz əksini tapır. Nə üçün?

Müstəqil və qrup halında bilik öyrənilərkən şagirdlər əqli mühakimələr aparır, nəticə çıxarır, çətin görünən məsələlərin həlli üçün əməkdaşlıq edir. Bunun doğru-dürüstlüyünün yoxlanılması üçün ən çətin idrak qabiliyyətlərini yerinə yetirirlər.

**Ədəbiyyat**


1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları, Bakı, 2008.
2. Kurikulumların hazırlanması və tətbiqi məsələləri, Bakı, 2008.



**Т. Бахшалиева**

**Задачи применения новых курикулов в начальном учении**

*Резюме*

Усовершенствование методики обучения требует развитие научно-технического прогресса. В статье обсуждаются явления происходящие в природе и обществе, изучение сильного развития учуников, увеличение научно-теоретических знаний.

**T. Baxsheliyeva**

**Applying issues of new subject curriculums in primary teaching**

*Summary*

İmproving teaching methods first of all requires development level of life, scientific-teachnical progress. The article deals with significant requirements of teaching in studying nature and society occurrences, realizing fast development of technology, impoving scientific- theoretical knowledge and ensuring desire of learning everything.


## ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞINA NAİL OLMAĞIN "AÇAR SÖZLƏR"dən İSTİFADƏ VASİTƏLƏRİ


**Nərgiz Məmmədova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*BDU*
E-mail: elmi.hisse.08@mail.ru



***Açar sözlər:** pedaqoqika, tədris prosesi, inkişafetdirici təlim, açar sözlər, idrak, müstəqil düşüncə*
***Ключевые слова:** педагогика, преподавание, обучение развития, ключевые слова, понимание, свободное мышление*
***Key words:** pedagogy, teaching, training, development, key words, understanding, free thinking*


Elmi-metodik ədəbiyyatın təhlilinə və çoxillik təcrübəsinə əsaslanaraq deyə bilərəm ki, istər zəif, istərsə də orta və yüksək səviyyəli şagird dərsin adını və epiqrafı oxuduqda onun təfəkkür və təxəyyül gücünə daha geniş meydan verilir. Ümumi şəkildə desək, hekayənin məzmununu mənimsəmək üçün kömək edə bilən mövcud təsəvvür və anlayışlar ehtiyatı hərəkətə gəlir. Aktuallaşdırılan biliklərin bünövrəsi üzərində yeni biliklər formalaşır.



Şagird hekayənin adını eləcə də epiqrafı nə qədər çox düşünürsə (onun mənasının araşdırılması, müəyyən sualların meydana çıxması, gümanlar və s.) mətnin oxunuşu bir o qədər məhsuldar olur. Mətnin oxunmasına qədər, hələ başlığı təhlil edərkən meydana çıxan suallar buna xüsusilə kömək edir. Bu suallar vasitəsilə şagird mətnlə müsahibəyə, dialoqa hazırlaşır. Həmin suallar vasitəsi ilə hələ mətni oxumazdan əvvəl proqnozlar da verə bilər. Mətni oxuyanda isə onun məzmununu öz proqnozları ilə tutuşdurmaq olar.

Bu zaman müəllimin əsas vəzifəsi dərsi şagirdin zehni fəaliyyətini – idrak fəaliyyətini hekayələrin əsas məzmununu, ideyasını başa düşmək istiqamətində təşkil etməkdir.

Şagirdin cümlədəki, abzasdakı, bənddəki, paraqrafdakı əsas fikri tapmaq məqsədi onun idrak fəaliyyətini yeni materialın məzmununu dərk etmək istiqamətinə yönəldir.

Əvvəlcə hekayədəki hər hansı bir cümlənin «açar sözlər»i buradakı fikrin əsas yükünü özündə daşıyan dayaq (istinad) söz və ya söz birləşməsi cümlədən ayrılaraq lövhəyə yazılır.

Məsələn, müəllim «Cavanşir» hekayəsinin qiraəti zamanı bu məqsədlə «mini-dərs» keçir. Bu dərsdə bir abzasın üzərində müfəssəl dayanır.

Cavanşirin İran qoşunları ilə mübarizəsindən bəhs edən abzası oxuyarkən hər bir cümlənin əsas sözünü o cümlədəki fikirlə daha çox bağlı olan, o fikri yadda saxlamağa kömək edən sözü tapmağı tapşırır. Abzasın birinci cümləsi oxunandan sonra müəllim həmin abzasın "*açar* sözləri"ni lövhəyə yazaraq tapşırıq verir: «Bu sözlərə əsasən cümlədə nədən danışıldığını deyin». Cavablar qısa və geniş olur. Bəziləri deyirlər ki, iranlılar geri çəkildilər. Digəri isə qeyd edir ki, ərəblər iranlıları məğlub etdilər, onlar da geri çəkildilər. Başqa biri isə, göstərir ki, iranlılar məğlub olaraq Albaniyaya geri çəkildilər. Müəllim soruşur: «Bu cümlələrdəki fikirləri qısa və aydın şəkildə necə demək olar?» Kollektiv müzakirə nəticəsində qərara alınır ki, bu cümlədəki fikirləri qısa şəkildə belə ifadə etmək olar: «Albaniyaya geri çəkildilər». Bu cür oxunuş bizə bu cümlədəki fikri yadda saxlamağa kömək edir. İkinci cümlə oxunur. Sonra «çapıb-talayır» sözlərini müəllim lövhəyə yazır. Sual: «Bu sözə görə cümlədə nədən danışıldığını deyin». Qısa müzakirədən sonra cümlə bu cür formalaşdırılır: «İranlılar Albaniyanı çapıb-talayırdılar». Üçüncü cümlə oxunduqdan sonra lövhəyə «Cavanşir» və «aparıldı» sözləri yazılır. Eyni qayda ilə bu sözün vasitəsilə hansı fikrin yada düşdüyü şagirdlərdən soruşulur. Müəllimin köməyi ilə bu fikir formalaşdırılır: «Cavanşir qoşunlarını iranlılarla döyüşə aparır». Növbəti cümlə oxunduqdan sonra «uzun müharibə» sözləri lövhəyə yazılır. Yada salınan fikir: «İranlılarla müharibə uzun çəkdi». Abzasın sonuncu cümləsinin «açar sözünü» tapmaq şagirdlərə təklif olunur. Şagirdlərin çoxu «məğlub etdi» sözlərini seçdi. Bu sözlər doğrudan da, nəinki həmin cümlənin, eləcə də bütövlükdə abzasdakı əsas fikrin ifadə olunmasında və yadda saxlanmasında mühüm rol oynayır. Odur ki, şagirdlər razılaşırlar ki, bu sözlər iranlıların məğlub edilməsini yada salmağa kömək edir. Beləliklə, lövhədə aşağıdakı sözlər yazılmış olur: Albaniyaya geri çəkildilər; Çapıb-talayırdılar; Cavanşir döyüşə apardı; Uzun müharibə ; Məğlub etdi.

Müəllim növbəti tapşırığı verir: lövhədəki sözlərdən istifadə edib abzasın əsas fikiini tapın. Şagirdlər çox fəallıq göstərir və bir-birinə düzəlişlər verərək aşağıdakı fikri bildirirlər: "İranlılar ərəblərin qabağından Albaniyaya geri çəkildilər. İranlılar buranı çapıb-taladılar. Cavanşir onlarla uzun müharibə apardı və qalib gəldi".

Plan tərtib edərkən şagirdlər bu fikri daha ixtisarla ifadə edirlər: «Cavanşir iranlılarla müharibə apardı və onları məğlub etdi».

Növbəti abzası müəllimin köməyi ilə şagirdlər özləri həmin üsulla təhlil edir və onun əsas fikrini aşağıdakı kimi ifadə edirlər: «Xəzərlərlə müharibədə aparılan mal-qaranı və əsirləri qaytarmaq üçün Cavanşir onlarla qohum oldu». Bu iki abzasın əsas fikirlərinin tapılması və qısa şəkildə ifadə edilməsi onların məzmununun başa düşüldüyünü göstərir. Bu isə hekayənin sonrakı təhlilində, sual və tapşırıqlarda tələb olunan ümumiləşdirməni aparmaqda şagirdlərə kömək edir .

Bu cür «mini-dərslər» növbəti hekayələrin də izahlı qiraəti prosesində təşkil edilir və tədricən şagirdlərin müstəqilliyinə daha geniş yer verilir. Tədricən şagirdlərin öyrənmə fəaliyyətində aşağıdakı proses baş verir: şagirdlər aşağı siniflərdə sözləri hərflər və ya hecalarla oxumağı öyrənəndən sonra bu hərəkətləri unutduqları (ixtisara saldıqları) kimi, cümlədəki əsas fikri ifadə etmək üçün «açar sözləri» tapmaq hərəkətini də unudurlar. Bunlarsız da əsas fikri asanlıqla tapa

bilirlər. Abzasların əsas fikirləri arasında cümləni yaradarkən II, III dərəcəli fikirlər də bu qayda ilə unudulur.

Şagirdlər bu cür öyrənmə fəaliyyətinin tərkibinə daxil olan hərəkətlərdən bəzisi şagirdlər üçün gözlənilməz, tamamilə yeni bir şey deyil. Onlar mahiyyət etibarilə bu kimi və ya buna bənzər hərəkətlərlə tanışdırlar.


**Ədəbiyyat**

1. Kazımov N. Şagirdlərin idrak fəaliyyəti faktları. Bakı: Kommunist, 1972.
2. Давыдов В.В. Развивающее обучение. М.: Мысль, 1986.
3. Занков Л.В. Система развивающее обучения в школах. М., Мысль, 1991.
4. Данилов М.А., Есипов В.П. Дидактика. М.: Мысль, 1996.
5. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Adiloğlu, 1998.
6. 6.Альт Р. Прогрессивный характер педагогики Коменского, пер. с нем., М., 1959;
7. 7.Коменский Ян Амос: Учитель учителей («Материнская школа», «Великая дидактика» и др. произв. с сокращ.). М.: Карапуз, 2009.



**Н. Маммедова**

**Использование методики "ключевые слова" в преподавании истории в v классе как один из основных средств повышении познавательной деятельности студентов**

*Резюме*

В статье автор обратил внимание на правила использования методики "ключевые слова" в повышении познавательной активности учащихся в учебном процессе. Было отмечено, что основная задача учителя, это организация учебного Процесса для понимания учениками основное содержание – идей рассказов для развития их умственной- познавательной деятельности.

**N. Mammadova**

**Using the technique of "key words" in the teaching of history in the v class as one of the main means of improving students' cognitive activity**

***Summary***

The author paid attention to the rules of use techniques "keywords" in improving the cognitive activity of students in the learning process. It was noted that the main task of the teacher, is the organization of the educational process for students understand the basic content – story ideas for the development of their mental and cognitive activity.


## YENİ TƏLİM METODLARINDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ


**Pəri Paşayeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*



***Açar sözlər:** kurikulum, metod, iş forması, iş üsulu*
***Ключевые слова:** курикулум, метод, форма работы, методы работы*
***Key words:** curiculum, method, form of the work, style of the work*


Son illər Azərbaycanda təhsil sistemi kökündən dəyişdiriləRək Avropanın qabaqcıl dövlətlərinin təhsil sisteminə inteqrasiya edilir. Uzun illər təhsilimizdə hökm sürən inzibati-amirlik aradan qaldırılır, şagirdyönümlü təlim sisteminə nail olmaq üçün islahatlar aparılır. Avropada istifadə olunan təlim texnologiyaları, metodları və modelləri Azərbaycan təhsil sisteminə uyğunlaşdırılır. Son təhsil islahatları özünün ən bariz nümunəsini kurikulum modelində tapır. Kompüter texnologiyası və interaktiv təlim metodları kimi kurikulum anlayışı da Azərbaycan təhsili üçün yenidir. Kurikulum təhsil prosesi ilə bağlı müəllimlə şagird fəaliyyətinin səmərəli təşkilinə, məqsədyönümlü və ardıcıl həyata keçirilməsinə imkan yaradan konseptual sənəddir.

Müasir dövrdə yeni texnologiyaların, yeni təlim metodlarının tətbiqi müəllimin iş üsulunun şagirdlərin bilik almaq üçün müstəqil axtarışlar aparmalarına, yaradıcı fəaliyyətlərinə, təfəkkürə istinad etmələrinə, öyrənməyə maraq-larına münasibətləri dəyişməli, fəaliyyətini yeniləşdirməlidir.



Təhsilin indiki mərhələsində əsas diqqət uşağın şəxsiyyətinin inkişafına verilir. Bu özünü nədə göstərir? Şəxsiyyətin təhsilin ibtidai mərhələsindən başlayaraq inkişafını təmin etmək, oxumaq, yazmaq bacarığı və vərdişlərini təlim fəaliyyətinin digər bacarıq və vərdişlərini əldə etməkdə, təfəkkürə, nitq inkişafına, sağlam həyat tərzi elementlərinə yiyələnməkdə göstərir.

Tədris prosesində müxtəlif iş formalarından, yeni interaktiv təlim üsul-larından istifadə olunması müasir tələblərdən irəli gəlir. Müəllim nəzərə almalıdır ki, hər bir mövzunun qavranılması, yüksək təlim nəticələrinin əldə edilməsi ilk növbədə dərsdə öyrədici mühitin formalaşması ilə sıx bağlıdır. Öyrədici mühit elə təşkil edilməlidir ki, şagird müstəqil şəkildə fərziyələr irəli sürə bilsin, tədris zamanı əldə etdiyi bilikləri real həyatla əlaqələndirməyi bacarsın. Bu mühit elə təşkil olunmalıdır ki, bütün şagirdlərin əməkdaşlığına, şagirdin biliyi əldə etmə prosesinə müsbət münasibətinə, yeni biliklərin kəşf edilməsi, mənimsədilməsi və tətbiq edilməsinə şərait yaradılsın. Tədris prosesində şagird bilik əldə etmək, ünsiyyət qurmaq, əməkdaşlıq etmək üçün çətinlik çəkməməli, təlim metodlarından düzgün istifadə edərək gələcək inkişafı üçün maksimum imkanlar əldə edə bilsin.

Tədris prosesində fəal interaktiv təlim metodlarından istifadə olunması şagirdlərdə hər şeyi öyrənmək həvəsini gücləndirir, onların öyrənmə fəallığını artırmaqla təfəkkürünü inkişaf etdirir və təlimin səmərəliliyini artırır. Dərs zamanı şagird tədqiqatçı mövqeyində çıxış edir. O, müstəqil araşdırma, tədqiqat aparır. Bu heç də müəllimin rolunu minimuma endirmək demək deyil, müəllim burada yol göstərən, istiqamət verən, əlavə sualların köməyi ilə şagirdləri istiqamətləndirən və fəallaşdıran, onların biliklərə yiyələnmələrinin təşkilatçısı rolunu oynayır.

Təlim zamanı müəllim öyrətmə anlarını düzgün planlaşdırmalı, şagirdlərə biliyi hazır verməməli, onlarda bilik əldə etməyə həvəs oyatmalı və öyrənənlərin fəal düşünmələrini təmin etməlidir. İnteraktivlik şagirdlərin müəllimin rəhbərliyi altında müxtəlif informasiya mənbələrindən məlumat əldəetmə bacarığını inkişaf etdirir. İnteraktiv priyomlar eyni zamanda şagirdlərdə yeni keyfiyyətlər formalaşdırır. Onlar müsahibini, radio-televiziya verilişlərini dinləməyi, söylənilən fikirlərə hörmət etməyi, müstəqil tənqidi və yaradıcı düşünməyi, sərbəst fikir söyləməyi, məntiqi təfəkkürünü inkişaf etdirməyi, kollektivin üzvləri ilə əməkdaşlıq etməyi, başqasının fikrinə ədalətlə yanaşmağı bacarmalıdır.

Bu gün şagirdlərin yaradıcı düşünməsinə, biliklərə sərbəst yiyələnmə qabiliyyətlərinin inkşaf etdirilməsinə xidmət göstərən texnologiyalardan istifadə etmək tələb olunur. Təlim metodlarının əsas funksiyaları təlimedici, tərbiyəedici və inkişafetdirici funksiyalardır. Şagirdlərin təlimin məzmununu müvəffəqiyyətlə mənimsəmələri üçün onlardan yüksək idraki fəallıq tələb edən yeni metodlardan səmərəli istifadə bacarığı tələb olunur. Təlimin inkişafetdiriciliyindən söz düşəndə şagirdin inkişafını təmin edən xüsusi metodların axtarılması başa düşülür, halbuki, bütün metodların inkişafetdiricilik vəzifəsinin yerinə yetirilməsinə nail olmaq lazımdır. Seçilən metod şagirdləri fikirlərinin, yaradıcı təxəyyülünün zənginləşməsinə və ümumi inkişafına xidmət etməlidir. Metodun seçilməsi zamanı bir sıra şərtlər nəzərə alınmalıdır. Seçilən metod şagirdlərdə problem məsələləri həll etməyə tələbat oyatmalı, onlara fikirləşməyi öyrətməlidir. Bu zaman müəllim şagirdlərin yaşını, bilik səviyyəsini, qavramasını nəzərə almaqla, məktəbin maddi bazasını və özünün şəxsi hazırlığını da nəzərə almalıdır. Təcrübə göstərir ki, müəllimlərin əksəriyyəti dərsə uyğun metod seçməyi və fəaliyyətin başqa növlərini ona tabe etməyi bacarmır. Dərs üçün metod seçərkən ilk növbədə dərsin məqsədi, gözlənilən nəticə, şagirdlərin yaşı, onlarda olan bilik, bacarıq və vərdişlər, texnikanın keçirilməsinə müvafiq şərait və vaxt nəzərə alınmalıdır. Metod eyni zamanda şagirdlərin təfəkkürünün inkişaf etdirilməsinə və onlarda formalaşdırılacaq vərdişlərə uyğun olmalıdır. Bu zaman şagirdlərin müstəqilliyinin təmin olunması və materialın problemlilik dərəcəsi nəzərə alınmalıdır. Tədris zamanı ən çox istifadə olunan təlim üsulları aşağıdakılardır: "BİBO", "Əqli hücum", "Şaxələndirmə", "Anlayışın çıxarılması", "Venn diaqramı", "Diskussiya", "Rollu oyun", "Müzakirə", "Debat", "Ziqzaq", "Karusel" və s. Dərs prosesində bu üsulların bir neçəsindən istifadə etmək olar.

"BİBO", "Əqli hücum" və "Anlayışın çıxarılması" üsullarından dərsin həm də motivasiya mərhələsində istifadə olunur. "BİBO" düsturunun açması: bilirəm, istəyirəm biləm və öyrəndim mənasını ifadə edir. Bu üsul motivasiya yaratmaq, şagirdləri maraqlandırmaq, bilmədiyi nəyi isə öyrənməyə yönəltmək, onunla əlaqədar şagirdlərdən müxtəlif məlumatlar almağa, nəyi isə

öyrənməyə istiqamətləndirilir.

"Əqli hücum" ("Beyin həmləsi", "Beyin fırtınası" və s.) üsulu vasitəsi ilə az vaxt ərzində problemlə əlaqədar daha çox məlumat əldə etmək imkanı yaranır. Şagirdləri düşünməyə, təfəkkürü oyaq saxlamağa vadar edən problem situasiya yaratmağa kömək edən üsuldur.

"Anlayışın çıxarılması" üsulu ilə hər hansı bir əşyaya xas bir neçə xüsusiyyət sadalanır və şagirdlər həmin xüsusiyyətə əsasən anlayışı, əşyanı, sözü tapır. Bu zaman şagirdlərin fikri fəallığı yüksəlir, təfəkkürü oyanır və onlar daha fəal olurlar. "Venn diaqramı" kəsişən iki dairədən ibarətdir. Kəsişən hissədə müqayisə olunan əşyanın, qəhrəmanın, surətin ortaq əlamətləri yazılır. Müqayisə priyo-munun köməyi ilə təhlil aparılır, nəticəyə gəlmək uşaqlardan fikri fəallıq tələb edir. Bu üsul uşaqların məntiqi təfəkkürünü inkişaf etdirməkdə böyük əhəmiyyətə malikdir.

"Diskussiya" üsulu ilə müəllim və şagirdlər hər hansı məsələyə münasibət bildirirlər. Bu zaman şagirdlər hər hansı problemi müstəqil həll etməyə hazırlaşır, informasiya toplamaq vərdişinə yiyələnirlər, istənilən bir məsələ və ya konkret problem üzrə fikir mübadiləsi çox maraqlı diskussiyanın mövzusu ola bilər. "Şaxələndirmə" üsulu tətbiq olduqda şagirdlər sərbəst düşünür, kollektiv fəaliyyətdə fəal iştirak edirlər. Bu zaman şagirdlərin zehnində növ və cins anlayışları möh-kəmləndirilir, onların lüğət ehtiyatı zənginləşir, dəqiqləşir və s. Göstərilən təlim üsullarından başqa dərs prosesində müxtəlif iş formalarından da istifadə olunur. İş formaları bunlardır: Böyük qrupla (bütün siniflə) iş, kiçik qrupla iş, cütlərlə və fərdi iş. Dərs prosesində bu iş formalarından istifadə olunur.

Böyük qrupla iş motivasiya zamanı, müzakirə və ümumiləşdirmə, nəticələrin çıxarılmasında istifadə olunur. Kiçik qrupla iş tədqiqatın aparılması zamanı istifadə olunan iş formasıdır. Cütlərlə iş həm tədqiqat zamanı, həm də yaradıcı tətbiqetmə zamanı, fərdi iş isə həm test tapşırıqlarının yerinə yetirilməsində, həm də sual-cavablar aparılan zaman istifadə olunan iş formalarıdır.

Qrup işləri şagirdlərdə tədqiqatçılıq, əməkdaşlıq, bir-birini dinləmək, bir-birinin fikrinə hörmətlə yanaşmaq, vaxta qənaət etmək, nəticə çıxarmaq, tətbiq etmək, təqdim etmək, qərar vermək, düşünmək, özünəinam kimi keyfiyyətlər formalaşdırmaqla yanaşı, onların məntiqi, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirir. Təlimdə müvəffəqiyyət qazanmaq üçün müəllim təlim metodlarını düzgün seçməyi və onlardan səmərəli istifadə etməyi bacarmalıdır.

### Ədəbiyyat


1. Kərimov Y.Ş. Təlim metodları. Bakı, 2007.
2. Veysova Z. Fəal interaktiv təlim. Bakı, 2007.
3. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2009.
4. "Kurikulum" jurnalı, Bakı, 2013, № 3.



**П. Пашаева**


**Новые методы обучения**

*Резюме*


В этой статье рассмотрены новый методы обучения. Куррикулум направлен на формирование личности как основной движущей силы развития общества, и обеспечение соответствующего уровня образования и навыков, необходимых для разрешения проблем и самостоятельного принятия решений, увеличения роли информационных и коммуникационных технологий, и усиления конкуренции. Куррикулум обеспечивает эффективность учебной среды и преподавательной деятельности на отдельных этапах образования.



**P. Paşhayeva**


**New training methods**

***Summary***


This article deals with the new teaching methods. In education, a curriculum is broadly defined as the totality of student experiences that occur in the educational process. The term often refers specifically to a planned sequence of instruction, or to a view of the student's experiences in terms of the educator's or school's instructional goals. Curriculum may incorporate the planned interaction of pupils with instructional content, materials, resource and processes for evaluating the attainment of educational objectives. Curriculum planning and carefully designed teaching methods are fundamental to providing quality education.




# ALİ MƏKTƏBLƏRDƏ EKOLOJİ TƏHSİLİN TƏKMİLLƏŞDİRİLMƏSİ


**Zülfiyyə Salayeva,**
*biologiya üzrə fəlsəfə doktoru, dosent*
*Bioresurslar İnstitutunun aparıcı elmi işçisi*
*AMEA-nın Naxçıvan Bölməsi,*
E-mail: Zulfiyyə Salayeva@rambler.ru



***Açar sözlər:*** *ekologiya, ətraf mühit, ekoloji təhsil, maariflənmə, ekoloji tərbiyə, mühafizə*
***Ключевые слова:*** *экология, окружающая среда, экологическое образование, просвещение, экологическое воспитание, охрана*
***Key words:*** *ecology, environment, environmental education, educate, environmental education, protection*


Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 10 dekabr 2002-ci il tarixdə qəbul olunmuş "Əhalinin Ekoloji Təhsili və Maarifləndirilməsi haqqında" qanun və 29 yanvar 2003-cü il tarixində ümummilli liderimiz Heydər Əliyev tərəfindən təsdiq edilmişdir. Qanun 5 fəsil 14 maddədən ibarət olmaqla, əhalinin ekoloji təhsili və maarifləndirilməsi ilə bağlı dövlət siyasətinin hüquqi, iqtisadi, və təşkilatı əsaslarını müəyyən edir [1].

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ekoloji maariflənmə işi bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 sentyabr tarixli "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşmasına dair" 2006-2010-ci illər üçün Kompleks Tədbirlər Planı"na əsasən, ətraf mühitin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Cənab İlham Əliyevin təşəbbüsü ilə 2010-cu il ölkəmizdə "Ekologiya ili" elan edilmişdir. Azərbaycan dövlətinin rəhbəri, ətraf mühitin mühafizəsi, əhalinin sağlamlığı, ekoloji təhsil və maariflənmə məsələlərinə daim böyük diqqət yetirir.

Ekoloji təhlükədən xilas olmaq üçün son illərdə müxtəlif konfranslar, konqres-simpoziumlar keçirilir. Bütün bu tədbirlərin önündə bir problem durur ki, bu da insanların irqindən, dini mənsubiyyətindən, milliyyət və intellektual səviyyəsindən asılı olmayaraq onların ekoloji cəhətdən kamilləşməsi, savadlanması və maariflənməsidir. Nə üçün bunlar ön plana çəkilir? Birincisi, bütün canlılardan fərqli olaraq insan yarandığı dövrlərdən təbiətlə münaqişədədir. İkincisi, insan ictimai varlıq olmaqla, ona komfort rahatlıq lazımdır. Üçüncüsü, başlıca təzadlı fakt odur ki, təbii canlı varlıqlardan fərqli olaraq insanın bütün fəaliyyətində tullantı yaranır, ətraf mühitə milyon tonlarla, minlərlə çeşidli ziyanlı-zəhərli maddələr atılır. İnsanlar ekoloji şüura yiyələnməyin, kamilləşmənin və təbiət qanunlarına uyğun olaraq fəaliyyət göstərmənin zəruriliyini kəskin dərəcədə dərk etməlidirlər [4, 9-17].

İnsan Yer üzərində canlı orqanizmlərin inkişafının ən yüksək pilləsi olub, ətraf mühitdən daima asılıdır. Təbiət insanın yaşamasını, inkişafını təmin edən əsas və əvəz olunmaz mühitdir. Ətraf mühit insanın bir bioloji varlıq kimi formalaşmasında, onun təkmilləşməsində, cəmiyyətinin inkişafında mühüm rol oynayır. İnsanların fəallığını artırmaq, onları iqtisadi təfəkkür ruhunda tərbiyələndirmək, bioloq və ekoloqların birinci dərəcəli vəzifələrindəndir. Ətraf mühitlə insanlar arasındakı münasibətləri nizama salmaq üçün ekoloji tərbiyə, ekoloji təhsil, ekoloji təfəkkür problemlərinin həlli indi cəmiyyətin qarşısında həmişəkindən daha kəskin durur və bu ən aktual məsələlərdən biridir.

Ekoloji mədəniyyətin formalaşmasında əsas vasitələrdən biri məqsədyönlü ekoloji təhsildir. Ekoloji təhsilə ehtiyac insan həyatı üçün əlverişli mühitin təmin edilməsinə olan zərurətdən yaranmışdır. Ekoloji təhsil dedikdə, ümumi ekoloji mədəniyyətin, ekoloji məsuliyyətin formalaşmasına yönəlmiş fasiləsiz təhsil, tərbiyə, inkişaf prosesi və hər bir sakinin ekoloji məsuliyyəti başa düşülür. Ona görə də ekoloji təhsil, təkcə təhsil sisteminə daxil olmamalı, onun əsas hissəsinə çevrilməlidir. Əgər ədəbiyyat və tarix mədəni dəyərlərin, təbiətşünaslıq təbii qanunauyğunluğun mənimsənilməsindən ötrü lazımdırsa, ekoloji təhsil isə təbiətə qarşı insani münasibətlərin formalaşmasından ötrüdür.

Ekologiyanın tədrisi iki formada icra edilir: ayrıca bir fənn kimi tədris planına daxil edilməklə və başqa fənlərin tədrisi prosesində konkret ekoloji məsələlərdən irəli gələn vəzifələrin şərh edilməsi yolu ilə. Bu gün tələbələrimiz təbiəti, təbii sərvətləri qorumaq, onlardan qənaətlə və səmərəli istifadə etmək üçün ilk növbədə ekoloji təfəkkürə yiyələnməlidirlər. Son ədəbiyyat məlumatlarına əsasən müəyyən edilmişdir ki, ekoloji təhsil və ekoloji maariflənmə cəhətdən savadsız olan ölkələrdə ekoloji problemlər daha acınacaqlı vəziyyətdədir [3, 105-109]. Ekoloji tərbiyə və maariflənmə uzun müddətli, ardıcıl, planlı, məqsədyönlü aparılan təhsil-tədris təbliğatından asılıdır. Ekoloji kamillik bütün tələbələr üçün vacibdir. Lakin hələ də təhsil sistemində, ümumiyyətlə, ekoloji maariflənmənin təşkilində bəzi qüsurlar mövcuddur. Onların aradan qaldırılması vacibdir.

### Ədəbiyyat


1. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının qanunu. "Azərbaycan" qəz., 2003, 29 yanvar
2. Əliyev H.Ə. Həyəcan təbili. Bakı, 2002.
3. Məmmədov Q.Ş., Xəlilov M.Y. Ekologiya, ətraf mühit və insan Bakı: Elm, 2006.
4. Новиков Ю.Н. Экология, окружающая среда и человек. Учебное пособие для вузов. М.: Агентство Фаир, 1998.



З. Салаева


**Усовершенствования экологических образований в высших образовательных учреждениях**


*Резюме*

В статье предусматриваются вопросов усовершенствование экологических образований в Высшее Образовательных учреждениях, пути рационального использование природного ресурса, экологического воспитания для охраны окружающих средах и пропаганды-обучения. Формирование студентам правильных отношений к природе, экологической воспитаний с целью урегулирование нормальных подходов с окружающими средами, экологических образований, информации о важности развития экологических сознаний.



Z. Salayeva


**Improve environmental education in higher educational institutions**


*Summary*

The article provides for the improvement of issues of environmental education in higher educational institutions, ways of rational use of natural resources, environmental education to protect the environment and promote learning. Formation of the students is right relationship to nature, ecological education with a view to resolving the normal approach to the environment, environmental education and awareness of the importance of environmental awareness.


## BİOLOGİYANIN TƏDRİSİ –İNNOVATİV METODLAR ASPEKTİNDƏN


**Səbinə İsmayılova,**
*AMİ-nin Cəlilabad filialında istehsalat təcrübə rəhbəri*
E-mail: e.ismayilova.82@mail.ru



***Açar sözlər:*** *fəal təlim, yeni təlim texnologiyaları, biologiya, təfəkkür, bilik, müasir dövr*
***Ключевые слова:*** *активное обучение, новые технологии обучения, биология, мышление, знание, современная эра*
***Keywords:*** *active learning, the new learning technologies, biology, thinking, knowledge, the modern era*


Digər tədris fənləri ilə yanaşı biologiyanın tədrisində də interaktiv təlim metodlarından istifadə olunur. Çünki müasir dövrdə fəal təlim metodlarına keçməyin bir çox üstünlükləri vardır.



1) müasir biologiya elminin nailiyyətlərini, onun məzmununu şagirdlərə dərindən öyrətmək, canlı təbiətdə gedən hadisə, proses və qanunauyğunluqların mahiyyətini şagirdlərə daha yaxşı başa salmaq;

2) biologiya elminin tərbiyəedici və inkişafetdirici rolunu şagirdlərə düzgün aşılamaq, onlarda yeni elmi dünyagörüşü formalaşdırmaq , eyni zamanda insan- təbiət-cəmiyyət ruhunda tərbiyə etmək;

3) bioloji təhsilin praktik istiqamətini inkişaf etdirmək və yüksəltmək;

Fəal təlim metodlarına Venn diaqramı, rollu oyunlar, klaster, ziq-zaq, anlayışın çıxarılması, beyin həmləsi, BİBÖ, auksion, karusel kimi metodlar daxildir. Məsələn: əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün Venn diaqramından istifadə olunur.

İnsan anatomiyasında insan qanı ilə qurbağa qanı arasındakı oxşar və fərqli cəhətləri, vərəm və qripə aid oxşar və fərqli cəhətləri müqayisə etmək üçün Venn diaqramı daha əlverişlidir.

Oxşarlıqlar




Qurbağa qanı İnsan qanı




İnsan anatomiyası kursunda müxtəlif mövzuların tədrisində *anlayışın çıxarılması* üsulundan da istifadə etmək olar. Bu metodun tətbiqi zamanı hər hansı bir əsas terminin və ya açar sözün açılması nəzərdə tutulur. Məsələn,müəllim insan anatomiyası kursunda ayrı-ayrı orqanlar sistemini keçərkən müxtəlif orqanların şəkillərini göstərməklə bunların birləşərək nəyi təşkil etdiyinə toxunur.Bu biliklər isə hamısı əvvəlki dərslərdə keçirilən mövzulara istinad edir.Təbii ki, uşaqlar

hələ botanika və zoologiya fənlərini keçəndə orqanizmin təşkil səviyyələrini atom, molekul, hüceyrə, toxuma,orqan, orqanlar sistemi və orqanizm terminlərini öyrənmişlər.




Fəal təlimdə diskussiya vərdişlərini inkişaf etdirmək üçün akvarium metodundan da istifadə olunur. Akvarium bir neçə variantda keçirilə bilər. "Akvarium"un keçirilməsinin I variantı:

Şagirdlərin köməyi ilə diskussiya aparmaq qaydalarına, yəni, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və s. kimi qaydalar müəyyən edilir. Şagirdlər iki qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir.




Biologiyanın tədrisində təlim metodları ilə yanaşı müxtəlif təlim texnikalarından da istifadə olunur. Ayrı-ayrı fənlərin tədrisində təlim texnikalarından istifadə edilməsi keyfiyyəti yüksəldir, mənimsəməni asanlaşdırır. Metod və ya texnikalar seçilərkən mövzunun xüsusiyyətləri, təlimin məqsədi, əldə olunacaq nəticələr, şagirdlərin xüsusiyyətləri, öyrədici mühit, resurslar, vaxtdan səmərəli istifadə olunması kimi cəhətlər nəzərə alınmalıdır.

Dos. A.M. Nəzərovun sözü ilə desək, pedaqogika texnoloji təlim prosesinə yeni baxışdır. Bu baxışa görə təlim prosesi ənənəvi təlimdən fərqli olaraq maksimum idarə olunan proses olmalıdır.

Fəal təlim və yeni təlim texnologiyalarının tətbiqi şagirdlərin müstəqil düşünmə qabiliyyətini yüksəldir, onlarda şəxsilikdən ictimailiyə, asılılıqdan müstəqilliyə, intuisiyadan məntiqə doğru inkişafı sürətləndirir.Şagirdlərin analiz etmək, araşdırmaq, dərk etmək və ümumiləşdirmək bacarıqları inkişaf edir. Onlarda auditoriya qarşısında sərbəst çıxış etmə vərdişləri yaranır.



**Ədəbiyyat**


1. Hacıyeva H. M. Abdullayeva T. Q. Hacıbəyova E.Ə. Ümumtəhsil məktəblərində biologiyanın fəal təlim metodları ilə tədrisi metodikası. Bakı: Çaşıoğlu, 2014.
2. Hüseynov Ə.M., Hacıbəyova E.Ə. İnsan kursunun tədrisi metodikası. Bakı: ADPU, 2014.
3. Ə.H.Əliyev və b. Biologiya. İnsan: 9-cu sinif üçün dərslik. Bakı, 2003.
4. Təlimdə yeni metodlardan istifadə. Metodik tövsiyə. Bakı, 2003.
5. Qədimova X. İnteraktiv təlim metodlarının tətbiqi yolları. Bakı: Nur, 2003.
6. A.M. Nəzərov. Müasir təlim texnologiyaları: Dərs vəsaiti. Bakı: ADPU, 2012.


**С.Исмаилова**

**Обучение биологии – с точки зрения инновационных методов**

*Резюме*

Обучение студентов в активное обучение, основанные на высоком познавателнойдеятелности. Внедрение нового активного технологий обучения в преподавании биологии улучшает способность самостоятелного мышления в учащихся.Ускоряя развитие интуичии к логике формазирует их зависимость к независимости.

**S.Ismayilova**

**Teaching biology – in terms of innovative methods**

*Summary*

Active learning is a training that is based the cognitive activity of children . The introduction of new learning technologies and active learning in teaching biology improves the ability of children thinking , accelerates their dependence to independence , intuition to logic.

## TARİXİN TƏLİMİNDƏ ŞAGİRDLƏRDƏ TƏFƏKKÜRÜN FORMALAŞDIRILMASININ NƏZƏRİ ƏSASLARI

**Dəyanət Musayev,**
**Suğra Alıyeva**
*ADPU*
E-mail: gilgram_azeri@mail.ru

***Açar sözlər:*** *müasir təhsil, müasir müəllim, çagird, yeni insanın tərbiyəsi, mənəvi dəyərlər*
***Ключевыеслова:*** *современноеобразование, современныйучитель, воспитание современного человека, моральные ценности*
***Keywords:*** *art education, art teachers, urged the new human culture, moral values*

XXI əsrdə öz müstəqilliyinin yeni mərhələsinə qədəm qoyan Azərbaycan Təhsil sisteminin beynəlxalq aləmə inteqrasiyası üçün bu sahədə köklü dəyişikliklər, islahatların aparılması uğurla davam edir.

Təhsil bəşəriyyətin tarixi inkişaf yolunda ən unikal bir mexanizm kimi meydana çıxmış, insanların əxlaqi və mənəvi cəhətdən inkişafını təmin edən bir sistem kimi istifadə olunmuşdur. Bu gün ölkəmizdə təhsil zəruri amil kimi elm və istehsalat arasında əlaqə yaradan element kimi çıxış edir.

Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası – Milli Kurikulumu konseptual xarakterli çərçivə sənədi olub ümumi təhsil üzrə təlim nəticələrini və məzmun standartlarını, ümumi təhsilin hər bir pilləsində nəzərdə tutulan fənləri, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri, fənn kurikulumlarının strukturunu əhatə edir (6; s.3).

Bu gün Milli Kurikulum orta təhsilin məqsədi şagirdlərdə tənqidi, obrazlı və yaradıcı təfəkkür formalaşdırılmasını, nailiyyətlərin və yeniliklərin mahiyyətini dərk edib onları qiymətləndirə bilmək bacarıqlarını təmin etməyi nəzərdə tutur.

Təfəkkürün 3 forması vardır: məfhum, hökm, əqli nəticə və ya istidlal. Faktlar və hadisələrin ümumi və mühüm olan əlamətlərin inikasına məfhum deyilir. Ümumi, konkret, fərdi və mücərrəd məfhumlar var. Müəyyən faktlar və hadisələr qrupunun ümumi və mühüm əlamətlərini əks

etdirməsi ümumi məfhum adlanır. Məs, tələbə, müəllim, şagird və s. Ayrı-ayrı faktlar və hadisələrin ümdə xüsusiyyətlərinin əksi fərdi məfhumdur (məs, dahi şair Sabir, qədim Şamaxı və s.). Mücərrəd məfhum isə faktlar və hadisələrin keyfiyyət və xassələrinin onun özündən təcrid edilib, müstəqil surətdə düşünülməsidir (məs, xoşbəxtlik, yaxşılıq, bədbəxtlik və s.) Faktlar və hadisələrin arasında müəyyən əlaqə və münasibətin olub-olmamasını iqrar və inkar edən təfəkkür formasına hökm deyilir. Hər hansı bir fikrin həqiqiliyi hökmdə söylənilmiş şərtlərdən asılıdırsa, bu, şərti hökm adlanır. Əqli nəticənin 3 növü vardır: induktiv əqli nəticə (induksiya), deduktiv əqli nəticə (deduksiya) və təşbih. İnduksiya — bir neçə fərdi hökmdən bir ümumi nəticənin çıxarılmasıdır. Xüsusidən ümumiyə gedən əqli nəticədir. Deduksiya — ümumidən xüsusiyə gedən əqli nəticədir. Təşbih isə bir hökmdən bir nəticənin çıxarılmasıdır. Xüsusidən xüsusiyə gedən əqli nəticədir.

Təfəkkür proseslərinə təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, konkretləşdirmə və təsnifat daxildir. Təhlil faktı və ya hadisəni fikrən hissələrə ayırmağa deyilir, yəni elementləri parçalamaq. Təhlil real ola da bilər, olmaya da bilər. Tərkib bu hissələri fikrən birləşdirməkdən ibarətdir. Faktlar və hadisələr arasında oxşar və fərqli cəhətləri fikrən müəyyənləşdirməkdən ibarət olan əməliyyata müqayisə deyilir. Müqayisə zamanı faktlar və hadisələr qarşılaşdırılır, onlar arasındakı ümumi və fərqli cəhətlər tapılır. Faktlar və hadisələr aralarındakı mühüm əlamət və xassələrinə görə birləşdirməkdən ibarət olan əməliyyata ümumiləşdirmə deyil (9, 142).

Təfəkkür məqsədyönlü idrak prosesidir. Təfəkkür o zaman fəaliyyətə gəlir ki, şagirdlərin qarşısına yeni problem, yeni sual və ya məsələ çıxır, qarşıya onları başa düşmək, mahiyyətini açmaq və ya həll etmək məqsədi qoyulur. Yəni şagirdlərin qarşısına yeni məsələ çıxanda, yeni məqsəd qoyulanda, həm də məlum qayda və üsullar onu həll etməyə yaramadıqda təfəkkürün fəaliyyəti güclənir. Məsələnin həlli üçün o, ilk növbədə qəbul edilməli, anlaşılmalıdır. Anlama fikri məsələ həllində mühüm mərhələ kimi çıxış edir. Belə ki, şagirdlər fakt və hadisələri sadəcə qavramır, həmçinin onların mahiyyətini müəyyənləşdirməyə çalışır. Əgər o, buna nail olursa, deməli, həmin tarixi hadisəni və ya faktı anlayır. Fakt və hadisəni anlama onların səbəbini, nəticəsini, mühüm əlamətlərini müəyyənləşdirmək deməkdir. Anlama vasitəsiz və vasitəli olur. Vasitəsiz anlamanın əsasında məlum və naməlum faktlar və hadisələr arasında əlaqə yaratmaqdan ibarət olan tanıma durur. Vasitəli anlama daha mürəkkəbdir. Çünki o qabaqcadan düşünməyə istinad edir. Hər bir məsələnin həllində zəruri şərtlərdən biri də məlumla məchul arasındakı əlaqə və asılılığın dərk edilməsidir. Məsələnin həllində müəyyən fərziyyələrin irəli sürülməsi və onların yoxlanılması mühüm cəhətdir (8; s. 57).

Fəal (interaktiv) təlim metoduna aşağıdakı spesifik xüsusiyyətlər malikdir:

- Təlimin subyekt-subyekt xarakter daşıması,
- Şagirdlərin fəal öyrənmə mövqeyi, təfəkkürün müstəqilliyi və sərbəstliyi;
- İştirakçıların bütün dərs zamanı fəallığı,
- Dərsin əvvəlində problemli situasiyanın yaradılması və dərs prosesinin problemin həllinə yönəldilməsi,
- Düşündürücü və istiqamətləndirici suallar vasitəsi ilə şagirdlərin yeni biliklərin müstəqil kəşf edilməsinə yönəldilməsi,
- Təlimin tədqiqat üsulu vasitəsi ilə keçirilməsi,
- Dərsin dialoq şəklində aparılması, əks əlaqənin yaradılması,
- Əməkdaşlıq və qrupda qarşılıqlı fəaliyyət;

Təlim prosesində təfəkkürün fəallaşdırılması nəticəsində həmçinin: bilikləri daha müstəqil, sərbəst qavranılır və mənimsənilir; məntiqi, tənqidi və yaradıcı təfəkkür, habelə problemlərin həlli və qərar qəbul edilməsi üzrə vərdişlər formalaşdırılır; elmi -tədqiqat vərdişləri formalaşdırılır; qarşılıqlı hörmət hissi və əməkdaşlıq vərdişləri aşılanır.

Bütün təfəkkür növləri və formaları tarix fənninin tədrisində geniş istifadə olunur, bunun üçün şagirdlərdə onların formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**


1.Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004), I kitab, Bakı: Çaşıoğlu, 2005,
2.Bünyatova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 2000,
3.Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı: Mütərcim, 2006,
4.Əlizadə Ə. Ə. Yeni pedaqoji təfəkkür. Bakı, 2001,





5.Əmirov M. Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası (dərs vəsaiti) B.akı, 2011,
6.Kurrikulum (elmi-metodik jurnal). Bakı, 2008.
7.Xəlilov R.Z., Musayev D.M. Məktəbdə tarixin interaktiv təliminin problemləri // Tarix, insan və cəmiyyət, 2006, №1
8.Бердникова Е. Активные формы обучения. Северск, 2003,
9.Загрекова Л.В., Николина В.В. «Теория и технология современного обучения». М., 2004,



Д.Мусаев, С.Алиева

**Основы формирования мышления учащихся при преподавании истории**

*Резюме*

В статье нашли свои отражение духовное воспитание школьников и формирование национального воспитания их в духе патриотизма. Здесь также отмечена необходимость национальных ценностей, национальных обычаев, традиций.

D.Musayev, S.Aliyeva

**Teaching students the history of the formation of thinking theoretical bases**

*Summary*

Forming in the article of the national spiritual upbringing of the pupils, upbringing being in the patriotism spirit has been reflected their. Of the national cost here, necessity of the folk custom traditions have been marked.


# AZƏRBAYCAN DİLİ DƏRSİNDƏ TƏDRİS OLUNAN MƏTNLƏRİN ŞAGİRDLƏRİN VƏTƏNPƏRVƏRLİK RUHUNDA TƏRBİYƏ OLUNMASINDA VƏ ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA ROLU


**Sevinc Vəliyeva,**
*Naxçıvan Müəllimlər İnstitutu*



***Açar sözlər:*** *Azərbaycan dövləti, Vətən, vətənpərvərlik tərbiyəsi, məktəb, Azərbaycan dili dərslikləri, təhsil, tərbiyə, kiçik yaşlı məktəblilər*
***Key words:*** *state of Azerbaijan, motherland, patriotism, upbringing, school, Azerbaijani language textbooks, education, upbringing, younger, schoolchildren*
***Ключевые слова:*** *азербайджанское государство, патриотическое воспитание, школа, учебник азербайджанского языка, воспитание, образование, малолетние школьники*


Orta məktəb dərsliklərindəki mətnlər uşaqlarda, Vətənə böyük məhəbbət, valideynə dərin hörmət, böyüklərə ehtiram, kiçiklərə qayğı, elmə və sənətə həvəs kimi həyatın ən vacib şərtlərini tərbiyə edir.

III sinif üçün yeni kurikulum əsasında hazırlanmış "Azərbaycan dili" dərsliyi bu baxımdan, xüsusilə təqdirəlayiqdir. Dərsliyin məzmununu əks etdirən səkkiz bölmədən altısında cəmlənmiş mövzular demək olar ki, bilavasitə vətənpərvərlik tərbiyəsinə xidmət edir. Bu baxımdan dərsliyin "Mənəvi dəyərlər", "Sevimli qəhrəmanlarım", "Tarixi şəxsiyyətlər", "Bayramlar və tarixi günlər", "Hikmət xəzinəsi", "Mədəni irsimiz" bölmələrində verilmiş demək olar ki, bütün mətlər vətənpərvərlik tərbiyəsi üçün əsl örnəkdir. Bu bölmələrdə verilən məlumatlar əsasında şagirdlər müstəqilliyimizin əldə olunmasında, dövlətçiliyimizin qorunmasında, mədəniyyətimizin inkişafında böyük rol oynayan qəhrəmanları, əmək adamlarını, tarixi şəxsiyyətləri tanıyır, onların timsalında vətənpərvər kimi yetişir.

Nizami Gəncəvinin orta məktəb dərsliklərində tədris olunan əsərləri Azərbaycan xalqının mübariz keçmişini, Vətəni uğrunda düşmənlərə qarşı mətanət və cəsarətli çıxış edən azərbaycanlı oğul və qızlarını dərin məhəbbətlə təsvir etmiş, şagirdlərdə bilik əldə etməyi, dünyanı öyrənməyi, təbiət aləmini, canlıları, başlıcası insanı sevməyi təbliğ etmişdir.

Sən çalış yaxşıca öyrən dünyanı,
İnsanı, bitkini, daşı, heyvanı.

Bilikli adamlar uzağı görər,
Cahilin zəhməti hədərdən hədər.

Şagirdlər bu misralar vasitəsi ilə nələri öyrənə bilər? – İnsanlıq üçün ən böyük meyar olan öz ölkələri haqqında biliyə malik olub, ona qarşı məhəbbət bəsləyib, habelə vətənpərvərlik hissini işdə də göstərə bilməyi öyrənirlər. Şagirdlərin vətənpərvərlik tərbiyəsində təbiətlə tanışlıq mühüm əhəmiyyətə malikdir. Buna görə də şagirdlərin vətənpərvərlik şüuruna əvvəlcədən elə istiqamət vermək lazımdır ki, onlar oxumağın onların gündəlik əsas əməyin olduğunu və ən birinci vətənpərvərlik vəzifələri yaxşı oxumaqdan ibarət olduğunu başa düşsələr vətənpərvərlik tərbiyəsinin məqsədi yalnız o zaman əldə edilmiş hesab edilər.

"Bayraq" şeirini öyrənən şagird dövlət rəmzlərini, onların müqəddəsliyi, toxunulmazlığı, ucalığı haqqında müzakirələrdə iştirak etməklə, onun üçün lazım olan məlumatlar əldə etmiş olur. Bu şeiri oxumaqla dövlət atributları hər bir dövlətin müstəqillik rəmzi olduğunu, bu müstəqillik Azərbaycanın mərd oğul və qızlarının qanı bahasına əldə edildiyin, bayrağın toxunulmaz olmağın, onun həmişə yüksəkdə dalğalanmağını və ən nəhayət bayrağımızı qorumağa, onun yüksəklərə qaldırmağa hər bir vətəndaşın borclu olduğun öyrənirlər.

İbtidai siniflərdə tədris olunan mətnlər müxtəlif mövzularda olsa da, məqsəd birdir: şagirdlərdə müsbət əxlaqi keyfiyyətlər yaratmaq. Bu mətnləri oxuyan şagirdlər özlərini təsvir olunan obrazlara oxşadır, sanki bu hadisələrin içərisində hiss edirlər. Şagirdlər bu mətnlərdəki aqilanə, ibrətamiz fikirlərlə bir növ müdrikləşir, qəhrəmanlara qoşulub özünü qəhrəman bilir, buradan hazırcavablığı öyrənir, mətanətli, iradəli olur, özündən böyüklərə hörmətlə yanaşır, qaydaqanunlara riayət edir. Qəlbində insanlara, torpağa, təbiətə ən başlıcası Vətənə sevgi, məhəbbət hissləri artıb çoxalır.

Doğrudur, dövlətçilik, vətəndaşlıq orta məktəb dərsliklərində və ya hər hansısa əyani vəsaitlərdə əks olunmalı deyil, bütün sahələrdə təbliğ edilməli, sevgi və ehtiram hədəfinə çevrilməlidir. Amma digər sahələrə nisbətən bu məsələdə əsas vəzifə orta məktəblərin və dərsliklərin üzərinə düşür. Tədris materiallarında oxuduqları mətnlər şagirdləri bir vətənpərvər şəxsiyyət kimi formalaşdırır, onları lazım olan yüksək ümumbəşəri dəyərlərə yiyələnməsinə çox böyük təsiri edir.

**Ədəbiyyat**


1. A. Abbasov. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. N Kazımov. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2005.
3. P Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981.
4. Ümumtəhsil məktəblərinin III sinfi üçün dərslik. Bakı, 2014.



**С. Велиева**

**Роль текстов, преподаваемых на уроках азербайджанского языка в воспитании учеников в духе патриотизма и в формировании как личность**

*Резюме*

В статье говорится о важном значении текстив, преподаваемых в средней школе, в развитии детей в их воспитании в духе патриотизма, в их формировании как личность и как гражданин

**S. Valiyeva**

**The role of texts teaching at azerbaijani language lesson in pupils patriotism upbringing and formation as a personality**

*Summary*

It is stated about texts teaching at secondary schools in children development, their upbringing on patriotism, formation as a citizen, personality and importance of acquiring high human qualities in the article.




## RİYAZİYYAT DƏRSLƏRİNDƏ İNNOVATİV TƏLİM METODLARINDAN İSTİFADƏ İMKANLARI


**Cabir Tarıverdiyev,**
*AMİ-nin Cəlilabad filialının müəllimi.*
E-mail: cabir.tariverdiyev@mail.ru



***Açar sözlər:*** *təhsil, təlim, innovasiya, interaktiv metodlar, problem, öyrənmə*
***Ключевые слова:*** *образование, обучение, инновация, интерактивные методы, проблем, изучение*
***Key words:*** *education, training, innovation , interactive methods, problem, learning*


İnnovasiya bir pedaqoji fəaliyyət olaraq təhsilə yenilik gətirir, təhsil prosesinin təkmilləşdirilməsinə xidmət edir. Pedaqogikada innovasiya iki yanaşmadan ibarət olub, qabaqcıl pedaqoji təcrübənin nəticəsi kimi və pedaqoji ustalıq və şəxsi yenilik kimi araşdırılır. Birincisi, adətən innovasiya yenilik dövründən sonra uzun mübarizənin nəticəsi kimi cəmiyyət tərəfindən tətbiq edilməsi üçün bir model olaraq qəbul olunur (bunun əsasında sonralar yeni pedaqoji texnologiyalar yarana bilər). İkinci yanaşmada isə innovasiya yenilik kimi qəbul olunmayaraq birinciyə arxalanır.

Məktəbin qarşısında qoyulan məqsədə çatmaq üçün yeni yanaşma, yeni texnologiya seçib təlimdə tətbiq etmək lazımdır. Təfəkkürün inkişafına yönəlmiş təlim texnologiyasına konstruktiv təlim deyilir. Bu texnologiya ilə dərs keçiləndə müəllim şagirdlərə öz bilik və təcrübələrinə istinad edərək yeni biliklərini yaratmağa şərait yaradır. Əgər fəal təlimdə şagirdlər fəal olaraq bilik axtarışındadırlarsa konstruktiv təlimdə onlar interaktiv fəallıqda olaraq təfəkkür əməliyyatları aparırlar. Əgər biz təfəkkürə əsaslanaraq təlim qursaq, onda təlim prosesinin gedişatını dəyişdirərək, onu yeni bir keyfiyyətə çatdırmış olarıq.

Psixoloqlar, pedaqoqlar və tədqiqatçılar öyrənmənin mahiyyəti və necə həyata keçirilməsi mövzusunda uzun illərdir araşdırmalar aparırlar. Dəyişən və yeniləşən dünyamızda bir çox məsələlərdə olduğu kimi, öyrənmə anlayışına da müxtəlif yanaşmalar mövcuddur. Tarixin bu və ya digər mərhələsində müxtəlif öyrətmə metodları mövcud olmuşdur. Dünyanın qabaqcıl psixoloq və pedaqoqlarının ortaq fikirlərinə görə bütün uşaqların daxilində öyrənmə istəyi var. Bu istəyi ortaya çıxarmaq üçün münbit öyrənmə mühiti yaratmaq,şagirdlərdə maraq və özünə inam hissləri oyandırmaq,onları birlikdə çalışaraq yeni bilikləri "kəşf" etməyə təşviq etmək lazımdır. Şagirdlərdə öyrənilən mövzuya maraq yaratmaqda uğurlu bir yol isə onların diqqətini cəlb edəcək bir sualla başlamaqdır. Həddən artıq bəsit olan bir sual şagirdlərdə çox az kəşf arzusu yaradar. Uğurlu dərsin əsasında düzgün problemli vəziyyət yaradılması durur.

Riyaziyyatda problem anlayışı real həyatdakından fərqli mənaya malikdir. Riyaziyyatda problem həll etmək əvvəlcədən qazanılmış olan bilikləri yeni və tanış olmayan vəziyyətlərdə tətbiq etmək bacarığıdır. Tədqiqatçılar uzun illərdir problem və problem həll etmək ilə bağlı mövzular üzərində çalışırlar. Problem həll etmə strategiyalarına aşağıdakılar daxildir:sual verməklə problemli vəziyyət yaratmaq, vəziyyəti təhlil etmək, verilənləri nəticəyə çevirmək, nəticələri ümumiləşdirmək, nəticələri yoxlamaq. Problem həll edərkən şagirdlər düzgün nəticəyə gələ bilmək üçün məntiqi ardıcıllıq qaydalarına riayət etmək məcburiyyətindədirlər.

Beləliklə, riyaziyyat tədrisində tətbiq olunan innovativ metodlar şagirdlərdə aşağıdakı qabiliyyətləri formalaşdırır:

- ✓ Yeni riyazi bilikləri əvvəldə sona qədər problem həll etməklə qazanırlar;
- ✓ Problem həll etmək üçün müxtəlif metodlardan istifadə etməyi bacarırlar;
- ✓ Riyazi problemləri həll edə bilmək qabiliyyəti onlarda qarşıya çıxan digər problemləri həll etmək bacarığı formalaşdırır.

Riyazi problem həll etməyi öyrənmək şagirdlərə düşünmənin yollarını, maraqlı və israrlı olmaq vərdişlərini, riyaziyyat dərslərindən kənarda tanış olmayan vəziyyətlərdə də özünə güvənmək bacarığı qazandırır. Təhsilin inkişafında mühüm nəticələr əldə edən ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və

təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal təlim metodları daha yüksək nəticələr verir.

Təcrübə göstərir ki, fəal təlim şəraitində şagirdlərin dünyagörüşü genişlənir, məntiqi təfəkkürlərinin inkişafına şərait yaranır, dərsdə əyanilikdən və müxtəlif mənbələrdən alınmış əlavə məlumatlardan istifadə olunması onların dərketmə qabiliyyətini artırır. Bu prosesdə şagirdlər istər-istəməz fəal təlimə qoşulur və fənyönümlükdən nəticəyönümlülüyə istiqamətlənirlər.

İnnovativ təlim metodları müəllimlə şagirdlər arasında işgüzar ünsiyyəti təmin edir, şagirdlərin aktiv fəaliyyəti üçün sinifdə psixoloji şəraitin yaradılmasını təmin edir. Bütün bunlar şagirdlərdə müstəqil və sərbəst düşüncə formalaşdırır, onlarda özlərini obyektiv qiymətləndirmə bacarığı, biliklərini təhlil etmək qabiliyyəti yaradır, əməkdaşlıq etmək və alternativ fikirlərə hörmət etmək xüsusiyyəti tərbiyə edir, gəldiyi nəticəni əsaslandırmaq və onu izah etmək bacarığı aşılayır.

Müxtəlif təhsil pillələrinin spesifik xüsusiyyətlərini nəzərə alaraq, tədris olunan fənnə və konkret mövzuya uyğun gələn interaktiv metodların seçilməsi müəllimdən peşəkarlıq tələb edir. Prof. Ə.Ə. Ağayev yazır: "İnteraktiv təlim metodlarından həmişə istifadə etmək onun təsirini azalda bilər! Həqiqi təlim üçün metod və texnologiyalar qarşıya qoyulan məqsəd və şəraitdən asılı olaraq seçilməlidir.Ona görə də müəllimlər məqsəd və şəraitə, fənnə, mövzuya ,şagirdlərin təcrübələri və bilik səviyyələrinə görə bütün təlim modellərindən, müxtəlif metodika və texnologiyalardan istifadə etməlidirlər" (1,81).

### Ədəbiyyat


1. Ağayev Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006.
2. Kərimov Y. Təlim metodları. Bakı, 2009.
3. Veysova Z. Fəal (interaktiv) təlim.Bakı, 2007.
4. İnnovativ təlim metodları və texnologiyaların tezarusu. Azərbaycan Respublikası Təhsil Nazirliyi, XXI əsr Təhsil Mərkəzi İctimai Birliyi. Baki, 2014.



**Д. Тарывердиев**


**Доступ к инновационным методам при преподавании в классах математики**


*Резюме*

В последние годы в республике реформы образование носит инноватиВный характер. Инновация как педагогический деятеЛЪностЪ повышает качества образования, служит к улучшению образоватеЛЪного процесса. Инновативные методы при обучении математики формирует у учениках:

- Новые математические знания через решения проблем прибыЛЪ от начала до конца;
- РешатЪ проблемы с разными методами;
- СпособностЪ формироватЪ решения математические и другие проблемы,возникающие перед ними.



**J. Tariverdiyev**


**Opportunities of using from innovative training methods in mathematics lessons**


***Summary***

Within last years educational reforms carry innovative character. Innovation brings innovations to education os pedagogical activities and serves perfekt of educational process.

Innovative methods applied in the mathematics form the following abilities in the pupils:

- They earn new mathematical knowledge from the beginning with solving a problem;
- They can use different methods for solving a problem;
- Ability of to can solve mathematics problems forms skills of solving other problems in them.




# YENİ TƏLİM TEXNOLOGIYALARININ TƏDRİSDƏ TƏTBIQİ PROBLEMİ: MƏKTƏB TƏSRÜBƏSİ, ALINAN NƏTİCƏLƏR


**Zərövşən Babayeva,**
*Naxçıvan Dövət Universitetinin dosenti*
E-mail: babayeva_z@yahoo.com



***Açar sözlər:*** ***pedaqoji texnologiyalar, prioritet, eksperiment dərsləri, pedaqoji təcrübələr, təhsil islahatı***

***Key words:*** ***pedagogical technologies, priorities, the experimental classes, experiments, reforms***

***Ключевые слова:*** ***педагогические технологии, приоритеты, экспериментальные уроки, педагогическая практика, реформы***


Biologiyanın tədrisi ilə bağlı tədqiqatların araşdırılması zamanı bir məsələ çox düşündürücüdür. Mövzular müxtəlif olmalarına baxmayaraq, əksəriyyətində bir nöqsan qabarıq görünür: kurikulum, interaktiv təlimin prinsip və üsulları nəzərə alınmır, tədqiqat zamanı eksperiment dərslərində istifadə olunmur. Sanki hər bir metodist dar çərçivədə mövzunun adıyla bağlı məsələlərin müəyyən dərəcədə həlli ilə vəzifəsini bitmiş hesab edir. Dinlədiyimiz dərslərin əksəriyyəti daha çox ənənəvi dərs formasında keçirilməklə, ən yaxşı halda ümumi sual-cavab və testlə fərqlilik gətirilir. Müəyyən sayda müəllimlər bəzən elektron lövhədə ya hazır verilmiş təqdimatla dərs izah edir, ya da hazır CD-lərdən istifadə etməklə yenilik tətbiq etdiyini düşünür. Az sayda gənc və orta yaş müəllimlər də vardır ki, internetdən, ensiklopediyalardan əlavə məlumatlar toplayaraq, yeni interaktiv üsullardan istifadə ilə dərslərini təşkil edir. Müəllimlərlə görüşüb problemlə bağlı söhbət apardıqda məlum olur ki, hər bir müəllim yeniliklərə müxtəlif baxışla yanaşırlar. Məktəblərdə apardığımız eksperiment dərsləri zamanı şagird-müəllim qarşılıqlı anlaşmasına və qarşıdurmasına da şahid olduq. Bizim eksperimentlərdən həyəcanlanan şagirdlər müəllimlərindən eynisini tələb edincə vəziyyət gərginləşməyə başladı. Belə vəziyyətdə istəkləri normal qarşılayan müəllimlər bizimlə işbirliyinə getməyə, təcrübəmizdən yararlanmağa razılaşdılar. İstəkləri neqativ qarşılayan, şagirdlərə yeni təlim prinsipləri ilə bilik verməyi lazımsız sayanlar isə öz mühafizəkarlıqlarını göstərdilər.

Test suallarının uzun illərdir tətbiq olunmasına baxmayaraq, hələ də öz aktuallığını saxlamaqdadır. Bu üsulun öz mənfi və müsbət cəhətləri vardır. Müasir dövrdə test suallarının verilməsini interaktiv rejimə uyğunlaşdırmaqla dərsin müxtəlif mərhələlərində, slaydların nümayişi zamanı arabir, mövzunun yekunlaşdırılması, təkrarı zamanı tətbiq etmək olar. İlin sonunda əvvəlki biliklərin təkrarı üçün elə test sualları salmaq olar ki, bu ilin və əvvəlki illərin də biliklərinin təkrarına yol açsın. Bunun üçün müxtəlif fənləri, bölmələri əhatə edən test suallarını hazırlamaq tədrisin səmərəliliyini artırmaq üçün faydalıdır.

Pedaqoji eksperimentin nəticələri Naxçıvan MR-in şəhər və müxtəlif kənd, Bakı şəhərinin bir neçə orta məktəblərində (2004-cü ildən), Azərbaycan Müəllimlər İnstitutunda ixtisasartırma kursu zamanı (2013), fəaliyyət göstərdiyim Naxçıvan Dövlət Universitetində biologiya ixtisasının qiyabi və əyani şöbəsinin tələbələri ilə aparılmış tədqiqatların (2006-cı ildən) göstəricilərinə görə müxtəlif cədvəl, sxem, diaqram və s. vasitəsilə müxtəlif yerli və xarici ölkələrin elmi jurnallarında dərc olunmuşdur. Habelə Naxçıvan Dövlət Universitetinin biologiya ixtisasının BTM fənninin tədrisi vasitəsilə xüsusilə sınaqlar keçirilmiş, göstəricilər hesablanmışdır. Ali və orta məktəblərimizdə şəxsi nəzarətimizlə apardığımız eksperimentlərdən başqa, yeni metodika ilə hazırladığımız eksperimental dərs nümunələrinin həm pedaqoji təcrübələr zamanı, həm qiyabiçi tələbələr vasitəsilə bölgələrdə, həmçinin digər məktəb müəllimləri vasitəsilə (NDU-da ixtisasartırma kursu keçdikləri zaman) kənd və şəhər məktəblərində sınaqdan keçirilməsinə çalışmışıq. Təbii ki, sonradan nəticələri yoxlamaq, keçirilən dərslərin səviyyələrini qiymətləndirmək də diqqətimizdən qaçmamışdır. Biliklərin yoxlanması üçün səmərəli üsullardan biri də test suallarının hazırlanmasıdır. Lakin sualların qoyuluşu da düşünməyə, məntiqi çalışdırmağa xidmət etməlidir. Çünki «pedaqoji test –

öyrənənlərin öyrədəndən asılı olmadan, obyektiv və funksional şəkildə təhsil nailiyyətləri səviyyəsinin ölçülməsinə, onların hər hansı təlim-tədris məzmunu oblastında qazandığı bilik, bacarıq, vərdişlərinin və elmi-praktiki təsəvvürlərinin layiqincə qiymətləndirilməsinə imkan verən spesifik formalı tapşırıqlar sistemidir». Bu tapşırıqların öhdəsindən gəlmək üçün məntiqi-tənqidi təfəkkürə, sərbəst mühakimə bacarığına yiyələnmək əsas şərtlərdən biridir. Buna YTT və interaktiv üsullar geniş şərait yaradır.

Hazırladığımız təqdimatlar, tətbiq etdiyimiz interaktiv üsullar artıq neçə ildir müxtəlif səviyyəli auditoriyalar və siniflərdə uğurla sınaqdan çıxmışdır. Qeyd edək ki, təkcə müəllimlər deyil, həmçinin tələbə və şagirdlər arasında da yeniliklərə açıq və yaxud mühafizəkarları vardır. Biz hər iki tərəfin fikrini dinləyib, əsas gətirdikləri arqumentləri təhlil edərkən aydın olur ki, onların bəziləri texnologiyalardan uzaq, bəziləri isə texnologiyaları son nailiyyətlərinəcən istifadə edib doyan, bezənlərdir. Belə vəziyyətdə bizim metodikamızın istənilən effektdə – cəlbedici, motivasiyalı təqdimatı onların maraq dairəsinə uyğun qurulmalıdır. Tədqiqatımız dövründə həmişə belə olub. Bir çox hallarda keçirilən dərslərin elektron variantını xahiş edən müəllim, tələbə və şagirdlər olur. Bu bizim nailiyyətimiz, metodikamızın aktuallığı sayılmalıdır. Qiyabiçi tələbələr keçirdiyimiz dərslərin elektron variantını verməyimizi xahiş edirlər.

Ali məktəbdə «Biologiyanın tədrisi metodikası» fənninin tədrisində yeni təlim texnologiyalarından və interaktiv təlimdən istifadədə belə bir sxemlə tələbələrin interaktiv üsulları nə dərəcədə qavradıqlarını, yeni üsulların hansı dərslərdə, hansı mərhələdə istifadə edəcəkləri, onları bir-birindən ayırma bacarıqları və müqayisəli təhlil etmə qabiliyyətlərini zaman-zaman yoxlayırıq. Məsələn aşağıdakı sxemləri sual şəklində təqdim etməklə tamamlamağı tapşırır, interaktiv şəkildə və tez bir zamanda biliklərini qiymətləndirə bilirik:




Bu yeni texnologiyalardan istifadə etdikdə daim nəzərdə saxladıq ki, öyrənən – şagird, tələbə, magistrlərin biliklərinin öyrənilməsi yolunda sərbəst fəaliyyətləri fənnə marağının səviyyəsindən asılıdır. Təcrübəçi tələbə və orta məktəb müəllimlərinə tövsiyə edərdik ki, orta məktəblərdə interaktiv üsulların tətbiqini şəxsən mənimsəmək və dərsi o quruluşda təşkil etsinlər. Fikrimizcə, yeni üsulların tətbiqi ilə üsulun tədrisinin fərqi anlaşılandır. Motivasiya nə qədər yüksək olsa, öyrənmə dərəcəsi də paralel olaraq artacaqdır. YTT vasitəsilə kor-koranə təşkil edilmiş dərslərdən fərqli olaraq, məqsədli hazırlanmış multimedialı təqdimatlar son illər öyrənən-öyrədən münasibətində yeni era açmışdır. Məhz bu fərqliliklərdən istifadə edib bütün yeni texnologiyalara yiyələnmiş gənc nəsli tədris prosesinə cəlb etmək məqsədimiz olmuşdur.

2012-ci ildə belə bir eksperiment apardıq. Qiyabiçi tələbələrin müxtəlif rayonlardan olmasını nəzərə alıb, onların hamısına eyni təqdimatı və gözləniləcək meyarları, kurikulumun tətbiqini və interaktiv üsulları sınaqdan keçirməyi tapşırdıq. Eksperiment üçün hazırladığımız dərslərin birində «Maddələr mübadiləsi – hüceyrənin həyat fəaliyyətinin əsasıdır» mövzusunda dərs nümunəsinə



motivasiya olaraq müxtəlif fizioloji proseslərin mahiyyətini açan əsas xüsusiyyətlərini göstərən belə bir tapşırıq əlavə etdik:

| | |
|---|---|
| Tənəffüs (kimyəvi çevrilmə) | Qan-damar (kimyəvi çevrilmə) |
| Həzm (kimyəvi çevrilmə) | Sinir sistemi (?????) |

İş forması kimi kollektiv, qruplarla iş; iş üsulları – Venn diaqramı, Beyin həmləsi; resurslar dərslik, multimedialı təqdimat, iş vərəqləri, şəkil, tablo, İKT vasitələri və internet materialları, inteqrasiya kimya, fizika, riyaziyyatı müəyyənləşdirdik. Nəticə heyrətamiz oldu. Belə ki, Azərbaycanın müxtəlif rayonlarında təcrübə keçən qiyabiçi tələbələr eksperiment dərslərindən təxminən bir-birinə oxşar yüksək nəticələr almışdı. Belə nəticəyə gəlmək olur ki, qoyulan eksperiment nə qədər motivasion və prinsipial olarsa, gəlinən nəticə və maraqlar üst-üstə düşər. Problemlə bağlı elmi-metodik məqalələrin təhlili zamanı belə nəticəyə gəldik ki, pedaqoji texnologiyalardan tədris prosesində istifadə etmək hələ hər şey demək deyildir. İşin məqsədi bu zaman veriləcək biliyin hansı səviyyədə olması, öyrənənin bilikləri təkcə əzbərləməklə deyil, özünün «kəşf edib» qavramasıdır. Bu məsələ bəzən ön plana çıxarılmır, diqqət formal olaraq texnologiyaların tətbiqinə verilir. Məsələn, ali və orta məktəblərdə eksperiment və təcrübə mübadiləsi üçün bir çox hallarda xüsusi İKT otağı olur ki, burada sınaq dərslərini keçirmək üçün istifadə olunur. Halbuki ildə bir-iki dərs yox, mövzuya müvafiq olan dərslərin hamısı belə ixtisaslaşmış siniflərdə keçirilməlidir.

Yeni texnoloji nailiyyətlərin fonunda şagird və tələbələrdə yaranan çox ciddi bir qüsur da hazırda düşünməyə vadar edir. Belə ki, verilən hər bir mövzuya, suala, tapşırığa cavab tapmaq üçün onlar artıq kitab, ensiklopediya, təcrübə, eksperimentin yox, birbaşa internetin köməyinə arxalanırlar. Məlumdur ki, internetdə saysız miqdarda Azərbaycan və dünya təcrübəsinin nəticələri yerləşdirilmişdir. Tapşırıqların verilməsi zamanı təlimat verilməlidir ki, internetdən birbaşa köçürmək yox, təcrübə mübadiləsi kimi istifadə edərək müqayisə aparıb ümumi nəticəyə gəlmək üçün istifadə edilsin. Belə olduqda internet «şparqalka» yox, böyük bir konfrans, təcrübə mübadiləsi məkanı vəzifəsini asanlıqla yerinə yetirər. Qeyd edək ki, tədris prosesində qəbul olunmuş sadədən-mürəkkəbə prinsipi YTT-nın və yeni təlim texnologiyalarının tətbiqinə də aid edilir. Məsələn, botanikada nisbətən sadə, zoologiyada məntiqi və əyləncəli, biologiya-insan fənnində insan sağlamlığı və orqanların quruluş və funksiyalarına dair, ümumi biologiya dərslərində isə daha mürəkkəb, qlobal məsələləri əhatə edən təqdimatlar hazırlayıb auditoriyaya təqdim etmişik. Bu prinsipial məsələlərin vacibliyini ali məktəb tələbələrinin də diqqətinə çatdırmaqla onların pedaqoji təcrübələr zamanı hazırladıqları dərslərdə bu qaydaları unutmamaları şərtdir.

### Ədəbiyyat

1. Babayeva Z.Y. Biologiyanın tədrisində İKT-dən istifadə: interaktiv və ənənəvi təlim: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: "Təhsil» NPM, 2011.
2. Hüseynov Ə.M. Orta məktəblərdə biologiya tədrisinin nəzəri və metodik əsasları. Bakı: Çaşıoğlu, 2000.
3. Şahin-Pekmez, E., Johnson, P. ve Gott, R. (2005). Teachers' understanding of the nature and purpose of practical work. Research in Science and Technological Education, 23(1), 3-23.

### Проблемы, связанные с школьного опыта

*Резюме*

Статья посвящена проблемам применения новых технологий и интерактивный обучения в процессе преподавания биологии, а также экспериментов педагогов и методистов. Проанализированы и дефекты расследования были также упомянуты.

### The analysys of the school experiences related with problems

*Summary*

The article deals with problems of applying the new technologies in the teaching process of biology, and also the experiments of pedagogues and methodologists. The defects of the investigation were also analysed and mentioned.

# BİOLOGİYANIN TƏDRİSİNDƏ FƏNDAXİLİ İNTEQRASİYA VƏ VARİSLİYİN TƏMİN OLUNMASI

**Sevinc Mehdiyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
E-mail: mehdiyeva.82@inbox.ru

***Açar sözlər:*** *varislik prinsipi, elmi biliklər, üfüqi inteqrasiya, şaquli inteqrasiya, fəndaxili inteqrasiya, məzmun xətti*
***Ключевые слова:*** *Принцип наследования, научные знания,горизонтальная интеграция, вертикальная интеграция, внутрипредметная интеграция, содержательна ялиния*
***Key words:*** *principle of inheritance, scientific knowledge, horizontal integration, vertical integration, inter-subject relation, conceptual line*

Varislik "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda təhsil sahəsində əsas prinsiplərdən biri kimi təsbit olunub. Hər bir elmin sistem kimi dayanıqlığında onun tərkib hissələri arasındakı qarşılıqlı əlaqələri və asılılığı təmin edən varislik əlaqəsi əhəmiyyətli rol oynayır. Ümumi təhsil sahəsində təlim nəticələrini əlaqələndirmədən, tədris edilən fənlərin məzmununun təhsil səviyyələri və siniflər üzrə varisliyini yaratmadan bu məqsədə nail olmaq qeyri-mümkündür (2).

Biologiya fənni fəndaxili inteqrasiya prinsipinə əsaslanaraq canlılar aləmi barədə bilik və bacarıqlar sistemləşdirilib vəhdətdə təqdim edilməsi varislik və iyerarxiya əlaqələrinin qurulmasına səbəb olur ki, bu da fənnin bütövlüyünü təmin etmiş olur. Bu bilik və bacarıqlar hər bir təhsil səviyyəsində şagirdin yaşına və əvvəllər əldə etdiyi bilik və bacarıqlara uyğun olaraq təqdim edilir.Hər sinifdə əvvəlki mərhələdə verilən biliklərin genişləndirilməsi və dərinləşdirilməsi nəticəsi olaraq "spiralvari"prinsipə əməl edir.

Fəndaxili inteqrasiya sayəsində biologiyanın məzmunu, pillədən pilləyə, səviyyədən səviyyəyə inkişaf etməli və biri birini tamamlamalı, şagirdlərə öyrədilən biliklər və bacarıqlar isə varislik əsasında sadədən mürəkkəbə doğru inkişaf etdirilərək standartlarda öz əksini tapmalıdır. Eyni zamanda fənn üzrə məzmun standartlarının varisliyinin təmin edilməsi ilə yanaşı bu standartların dərslikdə reallaşdırılması ardıcıllığı gözlənilməlidir.

Sinifdən-sinfə tədricən dərinləşən və genişlənən məzmun xətləri arasında varisliyin təmin olunması, eləcə də biologiya fənni üzrə məzmun xətlərini əlaqələndirmək, müvafiq məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını təmin etmək tədrisin keyfiyyətini yüksəldir. Şagirdlərin əldə etdikləri biliklərdən istifadə etmək bacarıqlarını inkişaf etdirir.

Fəndaxili inteqrasiya zamanı üfüqi inteqrasiyadan istifadə fənn üzrə məzmun xətlərini əlaqələndirməklə məzmun standartlarının müəyyən tədris vahidlərində ifadə olunmasını və varisliyi təmin edir.

Biologiya fənn kurikulumunda VI sinif üzrə müəyyənləşdirilmiş məzmun xətləri arasında əlaqə yaradılarkən canlılara xas əlamətlər, canlıların quruluşu, orqanizmlərin təşkili səviyyələri, bioloji proseslərin xüsusiyyətləri, bitki və heyvanların insan sağlamlığında rolu, onlara qulluq barədə biliklər sistem halında tədris edilərək varislik əlaqələrinin qurulmasına səbəb olur (3).

Biologiya fənn kurikulumunda VII sinif üzrə müəyyənləşdirilmiş məzmun xətləri arasında əlaqə yaradılarkən canlıların müxtəlifliyi, təsnifatı, müxtəlif orqanizmlərdə gedən həyati proseslər, müxtəlif canlıların insan orqanizmində törətdiyi xəstəliklər, dərman bitkilərindən təyinatına görə istifadə, respublikanın flora və faunasının qorunma yolları ilə bağlı biliklər sistem halında tədris edilərək varislik əlaqələrinin qurulmasına səbəb olur (4).

Biologiya fənn kurikulumunda VIII sinif üzrə müəyyənləşdirilmiş məzmun xətləri arasında əlaqə yaradılarkən insan orqanizminin bir vahid kimi qavranılması məqsədi ilə insan orqanizminin hüceyrəvi quruluşunun, orqanizm üçün zərərli olan vərdişlərin, zədələnmələr və xəstəliklər zamanı



ilkin yardım göstərilməsinin əhəmiyyəti ilə bağlı biliklər sistem halında tədris edilərək varislik əlaqələrinin qurulmasına səbəb olur.

Şaquli inteqrasiya sinifdən-sinfə tədricən dərinləşən və genişlənən məzmun xətləri arasında varisliyi təmin edir. Biologiya dərslərində şaquli inteqrasiya yaradılarkən, məsələn, "İnsan və onun sağlamlığı" məzmun xəttində canlıların təsnifat sistemində insanın yerini müəyyənləşdirir, insanı sosioloji varlıq kimi digər canlılardan fərqləndirir, insanın ali sinir fəaliyyətini izah edir, bitki və heyvanların insan sağlamlığında roluna dair bilikləri aşağı siniflərdə öyrədilməsi, yuxarı siniflərdə irsi xəstəliklər,onların qarşısının alınması yollarını, sağlam həyat tərzi və reproduktiv sağlamlığın əhəmiyyətini şərh edir, insanın əmələ gəlməsi, irqlərin yaranması, sağlam ailənin qurulmasında sağlam həyat tərzinin rolunu dəyərləndirir xəstəliklər, zədələnmələr zamanı özünə və ətrafındakılara ilk yardım göstərməyə dair bilik və bacarıqlar məntiqi ardıcıllıqlarla inkişaf etdirməklə təqdim edilir.

"Canlılar və ətraf mühit" məzmun xəttində canlıların qarşılıqlı təsiri və əlaqəsi, bitki və heyvanların mühafizəsinin təşkili, canlıların qorunması haqqında qanunlar, mədəni bitkilərin və ev heyvanların yetişdirilməsi və onlara qulluq qaydaları, qeyri əlverişli mühit amillərin orqanizmə təsirinə dair bilikləri aşağı siniflərdə öyrədilməsi, yuxarı siniflərdə təbiətdə mövsümilik, bioloji ritmlər, qlobal ekoloji problemlər, ekoloji tarazlığın qorunması, ekoloji mədəniyyət, regional ekoloji problemlərə dair biliklər məntiqi ardıcıllıqlarla inkişaf etdirməklə təqdim edilir.

Biologiya fənninin məqsədi şagirdlərə canlılara dair bilik və bacarıqlar mənimsətməklə onlarda ekoloji mədəniyyət, estetik zövq, humanist və vətənpərvərlik keyfiyyətləri formalaşdırmaqdan ibarətdir. Bunların həyata keçirilməsi üçün bir çox şərtlər mövcuddur ki, onlardan biri varislik prinsipi üzərində qurulmuş təhsildir.

Varislik, inkişafa xidmət etməli, hər hansı bir nəticə özündən əvvəl gələnin mahiyyətcə zənginləşməsinə və əhatə dairəsinin genişlənməsinə yönəlməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu. Bakı, 2013.
2. Səlimov V.S. Elmin İnkişafında Varislik Prinsipi // Bakı Universitetinin Xəbərləri, 2011, № 2
3. Y. Seyidli, X. Əhmədbəyli, N. Əliyeva. Biologiya-6: Müəllimlər üçün metodik vəsait. Bakınəşr, Bakı, 2013.
4. Seyidli, X.Əhmədbəyli, N.Əliyeva. Biologiya-7: Müəllimlər üçün metodik vəsait. Bakı: Bakınəşr, 2014.

**Внутри дисциплинарной интеграция и обеспечение наследования в преподавании биологии**

***Резюме***

В статье показано использование горизонтальной и вертикальной интеграции при внутри дисциплинарной интеграции в преподавании биологии, использование стандартов содержания в определенных учебных единицах связывая содержательные линии по предметам и обеспечение построения наследственных связей. Нарушение принципа наследования в дисциплине биология приводит к формированию на должном уровне знаний и умений о мире живых существ.

**Intradisciplinary integration and provision of inheritance in teaching of biology**

***Summary***

In this article described about use of horizontal and vertical integration during intradisciplinary integration in teaching of biology, expression of content standards in some teaching units connecting content lines for subject and provision of creation of inheritance relations. Violation of the principle of inheritance in the subject of biology leads to formation of knowledge and skills on leaving beings in appropriate level.

# TƏHSİLİN TƏMİN EDİLMƏSİ PROBLEMLƏRİ: İZAHLI LÜĞƏTLƏRDƏ İŞLƏNƏN ARXAİK KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

**Samirə Pəsiyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ADPU*
E-mail: elmi hisse@mail.ru

*Açar sözbr: izahlı lüğət, türk dilləri, qoşma, nitq hissəsi, bağlayıcı*
*Ключевые слова:, толковый словарь, тюркские языки, приуен, часть речи, разъемы*
*Key words: explanatory Dictionary of Turkic languages, trailer, part of speech, connectors*

Azərbaycan dilinin izahlı lüğətlərində nitq hissələrinə, eləcə də digər köməkçi nitq hissələrinə rast gəlmək olar. Bunlardan digər ədəbiyyatlarda bağlayıcı və qoşmaların tədqiqinə aid müxtəlif tədqiqatlara rast gəlinir.

Məsələn, bağlayıcıların "Müasir türk dillərində bağlayıcılar" mövzüsunda dərs vəsaitində. Çünki-çün, çünkum bağlayıcısından, çünki bağlayıcısının sinonimi olan zira-zira ki, zira ki bağlayıcısından ərəb mənşəli binaenaleyh bağlayıcısından- eçün ki, əgər, hərgah, madam ki, yoxsa bağlayıcısı hərgah, məgər, indi vaxta, bir halda ki, sanki, guya ki, əgər ki və s. tipli (1, 32-37; 2).

Qədim tarixə malik "kim" bağlayıcısı Zakirdə "ki" ilə paralel işlənmişdir. Bu bağlayıcı ədəbi dilimizdə sovet dövrünə qədər işlənmiş, hal-hazırda işləklikdən çıxmışdır. "Kim" ki şəkilcə arxaikləşmişdi (3, 35).

**Qoşma.** XVIII əsr Azərbaycan ədəbi dili tarixinə aid materiallar dərs vəsaitində arxaizmlər içərisində arxaik qoşmalardan danışarkən arxaik qoşmaları iki hissəyə bölünür.

a) mənşəcə əsl Azərbaycan arxaik qoşmaları

b) alınma arxaizm qoşmalar.

Mənşəcə əsl Azərbaycan sözlərindən ibarət olan arxaizm qoşmalarda 40-a yaxındır.

Bu növ arxaizmlərin azlığının səbəbi aydındır. Qoşmalarda işlədilmiş sözlərin yarıdan çoxu ümumən işlətdiyi sözlərdir. Ümumi işlətdiyi sözlər isə çoxu az köhnəlir və beləəri köhnəldikdən tamam itmir (4)/

Qoşmalardakı axraizmlərdən al (I qırmızı, II nəsil, III layihə), qabaq (üz), qalıq-qıy-düyün, ün, nəstə, yağmalamaq kimi sözlərə başqa söz və ifadələrin başqa söz və ifadələrin tərkibində və şivələrimizdə bu gün də rast gəlirik.

Qoşmalardakı arxaizmlər müasir dilimizdə başqa sözlərlə əvəz edilmişdir. Bu sözlərin çoxu qoşmalarda da gizlədilmişdir. Dağal (141) – qəbl, dan- səhər, dəng (138) – dənə, yağı (43) – düşmən, çağ (59) – vaxt, çağ (20)- qıvraq, kələci (137)- söz, pişmək (104) –yemək, soy (117) və ocaq (77) – nəsil, sar (103) –bayquş, suç (138) – günah sözləri ilə əvəz edilmişdir.

Arxaik əsil Azərbaycan sözünün çoxunun müasir dilimizdəki sinonimi qoşmalarda daha çox işlədilmişdir. Azərbaycan dilinin izahlı lüğətlərində. Məsələn, 7 dəfə toy, 1 dəfə düyün, 45 dəfə söz, 1 dəfə kələci, 85 dəfə getmək, 2 dəfə varmaq, 13 dəfə səhər, 5 dəfə sübh, 1 dəfə dan, 22 dəfə yanmaq, 4 dəfə yaxmaq, 7 dəfə günah, 2 dəfə suç, 20 dəfə yemək, 1 dəfə pişmək işlədilmişdir. Bu, o deməkdir ki, qoşmalardakı əsil Azərbaycan sözlərindən ibarət olan arxaizmlərin çoxu XVIII əsrdə passiv sözlər sırasında olmuş və bunların arxaikləşmə prosesi Vaqifdən də qabaq başlamışdır. Digər tərəfdən, Vaqif belə sözləri üslubi-sinonimik məqsədlər üçün işlətmişdir. Bu fikri aşağıdakı misallarda nəzərdən keçirək: **Düyün** oldu, bütün xublar yığıldı.... Bir qədəm bas ki, **toy** sənin **toyundur. Toylar** yaraşığı sənin boyundur (89).

Arxaizmlərin əksəriyyətində olduğu kimi, düyün sözündə də bir növ əzəmətlilik, təmtəraqlılıq koloriti vardır. Güman ki, Vaqif buna görə də düyün sözünü əvvəl salmışdır. Vaqif ikinci sətirdə "düyün sənin düyünündür" kimi işlədə bilməzdi. Belə işlətsəydi, məna aydın olmazdı, ahəngdarlıq pozulardı.

Ün arxaizmində də əzəmətlilik koloriti hiss edilir. "Ünümdən titrədi bütün vilayət" misalında ün adi səs kimi deyil, göylərə ucalan əzəmətli nalə, fəryad kimi.



Qoşmalarda elə də hallar vardır ki, arxaik söz daha çox işlədilmişdir. Qırmızı mənasında 8 yerdə "al" 3 yerdə "qızıl" işləndiyi halda, qırmızı sözünə heç rast gəlmirik. Arxaik yağı sözü 8, düşmən 3 yerdə, üz mənasında 30 yerdə qabaq sözü işlədilmişdir. Demək, Vaqif dövründə bədii dildə al, qızıl, qırmızı, yağı, düşmən, qabaq, üz, paralel- yəni sinonimlər kimi işlədilmişdir. Və müasir dilimiz üçün arxaik olan buradakı sözlərin tam arxaikləşməsi Vaqifdən sonrakı dövrə aiddir.

Yaxmaq, könül, bağır sözlərindəki məntiqi -əşya mənalarının arxaikləşməsi və bunların şairanə sözlər kimi daha çox şerdə işlədilməsi Vaqifdən də poetik sözlər kimi işlədilmişdir.

Nəsimi, Xətai əsərlərində yaxmaq sözünün əsil, yəni məntiqi- əşya mənasına rast gəlirik, Xətai yazır: lələ gecələr yaxub çırağı.

Görünür yaxmaq sözünün məntiqi- əşya mənasının tam arxaikləşməsi Vaqifdən sonrakı dövrdə başa çatdırılmışdır. Üslubi cəhərdən: bunlar yüksək ton, təmtəraqlı nitq koloriti yaratmaq üçün istifadə edilmişdir. Bunların az bir hissəsi müasir dilimizdəki sinonimləri ilə paralel işlədilmişdir. Demək, beləəri də sinonimik vasitədir.

Mənşəcə alınma sözlərdən ibarət arxaizmlər dilin öz sözlərinə nisbətən bir neçə qat çoxdur. Baikrah, zəğən (110), buy, qəllaş (121), qibleyi-taət (132), qüllab, didə, dər, dəst, diba (98), ər-ər(117), giysu (97), köftar, köft-gu, guyandə, guş, manənd, mitan (133), suy, saq və s. sözlər belələrinə misaldır. Vaqifə qədərki klassiklərimizin dilində belə sözlər daha çox olmuşdur. Vaqif bu tip sözləri seçərkən,bunların danışıq dilində yayılıb-yayılmaması ilə hesablamış və sələflərinin dilində külli miqdarda olan yad sözləri işlətməmişdir.

Qoşmalarda Xətai işlətdiyi üqab, zill, düxtər, nafə, zənbur, zində, xücəstə; Füzuli işlətdiyi zöhd, müsəvvər, tərəşşüh, xəffaş, təməttö kimi sözlər yoxdur. Vaqif, şer dilində çox işlətdiyi üçün nisbətən geniş yayılmış didə, çeşm, sər, dəst, muy kimi arxaizmləri işlətmişdir. Vaqif də öz dövrünün şairi kimi dilimizə yad olan alınma sözlərdən yaxasını qurtara bilməyib, belə sözlərin çoxunu sinonimlər kimi üslubi məqsədlər üçün işlətmişdir. Qoşmalarda müasir dilimiz üçün arxaik sayılan alınma sözlərin çoxunun dilin əsil öz sözlərində ibarət sinonimləri vardır və dilin pz sözləri daha çox işlədilmişdir. Məsələn, 160 dəfə göz, 8 dəfə çeşm, 2 dəfə didə, 1 dəfə eyn; 10 dəfə iy və qoxu, 2 dəfə by işlədilmişdir.

Tədqiqatçı A. Əliyev də yardımçı sözlər adı altında arxaikləşən sözlərə həm bağlayıcıları, ədatları, qoşmaları daxil etmişdir.

**Bağlayıcıya:** və, ki, amma, əgər, ilə, lakin; Modal sözə: əlbəttə, da/də; Ədatlara: bəli, əfsus.

**Qoşmalara:** çün, üçün, kibi-kimi. Ulayın –onun kimi anlamında; bunalayın –bunun kimi; dəklü- müqayisə bildirən, bigi-kimi, dəxi – da/də, həm artıq.(8)

**Ədat:** Hacıyeva Nailə H.Rəbğuzinin "Qiasül-ənbiya" əsərinin dili (Bakı, 1998) əsərində ədatlar haqqında məlumat verir, və bu əsərdə işlənmiş ədatların adını çəkir. O, burada görəsən//görəsən- modal söz kimi işlənən bu sözü M. Kaşğarinin onu təkid ədatı kimi göstərdiyini qeyd edir. Arzu bildirən kaş ki, ədatını 126, bəli ədatına 10; bəli, hə mənası ifadə edən "hay" ədatını 151; "yoq" sözü əlyazma müxtəlif mənada geniş bir mənada işlənmişdir. (9, 45-49)

Köməkçi nitq hissələrindən isə bağlayıcalara toplam 8-dən yuxarı qoşmalara 40-dan yuxarı: b-3; i-3; m-4 və s. ədat.

Göründüyü kimi, dilimizin izahlı lüğətlərində işlənən arxaik sözlər ta qədimdən üzü bəri işləkliyini öz əvəzedici sözü vasitəsilə qoruyub saxlamışdır.

### Ədəbiyyat

1. Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. Bakı: Bakı Universiteti nəşriyyatı, 1992.
2. Елимов А.И. Стилистика худшжественный речи. М., 1957.
3. Əlizadə A.A. Azərbaycan dilinin yazılı abidələrində sayların ifadə olunmasına dair. Azərbaycan dilçiliyi məsələləri. Bakı, 1967.
4. Ələsgərova T., Sadıqova C., Hüsaməddin X.. "Töhfeyi Hüsam". Bakı, 1996.
5. Hacıyeva N. H.Rəbgüzinin "Qissəsül-Ənbiyə" əsərinin dili. Bakı: BDU, 1996.
6. Hüseynov S., Sadıqov F. Qasım bəy Zakirin əsərlərinin dil xüsusiyyətləri. Bakı: Gənclik, 1997.
7. İsrafilova X. Şah İsmayıl Xətainin əsərlərində işlənən əsli qoşmalar. Filologiya məs. dair tematik toplu. Bakı: Adiloğlu, 2001.

8. Şükürov Ə.C., A.A.Məhərrəmov Qədim türk yazılı abidələrinin dili. Bakı: APİ, 1976.
9. Zeynalov F.P Müasir türk dillərində bağlayıcılar: Dərs vəsaiti. Bakı, 1967.

**The auxilary parts of speech using in the explanation dictionaries.**

*Summary*

We can coma across the main parts of speech besides the auxilary parts of speech in the explanation dictionaries of the Azerbaijan language. The different researchments include in researching of conjuctions and come across more than them. Besides one branch of folk literature and modal words are come across in the explanation dictionaries.

## "DÜŞÜNÜRƏM, DEMƏLİ - VARAM"

**Rəcəb Ağayev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*

***Açar sözlər:*** *düşüncə, iş, əməl, reallıq, bilik, ağıl, şüurlu, beyin, insani, düşünməlidir.*
***Ключевые слова:*** *мышление, работа, поступок, реальность, знание, ум, сознательный, мозг, человеческий, должен мыслить.*
***Key words:*** *thinking, work, deed, reality, knowledge, mind, conscious, brain human, must think*

Fransız filosofu Dekart Renanın (1596-1650) insani, beyin fəaliyyəti olan, hər bir adamın iş və əməlini, həyat yolunu məqsədyönlü tənzimləyən, varlığını təsdiqləyən sağlam düşüncə ilə bağlı söylədiyi sözlərdə, yürütdüyü fikirlərdə, gəldiyi yekdil nəticələrdə, mülahizələrdə danılmaz, inkar edilməz həqiqətlər, reallıqlar mövcuddur. Onun dediyi – "Düşünürəm, deməli varam"(1,15) ifadəsi beyin fəaliyyəti sayılan sağlam düşüncəni insanın mövcudluğu, varlığı kimi dəyərləndirir. Bu deyilənlərdən aydın olur ki, insan nə qədər yaşayırsa, bütün fəaliyyətləri ərzində düşünməlidir, hər bir iş, əməlini həyata keçirərkən səhvə, iradlara yol verməmək üçün məqsədyönlü şəkildə sağlam düşüncədən fasilələrə yol vermədən mütəmadi şəkildə istifadə etməlidir.

Görkəmli filosofun kamil insanın mövcudluğu, habelə varlığı kimi dəyərləndirdiyi sağlam düşüncənin faydası, dəyəri ilə bağlı yürütdüyü fikir və mülahizələr oxucuları kamilləşməyə səfərbər edən sağlam düşüncələrə, mühakimələr yürüdərək real əqli nəticələrə gəlməyə səfərbər edir. Danılmaz həqiqətdir, reallıqdır ki, sağlam düşüncə insanın əqli, mənəvi zənginliyini cilalayır, kamilləşdirərək inkişaf etdirir. Sağlam düşüncə insanı yersiz danışıqlardan, boşboğazlıqdan qoruyur, ətrafında olanlarla düzgün, ölçülü-biçili şəkildə ünsiyyət mədəniyyətinin formalaşmasına real zəmin yaradır. Düşünülmüş şəkildə yaradılan mənəvi ünsüyyət aparılan təlim-tərbiyə işinin, görülən bütün iş və əməllərin səmərə və keyfiyyətini qat-qat yüksəltməklə yanaşı, habelə həm də onun kamil şəxsiyyət kimi mənəvi zənginləşməsinə, kamilləşməsinə səbəb olur. Sağlam düşüncə sayəsində formalaşan gözəl, demokratik üslublu ünsiyyət insan mənəviyyatının ayrılmaz tərkib hissəsidir. K.D. Uşinski çox haqlı olaraq bildirirdi ki, uşaqla tərbiyəedən arasında düşünülmüş şəkildə mənəvi yaxınlıq, demokratik üslublu mənəvi ünsiyyət yoxdursa və ya pozularsa aparılan təlim-tərbiyə işinin səmərə və keyfiyyətindən söhbət açmağa dəyməz. Hər bir insan sağlam düşüncəyə yiyələnmədən mənən zənginləşə, kamil insan kimi formalaşa, yaşaya, özündə düzgün ünsiyyət mədəniyyəti formalaşdıra bilməz. Sağlam düşüncə reallıqları düzgün aşkarlamaqda, edəcəyi səhvlərin qarşısını almaqda, elmi biliklərə dərindən, şüurlu şəkildə yiyələnməkdə əvəzsiz təsir qüvvəsinə, gücünə, dəyərinə malikdir. Sağlam düşüncə insan fəaliyyətinin düzgün tənzimlənməsində xüsusi rol oynayır.Sağlam düşüncə Fransız filosofu Dekart Renanın söylədiyi kimi insanın mənəvi varlığını, kamil şəxsiyyət olduğunu əks etdirir və habelə təsdiqləyir.

Sağlam düşüncə hər insanı ləyaqətsiz hərəkətlərdən, hərzəçilikdən, boşboğazlıqdan çəkindirir, qoruyur, bütün iş və əməlini məqsədyönlü fəaliyyətə yönəldir. Hər bir insan həyatda hər bir iş və əməlində düzgün mövqe tutmaq üçün sağlam düşüncəyə söykənərəkdən fəaliyyət göstərməlidir. Sağlam düşüncə insanı faydalı zehni və fiziki əməklə məşğul olmaşağa, sağlam düşüncələrini daha da kamilləşdirməyə səfərbər edir və yüksək müvəffəqiyyətlər qazanmağa real zəmin yaradır. Şərq ədəbiyyatının görkəmli, sayılıb, seçilən korofey ziyalılarından biri olan Sədi Şirazi insanı boşboğazlıqdan, yersiz, mənasız danışıqlardan hifz etmək üçün sağlam düşüncələrinə, mühakimələrinə söykənərək bildirirdi ki, "düşüncələrimdən sonra belə qərara gəldim ki, xəlvət bir guşəyə çəkilib heç bir şəxslə söhbət etməyim, sinə dəftərimi mənasız sözlərdən təmizləyib, daha hədərdən-pədərdən danışmayım".

Sağlam düşüncə tərzindən yerli-yerində istifadə etməkdə yüksək səriştəyə malik olan Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev təkrar-təkrar xatırladırdı ki, gənclər bizim gələcəyimizdir. Gələcəyimizi yaxşı formalaşdırmaq üçün onlar elmi biliklərə, sağlam düşüncəyə yiyələnmək əsasında dəyərli vətəndaşlar olmalıdırlar.

Ölkə Prezidenti cənab İlham Əliyev təkrar-təkrar bildirir ki, "bizim xoşbəxt gələcəyimiz olan uşaqlar dünyada gedən prosesləri dərindən izləməli, yaxşı oxumalı, xarici dilləri bilməli və dəyərli vətəndaşlar olmalıdırlar".

Uzaqgörən prezidentimizin bu çağırışlarına nail olmaq üçün müəllimlərimiz məktəbliləri düşündürərək öyrətməyə çalışmalı, oxucular isə düşünərək, əqli mühakimələr yürüdərək elmi biliklərə dərindən və habelə şüurlu, əsaslı şəkildə yiyələnməlidirlər. Düşünmək beyin fəaliyyətidir. Araşdırdığım ədəbiyyatlar təsdiqləyir ki, insan beyni fasiləsiz olaraq fəaliyyət göstərir. İnsan beyni sutqada cəmi bir-iki saniyə ərzində öz dincliyini tapır. İnsan beyninin düşüncəli fəaliyyəti onun əqli-mənəvi inkişafında, kamil şəxsiyyət kimi formalaşmasında böyük təsir gücünə, dəyərinə malikdir. Kamil şəxsiyyət bütövlüyünün təminində, o, cümlədən bütün müşküllüklərin, bağlı qapıların açarı sayılan ağıl birinci yerdə durur. Ağıl şəxsiyyət bütövlüyünün təminində hər birinin özünəməxsus rolu olan digər tərbiyə komponentlərinin də düzgün inkişafına, formalaşmasına müsbət təsir göstərir. Düşüncə və ağıl bir-birini tamamlayır, biri-birinin təkamülünə və inkişafına yaxından köməklik və yardım göstərir.

### Ədəbiyyat

1. Əlisa Nicat. Dünya filosofları, Bakı, 1995-ci il.
2. Əbülqasim Firdovsi. Şahnamə,Bakı,yazıçı nəşriyyatı, 1987-ci il.
3. K.D.Uşinski. Seçilmiş əsərləri, Bakı, yazıçı nəşriyyatı, 1953-cü il.
4. Sədi Şirazi. Gülüstan, Bakı,Azərnəşr, 1987-ci il.
5. M.Ə. Həmzəyev.Pedaqoji psixologiya.Bakı, maarif nəşriyyatı, 1991-ci il.

**Р. Агаев**

*Резюме*

В статье «Мыслю, значит, существую» говорится о значении и полезности мышления, считающегося человеческой и мозговой деятельности, о его влиянии на формирование и развитие человека как личность.

**R. Aghayev**

*Summary*

In the article "If I think, it means I exist" is dealt with the use, value of thinking which is considered a human brain activity and its affect to the formation and development of human as a personality.

## MÜASİR HƏNDƏSƏ DƏRSİNDƏ ŞAGİRDLƏRİN İDRAK MARAQLARININ İNKİŞAF ETDİRİLMƏSİ İMKANLARI

**Almarə Abbasova,**
*fəlsəfə doktoru proqramı üzrə üzrə dissertant*
*ARTPİ*
*E-mail: almar.abbasova@mail.ru.*

*Açar sözlər: müasir təhsil, nöqtələr çoxluğu, həndəsi qurmalar, verilmiş nöqtələr, çevrə*
*Ключевые слова: современное образование, множество точек, геометрические построение, данные точки, окружность*
*Key words: modern education, place of the geometrical points, multitude of the points, geometricalse*

Məktəbdə həndəsə təlimi məqsədlərindən ən mühümü – şagirdlərə nəzəri biliklərin verilməsindən ibarətdir. Təlim iki tərəfli proses olduğundan hər iki tərəfin düzgün təşkil olunmuş tədris fəaliyyəti və onların qarşılıqlı əlaqəsi mühüm rol oynayır.

Təlimə maraq hər bir şagirddə sistematik şəkildə inkişaf etməlidir. Müasir təhsil konsepsiyası və onun tərkib hissəsi olan fəal təlim şagird-müəllim duetindən əlavə şagird-şagird düetini zəruri etmişdir. Bütün bu fəaliyyət növlərinin gücləndirilməsi ilk növbədə dərsin məzmunundan və təşkili formasından asılıdır. Müəllim həndəsəyə aid dərsin mövzusunu müəyyən edərkən, ilk növbə təlim metodlarını, şagirdləri fəallaşdıran və onların marağını təmin edən çalışma növlərini və onların həllində sualların, fərdi işlərin qoyuluşu, sinifdaxili diferensiyasıyanın tətbiqi məsələlərini dəqiqləşdirməlidi.

Məlumdur ki, hər bir sinifdəki şagirdərin səviyyəsi müxtəlifdir. İnteraktiliyi reallaşdırmaq üçün həm elm, metodiki və həm də pedaqoji vasitələrdən istifadə olunmalıdır. Təlim prosesində diferensasiyanın tətbiq edilməsi şagirdlərin idraki potensialından düzgün və səmərəli istifadə olunmasını tələb edir.

Dərsliklərdə həndəsə məsələlərindən çətin olanlar çox vaxt xüsusi işarə (ulduz) ilə qeyd olunur. Əksər müəllimlər həmin tipli məsələləri nə sinifdə həll edir, nə də evə tapşırır. Məktəb və şəxsi təcrübə göstərir ki, çətinlik dərəcəsi yüksək olan məsələləri sinifdə həll etmək daha səmərəli nəticə verir. Çünki həmin məsələlərdə həndəsənin çox mühüm təklifləri öz tətbiqini tapır və həllin nəticəsində şagirdlər çox böyük praktik və ya nəzəri əhəmiyyəti olan təkliflərlə tanış olurlar.

7-ci sinif həndəsə dərsliyində çətin və ya problem xarakterli məsələlər «Çətinliyi artırılmış məsələlər» başlığı altında verilmişdir. Belə bir məsələni nəzərdən keçirək: «Üçbucağın hündürlüyü onun oturacaqlını yarıya bölür. Həmin hündürlük müəyyən xassəli nöqtələrin həndəsi yeri olduğunu isbat edin».

Bu məsələdə şagird aşağıdakı nəticələrə gəlməlidir:

- verilən üçbucaq bərabər yanlıdır
- verilmiş hündürlük üçbucağın oturacağına həm də orta perpendikulyarıdır

Nəticə: BD üzərindəki hər bir nöqtə A və B nöqtələrindən bərabər məsafədədir. Deməli, oturacaqlı AB parçası və üçüncü təpəsi BD üzərində olan sonsuz sayda bərabəryanlı üçbucaq qurmaq olar. Bu isə o deməkdir ki, AC parçasının uclarından bərabər məsafədə olan nöqtələrin həndəsi yeri BD parçasının yerləşdiyi düz xətt olub, AC-nin orta perpendikulyardır.



şəkil 1

Şagirdlərin həndəsəyə idrakı maraqlarını inkişaf etdirmək üçün müxtəlif metodik yanaşmalar tətbiq etmək olar.

- Həndəsi anlayışların təriflərini və mühüm xassələrinin sistematik (formativ) təkrar edilməsi və şagirdlərin biliklərinin qiymətləndirilməsi;



- Məqsədəuyğun məsələlərin seçilməsi və həll prosesində tətbiq olunan təkliflərin, düsturların təkrar edilməsi;
- Həndəsi anlayışların təriflərinin mümkün hallarda həndəsi yerlər vasitəsilə ifadə olunması;
- Məsələ həllində, mühakimə və isbatlarda şagirdlərin yol verdikləri xarakterik səhvlərin müzakirə olunması və aradan qaldırılması;
- Məsələ həllində və riyazi isbatlarda irəli sürülən hər hansı bir təklifin əsaslandırılması;
- Şagirdlərin riyazi mühakimə qabiliyyətlərini inkişaf etdirmək üçün xüsusi çalışmalar sistemindən istifadə edilməsi.

İrəli sürülən metodiki yanaşmaların məzmununa aid nümunələr göstərərək.

1. Məlumdur ki, həndəsi anlayış və onların xassələrinə dair biliklər iki mərhələdə həyatilik kəsb edir:

1) həndəsi anlayışlar öyrənildikcə əvvəlki biliklərlə əlaqələndirilir. Bu, o xaman səmərəli olur ki, şagirdlər keçilmiş materialı yaxşı mənimsəsinlər və şifahi sorğu zamanı verilən suallara cavab verməkdə çətinlik çəkmirlər;

2) həndəsi anlayışlar və onların xassələrinin tətbiq olunduğu məsələlərin həll edilməsi. Çünki, məsələ həlli prosesində zəruri olan biliyə daha çox ehtiyac hiss olunur və həmin anda tətbiq olunan nəzəri bilik şagirdin yaddaşında həm də bir vasitə kimi həkk olunur. Məsələn, düzbucaqlı üçbucağın xətti elementləri arasında metrik münasibətlər, düz bucaq təpəsindən hipotenuza çəkilmiş hündürlüklə əlaqədar katetlər və hipotenuzun bölündüyü parçalar arasındakı münsibətlər məsələlər həllində tez-tez tətbiq olunur və şagirdlər həmin münasibətləri əzbər yadda saxlayırlar.

2. Müəllimlər hər hansı həndəsi anlayışın təkrarına aid məsələ seçərkən aşağıdakı prinsipləri əsas götürməlidir:

1) anlayışın mənimsənilməsinə xidmət edən məsələlər
2) anlayışın tətbiqinə xidmət edən məsələlər
3) anlayışın yeni situasiyada tətbiqinə aid məsələlər
4) anlayışın standart olmayan situasiyada tətbiqinə aid məsələlər

3. Həndəsi anlayışların tərifləri ona görə səmərəli hesab olunur ki, tərifin ifadəsində anlayışın məzmunu, mühüm əlaməti ifadə olunur. Məsələlər həllində, isbatlarda anlayışların tərifindən də əsas kimi istifadə olunur. Anlayışın tərifində fiqurun təsviri də müəyyən dərəcədə özünə yer tapır. Ona görə də həndəsi anlayışların tərifləri fəza təsəvvürün formalaşmasında və inkişafında mühüm rol oynayır. Məsələn: 1) üçbucağın, dördbucaqlının, çevrənin və s. tərifləri «əyani» xarakter daşıyır. Mümkün olan hallarda həndəsi anlayışların «həndəsi yerlər» vasitəsilə tərif olunması onun məzmununu genişləndirir və ya anlayışın mühüm xassəsini özündə əks etdirir. Məsələn, «tənbölən-bucağın tərəflərindən bərabər məsafədə olan nöqtələrin həndəsi yeridir» – təriflərindən bərabər məsafədə olan nöqtələrin həndəsi yeridir» – tərifində tənbölənin ikinci xəssəsi ifadə olunur. Tənbölənin əsl tərifində bucağı yarıya bölən və təpədən keçən düz xətt təsvir olunur. Bunu birinci tərif adlandıraq.

İkinci tərifdən alınır ki, bucağın, üçbucağın daxilinə çevrə çəkmək olar və onun mərkəzi «nöqtələrin həndəsi yerinə» görə müəyyən olunur.

Verilmiş düz xəttə paralel düz xəttin tərifini belə ifadə etmək olar: «verilmiş a düz xəttindən b məsafədə olan nöqtələrin həndəsi yeri – verilən düz xəttə paralel düz xətdir». Bunu qurma məsələsi kimi təqdim etdikdə həlli, fəzada isə sonsuz həlli olub, silindrik səthi ifadə edir.

Müstəvi üzərində əsas qurma məsələlərini şagirdlər öyrəndikdən sonra fəzada əsas qurma məsələləri elə bir çətinlik törətmir. Qeyd edək ki, əsas qurma məsələləri (həndəsi yerlərə aid) hər biri ayrılıqda mühüm bir təklifi ifadə edir.

4. Şagirdlərin həndəsədən əsas çətinlikləri şərh zamanı riyazi nitqin lakonik şəkildə və həndəsi simvolların tətbiqilə yazılı şəkildə ifadə olunmasında özünü göstərir. Məlumdur ki, yazılı şərhdə və ya məsələ həllində qəbul olunmuş müəyyən sxematik formadan istifadə olunur. Məsələn, verilənlərin və tələb olunanın solda sütun şəklində yazılması, lazım olan çertyojun sağ tərəfdə çəkilməsi və səhifənin artada izah və hesablamaların yazılması. Bu qayda və yazılmış formaları həll (isbat) prosesi üçün xarakterik olub, həm də müəyyən əyanilik və səliqə yaradır.

Şagirdlərə verilən şifahi və ya yarım şifahi suallar müəyyən məqsəd daşımalı və tədris olunan materialın mövzusu ilə əlaqədar olmalıdır. Həndəsə məsələləri həllində mətndən çertyoja və çertyojdan mətinə keçid çox vaxt şagirdlər üçün çətinlik törədir. Bunu aradan qaldırmaq üçün həndəsi münasibətlərin simvolik yazılışla ifadəsi və tərsinə, kimi çalışmalara VII sininfdə yer vermək lazımdır.

Nöqtələrin həndəsi yeri ilə əlaqədar qurma məsələlərinin həllində qeyri müəyyənliyi aradan qaldırmaq üçün mərhələlərin ayırd edilməsinə (yazılması) xüsusi diqqət verilməlidir. Burada ən mühüm olan qurma və isbat mərhələlərini ətraflı şərh etmək lazımdır.

Müasir həndəsə dərsində şagirdlərin həndəsəyə marağını artırmaq və biliklərini inkişaf etdirmək üçün formativ və summatik təkrara sistematik yer vermək lazımdır. Çünki həndəsi biliklər cəbri biliklərdən onunla fərqlənir ki, hər bir həndəsi anlayışın özünə məxsus xassələri var və onlar hər dəfə tətbiq (təhrif) olunmur. Cəbrdə isə əməllər, müxtəlif çevrilmələr, tənliklərin həlli biliklərin təbii təkrarını zəruri edir.

Müasir təhsil sistemində aparılan psixoloji və pedaqoji tədqiqatlarla sübut olunmuşdur ki, həndəsədə tranzitiv əlaqə var və təlim prosesində aparıcı rol oynayır. Bu əlaqə xüsusən qurma məsələləri həlli prosesində şagirdlərin riyazi qabiliyyətldərinin aşkar etdirilməsində və inkişafında xüsusi əhəmiyyətə malikdir.

### Ədəbiyyat


1. Черкасов Р.С. и др. Методика преподавания геометрии в школе, М.: Просвещение, 1987.
2. М.Н. Скаткин, Проблемы современной дидактики, М.: Педагогика, 1980.
3. З.И. Слепкань, Психолого-педагогические основы обучения математике, Киев, 1983, с. 125/192
4. İ.M. Rüstəmov, Həndəsə məsələlərinin həlli metodikasına dair (VII-IX siniflər). Bakı, 1998.
5. S.S. Həmidov. İbtidai siniflərdə məsələ həllinin təlim metodikası. Bakı.



**А. Аббасова**

**Геометрия классовых интересов познавательных возможностей для развития студентов**

*Резюме*

В данной статье освещены следующие вопросы:
- целы и задачи изучения геометрии в общеобразовательной школе,
- характеристические особенности изучения геометрических понятий,
- виды определенный геометрических понятий в школе и «геометрическое место точек» как конструктивный метод изучения свойства геометрических понятий,



**A. Abbasova**

**Modern geometry class interests of the students' cognitive development opportunities**

*Summary*

Following problems are lightened in the article:
- purpose and tasks of studing geometry at the secondary schools
- characteristic leatures of studying geometric conseptions
- types of geometric conseptions at school and "geometric place of points" as conctructive method of learning features of geometric conceptions




# TARİX DƏRSLƏRİNDƏ TƏDQİQATÇILIQ BACARIQLARININ FORMALAŞDIRILMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNDƏN İSTİFADƏNİN ROLU


**Könül Mollayeva,**
*fəlsəfə proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail ünvanı: konul8.8.86@hotmail.com



***Açar sözlər:** Ulu öndər, xalq, dövlətçilik, tədqiqatçılıq, şəxsiyyət, tarix, milli şüur, strategiya, fəaliyyət, ictimai-siyasi həyat*
***Keywords:** great leader, people, government, research, personality, history, national consious, strategy, actvity, public-political life*
***Ключевые слова:** великий лидер, народ, государственность, исследование, личность, история, национальное сознание, стратегия, деятельность, социально–политическая жизнь*


Böyük öndər, Türk dünyasının sönməz günəşi Mustafa Kamal Paşa belə bir fikir söyləyib: Xalqa əfəndilik etmək yoxdur, xalqa xidmət etmək vardır. Kim xalqa xidmət edə bilirsə, o, xalqa, əfəndilik edə bilər". Məsələyə bu cəhətdən yanaşdıqda, qeyd etmək lazımdır ki, Heydər Əliyev iqtidarı hakimiyyətdə qalmağa qadirdir, həm də layiqdir. Çünki Heydər Əliyev 34 ildir ki, Azərbaycan naminə, onun qüdrətli bir dövlətə çevrilməsi üçün fəaliyyət göstərib və Əliyevçilik Azərbaycan dövlətçiliyinin, Azərbaycan ictimai-siyasi həyatının əsas bir xətti kimi mövcuddur. Yəni Azərbaycanda Əliyevçilik dövlətçiliyin qarantıdır, Azərbaycan dövlətçiliyinin irəli aparılmasında işıqlı bir mayakdır. Çünki Heydər Əliyev bütün mənalı ömrünü candan artıq sevdiyi Azərbaycanın dünyanın sivil ölkələri arasında tanınmasına həsr etmiş, həmişə bu müdrik xalqla bir yerdə olmuş, onun keçmişinə, bu gününə və uğurlu gələcəyinə ehtiramla yanaşmışdır. Onun 34 il ərzində respublika üçün gördüyü işləri bir-bir sadalasaq, böyük bir siyahı alınar. Heydər Əliyevin təkcə 70-ci illərdə Azərbaycanda yaratdığı iqtisadi, ictimai və mənəvi potensialı respublikamızın ərazi bütövlüyünə qarşı müəyyən iddiaların baş verdiyi zaman xalq hərəkatının yüksəlişinə bir təkan verdiyini xatırlasaq hər şey aydın olar [1, 72-73].

Bu müdrik insanın, el ağsaqqalının məqsədyönlü daxili və xarici siyasəti sayəsində ölkədə vətəndaş müharibəsinin qarşısı alındı, sabitlik yarandı, əmin-amanlıq bərpa olundu, iqtisadiyyatın dirçəlməsi üçün təbliğat həyata keçirildi, diplomatik fəaliyyət gücləndirildi.

Heydər Əliyevin təşəbbüsü ilə bütün sahələrdə başlanan islahatlar təhsildə də özünü qabarıq şəkildə göstərir. Bu da təbiidir. Çünki digər sahələrin inkişafı da təhsildən asılıdır. Bu gün təhsil sahəsində pedaqoji təfəkkürün inkişafı məsələsi çox aktualdır. Bu problemin həlli yollarını araşdırmağa cəhd göstərdikdə müəllimin özünün təhsil işinin aşağı şəkildə olduğu qabarıq hiss olunur [3, 12-15]. Prezidentimiz müəllimlərin sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə onların əmək haqlarını 50 faiz artırmışdır. Əlbəttə bu göstərici son hədd deyil, ölkə prezidenti bundan sonra da müəllimlərin sosial problemini daha da yaxşılaşdıracaq.

Cəmiyyətdə mənəvi-əxlaqi mühitin yaranmasında təhsil əvəzsiz sahədir. Dünənki potsovet məkanında məktəblərdə əxlaq dərsi keçirilir və hər bir şagirdə əxlaqına görə qiymət verilirdi, yəni əxlaq bütün şagirdlər üçün mənəvi dəyər ölçüsü kimi başlıca vasitə idi. Təəssüf ki, bu gün məktəblərdə bu məsələyə o qədər də fikir verilmir. Yaxşı olardı ki, yenə də şagirdlərə həmin əxlaqi dəyərlərlə yanaşılsın. Bir müəllim kimi, prezidentimizin milli mənəviyyatla bağlı bəyanatı da bu cəhətdən xarakterikdir. Axı Azərbaycan xalqı öz mentalitetinə layiq olan bir xalqdır. Heydər Əliyev prezident kimi deyil, sanki bir el ağsaqqalı kimi gənclərimizə milli dəyərlərimizdən qaynaqlanmağı tövsiyə edir. Bu da prezidentin uzaqgörənliyinə bir nümunədir.

Müstəqillik tarixinə ən böhranlı, keşməkeşli, həm də ən şərəfli dövr kimi daxil olan 1993-cü ilin iyul-oktyabr ayları mərhum eks-prezident Heydər Əliyevin qətiyyətli və məqsədyönlü addımları nəticəsində Azərbaycanda dövlət və cəmiyyət böhranından xilas istiqamətində ümidverici bir dövr oldu [5, 50-55].

Heydər Əliyev gərgin əmək, titanik səylər bahasına milli özünüdərkin və milli özünüifadənin bütün formalarının geniş vüsət almasına, milli şüurun yüksəlməsinə təkan verən sürətli inkişaf strategiyası seçdi. Uzaq perspektiv üçün, daha dəqiq ifadə etsək, bu günümüz üçün hədəfə götürülən həmin strategiya uğurla yerinə yetirilməyə başladı. Bu, onun müstəsna rəhbərlik və idarəçilik fəlsəfəsinin aparıcı ideya-siyasi qayəsi idi. Bəli, artıq tarixə qovuşmuş 34 illik zaman kəsiyinə bugünkü gerçəklikdən baxanda, ona müasir dövrün meyarları ilə qiymət verməyə çalışanda, bir daha şahidi oluruq ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr bütöv bir epoxa-milli dirçəliş, milli özünüdərk, yüksəliş və tərəqqi, nəhayət Heydər Əliyev epoxasıdır [4, 90-95].

Heydər Əliyevdən bizə zəngin bir irs miras qalmışdır. Bunlardan ən böyüyü, ən vacibi azərbaycançılıq ideologiyasının, azərbaycançılıq məfkurəsinin beyinlərdə, şüurlarda kök salıb öz təsdiqini tapmasıdır. Azərbaycanın zaman-zaman daxildən parçalanaraq içəridən dağılmasının, qardaşın-qardaşa düşmən kəsilməsinin, eyni millətin bu və digər dövlətdə başqa-başqa adlarla tanınmasının, dünyanın dörd bir tərəfinə səpələnmiş Azərbaycan övladlarının arasında birliyin, həmrəyliyin olmamasının əsas və yeganə səbəbi də məhz milli ideologiyanın olmaması idi. Bundan yaxın-uzaq yadellilər, türk xalqının düşmənləri, imperiyalara xidmət edən qüvvələr bütün tarix boyu istifadə edib, bəhrələniblər. Bütün işğallara, torpaq itkilərinə, xəyanətlərə, faciələrə səbəb də elə bu olub. Ona görə də gərək Heydər Əliyev müdrikliyi, uzaqgörənliyi səviyyəsinə yüksələ bilməsən ki, tarixi faciələrdən ibrət dərsi alasan və milləti birləşdirmək, milli həmrəyliyi bərpa etmək üçün vahid ideologiya formalaşdırasan. Bizim üçün orası da önəmlidir ki, ölkə prezidenti bu gənclərə şəxsi nümunə olan İlham Əliyev kimi bir oğul yetirib. Ulu öndərimizin irsi daima tarix dərslərində tədqiqatçılıq prosesində şagirdlərə mənimsədilməlidir. Yetişməkdə olan gənc nəsil daima Ulu Öndərimiz Heydər Əliyevin həyatını, ideyalarını və fikirlərini özləri üçün dəyərli örnək bilməlidirlər. Ulu öndərimizin dəyərli sözləri hər bir gəncin həyat devizi olmalıdır.

### Ədəbiyyat


1. A.M. Həsənov. Milli-mənəvi dəyərimiz. Bakı: Elm və təhsil , 2010.
2. R.Ə. Mehdiyev Modernləşmə xətti yenə də gündəlikdədir. Bakı, 2008.
3. R.Ə. Mehdiyev. Azərbaycan tarixi, irsi və müstəqillik fəlsəfəsi. Bakı, 2011.
4. Heydər Əliyev. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997.
5. R.Ə. Mehdiyev. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003.



***Резюме***

Стоимостью напряженного труда, титанических усилий, Гейдар Алиев, для получения расширенного объёма всех форм национального самосознания и национального самовыражения , выбрал стратегию быстрого развития, который даёт толчок повышению национального сознания. Для дальнейшей перспективы, а конкретнее если сказать, предназначенная для сегодняшнего дня та самая стратегия начала удачно выполняться. Это было ведущей идея-политической целью его философии исключительного лидерства и правления.

***Summary***

Heydar Aliyev □s hard work chose the strategy influencing to the increasing of the national self expression and self understanding. In order further perspective if we express exactly, for our today □s life, this strategy was fulfilled successfully.




# ƏNƏNƏVİ TƏLİMDƏN FƏAL TƏLİMƏ DOĞRU


**Şəhla Mirzəyeva,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*BDU*



***Açar sözlər:*** **ənənəvi təhsil, fəal təlim metodları, yaradıcılıq, qiymətləndirmə, kurikulum**
***Ключевые слова: традиционная образования, активные образовательные методы, творчество, оценивания, курикулум***
***Key words:*** *traditional education , active learning methods., creativity, evaluation , Curriculum*


Bu gün ölkəmizin ictimai həyatında, o cümlədən təhsilində baş verən dəyişikliklər qlobal dünyanın ümumi tələbatından irəli gəlməklə yanaşı, müstəqil Azərbaycanda inkişafyönümlü fəaliyyətlərin nəticəsi kimi meydana çıxır. Əldə olunmuş nailiyyətlər ölkədə aparılmış sosial-iqtisadi sahədə siyasətin məqsədəuyğun şəkildə həyata keçirildiyini aydın göstərir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd olunduğu kimi, "Son illərdə nəzərəçarpan nailiyyətlərin əldə olunması da bilavasitə ölkəmizin modernləşdirilməsinə istiqamətlənmiş sosial-iqtisadi siyasətlə bağlıdır" (3). Respublikamızın müstəqillik illərində bütün sahələrə aid fəaliyyətlərin təhlilinə, eləcə də inkişaf perspektivlərinə həsr olunmuş bu sənəddə təhsil sisteminə də münasibət bildirilir, onun irəliləyişlər əldə etdiyi göstərilir. Qeyd olunur ki, "Təhsilin məzmunca yeniləşməsinə istiqamətlənmiş islahatlar aparılmış, Azərbaycan təhsilinin Avropa təhsil məkanına inteqrasiyası istiqamətində əhəmiyyətli addımlar atılmışdır" (3).

Dünya təcrübəsindən məlum olduğu kimi, XXI əsrdə həm cəmiyyətin, həm də onun hər bir üzvünün yaşaması və inkişafında başlıca dəyər yaradıcı, özünü daim inkişaf etdirən, təkmilləşdirən fəal, yaradıcı düşünən şəxsiyyətdir. Müasir təhsil prosesi də hər bir məktəblidə özünüinkişaf, özünütəkmilləşdirmə qabiliyyəti formalaşdırmalı, yaradıcı düşünməyi öyrətməli, praktik olaraq müstəqil qərarlar çıxarmağı mənimsətməlidir. "Başlıca məqsəd şagirdi təlimin subyekti etməkdir ki, o, oxumağa qabil insan kimi tərbiyə olunsun. Bu prosesdə şagirdin fəallığı kifayət qədər yüksək olur. Hər bir şagirdin öz fikri ideyası olur. Zəif şagirdlər də fəallaşır (5, 544). Belə təlim prosesi aşağıdakı prinsiplərə əsaslanmalıdır:

1. Təlim şagirdin yaddaşının deyil, təfəkkürünün inkişafına yönəlməli.
2. Təlim prosesi fikirləri deyil, fikirləşməyi öyrətməli.
3. Təlim prosesi monoloqa deyil, dialoqa əsaslanmalı.
4. Təlim prosesi nəzəri bilikləri əzbərləməyə deyil, praktik fəaliyyətə yönəlməli.
5. Təlim prosesi yalnız bilikli insan deyil, şəxsiyyəti tərbiyə edərək kamil insan, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirməlidir.

Bütün bunlar da öz növbəsində insanın dərketmə tələbatına və qabiliyyətinə əsaslanır. Bura məntiqi düşünmə, ətraf aləmin cismi və hadisələrinə tənqidi və yaradıcı yanaşma, müstəqil olaraq qərarlar çıxarmaq, bilikləri müstəqil olaraq əldə etmək, praktik olaraq problemləri həll etmək qabiliyyəti və özünü inkişafetdirmə bacarığı daxildir.

Bu proses bu gün ənənəvi təlimdən fəal təlimə keçidi sürətləndirməyi tələb edir.

Ənənəvi pedaqoji prosesi təsvir edəndə biz ilk növbədə lövhənin qarşısında duran müəllim və onun sakit dinləyiciləri olan şagirdləri görürük. Bu zaman müəllim çalışır ki, bilikləri çatdırsın, şərh etsin və misallar gətirsin. Şagirdlər isə bu məlumatları passiv şəkildə qavrayır, anlayır, mənimsəyir, sonra bilikləri möhkəmləndirmək üçün bunları təkrarlayır və ya məsələlərin həlli prosesində tətbiq edirlər. Yəni ənənəvi dərsdə şagirdlər məlumatları yadda saxlamağa çalışırlar, müəllim isə nəticələri özü çıxararaq bilikləri hazır şəkildə şagirdlərə çatdırır. Öyrədici fəaliyyət ilk növbədə müəllimin fəallığı əsasında həyata keçirilir. Ənənəvi təlimin bu xüsusiyyətinə izahedici-illüstrativ və ya reproduktiv (təkrar edici) təlim adlandırılır.

Məlumdur ki, hər hansı bir məlumat real həyatda tətbiq olunan zaman biliyə çevrilir. Şagirdin cavabına qoyulan tələblərin əsasını əslində biliklərin mənimsənilməsinin yoxlanması yox, verilən

məlumatların yadda saxlanılması təşkil edir. Eyni zamanda ənənəvi təlim prosesində biliklərin praktik tətbiqini təsəvvür etmək üçün şagirdə müvafiq imkanlar yaradılmır.

Dərsin məzmunu, adətən daha çox nəzəri öyrənilir və həyatın tələbatına uyğunlaşdırılmır. Şagirdin şəxsi təcrübəsi, onun tələbatları, maraqları, qabiliyyətləri və fərdi xüsusiyyətləri nəzərə alınmır. Bu cür prosesin nəticəsində heç kim əmin ola bilməz ki, bütün şagirdlər bu bilikləri lazımi səviyyədə dərk edəcək. Şagirdlərin hazır bilikləri mənimsəməsi nəinki onun təfəkkürünün inkişafı üçün stimul yaratmır, eyni zamanda idrak prosesini zəiflədir, uşağı yaradıcılıqdan, sərbəstlik, müstəqillik, təşəbbüskarlıq kimi keyfiyyətlərdən məhrum edir. Nəticədə təlimin səmərəliliyi azalır, çünki onun keyfiyyəti şagirdin əqli qabiliyyətlərinin və hafizəsinin inkişaf səviyyəsi, idrak motivasiyasının olub-olmaması kimi psixoloji amillərdən birbaşa asılı olur.

Fəal təlim metodlarının tətbiqi zamanı isə şagirdlərin birgə fəaliyyəti təşkil olunur. Qrupda, cütlərdə birləşən şagirdlər birgə işləyir, qarşılıqlı münasibətdə olur, bir-birinə köməklik göstərir, əməkdaşlıq edir, bacarıq və vərdişləri hazır şəkildə deyil, müstəqil şəkildə aydınlaşdıraraq mənimsəyirlər. Eyni zamanda şagirdlər öz fikrini düzgün əsaslandırmaq və qiymətləndirmək bacarığına malik olurlar. "Qiymətləndirmə müəllimlərin mülahizələri, yanaşma tərzi kimi meydana çıxmamalı, şagirdlərin obyektiv dəyərləndirilməsi vasitəsinə çevrilməlidir" (4, 12 ). Belə təlim prosesində şəxsiyyətin yaradıcı qabiliyyəti, tənqidi təfəkkürü inkişaf edir. Təlim texnologiyalarının müasir istiqamətləri şagirdlərin hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına və inkişafına yönəldilmişdir. Bu tərzdə formalaşan şəxsiyyət öz yaradıcı qabiliyyətini fəal surətdə həyata keçirməyi bacarır.

Bu gün məktəb şagirdin əqli inkişafının psixoloji ölçülərini həll etmək üçün təhsilin öyrədici, inkişafetdirici və tərbiyəedici olmasını təmin etməlidir. Bütün bunlara isə yeni fəal metodları təlimə tətbiq etməklə nail olmaq olar. Şübhəsiz ki, bu sahədə müəllim əməyi ən mühüm vasitədir. Bəzən müəllimlərin müasir dövrün tələblərinə uyğun təlim, təhsil-tərbiyə prosesini, təlim texnologiyalarını yaxşı bilməməsi, elmi-metodik ədəbiyyatla yaxından tanış olmaması şəxsiyyətin hərtərəfli inkişafında mənfi nəticələr yaradır. Ona görə də pedaqoji əməkdaşlıq, təlim-tərbiyə elə qurulmalıdır ki, hərtərəfli şəxsiyyət tərbiyə etmək mümkün olsun.

Müəllim şəxsiyyətin formalaşmaqda olan xüsusiyyətlərinə təsir etməklə onun fəaliyyətini müvafiq qaydada istiqamətləndirir. Belə olan tərzdə müsbət şəxsi keyfiyyətlər yaranır.

Bu gün öyrətməyə deyil, öyrənməyi öyrətməyə, düşünməyə yönələn tədris sistemi, qiymətləndirmənin şagirdlər tərəfindən aparılması, məlumatların toplanmasında şagirdlərə verilən sərbəstlik gələcəyin şəxsiyyətlərinin yetişdirilməsində çox ciddi, əsaslı yenilikdir. Təhsil sistemində aparılan uğurlu islahatlar, təhsil strategiyası müasir təlim metodlarının geniş tətbiqini, innovasiyalardan geniş istifadə etməyi qarşıya qoyur .

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası". "Xalq" qəzeti, 2013, 25 oktyabr
2. "Azərbaycan Respublikasında təhsilin inkişafı uzrə Dovlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı.
3. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası". 29 dekabr, 2012-ci il Azərbaycan Respublikası Prezidentinin Fərmanı. "Xalq qəzeti", 2012, 30 dekabr
4. Abbasov Ə.M. Qiymətləndirmə konsepsiyası – konseptual sənəd / "Təhsil sistemində monitorinq və qiymətləndirmənin yeri" mövzusunda respublika elmi- praktik konfransının materialları. Bakı: 27 aprel, 2012.
5. İbrahimov F. N., Hüseynzadə R.L. Pedaqogika. Dərslik. 2 cilddə. I cild. Bakı: Mütərcim, 2013.



Ш. Мирзоева


**С традиционного метода обучения к активным методом обучения**


*Резюме*

Традиционный метод – это пассивный метод, форма взаимодействия учащихся и учителя, в которой учитель является основным действующим лицом и управляющим ходом урока, а учащиеся выступают в роли пассивных слушателей, подчиненных директивам учителя. Связь учителя с учащимися в пассивных уроках осуществляется посредством опросов, самостоятельных, контрольных работ, тестов и т. д. С точки зрения современных педагогических технологий и эффективности усвоения учащимися учебного материала пассивный метод считается самым неэффективным.



S. Mirzoeva


**With the traditional method of learning to active learning methods**


*Summary*

The traditional method – a passive method, the shape of the interaction of students and teachers, in which the teacher is the main protagonist and control the course of the lesson, and the students play the role of passive listeners, subordinate directives teacher. Communication teacher with students in passive lessons carried out through surveys, independent, examinations, tests, and so on. D. From the point of view of modern educational technologies and efficient assimilation of students of educational material passive method is considered the most effective.


## SMART EDUCATION - KREATİV TƏLİM FORMASINA KEÇİDİN TƏMİNATÇISIDIR


**Təranə Mirzəyeva,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*



***Açar sözlər:** pedaqoji kadrların keyfiyyəti, mümkün imtinaların təhlili, özünüqiymətləndirmə, təhlil və hesabat texnologiyası, nəticəyə yönəldilmiş, zamanı müəyyənləşdirilmiş, ölçülə bilən*
***Ключевые слова:** качество педагогических кадров, анализ возможных отказов, технология самодиагностики, анализа и отчета, ориентированные на результат, определенные во времени, измеримые*
***Key words:** the quality of teaching staff, predictive failure analysis, self monitoring analysis and reporting technology, result-oriented*


Hazırda ümumtəhsil məktəblərində yeni informasiya texnologiyalarından istifadə təlimə marağı artıran ən güclü vasitələrdəndir. Təhsilin informatlaşdırılması problemini nəzərə ala bilən müəllim öz imkanlarından istifadə etməklə həmin vasitələrin sinfə gətirilməsi yolları barədə düşünməli , onlardan peşəkarlıqla istifadə etməyə səy göstərməlidir . Bunun üçün ilk növbədə müəllim özü informasiya – kommunikasiya texnologiyaları (İKT) bacarıqlarına yiyələnməli, informasiyalardan istifadənin nəzəri və praktik problemlərini bilməlidir. Təcrübə göstərir ki, tədris prosesində İKT – dən istifadə təhsilin səmərəliliyini artırır və təlimin inkişafetdirici məqsədini reallaşdırır. Bu gün kompüterdən istifadə bacarığına yiyələnmə və təlim prosesində ona istinad etmə müəllimin intellektual səviyyəsinin göstəricisi kimi çıxış edir .

Müasir təhsil sisteminə nüfuz etmiş ən yeni texnologiyalardan biri də SMART texnologiyalarıdır. *SMART Education* bütün tədris proseslərinin, eləcə də bu proseslərdə istifadə olunan metod və texnologiyaların kompleks şəkildə modernləşdirilməsinə imkan verən konsepsiyadır. SMART – "ağıllı lövhə", "ağıllı ekran", dünyanın istənilən nöqtəsindən internetə giriş deməkdir. Bütün bunlar tədris prosesini yeni şəkildə qurmağa imkan verir. SMART zaman və məkan çərçivələrini aradan qaldırmağa kömək edən bir konsepsiyadır. Onun sayəsində öyrənmə prosesi artıq yalnız sinifdə deyil, evdə, eləcə də, muzey, kafe kimi digər ictimai yerlərdə də mümkündür .

SMART nə deməkdir? SMART – ingilis sözlərinin baş hərflərinin abbreviaturasıdır.

S – Spesific – Konkret
M – Measurable – Ölçülə bilən
A – Attianable /Assignable – Müəyyən , nail olunan
R – Result – oriented / Relevant – Nəticəyə yönəldilmiş
T – Timeable / Tangible – Zamanı müəyyənləşdirilmiş

Konkret məqsəd – Hər bir məqsəd dəqiq, konkret nəticə kimi verilməlidir. Məqsəd dəqiq müəyyənləşdirilmədikdə nəzərdə tutulandan fərqli nəticə əldə ediləcək .

Ölçülə bilən məqsəd – Məqsəd konkret və standart ölçü meyarları ilə ölçülə bilən olmalıdır. Əgər məqsəd hər hansı ölçü meyarlarına sığmırsa, ona nail olunub-olunmadığını təyin etmək mümkün olmayacaq.

Nail oluna bilən məqsəd – Məqsəd təsadüfi deyil, reallaşdırılması mümkün olan, əsaslanndırılmış, sübut olunmuş, insan və ya təşkilat üçün həyati əhəmiyyətli olmalıdır. Məqsəd hansısa məsələnin həllində həvəsləndirici amil rolunu oynayır. Belə ki, əldə olunmuş uğur irəliyə doğru növbəti addımı stimullaşdırır. Həyatımızdakı stresləri daha da artıracaq məqsədlər qarşıya qoymaq lazım deyil, çoxlu səy tələb edən kifayət qədər mürəkkəb məqsədər qoymaq olar, ancaq nəzərə alınmalıdır ki , onlar reallaşdırıla bilən olmalıdır .

Nəticəyə yönləndirilən məqsəd. Məqsəd başqa məqsədə zidd olmamalı, mütləq hər hansı faydalı nəticə verməlidir.

Məqsədin zaman baxımından dəqiqliyi də şərtdir, yəni onun həyata keçirilməsinin müəyyən müddəti olmalıdır .

"Smart" sözünün özü tərcümədə "ağıllı" deməkdir. Beləliklə, düzgün müəyyənləşdirilmiş məqsəd konkret, ölçülə bilən, gerçəkləşdirilməsi mümkün olan, nəticəyönümlü və zaman baxımından dəqiq hesablanmış olmalıdır. SMART-ın tarixi 1992-ci ildən başlayır. Belə ki, həmin il *İBM* korporasiyasının mühəndisləri yığıcının bir sıra mühüm böhranlı meyarlarını izləyən texnologiya və toplanmış məlumatların əsasında diskin sıradan çıxması haqqında xəbərdarlıq etməyə qadir olan alqoritm işləyib hazırladılar. Təklif olunan texnologiya "Mümkün İmtinaların Təhlili" kimi tərcümə olunan "Predictive Failure Analysis" adını aldı .

Sonradan *Compaq* şirkəti *İBM*-in bu ideyasının əsasında özünün *İntelliSafe* texnologiyasını yaratdı. SMART – *PFA* və *İntelliSafe* texnologiyalarının təkmilləşdirilmiş formasıdır. SMART – Self Monitoring Analysis and Reporting Technology (Özünüqiymətləndirmə, Təhlil və Hesabat Texnologiyası ) –özünüyoxlama texnologiyasıdır, yəni sərt disk müstəqil şəkildə öz vəziyyətinə nəzarət edir. İnformasiya tutumunun hər onillikdə ikiqat artdığı müasir dövrümüzdə diskin etibarlılığı və mühüm məlumatların qorunub saxlanılması vacib məsələlərdən biridir. SMART – bu problemin uğurlu həllini təmin edə bilən texnologiyadır.

Beləliklə, SMART İKT – nin müasir inkişaf mərhələsində təkcə ənənəvi təlim texnologiyalarının deyil, elektron (E – learning ) təhsil texnologiyalarının da ödəyə bilmədiyi bir çox tələbatların öhdəsindən asanlıqla gələ bilən konsepsiyadır. Ona görə də müasir dövrümüzdə elektron (e – learning) təhsildən *Smart Education* – a("ağıllı təhsil"ə) keçid baş verir.Smart təhsil konsepsiyası çoxlu sayda mənbələr, maksimal multimedia rəngarəngliyi təklif etməklə yanaşı, dinləyicinin tələb və səviyyəsinə tez və asan uyğunlaşmağı təmin edir. Biliklərin müntəzəm artırılması və yeniləşməsi şəraitində kompetensiyaların bütün karyera boyu fasiləsiz inkişafı müasir təhsil sistemində daha da aktuallaşır. Təhsilin inkişafına artıq təkcə insan kapitalının təsiri bəs eləmir. Təlim mühitinin özünün, təhsilin məzmununun, onun metod, üsul və vasitələrinin keyfiyyətli şəkildə dəyişdirilməsi şərtdir, Smart təhsilə keçid zəruridir .

Təhsilin inkişafının bugünkü mövqeyi professor Tixomirov tərəfindən çox dəqiq ifadə olunmuşdur: "Köhnə təhsil sistemi SMART – cəmiyyətdə yaşamaq və işləmək üçün zəruri olan meyarlara cavab verən kadrlar hazırlamağa qadir deyil. SMART texnologiyalarsız yenilikçi fəaliyyət mümkün deyildir. Əgər təhsil sistemi inkişafın bu istiqamətlərindən geri qalarsa, durğunluğa uğrayar."

Məşğələlərin *Microsoft Pover Point* və *Macromedia Flash* proqramlarında hazırlanmış multimedia təqdimatlarından (prezentasiyalar) istifadə etməklə aparılması artıq normaya çevrilib. Lakin bu gün təlim mühitinə slayd – şou səklində təqdimatlardan imtina etməyə imkan verən yeni interaktiv texnologiyalar nüfuz etməkdədir. Materialın avadanlıqların (SMART *Boards* interaktiv lövhələri , *Sympodium* interaktiv displeyi) köməyilə yeni formada ötürülməsi təqdimatın məhz məruzəçinin çıxışı zamanı yaranmasını təmin edir. SMART *Boards* interaktiv lövhələrində xüsusi markerlə yazmaq, tədris materialını nümayiş etdirmək, ekrandakı təsvirin üzərində yazılı şərhlər vermək mümkündür. Beləliklə də bu lövhədə bütün yazılanlar şagirdlərə ötürülür, maqnit



daşıyıcılarda saxlanılır, çap edilir, elektron poçt vasitəsilə dərsdə iştirak etməyənlərə göndərilir. SMART *Boards* interaktiv lövhəsində məruzə zamanı yaradılmış tədris materialı videorekorder qurğusu vasitəsilə yazılır və dəfələrlə nümayiş etdirilə bilir.

Lövhəni interaktiv etməyə imkan verən bir sıra texnologiyalar mövcuddur. Bunlardan sensor rezistiv texnologiyasını, SMART *Technologies* şirkətinin *DVİT* texnologiyasını misal göstərmək olar. Burada ekranın künclərinə yerləşdirilmiş xüsusi rəqəmsal videokameralardan istifadə olunur. Bundan başqa, xüsusi oturacaqlar vasitəsilə istənilən plazma paneli interaktiv lövhəyə çevirmək mümkündür.

Əlbəttə ki, bütün SMART *Boards* interaktiv lövhələrinin maksimal dərəcədə reallaşdırılması üçün xüsusi proqram təminatı yaradılmışdır (SMART *Notebook, Bridgit SinhronEyes*). Bu proqramların hər birinin özünəməxsus özəllikləri vardır. SMART *Notebook* mətnlə, obyektlərlə işləməyə, informasiyanı yaddaşda saxlamağa, əllə yazılmış mətni çap mətninə çevirməyə xidmət edir. *Bridgit* proqramı bütün dünyadakı partnyorlara tez, asan şəkildə təqdimat edərək səs toplamağa imkan yaradır. *SinhronEyes* proqramı vasitəsilə müəllim şagirdləri müşahidə edə bilər, onların monitorlarını lövhəyə qoşa, həmçinin blok edə bilər, eyni zamanda, interaktiv lövhədən bütün kompyuterlərə tədris materialı, məsələn, test göndərə bilər .

SMART texnologiyalarından biri də *Mimio* qurğusudur. Bu qurğunun üstün cəhətləri çoxdur: istifadəsi çox asandır, istənilən ağ, hamar səthi bir anda interaktiv lövhəyə çevirir, kompyuterlə simsiz rabitə imkanı var, kiçik və yüngül olduğu üçün yanda daşımaq asandır, yəni, səyyar qurğudur, rahat, çoxfunksiyalı proqram təminatına malikdir, bütün aktual video və audio formatlarını dəstəkləyir, lövhədəki görüntünü səslə birlikdə yaddaşda saxlaya bilir, eyni zamanda, lövhədə adi markerlə 10 saat ərzində yazılanları proyektor və kompyutersiz yaddaşda saxlamaq imkanına malikdir, cızılma, korlanma təhlükəsi yoxdur .

*Mimio* öyrənmək, anlamaq və yaratmaq imkanı verən universal vasitədir. *Mimio* müəllimin işini asanlaşdırır, imkanlarını genişləndirir. Dərsin tipindən asılı olmayarq, istənilən məqamda, konkrert vəziyyəti nəzərə alaraq, bu qurğudan istifadə etmək olar. Müəllimlər *MimioStudio* proqramında dərslər və ya tapşırıqlar hazırlayaraq, şagirdlərə nümayiş etdirirlər. Bu cür interaktiv üsulla təqdim olunan dərslər şagirdlərdə daha çox maraq oyadır, daha asan mənimsənilir. İnteraktiv lövhədə işləyərkən şagirdlərin diqqəti yaxşılaşır, tədris materialı asanlıqla qavranılır və nəticədə hər bir şagirdin müvəfəqiyyət göstəriciləri yüksəlir .

Yeni texnologiyanın təhsil mühitinə tətbiqi biliklərin reproduktiv ötürülməsinin köhnə sistemindən yeni, kreativ təlim formasına keçiddir.

Müasir təhsilin əsas məsələlərindən biri şagirdlərin bilikləri qəbul etməsi üçün tutarlı motivasiya yaratmaq, digəri isə bu biliklərin yaradıcı tətbiqetmənin köməyilə mənimsənilməsinin yeni forma və vasitələrini axtarmaqdir. SMART texnologiyaları bütün bu məsələlərin asanlıqla və yüksək səviyyədə həllinə imkan verdiyi üçün bu gün təhsil sistemini onsuz təsəvvür etmək mümkün deyil.

**Ədəbiyyat**

H. B. Balıyev, A.H. Balıyev. Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 2014.

*Резюме*

*Smart Education* является концепцией, которая предполагает комплексную модернизацию всех образовательных процессов, а также методов и технологий, используемых в этих процессах.

Внедрение новых технологий в сферу образования ведет за собой переход от старой схемы репродуктивной передачи знаний к новой, креативной форме обучения. Одна из главных задач современного образования – это создание устойчивой мотивации учащихся к получению знаний, другая – поиск новых форм и инструментов освоения этих знаний с помощью творческий решений. SMART технологии дают возможность с легкостью и на высоком уровне решать все эти проблемы, поэтому без них инновационная деятельность невозможна.

*Summary*

Smart Education is a concept that involves a comprehensive modernization of all educational processes, as well as the methods and technologies used in these processes.

Introduction of new technologies in education entails a transition from the old scheme of reproductive knowledge transfer to new, creative form of training. One of the main tasks of modern education – is to create sustainable motivation of students to acquire knowledge, the other – the search for new forms and tools for the assimilation of knowledge through creative solutions. SMART technology makes it possible to solve all of these problems easily and at a high level, so it is impossible to imagine the education system without it.

# DƏRSLİK KONSEPSİYASININ TƏTBİQİ TƏHSİL QURUCULUĞUNUN MÜHÜM HƏDƏFLƏRİNDƏN BİRİ KİMİ

**Günel Seyidova,**
*Azərbaycan Respublikası Təhsil Nazirliyinin*
*Tədris resursları şöbəsinin baş məsləhətçisi*
E-mail: gunel-seyidova@mail.ru

*Açar sözlər: təhsil, dərslik, kurikulum, strategiya, məktəb*
*Ключевые слова:* обучение, *учебники, учебный план,стратегия, школа*
*Key words: education,textbook, curriculum, strategy,* school

Yazılı vəsaitlər ən qədim zamanlardan bəri insanların biliklərini, düşüncələrini, inamlarını, sevgi, sevinc, kədərkimi duyğularını bir-birlərinə anlatmada önəmli bir qaynaq olmuşdur. Məktəblərin qurulması ilə birlikdə yazılı vəsaitlər və əsasən də dərs kitabları, sonralar dərsliklər istər müəllimlər, istərsə də şagirdlər üçün əsas bilik qaynaqlarından biri halına gəlmişdir. Kurikulum islahatının başlamasıyla birlikdə dərsliklər bu proseslərdə bir növ müəllimin vəzifəsini də "əvəzləmiş" və əsas bilik qaynağı olmuşdur. Təhsilşünaslıqda qəbul edilən ümumi qənaətə görə, dərslik "ümumtəhsil müəssisələrində istifadə edilən, mövzuları kurikuluma əsasən hazırlanmış, tədris məqsədiilə istifadə olunan çap əsəri"dir. Dərslik məktəblərdəki öyrənmə-öyrətmə müddətində istifadə olunan "tamamlayıcı tədris materialları" və həmçinin, "tədris mövzularına aid bilikləri sistemdəvə elmi şəkildə şagirdlərin öz-özlərinə öyrənmələrini təmin etmək məqsədilə hazırlanan vasitələr" olaraq bilinir. Qısası, dərsliklər tədris məqsədlərinireallaşdırmaq üçün şagirdin öyrənməsinə rəhbərlik edən əsas tədris materialı, təlim texnologiyalarından, təlim vasitələrindən ən aparıcısıdır. Bir dərsliyi digər tədris vəsaitlərindən üstün tutan xüsusiyyəti dərsliyin bütün konkret fənn proqramını əhatə etməsidir.

Dərsliklər təhsildə əsas, aparıcı yerlərdən birini tutur. Belə ki, təhsildə aparılan məzmun islahatları içərisində mühüm yer tutan ümumi təhsildə kurikulum islahatının məqsədlərindən biri tədris prosesində struktur dəyişmələri önə almaqla yanaşı, sinifdəki öyrənmə müddətini, təhsil alanın intelektual xüsusiyyətlərini inkişaf etdirməkdən ibarətdir. Yeni kurikulum ənənəvi "yaddaş məktəbi"ndən "təfəkkür məktəbi"nə, "düşüncə məktəbi"nə keçidə və təhsil alanın intellektual potensialının inkişafına xidmət edir. Bu da ancaq dövrün tələb etdiyi ehtiyacları qarşılayacaq keyfiyyətlə hazırlanmış dərsliklər vasitəsilə mümkün ola bilər. Müasir dünyada elm və texnologiyada dəyişən şərtlər həyat praktikamızı əsaslı dərəcədə dəyişdirdiyindən günümüzdə artıq informasiyanın köçürülə bilər olmadığına, ancaq insanın aktiv səyinəticəsində beyində qurulduğuna inanılır. Sivilizasiyaların formalaşmasında ölkələrin mədəni inkişafında dərsliklər önəmli bir mövqeyə və funksiyaya sahibdir.

Beynəlxalq təcrübədə təhsilin məzmunu ilə bağlı başlıca meyillərdən biri təhsil kurikulumlarının ölkənin sosial-iqtisadi inkişaf tələbləri və prioritetləri ilə sıx əlaqələndirilməsindən ibarətdir. Dərsliklərin kurikulumun əsas ünsürlərindən biri olması səbəbilə qiymətləndirilməsi



dolayısı ilə yeniləşən proqramlardakı çatışmazlıqların ortaya çıxarılmasını təmin edəcəkdir. Xüsusilə dərsliklərin qiymətləndirilməsi ilə bağlı araşdırmaların davamlı olaraq aparılması və mütəmadi olaraq dərsliklərin təkmilləşdirilməsini tələb edir.Kurikulumlar iqtisadi inkişaf məqsədlərinə xidmət edən bilik və bacarıqları, səriştəni aşılayan məzmuna malik olmalıdır. İqtisadi uğurlar əldə etmiş ölkələrdə biliklərə əsaslanan iqtisadiyyatın yaradılması sosial-iqtisadi siyasətin prioriteti olduğundan, kurikulumlarda innovasiyaların əhəmiyyəti, təhsilalanların müxtəlif sosial fəaliyyətə təşviq olunması və onların tədris bacarıqlarının inkişafı xüsusi vurğulanır. Kurikulumların məzmunu texnoloji irəliləyişin gətirdiyi yenilikləri nəzərə almaqla daim inkişaf etdirilir ki, bu da müxtəlif təhsil pillələrində spesifik yanaşma tələb edir. Burada ümumi təhsil pilləsində şəxsiyyətin hərtərəfli formalaşdırılması əsas götürülür.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda və həmin strategiyanın icra mexanizmini nəzərdə tutan "Fəaliyyət Planı"nda qarşıdakı illərdə ümumi təhsil məktəbləri üçün kurikulumların yenilənməsi və buna uyğun 12 illik ümumi təhsilə müvafiq yeni nəsil dərsliklərin hazırlanması hədəflənmişdir.

Strategiyanın məqsədi ən yeni texnologiyalara əsaslanan infrastruktura malik, keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında qabaqcıl mövqe tutan təhsil sistemini yaratmaqdır. Düşünürəm ki, Dövlət Strategiyasında yeni dərsliklərin hazırlanması sahəsində hədəflər bu sahədə müasir mexanizmlərin beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun yenidən qurulmasına imkan verərək, ölkədə biliklərə əsaslanan iqtisadiyyatın bərqərar olmasını, informasiya cəmiyyətinin təşəkkülünü və ölkənin davamlı inkişafını təmin edəcəkdir.

**Г. Сеидова**

**Внедрение концепции учебников, как одна из важнейших целей создания образования**

*Резюме*

Учебники – это средство, которое восполняет пустоту в устном образовании, продолжительно используется. Это средство, которое непосредственно дают знания, к которым часто обращаются. С точки зрения обучения, учебники может приобрести каждый ученик и легко ими пользоваться.

**G. Seyidova**

**Application of textbook concept as an important target of education development**

*Summary*

Textbook is a manual of instruction that always ready in use and easily accessible, repeatedly benefited and referenced in each and every instance, which transfers the knowledge directly to the reader and fills gap of verbal tutoring.

# VALİDEYNLƏRİN VƏ MÜƏLLİMLƏRİN MÜHÜM VƏZİFƏSİ: BÖYÜYƏN NƏSLİN AİLƏ HƏYATINA HAZIRLANMASI

**Akif Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*ARTPİ*
E-mail: prof.akif@mail.ru

***Açar sözlər:*** *ailə, ailə həyatı, ailə həyatına hazırlamaq, ailənin funksiyaları, nikah, nikah-ailə münasibətləri*
***Ключевые слова:*** *семья, семейная жизнь, подготовка семейной жизни, функция семьи, брак, брачные-семейные отношения*
***Key words:*** *family, family life, preparation for family life, the function of the family, marriage, marriage and family relations*

Böyüyən nəsli ailə həyatına hazırlamaq problemi həmişə valideynlərin diqqət mərkəzində olub. Bir neçə illər bundan əvvəl bu məsələyə ciddi fikir verilməsi təhsil müəssisələrinin də vəzifələri sırasında mühüm yer tutub. Vaxtilə ümumi təhsil məktəblərimizdə "Ailə həyatının etika və psixologiyası" fənni tədris olunurdu. hazırda kolleclərdə və Gəncə Dövlət Universitetinin magistratura pilləsində "Milli əxlaq və ailə etikası" fənni keçilir. Bəzi digər fənlərin məzmununda da ailə və nikah məsələləri öz əksini tapıb. Məsələn, Həyat bilgisi, insan və cəmiyyət və s.

Sinifdənxaric və auditoriyadankənar məşğələlərdə məhəbbət, nikah, ailə, ailə münasibətləri, ailənin mənəvi və psixoloji əsasları, ailə üzvlərinin qarşılıqlı münasibətləri ilə bağlı şagirdlər və tələbələrlə aparılan söhbətlər, təşkil olunan tədbirlər onların müstəqil ailə həyatına və gələcək övladlarının tərbiyəsi işinə hazırlanmalarında onlara kömək edir.

Gec-tez oğlanlar evlənməli, qızlar ərə getməlidirlər. Bu, çox mühüm həyati zərurətdir. Ona görə də onlar ailə həyatına hazırlanmalıdırlar. Nikaha daxil olmaq üçün yetkinlik yaşına çatmaq, müəyyən ümumtəhsil və peşə səviyyəsi, ər-arvadlıq və ailə borcu kimi məsələlərdə yekdil fikrin mövcudluğu, etik-psixoloji mədəniyyətə yiyələnmə, evdarlıq qabiliyyətinin, ailənin müstəqil maddi həyatını qurmaq üçün kifayət qədər hazırlığın olması, uşaq tərbiyə etməyi bacarmaq və s. lazımdır.

Müasir ensiklopediyalarda və lüğətlərdə ailəyə müxtəlif təriflər verilir. «Azərbaycan Sovet Ensiklopediyası»nın birinci cildində oxuyuruq: «Ailə-nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Ailə üzvləri bir-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı hörmətlə bağlıdır» «Fəlsəfə üzrə ensiklopedik lüğət»də deyilir: «Ailə nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Onun üzvləri bir-birilə məişət birliyi, qarşılıqlı mənəvi məsuliyyət və qarşılıqlı məsuliyyətlə bağlı olan adamların nikah və ya qan qohumluğuna əsaslanan birliyidir»

Nəzərdən keçirdiyimiz təriflərdə ailəni səciyyələndirən iki mühüm xüsusiyyət: a) məişət birliyi; b) özünəməxsus münasibətlər sistemi, qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək qeyd olunur. Həmin xüsusiyyətlər qarşılıqlı əlaqədədir, ailəni səciyyələndirərkən onları birlikdə nəzərdən keçirmək lazımdır. Özünün bu xüsusiyyətinə görə ailə bütün digər kiçik qruplardan (məsələn, dostlar dəstəsindən, yataqxanada eyni otaqda yaşayan insanlardan, idarə və müəssisələrdə birlikdə çalışan işçilərdən və s.-dən) fərqlənir.

Ailə yaxın qohumların (kişi və qadının, valideynlərin və uşaqların və b.) birlikdə yaşadıqları qrupdur. Lakin buna adi qrup kimi baxmaq doğru deyildir. O, kiçik sosial qrupdur və cəmiyyətin ilkin özəyidir.

Məişət birliyi ev-eşik şəraitində yaranır. Hər bir şəxsə onun öz ev-eşiyi əzizdir. İstər bu ev darısqal olsun, istərsə də geniş, dəbdəbəli, təmtəraqlı olsun. «Ata evi» anlayışı buradan meydana



gəlmişdir. Məişət birliyi üçün səciyyəvi olan xüsusiyyətlər də müxtəlifdir: ailənin əmək mühiti, büdcəsi və təsərrüfatı, məişət estetikası... Bunlarsız ailə yoxdur.

Ailədə cinslər və cinsi tələbatdakı fərqdən irəli gələn münasibətlər əxlaqi-psixoloji münasibətlər formasında özünü göstərir. Kiçik qruplar çoxdur. Digər kiçik qruplardan fərqli olaraq, qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək ailə həyatında özünəməxsus xüsusiyyətlərlə təzahür edir. Axı onlar ailə şəraitində nikaha və ya qan qohumluğuna əsaslanır, buna görə də həmişə son dərəcə emosional xarakter daşıyır. Biz ailədə ata-ana, ana-bala, bacı-qardaş münasibətlərindən, yataqxanada isə yoldaş-yoldaş, dost-dost münasibətindən danışırıq. Ailə məişəti ilə yataqxana məişəti arasındakı fərqlər buradan irəli gəlir.

Yataqxanada qızlar eyni otaqda yaşasalar da, onların arasında məişət birliyi əmələ gəlmir: ona görə ki, onlar bir-birlərinə pay versələr də, nəyə isə qonaq etsələr də, hətta birlikdə yemək bişirsələr də, yeyib-içsələr də, yenə də ailəyə çevrilmirlər. Qızların bir yerdə yeyib-içməsi onların münasibətlərinin xarakterini dəyişmir: onlar yoldaş və ya dost idilər, dost olaraq da qalırlar, sadəcə, məişət birliyi zəminində mehribanlaşırlar, dostluq münasibətləri inkişaf edir.

Ailədə isə ata-ana, ana-bala, bacı-qardaş münasibətləri başa düşülür. Ailənin bütün sirləri məhz bu münasibətlərdədir. Lakin onu təkcə kişi-qadın münasibəti kimi başa düşmək olmaz. Kişi ilə qadın arasındakı münasibətlər, hətta hüquqi cəhətdən qeyd olunsa belə, ailə münasibətlərinin mahiyyətini ifadə etmir və edə də bilməz.

Müasir ailədə baş verən keyfiyyət dəyişiklikləri, birinci növbədə, ərlə arvadın, valideynlərlə uşaqların qarşılıqlı münasibətlərində öz əksini tapmışdır. Vaxtilə pul qazanan, varlı kişilərə çox vaxt şıltaqlığı da, kobudluğu da bağışlayırdılar. Ailənin əmin-amanlığı, xoşbəxtliyi də əsasən var-dövlətlə ölçülürdü. Müasir ailə üçün «var-dövlət», «ev-eşik» və s. məqsəd deyil, vasitədir. Bu günki ailə ər və arvad arasında və valideynlərlə uşaqlar arasında mənəvi münasibətlərə daha çox məna verir. Ailə münasibətlərində psixoloji münasibətlər daha mühüm rol oynayır. Ərin də, arvadın da, uşaqların da şəxsiyyətinə böyük tələblər verilir.

Ailədə baş verən bu mühüm dəyişiklikləri nə ilə aydınlaşdırmaq mümkündür? Ailə ictimai-tarixi hadisədir. Ailə münasibətləri cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərlə bilavasitə bağlıdır. Cəmiyyət dəyişdikcə, ailə də dəyişir və inkişaf edir. Müasir Azərbaycan ailəsi yeni və yüksək tipli ailədir, ictimai-iqtisadi əsaslar üzərində meydana gəlmiş və istehsal münasibətlərinin xarakterinə uyğun şəkildə inkişafdadır. Azərbaycan ailəsi cəmiyyətimizin və vətəndaşların tərbiyə ocağıdır, cəmiyyətimizin ictimai həyat münasibətlərində xüsusi yer tutur. O, qanuni nikahla yaranır. Nikah isə, qarşılıqlı məhəbbətə və hörmətə, borc hissinə əsaslanır. Azərbaycan ailəsində ər və arvadın hüquq bərabərliyi, ideya və mənafe birliyi başlıca cəhətdir. Bu ailə şəxsiyyətin azadlığına və hərtərəfli inkişafına gözəl şərait yaradır. Sağlam təməl üzərində qurulmuş ailənin mənafeyi dövlət, ictimai və ümumxalq mənafeyi ilə üzvi surətdə bağlıdır. O, böyük kollektivin ilk özəyidir.

Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq ailə dövlət tərəfindən mühafizə olunur. Dövlətimiz doğum və körpələr evlərinin, uşaq bağçalarının, digər uşaq müəssisələrinin geniş şəbəkəsini yaratmaq və inkişaf etdirmək, məişət xidmətinin, ictimai iaşənin təşkilini təkmilləşdirmək, uşaq anadan olduqda, habelə tək analara və çoxuşaqlı ailələrə müavinət vermək, ailəyə başqa növ yardım göstərmək yolu ilə ailənin qayğısına qalır.

Analıq etməklə yanaşı, qadınların əmək və ictimai fəaliyyətlərində yaxından iştirakını əlaqələndirmək üçün əlverişli şərait yaradılır. Doğumaqədərki məzuniyyətin, habelə uşağa qulluq etməyə görə məzuniyyətin müddəti artırılır.

Ailənin özünəməxsus funksiyaları vardır. Funksiya (*funtio* – latın sözüdür) mənası icra, fəaliyyət deməkdir. *Ailənin funksiyaları* dedikdə, onun həyat fəaliyyətinin başlıca istiqamətləri nəzərdə tutulur. Bu baxımdan onun aşağıdakı funksiyalarını fərqləndirmək olar: *reproduktiv*, *təsərrüfat-iqtisadi*, *tərbiyə* və *bərpaedici* və s.

Ailənin funksiyaları qarşılıqlı əlaqədədir. Onlar, hər şeydən əvvəl ailənin sosial mahiyyətini əks etdirir. Ailə cəmiyyətin sosial əsasıdır. O öz üzvlərinin müxtəlif tələbatı (şəxsi və ümumailə, yəni qrup) ilə yanaşı cəmiyyətin bir sıra mühüm tələbatını – əhali artımı tələbatını yerinə yetirir. Bu isə ictimai tələbatdır. Ailənin funksiyaları məhz buradan irəli gəlir. Ailənin funksiyaları ictimai-tarixi xarakter daşıyır. Onların məzmunu sosial amillərlə – ailəyə cəmiyyət tərəfindən verilən

tələblər, ailə hüququ və əxlaqi, mədəni normalar, cəmiyyətin ailəyə göstərdiyi real yardım və s. ilə müəyyən olunur. Lakin bununla yanaşı, kiçik qrup kimi ailə üçün xarakterik olan bütün xüsusiyyətlər özünün həyati mənasını onun funksiyalarında tapır. Özünün müvafiq funksiyaları ilə ailə kiçik qrupların digər növlərindən köklü surətdə fərqlənir. Bu haqda aydın təsəvvür əldə etmək üçün dərsdə və sinifdənxaric tədbirlərdə yuxarı sinif şagirdləri ailənin funksiyaları tanış edilirlər:

*Ailənin reproduktiv funksiyası* onun həyatının mühüm bir sahəsini – uşaqların doğulması sahəsini əhatə edir. Valideynlər neçə uşaq istəyirlər? Onlar ailənin inkişafını necə planlaşdırırlar? Bu suallar ailənin reproduktiv funksiyasının məzmununu əsasən aydın ifadə edir. Ailədə uşaqların sayı onun həyat tərzinin mühüm göstəricisidir. Ailənin inkişafı da uşaqların dünyaya gəlməsi ilə bilavasitə bağlıdır.

Ailə insan nəslinin davam etdirilməsi funksiyasına (*uşaqların doğulmasına*) xidmət edir. Bu funksiyanı ailə yerinə yetirməlidir. Bəzi nikah əleyhdarları bu əqidədədirlər ki, uşağı ailə qurmadan da, nikah ittifaqına girmədən də dünyaya gətirmək mümkündür. Lakin, *əvvəla*, nikahsız ailə əxlaqi deyildir. *İkincisi*, nikahsız uşaq doğmağa heç də həmişə cəhd göstərilmir, çünki tam, hərtərəfli ailə, mütəşəkkil, müntəzəm tərbiyə olmadan uşaq böyütmək çətindir. Ana və uşaq, ata və uşaq hələ ailə demək deyildir. Bu ailənin bir hissəsidir və natamam ailə sayılır. Natamam ailədə verilən tərbiyə isə bir çox hallarda natamam olur. Statistik məlumatlara görə, daxili işlər şöbələrinin yeniyetmələrlə iş üzrə müfəttişliklərində qeydə alınan uşaqların bir çoxu məhz natamam ailələrdə böyümüşlər.

Hazırda ailənin planlaşdırılmasından ictimai planlaşdırmanın formalarından biri kimi danışmaq olar. Bu gün ər-arvad, nəinki uşaqların sayını, habelə onların təxmini doğulma vaxtını, bir sıra hallarda ilk övladla sonrakı körpələr arasındakı müddəti planlaşdırır. *Ailədə neçə uşağın olması* məsələsini ər-arvad birlikdə həll edirlər. Kənar mülahizələr əsas rol oynamır. Lakin uşağın sayı barədə qərar müəyyən amillərin təsiri altında qəbul oluna bilər. Bunun bəzi səbəblərdən irəli gəlməsi mümkündür. Şəhər həyat tərzinin genişlənməsi, yaşayış sahəsinə tələbat, qadının məşğuliyyəti, eləcə də müəyyən ictimai vəzifə daşıması, tələbatın artması və s. belə səbəblərdəndir. Lakin bunlar əslində həlledici amil deyil. Əsas məsələ ər-arvadın psixoloji yetkinliyi və hazırlığıdır. Həyatda eyni şəraitə malik neçə-neçə ailə vardır. Bəzisində bir, bəzisində iki-üç, bəzisində beş-altı uşaq olur. Doğrudur, çoxuşaqlı ailələr müəyyən maddi çətinliklərlə qarşılaşırlar. Lakin həmin uşaqlar boya-başa çatdıqda hər birisi ailəyə, ata-anaya həyan olur. Çoxuşaqlı ailələrdə boşanmaya da nadir hallarda rast gəlinir.

Müəllimin köməyi ilə şagirdlər belə bir qənaətə gəlirlər ki, azuşaqlı ailələrə nisbətən, çoxuşaqlı ailələrdə tərbiyə edilmiş uşaqlar daha sərbəstdir, kollektivdə öz yerini tez tapır, ətrafdakılarla ünsiyyət bağlamağı bacarır, mehriban, qayğıkeş, iltifatlı, səmimi olurlar. Bu keyfiyyətlərin kökü isə şübhəsiz, ailədən gəlir. Üç-dörd uşaqlı ailə daha optimaldır. Belə miqdar əhalinin geniş təkrar istehsalında cəmiyyətin tələblərinə cavab verir və qohumluq əlaqələrinin tam uyğunluğunu duymaqda ailə üzvlərinə kömək göstərir. Xüsusi uşaqcanlı valideynlər, əlbəttə, daha çox övlad böyüdə bilərlər. Bu, təqdir edilir.

Aparılmış söhbətə əsasən, məktəblilərə aydın olur ki, sağlam mühit, ər-arvadın bir-birinə qayğı və nəvazişi, bir-birini başa düşməsi, lazım gələndə güzəştə getməyi bacarması və s. uzunömürlülüyün və çoxuşaqlı ailələrin meydana gəlməsinin şərtlərindəndir. Belə ailələrin üzvi olmaq xoşdur.

Analıq səadəti insanın mənəvi sərvətləri içərisində həmişə xüsusi yer tutmuşdur. Atalıq hissi də kövrəkdir, zərifdir.

Söhbət zamanı qeyd olunur ki, cəmiyyətimiz ailələrin tam olması qayğısına qalır. Tam ailə dedikdə, ata, ana, bir də uşaqlar olan ailələr nəzərdə tutulur. Valideynlərdən hər hansı birinin yoxluğu (ailədən getməsi, ər-arvadlıq münasibətlərinin kəsilməsi, valideynlərdən hər hansı birinin ölümü, boşanma, ata-analardan hər hansı birinin itkin düşməsi və s.) natamam ailəni meydana gətirir. Əhalinin artım sürəti ailənin yaranması vaxtından, onun davamlı olmasından və uşaqların sayından asılıdır. Ölkəmizdə insan nəslinin davam etdirilməsi (reproduktiv) funksiyası ailənin ən mühüm funksiyası olaraq onun digər funksiyalarını da özündə birləşdirir. Deməli, ailə əhalinin həm kəmiyyət, həm də keyfiyyət artımında iştirak edir.

Müəllim belə bir mühüm məsələyə şagirdlərin diqqətini cəlb edir ki, son vaxtlar ailənin bu



funksiyası daha aktuallıq daşıyır. Buna səbəb doğumun aşağı səviyyəyə düşməsi, azuşaqlı və uşaqsız ailələrin sayının artmasıdır. Halbuki əvvəllər ölkəmizdə çoxuşaqlı ailələr geniş yayılmışdı.

Şagirdlər *ailənin* digər funksiyası – *təsərrüfat-iqtisadi funksiya* ilə tanış olurlar. Öyrənirlər ki, bu funksiya ailənin mövcud olması üçün maddi şəraitin təmin edilməsi, ailə üzvlərinin maddi və bir çox başqa tələbatlarının ödənilməsi, ev təsərrüfatı ilə məşğul olmaq, ailə büdcəsinin qaydaya salınması, ailənin idarə olunması, ailə üzvlərinin sağlam və gümrah olmalarına qarşılıqlı köməyin göstərilməsi kimi əsas cəhətləri özündə birləşdirir.

Qadının təhsil səviyyəsi və onun ictimai həyatdakı fəallığı hər bir ailədə ev əməyinin təşkilinin yeni formalarının axtarılması vacibliyini tələb edir. Ev işlərinin yenidən təşkilində üç əsas istiqamət həlledici əhəmiyyətə malikdir: 1. Ailənin bütün üzvləri arasında ev işlərinin bölüşdürülməsi. 2. Ev işlərinin daha da mexanikləşdirilməsi. 3. Məişət və kommunal xidmətlərindən maksimum istifadə edilməsi.

Ailənin bütün üzvləri arasında ev işlərinin bölüşdürülməsi ev əməyinin (*xüsusilə qadının öhdəsinə düşən*) bütün ailə üzvlərinin funksiyasına çevrilməsinin ən sadə və səmərəli üsuludur. Bu ən çox uşaqlara öz müsbət təsirini göstərir, onların hərtərəfli inkişafına şərait yaradır. Bu, əmək və əxlaq tərbiyəsinin fəaliyyətdə olan vasitəsidir, uşaqlarda kollektivçilik, dostluq və məsuliyyət hissinin inkişafına, xudpəsəndliyə, tənbəlliyə qalib gəlməyə, iradəni möhkəmləndirməyə kömək göstərir.

Müəllim Nəsirəddin Tusinin fikirlərinə müraciət edərək göstərir ki, bu dahi insan ailəni bütöv bədənə, ailə üzvlərini də bədən üzvlərinə bənzədir, ailə dolandırmaq sənətini isə sağlam bədən saxlamaq arzusunda olan həkimlik sənəti ilə müqayisə edirdi. Tusinin qənaətincə, həkim insan bədəni və onun üzvləri arasında münasibətin sağlamlığına diqqət yetirdiyi kimi, ailə başçısının vəzifəsi də bütün ailədəki, həmçinin onun üzvləri arasındakı münasibətlərə fikir verməkdən ibarət olmalıdır.

Daha sonra müəllim nümunə gətirir: Belə danışırlar ki, bir padşah bişmiş toyuğu süfrəyə qoyub nökər-naibinə buyurur ki, toyuğu onun ailə üzvləri arasında elə bölsünlər ki, heç kim narazı qalmasın. Bunu bacaran tapılmır. Padşah onları cəzalandırır. Yoxsul bir kişi saraya gələrək bu işin öhdəsindən gələcəyini bildirir. O, toyuğun başını qoparıb padşaha verir, ürəyini çıxarıb onun xanımına, qanadlarını qızlarına, ayaqlarını da oğlanlarına verir. Padşah nə üçün belə bölgü apardığını kişidən xəbər alır. O deyir: Padşah sağ olsun, toyuğun başı sizə düşür, ona görə ki, ailənin başçısı sizsiniz. Sizsiz bunlar da öz dəyərini itirərlər. Ürək xanımınıza düşür, ona görə ki, o, ürək kimi ailənizi yaşadır. Oğlanlar evin dirəyidirlər, bacılarına da əl tutur, onların qeyrətini çəkirlər. Ona görə ayaqlar onlara düşür. Qızlar ailənin köməkçisidirlər, evi silib-süpürür, səliqəyə salırlar. Vaxt gəlir, onlar qanadlanıb uçur, başqa ailənin çırağını yandırmağa gedirlər. Ona görə də qanadları onlara verdim.

Padşah bölgüdən razı qalıb, kasıb kişini mükafatlandırır.

Şagirdlərlə söhbət zamanı belə fikir səslənir: Ev əməyinin bərabər bölünməsinə əsasən ailə üzvlərinin imkanını, fiziki qüvvəsini, bacarıq və marağını nəzərə almaq lazımdır. Ev əməyinin səmərəli bölgüsü müxtəlif problemlərin birgə həll edilməsinə səbəb olur.

Şagirdlərə çatdırılır ki, *ailənin ünsiyyət funksiyası* da mühümdür. Buna başqa sözlə *kommunikativ funksiya* da deyilir. Bu funksiyaya ailədaxili ünsiyyətin təşkili, ailə üzvlərinin televiziya, radio, qəzet və jurnallarla, ədəbiyyat və incəsənət əsərləri ilə bağlılığı və s. daxildir. Ailədaxili ünsiyyət ailə həyatının bütün sahələrinə nüfuz edir. Ər-arvad arasındakı ünsiyyətin səmimiliyi ilə yanaşı, valideynlərin uşaqlarla ünsiyyətinin xarakteri də mühüm məsələdir. Kənd şəraitində valideynlər uşaqlarla daha sıx ünsiyyətdə olurlar. Şəhərdə isə çox vaxt ata və ana işlədiyindən ünsiyyət imkanı; uşaqlar yeniyetməlik dövrünə qədəm qoyduqda valideynlərin onlara diqqəti də bir qədər zəifləyir. Ünsiyyət vaxtı azalır ki, bu da arzuolunmaz prosesdir.

Ünsiyyət üçün səmimi və etibarlı olmaq səciyyəvidir. Çünki bu, imkan

Şagirdlər öyrənirlər ki, ünsiyyət üçün səmimi və etibarlı olmaq səciyyəvidir. Çünki bu, imkan verir ki, ailənin hər üzvü öz sevincini və kədərini ata-anası, bacı-qardaşı, baba-nənəsi ilə bölüşdürsün, onu həyəcanlandıran, maraqlandıran və narahat edən məsələlərə cavab ala bilsin, öz mənəvi aləmini zənginləşdirsin. Radioya qulaq asanda, televizora baxanda, dövri mətbuatı nəzərdən keçirəndə, həyət-bacada çalışanda, birgə oyunların keçirilməsi zamanı, hara isə (*istirahət evinə,*

*gəzməyə, turist səyahətinə, parka və s.*) dincəlməyə gedəndə ailə üzvləri daha sıx ünsiyyətdə olurlar. Bir çox ailələr tez-tez gəzintiyə, açıq havaya çıxır, teatr tamaşalarına, konsertlərə, sərgilərə gedirlər. Bütün bunlar ailə üzvləri arasında ünsiyyətin yaxşılaşmasına şərait yaradır. Xoş ünsiyyət həm də uşaqların səmərəli tərbiyə olunmalarının rəhnidir.

Valideynlə birlikdə çalışan uşaqda əməksevərlik, zəhmətə bağlılıq, görülmüş iş üçün iftixar hissi təşəkkül tapır. Təbiətin qoynuna gəzintiyə çıxan uşaq ətraf mühitə, bitki və heyvanat aləminə diqqətli olur, onlara məhəbbət bəsləyir, hər hansı kitabın ailə üzvlərinin iştirakı ilə müzakirəsi uşağın estetik və əxlaqi tərbiyəsinə müsbət təsir göstərir.

Şagirdlərlə söhbət zamanı daha sonra *ailənin tərbiyəvi funksiyası* üzərində dayanılır və göstərilir ki, bu funksiya son dərəcə mühümdür. Ailədə həm yaşlılar, həm də uşaqlar tərbiyə olunurlar. Ailənin gənc nəslin tərbiyəsinə təsiri xüsusilə böyük rola malikdir. Ona görə də ailənin tərbiyəvi funksiyası üç cəhətlə bağlıdır: a) tərbiyənin ailənin yaşlı üzvlərinə (*ataya, anaya, nənəyə, babaya, əmi, bibi, dayı, xala və başqalarına*) verilməsi; uşaqlarda dünyagörüşün, nəcib əxlaqi sifətlərin formalaşdırılması, birgəyaşayış qaydalarını, qanunun tələblərini yerinə yetirmək tələbatının və bacarığının aşılanması; b) ailə kollektivinin özünün ailənin hər bir üzvünə uzunmüddətli, məqsədyönlü, sistemli və müntəzəm tərbiyəvi təsiri; c) uşaqların öz valideynlərinə (*eləcə də ailənin digər üzvlərinə*) daimi təsiri. Bu, valideynlərin özünütərbiyə ilə fəal surətdə məşğul olmalarına şərait yaradır.

Şagirdlərə məlum olur ki, əhəmiyyətli funksiyalardan biri də *ailənin asudə vaxtının və istirahətinin təşkili funksiyasıdır*. Asudə vaxt mühüm sosial sərvətdir. Cəmiyyətimizdə vətəndaşların asudə vaxtlarını, mədəni, əxlaqi-estetik səviyyəsini müntəzəm olaraq yüksəltmək, səciyyəvi şəkil almışdır. Asudə vaxtın və istirahətin şən, mənalı və məzmunlu keçirilməsi ailə üzvlərinin sağlam və gümrah olmalarına şərait yaradır, yorğunluğu aradan qaldırır, ailə üzvləri arasında münasibətlərin səmimi olmasına kömək edir, əsəbi əhval-ruhiyyəni aradan qaldırır. Yaxşı istirahət edən ata, yaxud ana işdə üzləşdiyi çətinliklərin öhdəsindən səbirlə, təmkinlə gəlir, başqa adamların qanını qaraldan hərəkətlərə yol vermir. Belə olduqda uşaqlar da dərslərə yaxşı hazırlaşır, ictimai işə həvəslə qoşulurlar.

Ailənin asudə vaxtının təşkili funksiyasına daxil olan tədbirlərə aşağıdakıları aid edə bilərik: televiziya və teatr tamaşalarına, kinoya baxmaq, radioya qulaq asmaq, şənliklərdə iştirak etmək, qohumlarla, dostlarla görüşmək, kinoya, teatra, konsertə getmək, gəzintiyə çıxmaq, çimərlikdə və parkda olmaq, bayram və istirahət günlərini birgə keçirmək, ad gününü qeyd etmək, idmanla, digər faydalı əyləncələrlə məşğul olmaq və s.

Bəzi ailələrin öz asudə vaxtlarını düzgün təşkil etmədiyi də məlum olmuşdur. Belə ki ata kinodan, teatrdan, müxtəlif əyləncələrindən qalmır, toy məclislərinə, ad günlərinə tək gedir. Məzuniyyətə çıxanda isə putyovka tapıb səfalı guşələrdə dincəlir, uşaqları da ananın öhdəsinə buraxır. Arvad isə istər adi günlərdə, istərsə də istirahət və bayram günlərində (*hətta üstəlik özünün ad günündə*) evdən bayıra çıxmır, gah mətbəxdə, həyət-bacada məşğul olur, gah paltar yuyub ütüləyir və s.

Uşaqlar bəzən dərsdən gələn kimi televizoru qoşur, vaxtının çox hissəsini onun qarşısında keçirir, açıq havada isə az olurlar. Yaxud onlar bütün günü həyətdə keçirir və nəticə etibarilə özlərini yorub əldən salırlar. Ailədə asudə vaxtın və istirahətin təşkilini həftəlik, aylıq və illik planlaşdırmaq olar.

Qeyd olunur ki, ailə hər bir insan üçün sağlamlaşdırıcı, psixoterapevtik mühitdir. *Ailənin bərpaedici funksiyası* bu cəhəti nəzərə alır. İnsan öz dərd-sərini ailədə yaddan çıxarır. İşdə, iclaslarda nə qədər yorulsa belə, evə gələn kimi, uşaqları onların üstünə qaçıb qucağına atılan kimi, yaxud qızının, oğlunun uğurlarını eşidən kimi könlü açılır, gözlərində dünyanın mənası dəyişir, nikbin ruh onu bürüyür. Həyat yoldaşının qulluğunda durması, sevinc və xoş sözlərlə onu dindirməsi xoş ovqat bəxş edir, istər-istəməz düşünür: həyat, sən necə də gözəlsən!

Ailə həyatı çoxcəhətlidir. Onun funksiyaları arasında sıx əlaqə vardır. Həmin funksiyaların vəhdət halında tətbiqi gənc nəslin hərtərəfli və ahəngdar inkişafına əlverişli şərait yaradır.

Söhbət zamanı eyni zamanda ailənin tipləri, tam və natamam ailə, uğurlu və uğursuz ailələr üzərində dayanılır. Göstərilir ki, ailənin *sadə* və *mürəkkəb* olmaqla iki başlıca tipi vardır.



Demoqrafların qənaətincə, hazırda ən geniş yayılmış ailə tipi nuklear ailə sayılır. Nuklear ailə sadə ailədir. O, iki nəsildən – ata-ana və uşaqlardan ibarət olur. Əgər uşaqlardan hər hansı biri evlənirsə (*ərə gedirsə*) və valideynləri ilə birlikdə yaşayırsa, bu vaxt ailənin tipi dəyişir, nuklear ailə mürəkkəb ailəyə çevrilir.

Nuklear ailə əsas ailə tipidir. Nuklear sözü də həmin mənanı ifadə edir. Nuklear latınca *nucleus* nüvə deməkdir. Biz hansı ailədən bəhs ediriksə-edək, onun məhz nüklear ailə əsasında təşəkkül tapdığını görərik.

Uşaqların sayına görə nuklear ailənin 3 tipini qeyd edirlər:

a) çoxuşaqlı (5 və daha artıq uşaq) ailə;

b) orta uşaqlı ailə (4 və 3 uşaq);

c) az uşaqlı ailə (2 və 1 uşaq).

Mürəkkəb ailə üç və yaxud daha çox nəsildən – baba-nənə, ata-ana və uşaqlardan ibarətdir. Əgər iki və daha çox nuklear ailə birlikdə (*bir mənzildə, bir evdə*) yaşayır, təsərrüfatı birgə aparırsa, o da mürəkkəb ailə sayılır.

Şagirdlər öyrənirlər ki, Azərbaycanda bir zamanlar mürəkkəb ailə daha geniş yayılmışdı. Keçmişlərdə bu ailələri patriarxal ailə adlandırırdılar. Həmin ailələr tərkibinə görə mürəkkəb səciyyəyə malik idi. Həm də mürəkkəblik təkcə ailədə üç və daha artıq nəslin yaşaması ilə deyil, eyni zamanda uşaqların sayı ilə əlaqədar idi. Mürəkkəb ailədə 10-12, bir sıra hallarda 15-18 uşaq olurdu.

Məktəblilərə çatdırılır ki, demoqrafiyada müasir ailəni səciyyələndirmək məqsədilə sadə (nuklear) və mürəkkəb ailə ilə bərabər həm də *tam* və *natamam ailə* anlayışlarına müraciət edilir. Lev Tolstoy «Anna Karenina» romanına etiqraf kimi yazırdı: «Bütün xoşbəxt ailələr hamısı bir-birinə oxşayır, bədbəxt ailələrinisə hərəsi bir cür bədbəxtdir». Bu fikir baxımından ailələr *uğurlu* və *uğursuz* olur. Psixoloqların qənaətincə, uğursuz ailələr üçün səciyyəvi xüsusiyyətlər bilavasitə ailənin həyat şəraiti ilə deyil, ər-arvadın qarşılıqlı münasibətləri, davranış və rəftarı, ünsiyyət tərzi ilə əlaqədardır. Belə ki bu tipli ailələrdə ər və arvad baş qaldıran problemlərə fərqli yanaşır, bir-birlərini ya başa düşmür, ya da başa düşmək istəmir, yerli-yersiz mübahisələr edir, bir-birlərinə hörmət etmirlər. Qarşılıqlı qayğı, etibar, mehribanlıq, səmimiyyət, diqqət və anlama bu ailələrə yad olur. Ər və arvad bir-birinin əsəbləri ilə oynayır, acı sözlərlə bir-birini təhqir edir, eyhamla danışır, bir-birinə tez-tez söz atırlar. Ər və arvad bir-birinə inanmır, etibar etmirlər, təbii ki, asudə vaxtlarını nəinki bir yerdə keçirmir, hətta bir damın altında bir yerdə olmaq belə onları haldan çıxarır və darıxdırır. Belə şəraitdə uşaqlar hədsiz əziyyət və fikir çəkir, gizli və açıq göz yaşları tökür, öz valideynlərinə görə xəcalət hissi keçirirlər.

Şagirdlər psixoloqların belə bir fikri ilə tanış olurlar: ailənin xoşbəxtliyi üçün bir sıra şərtlərin olması lazımdır. Buraya daxildir: bir-biri üçün yaşamaq, xoş ünsiyyət, qarşılıqlı anlama, qarşılıqlı etibar, güzəştə getməyi bacarmaq, uşaqların olması arzusu, normal intim həyat, ayrıca EVİN, MƏNZİLİN olması və s. Ev, mənzil sözlərini böyük hərflərlə yazdıq. Burada söhbət yaşayış sahəsindən deyil, ailə münasibətlərini öz hərarəti ilə isidən ev-eşikdən gedir.

## Ədəbiyyat


1. Ə.Ə. Əlizadə, A.N. Abbasov. Ailə: IX sinif üçün dərslik. Bakı: Maarif, 1986, 1989.
2. Ə.Ə. Əlizadə, A.N. Abbasov. Ailə həyatının etika və psixologiyası: Müəllim üçün vəsait. Bakı: Maarif, 1988.
3. Ə.Ə. Əlizadə, A.N. Abbasov. Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat: IX sinif üçün dərs vəsaiti. Bakı: Maarif, 1989.
4. А.А. Ализаде, А.Н. Аббасов. Семья: Учебник для 9-го класса. Баку: Маариф, 1991.
5. A.N. Abbasov. Milli əxlaq və ailə etikası: Kolleclər üçün dərslik. Bakı: Mütərcim, 2008, 2013, 2015.
6. A.N. Abbasov. Milli əxlaq və ailə etikası: Universitetlərin magistratura pilləsi üçün dərslik. Bakı: Mütərcim, 2013.

# MUĞAM FOLKLORU VƏ ONUN ELMİ-PEDAQOJİ, PSİXOLOJİ ƏSASLARI

**Fərahim Sadıqov,**
*pedaqogika üzrə elmlər doktoru, professor.*
E-mail: ekonomist.72@mail.ru

*Açar sözlər: muğam folkloru, muğamların pedaqoji-psixoloji əsasları, muğam şöbələrinin, guşələrinin adlarının etimoloji məna nüansları*
*Ключевые слова:мугамный фольклор, педагогические и психологические основы мугамов, этимологические смысловые нюансы названий шобе, гюше мугамов*
*Key words: mugham folklore, pedagogical-psychological bases of mughams, etymological meaning shades of mugham departments, corners and names*

Ölkə prezidenti cənab İlham Əliyevin fərmanları, sərəncam və göstərişləri sayəsində xalqın özünə qaytarılan muğam ölkəmizin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın ciddi cəhdi, qayğısı sayəsində muğamla bağlı biri-birindən zəngin, biri-birindən dəyərli tədbirlərin həyata keçirilməsi nəticəsində ən zəngin mədəni irsimiz olan muğamlarımız nəinki unudulmaq təhlükəsindən qurtuldu, hətta XXI əsrin birinci onilliyində özünəməxsus olan sevgini, eşqi, hörmət-izzəti, məhəbbət və ehtiramı özünə qaytardı. Belə bir zamanda muğamın janrının metodoloji baxımdan düzgün müəyyənləşdirilməsi vacibdir. Hazırda qarşıya belə suallar çıxır: Nə üçün muğam folklor nümunəsi deyil? Nə üçün folklorşünaslar muğam janrı ilə bağlı tədqiqat aparmaq istəmirlər? Nə üçün folklor materialları içərisində muğamlarımız yoxdur?

Bu sualları cavablandırmazdan qabaq "folklor" və "folklorşünaslıq" sözlərinin hər birini bir məfhum olaraq aydınlaşdıraq. Ensiklopedik lüğətə istinadən deyə bilərik: *folklor* – xalq yaradıcılığı; *folklorşünaslıq* – folklor (*xalq yaradıcılığı*) haqqında elmdir. Xalq yaradıcılığının toplanması, nəşri və tədqiqi ilə məşğul olur. Ensiklopedik nəşrin şərhinə görə folklor xalq müdrikliyi hesab olunursa, muğam da müdrikliyin bir məhsulu sayılmalıdır. Muğamı, doğrudan da, müdrik adamlar yaratmış və onu müdrik adamlar daha yaxşı başa düşür, mənimsəyir və təhlili edir. "Folklorşünaslıq" – isə xalq yaradıcılığı nümunələrinin (yəni həm də muğamın. – F.S.) toplanması və nəşri ilə məşğul olan elm sahəsi hesab olunursa deməli, muğamların da tədqiqi ilə məşğul olmalıdır. Muğamı folklor nümunəsi hesab etməyən tədqiqatçıların bir qismi muğamların vaxtilə müəllifləri olduğunu, kimlər tərəfindənsə yaradılması ehtimalına üstünlük verirlər. Lakin unudurlar ki, şifahi xalq yaradıcılığı nümunələrinin hər biri, yəni hər hansı bir folklor materialı vaxtilə kimlər tərəfindənsə yaradılmışdır. Hər biri şifahi xalq yaradıcılığı nümunəsi olaraq konkret bir fərd tərifindən yaradılsa da, yalnız sonradan xalqın digər yaradıcı adamları tərəfindən formalaşır. Beləliklə, kütləvi yanaşmalar zəminində həmin bədii nümunə işlənə-işlənə cilalanaraq xalqın malına çevrilir. Bu, zaman-zaman belə olmuşdur, şübhəsiz bundan sonra da belə olacaqdır. İstər muğam parçaları, şöbə və guşələri, istərsə mahnılar, istərsə də rəqslər ilk dəfə bir təxəyyülün məhsulu olur, sonra kütləviləşir. Hər hansı bir bədii yaradıcılıq nümunəsi, xüsusilə muğamların şöbə və guşələri müxtəlif ifaçılar tərəfindən müxtəlif dəyişikliklərə məruz qalır. Zaman keçdikcə həmin dəyişikliklər hesabına yarananlar muğamın yeni çalarlarının meydana gəlməsi və onun zənginləşməsi üçün stimul rolunu oynayır.

Muğamı folklordan uzaqlaşdırmaq istəyənlərin bir qismi muğamın söz tərəfindəki qəzəllərin klassiklərimiz tərəfindən yazılmasını, yəni muğamın melodiya tərəfindən savayı söz tərəfinin olmasını və həmin tərəfin ayrı-ayrı müəlliflərə məxsus olduğunu önə çəkirlər. Lakin onlar nəzərə almırlar ki, qəzəllər muğamların həyatına XI-XII əsrlərdən sonra daxil olmuşdur. Həmin tədqiqatçılar isə bunun fərqinə varmırlar, bəlkə də vara bilmirlər.

Qəzəl janrının yaranması XI əsrə təsadüf edir. Başqa sözlə daha dəqiq desək, XI əsrdə qəzəl janrının bünövrəsini Qətran Təbrizi qoymuşdur. Hələ bu o demək deyil ki, Qətran Təbrizi qəzəl yazan kimi müğənnilər qəzəli qəbul etmişlər. Məlum olduğu kimi qəzəli istisna etsək XI əsrə qədər istər şifahi, istərsə də yazılı ədəbiyyatın müxtəlif janrdan, növ, forma və üslubdan ibarət olan çox zəngin bədii yaradıcılıq nümunələri olmuşdur. Bu dövrdə ağılar, laylalar, bayatılar, sayaçı nəğmələri, mərasim nəğmələri, mövsümü-nəğmələr, qəhrəmanlıq nəğmələri, oxşamalar, nazlamalar, dərviş nəğmələri, tuyuqlar, varsaqilər, qaravəllilər, habelə saray ədəbiyyatı, Alban-Aran ədəbiyyatı nümunələri o cümlədən qəsidələr, mədhiyyələr, mərsiyələr, fəxriyyələr, həcvlər, minacatlar, nətlər, qitələr və digər bu kimi nəzm nümunələrinin hamısı muğam üstündə oxunurdu. Qətran Təbriziyə qədər müğənnilər Musa Şəhavət, İsmayıl İbn Yasar, Əbdül Abbas, Mənsur Təbrizi, İskafi Zəncani, Xəttat Nizami Təbrizi kimi görkəmli şairlərin nəzm nümunələrini oxumuşlar.

Bu günə qədər heç bir ədəbiyyatda muğamın elmi əsaslarından, bəhs olunmamış, pedaqoji-psixoloji əsaslarına dair geniş miqyaslı tədqiqatlar aparılmamışdır.

Son zamanlar muğam fəlsəfəsinə dair elmi-tədqiqat materiallarını üzə çıxaranlar haqlı olaraq muğamı gerçəkliyi dərk etməyin mühüm vasitəsi hesab edirlər. Doğrudan da təbiətin, cəmiyyətin və idrakın ümumi qanunauyğunluqlarının obyektiv qiymətləndirilməsinə güclü təsir edənlərdən biri musiqi və xüsusilə musiqinin ən ciddi janrı olan muğamdır. Muğamların əmələ gəlməsinin həm fizioloji həm də psixoloji əsasları vardır. Muğamı Ali Sinir sistemi yaradır, təxəyyül isə onu istehsal edir.

Muğamın ərsəyə gəlməsi, formalaşması, inkişaf edərək təkmilləşməsi yalnız və yalnız pedaqoji prosesdə baş verir. Çünki muğamın yaranma mənbələri əgər qabiliyyət və istedad amilidirsə həmin muğam qabiliyyətinin istedada çevrilməsi pedaqoji prosesdə həyata keçirilir. Lap məktəbəqədər dövrdən başlayaraq uşaqlara lad-məqam anlayışlarının verilməsi, muğam rəngləri, təsnifləri, şöbələri, guşələri ilə onların tanış edilməsi çox faydalıdır. Məhz belə bir şəraitdə uşaqlarda ilkin muğam dünyagörüşü yaratmaq mümkündür. Bu sətirlərin müəllifi 70-80-ci illərdə ölkəmizdə ilk dəfə olaraq uşaqların muğam qabiliyyətlərinin formalaşmasının elmi, pedaqoji və psixoloji əsaslarını sistemə salmışdır. Bundan sonra, pedaqoji elmlər namizədi Nazim Kazımov muğamların tədrisilə bağlı fundamental tədqiqatlar aparmışdır.

Yetişən nəslin təlimi, tərbiyəsi və təhsilini günün tələbləri səviyyəsində inkişaf etdirmək üçün, hər şeydən öncə onların elmi dünyagörüşlərinin formalaşdırılmasında nail olmaq lazımdır. Bunun üçün həm də qarşılıqlı münasibət və ünsiyyətin roluna geniş yer vermək lazım gəlir. Lakin qarşılıqlı münasibətlər və ünsiyyətin rolu məsələsinə az yer verildiyi, bu məsələnin psixoloji xüsusiyyətləri, çox az öyrənilir. Təəssüf ki, hər hansı bir muğam parçasının öyrədilməsinin şagirdlərin dünyagörüşlərinin zənginləşməsinə təsiri problemi az işıqlandırılmışdır. Bunları nəzərə alaraq biz həmin məsələ haqqında bir qədər ətraflı danışmağı vacib hesab etmişik.

Muğam tələbatlarının yaranması fizioloji, psixoloji əsaslardan asılı olsa da, qeyd etdiyimiz kimi xarici mühitin təsir imkanlarından çox asılıdır. Dövlət direktivlərinin məqsədyönlü, planlı və mütəşəkkil olaraq muğam yaradıcılığına istiqamətləndirilən tələbləri və bu tələblərə uyğun təşkil edilən kütləvi tədbirlər də sağlam nəticənin üzə çıxarılmasına çox mühüm təkan verir. Muğam dünyagörüşünün əldə olunması üçün mütərcimlərə də ehtiyac duyulmur.

Muğamlara informasiya və kommunikasiya vasitəsi kimi həm də psixoloji cəhətdən yanaşsaq deməliyik ki, muğamlar ən güclü və ən təsirli informasiya ötürən bədii nümunədir. İnformasiyanın isə iki növü vardır: təhrikedici və müəyyənedici.

Təhrikedici informasiya əmr, məsləhət, xahiş formasında təzahür edir. O, insanı hər hansı bir fəaliyyətə sövq edir. Müəyyənedici informasiya isə məlumat xarakteri daşıyır və bilavasitə davranışın dəyişdirilməsi məqsədilə daha çox təhsil sistemində istifadə olunur. Son nəticədə davranışın müsbət yönümə dəyişildiyi bir kommunikasiya ümumi qaydalara əsasən təsir göstərir.

Hər hansı informasiyanın verilməsi yalnız işarələr, daha dəqiq desək işarələr sistemi vasitəsilə mümkündür. Kommunikasiya prosesində bir neçə işarələr sistemindən istifadə edilir. İşarələr sisteminin növündən asılı olaraq verbal kommunikasiya (işarələr sistemi kimi nitqdən, səsdən istifadə olunur) və qeyri-verbal kommunikasiyanı fərqləndirirlər.

Nitqin əsasını müəyyən növ işarələr təşkil edir. Hansı ki, bu işarələrdən məlahətli səslər yaranır. Məlahətli səsin özünü isə səs simvolları təşkil edir. Məlahətli səsi təkcə informasiya ötürmək vasitəsi hesab etmək düzgün sayıla bilməz. Məlahətli səs həm də təxəyyülün məhsuluna çevrilə bilər. Məlahətli səs təxəyyülə yapışıqlı, təsiredici, yüksək zövq verən variasiyalar şəklində

bədii məhsula çevrilər. Belə bədii məhsullardan biri də muğam hesab olunur. Təxəyyülün istehsal etdiyi muğam məhsulu hər bir ifaçının özünə məxsus "kəşfi" olur. Muğam ifaçılarının "kəşf" etdikləri muğam improvizasiyaları bəzən bəstələnmiş və dinləyici üçün möcüzəyə çevrilmiş kiçik bir əsər təsəvvürü yaradır.

Paralinqvistik sistemə vokalizasiya – səsin diapazonu, tonallığı, tembri aid edilir. Ekstralinqvistik, həm də paralinqvistik sistem nitqin təsirliliyi, aydınlığı, cəzbediciliyi üçün əlavə imkandır. Bütün bu əlavələr informasiyanın semantik mənalılığının nitq vasitəsi ilə deyil, ona yardımçı olan nitqətrafı, başqa sözlə desək ifaçılıq motivləri vasitəsilə verilməsidir.

Göstərilən bütün kommunikativ ünsiyyət normalarının böyük əksəriyyəti muğam ifaçılığı üçün ona görə səciyyəvi hesab olunur ki, bu normaların bir çox qismi muğam ifaçılığında cəmləşmişdir. Muğam ifaçılığında aydın diksiya, muğam məntiqinin çatdırılmasının psixoloji yozumu, pauzanın psixoloji təsiri, səsin diapazonunun psixoloji təsiri, səs tembrini duymağın, qavramağın, hafizədə saxlamağın ümumi adətinə uyğunlaşdırılması bütövlükdə təxəyyülün imkanlarını genişləndirir. Təxəyyülün əsas növü kimi yaradıcı təxəyyülün imkanları bu prosesdə də tez gözə dəyir. Yəni əmək surətinin yaradılmasını təmin etmək, problemli situasiyanı qeyri müəyyənliklə xarakterizə olunduğu şəraitində qavrayış mexanizmini üzə çıxaran yaradıcı fəaliyyətin növü kimi, təxəyyülün burada rolunu heç bir psixi proses əvəz edə bilməz. Muğamlar yaradıcı fəaliyyət növü olduğu üçün istedadı olanlar təxəyyül imkanının köməyilə muğam məkanı yaratmağa qadir olurlar. İnsanlarla muğam ünsiyyəti qurmaq, onlarda elmi dünyagörüşü yaratmağa kömək edir.

Muğam ünsiyyətinin interaktivliyi ifaçı ilə tamaşaçı, təəssübkeş və ya dinləyici arasında yaranan interaktiv fəaliyyət növüdür. Burada interaktivliyi, həm ifaçıya həm də tamaşaçıya şamil etmək olar. İfaçı qeyri-adi gəzişmələrlə, şirin boğazlarla, improvizə yönümlü gəzişmələrlə tamaşaçını aktivləşdirir, fəallaşdırır. Tamaşaçı isə muğam ifaçısının novatorluğundan doğan istedad elementlərindən riqqətə gəlir, coşur, daşır və obyektiv qiymətləndirmənin çox fəal və çox aktiv formaları əsasında meyar müəyyənləşir. Bu meyarın, yəni ölçü vahidinin kütləviləşməsi prosesi yalnız tamaşaçıların fəallaşdırılması prosesində baş verə bilər. Muğam ifaçılığına interaktiv yanaşma iki tərəfli proses olduğu üçün burada hər iki tərəfin fəallaşması bir tərəfdən muğam ifaçısının novatorluğunu təsdiq edir, ikinci bir tərəfdən tamaşaçıların muğam ifaçılığından mükəmməl zövq almaları öz təsdiqini tapır.

**Ədəbiyyat**


1. Sadıqov F.B. Muğam: Dərs vəsaiti. Bakı: Maarif, 2011.
2. Kaşğari Mahmud. "Divani-Lüğət-it Türk". I cild. Daşkənd, 1961.
3. Sadıqov F.B. Azərbaycan xalq pedaqogikası: Dərslik. Bakı: Ünsiyyət, 2000.


**Ф. Садыгов**

**Мугамный фольклор и его научно педагогическиеи психологические основы**


*Резюме*

В статье говорится о возникновении, становлении, об этапах развития и о научно педагогических и психологических основах мугамов. Автор статьи впервые представляет мугамы как образцы фольклора. Он разъясняет выражение мугамный фольклор также как и педагогическое понятие. В статье раскрываются наряду со этимологическими смысловыми нюансами названий шобе, гюше мугамов, также их сила педагогико-психологического воздействия.


**F. Sadikov**

**Mugham folklore and itsscience pedagogical, psychological bases**


***Summary***

Article deals with from the stage of development and its science, pedagogical, psychological bases. Article author does as example of mugham, folklore for the first time ancient. He comments expression of mugham folklore as pedagogical conception. Mughams article departments, sections of the etymological meaning of the names of shades along with the pedagogical-psychological influence is interpreted.




# MÜASİR AZƏRBAYCANDA TƏRBİYƏ KONSEPSİYASI


**Müseyib İlyasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*ADPU*
E-mail: museyib -11@ hotmail.com



***Açar sözlər:*** *konsepsiya, azərbaycançılıq, milli ideya, vətəndaşlıq, dəyərlər*
***Ключевые понятия:*** *концепция, азербайджанство, идея национальное, гражданство, ценность*
***Key words:*** *conception, Azerbaijani, national idea, citizenship, values*


Ötən əsrin 90-cı illərindən Azərbaycanın yeni bir inkişaf mərhələsinə keç-məsi uzun əsrlər boyu yaranmış və formalaşmış tərbiyə paradiqmaları yeni məna, məzmun və istiqamət kəsb etmişdir. Tərbiyənin məna və məzmununda, prinsip və metodlarında yaranan yeniliklər, yeni istiqamətlər dövlətin siyasi, iqtisadi, sosial, mədəni, pedaqoji və psixoloji sahədə müəyyənləşdirdiyi və qəbul etdiyi bir çox rəsmi sənədlərdə öz əksini tapmışdır ki, bunlar da tərbiyə konsepsiyası kimi dövlətin və cəmiyyətin maraqlarını ifadə edir. "Azərbaycan Respublikasının Konstitusiyası (1995), "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" (1999), "Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu" (2009), "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası (2012), "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2013) və digər bir sıra mühüm dövlət sənədləri bu baxımdan konseptual əhəmiyyət daşıyır.

Hələ ötən əsrin sonlarından xalqımızın milli ruhunun dirçəlməsi, azadlıq, demokratiya ideyalarının təşəkkül tapması, təhsildə, tərbiyədə yeni-yeni yolların, metodların axtarılması sahəsində ilk addımların atılması artıq sovet tərbiyə sisteminin yeniləşdirilməsini, yeni tərbiyə konsepsiyalarının yaranmasını zəruriləşdirdi.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra təhsilə, tərbiyəyə xüsusi önəm verməsi, təhsil işçilərinin və gənclərin qarşısına əzəmətli proqram vəzifələri qoyması, gənclərin milli ruhda tərbiyə olunmalarına, şanlı tariximizi dərindən öyrənməyə, hər bir azərbaycanlının Vətən naminə hər bir şeyə hazır olmalarına dair proqram göstərişləri belə bir konsepsiyanın yaranmasının əsasını təşkil etdi. 15 iyun 1999-cu il tarixdə xalqımızın Ümummilli lideri Heydər Əliyevin sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı» qəbul edildi. Bu proqramda nəzərdə tutulan bir çox problemlər içərisində gənc nəslin tərbiyəsi sahəsində görüləcək işlər, milli və bəşəri əhəmiyyət daşıyan müddəalar müasir Azərbaycanda gənc nəslin inkişafı və formalaşması sahəsində cəmiyyətimizin qarşısında duran strateji vəzifələrin əsas istiqamətlərinin ifadəsi baxımından bu gün də mühüm əhəmiyyət kəsb edir.

"İslahat Proqramı"nda "demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma prinsiplərinə əsaslanaraq, təhsilalanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsilalanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması" məqsədinin irəli sürülməsi bu baxımdan səciyyəvidir ( 1, 122-123).

2009-cu ildə qəbul edilən "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri içərisində ilk dörd yeri tutan humanistlik, demokratiklik, bərabərlik, millilik və dünyəvilik təhsilin əsas məqsədlərini müəyyən etməklə bərabər, həmçinin respublikamızda tərbiyənin başlıca istiqamətlərini də aydın göstərir. Bunlar: 1) Azərbaycançılıq ideyalarına sadiq vətəndaş-şəxsiyyət formalaşdırmaq; 2) yüksək nəzəri və praktik biliklərə yiyələnmiş müasir təfəkkürlü kadrlar hazırlamaq; 3) təhsilalanları səmərəli əməli fəaliyyətə və həyata hazırlamaq kimi istiqamətlərdən ibarətdir.

Bu istiqamətləri nəzərdən keçirdikdə bir daha aydın olur ki, burada Azərbaycan vətəndaşlarının həyatının bütün dövrləri – uşaqlıq, gənclik və əmək fəaliyyəti dövrü sistemli şəkildə nəzərə alınmışdır. Həmçinin müasir tərbiyə konsepsiyasının əsas konturları da burada öz ifadəsini aydın şəkildə tapır ki, bu da respublikamızın Prezidenti cənab İlham Əliyevin irəli sürdüyü və

Prezident Adminstrasiyasının rəhbəri, akademik R. Mehdiyevin qeyd etdiyi kimi, milli həmrəyliyin onun ətrafında cərəyan etdiyi və ölkənin inkişafı üçün mənəvi özəyə çevrilən "milli ideya"dan ibarətdir

Müasir cəmiyyətimizdə tərbiyənin əsasında duran *"Milli ideya" azərbaycançılıq* ideyasının əsas mahiyyətini əks etdirməklə müasir Azərbaycan cəmiyyətinin əsas ideoloji dayaqlarından birini təşkil edir. Azərbaycançılıq ideyasının formalaşdırılması isə bu dayağın daha möhkəm, daha möhtəşəm olmasıdır ki, tərbiyə və təhsil prosesində gözlənilən nəticələr və hədəflər məhz onun sayəsində və onun əsasında bərqərar olur. Ulu öndər H. Əliyev tərəfindən irəli sürülən bu möhtəşəm ideyanın reallaşması əsl azərbaycanlının, həm də vətəndaş şəxsiyyətin formalaşmasının əsasını təşkil edir.

Azərbaycançılıq nədir və onu necə xarakterizə etmək olar? Bu konsepsiyanı əsaslandırmaq sahəsində son illər respublikamızda xeyli işlər görülmüş və tədqiqatlar aparılmışdır. Son illər professorlar T. Hacıyev, N.Cəfərov, N. Şəmsizadə və digər alimlərimiz bu sahədə xeyli diqqətəlayiq tədqiqatlar aparmışlar. Prof. N. Şəmsizadə yazır: "Azərbaycan xalqının milli idealı – məfkurəsi türkçülükdən, ərazi bütövlüyü və xalqın bütövlüyünü təmin etməkdən ibarətdir. Azərbaycançılıq ideologiyasının sosioloji aspekti isə məfkurəçilikdir" (4).

Azərbaycançılıq böyük ideala söykənən ideyadır. Bu, təkcə vətəni sevmək kimi dərk olunan, onu "sevirəm" – deməklə məhdudlaşdırılan bir ifadə deyildir, Vətənə bağlılıq, onun təəssübkeşi olmaq, Vətənin qorunması, onun çiçəklənməsi üçün gücü, imkanları daxilində ona xidmət etməkdir. Azərbaycan dilinə, onun milli adət və ənənələrinə, tarixi keçmişinə, dövlət atributlarına hörmətlə yanaşmaq, qanun və qanunçuluğu qorumaqdır. Azərbaycan deyəndə "ayağa duran" (M. Araz) şəxsiyyət simvolunu daşımaq, "Azərbaycan məfkurəsinə" malik olmaqdır. Bu ideya xalqı milli-mənəvi və psixoloji cəhətdən birləşdirən elə ideyadır ki, ona malik olmaq vətəndaş-şəxsiyyətin formalaşmasının əsasını təşkil edir. Vətəndaş-şəxsiyyət formalaşdırmaq müasir Azərbaycan cəmiyyətində ən önəmli vəzifələrdən birini təşkil edir.

"Vətəndaş" və "şəxsiyyət" – hər ikisi geniş və dərin məna daşıyan kəlamlar olub, insanın üzərinə çox mühüm vəzifələr qoyur. Vətəndaş təkcə hüquqi cəhətdən anlaşılan bir ifadə, yəni, insanın hansısa bir respublikada yaşaması, onun vətəndaşlıq pasportunu daşımasından ibarət deyildir. Vətəndaş olmaq həm də mənəvi məsələ kimi "Vətən daşı" (M. Araz) olmaqdan başlayan, yəni Vətənin bir parçacı olmaqdan, Vətənə heç olmazsa bir daş qədər gərəkli olmaqdan ibarətdir.

Şəxsiyyət anlayışı özündə bir çox dərin mənaları əks etdirir. Bunu təkcə psixoloji və tarixilik baxımından ictimai inkişafın məhsulu, əmək və ünsiyyətin subyekti olan insan kimi təsvir və təsəvvür etmək birtərəfli olardı. Geniş mənada yanaşdıqda şəxsiyyət həm də mənəviyyat baxımından elə şəxsdir ki, onda şüuru-muzda dərin kök salan və adət və ənənələrimizin əsasında dayanan bütün insanlıq keyfiyyətləri özünü təcəssüm etdirir. Şəxsiyyət milli və ümumbəşəri mənəvi keyfiyyətlərin daşıyıcısı və ötürücüsü olan, adı böyük hərflərlə yazılan İNSAN mahiyyətini əks etdirir.

Vətəndaş şəxsiyyətin formalaşdırılması məhz yuxarıda deyilən həm vətəndaşlıq, həm də şəxsiyyətə xas olan keyfiyyətlərin kombinasiyasına malik olan kamil şəxsiyyətin tərbiyə olunmasını nəzərdə tutur ki, bu da müasir Azərbaycan cəmiyyətinin mənəvi tərəqqisində əhəmiyyətli rol oynayır.

Beləliklə, deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, müasir Azərbaycan cəmiyyətində ta qədim zamanlardan süzülüb gələn milli – mənəvi və ümumbəşəri dəyərlər, İslam əxlaqı və mənəviyyatı, Ulu öndər H. Əliyevin gənclərimizin təhsili, tərbiyəsi və bir şəxsiyyət kimi formalaşdırılması haqqında konseptual səciyyə daşıyan fikirləri, azərbaycançılıq məfkurəsi və dövlət başçısı cənab İlham Əliyevin irəli sürdüyü "Milli ideya" müasir Azərbaycanda tərbiyənin əsas prioritetlərini və konsepsiyasını təşkil edir. Bunun əsas hədəfləri isə yüksək mənəviyyatlı, vətənpərvər və vətəndaş – şəxsiyyətin formalaşdırılmasından ibarətdir.

**Ədəbiyyat**


1. Azərbaycanın təhsil siyasəti. 1998-2004). I kitab. Bakı: Çaşıoğlu, 2005.
2. H.Əliyev. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.





3. R.Mehdiyev. İkili standartların dünya nizamı və müasir Azərbaycan. "Yeni Azərbaycan" qəz., 2014, 4 dekabr
4. N. Şəmsizadə. Azərbaycan ideologiyası. Bakı: Sabah, 1996.
5. N. Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1980.
6. Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: "Qanun nəşriyyatı", 2009.



М.Ильясов

**Воспитательная концепция современная Азербайджана**

**Резюме**

В статье рассматриваются современное направление и тенденция в образовании и воспитании в результате большой развитие в обществе Азербайджане. Анализируется реализации сущность и содержание принципы Азербайджанство, идея национальство и гражданство в образовании и воспитании.

M.Ilyasov

**Education concept in modern Azerbaijan**

**Summary**

This article deals with new trends and directions in the education system, and importance of principles of Azerbaijani, national idea and citizenship and its reality in education and bringing up process that resulted from fast development in the Azerbaijan society.


# MİLLİ MƏNLİK ŞÜURU ANLAYIŞININ MAHİYYƏTİ VƏ ONUN AŞILANMASI PSİXOLOGİYASI


**Çapay Quliyev**
*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi*
E-mail: chapay81@yahoo.com



***Açar sözlər:***, *mənlik şüuru, milli mənlik şüuru, milli mənlik şüurunun fəlsəfi, sosioloji, pedaqoji, psixoloji aspektləri və əsas mahiyyəti.*
***Ключевые слова:*** *самосознание, национальное самосознания, философские, социальное, педагогические, психологические аспекты национального самосознания и их основная сущность*
***Key words:*** dignity consciousness, national dignity consciousness, philosophical, sosiological, pedagogical, psychological aspects of national dignity consciousness and its main essence.


"Milli mənlik şüuru" anlayışının tam mənası ilə aydınlaşdırmaqdan ötrü bir sıra zəruri amillərin açıqlanmasına zəruri ehtiyac duyulur.

Milli mənlik şüurunun formalaşması Vətənə, doğma torpağa, doğma yurda məhəbbət yaradır. Məktəblilər düzgün dərk edirlər ki, dünyada Azərbaycan xalqı var, yaşayır və özünün çox hiyləgər düşməninə – etmənilərə qarşı mübarizə aparır (1, 11-12). Onlar şüurlu surətdə dərk etməlidirlər ki, Azərbaycan xalqının qatı düşməni ermənilərə qarşı mübarizəyə hər zaman hazır olmalıdırlar. Onlar bu mübarizəyə hazır olmaları barədə daim düşünməlidirlər. Milli mənəvi keyfiyyətləri daşıyan məktəbli gənclərin hər biri möhtərəm prezidentimiz İlham Əliyev demişkən erməni faşizminin işğal etdiyi torpaqlarımızın azad edilməsi uğrunda mübarizə aparmalıdırlar. Onlar bu mübarizəyə hazır olmalarından qürur duymalı, iftixar hissi keçirməli, işğal altında olan torpaqların azad edilməsi işində özünəməxsus şəkildə mübarizəyə qoşulmalıdırlar.

Təcrübə və müşahidələr göstərir ki, kiçik məktəb yaşı dövründən başlayaraq uşaqlara qeyrətlilik (əsasən oğlanlara), ismətlilik (əsasən qızlara), əqidə saflığı ilə bağlı məlumatların verilməsi, bu sahədə uşaqlarla psixoloji testlərin aparılması çox faydalıdır. Ona görə ki, belə psixoloji yanaşmalar onlarda milli mənlik haqqında ilk təsəvvürləri yaradır. Belə təsəvvürlərdən yaranan şüurlu özünüdərk isə milli mənlik şüurunun yaranmasını stimullaşdırır. Yeniyetməlik dövrünə qədərki qoyan uşaqların ailəyə, kollektivə olan şüurlu münasibəti yaxşılaşır.

Yeniyetməlik dövründə şəxsiyyətin kollektivdəki mövqeyi, eyni zamanda ictimai münasibətlər sistemində tutduğu vəziyyət, əsaslı dəyişikliklərə uğrayır. Belə ki, bu yaşda onlar "kiçik" uşaqdan böyük "uşağa" çevrilir. Yeniyetməlik dövründə uşaqların davranış və rəftarlarında əvvəlki yaş dövrlərində müşahidə edilməyən yeni xüsusiyyətlər özünü göstərməyə başlayır. Bütün bunlar yeniyetmənin şəxsiyyətini kiçik məktəblinin şəxsiyyətindən fərqləndirir. Hələ yeniyetməliyin əvvəlində o qədər də fərqlənməyən uşaq sanki birdən birə dəyişir, yaşlılaşır (2, 308).

Milli mənlik şüurunun inkişafında mühüm rol oynayan maraqların idrak tələbatlarının əsas obyekti olaraq öyrənilməsinə diqqətin yetirilməsi çox faydalıdır. Çünki yeniyetmə şəxsiyyətinin əsas fəaliyyətinin düzgün motivləşdirilməsi hesabatına mənlik şüuru inkişaf edir.

Bu gün yeniyetmə və gənclərin milli mənlik şüurunun formalaşdırılmasına daha ciddi ehtiyac var.

**Nəticə** olaraq deməliyik ki, yetişən nəslin milli mənlik şüurunu inkişaf etdirməyin psixologiyasını elmi-nəzəri və praktik cəhətdən düzgün müəyyənləşdirməklə onların milli mənlik şüurunu nəinki günün aktual tələbləri səviyyəsinə yüksəltmək olar, hətta hərtərəfli formalaşdırmaqla təkmilləşdirmək mümkündür.

### Ədəbiyyat


1. Y.R. Talıbov, F.B.Sadıqov, S.M.Quliyev. Gənclərin mənəvi tərbiyə problemləri. Bakı: Ünsiyyət, 1998.
2. Ə.Ə.Qədirov. Yaş psixologiyası. Bakı: Maarif, 2008.



**Ч. Гулиев**

**Сущность понятия национального самосознания и психология его привития школьником**

**Резюме**

В статье раскрывается сущность национального самосознания. В этом процессе автор делает попытку разъяснения психологии формирования национального самосознания с психолого-педагогической позиции. В статье на первый план выводятся основные факторы, обеспечивающие национальные самосознание. Обосновывается с психологической точки зрения объем возможностей влияния факторов. Автор в статье также раскрывает психологию развития национального самосознания, отдает предпочтение единству научно-теоретических правил с практическими образцами, приобретаемыми важную актуальность.

В статье даются психологические детали, вдохновляющие на борьбу с хитрыми армянами, в процессе развития национального самосознания школьный молодежи.

В статье также акцентируется внимание на идеи о психологическом формировании национальной чести и достоинства.

**Ch.Quliyev**

**The essence of national dignity consciousness and its applying psychology**

**Summary**

In the article the essence of national dignity consciousness is cleared. In this process author touches upon the pedagogical-psychological aspects of psychological research of national consciousness formation. In the article main factors providing national consciousness are put forward. Possibilities of main factors from psychological point of view are analysed. In the article author also clarifies psychological development of national consciousness combines practical samples with scientific-theoretical studies. In the article psychological details are given in the struggle against cunning armenians. In the article attention is given to the formation of national honour and dignity.




# FƏAL MÖVQE – ŞAGİRDLƏRİN FƏAL VƏTƏNDAŞ MÖVQEYİ QAZANMASINDA MÜHÜM AMİL KİMİ


**Emilya Hüseynova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: emilyahus.@gmail.com



***Açar sözlər:*** *vətəndaş, şagird şəxsiyyəti, fəal mövqe, fəal vətəndaş mövqeyi, fəal həyat mövqeyi*
***Ключевые слова:*** *гражданин, личность ученика, активная позиция, активная гражданская позиция, активная жизненная позиция*
***Keywords:*** *citizen, student's personality, active position, active citizenship, active life position*


Məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin həyatda, təhsil aldıqları məktəbdə, ictimai işlərdə, təlimdə, dərsdənkənar vaxtlarda həyata keçirilən tədbirlərdə, şəxsiyyətlərarası münasibətlərdə, cəmiyyətdə fəallıq göstərməsi, müstəqil, təşəbbüskar olması, təşkilatçılıq qabiliyyətlərinə, tənqid və özünütənqidə yiyələnməsi onların fəal vətəndaş mövqeyi qazanmalarına kömək edir.

Hələ vaxtilə Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Fəal mövqe şəxsiyyətin əqidəsini, onun iradə zənginliyini, ideya-mənəvi düşüncələrini ifadə edərək, insana yeni-yeni məsələləri irəli sürüb həll etməkdə, çətin şəraitdə özünü itirməməkdə, qətiyyətli hərəkət etməkdə, öz üzərinə məsuliyyət götürməkdə kömək edir. Fəal mövqe bəşəriyyətin hazırladığı bütün mənəvi sərvətlər ilə öz daxili aləmini daim zənginləşdirməyi tələb edir".

Həmin sözlərdə dərin həqiqət vardır.

Fəal vətəndaş mövqeyi insanların, o cümlədən təhsilalanların ictimai vətəndaşlıq borcunun, mənəvi və hüquqi məsuliyyətini, cəmiyyətin onun üzərinə qoyduğu vəzifələri aydın başa düşməsi, vətənpərvər, yurdsevər olması, doğma yurdun maddi və mənəvi sərvətlərinə görə milli şərəf və milli iftixar hissi keçirmələri, öz hüquqlarını, azadlıqlarını və vəzifələrini bilməsi, qanunun tələblərini gözləməsidir.

Fəal vətəndaş mövqeyini məktəblinin həyata, insanların, həmyaşıdlarının fəaliyyətinə, bu fəaliyyətin xarakterinə olan baxışlar sistemi kimi nəzərdən keçirmək mümkündür.

Bu, bir həqiqətdir ki, müəyyən, daha doğrusu zəruri inam və əqidəyə, şüurlu məsuliyyətə, borc hissinə malik olmadan insan, şagird fəal vətəndaş mövqeyi səviyyəsinə qalxa bilməz.

Bütün bunlar onu göstərir ki, şəxsiyyətin, o cümlədən təhsilalanların formalaşdırılmasının yollarını və vasitələrini aydın təsəvvürə gətirmək və bu işi təşkil etmək, demokratikləşdirmə və humanistləşdirmə ilə əlaqədar olaraq həyata yeni dəyərlərlə və baxışlarla yanaşaraq, vətəndaş cəmiyyətində yaşamağı və fəaliyyət göstərməyi bacarmaq lazımdır.

Müxtəlif ölkələrdə vətəndaş tərbiyəsinin məqsədi fərqlidir. Belə ki, ABŞ-da demokratik cəmiyyətin taleyi üçün vətəndaşlarda məsuliyyət hissinin yaradılması; Avropada vətəndaş hüquqlarının öyrədilməsi məqsəd kimi irəli sürülür. Rusiyada Karl Marksın vaxtilə ortaya qoyduğu tezisə əsasən, canlı varlıqdan tez bir zamanda sosial xadimə çevirmək müddəası əsas götürülür.

Təlim prosesində və sinifdənxaric tədbirlərdə yuxarı sinif şagirdlərində onun humanistliyi, mənəviyyatı, idrak və yaradıcılıq qabiliyyəti, azadlığı ölçülərini müəyyən edən vətəndaşlıq keyfiyyətləri tərbiyə olunmalıdır.

A.M. Knyasyevanın yazdığı kimi, " aktual pedaqoji vəzifələr kimi vətəndaşlığın formalaşdırılması şəxsiyyətin inkişafının ümumi konsepsiyası ilə həmahəng gəlməlidir. A.M. Knyasyeva vətəndaşlıq tərbiyəsinin üç mərhələdə həyata keçirildiyi qənaətindədir. Diqqət yetirək:

1. Şəxsiyyətin idraki funksiyasının inkişaf etdirilməsi;
2. Həm özünə, həm də başqalarına, vətəndaş cəmiyyətinə və dövlətə, vətəndaş hüquqlarına və vəzifələrinə münasibət üzrə münasibətlər sisteminin yaradılması;
3. Şəxsiyyətin vətəndaşlıq keyfiyyətlərinin təzahürü.

Vətəndaşlıq şüuru heç də yalnız özünün və başqalarının hüquq və vəzifələrinə, qanuna və qanunçuluğa hörmətdə özün göstərmir, eyni zamanda kütləvi bədbəxtliyə, fəlakətlərə və iztirablara laqeyd qalmamaqda təzahür edir. Həmin halları görüb, hiss edib, onlarla maraqlanmaq və onlara reaksiya verməl tələb olunur. Həqiqi vətəndaş başqalarının taleyinə münasibətdə həssas olmalı,

xeyirxahlıq, təmənnasız kömək göstərməli, ictimai fəlakətlərdə biganə olmamalı, birisinin başqasını istismar etməsinə, cəmiyyət əleyhinə cinayətlərə, hakimiyyətdən, tutduğu vəzifəsindən və mövqeyindən sui-istifadə hallarına qarşı barışmaz olmalıdır.

Deməli, vətəndaş cəmiyyətinin və hüquqi dövlətin təşəkkülü şəraitində ümumi təhsil müəssisələrinin, eləcə də digər tip məktəblərin ümdə vəzifəsi demokratik tipli vətəndaşlar yetişdirməkdən ibarət olmalıdır. Bu şəxslər bit tərəfdən innovasiyalara, özü həyatını və fəaliyyətini idarə etməyə qabil olmalı, özünün halal əməyi ilə maddi rifahını təmin etməyi, cəmiyyətin həyatında fəal və yaxından iştirak etməyi bacarmalıdır.

Ədəbiyyat


1. M.M. Mehdizadə. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.
2. Н. И. Новиков и формирование гражданской позиции школьников средствами гуманитарного образования // Известия Российского государственного педагогического университета им. А.И. Герцена, 2008, № 65



**Е.Р. Гусейнова**


**Активная позиция как важнейший фактор формирования активной гражданской позиции учащихся**


*Резюме*

Воспитать гражданина возможно только в демократическом учебном заведении. Одним из условий к созданию адекватного образовательного пространства должно стать формирование демократического уклада жизни образовательного учреждения. Гражданское воспитание – это своего рода социальный проект. Демократический уклад, как модель гражданского общества, в совокупности с разнообразной внеаудиторной деятельностью, является условием, при котором только и возможно формирование гражданской компетентности, обретение школьниками и учителями опыта демократического поведения, опыта активной гражданской позиции



**E.R. Huseynova**


**Active position as an important factor active citizenship students**


*Summary*

Educate the citizen is only possible in a democratic institution. One of the conditions for the creation of adequate educational space should be the formation of a democratic way of life of the educational institution. Civic education – a kind of a social project. The democratic way of life, as a model of civil society, in conjunction with a variety of extracurricular activities is a condition under which alone the formation of civic competence, acquiring students and teachers experience of democratic behavior and experience of active citizenship.


# PEDAQOJİ TƏMAYÜLLÜ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİNDƏ TOLERANTLIĞIN TƏRBİYƏ OLUNMASI MÜASİR DÖVRÜN MÜHÜM TƏLƏBİ KİMİ


**İradə Əmirəliyeva,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail: amiraliyeva_i@mail.ru



*Açar sözlər: tolerantlıq, dözümlülük, şəxsiyyətin dözümlülüyünün səviyyəsi*

*Ключевые слова: толерантность, терпимость, уровень толерантности личности, терпимость*

*Keywords: tolerance, sufferance, level of tolerance of the person*


Şəxsiyyətin, o cümlədən ali məktəb tələbələrinin mənəvi keyfiyyətləri sırasında tolerantlıq özünəməxsus yer tutur. Səbirli, hövsələli, təmkinli insanlar həmişə uğur qazanmış, hörmət və nüfuz sahibi olmuşlar. əksinə, hövsələsiz, dözümsüz olan, tez özündən çıxan şəxslər başqalarının taleyi ilə oynamış, onları incik salmış, hətta tələsib tez qərar qəbul etdiklərinə görə peşmançılıq çəkmiş, bir çox işlərində uğursuzluğa düçar olmuşlar.

Pedaqoji, psixoloji və fəlsəfi ədəbiyyatda həm tolerantlıq, həm də intolerantlıq ifadələri işlənir. *Tolerantlıq* təmkinlilik, qəzəbini boğa bilmək, özündən çıxmamaq, qızışmamaq, səbrini, hövsələsini basmaq, müsahibini dinləməyi bacarmaq və onu necə varsa elə qəbul etmək, onunu irqinə, cinsinə, milliyyətinə, dininə, əqidəsinə hörmətlə yanaşmaq; intolerantlıq isə, bütün bunların tam əksidir. İntolerant insan, tələbə özünü cilovlaya bilmir, tez əsəbiləşir, həmin şəxsin başqa mövqedən danışmasını qəbul etmir, onu təhqir edir və s. Belələri milli, irqi, cinsi, dini ayrı-seçkiliyə meyillidirlər.

Təhsil müəssisələrinin, o cümlədən pedaqoji təmayüllü ali məktəblər tələbələrdə tolerantlığın tərbiyə olunması qayğısına qalmalıdır. Yeni pedaqoji təfəkkür şəraitində bu, son dərəcə vacibdir. Bu, bir həqiqətdir ki, gənclərin, ümumilikdə vətəndaşların tolerantlıq səviyyəsini inkişaf etdirmədən humanist cəmiyyəti formalaşdırmaq qeyri-mümkündür. Tələbəlik illərində təşəkkül tapıb formalaşan tolerantlıq cəmiyyətdə, ailədə, iş yerində, təhsil müəssisəsində gərginliyin azaldılmasının ən mühüm şərtidir.

Adamlar zahirən fərqli olduqları kimi daxilən də bir-birindən fərqlənirlər. Onları aradan qaldırıb, bir insan tipi formalaşdırmaq sadəcə qeyri-mümkündür. Odur ki, müxtəliflikləri nəzərə alaraq, onları birgəyaşayış yollarını müəyyənləşdirmək lazımdır. Vəziyyətdə çıxmağın iki yol var: ya bir-birimizlə ixtilafda olmalı, dava, müharibə etməliyik, ya da bir-birimizi başa düşməli, bir-birimizi qəbul etməliyik. uzlaşmalıyıq. Tolerantlıq bu uzlaşma yolunu seçmək bacarığıdır.

Tolerantlıq – insanın ətrafdakılara dəyərli münasibətidir. Bu keyfiyyət hər bir şəxsə xasdır, həm də şəxsiyyətin ayrılmaz xassəsi kimi özünü göstərir, lakin onun ifadə tərzində müxtəlifliklər var. Bu nöqteyi-nəzərdən tolerantlığın müxtəlif dərəcəli (yüksək, orta, aşağı ) olması barədə söz açıla bilər.

Tolerantlığın bir sıra növləri vardır:

-Özünə tolerant münasibət;

-Tələbə yoldaşlarına münasibətdə tolerantlıq;

-Ailəyə və öz xalqının ənənələrinə münasibətdə tolerantlıq;

-Mədəniyyətlərarası tolerantlıq.

-Diniu tolerantlıq;

-Millətlərarası tolerantlıq;

-Pedaqoji tolerantlıq və s.

Bu istiqamətdə tələbələrlə iş təlim prosesində, xüsusən pedaqogika, psixologiya, milli əxlaq və ailə etikası və s. fənlər üzrə mühazirə və seminarlarda, həmçinin auditoriyadankənar tədbirlərdə aparıla bilər.

Ədəbiyyat


1. Маслова Г.Г. Воспитание толерантности как фактор развития личности : Автореф. дис. ... канд. пед. наук. Псков, 2006.
2. Брянцева Е.В. Педагогические условия воспитания толерантности у младших школьников: Автореф. дис …канд.пед.наук. Карачаевск , 2005.



**И.Б. Амиралиева**


**Воспитание толерантности у студентов как важное требование современности**


*Резюме*

В тезисе доклада раскрываются сущность понятия толерантность, уясняются схожие и отличительные аспекты терминов толерантности, высказывается отношение к уровню толерантности личности, отражаются аспекты, входящие в понятие толерантности.



**I.B. Amiraliyeva**


**Upbringing tolerance students az important requirements of modernity**


*Summary*

In article reveal essence of concept of tolerance, similar and distinctive aspects of terms of tolerance are understood, the relation to level of tolerance of the person expresses, the aspects entering into concept of tolerance are reflected.

# DAVRANIŞ VƏ ÜNSİYYƏT TƏRBİYƏSİ

**Ayaz Qasımov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADU*
E-mail: qasimov, ayaz@mail.com

***Açar sözlər:*** *davranış, ünsiyyət, üsul, nümunə, ictimai nəqliyyat, mədəniyyət, ailə tərbiyəsi, maarifləndirmə*
***Key words:*** *behavior, communication, method, example, public, transport, culture, family upbringing, educate*
***Ключевые слова:*** *поведение, общение, метод, пример, общественный транспорт, культура, семейное воспитание, просвещать*

Elmi pedaqogikada tərbiyənin əsas tərkib hissələrindən biri olan əxlaq tərbiyəsinin komponentləri çoxdur. Onlardan biri də davranış və ünsiyyət tərbiyəsidir. Bu nəinki məktəblilərə, həm tələbə gənclərə və həm də böyüklərə aiddir. Sual verilə bilər ki, bəs nə üçün böyüklərə də? Ona görə ki, tərbiyə üsullarından biri olan nümunənin özrnək xarakterli növlərindən biri də valideynlərin şəxsi nümunəsidir. Deməli, böyüklər sosial mühitdə, məsələn ictimai nəqliyyatda və digər ictimai yerlərdə özlərini necə aparарlarsa, uşaq və gənclər də onlara oxşamağa çalışacaqlar. Bəs böyüklər öz davranışlarında hansı nümunələri göstərir, təqdir edir. Hansı ki, belə nümunələr kiçik üçün əsil örnəyə çevrilsinlər. Əlbəttə həmişə belə nümunələri müşahidə etmək olmur. Təəssüf hissilə qeyd etməliyik ki bir qisim valideynləri özlərini bu sahədə maarifləndirilməsinə ehtiyac duyulur. Məsələn, bəzi böyüklər avtobusa minən kimi oturmağa gözləri ilə yer axtarırlar. Çox vaxt avtobuslarda oturmağa boş yer olmur. Oturacaqlarda oturmuş adamlar (qızlar, oğlanlar) böyüklərə yer verməlidirlər ki, böyüklər otursunlar. Əvvəla bunu borc kimi gənclərin boynuna qoymaq o qədər də düzgün sayılmaz. Çünki elə gənclər var ki, onların sağlamlıqları buna imkan vermir. Ayaq üstə tıxaclar şəraitində uzun-uzadı yol getmək onların sağlamlığına pis təsir edə bilər. Bəziləri isə qulaqlarında qulaqcıqlar telefonlarda oyunlar oynayırlar, görmürlər avtobusa yenicə minmiş «böyüyü».

Bəzən də oturanları durub yer verməyə təhrik edirlər. Özüdə bu təhriki kobudcasına həyata keçirirlər. Biz bu cür davranışı və ünsiyyəti düzgün hesab etmirik. Axı, gəncin də oturmaq hüququ var. Fikrimizcə burada könüllülük prinsipinə üstünlük verilməlidir, həm güman edirik ki, belə münasibət kobud şəkildə deyil, mədəni şəkildə olmalıdır. Belə çıxmırmı ki, gənclərin heysiyyətinə toxunan böyüklərdən hansı şəxsi nümunə götürmək olar? Kobudluğu, yoxsa «mədəni rəftarı»? Görkəmli pedaqoq A.S.Makarenko deyirdi ki, tərbiyə torpağımızın hər qarışında aparılmalıdır. Deməli, ictimai nəqliyyatda da, digər ictimai yerlərdə də, tikinti və idman meydançalarında da, şirkət və tarlalarda da, iş prosesində də, istirahət edərkən də bir sözlə bütövlükdə məişətimizdə davranışımıza və nümunəvi ünsiyyət saxlamağımıza fikir verməliyik ki, uşaqlarımız yeniyetmə gənclərimiz bizdən müsbət nümunə götürə bilsinlər.

Elə ölkə və şəhərlər var ki, orada kiçiklər böyüklər oturmağa yer verəndə onlar əsəbiləşirlər və bunu təhqir kimi qəbul edirlər. Ancaq bizim şəhərlərdə qeyri-azərbaycanlıların bir çoxu belə təklifləri qəbul edir və özləri isə belə şəraitə heç vaxt yer verməyə məhəl qoymurlar. Hətta yanında oturan qeyri-azərbaycanlı yeniyetməni və ya gənci də başqalarına yer verməyə qoymurlar. Elələri bu barədə yaxşıca düşünməlidirlər.

Adam var saqqız çeynəyə-çeynəyə danışır, bu zaman sözləri də eybəcər tələffüz edir və bunu normal sayır. Adam da var ictimai yerlərdə, xüsusən də danışanda saqqız çeynəməyi ədəbsizlik hesab edir.

Adam var ictimai yerlərdə uzun-uzadı, həm də bərkdən telefonla danışır. Düşünmür ki, belə hərəkət ətrafdakıları narahat edir. Elələri də var ki, hətta zəruri telefon zənginə «avtobusdayam, düşəndə zəng edərəm», – deyə lakonik cavab verməklə öz davranış mədəniyyətini nümayiş etdirirlər.



Artıq mədəni ünsiyyət, mədəni rəftar sivil ölkələrdə həyat tərzinə çevrilmişdir. Xoş söz, xoş rəftar adamların əhval-ruhiyyəsinə, ovqatına xoş təsir bağışlayır. Londonda uşağı arabacıqda gəzdirərkən yaxından keçənlər uşağa diqqət göstərirlər, gülümsəyirlər. Münxendə axşam saat altıdan sonra yüksək musiqiyə qulaq asmaq, iyi kənara yayılan xörək bişirmək qəbahət sayılır. Bəs, bizdə necədir? Bizdə isə işdən sonra səs-küylü təmir işləri görmək, həyətdə hamının gözü önündə kabab bişirmək normal sayılır. Hətta gecə yarısı avtomobillərin qulaqbatıran siqnalları, maqnitafon səsləri, səsgücləndiricilərdən eşidilən bayağı mahnılar körpələrin, qocaların, xəstələrin narahatlığını səbəb olur. Bəs körpə uşaqların vaxtında yatması, xəstə adamların əsəbiləşməsi, təzyiqin və nəbzin yüksəlməsi görəsən bələlərini narahat etmirmi? Bunlar nəzərə alınırmı?! Əlbəttə yox!

Həm davranış tərbiyəsinin, həm də ünsiyyət tərbiyəsinin, ümumən tərbiyənin bünövrəsi ailədə qoyulduğu üçün bu bünövrənin möhkəmliyi şəxsiyyətin həyat tərzinə mühüm təsir göstərir. O da sirr deyil ki, bir çox ailələrdə valideynlərin özlərinin tərbiyəsi, rəftarı, o cümlədən ünsiyyət və davranışları lazım olan səviyyədə deyil. Onların özlərinin maarifləndirilməsinə ehtiyac duyulur. Belə bir təqdir ortaya sual çıxarır, bəs, bu maarifləmə hansı formada olmalıdır və kimlər tərəfindən aparılmalıdır? Bax, bu, sual pedaqoji ictimaiyyəti ciddi düşündürməlidir.

**Ədəbiyyat**

1. N.M. Kazımov. Məktəb pedaqogikası. Bakı: OKA Ofset, 2011.
2. F.B. Sadıqov. Pedaqogika. Bakı: Adiloğlu, 2014.
3. A.N.Abbasov. Pedaqogika. Bakı, 2013.
4. A.S. Makarenko. Seçilmiş əsərləri. Beş cilddə. M., 1971.

**Воспитание поведения и общения**
*Резюме*

В статье освещаются некоторые вопросы воспитания поведения и общения. Рассматривается поведение подростков и молодежи в общественном транспорте и других общественных местах. Указывается на важность и необходимость соблюдения нравственных ценностей в обществе. Автор приходит к выбору о том, что одним из критериев воспитанности является поведение и общение подростков и молодежи в общественных местах.

**Upbringing behavior and communication**
*Summary*

The article is devoted to some questions of upbringing, behavior and communication. In this article is considered behavior of teenagers and youth in the public transport and in other public places. Also there is indicated importance and necessity of moral values in society. The author comes to the conclusion that one of the civility criteria is behavior and communication of teenagers and youth in the public places.

# TƏHSİL PROSESİNDƏ YENİ TƏRBİYƏ TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ZƏRURİLİYİ

**Rəsul Əliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*elmlər doktoru proqramı üzrə dissertant*
*ARTPİ*

Yeni pedaqoji təfəkkür şəraitində tələbə tərbiyə prosesinin mərkəzi fiquruna çevrilib. Tələbələr ali məktəbin pedaqoji kollektivlərinin, o cümlədən müəllimlərin diqqətindədir, onların yaxşı mütəxəssis kimi yetişmələrin ilə yanaşı, Vətənin ləyaqətli övladları, nümunəvi şəxsiyyət kimi formalaşmalarına qayğı göstərilir. Yeni tərbiyə texnologiyaları bu sahədə öz köməyini göstərir.

Bu məqsədlə tərbiyələndirici, təhsilləndirici, inkişafetdirici tədbirlərin keyfiyyətinə, müsbət təsirinə fikir verilməli;

İkinci, tələbə oğlan və qızlarda mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi üçün əlverişli şərait yaradılmalı;

Üçüncüsü, ali təhsil müəssisəsinin pedaqoji kollektivlərinin səyləri əlaqələndirilməli və istiqamətləndirilməli;

Dördüncüsü, fakültə elmi şurasında ali məktəbdə tərbiyə prosesi və tələbələrin tərbiyəlilik səviyyəsi ilə bağlı müzakirələr aparılmalı, fəaliyyət planları hazırlanmalıdır;

Beşincisi, milli tərbiyə ənənələrinə üstünlük verilməli, islam dəyərlərindən faydalanma lazımdır.

Altıncısı, tələbələrlə tərbiyə işinin təşkilinə və müvəffəqiyyətlə həyata keçirilməsinə təkmil pedaqoji rəhbərlik olmalıdır;

Yeddincisi, tərbiyə metodlarının və vasitələrinin təkmilləşdirilməsi diqqət mərkəzində dayanmalıdır;

Səkkizinci, tərbiyənin prinsiplərinə əməl olunmalıdır və s.

Bütün bunlarla yanaşı, tələbələrin özünütəhsilinə tələbat yaradılmalıdır.

Bütün bu işlər təlim prosesində, ayrı-ayrı fənlərin tədrisi prosesində və auditoriyadankənar tədbirlərdə reallaşa bilər. Hər bir tələbə özünün mənəviyyatının, əxlaqi simasının, daxili aləminin zənginləşdirilməsi, tərbiyə olunması qayğısına qalmalıdır. Bunun üçün, yəni istər tərbiyə, istərsə də özünütərbiyə prosesinin səmərəliliyinə nail olmaqdan ötrü ilk növbədə gənclərdə mənəvi inamın və bunun əsasında mənəvi əqidənin formalaşdırılması diqqət mərkəzində dayanmalıdır. Başqa sözlə, tələbə hər hansı yönümdə fəaliyyətə qoşulmalı isə, hansısa mənəvi keyfiyyəti özündə inkişaf etdirməli isə, hər şeydən öncə buna inamı olmalıdır.

Elə buradan da tərbiyə texnologiyası meydana gəlir:

a) tələbədə mənəvi inam yaradaraq, bu inamı mənəvi əqidəyə çevirərək tərbiyə prosesini qurmaq;

b) müəllimin tərbiyə prosesində pedaqoji tolerantlıq nümayiş etdirərək, imkan daxilində cəzadan yan qaçması;

c) müəllim-tələbə münasibətlərini düzgün quraraq, tələbə gəncləri tərbiyəlilik səviyyəsini təmin etmək.

Yeni pedaqoji texnologiyalarla iş zamanı tələbənin intellektinə və mədəni səviyyəsinə nail olmaq lazımdır.

İ. Hötenin belə müdrik kəlamı var: "Təkcə bilik almaq kifayət deyil, onu tətbiq etmək lazımdır, Arzu etmək azdır, onu yerinə yetirmək lazımdır".

Həmin sözlərdə həqiqət var.

Tərbiyə texnologiyası bir tərəfdən tərbiyəliliyə dair məlumatın, nəsihətin. tövsiyənin çatdırılmasının metod və vasitələrinin məcmusu, digər tərəfdən müəllimin zəruri texniki və informasiya vasitələrindən faydalanaraq tələbələrə təsir vasitələri haqqında elmdir. Tərbiyə texnologiyası tərbiyənin qarşılıqlı əlaqədə və qarşılıqlı fəaliyyətdə olan məzmununu, metodlarını və vasitələrini şərtləndirir.

Müəllimin ustalığı ondadır ki, aparacağı tərbiyəvi fəaliyyətin zəruri məzmununu müəyyənləşdirsin, əlverişli metod və vasitələrini tətbiq etsin.

### Ədəbiyyat


1. A.N. Abbasov. Pedaqogika: Dərslik. Bakı: Mütərcim, 2013.
2. H.H. Əhmədov. Pedaqogika: Dərs vəsaiti. Bakı, 2008.
3. Е.В. Советова Эффективные образовательные технологии. Ростов н/Дону: Феникс, 2007.


**Р.С. Алиев**

**Важность использования новых педагогических технологий в образовательном процессе**

*Резюме*

Воспитательный процесс на основе педагогических технологий должен гарантировать достижение поставленных целей. Овладение воспитательными технологиями, умение самостоятельно разрабатывать конкретные воспитательные и образовательные технологии позволяет учителю успешно осуществлять профессиональную деятельность, стать мастером своего дела. Использование воспитательных технологий позволяет наполнить воспитательный процесс конкретным содержанием, обогащают профессиональное сознание воспитателя.

**R.S. Aliyev**

**The importance of using new pedagogical technologies in educational process**

*Summary*

Educational process on the basis of educational technologies should ensure the achievement of goals. The mastery of educational technologies, the ability to independently develop specific educational and training technology allows the teacher to successfully carry out professional activities, to become a master of his craft. The use of educational technology can fill the educational process specific content, enrich the professional consciousness of the teacher.

## KİÇİK YAŞLI UŞAQLARIN MƏNƏVİ MƏDƏNİYYƏTİNİN FORMALAŞMASINDA OYUNLARIN ROLU

**Tahirə Hüseynova,**
*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*
E-mail: huseynovatahire06@gmail.com

***Açar sözlər:*** *məktəbəqədər təhsil, yeni məzmun, pedaqoji proses, inkişafetdirici mühit, inteqrasiya, inkişaf sahələri*
***Ключевые слова:*** *дошкольное образование, новое содержание, педагогический процесс, развивающая среда, интеграция, области развития*
***Key words:*** *preschool education, new maintenance, teaching process, developing environment, integration, areas of development*

İndiki dövrdə kiçik yaşlı uşaqların duyğu üzvlərinin inkişaf etdirilməsi ətrafda baş dəyişikliklərə düzgün reaksiya verə bilməsi, onların əqli tərbiyəsinin inkişaf etdirilməsi üçün səmərəli yollardan istifadə edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün ən mühüm vasitələrdən biri uşaqların oyun fəaliyyətinin sistemli olaraq yaş səviyyəsinə uyğun şəkildə təşkilidir.

Kiçik yaşlı uşaqlarda tərbiyə vasitəsi kimi tətbiq olunan oyunlar və məşğələlər pedaqoji tələblər gözlənilməklə həyata keçirilməlidir.

A.M. Qorki "oyun uşaqların yaşadıqları dəyişməyəcəkləri dünyanı dərk etmələri üçün bir yol hesab edirdi". Oyun uşaq şəxsiyyətinə hərtərəfli təsir edir və bu zaman uşaq təfəkkürü çevik olur. Oyun uşağın duyğularını, qavrayışını, təsəvvürlərini, təxəyyülünü zənginləşdirir.

Uşaqların oyun prosesində əqli qabiliyyətlərinin inkişafına böyük əhəmiyyət verən İtaliya pedaqoqu D.A. Kolotso belə hesab edirdi ki, düzgün seçilmiş və düzgün rəhbərlik edilən oyun zamanı uşağın yerinə yetirdiyi mühakimə və əqli nəticə məhz ona görə böyük tərbiyəvi əhəmiyyətə malikdir ki, bu onun şəxsi təcrübəsindən irəli gəlir. O, uşaqlara mühakimə və əqli mühakiməni hazır şəkildə yürütməyi zəruri hesab edir, müstəqil mühakimə qurmaq əvəzinə mühakimələrin mexaniki təkrarlanmasının əleyhinə çıxırdı (1, 235).

Oyunun təşkili və keçirilməsi prosesində məktəbli şəxsiyyətinin bir sıra cəhətləri təşəkkül tapır. Müəyyən qaydalara əməl edən uşaqda mütəşəkkillik, təmkinlilik, düzlük və doğruçuluq kimi keyfiyyətlər tərbiyə edilir.

Oyun prosesində müəllim uşaqları müşahidə etməli, onların qarşılıqlı münasibətlərini hansı mənəvi əsaslar üzərində qurulduğunu aşkara çıxarmalı, düzgün humanist münasibətlərin formalaşmasına fəal təsir göstərməlidir.

Kiçik yaşlı məktəblilərlə aparılan söhbətlər hərəkətli oyunların səmərəli formalaşmasından biridir. Uşaq oyunlarının tədqiqatçıları onların mənəvi inkişafındakı rolunu müxtəlif nöqteyi-

nəzərdən qiymətləndirirlər. Məsələn, onlar oyunları uşaqlarda təxəyyülün, fantaziyanın inkişafı, bədii vasitələrlə uşağın daxili aləminə təsiri, yaşıdlarla müsbət qarşılıqlı münasibətin yaranması, milli-mənəvi keyfiyyətlərin formalaşması baxımından qruplaşdırırlar. Bununla onlar oyun prosesində uşaqların hərtərəfli inkişafı, onun həm psixi, həm də fiziki cəhətdən kamilləşməsi üçün əlverişli şərait yaratmış olurlar.

Millətin gələcəyi xalqın düzgün maariflənməsindən asılıdır. Elə buna görə də hər bir müəllim təlimin səmərəliliyini yüksəldərək, müstəqil və yaradıcı düşüncəyə malik olan, hərtərəfli inkişaf etmiş, azad və mütərəqqi fikirli humanist insan yetişdirilməlidir.

Belə ki, uşaq hadisələrə münasibətini daha ətraflı izah etmə qabiliyyətinə yiyələnir. Bu da müəllimə uşaqların mənəvi tərbiyəsinin uğurlu təşkili üçün əsaslı imkan yaradır.


**Ədəbiyyat**

1. Колотко Д.А. Детские игры и их психологические значения. Пер.Ситал 1911.
2. Quliyeva B. Ailədə az yaşlı uşaqların mütəhərrik oyunlarının təşkili və məzmunu // Məktəbdə bədən tərbiyəsi, 1977



**Роль игр в процессе формирования нравственной культуры у малолетних детей**

*Резюме*

Участие родителей в детских играх имеет большое воспитательное значение. Играя вместе с ребёнком, родитель имеет возможность узнать его всесторонне. Во время игры ясно выясняются интересы и наклонности ребёнка к чему-либо, его умения, особенности его памяти, уровень развития воображения и силы воли и т.д.

**The role of games in the formation of spiritual culture of small children.**

*Summary*

The participation of parent in the child games is of great importanse. Playing with children parents have chance to learn their children in detail. During the game interest and intension of child to something, his mind, memory features, development level of his imagination and will and so on are cleared.


## ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR


**Firidə Müstafayeva,**
*AMİ-nin Şamaxı filialının kafedra müdiri*
E-mail: firide_mustafayeva.57@ mail. ru



*Açar sözlər: müəllim, təhsil, şagird, şəxsiyyət, ailə tərbiyəsi*
*Key words: teacher, education, student, person, family education*
*Ключевые слова: учитель, образование, ученик, личность, семейное воспитание*


Müstəqil Azərbaycanın ictimai-siyasi və mədəni həyatında gedən dəyişikliklər qlobal dünyanın tələblərinə uyğun olaraq davamı etdirilir və ölkənin təhsil sistemi yenidən formalaşdırılır. Bu sistemin başlıca məqsədi Azərbaycan dövləti qarşısında, öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratik prinsiplərə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir.

Qloballaşma şəraitində gənc nəslin təlim tərbiyəsi, təhsili və bu yönümdə şəxsiyyətin formalaşması xüsusilə aktuallaşır. İndi insanlardan daha çox risk etmək, rəqabətə tab gətirmək, işgüzar qarşılıqlı ünsiyyət və münasibətlər qura bilmək, tolerantlıq və s. keyfiyyətlərin daşıyıcısı olmaq tələb olunur.



Hazırkı dövrdə tələblərinə cavab verən, müasir elm və texnikalara yiyələnən hərtərəfli, intellektual səviyyəli, yeni pedaqoji və psixoloji təfəkkürə malik, gələcəyimiz olan yeni nəslin formalaşması üçün müasir olan bütün vasitələrdən, üsullardan istifadə etmək tələb olunur.

Şəxsiyyətin formalaşması dedikdə hər şeydən əvvəl təbii, bioloji və anadangəlmə amillərlə xarici, yəni təlimin, tərbiyənin təlimin və sosial mühitin qarşılıqlı təsiri nəticəsində baş verən inkişaf prosesi nəzərdə tutulur.

İnsanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər meydana gəlmişdir. Əsrlər boyu bu amillər içərisində üstünlük irsiyyətə verilmiş və belə fikir irəli sürülmüşdür ki, valideynlərdə müsbət və mənfi nə varsa övladlara keçir. Zəka sahibləri həmin nəzəriyyəni qəbul etməklə yanaşı tərbiyəyə böyük əhəmiyyət verirdilər.

Psixoloqların fikrincə, hər bir fərdin, şəxsiyyətin formalaşmasında üç mühüm amil əsas rol oynayır ki, bunların da hər biri şəxsiyyətin vücuda gəlib möhkəmlənməsində müstəsna əhəmiyyətə malikdir. Bu üç amil aşağıdakılardır: 1. İrsiyyət. 2. Təlim-tərbiyə. 3. Yaşadığı mühit. Bu insan ruhiyyəsi, xüsusiyyətləri və təfəkkür tərzi kimi üç təlim birləşməsindən əmələ gələn üçbucağa oxşayır. Təhsildə – müəllim, şagird, valideyn üçbucağı. Bu üçlük arasında rabitə möhkəm və sıx olduqda təlim-tərbiyə prosesində uğur əldə etmək olur. Cəmiyyət üçün şəxsiyyətin formalaşması prosesi ailədən başlayır. Bu yolda insan göstərdiyimiz üçbucağın əhatəsində olur. Əgər üçbucaqlar zəif qurularsa şəxsiyyət də düzgün formalaşmır.

Elmin təhsilin, tərbiyənin böyük gücünə inanan və onu təbliğ edən Nizami Gəncəvi bəzən irsiyyətin mütləq təsirini inkişafını əsas amili kimi götürürdü.

İnsan ayrı-ayrı yaş dövrlərində fiziki, psixi və mənəvi cəhətdən müxtəlif xüsusiyyətlərə malik olur, onun xarakterində müəyyən yeniliklər, dəyişikliklər yaranır. Buna görə də cəmiyyətin üzvü olan insan bilməlidir ki, hansı şəraitdə və hansı amillərin təsiri altında inkişaf edir, onun inkişafında irsiyyətin rolu nədən ibarətdir.

İnsanın ictimailəşməsi, onun insanlıq dünyasına daxil olması ailədə başlayır. Ailənin rolu şəxsiyyətin formalaşmasında böyükdür. Uzun illərin müşahidələri nəticəsində sübut olunmuşdur ki, ailə necədirsə, orada böyüyən uşaqlarda elədir. Uşaq üçün ailə eyni zamanda həm yaşayış, həm də tərbiyə mühitidir: hər bir uşağın erkən yaşayış dövründə ailənin onun tərbiyəsinə təsiri bütün digər tərbiyə vasitələrini əhəmiyyətli dərəcədə üstələyir. Bütün bu deyilənlərdən belə bir nəticə çıxarmaq olar: cəmiyyətin ən kiçik zümrəsi olan ailə hər bir millətin, dövlətin taleyində çox mühüm rol oynayır.

Azərbaycan xalqı üçün ailə, onun saflığı, təmizliyi həmişə çox böyük önəm daşımış müqəddəs bir ocaq kimi qorunmuş, adına hər hansı bir ləkənin vurulmasına imkan verilməmişdir: abır, həya, namus, ismət hər bir azərbaycanlının dilində ən dəyərli sözlər kimi səslənmişdir.

Deməli, gələcək cəmiyyətin yaxşı, ya pis olması bu gün ata və anaların uşaqlara verdiyi tərbiyə ilə bağlıdır. Buna görə də onlar cəmiyyət qarşısında çox böyük məsuliyyət daşıyırlar. Övladına tərbiyə verən valideyn heç bir səhvə, boşluğa yol verməməlidir. Zərrə qədər edilən "başı soyuqluq" çox böyük fəsadlara gətirib çıxarır. Tərbiyə olunduğunu zənn etdiyimiz uşaq, gələcəkdə cəmiyyət üçün də böyük yükə çevrilir. Tərbiyə valideynin övlada sevgisindən doğur. İstənilən uşaq onun tərbiyəsi ilə məşğul olmayan valideyni özünə qarşı diqqətsiz hesab edir. Tərbiyədə ciddilik, uşağın fikrində valideynin ona sevgisidir.

Şəxsiyyətin formalaşmasına təsir edən amillərdən biri də təlim və tərbiyədir.

Milli mənəvi tərbiyə və milli mənəvi dəyərlər insanlar arasında münasibətləri tənzimləyir, bir istiqamətə yönəldir.

Pedaqogika tarixinə nəzər salsaq görərik ki, görkəmli pedaqoqlar müxtəlif dövrlərdə öz əsərlərində şəxsiyyətin formalaşmasında müəllim şəxsiyyətinin təsirindən bəhs etmişlər. A.İ. Sertsen göstərir ki, şagirdlərə təkcə müəllimin biliyi deyil, onun şəxsiyyəti də, ruhi keyfiyyətləri də əsaslı təsir göstərir. Doğurdan da, müəllim şəxsiyyəti lazımı səviyyədə formalaşmazsa, cəmiyyətin onun qarşısında qoyduğu sosial sifarişi həyata keçirə bilməz. Hər bir tərbiyə edən öz şəxsiyyətində onun əməyinin xarakterini müəyyənləşdirən psixi keyfiyyətlərini, qabiliyyətlərini, yaradıcı mövqeyini, motivasiyasını və s. formalaşdırmalıdır. Çünki xalq ən "qiymətli xəzinəsini" yəni uşaqları müəllimə etibar edir.

Müəllim öyrədir, tərbiyə edir, şagird öyrənir, müəllimin rəhbərliyi altında bilik bacarıq və vərdişlərə yiyələnir. Bu prosesdə müəllimin eyni zamanda şagird, şəxsiyyətinin təşəkkülü və inkişafına əsaslı təsir göstərir. Bu prosesdə müəllimin şəxsiyyəti nümunəvi təsir göstərərək öz rolunu oynayır. Şagird şəxsiyyətinin formalaşmasında müəllimin pedaqoji bacarıq və qabiliyyətləri də xüsusi təsir göstərir. Bu bacarıqlara məlumatverici, səfərbəredici, inkişafetdirici və istiqamətləndirici bacarıq və vərdişləri göstərmək olar. Eyni zamanda müəllimin təlim və tərbiyə prosesində yüksək göstəriciləri əldə etməsi onun pedaqoji qabiliyyətlərinin inkişafından asılıdır.

Hər bir müəllimin fəaliyyətinin səmərəliliyi üçün qeyd etdiyimiz pedaqoji bacarıq, vərdiş və qabiliyyətlərin yüksək səviyyədə inkişafı zəruri şərtdir. Yalnız bu halda müəllim şagird şəxsiyyətinin müsbət istiqamətdə formalaşmasında nümunə rolunda çıxış edə bilər.

Bu gün qarşımızda duran vəzifələrdən biri hər şagirdin mənəvi siyasi yetkinliyə çatmasına nail olmaqdır. Şagird həm məktəb divarları arasında, həm də internet vasitəsilə dünya kitabxanalarından istifadə etməklə məşğul olur və biliyini zənginləşdirir. Şagirdlərin fasiləsiz olaraq aldıqları biliklər onun ağlının, qəlbinin köklərində dərin iz qoyur, onu daim inkişaf etdirir və şəxsiyyət kimi yetişməsinə zəmin yaradır.

Qloballaşan dünyada həyati bacarıqlara əsaslanan təhsil ilk növbədə təhsilə ahəngdar yanaşmağı öyrənməklə, şagirdləri şəxsiyyət kimi tərbiyyə etmək, formalaşdırmaq məqsədi daşıyır.

**Ədəbiyyat**


1. N. Kazımov. Məktəb pedaqogikası. Bakı, 2005
2. Əliyev B.H, Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008.
3. Mehrabov A.O. Təhsildə qloballaşma pedaqoji problem kimi. "Təhsil problemləri" qəz., № 43-44



**Основные факторы развития личности**

*Резюме*

Статья посвящена теме основных факторов, влияющих на развитие личности. В том числе здесь внимание направлено на роль семьи, школы и социальной сферы при развитии личности.

**The main factors in the formation of personality.**

*Summary*

The article deals with the basic factors for personality formation. Among these factors the role of school, family and social sphere has widely fun analyzed.


## NİZAMİ GƏNCƏVİ ƏSƏRLƏRİNDƏ HÜNƏR, CƏSARƏT, MƏRDLİK TƏRBİYƏSİ ÜZRƏ APARILAN İŞLƏRİN ŞƏXSİYYƏTİN FORMALAŞMASINA TƏSİRİ


**Şəhla Süleymanova,**
*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi*
məhəmməd1804@box.az



*Açar sözlər: cəsarət, mərdlik, hünər, tərbiyə, şəxsiyyət, əxlaq*
*Key words: courage, bravery, boldness, upbringing, personality, moral*
*Ключевые слово: Смелостиь, мужество, храбрость, воспитание, личность, нравственность*


Nizami Gəncəvi yazdığı əsərlər vasitəsilə gənc nəslə mənəvi saflıq, daxili təmizlik, mənalı yaşayış, ayıq-sayıqlıq, vətən və xalq yolunda faydalı işlər görmək, doğruluq, mərdlik, dostluq və yoldaşlığa sədaqət, çalışqanlıq, əzilənlərə kömək, insanlarla yaxşı rəftar, cəsarətli olmaq, hünər göstərmək və s. kimi nəcib əxlaqi keyfiyyətlər aşılamağa çalışırdı, gəncləri haqqı nahaqqın ayağına verməməyə, ədalətli, doğruçul, hörmətcil, ağıllı olmağa çağırırdı. Yalançılığın insanı hörmətdən saldığını, düzgünlüyün isə həmişə onu hörmətə mindirdiyini söyləyən şair gəncliyi mərdlik və cəsarətli olmağa ruhlandırırdı.



N. Gəncəvinin ədəbi irsində təhsil, təlim, tərbiyə və insan şəxsiyyətinin formalaşması məsələləri mühüm yer tutur. Nizami eyni zamanda Azərbaycanın ilk klassik pedaqoqlarından biri olmuşdur. O, "Xəmsə"də, eləcə də qəzəl, qəsidə və rübailərində təhsil, təlim və tərbiyənin əsas problemləri ilə bağlı elə mütərəqqi fikir və ideyalar irəli sürmüşdür ki, doqquz əsrə yaxın bir zaman daxilində öz aktuallığını qoruyub saxlamışdır.

N.Gəncəvi öz oğlunun timsalında gənc nəslə tövsiyə edir ki: insan cavanlıq yaşından qeyrətlə çalışmalı, hünər göstərməlidir; atasının səbəbinə deyil, öz hünəri ilə uğurlar qazanmağa çalışmalıdır;

Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. Hümanist şairin qəhrəmanları cəsarətləri, hünərləri ilə ədalət, xalq xöşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparırlar. İnsan şəxsiyyətinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır.

Dahi Nizaminin yaratdığı müsbət qəhrəmanların hamısı (Xosrov, Fərhad, Bəhram, İsgəndər, Nüşabə və s.) özlərinin ağıllı və mənəviyyatca zəngin olması ilə yanaşı, fiziki bacarıq və keyfiyyətləri : at çapmaları, ox atmaları, hünərpərvərliyi, cəldliyi, çevikliyi, güclülüyü, cəsarəti, dözümü və s.ilə fərqlənirlər. Fiziki bacarıq və keyfiyyətlərdən bəhs edərkən, müəllim, şairin daha çox üstünlük verdiyi at çapmaq, ox atmaq, çövkan oynamaq, cəldlik, çeviklik, dözümlülük cəsarət, hünər və s. üzərində xüsusi dayanır, fikrini əsaslandırmaq üçün qəhrəmanların timsalında müvafiq misralara istinad edir. Məsələn, aşağıdakı bənddə şair insanları qorxaqlığa son qoymağa, cəsarətli, mərd və hünərli olmağa çağırır:

Xəzan vaxtı yelkən aç könül ümmanında sən,
Qorxu-təlaş kürəsi qalama canında sən...
Fələklərə yüksəldər hünər, cəsarət səni,
Hünərsiz alçalarsan, tapar əsarət səni.

Təsadüfi deyil ki, onun sevə-sevə yaratdığı qadın obrazlarının əksəriyyəti (Məhin Banu, Şirin, Nüşabə və s.) dərin zəkası, mənəvi zənginliyi və gözəlliyi ilə yanaşı, fiziki bacarıq və keyfiyyətləri, hünərli və cəsarətli və güclü olması ilə kişilərdən heç də geri qalmırlar.

Bu qəhrəmanların timsalında biz qızlarımıza, oğlanlarımıza onlar kimi qeyrətli olmağı, vətəni sevməyin, vətəni qorumağın hünərli, cəsarətli, mərd olmağın sayəsində olduğunu bu nümunələr vasitəsilə öyrədə bilərik.

Nizami Gəncəvi insanlarda hünər, cəsarət, mərdliyin yüksək bir keyfiyyət olduğunu göz önünə gətirmiş, xalq hikmətləri ilə zənginləşdirmişdir. "Hünərə göz yummaq deyil bir hünər" fikrini söyləyən dahi şair insanlara ikiüzlülüyün, cəsarətsizliyin heç də yaxşı bir keyfiyyət olmadığını göstərməyə çalışmışdır. O, bununla insanlara doğru bir şəxsiyyət olmağı təlqin etməyə çalışmışdır.

Heç qorxma acizə zülm edənlərdən,
Yoxsa qul olarsan onlara hökmən.

Həyatdan insanın qazancı onun insan olmasındadır. Əsl insan keyfiyyətlərinə yiyələnmək, şəxsiyyət kimi başqalarına örnək olmaq hər birimizin aliliyi olardı. Nizami Gəncəvi hələ o dövrdə ədalətsizliyin, bərabərsizliyin hökm sürdüyü bir dövrdə bu sözləri deyibdir. O, insanlara kimsənin minnətində olmamağı məsləhət görmüş və fikirlərini yazıya köçürmüşdür.

Hünər, cəsarət, mərdlik, iradəli olmaq kimi müsbət keyfiyyətlər cəmiyyətin inkişafında, təşəkkülündə, insanların vətənpərvərlik hissinin güclənməsinə gətirib çıxarır. Şairin insanlığın ən yüksək keyfiyyəti olan mərdlik haqqında dediyi fikirlərə nəzər salsaq qiymətli, dəyərli çox şey tapa bilərik.

Mərdə təmiz ad candan əfzəldir,
Ləkəli qalmaqdan ölüm gözəldir.

Hər bir insanın, xüsusilə uşaqların Nizami Gəncəvi nəsihətlərinə böyük ehtiyacı vardır. Hələ neçə əsrlər yaşayacaq bu fikirlər insanların tərbiyəsində xüsusi rol oynayacaqdır.

**Ədəbiyyat**


1. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, 1982.
2. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, 1983.

**Sh. Suleymanova**

**Influence of boldness, courage, bravery upbringing of Nizami Ganjavi works to the personality formation**

***Summary***

In the article, deals with educational singnificance of Nizami Ganjavi works and influence of qualities like courage, bravary, boldness to the personality formation

**Ш. Сулейманова**

**Влияние воспитания мужества храбрости в формирование личности в произведениях Низами Гянджеви**

***Резюме***

В статье говорится о воспитательном значении произведений Низами Гянджеви, об их влиянии на формирование таких личных качеств, как мужеств, храбрость.

# GƏNC AİLƏLƏRDƏ UŞAQLARIN TƏRBİYƏSİ

**Kifayət Əhmədova,**
*Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi*

***Açar sözlər:** ailə, ata, ana, təlim, tərbiyə, uşaq*
***Key words:** family, father, mather, training, education, child*
***Ключевые слова:** семья, отец, мать, обучение, оброзование, ребенок*

Övladən dünyaya gəlişi ilə insan ömrünün əsas mərhələsi olan valideynliyə qədəm qoyur, insanın şəxsi keyfiyyətləri ailə münasibətləri, ailə münasibətləri, yaşam tərzi daha da inkişaf edir və təkmilləşir, məsələn; övladın sağlam böyüməsi üçün evdə lazımi şərait yaradılır, övlada yaxşı nümunə göstərmək üçün valideyn öz davranışında əxlaq normalarına uyğun müəyyən düzəlişlər edir, övladın tərbiyəsindəki keyfiyyəti təmin etmək məqsədilə savadını, dünyagörüşünü artırır, valideyn öz sağlamlığına daha da ciddi yanaşır, övladı maddi cəhətdən təmin etmək məqsədiləəmək fəaliyyətini daha da inkişaf etdirir, təkmilləşdirir və s.

Ailədə müxtəlif yaşlı uşaqların olması bu məsələni daha da dərinləşdirir, onlara qayğının da çox və müxtəlif olması tələblərini yaradır. Ailə problemlərinin çox hissəsi uşaqlarla əlaqədar olur. Bütün bunlar isə ər-arvadın istək və arzularını birləşdirib xoşbəxt ailə formalaşdırır. Təkuşaqlı ailələrdən fərqli olaraq çoxuşaqlı ailələrin bir çox müsbət cəhətləri var. Belə ailələrdə optimizm, xeyirxahlıq, fərasətlilik, şən həyat tərzi və birlik hökm sürür. Uşağa məhəbbət böyükləri yalandan, ədalətsizlikdən, kobudluqdan, bədbinlikdən qurtarır. Uşaq ata və ananın arasında sanki canlı körpədir. Deməli, övladın dünyaya gəlişi ailəyə inkişaf gətirir. Hər ailədən başlanan belə inkişafın vəhdəti bəşəri inkişafı təmin edir. Elə buna görə də övlad Allahın ailəyə "xeyir-duası" kimi qəbul olunur.

Hər kəsin cəmiyyət və təbiət qarşısında valideynlok borcu var. Valideynlik borcunun əsasını normal həyati fəaliyyət göstərmək qabiliyyətinə malik olan nəslin yetişdirilməsi, tərbiyəsi təşkil edir. Valideynlər övladlarının gələcək psixoloji portreti ilə bağlı müəyyən arzular qurur, təsəvvürlər formalaşdırır və tərbiyə prosesini həmin obrazın reallaşdırılması istiqamətində qururlar. Tərbiyənin uğuru isə tələbkarlıq, kommunikativlik, emosional yaxınlıq və tez-tez nəticəni yoxlayan müəyyən üsullar kompleksinə əsaslanır. Hər valideynin özünəməxsus tərbiyə üslubu mövcuddur:

- Avtoritet – övladın şəxsiyyətinə hörmət üzərində qurulmuş tərbiyə üsulu;
- Avtoritar – valideyn-övlad münasibətlərində kəskin sərhəd saxlamaqla həyata keçirilən tərbiyə üslubu;
- Liberal – mehriban valideyn-övlad münasibətləri və zəif tərbiyə üslubu;
- İndifferent (lat: indifferens) – soyuq valideyn-övlad münasibətləri və tərbiyəyə biganə yanaşma.



Uşaqların tərbiyəsi ailənin ən mühüm vəzifələrindən biri sayılır. Uşaq ilk növbədə ailədə tərbiyə alır. Onun sonrakı taleyi, həyatda tutacağı mövqe həmin tərbiyədən çox asılıdır. Uşaqlara ictimai borcu şüurlu mənimsətmək, ictimai mənafeyin pozulması hallarına qarşı mübariz, ədalətli, əməksevər ruhda həyata vermək valideynin vətəndaşlıq borcuna sadiq qalması ilə şərtlənir, onun özünün cəmiyyətə münasibətini, cəmiyyətdə tutduğu mövqeyi müəyyənləşdirir.

Ailənin tərbiyəsi funksiyaları olduqca mühümdür. Ailənin, gənc nəslin tərbiyəsinə təsiri xüsusilə böyük rola malikdir. Müasir təlim-tərbiyə prosesinin qarşısında duran mühüm vəzifələrdən biri gənc nəsli daimi inkişafda olan cəmiyyət üçün layiqli vətəndaş kimi formalaşdırmaqdır. Ona görə də ailənin tərbiyəvi funksiyası üç cəhətlə bağlıdır: a) tərbiyənin ailənin yaşlı üzvlərinə verilməsi; b) ailə kollektivinin özünün ailənin hər bir üzvünə uzunmüddətli, məqsədyönlü sistemli və müntəzəm tərbiyəvi təsiri; c) uşaqların öz valideynlərinə daimi təsiri. Deməli, analıq və atalıq məhəbbətinin vəhdəti valideyn-övlad münasibətlərini sağlamlaşdırır və ümumilikdə ailənin psixoloji iqliminə müsbət təsir göstərir: ailədaxili kollektivçilik, təmənnasız bir-birinə yardım etmək, emosional məmnunluq, inam, qürurluq, məsuliyyətlilik və digər ailə dəyərlərini, eləcə də üzərində inkişaf edən ailə mədəniyyətini formalaşdırır, təkmilləşdirir.

Valideyn məhəbbətini düzgün şəkildə övladına çatdırmaqla övladı tərəfindən özünə məhəbbət, qayğı, hörmət və ehtiram formalaşdırır.

# "MUĞAN XAN" ƏFSANƏSİ AZƏRBAYCAN VƏ TÜRK FOLKLORUNUN DƏYƏRLİ QAYNAQLARINDAN BİRİ KİMİ

**Cem Söker,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*GDU*
E-mail: cemegede@hotmail.com

***Açar sözlər:** Əfsanənin baş qəhrəmanı, Azərbaycan folkloru nümunəsi, Ağ Div, Qara Quş, 7 başlı*
***Ключевые слова:** главный герой легенды, образец Азербайджанского фольклора, легенда, белый великан,, Черная птица, Семиглавый дракон,*
***Key words:** The main hero of legend, an example of Azerbaijan folklore, White Demon, Black Bird, Seven-headed dragon*

Folklor materiallarının hər bir nümunəsi yetişən nəslin hərtərəfli inkişafına yardımçı olur, onların biliklərinin zənginləşməsinə bacarıq və vərdişlərinin inkişafına təkan vermiş olur. Bu baxımdan Türkiyə və Azərbaycan folkloru nümunələrinin birgə imkanlarından istifadə etməklə çox faydalıdır. Belə yanaşma şübhəsiz məktəblilərin şəxsiyyətyönümlü inkişafına mühüm təsir göstərəcəkdir. Ona görə ki, Türkiyə və Azərbaycanın milli-mənəvi dəyərlərində isti bir yaxınlıq, əxlaqi-mənəvi bir oxşarlıq vardır. Həmin milli mənəvi dəyərlərdən biri olan folklor materialları içərisində Azərbaycan folklorunun layla, bayatı, ağı, atalar sözü, məsəl, sayaçı sözləri, halovarlar, rəvayətlər, əfsanələr, nağıllar, dastanlar kimi nümunələrinin Türkiyə folklorunun mani, masal, hikaye, efsane, menkabe, taklid, fikra, tekerleme, bilmece, ata sözü, deyimler, dualar, hal teatrosu, dastanlar, nağıllar kimi nümunələrilə bir doğmalıq təşkil etməsi şəksizdir. Bunların əlaqəli tədrisi məktəblilərin elmi dünyagörüşünü zənginləşdirməklə yanaşı onların öz söy kökünə olan sevgisini artırır. Belə milli-mənəvi dəyərlərlə tanışlıq uşaqlarda öz milli atributlarına olan rəğbət hissini artırır. Onlar öz bayraqlarındakı göz rəng olan türkçülüyü iftixarla müşahidə edir, ona fəxrlə baxır, hətta türk dünyasının sevimli rənglərindən biri olan yaşıl rəngin yəni islamçılığın dəyərini də məhəbbətlə qəbul edir.

Elə folklor nümunələri də var ki, onlar Türkiyənin və Azərbaycanın mənəvi dünyasına işıq salan nümunələr kimi sevilir və seçilir. Belə nümunə seçilməsi, tədris prosesinə gətirilməsi, onlardan dərsdən və məktəbdənkənar tədbirlərdə istifadə edilməsi hər iki xalqın yetişən nəslinin nümayəndələri üçün bir neçə cəhətdən önəmli hesab olunur. Belələrindən biri "Muğan xan" əfsanəsidir. Yeri gəlmişkən qeyd etməliyik ki, Azərbaycan folklorunda Muğan əfsanələrinin bir çox

variantları vardır. Haqqında danışılan "Muğan xan" əfsanəsi isə Azərbaycanın ictimai-siyasi və ədəbi mühitində xüsusi yeri, dəsti-xətti olan Mirzə Bala Məmmədzadə tərəfindən qələmə alınmışdır. Əfsanəsi isə Mirzə Bala Məmmədzadə haqqında monoqrafiya hazırlayan dr. Əfqan Vəliyev həmin monoqrafiyaya daxil etmişdir.

Ə. Vəliyev 2006-cı ildə İstanbulun "Doğu kitabxanası"nda "Azərbaycan siyasi düşüncə tarixi və Mirzə Bala Məmmədzadə" adı altında çap etdirdiyi monoqrafiyasında "Mühacirətdəki həyatı və fəaliyyəti" fəslində "Muğan xan" əfsanəsini də vermişdir. Müəllif Mirzə Bala Məmmədzadənin İranda mühacirətdə olduğu illərdə topladığı folklor materialları barədə məlumat verir. Hətta "Muğan xan" əfsanəsi nəql edən yaşlı bir insanın haqqında da söhbət açır. Müəllif 1918-ci ildə Şərqdə ilk respublika yaradaraq özlərinə tarixən yazan, azərbaycanlılardan biri olan Mirzə Bala Məmmədzadə bolşeviklərin təzyiqinə dözməyərək digər siyasi xadimlər kimi Azərbaycanı tərk etmiş və İrana gedərək bir müddət orada mühacir həyatı keçirmişdir. Dr. Əfqan Vəliyev "Azərbaycan siyasi düşüncə tarixi və Mirzə Bala Məmmədzadə" monoqrafiyasında Vətənini tərk edərkən böyük mücahid vaxtilə Şirvan elindən köç edərək İranda məskən salan Azərbaycan türklərinin həyat tərzini, məişətini, etnoqrafik təsəvvür yaradan görüntüləri, Azərbaycan folkloruna münasibətlərini qələmə almışdır. Müəllif göstərir ki, Mirzəbala Məmmədzadə İranda mühacirətdə olarkən Azərbaycanın ən qədim və ən köklü sülaləsindən Şirvanşahlarla yaxından təmasda olmuşdur. "Muğan Xan" əfsanəsini Azərbaycanın həm tarixi faktı, həm ədəbiyyatı nümunəsi, həm də folklor materialı kimi təhlilə cəlb edən müəllif göstərir ki, əfsanəni qələmə alan Mirzəbala Məmmədzadə İranda yaşayarkən əfsanə ilə bağlı apardığı tədqiqatlarını da tarixi faktlar kimi qeyd etmişdir.

Rəvayətə görə, Muğan Xanın vicudundakı ruh ölməz ruhdur, onun bədənindəki ayətlər onu fəlakətlərdən qoruyur, onun altındakı dəmir at müqəddəs bir məxluqdur. Onun əlindəki qılınc sehrlidir. Onun qolundakı tükənməz , əlindəki sehrli qılıncını hələ ki, əlində saxlayır. Muğan Xan işıqlı dünyaya dönən kimi məmləkətdə əbədi sülh olacaq. Çünki dəmir qanadlı atın belində oturan, əlində sehrli qılınc tutan, əfsanəvi gücə malik olan məğlubedilməz Muğan Xanın məmləkətinə heç kəs bata bilməz (Bax. dr. Afgan Veliyev. Azerbaycan Siyasi Düşünce Tarihi ve Mirza Bala Mehmetzade, 1898-1959, Türkiye, Doğu Kütübhanesi, İstanbul, 2006, s. 103-112).

Göründüyü kimi, "Azərbaycanda siyasi düşüncə tarixi və Mirzə Bala Məmmədzadə" kitabının müəllifi dr. Əfqan Vəliyev həm Mirzə Bala Məmmədzadənin folklor nümunəsini qələmə alma tərzini, həm müxtəlif illərdə Şimali Azərbaycandan Cənubi Azərbaycana köç edərək qədim türk torpaqlarındakı yaşam tərzi, qədim türk torpaqlarının adlarının, insanların məişətinin, adət-ənənələrinin təqdim olunması tərzi elmi-pedaqoji cəhətdən mühüm əhəmiyyət kəsb edir. Birincisi, ona görə ki, bir əfsanənin təqdimatında oxuculara (məktəblilərə) Səlcuqlar, Elxanilər, Atabəylər, Şirvanşahlar, Səfəvilər dövrünü xatırlatmaq; Urum şəhəri, Urmiyə gölü, Maku-Ovacıq-Xoy tayfalı, Sulduzdakı türk tayfalarının Qarapapaqlar adlandırılması ilə bağlı informasiyalar oxucu şagirdlərin yurd yerlərilə bağlı biliklərini genişləndirir. İkincisi, əfsanənin qoçaqlıq, qəhrəmanlıq, igidlik, əyilməzlik, vətənpərvərlik, vətəni yad nəzərlərdən qorumaq, mübarizlik, rəşadətlilik, dostluq, qardaşlıq, yoldaşlıq, etibarlılıq, xalqa məhəbbət, torpaq uğrunda canını əsirgəməmək kimi əxlaqi normaları məktəblilərin əxlaqi-mənəvi cəhətdən zənginləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Üçüncüsü, əfsanənin Türkiyədə nəşr edilməsi türk oxucusuna təqdim edilməsi "bir millət, iki dövlət" devizinin təbliğinə şərait yaratmasını da yaxşı hal kimi qeyd etməliyik. Dördüncüsü, əfsanənin Türkiyənin və Azərbaycanın ümumtəhsil məktəbliləri üçün dəyərli olması, hər iki xalqın övladlarının vahid türkçülük ideyası ətrafında birləşməsinə köməklik göstərə biləcəyini də qeyd etmək lazım gəlir.

Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan və Türkiyə türklərinin hər birinin folklor nümunələrinin təlim prosesinə gətirilərək təhlilə cəlb edilməsi, dərsdənkənar tədbirlərdə müzakirə edilməsi zamanı bu iki xalqın adət-ənənələrində, yer-yurd adlarında, əxlaq normalarında, mənəvi keyfiyyətlərində, dövlət atributlarında olan oxşarlıqların, doğmadığı özündə ifadə edən əlamətlərin uşaqlara çatdırılması onlarda sağlam ruhlu ümumtürk məfkurəsinin yaranmasına və hərtərəfli inkişaf etmiş şəxsiyyətlər kimi yetişməsinə köməklik göstərəcəkdir.



## Ədəbiyyat

1. Ə. Vəliyev. Azərbaycan Siyasi düşüncə tarixi və Mirzəbala Məmmədzadə, 1998-1959, Türkiyə, İstanbul, 2006.

2. Qədim dövrdən bu günə qədər Türkiyə Türk ədəbiyyatı (tarixi adlar, mətnlər). Türkiyə, Ankara, T.S. Ankara Vahiliyi, Ostim Çıraklı Egitim Mərkəzi Müdürlüyü Mətbəsi, 1999.

3.Osman Nuri Topbaş. Fəzilətlər mədəniyyəti. Bakı: İpəkyolu, 2009.

4. O. Həsənli, K. Camalov. Sosial psixopedaqogikasında istedadlı uşaqlar problemi. Bakı: Elm və Təhsi, 2011.

5. F.B. Sadıqov. Masallı folkloru. II kitab. Bakı: Gənclər, 2013.

Д. Чокер

### ЛЕГЕНДА «МУГАН ХАН» КАК ЦЕННЫЙ ИСТОЧНИК АЗЕРБАЙДЖАНСКОГО И ТЮРКСКОГО ФОЛЬКЛОРА

*Резюме*

В статье дается информация об авторе книги и о жизни и творчестве Мирза Бала Мамедзаде, а также написанной им легенде «Муган хан», о которой он услышал в одной тюркской дереве от старого тюрка.

В статье комментируется победа Муган хана в борьбе с тигром, семиглавым драконом, Белым Людоедом (дивом). Победа освещается на фоне таких моральных норм как смелость и героизм в борьбе и стремление к победе.

C. Soker

### LEGEND "Mughal Khan" AS VALUABLE SOURCE AZERI and TURKIC FOLKLORE

*Summary*

Article written by Azerbaijanis, who graduated in Turkey, who holds a Ph.D. Afgan Veliyev based on the legend "Mugan Khan 'estates in the book" History of the political revival of Azerbaijan and Mirza Bala Mammadzade "published in the Turkish city Stabule.

The article provides information about the author of the book about the life and work of Mirza Bala Mammadzade "and he wrote the legend" Mugan Khan ", which he heard one tree from the old Turkish Turk.

## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNDƏ AİLƏNİN ROLU

**Lətifə Məcidova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant ARTPİ*
E-mail: məcidova.letife@mail.ru

***Açar sözlər:** mənəviyyat, mənəvi-əxlaqi tərbiyə, əxlaqi dəyərlər, məqsədyönlü fəaliyyət, sevgi, hörmət, güvən, yaş xüsusiyyətləri*
***Ключевые слова:** мораль, образование духовное и нравственное воспитание, моральные ценности, целенаправленная деятельность, любовь, уверенность, уважение, особенности возраста, молодой школьник*
***Key words:** morality, spiritual and moral upbringing, moral values, purposeful, activity, love, respect, confidence, features of age young schoolboy, features of age*

Şagirdlərdə mənəvi-əxlaqi tərbiyə və onun inkişafı ailədə formalaşır. Ailə nədir? Ailə insanların bir-biri ilə qurduğu münasibətlərin ən qədim formalarından biridir. Ailə ata, ana və uşaqlardan ibarət ən kiçik sosial qurumdur. Ailə ata-ana və övladların qarşılıqlı sevgisi ,hörməti əsasında mövcuddur. Ailələrin özünəməxsus qayda-qanunları, əxlaqi-mənəvi dəyərləri var. Bəzən ailəni bir dövlətlə müqayisə edirlər.

Uşaqların tərbiyəsi körpəlikdən başlanır. Tərbiyə -şəxsiyyətin inkişafına ,dünyagörüşünün formalaşmasına yönəlmiş məqsədyönlü fəaliyyətdir. Tərbiyədə fasilə yoxdur: o, hər gün, hər an hətta tərbiyəçi (valideyn) bilavasitə olmadığı dövrdə də davam edir. Tərbiyə insanın şəxsiyyətinin inkişafına, onun müasir mədəni dünyagörüşünün formalaşmasına yönəlmiş məqsədyönlü fəaliyyətdir. Məqsədsiz aparılan tərbiyəni əslində tərbiyə adlandırmaq olmaz. İlkin tərbiyənin təməli ailədə qoyulur. Bu tərbiyənin asan növüdür.Tərbiyənin növlərinə yaş həddi qoymaq olmaz. Ailə mühitindən, valideynlərin mədəni səviyyəsindən, məktəb mühitindən, müəllimlərin münasibətindən, sosial-iqtisadi durumdan asılı olaraq ayrı-ayrı adamların ilkin tərbiyəsi körpəlik, yeniyetməlik, gənclik dövründə davam edə və ya xeyli əvvəl başa çata bilər. Bəzən bu iki proses eyni anda davam edir. Tərbiyə əqli tərbiyə, ideya -siyasi tərbiyə, əxlaq tərbiyəsi, əmək tərbiyəsi, estetik tərbiyə, fiziki tərbiyə, mənəvi tərbiyə və başqa sahələrə bölünür. Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsinin formalaşmasında yaş xüsusiyyətləri nəzərə alınmalıdır. onları əhatə edən mühit ailədir. Dövlətin mövcudluğunu qoruyub saxlamaq üçün nizam-intizam ,qanunlar əsas olduğu kimi, ailənin də qorunub saxlanması üçün mənəvi dəyərlər əsasdır. Mövcud ailədə ata-ana övladına nümunə olmağa çalışmalıdır. Əxlaqi dəyərlərin təbliğ olunması vacibdir. Ailə mühiti ilk məktəbdir. Hörmət, kiçiklərə məhəbbət hissini aşılamaq cəmiyyət tərəfindən qəbul edilməyən hərəkətlərin nədən ibarət olmasını övladına anlatmaq valideynin borcudur. Əqli dəyərlərin düzgün təbliğ olunmasında İslam dininin dəyərlərindən istifadə etməklə müsbət nəticə əldə etmək olar. 3-4 yaşlı uşağın davranışı və inkişafı valideynlər tərəfindən izlənilməlidir. Valideynin övladına verdiyi əxlaqi tərbiyə nə məktəbdə nə də cəmiyyətdə verilmir. Valideyn heç vaxt yalan danışmamalı, təhqiramiz ifadələrdən istifadə etməməlidir. Kiminsə qeybətini qırmamalıdır. Mühit və ətrafdakı dostlar düzgün seçilməlidir. Əgər valideyn yaxşı keyfiyyətlər aşılayırsa və ətrafdakılarda tərbiyəsizlik mövcuddursa ,pis yoldaşın təsiri daha güclüdür Valideyn tərbiyəsini yüksək qiymətləndirən Məhəmməd Peyğəmbər demişdir: "Valideynin övladına verdiyi ən qiymətli hədiyyə yaxşı tərbiyəsidir." Mənəvi tərbiyə insanın dəyişməz, harmonik inkişafını, qürur, səmimiyyət, məsuliyyət və s. hisslərini tərbiyələndirir. Mənəviyyat tək bir duyğu deyil, kompleks bir hissdir. Sevgi, hörmət, güvən, inanmaq və digər hisslər bu kompleksə aiddir. Bu duyğuların genetik bir təməli var. Mənəviyyat insanlara aiddir .İnsanın özünü ələ alması ,çətin vəziyyətə düşəndə düzgün qərar verməsi ancaq mənəviyyatın güclü olması ilə mümkündür. Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsi valideynlər tərəfindən formalaşır. Belə ki, uşağa valideynləri düzlük, döğruçuluq, sevgi, hörmət və s. kimi mənəvi hisslərin formalaşmasında yardımçı olmalıdırlar. Uşaqlarda səhavətli olması, yardım etmək istəyi formalaşdırmaq, paxıllıq hissinin olmaması və başqa hisslərin inkişafı ata-ananın birgə səyi nəticəsində aparılmalıdır. Valideynlər övladlarında maddi olmayan ,mənəvi hissləri inkişaf etdirməli, nəyin doğru, nəyin yanlış olduğunu övladına anlatmalıdır. Vətənpərvərlik hissinin inkişafına nail olmaq istəyən valideyn Vətən haqqında olan şeirlərdən övladına öyrətməli, vətən bayrağına hörmətlə yanaşmalıdır. Xeyirxahlıq, hörmət, doğruçuluq, yoldaşlıq, sadəlik, təvazökarlıq kimi mənəvi dəyərlər düşünülmüş şəkildə təbliğ olunmalıdır. Ailə və məktəb birgə işləməlidir ki, ailənin verdiyi tərbiyə məktəbdə möhkəmlənsin ,nəinki möhkəmlənsin hətta üstünə əlavə tərbiyə yığsın. Azərbaycan dili dərsliyindəki mövzular mənəviyyatın zənginləşməsinə xidmət etməlidir. Bundan başqa müəllim-valideyn münasibəti mənəviyyatın formalaşmasına xidmət etməlidir.

**Ədəbiyyat**


1. Ə.S. Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı: Çinar-çap, 2002.
2. N.Kazımov. Məktəb pedaqogikası. Bakı, 2009.
3. Ç.Özbey. Çocuk Egitimində yapılan xətalar. İstanbul, 2008.
4. R.İ. Əliyev. Məktəbə psixoloji xidmətin aktual məsələləri Bakı: Nurlan, 2004.




# İLKİN DƏRSLİKLƏRİMİZDƏ AZƏRBAYCANÇILIQ PRİNSİPİNİN TƏTBİQİ (FOLKLOR NÜMUNƏLƏRİ ƏSASINDA)


**Məlahət Babayeva,**
*filologiya üzrə fəlsəfə doktoru*
*ADPU*
E-mail: milababayeva@mail.ru



*Açar sözlər: pedaqoq, təhsil, folklor, dərslik, ədəbiyyat*
*Keywords: educator, education, folklore, textbooks, literature*
*Ключевые слова: педагог, образование, фольклор, учебники, литература*


Azərbaycan ziyalılarının ədəbi, elmi və pedaqoji yaradıcılığı içərisində yeni metodla dərsliklər tərtib etmək əsas yeri tutmuşdur. Azərbaycan maarifçiləri öz dərsliklərini tərtib edərkən Nizaminin, Şədinin, Ruminin hikmətamiz hekayətləri ilə yanaşı müxtəlif folklor nümunələrinə də müraciət etmişlər. Çünki folklor nümunələri insanı beşikdən qəbirə qədər müşayiət edir. Bu nümunələr xalqın ümumi təfəkkürünün cilalanmış, doğmalaşmış məhsuludur. Uşaqlar lap körpə yaşlardan nənələrinin söylədikləri nağıllar əsasında tərbiyələndirilir, ordakı ibrətamiz sonluqlardan nəticə çıxardır.

F. Köçərli, A. Şaiq, R. Əfəndiyev, H. Zərdabi və başqalarının bir sıra dərslik və kitabları məhz bəhs etdiyimiz bu məsələlərlə əlaqədar idi.

Firudin bəy Köçərli qabaqcıl pedaqoq, folklor toplayıcısı, həm də xalq ədəbiyyatının nəzəriyyəçisi, ədəbiyyat tarixçisi olmuşdur. F. Köçərli sözün həqiqi mənasında ilk Azərbaycan folklorşünası olmuşdur. Elə yalnız «Balalara hədiyyə» kitabı F. Köçərliyə folklorşünaslıq tariximizdə müəyyən mövqe qazandırmışdır. Onun çap etdirdiyi xalq yaradıcılığına həsr edilmiş əsərlərinə «Balalara hədiyyə», «Sayaçı sözləri», «Aşıq Valeh» və başqa kitabları aiddir. F. Köçərli xalq ədəbiyyatına, ədəbiyyatın müəyyən məsələlərinə dair yazdığı məqalələrində hər zaman çoxlu folklor nümunələrini örnək gətirmişdir.

Rəşid bəy Əfəndiyev də Azərbaycanın məşhur və peşəkar müəllimlərindən olmuşdur. Onun "Uşaq bağçası" adlı əlifba kitabı və "Bəsirətül-ətfal" adlı qiraət kitabı Azərbaycanda şöhrət qazanmış ilk dərs kitablarındandır.

"Bəsirət-ül-Ətfal" məktəblilər üçün ədəbiyyat kitabı olsa da, bütövlükdə əhatə etdiyi həyat, məişət, dil, bədii ədəbiyyat, kənd təsərrüfatı, təbiət, coğrafiya və sairə məsələlər onu məktəb uşaqlarının ensiklopedik məlumat kitabı kimi səciyyələndirir.

Rəşid bəy ölkəmizin tarixi keçmişi, folkloru, etnoqrafiyası ilə də ciddi maraqlanmışdır. Qədim abidələr, şifahi xalq ədəbiyyatı, el adətləri, arxeoloji qazıntılar onun diqqət mərkəzində olmuşdur. "El ədəbiyyatı" və sairə araşdırmalar Rəşid bəy Əfəndiyevin milli folklor elminin yaradılmasında xidmətləri haqqında dolğun təsəvvür yaradır.

Dərslikdə klassik Azərbaycan ədəbiyyatından, "Kəlilə və Dimnə"dən, şifahi xalq ədəbiyyatından tərcümə seçilmiş materialların çoxu R. Əfəndiyevin yüksək tərbiyəvi əhəmiyyəti olan şərhlər ilə müşayiət olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, "Bəsirət-ül-ətfal" kitabı 1901-ci ildən 1912-ci ilə kimi 42.000 tirajla 4 dəfə çap olunmuşdur.

1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Rəşid bəy Əfəndiyev pedaqoji fəaliyyətini dayandırıb doğma Nuxa şəhərinə köçməyə məcbur olur. Burada öz sevimli işindən ayrılmır. Nuxa şəhərində oğlan və qız seminariyasını təşkil edir, bir müddət Pedaqoji Məktəbin direktoru vəzifəsində çalışır. Eyni zamanda SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının elmi işçisi kimi elmi, pedaqoji, ədəbi sahədə axtarışlarını davam etdirir. O, Azərbaycan el ədəbiyyatı nümunələrini toplayır, "Azəri türkləri"nin ədəbiyyatı barədə düşünür, Seyid Əzim Şirvani irsini, L.N. Tolstoyun müdrik bəşəri fikirlərini təbliğ edir.

Keçən əsrin əvvəllərində folklor nümunələrini toplayaraq məktəblərdə tədris və təbliğ olunmasını dəstəkləyən şəxsiyyətlərdən biri də H.B. Zərdabidir. Belə ki, Zərdabinin çağırışı ilə şairlər, hətta bədii təcrübəsi olan müəllimlər uşaqlar üçün ilk milli nəğmə mətnləri yazdılar, onlara

uyğun musiqiçilər qoşuldu. Həsən bəy özü də nümunə kimi nəğmə mətni yazmışdı. Məktəblilər bu nəğmələri təntənəli günlərdə, Bakının türk teatr truppasının tamaşaları zamanı oxumağa başladılar. "Türk nəğmələri" adı ilə tanınan bu mətnləri Zərdabi geniş yayılmaq üçün 1901-ci ildə ayrıca kitabça kimi nəşr edib, pulsuz məktəblərə payladı.

Gəncədə yaşayan M.A. Abbaszadə də 1907-1908-ci illərdə rus-Azərbaycan məktəbinin müəllimi kimi 7 kitab nəşr etdirmişdir. Onun 1900 və 1901-ci ildə ilk dəfə çap olunmuş, qaragüruhla qarşılanmış "Birinci kitab. Əlifba", "İkinci kitab. Qiraət" və şəriət dərslikləri ikinci dəfə də çapdan çıxmışdır. Eyni zamanda "Türk dili. Qiraət" və "Lətaif" adlı dərs vəsaitləri, bir də "Məşq məcmuəsi" metodik göstərişi nəşr olunmuşdur. 1914-cü ildə M.A. Abbaszadənin 3 kitabı-"Əlifba", "Şəriət dərsi" (təkrar) və "Arvad ağısı" adlı folklor nümunələrindən ibarət kitabı ilk dəfə nəşr edilmişdir. "Arvad ağısı" Mirzə Abbas Abbaszadənin eyni zamanda xalq ədəbiyyatımızın gözəl bilicisi və toplayıcısı olduğunu təsdiq etmişdir.

Görkəmli şair və pedaqoq A. Şaiq də zəngin və çoxcəhətli yaradıcılığı, xalq ədəbiyyatı nümunələrinin mahir toplayıcısı kimi bu dövrdə vüsət tapır. 1926-cı ildə A. Şaiq topladığı bayatıları nəşr etdirir. Kitabda 650-yə qədər bayatı var idi. Burada Azərbaycan bayatılarının ən gözəl və rəvan nümunələri toplanmışdı. Müqəddimədə qeyd edilirdi ki, çap olunan toplanmış bayatıların yalnız bir hissəsidir. A. Şaiq folklor nümunələrini yalnız toplamaqla kifayətlənmir, xalq ədəbiyyatı, onun xüsusiyyətləri, bədii dil, bədii nəzəri fikirlər də söyləyirdi. Bundan əlavə A. Şaiq H.Cavidlə birlikdə "Ədəbiyyat dərsləri" (1919) adlı dərslikdə tərtib etmişdir ki, burada da biz qiymətli folklor nümunələrinə rast gələ bilərik.

Xalq ədəbiyyatını toplayıb araşdıran A. Şaiq bu örnəklər əsasında "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağıllar da yazmışdır. Onun "Ədhəm", "Tapdıq dədə", "Qoçpolad" kimi poemalarında milli folklorun təsiri açıq-aydın görünməkdədir. Şaiq həm də 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının əsasını qoymuşdur.

Ümumiyyətlə XIX əsrin sonu XX əsrin əvvəllərində qabaqcıl ziyalılar, pedaqoqlar şifahi xalq nümunələrinin toplanmasına xüsusi həssaslıqla yanaşmışlar. Çünki hər bir xalqın tarixi keçmişini həm də onun düşüncə məhsulu olan folklor nümunələri təşkil edir. Ziyalılarımız dövrünün tələbinə uyğun olaraq dərslik islahatları aparmış və tərtib etdikləri hər dərsliyə zəngin folklor irsimizi də əlavə etməyi unutmamışlar. Bədii yaradıcılıqla da məşğul olmuş pedaqoqlar xalq ruhundan, şifahi xalq ədəbiyyatından qaynaqlanan yeni əsərlər yazaraq həm uşaq ədəbiyyatımızın, həm də milli pedaqoji fikrin əsasını qoymuşlar. Bütün bunlar isə şübhəsiz bir amala xidmət edir: Təhsildə azərbayçançılıq ideyalarının, özünüdərk konsepsiyanın tətbiqinə!

# TƏLİM VƏ TƏLİMDƏNKƏNAR VAXTLARDA MİLLİLİK PRİNSİPİNİN HƏYATA KEÇİRİLMƏSİ YOLLARI

**Xatirə Vəliyeva,**
*BQU- nun baş müəllimi*
E-маил: xatira_veliyeva@mail.ru

***Açar sözlər:*** *millilik prinsipi, Heydər Əliyev irsi, milli dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlər, adət-ənənə, diaspor, vətəndaş tərbiyəsi, milli iftixar hissi*
***Ключевые слова:*** *принцип национализма, наследие Гейдара Алиева, национальная государственность, обычаи, диаспора.*
***Keywords;*** *principle of nationality Heydar Aliyev heritage statehood, national moral and human values religious values.*

Hər bir xalq öz milli-mənəvi dəyərləri ilə seçilir. Gənc nəslə milli-mənəvi dəyərlərin aşılanması ailə, cəmiyyət və təhsil yolu ilə həyata keçir. Son illər təhsil sahəsində milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və gələcək nəslə çatdırılması üçün böyük işlər görülür. Təhsil sahəsində bu uğurlu addımlar milli sərvətimiz olan milli dəyərlərimizin istifadəsini, bəşəri dəyərlərin tərkib hissəsi kimi inkişafını və inteqrasiyasını təmin edir. Çünki milli-mənəvi dəyərlər gələcək nəsillərə daha da zənginləşdirilmiş formada verilməlidir. Bu sahədə mütərəqqi ölkələrin təcrübəsindən istifadə edilərkən milli xüsusiyyətlərimizdəki özünəməxsusluqları saxlamaq lazımdır.

Son illərdə ölkəmizdə bir çox sahələrdə böyük nailiyyətlər əldə edilmiş, dövlətimiz dünya siyasi sistemində öz yerini möhkəmləndirmiş, dövlətimizin ümumi beynəlxalq nüfuzu artmışdır. Lakin insanların mənəvi həyatı, milli-mədəni dəyərlərin qorunması, vətəndaşların, xüsusən gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsi olmadan bu inkişafın davamlı olmasını gözləmək çətindir. Milli-mənəvi dəyərlərin yaşadılması qloballaşma prosesi zəminində milli özünü mövcudluğun qorunmasına xidmət edir. Gənclərin bu ruhda tərbiyəsi xalqımızın öz köklərinə daha möhkəm bağlı olması və dövlətimizin milli siyasətini daha əminliklə aparması deməkdir.

Milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi dövlət siyasətimizin əsas vəzifələrindən biridir. Bu məsələlər Dövlət Strategiyasında da öz əksini tapmışdır. Hazırda Dövlət Strategiyası gənclərin milli ruhda, milli-mənəvi dəyərlər əsasında təhsili və tərbiyəsini vacib hesab edərək bu məsələlərə varislik və müasirlik prizmasından yanaşılmasını zəruri edir.

Bütün bunlarla yanaşı təhsilimiz də öz vəzifələrini bu zəmində qurmalı, vətəndaş tərbiyəsində bu prinsiplər nəzərə alınmalıdır. Vətəndaş tərbiyə edən müəllim təhsildə milli-mənəvi dəyərlərin aşılanması yolları üzərində fikirləşməli, bu yolların nəzəri, elmi-metodiki əsaslarını hazırlamağa səy etməlidir. Bu məsələlər aşağıdakı yollarla aparıla bilər:

1. Təlim prosesində
2. Təlimdən kənar vaxtlarda
3. Valideynlər tərəfindən ailədə aparılan işlərə məktəbin köməyi və nəzarəti nəzərdə tutulmalıdır.

Təlim və təlimdənkənar vaxtlarda şagirdlərin milli ruhda tərbiyəsində aşağıdakı vasitələrdən istifadə oluna bilər:

- şagirdləri milli-mənəvi dəyərlər ruhunda tərbiyəsində Heydər Əliyev irsindən istifadə
- etnopedaqoji materiallardan istifadə
- milli adət-ənənələrin təbliği
- dövlət atributları və azərbaycançılıq ideyalarının təbliği
- Heydər Əliyev fondunun mədəni irsin qorunması və təbliğini əks etdirən fəaliyyət sənədləri ilə tanışlıq
- dünya ölkələrində Azərbaycan diaspor unun fəaliyyəti ilə tanışlıq
- dünya şöhrətli Azərbaycan ziyalılarının gənc nəslə tanıdılması yönümündə aparılan işlər

Araşdırmalar onu göstərir ki, gənclərin milli ruhda tərbiyəsi işi mürəkkəb, həm də çox həssaslıq tələb edən incə bir prosesdir. Bu dövrdə uşaqlar şəxsiyyətin intensiv inkişafı prosesinə və müstəqil həyata hazırlıq mərhələsinə daxil olurlar. Ona görə də diqqətli olmaq lazımdır ki, hər bir gənc öz fəaliyyətini xalqın səadətinə yönəltməyi, xeyirxah işlər görməyi bacarsın, milli xüsusiyyətləri özündə saxlamaqla ümumbəşər əxlaqına yiyələnsin. Xüsusilə məktəbliləri yüksək ideyallar ruhunda tərbiyə edərkən onların mənəvi hissləri inkişaf etdirilməli, xüsusilə Vətənə məhəbbət, milli iftixar hisslərinin formalaşdırılması ön plana çəkilməlidir.

## Ədəbiyyat

1. Qəndilov S., Cəfərov N., Əhmədov H.H. Əliyev Azərbaycan məktəblilərinin gözü ilə. Bakı: Gənclik, 1998.
2. Təhsil millətin gələcəyidir / M.Mərdanov və Ə.Quliyevin redaktəsi ilə. Bakı: Təhsil, 2012.

**Х. Велиева**

**Пути осуществления принципов национальности в процессе обучения и во внеклассных работах**

*Резюме*

В статье научно обоснованы пути и средства осуществления принципов национальности в процессе обучения и во внеклассных работах. В статье исследуется одно из наследий общенационального лидера Гейдара Алиева – принцип национализма, а также указываются пути использования традиции в воспитании подрастающего поколения в национальном духе.

В статье оценивание принципа национализма отмечаемся не только на уровне национально-духовных ценностей но и в глобальном значении, на уровне общечеловеческих ценностей.

**X. Valiyeva**

**The implementation of the principle of nationality in the process of learning and in non-class work**

*Summary*

The article scientifically substantiated ways and means prin¬tsi Stand-nationality in the process of learning and in non-class work. This article examines one of the heritage of national leader, the principle of nationalism and outlines ways to use tradition in educating the younger generation in the national spirit.

The article notes the assessment of the principle of nationalism, not only at the level of national and spiritual values but also in the global sense, at the level of human values.

# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ ÜZRƏ İŞLƏ BAĞLI PEDAQOJİ VƏ PSİXOLOJİ ƏDƏBİYYATIN TƏHLİLİ

**Firuzə İskəndərova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: firuza.jalilova @hotmail.com

***Açar sözlər:** təhqiqat, pedaqoji ədəbiyyat, pedaqoji texnologiya, təhsil sistemi, təhsilin məzmunu, təfəkkürün inkişafı*
***Ключевые слова:** исследование, педагогическая литература, педагогические технологии, система образования, содержания образования, развитие мышления*
***Key words:** the investigation, pedagogical literature, education system, educational technology, maintenance of the education, development of thinking*

Təhsilin keyfiyyətinin konseptual-metodoloji cəhətdən dərk edilməməsi, onun ölçülməsi ilə bağlı vahid yanaşmanın olmaması və sistemin elmi-metodik cəhətdən kifayət qədər təchiz olunmaması, bu sahədə səriştəli kadrların çatışmazlığı və bu işlə məşğul olan təşkilatların bir-birindən təcrid olunmuş şəkildə fəaliyyət göstərməsi, bütün səviyyələrdə təhsilin keyfiyyətinin qiymətləndirilməsinin əksər hallarda təlim keyfiyyətinin qiymətləndirilməsi ilə eyniləşdirilməsi, təhsilin keyfiyyətinin qiymətləndirilməsinin pedaqoji ölçmə nəzəriyyəsinin tələblərinə uyğun olmaması, qeyri-standart vasitələrdən istifadə olunması və sair məhz belə problemlərdəndir. Bu problemlərin həlli yolları, adətən elmi-pedaqoji ədəbiyyatda öz əksini tapmalıdır.

Əcnəbi pedaqoqlardan S.Keroll, B.Blüm, D.Brüner, Q.Qrey, B.Kosratelli, rus pedaqoqları N.F.Talızin, P.Ə.Qalperin, Y.K.Babanski, L.V.Zankov, D.V.Elkonin, V.V.Davıdov, L.S.Viqotski, L.Y.Zorina, Azərbaycanda isə professorlardan Ə.Ə.Əlizadə, Ə.Ə.Ağayev, Ə.X.Paşayev və başqaları təlimin nəzəri və təcrübi məsələlərinə həsr edilmiş tədqiqat əsərlərində yeni pedaqoji texnologiyalar haqqında qiymətli fikirlər söyləmişlər.

Prof. Ə. Ağayev yazır: "Pedaqoji texnologiyanın əsas elementləri onun mikrotexnologiyasındadır. Mikrotexnologiyaya bunlar daxildir: məqsədlər, diaqnostikalar (ilkin, cari, yekun), təlim prosesində subyektlərin birgə fəaliyyəti (əməkdaşlığı müəllim-şagird, şagird-şagird), təlimin təşkili, forma, metod və vasitələrin seçilməsi, refleksiyalar, tədris olunan fənnin (fənlərin) məzmunu" (2, 34).

Prof. A.O. Mehrabovun "Pedaqoji texnologiyalar" adlı monoqrafiyasında texnologiyalar pedaqoji texnologiya, təlim texnologiyası, təhsil texnologiyası kimi təsnif edilir. Hətta pedaqoji prosesin müəyyən sahəni əhatə edəcək texnologiyaların mövcudluğu göstərilir: Metatexnologiya, makrotexnologiya, mezotexnologiya, mikrotexnologiya. Beləliklə, haqqında söhbət gedən pedaqoji ədəbiyyatda texnologiyanın məzmunu aşağıdakı kimi göstərilir: "Pedaqoji prosesdə texnologiya-nəzərdə tutulmuş məqsədlərin yerinə yetirilməsini təmin etməyə imkan verən, elmi əsaslar üzərində qurulmuş, məkan və zaman səviyyəsində proqramlaşdırılmış pedaqoji prosesin bütün komponentlərinin birgə fəaliyyət sistemidir. Eyni zamanda, texnologiya təlim-tərbiyə prosesinin paradiqmalarını müəyyənləşdirən elə alqoritimlər sistemidir ki, onun tətbiqi kamil insanda tələb



olunan keyfiyyətləri formalaşdırmağa xidmət edir, təlim prosesinin layihələşdirilməsini, mərhələli diaqnostikasını, idarəçilik baxımından nəticələri korrekta etməyə imkan verir".

Fikrimcə, bu məsələ ilə əlaqədar elmi-pedaqoji ədəbiyyatda yanaşmaların çoxçalarlı olması təhsilin keyfiyyətinin mahiyyəti və məzmunu barədə kifayət qədər məlumatın olmaması, keyfiyyətə nail olma mərhələsinə qədər həyata keçirilən çətin və mürəkkəb fəaliyyətlərin öyrənilməməsidir. Bu səbəbdən də ilk növbədə təhsilin keyfiyyətinin qiymətləndirilməsi üzrə yeni sistemin qurulmasına, o cümlədən təhsilin keyfiyyəti göstəricilərinin seçilməsinə, onların ölçülmə prosedurlarının müəyyən edilməsinə və bütün bu addımlar barədə ictimaiyyətin müntəzəm məlumatlandırılmasına ciddi ehtiyac vardır. Bu halda da müasir təlim texnologiyalarından istifadə üzrə işi davam etdirərək məktəbəqədər müəssisələrimizi irəliyə doğru aparmaq mümkündür.

Təhsilin keyfiyyətinin qiymətləndirilməsi sahəsində müəyyən qədər irəliləyişin olmasına baxmayaraq, hazırda təhsil sisteminin real vəziyyəti barədə etibarlı və müqayisə oluna bilən məlumatların elmi-pedaqoji ədəbiyyatda olmaması, bu sistemin həm şaquli, həm də üfüqi səviyyələrində olan müxtəlif idarəetmə strukturlarının fəaliyyətində pərakəndəlik, uyğunsuz problemlər vardır.

Dos. L.K. Cəfərova yazır: "Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi ilə uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəldən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Tərbiyəçi təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt-subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürlərinin, düşüncələrinin, tərbiyəçilər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olurlar. Onlar qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi uşaqların müstəqil idraki fəaliyyətini, yaradıcılığını təşkil edən subyektə çevrilir, uşaq isə müstəqil axtarışlar aparmağa, yaradıcı fəaliyyət göstərməyə sövq edirlər" (4).

L.K. Cəfərova müasirləşmədən, yenilikdən danışmaqla ənənəvi təcrübəni də inkar etmir. O yazır: "Yeni məktəbəqədər təhsil proqramının (kurikulumun) tətbiqi zamanı tədqiqatçıların nəzəri işlərinə və uşağın inkişafında pozitiv irəliləyişləri təmin edən ənənəvi texnologiyaların, elementlərindən istifadəyə istinad zəruridir. İnnovativ yanaşmaların və ənənələrin uyğunluğu yeni proqramların üstünlüklərini azaltmır, əksinə, pedaqoji fikrin sonrakı inkişafına təkan verir" (4).

K. Məmmədova yaşadığımız dövrdə texnoloji innovasiyalarda inqilab baş verdiyini qeyd edərək informasiya texnologiyalarından istifadə üzərində dayanır. O, yazır: "Müasir dövrdə informasiya texnologiyalarının inkişafına mövcud maddi-texniki bazanın güclənməsinə, internetə qoşulma imkanlarına, İKT-nin digər sahələrinin sürətlə inkişaf etməsinə baxmayaraq, respublikamızın məktəbəqədər təhsil müəssisələrində oyun kompüterlərindən istifadənin effektivliyi hələ ki, aşağı səviyyədədir... Məktəbəhazırlıq mərhələsində uşaqlarda yeni vərdişlərlə yanaşı, oxuma arzusunu da formalaşdırmaq vacibdir. Məktəbəqədər yaş dövründə keçirilən oyun və inteqrativ məşğələlər gələcək şagirdin biliklərə yiyələnmələrində motivasiyanı gücləndirir" (3, 38).

Yeni texnologiyaların tətbiqi və məktəbəqədər yaşlı uşaqlarla yalnız tərbiyə deyil, həm də təhsil üzrə işin aparıldığı hazırkı şəraitdə bu ideya böyük əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**

1. Abbasov A., Əlizadə H. Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Renessans, 2000.
2. Ağayev Ə. Yeni təlim texnologiyalardan istifadənin nəzəri və praktik məsələləri // ARTPİ-nin Elmi əsərləri, 2006, № 1
3. Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı. Bakı, 1998.
4. Cəfərova L. Məktəbəqədər təhsilin məzmununun yeniləşdirilməsinə dair // Məktəbəqədər və ibtidai təhsil, 2014, № 1

# MUSİQİ MƏKTƏBLƏRİNDƏ TAR İXTİSASI ÜZRƏ MUĞAM TƏDRİSİ METODİKASI

**Rönət Süleymanov,**
*Naxçıvan Müəllimlər İnstitutu*
ronet78@mail.ru

***Açar sözlər:*** musiqi, tar, muğam, muğamların-tədrisi,muğam-hissələri.
***Ключевые слова:*** музыка, тар, мугам, преподавание мугамов, части мугам.
***Key words:*** music, tar, mugham, mugham-teaching, parts of mugham.

Bildiyimiz kimi, musiqi məktəblərində tar, kamança, qarmon, balaban ixtisasları üzrə muğam dərsləri keçirilir. Tar ixtisası tədrisində də notların öyrədilməsindən əlavə olaraq muğam dərsi də tədris olunur. Şagird beş illik tədris müddətində muğamları öyrənir. Tar ixtisasında 1-ci siniflərdə muğam tədrisi nəzərdə tutulmadığı üçün, kiçik həcmli mahnılar öyrədilir. Bu mahnılardan "Oynaq topum","Cücələrim","Nəlbəki" və digər uşaq mahnıları və rəqsləri tədris olunur.İl ərzində dərslər iki yerə bölünür. 1-ci yarım il, 2-ci yarım il. Muğam tədrisi 2-ci sinifdən başlanır. İxtisas dərsi, yəni (not) tədrisi həftədə 2-saat olduğu kimi, muğam dərsi də həftədə 2-saat tədris olunur. İkinci sinifdə "Bayatı-kürd" muğamı öyrədilir. Muğamların notu olmadığı üçün müəllimlə şagird muğamı tarda ifa edib öyrənirlər. Şagirdin muğamı yadda saxlaması üçün müəllim yeni hissəni öyrətmədən əvvəl, keçilən hissəni təkrar şagirdə ifa etdirir. Şagird keçilən hissəni yaxşı mənimsəyibsə, başqa hissə keçirilir. 2-ci sinfin 2-ci yarım ilində isə "Rast" muğamı öyrədilir. Muğamların hissələri çox olduğundan uşaq musiqi məktəblərində muğamlar sadə və asan yolla tədris olunur ki, şagird muğamı qavrasın və ifa etdiyini yadda saxlasın. Məlumdur ki, şagirdin qabiliyyətini və zehni yaddaşını nəzərə alaraq muğamın hissələrini tam öyrətmək olar. Hər bir muğamı öyrətdikdən sonra müvafiq muğam rəngləri də öyrədilir. 3-cü sinfin 1-ci yarım ilində "Bayatı-Şiraz" muğamı tədris olunur. Muğam dərsi keçdikdə muğam ifası aramla öyrədilməlidir. Yəni hər hissə ayrı-ayrı ifa olunmalı və bir-birinin ardınca tədris olunmalıdır. İfa zamanı hissələrin adlarını da öyrətmək vacibdir. Şagird muğam ifa etdikdə bilməlidir ki, hansı hissəni ifa edir. Əsasən muğamlarda ilk, yəni 1-ci hissə Mayə hissəsi adlanır. Beləliklə muğamların hissələri ardıcıl ifa olunur. Muğam ifası zamanı hər hansı bir hissənin sonunda həmin muğamın rəngi ifa oluna bilər. Muğam tədrisində rənglər də öyrədilir. Muğamı öyrətdikcə, hissələri də adları ilə öyrədilməlidir. Muğam tədrisini şagirdin öyrənə biləcəyi qaydada tədris etmək daha məqsədə uyğun olar. Bu da şagirdin muğamı yaxşı mənimsəməsində böyük rol oynayır. 4-cü sinifdə "Şahnaz" muğamı tədris olunur. Bu muğam da asan və sadə yolla tədris olunmalıdır ki, şagird yadda saxlaya bilsin. 4-cü sinfin 1-ci yarım ilində isə "Çahargah" muğamı tədris olunmalıdır. Bu muğam da çox hissəli olduğundan qısa və asan oyrədilməlidir. Nəhayət, 5-ci sinifdə bütün öyrədilən muğamlar təkrar olunur. Əgər şagird hansısa muğamı yaddan çıxarıbsa 5-ci sinifdə təkrarlayıb yadına salır. Beləliklə, şagird 5 illik tar ixtisasını bitirdikdə muğamları öyrənmiş olur.

Uşaq musiqi məktəbləri üçün Adil Gərayın "Muğam etüdü" adlı dərs vəsaiti də var. Bu kitab da uşaq musiqi məktəbləri üçün yaxşı dərs vəsaitidir. "Muğam etüdü" kitabında da hər muğam hissələri ilə nota alınmışdır. Bu da əlverişli amildir ki, şagird yaddan çıxardığı hissəni bu dərslikdən yada sala bilər. Beləliklə, uşaq musiqi məktəblərində 5 illik təhsil müddətində şagird muğamları hissələri ilə birlikdə ifa etməyi öyrənir.

**Р. Сулейманов**

**Методика преподавания мугама по специальности тара в музыкальной школе**

***Резюме***

В статье исследуется методика преподавания мугама в детских музыкальных школах и рассказывается о правилах их обучения.

**R. Suleymanov**

**Mugham teaching methods on tar speciality at music schools**

***Summary***

In the article mugham teaching methods at shild music schools is searched and teaching rules are noted.



# AZƏRBAYCAN İDEOLOGİYASININ GƏNC NƏSLƏ AŞILANMASI VASİTƏLƏRİ

**Süleyman Hüseynov,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*ADBTİA*
**Elvira Qaracayeva,**
*ADBTİA-nın baş müəllimi*
E-mail: sevda.2015@list.ru

***Açar sözlər: azərbaycançılıq, azərbaycanşünaslıq, türkçülük, islamçılıq, vətənçilik***
***Ключевые слова: азербайджанство, Азербайджановедение, тюркизм, исламизм, патриотизм***
***Key words: azerbaijanism, Azerbaijan studies, turkism, islamism, patriotism***

Azərbaycançılıq qabaqcıl dünya dövlətlərinin təcrübəsinə əsaslanaraq xalqımızın son yüz ildə elmi dünyagörüşünün təşəkkülü nəticəsində ictimai-milli təfəkkürün bir sahəsi kimi meydana çıxmışdır. 1966-1987-ci illərdə nəşr edilmiş dörd cildlik "Azərbaycan dilinin izahlı lüğəti"ndə "Azərbaycan", "azərbaycanlı", "azərbaycanca" sözləri verildiyi halda, anlayış olmadığından "azərbaycançılıq", eləcə də "azərbaycanşünaslıq" söz-terminlərinə rast gəlmirik.

Azərbaycançılıq XX əsrin əvvəllərindən üç təməl-türkçülük, islamçılıq və vətənçilik üzərində formalaşmışdır. Türk millətinə mənsubluğunu, müsəlman olduğunu (islam dəyərlərinə söykəndiyini) və Azərbaycan adlı ərazini – öz ana-ata yurdunu unutmamaqla əzəli torpaqlarımızı qorumağı, xalqımızın bütövlüyünü tanıtmaqla onun inkişaf etməsinə çalışmağı, vətənçilik idealına sadiq qalmağı milli ideologiya səviyyəsinə qaldırmağı bacarmaq!- budur azərbaycançılıq! Bu anlamda azərbaycançılıq islamçılıqdan və müasirlikdən daha qədimdir. Azərbaycançılıq Azərbaycan və azərbaycanlılar haqqında geniş və bütöv elmi təsəvvürü bütün dünyaya yaymaqla gələcəyimizi müəyyənləşdirmək, dünya birliyində yerimizi qətiləşdirməkdir.

Azərbaycançılığın əsas və birinci komponenti Azərbaycan dilidir. Azərbaycanlılar məhz ərazi vahidi Azərbaycanla, Azərbaycan dili vasitəsilə fərqlənirlər. Analarımız bizə bu dildə layla çalmaqla, bu dildə bayatılar oxumaqla, bu dildə mahnılar, nağmələr – şeirlər oxumaqla onu bizə öyrətmiş, onu öyrənməyə-sevməyə, qəlb dünyamızı formalaşdırmağa ömür-gün sərf etmişlər və sərf edirlər. Ululardan gələn bu hissi onlar nəsildən-nəsilə ötürürlər ki, dilimiz yaşasın, yeni-yeni sözlər hesabına zənginləşsin, dünya arenasında tanınsın və sevilsin. Elə bir mahnıda deyildiyi kimi –

Azərbaycan – mənim elim,
Azərbaycan – mənim dilim
Doğransam da dilim-dilim
Mənim dilim ölən deyil!
Mənim elim ölən deyil!

Dil yaşayırsa, o dilin daşıyıcıları da yaşayır, vətən də yaşayacaq! Dilini qoruyan xalq ölümsüzlük qazanır. Dil milli varlığın əsas amilidir. Dillə xalqın birliyini hələ keçən əsrin 30-40-cı illərində S.Vurğun olduqca lokonik ifadə etmişdir: -"Azəridir mənim adım, Füzulidir söz ustadım!"

Ümumtəhsil məktəblərində tədris olunan fənlər – "Azərbaycan dili", "Azərbaycan ədəbiyyatı", "Azərbaycan tarixi", "Azərbaycan coğrafiyası", "Azərbaycan konstitusiyası" və başqa fənn dərslikləri aşağı siniflərdən başlamış məktəb illəri qurtarana qədər bizə Azərbaycan haqqında, azərbaycançılıq haqqında, dilimiz, dinimiz, inancımız haqqında, türkçülük, müasirlik haqqında zəngin məlumat verir. Bunlarla yanaşı gündəlik olaraq hər saat, hər dəqiqə biz Azərbaycan radiosu, televiziya kanalları, internet şəbəkəsi, müxtəlif markalı əl-cib telefonları, mətbuat və s. kimi informasiya-kommunikasiya vasitələri ilə azərbaycançılıq ideyaları ilə zənginləşirik. Dili təzə-təzə söz tutan uşaqlardan başlamış yaşlı nəslin nümayəndələrinə qədər hamı, hətta ölkəmizə gəlmiş xarici ölkə vətəndaşları da azərbaycançılıq üzərində köklənmiş xəbərlərlə tanış olur, görür və xoş təəssüratla haqqımızda geniş məlumata sahib olurlar. Bu iş təkcə orta məktəblərdə deyil, ali məktəblərdə də davam etdirilir. Bizim işlədiyimiz Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında Azərbaycan, rus və xarici dil müəllimləri, eləcə də tarix, iqtisadiyyat, oedaqogika, psixologiya və başqa fənn müəllimləri bu estafeti daim davam etdirir, tədris olunan mövzularla əlaqədar dilimiz, dinimiz, soykökümüz, xalqımız, dövlətimiz, təhsilimiz və s. haqqında tələbələrdə dolğun təsəvvür yaratmağa çalışırlar. "Azrbaycan dili və nitq mədəniyyəti", "Rus dili" və xarici

dillər üzrə dərsliklərdə "Heydər Əliyev və Azərbaycan gəncliyi", "Birinci Avropa oyunları Bakıda", "Turizm", "Azərbaycan", "Bakı", "Ölkəmizdə Olimpiya kompleksləri", "Ölkəmizin Prezidenti və hökuməti", "Azərbaycanın nefti bizim sərvətimizdir", "Azərbaycan qazı Avropaya çıxır", "Bizim bayram günlərimiz qürur mənbəyimizdir" və s. kimi keçilən, öyrənilən mətnlər azərbaycançılıq ideologiyasını tələbələrə aşılamaqda əhəmiyyətli rol oynayır.

Təhsilin məzmununda azərbaycançılığın tətbiqinə dərsliklərin ilk səhifəsində verilmiş Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin portreti və Azərbaycan Respublikasının Dövlət Himni ilə, onlar haqqında məlumat verməklə başlamaq lazımdır. Təsadüfi deyildir ki, indi Azərbaycan Respublikasının prezidenti seçilən şəxs andiçmə mərasimində 1918-ci il noyabrın 9-da mavi, qırmızı və yaşıl zolaqlı, üzərində ağ rəngli aypara ilə səkkizgüşəli ulduzun (xoşbəxtlik və əbədiliyi ifadə edən Ay və Günəşin simvolları) təsviri olan dövlətimizin, müstəqillik rəmzinə çevrilən bayrağın qarşısında diz çöküb onu öpür, sonra ölkə konstitusiyasına və müqəddəs Qurani-Kərimə əl basaraq Azərbaycan xalqının, Azərbaycan Respublikasının müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü qoruyacağına, demokratik dəyişiklikləri dəstəkləyib həyata keçirəcəyinə, ölkəmizin qabaqcıl dünya dövlətləri içərisində, dünya birliyində layaqətli yer tutmasına çalışacağına, xalqımızın milli-mənəvi dəyərlərinə sadiq qalaraq ümummilli ənənələrimizin yaşamasına təminatçı olacağına and içir.

Azərbaycançılıq ideologiyasının banilərindən olan Cəlil Məmmədquluzadə 1917-ci ildə "Molla Nəsrəddin" jurnalında çap etdirdiyi "Azərbaycan" məqaləsində xalqımızı, dilimizi, ölkəmizin ərazilərini oxuculara belə çatdırırdı:

"Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

-Mənim anam kimdir?

Öz özümə də cavab verirəm ki,

-Mənim anam rəhmətlik Zəhrəbanı bacı idi.

-Dilim nə dilidir?

-Azərbaycan dilidir.

-Yəni vətənim haradır?

-Azərbaycan vilayətidir.

-Haradır Azərbaycan?

-Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bəyaziddən ibarət olsun".

S.Vurğunun yaradıcılığı, xüsusən onun 1933-cü ildə yazdığı məşhur "Azərbaycan" şeiri vətənpərvərliyin zirvəsini təşkil edir.

Deyirlər ki, Azərbaycan Demokratik Respublikasının qurucusu M. Rəsulzadə qürbət ölkədə vəfat edərkən "Azərbaycan! Azərbaycan!" Azərbaycan!" deyib gözlərini əbədi yummuşdur.

Ümumiyyətlə, dərsliklərdə verilmiş materiallar bütövlükdə təhsilin məzmununda azərbaycançılıq ideologiyasına xidmət edir. Vətənpərvərlik, milli iftixar, humanizm, beynəlmiləlçilik, qəhrəmanlıq və s. kimi Azərbaycan xalqına məxsus nəcib hisslər tərbiyə edən tədris materiallarında milli ləyaqət, mənəvi dəyərlər haqqında məlumatlar çoxluq təşkil edir, xalqımızın tarixi, ədəbiyyatı, mədəniyyəti, incəsənəti və dilini gənc nəslə dərindən öyrətməyi, müstəqil Azərbaycanın taleyi ilə bağlı məsələlərdə əqidə və iradə rəmzinə çevrilmiş siyasi və ictimai xadimləri tanıtmağı qarşıya bir məqsəd kimi qoymuşlar. Nümunələrdən bəhrələnən hər bir məktəbli, tələbə, hər bir gənc öz xalqına, vətəninə sədaqətlə xidmət göstərməli, ədəbiyyatımızı, qəhrəmanlıq tariximizi, milli mədəniyyətimizi, doğma ana dilimizi sevməli, öyrənməli və bundan qürur duymalıdır.

Dünya azərbaycanlılarının 3-cü qurultayında Prezidentimiz cənab İlham Əliyev deyirdi: "Azərbaycanda müasir dövlət quruculuğu prosesi uğurla gedir. Biz milli mənəvi dəyərlərimizə də çox sadiqik, onları qoruyuruq. Azərbaycan dəyərləri bizim üçün müstəsna əhəmiyyət daşıyır. Azərbaycan xalqı əsrlər boyu milli-mənəvi dəyərlərini, ana dilini – Azərbaycan dilini qoruya bilmişdir. Bu gün müasir Azərbaycan dövləti bu möhkəm təməl üzərində yaranır, güclənir və bölgədə, regionda artıq çox mühüm amilə çevrilibdir".



**Ədəbiyyat**


1. Əliyev İlham. Müasir müstəqil Azərbaycan bütün azərbaycanlıların vətənidir. "Azərbaycan" qəz., 2011, 6 iyul
2. Cəfərov N. Azərbaycançılıq, azərbaycanşünaslıq və əliyevşünaslıq. "Xalq qəzeti", 2011, 11 dekabr
3. Talıbov Y., Talıbov E., Cabbarlı B. Nicat yolunun rəhbəri – müəllim. Bakı, 2005.


**Привитие азербайджанской идеологии молодому поколению**


***Резюме***

Азербайджанство возникло как сфера социально-национального мышления в результате формирования научного мировоззрения нашего народа в течение последних ста лет на основе опыта ведущих стран мира. Политики ограничивали значение азербайджанизма с тюркизмом, исламскими ценностями и современностью. В 1995-2003 годы наш общенациональный лидер Гейдар Алиев неоднократно заявлял, что азербайджанизм носит смысл – наш родной язык, азербайджанский язык, на котором мы говорим, получая большое удовольствие. Это означает – защищать неделимость нашей земли, беречь ее как зеницу ока, сохранить целостность нашего народа, и этим оставаться верными идеалам патриотизма, и распространять по всему миру правду об Азербайджане и азербайджанцев.


**Cultivation of azerbaijan ideology in young generation**


***Summary***

Azerbaijanism has been emerged as a sphere of social-national thinking in the result of formation of scientific outlook of our nation during the last hundred years due to the studied experience of the leading world countries. The politicians confused Azerbaijanizm with Turkism, Islamic values and modernity. During 1995-2003 years our national leader Heydar Aliyev has repeatedly stated that the concept of Azerbaijanizm carried the meaning – our mother tongue, Azerbaijan language that we spoke with great pleasure. Azerbaijanism means to protect the indivisibility of our land, to cherish as the apple of our eye, to maintain the integrity of our people, and to remain faithful to the ideal of patriotism, to spread over the whole world the truth about Azerbaijan and Azerbaijanis.


# ŞAGİRD TƏFƏKKÜRÜNÜN FORMALAŞDIRILMASI PROBLEMLƏRİ


**Şəfəq Fazilova,**

*fəlsəfə doktoru proqramı üzrə dissertant*

*ARTPİ*

E-mail: shafagf@mail.ru



***Açar sözlər:*** *şəxsiyyət, müəllim, şagird, valideyn, məktəb, təhsil prosesi, təfəkkür, müasir texnologiyalar, aktual problemlər*

***Ключевые слова:*** *личность, учителя, ученики, родители, школа, образование, мышление, передовые технологии, актуальные проблемы*

***Key words:*** *personality, teachers, students, parents, school, education, thinking, cutting-edge technologies, actual problems*


Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası "Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəlmişdir və təhsilin məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali olmaqla, bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edir" [2].

İnsan şəxsiyyət kimi doğulmur, şəxsiyyətə tədricən çevrilir. İradəsi, müstəqilliyi, ağlı və yaradıcı təfəkkürü ilə. Bura, həmçinin, gen, tarixi şərait, müəyyən dövr ərzində yaradıcı və qurucu fəaliyyət daxildir. Məlumdur ki, insan həyatında şəxsiyyətin rolu onun problemlərini həll etmək üçündür və sosial mühüt isə şəxsiyyətin formalaşmasında zəruridir. Müəllimlər dərs prosesində şagirdlərin sosial normaları əldə etməsinə çalışmalıdırlar. Bu isə sonda şəxsiyyət təfəkkürünün formalaşmasına gətirir. Şəxsiyyəti müəyyən edən amillərdən biri də xarakterlə bağlıdır. Hər bir insanda xarakter onda edilən təlim və tərbiyənin nəticəsində formalaşır. Düzgün təlim və tərbiyə

düzgün xarakteri müəyyən edir ki, nəticədə şəxsiyyət olmağa doğru mühüm addımlardan biri atılır. Ümumtəhsil məktəblərində müəllimlərin şagirdlərə diktə etdiyi fikirlər, təlqin olunan ideyalar da şəxsiyyət olmağa və ya kimisə şəxsiyyət kimi qəbul etməyə təsir edən amillərdəndir. Məlumdur ki, təhsil cəmiyyətin və fərdin şəxsiyyət qismində daha optimal əlaqələr qura biləcəyi bir məkandır. Bu əlaqələrin nəticələrinin qənaətbəxş olması üçün pedaqoji situasiyalarda şagirdlərə şəxsiyyət kimi yanaşmaq, ona şəxsiyyət kimi münasibət göstərmək, onunla hesablaşmaq lazmdır. Pedaqoji psixologiya nümayəndələri hazırda bu sahədə əldə olunmuş nəticələri "şagirdyönümlülük" anlayışında birləşdirərək onu məktəb təcrübəsinə gətirməyin yollarını axtarmaqdadırlar.

L.S. Vıqotski hələ öz dövründə öyrətmə prosesini incəsənətlə müqayisə edirdi. L.S. Vıqotskinin qənaətinə görə, şagird özünə mürəkkəb fəaliyyət göstərən şəxs kimi yanaşır. O, bir tərəfdən, xarici, pedaqoji şəraiti (təlimin məzmununu, metodlarını, təşkilini), digər tərəfdən daxili (motivini, biliklərini, tədris təcrübəsini, öz fəaliyyətini təşkil etmək bacarığını) determinasiya edir. Onların hər biri əqli fəaliyyətin vasitələridir. Bütün bunlar inkişafetdirici təhsildə şagirdin uğurlu nəticələr əldə etməsinin amili sayılır. Burada müəllimin rolu mühitin təşkilinə – sosial inkişaf şəraitinin normal qurulmasına və dərketmə fəaliyyətinin düzgün istiqamətləndirilməsinə yönəlməlidir. "Uşaq özü hərəkət edəcək, müəllimə yalnız onun fəaliyyətinə rəhbərlik etmək və istiqamətləndirmək qalır" [1]

XXI əsrin şagirdi ona ayrılan bu vəsaitlərdən, göstərilən qayğıdan yaxşıca istifadə etməlidir. Məktəbə gedə bilən, parta arxasında otura bilən şagird sevinməlidir ki, onun oxuması üçün hər bir şərait var. Ancaq hər sinifdə sözün həqiqi mənasında "qonaq" şagirdlər var. Onlar sadəcə səhər "əziyyət" çəkib məktəbə gəlirlər. Baxsan, hər bir dərs ləvazimatı yerindədir: çantası, kitabları, hətta iş dəftərləri... ondan soruşanda ki, qızım, ya oğlum, niyə oxumursan?, susur.

Müəllim öz şagirdlərini sevməlidir, onların psixoloji yaş və əqli keyfiyyətlərini nəzərə almalıdır. Fərdi xüsusiyyətlərini bilmək müəllimə imkan verir ki, şagirdlərin hər birinə düzgün yanaşa bilsin. Düzgün humanist və demokratik yanaşma müəllimi hakim, şagirdi günahkar vəziyyətindən çıxarır, onların arasında qarşılıqlı dostluq və hörmət münasibətlərinin formalaşmasına şərait yaradır [3].

Müəllimlərin maaşlarının, hüquqi statusunun yetərincə olmaması, onların peşəkarlığının artırılması üçün daha yeni elmi-metodiki proqramların yetərincə olmaması, təhsil müəssisələrində müəllim-şagird münasibətlərinin formal xarakter daşıması, kütləvi şəkildə, bir çox hallarda qanunsuz fəaliyyətdə olan repetitorların şagirdləri məktəb mühitindən uzaqlaşdırması, əsassız olaraq açılmış xüsusi hazırlıq kurslarının valideynləri xərcə salması və sair məsələlər təəssüflər olsun ki, hələ də qalmaqdadır. Ən xoşagəlməz hal da ondan ibarətdir ki, söylənilən problemlər üzrə vəziyyət daha da kəskinləşməyə doğru gedir ki, bu da ortaya fərqli nüansların çıxmasını şərtləndirir.

Fikrimcə, şagirdlərə evdə də ciddi nəzarət edilməlidir. Valideynlər dərsdən sonra övladlarının harada olduqları ilə ciddi maraqlanmalıdırlar. Oğlan şagirdlər kompüter salonlarında oyun oynamaqla yox, kompüterdə mövcud olan daha maraqlı proqramlarda işləməyi öyrənməlidirlər. Və ya yuxarı sinif şagirdləri repetitor yanına getdiklərini bəhanə gətirib də, sinifdə-dərs zamanı telefonla sosial şəbəkələrdə "gəzməyi" buraxıb, gündəlik dərslərini də oxumalıdırlar. Bir sözlə, hərtərəfli olmalıdırlar.Ancaq təəssüf ki, bunları anlamayan şagirdlər çoxdur.

Bilirik ki, neçə ildir, siniflər Kurikulum təhsil proqramına əsaslanmış dərs keçirlər. Bu proqram şagirdləri müstəqil işləməyə alışdırır. Dərs zamanı qruplarla işdə bütün şagirdlər çalışır, dərs daha maraqlı keçir. Bəzi valideynlər öz vaxtlarında oxumadıqları üçün, bəziləri də "qızıl " vaxtlarını övladlarına sərf etmədikləri üçün onları elə birinci sinifdən müəllim yanına qoyurlar. (Sözüm evdar analardır.) Mən müəllimlik təcrübəmdən də görürəm ki, məhz savadlı valideynlərin övladları dərslərinə daha yaxşı çalışırlar.

**Ədəbiyyat**


1. Выготский Л.С. Педагогическая психология. М.: Педагогика, 1991.
2."Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı.
3. "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı " adlı Beynəlxalq Elmi Konfransın materialları. Bakı, 5-6 dekabr 2014.
4. Əliyev İ.H. M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının yeni tədris kompleksinin açılışında nitqi. President.az/articles/6391/print saytı. Bakı, 26 sentyabr 2012.




Ш. Фазилова

**Актуальные проблемы формирования личности в современном мире**


*Резюме*

В статье говорится об актуальных методах формирования мышлении личности учеников в современном мире,так как это закладывает основы их здравого мышления в будущем.


S. Fazilova

**Actual problems of personality formation in modern times**


*Summary*

The Institute of Educational Problems of the Republic of Azerbaijan

The article deals with solving methods of actual problems of school students' the thinking personality formation in modern times. Thus, they are the foundation of sustainable healthy thinking in the future.


# GƏNC NƏSLİN TƏRBİYƏ EDİLMƏSİNDƏ AİLƏNİN ROLU


**Elnarə İsmayılova,**
*AMİ-nın Cəlilabad filialının metodisti*
E-mail: e.ismayilova.82@mail.ru



***Açar sözlər:*** *ailə, tərbiyə, uşağın tərbiyəsində valideynin rolu, gənc nəsilin tərbiyəsi, mühit*
***Ключевые слова:*** *семья, воспитание, роль родителя в воспитании ребенка, воспитание молодого поколения, среда*
***Key words:*** *family, bringing-up, the role of parents in the upbringing of the child,education of the young generation, environment*


Bir xalqın inkişaf etməsi üçün sağlam gəncliyin olması mühüm şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual potensialı yüksək olan kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verir, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynayır.

Gənc nəslin tərbiyəsi qətiyyətlə deyə bilərik ki, yaşadığı mühitlə, ünsiyyətdə olduğu insanlarla, təlim-tərbiyə aldığı pedaqoji kollektiv, ən vacibi isə böyüyüb başa çatdığı ailəsi ilə bağlıdır. Bu bir həqiqətdir ki, tərbiyə işində əsas məsuliyyət, ağırlıq ailənin üzərinə düşür. Ona görə də müasir gəncləri şüurlu, dərrakəsi dərin, dünyagörüşü geniş görmək istəyiriksə, ailə tərbiyəsi məsələsini ön plana çəkməli və bu məsələyə ciddi yanaşmalıyıq. Valideynlər tərbiyə işini elə məqsədyönlü qurmalıdırlar ki, övladlarının əxlaqi dəyərlərinə elə zərgər dəqiqliyi ilə fikir verməlidirlər ki, sonda onlara qazandırdıqları üçün peşmanlıq hissi yaşamasınlar. Onlar öz övladlarını elmli, mədəniyyətli, peşəkar olmaları üçün hələ kiçik yaş dövrlərindən hər bir hərəkətlərinə, nitqlərinə, davranışlarına, dostluq etdiyi adamların xarakterinə fikir verməlidirlər.

Bəs nə zaman ailədə tərbiyə sistemi düzgün qurular və ailənin zəhməti hədər getməz, ana-ata, bacı-qardaş arasında qarşılıqlı anlayış və hörmət olar? Bu məqsədə o zaman nail olmaq olar ki, tərbiyə etdikləri uşaqlar, gənclər, yeniyetmələr tutduqları işin mahiyyətini, dedikləri sözün qiymətini dərindən dərk etsinlər, böyüklərə qarşı olan hərəkətlərinə diqqətlə yanaşsınlar.

Ümummilli lider Heydər Əliyev öz müdrik fikrində qeyd etmişdir: "Bizim xalqımızda əsrlərdən bəri formalaşmış, gəlmiş adətlər vardır: kiçiyin böyüyə hörməti, böyüyün də kiçiyə qayğısı, övladın valideynlərinə hədsiz hörməti, valideynlərin də öz övladlarına olan qayğısı və məhəbbəti". Bu, bizim xalqımızın mentalitetidir və biz bununla fəxr etməliyik.

Yeniyetmələrin tərbiyəsi bir sənət əsərinə bənzəyir. Necə ki, rəssam bir tablo yaradır, yazıçı bir yazı yazıb ortaya çıxarır, hər bir uşaq da öz valideynlərinin tərbiyəsi ilə formalaşıb kimlik tapan insan adlı əsərə çevrilir. Bu baxımdan bu, valideynlərin üzərinə düşən, həssaslıq və məsuliyyət tələb edən bir işdir. Ekspertlər tərbiyənin formalaşmasında 3 əsas amil olduğunu qeyd edirlər.

1. Genetik tərbiyə-valideynlərdən fitri, irsi yolla keçən tərbiyə.
2. Təlim nəticəsində əldə olunan tərbiyə.
3. Tərbiyənin formalaşmasında ətraf mühitin rolu.

Bunları nəzərə alaraq qeyd edək ki, övladın saglam tərbiyəsində məsuliyyət valideynlərin üzərinə düşür. Hz.Əli (ə) buyurub:" Atanın övlada ən yaxşı bəxşişi düzgün tərbiyəsidir və heç bir şey onunla müqayisə edilə bilməz".

A.S. Makarenkoya görə, ilk öncə uşaq sağlam mühitdə doğulmalıdır. Yəni, ailənin özünün formalaşmış ailə normaları, ailə rolları olmalıdır. Ailə rolları dedikdə, əsasən valideynlərin, sonra da digər ailə üzvlərinin özlərinə məxsus funksiyaları yerinə yetirməsi nəzərdə tutulur. Ailə mühitinin huzurlu olmasının uşagın mənliyinə təsiri böyükdür. Bu heç də problemsiz ailə demək deyil. Hər ailədə, hər valideynlə uşaq arasında problem yaşana bilər. Əsas olan bu problemin necə həll edilməsidir. Təməlində sevgi və hörmət hissi dayanan münasibətlər valideyn-övlad münasibətlərinin ən düzgün modeli hesab olunur.

Uşağın, yeniyetmənin xarakterinin formalaşmasında ətraf mühitin rolu çox böyük olsa da, onun qarşılaşdığı ilk tərbiyəalma sistemi-ailədir. Ona görə də hələ ilk günlərdən ata-ananın övlada münasibəti, öz aralarında və digər insanlarla davranışlarının uşaq tərəfindən qeydə alındığını və onun təmiz beynində həkk olunduğunu nəzərə almaq lazımdır.

Valideynlərinin hər bir hərəkətini özlərinə örnək götürən uşaq onların bütün davranış tərzlərini mənimsəyir. İmam Əlidən (ə) nəql olunan bir hədisdə buna çox gözəl bir şəkildə işarə edilmişdir: "Həqiqətən də, yeniyetmənin qəlbi xam (işlənməmiş) torpaq kimidir. Ora nə atılsa qəbul edər". Həmçinin Sokratdan "Nə üçün çox vaxt yeniyetmələrlə həmsöhbət olursan" sualına o, "Ona görə ki, nazik və tər budaqları düzəltmək daha asandır, təravəti getmiş, qurumuş ağacı düzəltmək isə mümkün deyildir"- deyə cavab vermişdir.

Ümumiyyətlə, gənc nəsil ailə və məktəbdə formalaşır, mühitdə inkişaf edir. Qazandığı uğurları iş prosesində-peşədə, sənətdə davam etdirərək xalqa, doğmalarına fayda verir. Hər şey özümüzdən asılıdır; gələcəyimiz bu günümüzdən, övladımız tərbiyəmizdən, şagird və tələbələrimiz təhsilimizdən. Bir sözlə, sabahın təməli bu günün necə qoyulmasından asılıdır.


**Ədəbiyyat**

1. Abbasov A. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2010.
2. Axundov S., Həsənov A. Ailədə uşaqların əxlaq tərbiyəsi. Bakı: Maarif, 1991.
3. Kazımov N.M., Həşimov Ə.S. Pedaqogika. Bakı: Maarif, 1996.
4. Həsənov Ə., Ağayev Ə., Pedaqogika. Bakı: Naşir, 2007.
5. A.S.Makarenko. Seçilmiş pedaqoji əsərləri. Bakı, 1950.
6. İbrahimov F., Hüseynzadə R. Pedaqogika: II cild. Bakı: Mütərcim, 2013.


## ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA SAĞLAM HƏYAT TƏRZİNİN VƏ FİZİKİ TƏRBİYƏNİN QARŞILIQLI ƏLAQƏSİ


**Arif İbragimov,**
*ADBTİA-nın dosenti,*
E-mail: Ibraqimov. Arif@mail.ru
**Sabir Elçiev,**
*ADBTİA-nın baş müəllimi*
E-mail: Elciev.Sabir@mail.ru



***Açar sözlər:** sağlam həyat tərzi, fiziki tərbiyə, gigyena, ürək təqəllsünün tezliyi, antropometrik göstərici*
***Key words:** healthy lifestyle, physical education, heart rate, anthropometric data.*
***Ключевые слова:** здоровый образ жизни, физическое воспитание, частота сердечных сокращений, антропометрические данные*


Son zamanlar elm və texnikanın sürətlə inkişaf etməsi nəticəsində insanların fiziki fəallıq səviyyələri xeyli aşağı düşmüşdür. Təbii ki, hadisələrin bu istiqamətdə getməsi sağlam həyat tərzi ilə ziddiyyət təşkil edir. Çünki insanların həyat fəaliyyətlərinin səmərəli olması üçün onlar müəyyən fiziki hazırlıq səviyyəsinə malik olmalıdırlar.

Təhsil müəssisələrində təlim-tərbiyə prosesinin daha səmərəli olması, hər şeydən əvvəl yeniyetmə və gənclərin fiziki hazırlıq səviyyələrindən asılıdır. Çünki insan fəaliyyətinin heç bir formasi irsən keçmir və onlar ancaq çoxsaylı təkrarlar nəticəsində mənimsənilir. Bu prosesin daha tez və keyfiyyətlə həyata keçirilməsi üçün hər şeydən əvvəl insan normal fiziki və psixoloji hazırlığa malik olmalıdır.



Fiziki fəallığın, sağlamlığın möhkəmləndirilməsi və müalicə vasitəsi kimi əhəmiyyətli olması çoxdan məlumdur. Hərəkət fəallığının aşağı düşməsi orqanizmdə morfoloji və funksional dəyişikliklərin getməsinə səbəb olur ki, bu da insan ömrünün qısalmasına ciddi təsirlər göstərir.

Həyat tərzi və peşəkar xüsusiyyətlərlə əlaqədar hərəkət fəaliyyətinin aşağı düşməsi *hipokineziya* adlanır. Hipokineziyanın aşağı düşməsi müxtəlif xəstəliklərin yaranması üçün əsl təhlükə mənbəyidir. Çoxsaylı eksperimentlər və klinik tədqiqatlar vasitəsi ilə müəyyən edilmişdir ki, hərəkət məhdudluğu orqanizmin bütün orqan və sistemlərində mənfi dəyişikliklər əmələ gətirir. Bütün bunlar göstərir ki, hipokineziyadan yarana biləcək problemləri aradan götürmək üçün praktik tədbirlərin görülməsi zəruridir. Bu məsələnin həlli üçün ən səmərəli vasitə müntəzəm fiziki hərəkətlər hesab olunur.

İnsanın sağlamlığı üçün oksigen, qidalanma və vitamin çatışmazlığı kimi «hərəkət qıtlığı» da təhlükəlidir. Müəyyən edilmişdir ki, əgər insan bir neçə həftə hərəkətsiz vəziyyətdə qalsa onun ürək və böyrəklərinin fəaliyyəti pozula bilər. Çünki qan dövranı və maddələr mübadiləsi bilavasitə fəal hərəkət fəaliyyətinin hesabına tənzimlənir.

Tədqiqatlar göstərir ki, müntəzəm fiziki hərəkətlər hipertonik xəstəliklər, piylənmə, diabet, ağ ciyər və böyrək xəstəliklərinin profilaktikası və müalicəsi üçün ən səmərəli vasitədir. Eksperimental tədqiqatlarla müəyyən edilmişdir ki, yetişməkdə olan orqanizmin kifayət qədər keyfiyyətli qida və vitaminlər qəbul etsə də hərəkət fəaliyyəti olmadan onun inkişafı kəskin surətdə aşağı düşə bilər.

Həyat fəaliyyəti prosesində insan orqanizmi bir sıra daxili və xarici təsirlərə uyğunlaşmalı olur. Bu proses adaptasiya adlanır. Adaptasiya qeyri-adekvat şəraitdə insanın normal iş qabiliyyətini təmin edir. İnsanda müxtəlif təsirlərə qarşı adaptasiya əsasən fiziki tərbiyə prosesində yaranır. Orqanizmdə adaptasiya qabiliyyətlərinin formalaşması ilk növbədə insanın fiziki və psixoloji hazırlıq səviyyəsindən asılıdır.

İnsanda qanın tərkibinin tənzimlənməsi bir sıra amillərdən (qidalanma, vitaminlər, təmiz hava) və o cümlədən fiziki yüklərdən də asılıdır. Belə ki, müntəzəm fiziki hərəkət məşğələləri nəticəsində qanda eritositlərin miqdarı artır. Bu zaman qanda hemoqlabinin tərkibi və oksigenin həcmi artır və nəticədə oksigenin nəqli güclənir.

Fiziki hərəkətlərin təsiri ilə ürəyin imkanları genişlənir. Belə ki, fəal hərəkətlərlə məşğul olan insanlarda ürəyin kütləsi, ölçüsü və funksional imkanları daha böyük olur.

Ürəyin iş qabiliyyətinin əsas göstəricisi nəbz vurğusunun tezliyi, qan təzyiqi, qanın sistolik həcmi və bir dəqiqədə olan qan mübadiləsi hesab olunur. Ürək-damar sisteminin işləməsinin ən sadə göstəricisi nəbz vurğusu hesab olunur.

Nəbz vurğusu sol mədəciyin təqəllüsü nəticəsində qanın böyük təzyiqlə ortaya vurulmasıdır. Nəbz vurğusunun tezliyi ürək təqəllüsünün tezliyinə uyğun gəlir və orta hesabla dəqiqədə 60-80 dəfə döyünür. Müntəzəm fiziki yüklər ürək əzələsinin istirahət fazasının hesabına sakit halda nəbz vurğusunun azalmasına səbəb olur. Məşq edən insanlarda fiziki yük zamanı ürək təqəllüsünün tezliyi dəqiqədə 200-220-yə qədər olur.

İnsanın fiziki inkişafını müəyyən etmək üçün əsasən antropometrik göstəricilərdən (boy, bədənin kütləsi, döş qəfəsinin dairəsi, əzələ qüvvəsi) istifadə edilir. Adətən müntəzəm fiziki hərəkətlərlə məşğul olan insanlarda bu göstərici daha yüksək olur. İnsanın fiziki inkişafı onun sağlamlıq göstəricilərindən asılıdır.

Tədqiqatlardan görünür ki, insanın sağlamlığı 10% təbabətin vəziyyətindən, 20% ekoloji amillərdən, 20% genetik amillərdən və 50% həyat tərzindən asılıdır.

Müasir dövrdə sağlamlığın qorunması və möhkəmləndirilməsi üçün fiziki hərəkətlərlə yanaşı gigiyenik qaydalara əməl etməyin də böyük əhəmiyyəti vardır. Gigiyenik qaydaların əsasını yuxu, düzgün qidalanma, iş və istirahət rejimi kimi amillər təşkil edir.

Hər bir mədəni insan şəxsi gigiyenanın qayda və tələblərini bilməlidir. İş qabiliyyətinin bərpa olunmasını tezləşdirmək üçün bədən tərbiyəsi mütəxəssisi köməkçi vasitələrdən də istifadə etməyi

bacarmalıdır. Bu prosesin fiziki hərəkət və təbiətin sağlamlaşdırıcı qüvvələri ilə vəhdət təşkil etməsi zəruridir.

Təlim və tərbiyənin pedaqoji, fizioloji və gigiyenik prinsiplərinin pozulması insanın sağlamlığına ciddi təsirlər göstərə bilər. Buna görə də fiziki tərbiyə prosesində tibbi-pedaqoji nəzarətin olması zəruridir. Hər bir bədən tərbiyəsi mütəxəssisi tibbi nəzarətlə bağlı praktik və nəzəri biliklərə malik olmalıdır.

**Ədəbiyyat**

1. Киколов А.И. Обучение и здоровье. М., 1985.
2. Афанасьев В.А. Общая валеология. М., 2000.
3. Виленский М.Я. Физическая культура и здоровый образ жизни студента. М., 2012.

## FİZİKİ TƏRBİYƏ PROSESİNDƏ MƏNƏVİ KEYFİYYƏTLƏRİN FORMALAŞMASINDA OLAN ƏSAS PROBLEMLƏR

**Məhəmməd Əsgərov,**
*ADBTİA-nın baş müəllimi*
E-mail:Askerov. Muhammed@mail.ru
**Lütfiq Cəfərob,**
*ADBTİA-nın baş müəllimi*
E-mail: Cafarov.Lutfiq@mail.ru
**Zaur Hacıyev,**
*ADBTİA-nın müəllimi*
E-mail: Hadjiyev. Zaur@mail.ru

***Açar sözlər:** mənəvi tərbiyə, fiziki tərbiyə, sağlamlıq, forma, funksiya*
***Key words:** moral education, physical education, health, form, function*
***Ключевые слова:** нравственное воспитание, физическое воспитание, здоровье, форма, функция*

Məlum olduğu kimi, bədən tərbiyəsi insanların həyat fəaliyyətinin müxtəlif sahələrinə təsir göstərə bilən ən səmərəli təsir vasitələrindən biridir. Bu problemlə təkcə bədən tərbiyəsi və idman mütəxəssisləri deyil, eyni zamanda digər dövlət və ictimai təşkilatları da məşğul olurlar. Son zamanlar elmi-texniki tərəqqinin sürətli inkişafı tədricən fiziki əməyi sıxışdırıb aradan çıxartdığına görə, insanların fiziki fəallığı məhdudlaşır.

Mütəxəssislər hesab edirlər ki, sağlamlığı möhkəmləndirmək üçün ən optimal təsir vasitəsi fiziki hərəkətlərdir. Fiziki hərəkət məşğələləri yeniyetmələrdə fiziki qabiliyyətlərlə yanaşı onların mənəvi tərbiyəsinə də müsbət təsirlər göstərir. Ona görə də insanların mənəvi və fiziki sağlamlığı uğrunda mübarizə aparmaları zəruridir.

Ölkəmizdə kütləvi xarakter daşıyan bədən tərbiyəsi hərəkatı kifayət qədər ciddi ictimai təhlükə çevrilmişdir. Bədən tərbiyəsinin cəmiyyətdəki təyinatını müəyyən etmək üçün ilk növbədə onun forma və funksiyaları təhlil edilməlidir. Bədən tərbiyəsinin forma və funksiyalarını təhlil etməklə onun hər bir insana və bütövlükdə cəmiyyətə göstərə biləcək real və potensial imkanlarını müəyyən etmək olar.

Bədən tərbiyəsinin forma və funksiyalarının dərin tarixi kökləri vardır. Bununla belə bədən tərbiyəsində «funksiya» termini son illərdə yaranmışdır. Əvvəllər «funksiya» anlayışı əvəzinə «məqsəd», «vəzifə», «təyinat» və «rol» kimi kateqoriyalar tətbiq edilirdi. Bu kateqoriyalar həmin termini tam əhatə etməsələr də müəyyən mənada özlərini doğruldurlar. «Bədən tərbiyəsinin formaları» anlayışına gəldikdə isə o çox zaman «komponent», «növ» və digər bu tipli sözlərlə əvəz edilirdi.



Bədən tərbiyəsi və idman fəaliyyəti əzələ-sinir sistemi ilə yanaşı psixika, şüur, düşüncə, davranış, mənəviyyat və digər sahələri də əhatə edir. Ona görə də fiziki tərbiyə prosesində fiziki qabiliyyətlərlə yanaşı mənəvi tərbiyənin tərkib hissələri olan əxlaq, zehni, estetik və digər qabiliyyətlər də inkişaf edir.

Cəmiyyətdə mövcud olan müstəqil tərbiyə növlərindən biri də mənəvi tərbiyədir. Hər bir sivill cəmiyyətdə şəxsiyyətin hərtərəfli və ahəngdar qaydada formalaşması üçün mənəvi tərbiyəyə geniş yer verilir.

Mənəvi tərbiyənin əsasını şəxsiyyətin formalaşmasına yönəldilən müxtəlif pedaqoji vəzifələrin həll edilməsi prosesi təşkil edir. Bu proses müəyyən məntiqi ardıcıllıqla həyata keçirilir.

Fiziki tərbiyə ilə mənəvi tərbiyə arasında şəxsiyyətin hərtərəfli və ahəngdar inkişafının qanunauyğunluğu ilə şərtləndirilən qarşılıqlı əlaqə mövcuddur. Bu proses məqsədyönlü xarakter daşımalı və təkcə məktəbdə həyata keçirilən tərbiyə prosesi ilə məhdudlaşmamalıdır. Lakin bununla belə bu məsələnin həllində əsas məsuliyyət məktəbin üzərinə düşür.

Fiziki tərbiyə prosesində mənəvi tərbiyə şüur, davranış və hisslərə təsir etməklə həyata keçirilir. Yəni mənəviyyatın formalaşması cəmiyyətdə aparıcı təfəkkürün və real həyat tərzinin əsasında baş verir. Gözlənilən nəticələrə nail olmaq üçün bu amillər eyni istiqamətə yönəlməlidir. Əks halda tərbiyə prosesindən müsbət nəticə əldə edilə bilməz. Məsələ burasındadır ki, fiziki tərbiyə prosesinin təşkil edilməsindən asılı olaraq müxtəlif nəticələr alına bilər. Bu prosesdə məşğul olanlarda sadəlik, doğruçulluq, kollektivçilik və eləcə də eqoizm və kobudluq kimi xüsusiyyətlər formalaşa bilər.

Fiziki tərbiyə prosesində ən önəmli problemlərdən biri də yetişməkdə olan nəslin milli vətənpərvərlik və ümumbəşəri dəyərlər əsasında tərbiyə edilməsidir. İnsanın kamil bir şəxsiyyət kimi formalaşması üçün bu dəyərlərin vəhdəti zəruridir. Yeniyetmə və gənclərin mənəvi tərbiyəsində bu amillər ən səmərəli təsir vasitəsi hesab olunur.

Şəxsiyyətin mənəvi cəhətdən formalaşması və onun hərtərəfli inkişafı üçün gənclərin asudə vaxtının səmərəli təşkilinin böyük əhəmiyyəti vardır. Asudə vaxtı təşkil etməyin ən geniş yayılmış formalarından biri də dərsdənkənar bədən tərbiyəsi və idman tədbirləridir. Bədən tərbiyəsi tədbirlərində aparılan tərbiyəvi işlər dərsdənkənar tədbirlərdə davam etdirilir və tamamlanır.

Yeniyetmə və gənclərdə mənəvi tələbatı formalaşdırmaq üçün dərsdənkənar bədən tərbiyəsi və idman tədbirləri pedaqoji baxımdan düzgün təşkil edilməlidir. Dərsdənkənar bədən tərbiyəsi və idman tədbirləri yetişməkdə olan gənc nəslin fiziki tərbiyəsinin məqsəd və vəzifələrinin əsasında təşkil edilməlidir. Burada uşaqların maraqları da nəzərə alınmalıdır. Çünki bu tədbirlər könüllülük prinsipi əsasında həyata keçirilir.

Sistemli ardıcıl və fasiləsiz qaydada təşkil edilən dərsdənkənar fiziki tərbiyə və idman məşğələlərinin tərbiyəvi təsirləri altında yeniyetmə və gənclərdə mənəvi təsəvvürlər, anlayışlar formalaşır, əxlaqi-etik biliklər zənginləşir və təkmilləşir. Elə buna görə də cəmiyyətimizin müasir inkişaf mərhələsində mənəvi əqidənin formalaşmasına xüsusi diqqət yetirilir. Bu vəzifələrin müəyyən bir hissəsi dərsdənkənar bədən tərbiyəsi və idman məşğələlərində həll edilir.

Apardığımız müşahidələrin nəticələri göstərir ki, orta ümumtəhsil məktəblərinin əksəriyyətində dərsdənkənar tədbirlər prosesində mənəvi tərbiyə ilə bağlı işlərin təşkili dövrün tələblərinə tam cavab vermir. Uşaqların psixo-fizioloji xüsusiyyətləri tam nəzərə alınmır. Bəzən zehni əməklə fiziki iş düzgün növbələşdirilmir ki, bu da mənəvi tərbiyənin formalaşmasını müəyyən qədər ləngidir.

Fiziki tərbiyə ilə əxlaq tərbiyəsinin qarşılıqlı əlaqəsinə nail olmaq üçün təbliğat işləri aparılmalı və bu işə valideynlər də cəlb olunmalıdırlar. Məktəb bədən tərbiyəsi müəllimi bu məsələ ilə bağlı valideynlərlə müəyyən izahat işləri aparmalı və onlarla bədən tərbiyəsi və idmanla əlaqədar maarifləndirmə işləri aparmalıdır

**Ədəbiyyat**

1. Киколов А.И. Обучение и здоровье. М., 1985.
2. Афанасьев В.А. Общая валеология. М., 2000.
3. Виленский М.Я. Физическая культура и здоровый образ жизни студента. М., 2012.

# TƏHSİLALANLARIN ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASI

**Mətanət Abbasova,**
*Azərbaycan Müəllimlər İnstitutunun metodisti*
E-mail:metanetabbasova@mail.ru

***Açar sözlər:*** *müəllim-şagird, əməkdaşlıq, şəxsiyyət, pedaqoji proses*
***Ключевые слова:*** *учитель-ученик, сотрудничество, личность, педагогический процесс*
***Key concepts:*** *teacher-student, cooperation, personality,pedagogic prosess*

Ümummilli lider Heydər Əliyev xalqın, cəmiyyətin inkişaf etdirilməsində təhsilin müstəsna rol oynadığını dönə-dönə qeyd etmişdir. Bununla bağlı demişdir: "Azərbaycan müstəqil dövlət kimi yeni iqtisadi, siyasi yolla gedərək, dünyanın bütün ölkələrinin, xüsusən Qərb ölkələrinin təcrübəsindən istifadə etməyə çalışır və təhsilin də təkmilləşdirilməsində bu təcrübədən istifadə etmək lazımdır".

Görkəmli rus psixoloqu, müasir pedaqoji psixologiyanın banilərindən biri olan L.S. Vıqotskinin nəzəriyyəsinə görə təlim inkişafı qabaqlamalı, uşağın «yaxın inkişaf zonasına» yönəlməlidir. Bu inkişaf zonasında uşağın potensial imkanları mərkəzləşib, onları aktuallaşdırmaq üçün xüsusi təlim şəraiti yaradılmalıdır. Buna nail olmaq üçün şagirdlərə imkanlarına uyğun, lakin bir qədər mürəkkəb tapşırıqları müstəqil həll etmək təklif edilməlidir. Eyni zamanda, müəllim və digər maraqlı tərəflər onları problemin həllinə istiqamətləndirməlidirlər. Yəni, təlim uşağın özünün müstəqil fəaliyyəti və ya böyüklərin köməyi sayəsində bilik və bacarıqları əldə etmək üzrə aşkarlanan potensial imkanlarının gerçəkləşdirilməsinə yönəlməlidir. İnkişafedici təlim ilk növbədə təfəkkürü və yaradıcılığı formalaşdırmalıdır.

Müasir dövrdə baş verən sürətli dəyişikliklər təlimin qarşısında şagirdlərin həyata hazırlanması məsələsini daha kəskin qoyur. Bunun üçün ilk növbədə, təlim cəmiyyətin inkişaf meyillərini əks etdirməli və yeni nəsli yaxın gələcəkdə həyat şəraitinə hazırlamalıdır. Məktəb şagirdə baza bilik, bacarıq və vərdişləri verməklə kifayətlənməməlidir. O, eyni zamanda onda zəruri kompetensiyaları formalaşdırmalıdır. Təlim şagirdə zəruri olan informasiyanı müstəqil əldə etməyi, onu yenidən işləməyi, düzgün istifadə və tətbiq etməyi öyrətməlidir.

Təlim-tərbiyə sisteminin çevikliyi ilk növbədə, onun real şəraitə uyğunlaşmaq qabiliyyətidir. İctimai mühitin və şagirdlərin dəyişən tələbləri nəzərə alınmaqla, tədris planları və proqramlarının (kurikulumun) məzmunu, təlim-tərbiyə prosesinin təşkili, pedaqoji texnologiyaların seçilməsi sistematik olaraq təzələnməlidir.

Göründüyü kimi, yaranan «Müəllim-şagird» qarşılıqlı münasibətləri sistemində bu subyektlərin hər biri təlim prosesində tərəf müqabili kimi iştirak edir. Əgər şagird təlim prosesində müəllimlə bərabərhüquqlu şəxs kimi çıxış edirsə, bu onun fəaliyyətində yeni bir keyfiyyət yaradır: şagirdin özünə inamı artır, o öz fikrini çatdırmaqda cəsarət nümayiş etdirir, öz potensial imkanlarını gerçəkləşdirir. Əməkdaşlıq şəraitində yaranan təlim mühiti şagird üçün daha əlverişli, fəallaşdırıcı və ruhlandırıcı olur.

Bu səbəbdən də təlim müasir uşağı dövrünün həyatına hazırlamağı bacarmalıdır. Təlim daim dəyişən dünyanın reallıqlarından kənarda mövcud ola bilməz. Hər hansı təlim və tərbiyə sisteminin qurulmasının başlıca istiqamətverici amili yetişdirdiyimiz şəxsiyyəti necə tərbiyə etmək istəyimizdən asılıdır.

Bu baxımdan müasir təlimin başlıca vəzifələrdən biri öyrənməyi öyrətməkdir, yəni, şagirdləri biliklərin müstəqil əldə edilməsinə yiyələndirməkdir. Yalnız təlim metodlarının keyfiyyətcə dəyişdirilməsi, onların şəxsiyyətə, onun tələbatlarına yönəldilməsi, bilikləri mənimsəmə zamanı yaradıcı təfəkkürdən fəal istifadə edilməsi şəraitində təlim böyük səmərə verər. Eyni zamanda şəxsiyyətyönümlü tədris prosesi həmçinin tərbiyəvi proseslərin keyfiyyətinə də təsir edəcək: idrakı və sosial fəallığı, şəxsiyyətin dəyərləri və vərdişləri formalaşdıracaq.



**Ədəbiyyat**

1. Abdullayev Ə.A., Uşaqlarda hisslərin və temperamentin inkişafı. Bakı, 1966.
2. Bayramov Ə.S., Əlizadə Ə. Ə. Psixologiya. Bakı, 2002.
3. Veysova Z.A., Fəal/interaktiv/ təlim. Bakı, 2007.

**Актуальные проблемы в формировании личности в современном мире**
*Резюме*

В статье речь идет об актуальных проблемах формирования личности в современном мире. Сотрудничество учителей и учащихся играет значительную роль в процессе обучения и в реализации потребностей и мотивов.

**Actual problems in the formation of identity in the modern world**
*Summary*

In the article," we are talking about the actual problems in the formation of identity in the modern world. The education system should one of the global challenges that are izuchayushim factor influencing the formation of identity. Cooperation of teachers with students playing a significant role in the learning process and in the implementation needs and motives.

# XARİCİ ÖLKƏ TƏCRÜBƏSİNDƏ UŞAQ-GƏNCLƏR İDMAN- FİZİKİ TƏRBİYƏ HƏRƏKATI

**Hicran Şərifov,**
*fəlsəfə proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: hijran_sharifov@yahoo.com

***Açar sözlər:*** *uşaq-gənclər idman hərəkatı, əməkdaşlıq, sosial inkişaf, ümumavropa hərəkatı, prioritetlər, innovasiya, idman proqramı, fakultativ məşğələ, idman bölməsi*
***Ключевые слова:*** *детско-юношеское спортивное движение, сотрудничество, социальное развитие, общеевропейское движение, приоритеты, инновационная деятельность, спортивные программы, факультативные занятия, разделы секции спорта*
***Key words:*** *child youth sport, movement, cooperation, social development, priorities, innovation, sport program, sport department*

Azərbaycan Respublikasında idman yüksək səviyyədə inkişaf edir. İnfrastruktur, maddi-texniki baza dünya standartlarına cavab verən şəkildə yenidən qurulur. Bir neçə gündən sonra Azərbaycanda ilk Avropa oyunları keçiriləcəkdir. Dövlət uşaq-gənclərin fiziki tərbiyəsinə xüsusi diqqət yetirir, ölkədə olan ənənəni qorumaqla yanaşı, xarici təcrübəni də öyrənərək, yaxşı cəhətlərini tətbiq etməyə çalışır (2).

Qərbi Avropanın əksər ölkəsində uşaq-gənclərin idman-fiziki tərbiyə hərəkatının məqsəd və vəzifələri onların müxtəlif səviyyədə inkişafını formalaşdırmaqdır. Belçikada, İtaliya, Luksemburq, Portuqaliya və Fransada dövlət səviyyəsində, Almaniya, İspaniya və İsveçrədə isə regional, yaxud yerli şəraitdə həyata keçirilir. Bütün Avropa idmanda əməkdaşlığı Avstriya, İsveçrə və Skandinaviya ölkələrində birinci yerdə uşaq və gənclərin sosial inkişafı, idman həyatında fəallığı inkişafını təmin olunur.

1940-cı ildə Avropa Birliyi fiziki tərbiyə və idman üzrə böyük əhəmiyyətə malik Avropa Konversiyası qəbul edir. 1978-ci ildə Avropa Birliyi idmanın inkişafı üzrə Komitə yaradır.70-ci illərdən "İdman hamı üçün" ümumavropa hərəkatına çevrilir. 1975-ci ildə Brüseldə Avropa ərazisində idmanın hamıya aid olması üzrə Xartiya qəbul olunur (3).

Xartiya çərçivəsində hər üç ildən bir idman nazirləri konfransda görüşürdülər. 1991-ci ildə Mərkəzi və Qərbi Avropa ərazisində idmanın prioritet sahələrinin inkişafının prioritet sahələrini

əhatə edən proqram qəbul olunur. İdmanda islahat, innovasiya və hazırlığı əhatə edən proqram bütün ərazini əhatə edir.

Bütün Avropa ərazisində vahid fikir formalaşır ki, idman uşaq-gənclər üçün çox əhəmiyyətli işdir. Siyasi məqsədinə görə idmançı ilə heç vaxt manipulasiya edilməməli, bütün dünyada "hamı üçün idman" ideyası müdafiə olunmalı, gənclərə idmanın müxtəlif təmrinləri aşılanlanmalıdır. Avropada hazırlanan proqram 2 əsas elementi özündə birləşdirirdi:

a) mobil seminar – problemin konkret hər hansı ölkədə yerinə yetirilməsi, müəyyənləşmiş prinsiplərə – idmanda demokratiya, kütləvi idman və s. riayət olunması;

b) ümumi problemləri həll etmək üçün geniştərkibli görüşlərin təşkil edilməsi.

09 may 1995-ci il tarixdə Lissabonda bütün Avropa ölkələrinin nazirləri təşkil olunmuş konfransda görüşərək "İdman və gənclik" Avropa üçün Manifest qəbul edirlər. Burada gənclərin idmanla məşğul olmasına istiqamətləndirilməsi onların sosial probleminin həllinə, dözümlü olmasına, aqressivlikdən, narkomaniyadan, alkokolizmdən uzaqlaşmalarına gətirib çıxaracağını əsaslandırırlar. İdman gənclərdə özünəinam, özünüqiymətləndirməni və özünütəkmilləşdirməni formalaşdırır.

1972-ci ildə məktəblərdə xidmət göstərən idman üzrə Beynəlxalq Federasiya fəaliyyətə başlayır və 61 milli məktəb burada birləşir. Beynəlxalq Federasiya iki ildə bir dəfə futbol, həndbol, basketbol, voleybol, kross və xizəksürmə üzrə yarışlar təşkil edir. Dörd ildə bir dəfə isə gimnastika, proqramları üzrə müasir idman (yüngün atletika, üzgüçülük, gimnastika), Olimpiada oyunu təmin olunur (4).

1992-ci ilin mayında keçirilən VII konfrans idman sahəsində əməkdaşlıq haqqında Avropada İdman Xartiyası qəbul etdi. Xartiya Avropada uşaq-gənclər arasında idman – fiziki tərbiyə hərəkatının genişlənməsinin əsasını qoydu.

Avstriya uşaqların fiziki tərbiyəsinin formalaşmasına xidmət göstərən gənc ailəni, müəllimləri, məşqçiləri əhatə edən "İdmanın özü" proqramını qəbul edir. Fillandiya məktəbəqədər və gənc ailələri özündə birləşdirən İdman-Sağlamlıq Assosasiyası yaradır. Assosasiya aşağıdakı başlıqlar altında uşaqlara bir neçə kurs təklif edir: "Gimnastika – kiçik şagirdlər üçün" (bir aylıqdan iki yaşına qədər); "Böyük uşaqlara" (2 yaşdan 4 yaşa qədər); "Sehrli gimnastika" (4 yaşdan 6 yaşa kimi).

Böyük Britaniya uşaqların möhkəmlənməsinə və inkişafına xidmət edən idman proqramları qəbul edir. Proqram üzrə təklif olunan yarışların nəticəsinə görə uşaq-gənclər qızıl, gümüş və bürünc medala layiq görülürdülər.

Belçika, Almaniya, Lüksemburq və Fransada fiziki tərbiyə üzrə rəsmi proqram və direktiv sənəd qəbul olunmuşdur.

Böyük Britaniya, Norveç, Şvessiya, Fillandiyada idman məşğələlərinin məzmununu seçmək metodu sərbəstdir. Təlim proqramı buraxılış sinfi və böyük yaşlı uşaqlar üçün eyni olur. Fiziki tapşırıqları icra edəndə gücə və yaşauyğunluq nəzərə alınır.

Son onillikdə Qərbi Avropa ölkələrinin əksəriyyətində idman – fiziki tərbiyə rolunu oynayır. Məktəbdə fakültativ məşğələ şəklində keçilən dərsləri uşaq-gənclər daha çox seçirlər. Bu onların birliyinə, əməkdaşlığına, vahid komandada əməkdaşlıq etmələrinə kömək edir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi 10 il. Bakı, 2002.
2. 2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf strategiyası, "Azərbaycan" qəz., 2015, 26 yanvar
3. Вульфсон Б.Л. Сравнительная педогогика. УРАО. М., 2003.
4. Данилов А.Н. Развитие образования в современном мире: Учебное пособие. -М.: ВЛADOS, 1999.




**Х. Шерифов**

**Спортивно – физическое воспитание детей и молодежи в практике зарубежных стран**


***Резюме***

В докладе тезиса говорится о спортивно-физическом развитии детей и молодежи. Проведенная в нашей стране работа в этой области сравнивается с работой в зарубежных странах. Западно-европейские страны исследуют ситуации развития спортино-физического воспитания детей и молодежи. Популяризация спортивно-физического воспитания детей и молодежи объясняет причины развития спорта.


**H. Sherifov**

**Sports – physical education of children and youth in the practice of foreign countries**


***Summary***

This thesis deals with the development of the history if child-youth physical education activity. The job has been alone in our country with other countries. Looked over the position have the child-young people do sport. Western European countries are investigating the situation of Sportin physical education of children and youth. Popularization of sports and physical education of children and young people explains why the development of sport.

## ÖĞRENCI BAŞARISINDA ÖĞRETMENIN ETKILERI

**Yard.Doç.Dr.Davut İbrahimoğlu**
*İstanbul Esenyurt Üniversitesi Öğretim Üyesi*
*Türkiye*
davuti@hotmail.com

### ÖNSÖZ

Eğitim ve öğretimi insanlara kazandırmakla görevli kurumlarda okullardır. Okullarda verilen eğitim ve öğretimin verimli olmasını etkileyen pek çok faktör vardır. Bu faktörler içerisinde hiç kuşkusuz en önemlilerinden biri de iletişim ve yakınlaşmadır.

Öğrenme bir iletişim işidir. Sınıf ortamında öğrencinin hem öğretmenin düzenlediği çevreyle (öğrenme durumlarıyla) hem de direk öğretmenle etkileşim içerisinde olmasına bağlıdır. İletişimin ön koşulu öğrencinin öğretmen tarafından sunulan mesajı öğrencinin tam ve doğru olarak almasıdır. İletişim bir paylaşma sürecidir. İletişim sürecinde öğretmen öğrenciyle bilgilerini, düşüncelerini, tutumlarını, duygularını ve kişisel görüşlerini paylaşmaktadır (Nas, 1989, s.6 alıntı Tekin, 1980, s.15).

Öğretmen zeki, uyumlu, ileriyi görebilen teknolojik altyapıya sahip, güven verici bir sınıf atmosferi sağlayabilen, çocukta baskı ve kızgınlık yaratmak yerine onları çeşitli etkinliklere yöneltebilen donanımlı bir birey olmalıdır (Çubukçu, 1991, s.54 alıntı Gürkan, 1986, s.124).

Öğretmen davranışları öğrenme sürecini doğrudan etkilemektedir. Ayrıca öğrencinin kişilik gelişimini de etkilemektedir ve davranışlarını değiştirmesinde çok önemli rol oynamaktadır. Çağı yakalamak, ona uyum sağlamak ve çağın ötesine geçmek eğitim sistemimizin temel gayesidir. Artık dünyamızda düşünen, düşündüğünü rahatlıkla ifade edebilen, soran, sorgulayan, sorumluluk alan, kişisel bütünlüğe ulaşmış demokrat bireylere ihtiyaç duyulmaktadır. Eğer öğretmen bu davranışları benimseyip uygularsa, onun yetiştireceği bireyinde onun gibi olacağını düşünmek pekte yanlış olmasa gerektir. Bunun için dünyada gelişmiş ülkeler öğretmen davranışlarına çok ehemmiyet vermektedirler. Bu ülkelerde öğretmen davranışlarının ölçülmesine yönelik araştırmalar yapılmaktadır (Göksu, 1998, s.i). Gelişmiş dünya ülkeleriyle beraber ülkemizde de bu konuda birçok araştırma yapılmıştır.

Okullarda ders veren öğretmenler gerek karakterleri gerekse aileden ve kendi eğitimlerinden kaynaklanan nedenlerle öğrencilerine karşı farklı yakınlık davranışları göstermektedir. Kimi öğretmen öğrencilerine karşı sık sık iltifat ederken kimi öğretmen çok ender olarak iltifatta bulunur. Kimi öğretmen ders esnasında vücut dilini olumlu kullanabilirken kimi öğretmen vücut dilini etkili kullanmakta yetersiz kalır.

### AMAÇ

Bu çalışmanın amacı, öğretmenlerin sınıftaki davranışlarının öğrencilerin başarıları üzerinde etkili olup olmadığının ortaya çıkarılarak öğretmenlerin bu bilgiler ışığında sınıftaki davranışlarını yeniden gözden geçirmelerini sağlamaktır.

Kaynak ile hedef arasındaki düşünce, duygu, fikir ortaklaşmasına iletişim denir (Eryılmaz,1987, s.30). İnsanlar gündelik yaşamlarını bütününde olduğu gibi okul yaşamlarında da çevre ile iletişim içerisindedir. Okuldaki iletişimde kaynak pozisyonunda olan çoğunlukla öğretmendir. Çünkü çocuğa okulda en yakın ve etkileyici olan öğretmendir. Okuldaki iletişimin etkililiğinde de en önemli unsur yine öğretmendir.

Çocuk öğretmeninin kendisine karşı sergilediği tutum ve davranışlardan yola çıkarak kendisinsin toplum içerisinde önemli bir birey olduğunu düşünebilir. Ya da kendi benliğinin önemini kavrayamayacak hatta önemsiz olduğu nu hissedecek düşüncelere kapılabilir. Öğretmen çocuk üzerindeki bu etkiyi iletişim sayesinde gerçekleştirir (Kolburan Geçer,2002, s.13 alıntı Kılıççı, 1989, s.22).



Öğretmenlerin öğretim sürecinde sergiledikleri davranışların öğrenciler üzerinde olumlu ya da olumsuz birçok etkisi bulunmaktadır. Öğretmenlerin sergiledikleri olumlu tutum ve davranışlar öğrencileri başarıya götürmekte ve başarılı öğrencinin benlik duygusu gelişmektedir. Öğretmenlerin sergiledikleri olumsuz tutum ve davranışlar ise öğrencileri okuldan soğutmakta, başarısızlığa götürmekte ve bunun sonucunda da öğrencilerin benlik duygusu yeterince gelişememektedir (Kolburan Geçer, 2002, s.13 alıntı Kılıççı, 1989, s.99).

Bütün bu açıklamalardan öğretmen davranışlarının bir bireyin hayatında ne kadar büyük bir öneme sahip olduğu anlaşılmaktadır.

### ÖĞRENCİNİN BAŞARISINI ETKİLEYEN FAKTÖRLER

Ülkemizde uygulanan eğitim sisteminde öğrencilerin başarısı; öğrencilerin yılda iki sefer aldıkları karne notlarıyla ifade edilmektedir. Yani öğrenci başarısını belirlemede en önemli addedilen ve en belirleyici kabul edilen kriter, öğrencilerin karneye yansıyan notu olarak değerlendirilmektedir (Güleç ve Alkış, 2003, s.:20)

Öğrencilerin başarılarında da etkili olan birçok faktörden söz etmek mümkündür.

Güleç S ve Alkış S.'ye göre öğrenme değişkeni olarak adlandırılan bu faktörler tümüyle fizyolojik, psikolojik ve toplumsal durum ve koşullarla ilgilidir. Ayrıca öğrenme güdüsü zihinsel olmayan birçok faktörden de etkilenmektedir. Bunlar; başarı güdüsü, kaygı, aile nitelikleri, sosyo-ekonomik özellikler, okul ve eğitim koşulları, sağlık koşulları gibi unsurlardır (2003, alıntı, Özgüven, 1998).

Düzgün E.'ye göre de öğrenmeyi etkileyen faktörler beş ana başlıkla ilişkilendirilmiştir. Bunlar; 1. öğrenen, 2. öğrenme yöntemi, 3. öğrenme malzemesi (öğrenilen), 4. öğreten ve 5. öğrenme ortamıdır. Öğrenenle ilgili olanlar türe özgü hazır oluş, olgunlaşma, genel uyarılmışlık hali ve kaygı, eski yaşantılar, güdü (motivasyon) ve dikkat gibi unsurlardır. Öğrenme yöntemiyle ilgili olanlar öğrenmeye ayrılan zaman, öğrenilen konunun yapısı, öğrencinin aktif katılımı ve geribildirimdir (2004, s.25).

Okumuş M.'ye göre de öğrencilerin başarısını etkileyen birçok faktör vardır ve bu faktörleri okul içi ve okul dışı (ailesel, çevresel ve gelişimsel ) faktörler olarak sınıflandırmak mümkündür. Eğitim sistemi açısından okul dışı faktörleri kontrol altına almak olukça zordur. Bunun yanında okul içi faktörleri kontrol etmek daha kolaydır. Eğitim ve öğretim faaliyetlerinin daha sağlıklı bir şekilde gerçekleşebilmesi için, okulun öğretimi kolaylaştıracak şekilde tanzim edilmesi büyük önem taşır. Eğitim ve öğretim faaliyetlerini kolaylaştırmak ve öğrenci başarısını artırmak için öğretim hizmetlerinin nitelikleri (Öğretmen- öğrenci ilişkisi, ders araçları, okulun ve sınıfın fiziki imkânları, hedef- içerik örgütlenmesi) etkili hale getirilmelidir (2002,s.2 alıntı Güven, 1996, s.30).

Öğrenci başarısını etkileyen faktörlerden en belirleyici olanlarından birisi belki de en önemlisi öğretmendir.

Öğretmen öğrencileriyle kurduğu iletişim ve etkileşim sonucunda öğrencileri üzerinde olumlu ya da olumsuz birçok etkiye yol açar. Okul hayatında öğretmeni seven öğrenci o öğretmenin dersini de sever. Hatta öğrenci ileride öğretmenini sevdiği dersle ilgili bir meslek sahibi bile olabilir. Sevilmeyen öğretmen davranışlarından dolayı da öğrenci o dersten hatta okuldan soğuyabilir. Bunun sonucunda da öğrencinin eğitim hayatı olumsuz etkilenebilir. Bazen öğrencinin eğitim hayatını sonlandırmak istemesi ile de karşılaşılabilir. Görüldüğü üzere öğretmen davranışları çocuğun benliği ve hayatı üzerinde çok önemli etkilere sahiptir (Kolburan Geçer, 2002, s.13).

### EĞİTİM BAŞARISI VE ÖĞRETMEN DAVRANIŞLARI

Karşımızdaki insanla iletişim kurarken ve ona bir mesajı iletirken, 3 kanalı kullanırız. Söz, ses ve beden dili (İzgören, 2000, s.5).

Bu kanalların iletişimde etki düzeyleri birbirinden farklıdır. Prof. Dr.Albert Mahrebian ve Ferris'in 1967'de Yaptığı araştırmanın sonuçlarına göre mesajın ulaşma kanallarının etkisi söz %7,

ses %38, beden dili ise %55 olarak belirlenmiştir. Son dönemde yapılan bazı araştırmalarda bu kanallardan sözün etkisini %15 olarak belirleyenler de olmuştur (İzgören,2000, s.6–7).

Tabii bu oranların her konuşmada böyle olmayabilir. Kişilerin kültür düzeylerine, konuşulan konuya, atmosfere, mesajın duygu mu düşünce aktarımı mı oluşuna göre sözün, sesin ve beden dilinin etkileri farklılık göstermesi muhtemeldir (İzgören, 2000, s.9). Öğretmenlerde öğrencileriyle kurdukları iletişimde bu kanalları kullanırlar. Fakat çoğunlukla iletişimde davranışlarımızın, ses tonumuzun etkisinin bu düzeyde olduğu bilinmez.

Okullarda eğitim öğretim etkinliklerinin başarıya ulaşabilmesi için okulların fiziksel donanımının geliştirilmesi tek başına yeterli değildir. Fiziksel donanımın yanında, öğretmenlerin tutum ve davranışları da eğitim-öğretim etkinliklerinin başarıya ulaşmasında önemli bir etkendir. Okul ve öğretmen eğitim öğretim yaşamının iki temel öğesidir. Öğrencinin dersi sevmesi, çalışma alışkanlığı kazanması, benimseyeceği değer yargıları, tutum ve davranışları açısından öğretmenin rolü büyüktür. Öğretmen ders içi etkinliklerde olduğu kadar çocuğun kendini gerçekleştirme ve benlik oluşturma sürecinde de rehber olma vazifesi vardır. Çocuk okula gitmeye başladığından itibaren anne-baba modeli yerine artık öğretmeni koymaktadır. Ve kendini öğretmeni ile özdeşleştirmeye başlar. Bu yüzden öğretmen kişiliği, tutumları ve davranışlarıyla öğrencisinin yaşamında doğrudan etki sahibidir (Okumuş, 2002, s.19 alıntı, Yavuzer,1998 s.166).

Yapılan farklı çalışmalarda uzun süredir sınıf ortamının öğrenci güdülenmesi ve öğrenme üzerindeki etkilerini araştırmaktadır. Bu araştırmaların sonuçları genelde karşılıklı saygı, yüksek akademik standartlar ile ilgili ve sıcak öğretmen yaklaşımlarının bulunduğu sınıf ortamlarının öğrenci güdülenmesini artırdığı sonucuna ulaşılmıştır (Dölek, 2002, s.21 alıntı Arends, 1998). Midgley, Feldloufer ve Eccles, öğretmenlerin özellikleri ve davranışıyla öğrenci-öğrenme düzeyi arasında bazı ilişkilerin olduğunu ortaya koymuşlardır. Özellikle öğretmenin oluşturduğu yeterlik duygusunun öğrencinin güdülenmesinde etkili olduğunu belirtmişlerdir.

"Güdülenmenin başarı ile nedensel bir bağlantısı vardır; güdülenme başarının nedeni veya hedefi olabilir" (Dölek, 2002, s.2). Öğretmenler, öğrencilerin davranışlarını doğrudan ya da dolaylı olarak etkilemektedir. Bazı davranış problemlerinde, öğretmenin anlık ve sistemsiz müdahaleleri istenmedik davranışları ortaya çıkarabilmektedir. Öğrenci davranışlarının değiştirilmesi, geliştirilmesi ve yeni davranış örüntülerinin kazandırılması ile görevli öğretmenin, bu görevi yerine getirirken kullandığı öğretim yöntemi kadar öğrenciye yaklaşım biçimi de önemlidir (Deniz ve Diğerleri, 2006, s.62).

Öğretmenler açısından uygulanması doğru olan ya da öğrencinin gerek başarısı gerekse kişilik gelişimi açısından doğru ya da yanlış olan davranışları örneklendirmek mümkündür. Öğretmen öğrenciyle samimi ilişkiler kurmalıdır. Öğrencisiyle sınıf dışında da ilişkiler geliştirmelidir. Öğrencisiyle arasına mesafe koymamalıdır. Maalesef ülkemizde öğretmen-öğrenci ilişkileri çoğunlukla sınıf içine hapsolmuş durumdadır.

Öğretmenin öğrenciye ismiyle hitap etmesi çok önemlidir. Bunun için öğretmen, fotoğraflardan veya değişik yöntemlerden faydalanarak öğrencilere isimleriyle hitap etmeli. En azında ilk günlerde birkaç öğrenciye ismiyle hitap edilmelidir. İletişimin etkili ve sağlıklı olabilmesi için öğrencilerin korkutulmaması, yargılanmaması ve aşırı bir şekilde denetlenmemesi gerekir. Bunun aksi durumunda öğrenciler kendilerine olan güvenini kaybedebilir ve kendilerini değersiz hissedebilir. Bu duruma düşen öğrenciler her uyarana karşı savunucu tepkiler veren, yalan söyleyen ve hile yapan kişiler haline gelebilir" (Erdoğan, 2002, 13-19).

Öğretmenlerin öğrencileriyle konuşma tarzları çok önemlidir. Düzgün ve doğru konuşma etkili bir iletişimde olmazsa olmazlardandır. Öğrenciyle yapılan konuşmanın etkili olmasında, öncelikle öğretmenin tavrı ve davranışı önemli derecede rol oynar.

Çoğu zaman öğretmenin çocuğu övmesi, elle tutulan şeker, oyuncak, hatta karne gibi pekiştireçlerden daha etkili olabilmektedir. Uygun bir davranış veya öğrencinin herhangi bir konuda başarı göstermesi sonunda söylenen, "Harika", "Güzel", "Aferin", "Bravo" gibi sözler etkili birer güdüleme aracı olmaktadır (Dölek, 2002, s.25).

"Crandall'ın 1963, Remanis'in 1968 ve Stein'ın 1969 araştırmalarında her yaş grubundaki öğrenciler için sosyal onayın başarı güdülemesinde çok etkili olduğu bulunmuştur. Övgü öğretmen



tarafından en kolay kullanılabilecek güdülenme aracıdır. Belli bir davranış sonrası verilen sosyal onay oldukça tutarlı bir pekiştireç ve teşvik edicidir" (Dölek, 2002, s.25). Öğretmenin davranışları canlı ve düzenli olmalıdır. Ölgün, bitkin, dağınık ve monoton bir davranış, öğrenci üzerinde kötü ve karışık bir etkiye sebep olur. Pejmürde duruş ve giyiniş, öğretmenin kafasının içinin de pejmürde olduğu izlenimini uyandırır (Carnegie, 1997, s.94)."

Öğretmen için belirli hallerde bazı sorunları görmeme ve onlarla uğraşmama daha iyidir. Ancak öğretmen yinede olumsuz davranışı gördüğünü ve onaylamadığını bir göz, yüz, baş işareti ile belirtmelidir. Aksi taktirde yanlış bir algılama ve pekiştirme söz konusu olabilir (Erdoğan, 2002, s.30). Öğretmen öğrencilerle ne kadar yakın ve sıcak ilişkiler geliştirirse, o kadar verimli ve amaçlı bir çalışma yapmış olur. Öğrencilerinin durumunu ve beklentilerini göz ardı eden bir öğretmenin başarılı olması güçtür. Onun için öğretmen öğrencilerinin görüşlerini, isteklerini ve ihtiyaçlarını dikkate almalıdır

## ÖĞRETMEN DAVRANIŞLARINI ETKİLEYEN FAKTÖRLER

Öğrenci davranışlarında istenilen yönde davranış değişikliği meydana getirmek için oluşturulan sınıf ortamı durağan bir yapı göstermeyip, sosyal ve psikolojik yönlerinin ağır bastığı bir ilişkiler sistemini göstermektedir. Okullarda sınıflar hep birbirine benzer gibi görünür, oysaki birbirine benzer gibi görünen sınıfların hepsi birbirinden farklıdır ve davranış değişikliğinin özellikleri yönü ve miktarı sınıf ortamından oldukça etkilenir. Bu etki sınıfın fiziksel ve donanım ortamından ziyade öğretmen-öğrenci ve öğrenci-öğrenci arasında meydana gelen iletişim yapısının ürünü olarak ortaya çıkar (Öztürk ve diğerleri, 2002,s.392).

Öğretmen davranışları sınıfın bütününe diğer sınıflardan farklı davranma şeklinde olabileceği gibi (Öztürk ve diğerleri, 2002 alıntı Rosenthal ve Jacobson, 1968; Turanlı ve yıldırım,2000), bir sınıf içerisindeki öğrencilere birbirlerinden farklı davranma şeklinde de olabilir (Öztürk ve diğerleri, 2002 alıntı Arnold, 1997). Öğretmendeki bu davranış farkının nedeni öğretmen beklentisidir. "Öğretmen, öğrenci ile ilgili beklentilerini iki temel çerçevede oluşturur: (1) öğrenci ile daha henüz etkileşime geçmeden, (2) öğretmen- öğrenci etkileşimi esnasında. Beklenti girdileri genel olarak; fiziksel görünümü, sosyo-ekonomik düzey, öğrenci cinsiyeti, konuşma özellikleri, algılanan zeka düzeyi, test veya ödevlerden elde edilen performansla ilgili bilgi vb. olarak kabul edilmektedir." (Öztürk ve diğerleri, 2002,s.392).

Bu sonuçlara göre fiziksel görünüm açısından çekici çocuklar diğer arkadaşlarına göre eğitim yaşantısına daha avantajlı başlamaktadırlar. Ancak fiziksel çekiciliğin, başlangıçtaki beklentiler için önemli olduğu ve iletişimden sonra önemini kaybettiği ve elde edilen akademik bilginin daha fazla önem kazandığı görülmektedir. İlk beklenti girdisi olarak öğretmenleri etkileyen diğer bir özellik ise öğrencinin ailesinin sosyo-ekonomik düzeyidir. Cooper (Öztürk ve diğerleri, 2002 alıntı 1989)'a göre üst sosyo-ekonomik gruptaki öğrenciler diğerlerine göre okul yaşantısına daha avantajlı başlamaktadırlar ve alt sosyo-ekonomik gruptaki öğrencilerin başarı şansı oldukça düşüktür.

İncelenen birçok araştırmada öğrencinin gelecekteki akademik performansı ile ilgili olarak öğretmen beklentilerinde cinsiyetin önemli olmadığı görülmüştür (Öztürk ve diğerleri, 2002 alıntı Dusek ve diğ.,1983). Bununla birlikte bazı araştırmalarda cinsiyetin önemli olduğunu ortaya koyan bulgulara ulaşılmıştır. Van Matre ve arkadaşları (Öztürk ve diğerleri, 2002 alıntı 2000) yaptıkları çalışmada gelecekteki performansla ilgili öğretmen beklentileri açısından kızlar lehine anlamlı bir farklılık bulmuşlardır. Sosyal gelişim açısından incelendiğinde, öğretmenlerin kız öğrenciler lehine beklenti geliştirdikleri görülmektedir (Öztürk ve diğerleri, 2002 alıntı Dusek ve diğ. , 1983). Kız öğrenciler lehine olan bu farklılık, kız öğrencilerin sınıf içi kabul edilebilir davranışları erkek öğrencilere nazaran daha fazla gösteriyor olmalarından kaynaklanabilir.

Öğretmenler kendisiyle iyi iletişim içerisinde bulunan öğrencileri kendisine daha yakın hissetmekte ve onlara yönelik daha yüksek beklentiler geliştirmektedirler. Bu gruptaki öğrencilere yönelik beklenti etkisi öğrencilerin performans ve başarılarını etkilemektedir. Aynı zamanda, öğretmenlerin olumlu tutumu öğrencilerin motivasyonunu, okul ve çalışmaya karşı tutumunu, öğrencinin kendine güvenini etkilemektedir. Öğretmene uzak duran ve onunla iletişime girmeyen

öğrencilerle öğretmen daha az iletişim kurmakta ve daha az ilgilenmektedir. Bunun sonucunda bu gruptaki öğrenciler sınıf içerisinde pasif kalmakta ve düşük performans göstermektedir.

## ÖĞRETMEN DAVRANIŞLARININ ÖĞRENCİYE ETKİSİ ANKETİ DEĞERLENDİRME RAPORU

Bu çalışmada, 2014 Nisan ayında İstanbul'daki devlet ve özel okul öğretmenlerinin Katıldığı "Öğretmen davranışlarının öğrenci başarısına etkisi" konulu anket çalışmasına 30 erkek, 60 bayan olmak üzere toplam 90 kişi katılmıştır. Katılan öğretmenlerin 78' i Devlet okullarında 12' si özel okullarda görev yapmaktadır. Ankete 48 sayısal, 24 sözel 18 tane de diğer branşlardan öğretmen katılmıştır. Bu öğretmenlerin 78'i otuz yaş üstü 12' si ise otuz yaş altındadır. Diğer sonuçlar aşağıdaki gibidir:

*1) Karne notları öğrencinin başarısını gösterir mi ?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| KISMİ GÖSTERİR | 78 | 86 |
| GÖSTERİR | 6 | 7 |
| GÖSTERMEZ | 6 | 7 |
| TOPLAM | 90 | 100 |

*2)Öğrenci başarısını etkileyen size göre en önemli faktör hangisidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| PSİKOLOJİ | 66 | 73 |
| FİZYOLOJİ | 18 | 20 |
| ÇEVRESEİ | 6 | 7 |
| TOPLAM | 90 | 100 |

*3)Öğrenme sürecinde en etkili faktör hangisidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÖĞRENME YÖNTEMİ | 54 | 60 |
| ÖĞRETEN | 18 | 20 |
| ÖĞRENEN | 18 | 20 |
| TOPLAM | 90 | 100 |

*4)Öğrenen ile ilgili öğrenmeyi etkileyen faktörleri önem sırasına göre işaretleyiniz?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| MOTİVASYON | 42 | 47 |
| OLGUNLAŞMA | 30 | 33 |
| DİKKAT | 18 | 20 |
| TOPLAM | 90 | 100 |

*5)Öğrenme yöntemi ile ilgili en az etkili olan faktör aşağıdakilerden hangisidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÖĞRENCİNİN AKTİF KATILIMI | 36 | 40 |
| GERİ BİLDİRİM(ÖDEV KONTROL) | 30 | 33 |
| TEKNOLOJİ KULLANIMI | 24 | 27 |
| TOPLAM | 90 | 100 |



*6)Öğretmenin Okul dışındaki hal-hareket – Tavır ve davranışları öğrencinin başarısında ne kadar etkilidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÇOK ETKİLİ | 48 | 53 |
| AZ ETKİLİ | 36 | 40 |
| ETKİLİ DEĞİLDİR | 6 | 7 |
| TOPLAM | 90 | 100 |

*7)Eğitim ve Öğretim faaliyetlerini kolaylaştırmak ve öğrenci başarısını artırmak için öğretim hizmetlerinin niteliklerinden hangisi en önemlidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÖĞRETMEN-ÖĞRENCİ İLİŞKİSİ | 72 | 13 |
| DERS ARAÇLARI | 12 | 7 |
| OKUL-SINIF FİZİKİ ÖZELLİKLERİ | 6 | 80 |
| TOPLAM | 90 | 100 |

*8)Öğrencinin Öğretmeni sevmesi o dersi anlamasında ne kadar etkilidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÇOK ETKİLİDİR | 84 | 93 |
| AZ ETKİLİDİR | 6 | 7 |
| ETKİLİ DEĞİLDİR | 0 | 0 |
| TOPLAM | 90 | 100 |

*9)Öğrencinin Okulda soğumasında hangisinin etkisi daha fazladır?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÖĞRETMEN | 78 | 87 |
| OKUL İDARESİ | 12 | 13 |
| YARDIMCI PERSONEL | 0 | 0 |
| TOPLAM | 90 | 100 |

*10)Öğrencinin meslek seçiminde aşağıdakilerden hangisi daha çok etkilidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÇEVRE VE ARKADAŞ | 42 | 47 |
| AİLE | 36 | 40 |
| ÖĞRETMEN | 12 | 13 |
| TOPLAM | 90 | 100 |

*11)Öğretmenin öğrenci ile iletişiminde en etkili kanal hangisidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| BEDEN DİLİ | 54 | 60 |
| SÖZ | 30 | 33 |
| SES | 6 | 7 |
| TOPLAM | 90 | 100 |

*12)Öğretmenin kılık kıyafeti öğrencinin başarısını etkiler mi?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ETKİLEMEZ | 48 | 53 |
| ETKİLER | 24 | 27 |
| AZ ETKİLER | 18 | 20 |
| TOPLAM | 90 | 100 |

*13)Günümüz öğrencisinin rol-model' i sizce kimdir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| TV-DİZİ OYUNCULARI | 72 | 80 |
| ÖĞRETMEN | 12 | 13 |
| AİLE | 6 | 7 |
| TOPLAM | 90 | 100 |

*14)Öğretmenin öğrenciye kazandıracağı davranışların hangisi daha çok etkilidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| DERSİ SEVMESİ | 36 | 40 |
| ÇALIŞMA ALIŞKANLIĞI | 30 | 33 |
| AHLAKİ DEĞERLER | 24 | 27 |
| TOPLAM | 90 | 100 |

*15)Öğretmenin görevlerinden en önemlisi hangisidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÖĞRENCİNİN KENDİNİ GELİŞTİRMESİ | 54 | 60 |
| ÖĞRENCİNİN BENLİK OLUŞTURMASINDA REHBERLİK YAPMASI | 30 | 33 |
| DERS BAŞARISI | 6 | 7 |
| TOPLAM | 90 | 100 |

*16)Öğrencinin ders motivasyonun da en etkili hangisidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| SAMİMİ VE SEVECEN YAKLAŞIM | 48 | 53 |
| BRANŞ HAKİMİYETİ | 36 | 40 |
| ÖĞRETMENE SAYGI | 6 | 7 |
| TOPLAM | 90 | 100 |



*17)Öğrencinin başarısında ekonomik faktörler ne kadar etkilidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ETKİLİ DEĞİLDİR | 48 | 53 |
| AZ ETKİLİDİR | 42 | 47 |
| ÇOK ETKİLİDİR | 0 | 0 |
| TOPLAM | 90 | 100 |

*18)Öğrencinin psikolojisini hangisi daha çok olumsuz etkiler?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÖĞRENCİNİN YARGILANMASI | 36 | 40 |
| ÖĞRENCİNİN KORKUTULMASI | 36 | 30 |
| ÖĞRENCİNİN AŞIRI DENETLENMESİ | 18 | 20 |
| TOPLAM | 90 | 100 |

*19)Öğrencinin derse güdülenmesinde öğretmen davranışlarından hangisi daha çok etkilidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÖĞRENCİYİ ÖDÜLLENDİRME | 54 | 60 |
| ÖĞRETMENİN ÖVGÜSÜ | 36 | 40 |
| YÜKSEK NOT VERMESİ | 0 | 0 |
| TOPLAM | 90 | 100 |

*20)Öğretmenin öğrenci ile sosyal faaliyet yapması (piknik-futbol-sinema) öğrencinin okulu sevmesinde ne kadar etkilidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÇOK ETKİLİDİR | 54 | 60 |
| AZ ETKİLİDİR | 36 | 40 |
| ETKİLİ DEĞİLDİR | 0 | 0 |
| TOPLAM | 90 | 100 |

*21)Öğretmenin öğrencinin evindeki ders çalışma ortamını görmesi öğrencinin başarısında etkisi ne kadardır?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| AZ ETKİLİDİR | 48 | 53 |
| ÇOK ETKİLİDİR | 36 | 40 |
| ETKİLİ DEĞİLDİR | 6 | 7 |
| TOPLAM | 90 | 100 |

*22)Öğretmenin öğrencilere karşı farklı davranış göstermesinde hangisi daha çok etkilidir?*

| | DEĞER | YÜZDE |
|---|---|---|
| ÖDEVLERDEN ELDE EDİLEN PERFORMANS | 84 | 93 |
| SOSYO-EKONOMİK DÜZEN | 6 | 7 |
| ÖĞRENCİNİN FİZİKSEL GÖRÜNÜMÜ | 0 | 0 |
| TOPLAM | 90 | 100 |

## SONUÇ

Genel olarak elde edilen araştırma sonuçlarına göre; öğrencinin başarısının tamamen onun çalışmasının bir ürünü olmadığı ve başarının birçok faktör tarafından etkilendiği görülmektedir.

"Öğretmenin, öğrencilerin her birinin fizyolojik, psikolojik, sosyal ve zihinsel yönden gelişimlerini kolaylaştırıcı olabilmesi önemlidir. Bu da bir öğretmenin mesleğiyle ilgili bilgi ve becerileri kazanmasının yanında onun, kendi ihtiyaç ve beklentilerinin farkında olarak gelişip olgunlaşmasını ve insanlarla olan ilişkilerinde daha duyarlı olmasını gerektirir. O halde bütün bu süreçlerde etkili bir rolü olan öğretmende bulunması gereken özellikleri; öğretmenlik mesleği, öğretmenin görevleri, kişilik özellikleri, iyi bir öğretmende bulunması gereken değerler, öğretmen tutumları açısından analiz etmekte fayda vardır" (Deniz ve Diğerleri, 2006, s.63 alıntı Sünbül, Kesici ve Bozgeyikli, 2003).

"Öğrencilerin sınıf ortamındaki öğrenme ihtiyaçlarının iyi belirlenmesi gerekir. Öğrencinin olumsuz davranışı ve başarısızlığı, onun için oluşturulan öğrenme çevresinin olumsuzluğuyla yakından ilişkilidir. Öğretmenler, öğrenmeyi kolaylaştırıcı bir sınıf yapısı oluşturmak zorundadır. Ancak uygun bir öğrenme ortamının oluşturulması, öğretmenin öğrencilerin bireysel ve grupsal ihtiyaçlarını çok iyi tanımasına bağlıdır. Öğrencinin öğretimsel ihtiyaçları bilinirse, daha olumlu bir öğrenme çevresi oluşturulabilir" (Deniz ve Diğerleri, 2006, s.63 alıntı Çelik, 2002).

## ÖNERİLER

• Eğitim sistemimizde öğrenci başarısı karne notlarıyla ifade edilmektedir.Fakat öğretmenlerin çoğu karne notunun başarının ölçütü olmadığını düşünmektedir.Öğretmenlere önerimiz öğrencinin başarısını sadece karne notuyla ölçülmemesi gerektiğidir.

• Öğrenme güdüsünde ,fizyolojik,psikolojik ve çevresel faktörler önemlidir.Ama araştırmamızın sonucuna göre ,en önemli olanın psikolojik olduğu anlaşılmıştır.öğretmenlerimizin öğrenci ile iletişimde onların psikolojisini dikkate alması gerekmektedir.

• Öğrenme yöntemi ile ilgili olarak önce aktif katılımın sonra geri bildirimin daha sonra ise teknoloji kullanımının etkili olduğu görülmüştür. Bundan da anlaşılacağı gibi öğrencinin sınıf ortamında ders aktif katılımının sağlanması gerekmektedir.

• Öğrenci başarısında aktif katılımın yanı sıra ödev kontrolünün mutlaka yapılması , öğrenme alışkanlığı oluşmasında etkili olmaktadır.

• Eğitim ve öğretim faaliyetlerini kolaylaştırmak öğrenci başarısını arttırmak için öğretim hizmetlerinin niteliklerinden öğretmen-öğrenci ilişkisinin ders araçları ve sınıfın fiziki özelliklerinden önemli olduğu anlaşılmaktadır. Öğretmenler ders başarısı için öğretmen-öğrenci ilişkisine çok dikkat etmelidir.

• Öğrencinin öğretmeni sevmesi , o dersi anlamasında ne kadar etkilidir? Sorusuna öğretmenlerin %93 ü çok etkilidir cevabını vermiştir. Öyle ise öğretmenlerimizin, öğrenciye kendilerini sevdirmeleri önemli olduğu görülmektedir.

• Günümüz öğrencilerinin rol-modelinde tv dizi oyuncularının öğretmen ve aileden daha fazla etkili olduğu görülmüştür. Yani öğrenciler sanal hayata önem vermektedirler. Öğretmen ve ailelere düşen görev öğrencileri sosyal projelerin içine katarak sanal alemin tehlikelerinden uzak tutmaktır.



• Anket çalışmasında Öğrenci psikolojisini olumsuz etkileyen en önemli faktörler 'öğrencinin yargılanması' ve 'öğrencinin korkutulması' olduğu görülmüştür. Bu davranışlar öğrencinin geleceğini de şekillendireceğinden dolayı öğretmenlerimize büyük görev düşmektedir.

• Öğrencilerin derse güdülenmesinde en etkili öğretmen davranışının öğrenciyi ödüllendirme sonra öğrencinin övülmesi daha sonra ise öğrenciye yüksek not verilmesinin olduğu görülmüştür. Buna göre öğretmenlerimizin çok küçük hediyeler bile olsa öğrenciyi ödüllendirmesi tavsiye edilir.

## Kaynakça

Carnegie, D., 1997, Söz Söyleme ve İş Başarma Sanatı, Timaş Yayınevi, İstanbul

Deniz M. Ve Diğerleri, 2006, İnönü Üniversitesi Eğitim Fakültesi Dergisi, sayı 11

Dölek N., 2002 "Güdülenme ve Öğrenme Davranışı", Özel okullar Derneği Semineri,13 Nisan 2002, İstanbul

Dusek J. B., and Joseph G.., 1983, "The Bases of Teacher Expentancies, A Meta Analiysis", Journal of Educational Psychology, 65 (1), 74:87

Erdoğan İ., 2002, "Sınıf Yönetimi İlkeler ve Uygulamalar", Özel okullar Derneği Semineri, 26 Ocak 2002, İstanbul

Göksu S.M.,1998 "Öğretmen Davranışlarındaki Değişiklikler ve Sebepleri", Marmara Üniversitesi Eğitim Bilimleri Enstitüsü Yayımlanmamış Yüksek Lisans Tezi, İstanbul

Güleç S. ve Alkış S., 2003 "İlköğretim birinci kademe öğrencilerinin derslerdeki başarı düzeylerinin birbiriyle ilişkisi"

Güven S. 1996, Başarıyı Etkileyici Bir Faktör Olarak Öğretmen Öğrenci İlişkileri" Çağdaş Eğitim

İzgören A. Ş., 2000, Dikkat Vücudunuz Konuşuyor, Academyplus Yayınevi, Ankara

Kolburan Geçer A., 2002 "Öğretmen Yakınlığının öğrencilerin başarıları, Tutumları ve Güdülenme Düzeyleri Üzerindeki Etkisi", Ankara Üniversitesi Eğitim Bilimleri Enstitüsü, Yayımlanmamış Doktora Tezi, Ankara

Öztürk, B. ve diğerleri, 2002, "İlköğretim Okullarında Öğretmen Beklentilerini Etkileyen Öğrenci Özellikleri", Kuram ve Uygulamada Eğitim Yönetimi Dergisi, sayı:31, Ankara

Okumuş, M., 2002 "İlköğretim Birinci kademede Öğrencilerin Okul Başarılarını Etkileyen Faktörlere İlişkin Öğretmen Görüşleri", Afyon Kocatepe Üniversitesi Sosyal Bilimler Enstitüsü, Yayımlanmamış Yüksek Lisans Tezi, Afyon

Sünbül, A. M., Kesici, Ş. ve Bozgeyikli, H., 2003, Öğretmenlerin psikolojik ihtiyaçları, öğrencileri motive ve kontrol etme düzeyleri. Konya: Selçuk Üniversitesi Araştırma Projesi.

Yavuzer H., 1998, Çocuk Psikolojisi, Remzi Kitabevi, İstanbul

# MÜASİR DÖVRDƏ PSİXOLOGİYA ELMİNİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Ramiz Əliyev,**
*psixologiya üzrə elmlər doktoru, professor.*
E-mail. ramizaliyev@rockefmail.com

***Açar sözlər:*** ***nəzəriyyə, baxış, inkişaf, psixoloji problemlər, davranış***
***Ключевые слова:*** ***концепция, взгляд, развитие, психологические проблемы, поведение***
***Key words:*** ***conception, sight, development, psychological problems, behavior***

Müasir dövürdə psixologiya elmi aşağıdakı isdiqamətlər üzrə inkişaf edir: elmi, tətbiqi və praktik. Praktik psixologiya XIX əsrin sonralarında ABŞ- da yaranmış, daha sonra Avropa və Rusiyada, XX əsrin 90- cı illərində Azərbaycanda təşəkkül tapmış, inkişaf etmişdir. Hazırda praktik psixologiya deməl oar ki, həyat və fəaliyyətin bütün sahələrinə tətbiq olunur. Azərbaycanda daha çox tətbiq olunduğu sahə isə təhsil sferasıdır.

Təhsil sahəsində çalışan praktik psixoloqların fəaliyyəti özündə başlıca olaraq iki aspekti birləşdirir. O, təhsil işçisi olduğundan pedaqoq, psixoloqa aid olan işləri yerinə yetirdiyindən birləşdirir. O, təhsil işçisi olduğundan pedaqoq, psixoloqa aid olan işləri yerinə yetirdiyindən praktik psixoloq adlanır. Daha doğrusu o, hər iki sahəni özündə birləşdirən fəaliyyətlə məşğuldur.

Elə bu səbəbdən fəaliyyətinə basilica olaraq aşağıdakılar aiddir: a) diaqnostika, korreksiya və kosultasiya; b) təlim- tərbiyə; c) elmi- tədqiqat; ç) mədədni_ maarifləndirici işlər.

Yuxarıda göstərilənlərdən ikisi- təlim- tərbiyə və mədəni- maarifləndirici eyni zamanda pedaqoji fəaliyyətə aiddir. Əgər elmi psixologiyanın məqsədi insanların davranış mexanizmi və daxili aləmi haqqında elmi bilikləri öyrənməkdirsə, praktik psixologiyanın başlıca məqsədi insanlara praktik baxımdan köməklik göstərməkdir. Onu da qeyd edək ki, praktik psixologiya tətbiqi psixologiyadan fərqlənir. Tətbiqi psixologiya praktik məsələlərin həlli üçün elmi- psixoloji biliklərin tətbiqi imkanlarını öyrənir.

Praktik psixoloqların fəaliyyəti insanlara onların peşə və həyatı problemlərinin həll olunmasında psixoloji yardım göstərməkdən ibarətdir. Bunun üçün o, müxtəlif yol və vasitələrdən, metodlardan istifadə etməli olur. İstifadə edilən metodlar problemin öyrənilməsinə yox, onun həllinə yönəlməlidir. Praktik psixologiyanın mühüm metodlarına ilk növbədə psixodiaqnostika, psixoterapiya və inkişafetdirici psixoloji iş aiddir.

Praktik psixoloq insanın fərdi xüsusiyyətləri, konkret situasiyanı və ya konkret qrupu öyrənir. Elmi psixologiya isə psixi hadisələrin ümumi qanunauyğunluqlarını araşdırır. Bununla yanaşı praktik psixologiya sahəsində toplanmış materiallar ümumiləşdirildikdə praktik psixoloqların istifadə edə biləcəyi qanunauyğunluqlar da meydana çıxır. Bu və ya digər metodun səmərəliliyinin daha çox mütəxəssis tərəfindən qəbul olunması onun praktikada tətbiqinə imkan verir. Təbii ki, praktik psixoloqların istifadə etdiyi metodlar praktik və konkret olmalıdır.

Praktik psixoloq konkret şəxsi və konkret hadisəni öyrənir. Bu zaman həm özünün peşəkarlığına, təcrübəsinə, həm də bilik və bacarıqlarına əsaslanır. Onların gəldiyi nəticə praktik baxımından faydalı olmalıdır. Lakin praktikadan əldə olunmuş təcrübə heç də həmişə hansısa psixoloji nəzəriyyə və ideyaya uyğun gəlməyə bilər.Praktik psixologiyanın tətbiqindən çətinliklərin bir qismi də buradan meydana çıxır.

Praktik iş zamanı əldə olunan psixoloji biliklər ümumiləşdirilir, sistemə salınır və müvafiq konsepsiyalar hazırlanır. Ümumiləşdirmə nəticəsində hazırlanan konsepsiya oxşar problemləri olan insanların qruplaşdırılmasında, oxşar iş prinsipinin hazırlanmasında istifadə olunur. Bununla belə hər bir konkret situasiya nəzərə alınır. Praktik psixoloqun nəzərə almalı olduğu məsələlərdən biri də insana, onun probleminə kompleks yanaşması ilə bağlıdır. Başqa sözlə, onun davranışı, motivasiyası, tələbatlar sferası, fərdi-psixoloji xüsusiyyətləri kompleks öyrənilməlidir.

Praktik psixoloqun fəaliyyətinə onun şəxsi keyfiyyətləri əsaslı təsir göstərir.Ona görə də bir çox hallarda bir praktik psixoloqun istifadə etdiyi metodlar səmərəli olursa , başqa birisində səmərəsiz olur. Ona görə də praktik psixoloqlar öz davranışlarına, qarşılıqlı ünsiyyət və münasibətlərinə daim diqqət yetirməlidirlər. Eyni zamanda peşəkarlıqlarını artırmalıdırlar.

Praktik psixoloqlar psixoloji maarifləndirmə, psixoloji biliklərin haminin başa düşə biləcəyi səviyyədə yayılmasına çalışmalıdır. Təbii ki, psixoloji xidmət sahəsində məişət psixologiyası da önəmli rol oynayır. Çünki psixoloji biliklər konkret olmaqla yanaşı, həm də hər bir kəsin özünün həyat təcrübəsi, müşahidələri əsasında yaranır. Eyni zamanda onlar bu bilikləri konkret təcrübədə sınaqdan keçirə bilirlər. Başqa sözlə, məişət psixologiyası ayrı-ayrı fərdlərin gündəlik həyatda əldə etdikləri təcrübə əsasında yaranan psixoloji biliklərdir.

Məişət psixologiyasının mənbəyini yalnız insanın öz şəxsi təcrübəsi deyil, həm də başqalarının təcrübəsindən nümunə kimi istifadə olunması təşkil edir. Çoxsaylı insanların topladığı təcrübə atalar sözləri və zərb məsəllərdə ifadə olunur. Onun meyarı isə həqiqəti əks etdirməsi ilə ölçülür.

Məlumdur ki, zaman-zaman cəmiyyət həyatında baş verən hadisələrdən, ictimai-siyasi proseslərdən, ideoloji sistemdən asılı olaraq təhsilin qarşısında qoyulan tələblər də dəyişir. Hər bir siyasi, ideoloji sistemin tələblərinə uyğun şəxsiyyətlər formalaşdırılır.

Müasir dövrdə Azərbaycan Respublikasında ümum təhsilin qarşısında duran başlıca vəzifə yüksək mədəni səviyyəyə malik, cəmiyyət həyatına adaptasiya oluna bilən, lazımi bilik və bacarığa sahib olan, ləyaqətli vətəndaşlar formalaşdırmaqdır. Təbii ki, bu prosesdə psixoloji biliklərin əhəmiyyəti böyükdür. Hər-bir təhsilalanın özünüdərki, özünütəsdiqi, özünüreallaşdırması məhz onların fərdi-psixoloji xüsusiyyətlərinin nə dərəcədə nəzərə alınması ilə bağlıdır. V.A. Syxomlinskinin dediyi kimi: "İnsan özü özünün tərbiyəçisi o zaman olur ki, insanı və insanlığı dərk edir".



**Ədəbiyyat**


1.Əliyev R.İ. Psixologiya tarixi. Bakı: Nurlan, 2006
2.Əliyev R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı: Nurlan, 2004
3.Петровский А. В Личность . Деятельность. Коллектив. М.: Политиздат,1982
4.Сухомлинский В. А. Мудрая власть коллектива. М.: Молодая гвардия, 1975



**Направления развития психологии в современном мире**

***Резюме***

В данной статье говорится о современном состоянии психологии и стоящих перед нею задачах. В статье также анализируются задачи теоретической и практической психологии и рассматривается комплексный подход к ней.

**Devolopment directions of psycological science in contemporary days**

***Summary***

The article deals with contemporary condition, directions and expected duties. It explains complex approachment of the oretical, practical and applied psychology's duties.


## PEDOLOGİYA ELMİNİN LƏĞV OLUNMASININ SOSİAL-PSİXOLOJİ TƏHLİLİ


**Gültac Əliyeva,**

*Naxçıvan Dövlət Universitetinin professoru*



***Açar sözlər:** pedologiya, fizoloq, psixoloq, nevropotoloq, gigeniya*

***Ключевые слова:** педология, физиолог, психолог, невропотолог, гигиена*

***Key words:** pedalogy, physiologist, psychologist, therapist, hygine*


ÜİK (b) P MK-nın "Xalq Maarif Komissarlıqları sistemində pedoloji təhriflər haqqında" 1936-cı il 4 iyul tarixli qərarı ilə pedologiya bir elm sahəsi kimi ləğv olundu. Bu qərarda pedologiyanın "yalançı burjua elmi" olduğu xüsusi vurğulanır. "Pedologiya uşaqlar haqqında antimarksist burjua elmidir".

"Pedologiyanın başlıca əksinqilabi vəzifəsi uşaqların teleyinə fatalistcəsinə yanaşmaq, onun bioloji, sosial və irsi amillərdən asılı olduğunu əsaslandırmaqdır". "Pedoloqların "elm ideyaları" sovet reallıqları və xoşbəxt balalarımız barədə zərərli dedi-qodular yaymaqdan ibarətdir". "Pedoloqlar sübut etməyə çalışırlar ki, sosializm şəraitində "yararsız" uşaqların sayı durmadan artır" və s.

Pedologiya yunan sözü olub, mənası uşaqlar haqqında elmdir. XIX əsrin sonlarında Avropada yaranıb. Onun əsasını psixologiya və pedaqogikanın sintezi təşkil edir. Az sonra Rusiyada, XX əsrin 20-ci illərinin sonunda Azərbaycanda təşəkkül tapıb.

Oktyabr inqilabının qələbəsindən sonra pedologiya bir elm sahəsi kimi geniş vüsət almağa başladı. Maraqlıdır ki, bu dövrdə uşaqların öyrənilməsi pedologiya baxımından aparılırdı. Bu sahədə çalışan psixoloqlar, həkimlər, fizioloqlar, gigiyenistlər pedoloji kadrlar hesab edilirdilər. Pedologiya uşaqları öyrənən bir elm sahəsi kimi öz fəaliyyətini dörd mühüm prinsip üzərində qururdu.

**Birinci prinsip**. Uşaqları "hissələrə ayıraraq" öyrənməkdən imtina etmək. Yəni fizioloqlar, psixoloqlar, nevropatoloqlar uşaqları öz profillərinə uyğun olaraq ayrılıqda öyrənməməlidirlər. Pedoloqlar hesab edirdilər ki, bu yolla uşaq haqqında hərtərəfli bilik əldə etmək mümkün deyil.

**İkinci prinsip.** Genetik prinsip. Pedoloqlar qəbul edirdilər ki, uşaq daim inkişaf edən varlıq olduğundan, onu dinamik inkişafda öyrənmək lazımdır.

**Üçüncü prinsip.** Uşaq mövcud olduğu sosial mühitdə inkişaf edir, formalaşır. Məişət şəraiti, ətraf aləm, ictimai mühit ona əsaslı təsir göstərir.

**Dördüncü prinsip.** Pedologiya yalnız nəzəri deyil, uşaqla bağlı praktik fəaliyyəti qəbul edən elm sahəsidir. Məhz elə bu səbəbdəndir ki, pedoloqlar uşağın inkişafının psixoloji diaqnostikasını aparır, pedaqoji-psixoloji məsləhətlər verir, valideynlərlə əlbir işləyirdilər.

Deyilənlərdən də göründüyü kimi, MK-nın 1936-cı ildə verdiyi qərar əsassız idi. Bununla belə, 20-30-cu illərdə pedologiyanın özünün də buraxdığı bir sıra səhvlər var idi. Belə ki, onlar irsiyyətin rolunu həddsiz şişirdir, əqli inkişafı müəyyənləşdirmək üçün heç də həlledici olmayan, əsaslandırılmayan testlərin nəticələrini qeyd-şərtsiz qəbul edirdilər. Digər nöqsanlara da yol verilirdi. Əlbəttə, bunlar heç də pedologiyanın bir elm sahəsi kimi ləğv olunmasını şərtləndirmirdi. Lakin başlıca olanı onların istinad etdikləri irsiyyətlə bağlı idi. Sovet ideologiyası irsiyyəti qəbul etmirdi. Deməli, pedologiya sovet ideologiyasına qarşı çıxırdı.

Maraqlıdır ki, pedologiyanın ləğvi ilə bağlı bir sıra rəvayətlər, miflər də yaranmışdı. Onlardan biri də belə idi: "Məktəb pedoloqları Stalinin oğlu Vasili Stalini testdən keçirirlər və belə bir nəticə alınır ki, o, əqli cəhətdən geri qalıb. Bundan Stalin xəbər tutur və testləşdirməni, eləcə də pedologiyanı "proletariatın alçaldılması və təzyiq edilməsi vasitəsi" elan edir. Bundan sonra onun ləğv olunması barədə qərar qəbul olunur.

Digər ehtimallar da var. Onlardan biri də siyasi xarakterlidir. Pedologiya Xalq Maarif Komissarlığının tabeçiliyində və himayəsində idi. Xalq Maarif Komissarlığına isə köhnə bolşeviklər A.Bubnov və N.K.Krupskaya rəhbərlik edirdilər. Başqa sözlə, pedoloqların "düşmən fəaliyyəti"nə onlar cavabdeh idilər. Qeyd etmək lazımdır ki, Nadejda Konstantinovna dahi rəhbərin dul qadını partiyanın XVIII qurultayında hansısa ağlasığmaz ideyalarla çıxış edə bilərdi. Stalin də bundan ehtiyat edirdi. Amma görünür nahaq yerə. Krupskaya ad gününün səhərisi, XVIII partiya qurultayından isə 12 gün əvvəl "qəflətən" dünyasını dəyişir.

Ehtimal olunur ki, ÜİK (b) P MK-nın 1936-cı il qərarı Xalq Maarif Komissarlığının fəaliyyətini şübhə altına almaq məqsədi daşıyırdı. Yəni Krupskaya, Bubnov, Epşteyn və b. "xalq düşmənləri"ni öz "qanadları altında" gizlədiblər. Tezliklə Krupskaya "qəflətən" vəfat etdi, Bubnov və Epşteyn isə güllələndilər. Köhnə bolşevik, görkəmli pedoloq A.B.Zalkind isə "xalq maarif sistemində əksinqilabçılar" damğasına dözməyərək MK-nın qərarının elan olunduğu gün ürək tutmasından vəfat etdi.

Təbii ki, bunlarla yanaşı, ideoloji səbəblər də var idi. Uşağın yaşadığı sosial mühitin öyrənilməsi sovet hakimiyyəti üçün qəbulolunmaz idi. Ukraynadakı kütləvi aclıq və kütləvi ölümlər, repressiya olunanların, güllələnənlərin ailələrinin səfaləti və s. bütün bunlar uşaqların psixi inkişafına təsir etməyə bilməzdi. Bununla belə pedoloqlar psixi geridəqalmanın səbəblərinin dərinliklərinə gedirdilər. Hadisələrin bu istiqamətdə inkişafına nə MK, nə də Stalin yol verə bilməzdi.


Г. Алиева

**Социально-психологический анализ ликвидации педологии как науки**

*Резюме*

В статье говорится о ликвидации в СССР в 1936 году педологии как науки, считавшейся в то время вредной для подростающего поколения.

G. Aliyeva

**Social-psychological analysis of abolishing pedalogy science**

*Summary*

It was stated about abdishing pedalogy as a branch of science after 1936 its scientific ideas being harmful for growing generation in the article




# PEDAQOJİ ÜNSİYYƏT VƏ ONUN SOSİAL-PSİXOLOJİ MEXANİZMİ


**Ləzifə Qasımova,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*BDU*
E-mail: klazifa@yahoo.com



***Açar sözlər:** müəllim, şagird, ünsiyyət, ustalıq, tərbiyə, mövqe*
***Ключевые слова:** учитель, ученик, коммуникация, мастерство, воспитание, позиция*
***Key words:** teacher, pupil, communication, mastery, education, position*


Pedaqoji prosesdə fəal varlıq olan müəllim ünsiyyətin yaradılması mexanizminə yaxşı yiyələndikdə təlim-tərbiyə prosesinin səmərəliliyinə nail ola bilir. Məlumdur ki, ünsiyyət əsasında insan öz bilik və təsəvvürlərini, şəxsi mülahizələrini, rəy və münasibətlərini bir-birinə çatdıra bilir. Bunun sayəsində insanlar bir-birini anlayır və bir-birinə təsir edir. Ünsiyyət olmadan heç bir insan birgə fəaliyyətə nail ola bilməz. Pedaqoji fəaliyyətin müvəffəqiyyətlə həyata keçməsi pedaqoji ünsiyyətdən çox asılıdır. Müəllimin şagirdlərlə təlim-tərbiyə prosesində həyata keçirdiyi ünsiyyət pedaqoji ünsiyyət adlanır. Bu ünsiyyət uşaqların hərtərəfli inkişafına və formalaşmasına, onlar arasında sosial mühitin yaradılmasına və kollektivdəki sosial-psixoloji prosesləri idarə etməyə imkan verir. Təlim-tərbiyə prosesində müəllim ünsiyyətinin üç cəhətini: birgə fəaliyyətin iştirakçıları arasında informasiya mübadiləsini, düzgün qarşılıqlı əlaqəni, fərdlərin bir-birinə qarşılıqlı təsirini, adamların bir-birini qavraması və anlamasını nəzərə almalıdır. Məzmuna, müəllimin şagirdlərə müraciət tərzinə görə ünsiyyətlərin növlərini fərqləndirmək olar. Buraya təşkiledici, qiymətləndirici, intizamyaradıcı pedaqoji ünsiyyət daxildir. Şagirdlərə nə isə yeni bir şeyi öyrətmək, yəni fərdi-idraki təlimatlandırmaq, kiminləsə olmaq, söhbət etmək və s. məqsədi daşıya bilər.

Ünsiyyətin məzmununu müəllim və şagirdin bir-biri ilə informasiya mübadiləsi təşkil edir. Bu məzmun təlim prosesində müəllimin qarşıya qoyduğu məqsədlə ölçülür. Ünsiyyət vahid məqsəd güdməli, ona yönəlməlidir. Pedaqoji ünsiyyətin səmərəli olması, onun motivlərindən də asılıdır. Motivin dərk edilməsi və düzgünlüyü pedaqoji ünsiyyəti səmərələşdirir. Pedaqoji ünsiyyət xarici və daxili şərtlərlə bağlı olur. Ünsiyyətin qurulduğu mühit və vəziyyət onun vacib şərtləridir. Məsələn, yaşayış yeri ilə bağlı məktəbini dəyişən şagird yenicə düşdüyü xarici mühitin təsirinə məruz qalır. Belə ki, şagirdlərin hüsn-rəğbət bəslədiyi müəllimə o da eyni ruhda yanaşır. Yuxarı siniflərə gəldikcə xarici şərtlərə daxil şərtlər əlavə olunur. Müəllimə qarşı daha çox şəxsi, nisbətən davamlı münasibət yaranır. Zaman keçdikcə bu, seçici xarakter daşımağa başlayır.

Pedaqoji ünsiyyətin səmərəliliyi tətbiq olunan vasitələrdən də çox asılıdır. İdarəetmə ilə bağlı olaraq ədəbiyyatlarda pedaqoji ünsiyyətin bir sıra üslublarını göstərirlər: Buraya avtokratik və avtoritar, demokratik, laqeyd (etinasız, liberal) və qeyri-sabit (ardıcıl olmayan) rəhbərlik üslublarını aid edirlər.

*Avtokratik və avtoritar rəhbərlik* üslubuna malik olan müəllimlər pedaqoji ünsiyyətin təşkilində eyni mövqedə dururlar. Belə müəllimlər şagirdi obyekt hesab edir, onu ünsiyyətin tərəfmüqabili kimi qəbul etmirlər. Bu müəllimlər həmişə hökmran mövqedə dayanır, şagirdlərin fəal olmalarına şərait yaratmırlar. Onlar başqalarına nisbətən fəal şagirdi intizamsız, düşüncəsiz, bir qədər passiv olan şagirdi isə tənbəl, avara kimi qiymətləndirirlər.

Laqeyd üsluba malik olan müəllimlər şagirdlərin işinə qarışmamağa çalışır, neytrallığa can atır. Burada ünsiyyətin xarakteri müəllimin özü tərəfindən deyil, şagirdlərdən asılı olur. Belə müəllimlərlə ünsiyyətdən şagirdlər öz tələbatlarının ödəniləcəyini gözləmirlər.

Demokratik xarakterli müəllim şagirdi subyekt kimi qavrayır, şagird kollektivi ilə razılaşır, müstəqilliyi boğmur, onlara ehtiramla yanaşırlar.

Pedaqoji ünsiyyətdə müəllimin mövqeyi də həllediciidir. Elə müəllimlər vardır ki, şagirdlərlə ünsiyyət yaratmaqdan uzaq olur, onları özlərinə "yaxın" buraxmırlar. Onun şagirdlərlə danışığı ciddi, sərt, kobud olur. Müəllimlə şagird arasında sanki böyük uçurum dayanır. Müəllim bütün

mülahizələri rədd edir, şagirdlərlə öz arasında "Çin səddi" yaradır. Müəllimin hamlet mövqeyini də fərqləndirirlər. Hamlet mövqeyində olan müəllimlər tədris boyu gərgin, əsəbi olurlar. Onlar dərsdə intizam yaratmaqda, təlimi təşkil etməkdə çətinlik çəkirlər. Bütün dərsin gedişində özlərini sanki üzür, sonrakı dərs üçün gücləri qalmır.

Müəllimin robot mövqeyi onun bilik dairəsinin, pedaqoji səriştəsinin az olduğundan soraq verir. Qabaqcadan nəzərdə tutulan şərait dəyişdikdə müəllim nə edəcəyini bilmir, belə vəziyyətdə o, planlaşdırdığı formada dərsini aparır. Müəllim ünsiyyətdə tetra quşu mövqeyi də tuta bilir. Belə mövqeyə malik olan müəllim şagidlərin fəallığını unudur, öz fəallığını nümayiş etdirir. O, yalnız özünü dinləməyə meylli olur.

Pedaqoji ünsiyyət zamanı həqiqi müəllim dostluq mövqeyinə üstünlük verir. O, şagirdləri qavrayır və təlim prosesində rəftarını, səmimiyyətini ideal müəllim səviyyəsinə qaldırır.

Xüsusi peşəkarlıq və ictimai vəzifə müəllim şəxsiyyəti, müəllim siması qarşısında yüksək tələblər qoyur. Müəllimə verilən tələb pedaqoji fəaliyyətin müvəffəqiyyətini müəyyən edən peşə dəyərlərinin qeyd-şərtsiz sistemidir. Onu nəzərə almaq lazımdır ki, əməli pedaqoji fəaliyyətin yalnız yarısı məqsədəuyğun texnologiya əsasında qurulmuşdur. Onun digər yarısını bacarıq, ustalıq təşkil edir. Məhz buna görə də peşəkar pedaqoqdan ilk tələb pedaqoji qabiliyyətinə nail olmaq tələbi olmalıdır. Pedaqoji qabiliyyət birinci növbədə uşaqlarla işləməkdə, uşaqları sevməkdə, onlarla təmasdan ləzzət almaqda özünü göstərir. Bəzən bu qabiliyyət gözəl nitq, musiqi oxumaq, şəkil çəkmək, uşaqları təşkil etmək və s. ilə məhdudlaşdırılır.

Bunlarla yanaşı, müəllim insaniyyətliyi, mərhəmətliliyi, dözümlülüyü, vicdanlılığı, məsuliyyətliliyi, ədalətliliyi, vətənpərvərliyi, qətiyyətliliyi, obyektivliyi, o cümlədən insanlara qarşı hörmətcil, yüksək mədəniyyətli, nikbin, ünsiyyətdə tələbkar, sözü ilə əməli vəhdət təşkil edən, mehriban, yüksək mədəniyyətli olmaq və s. kimi insani keyfiyyətləri özündə cəmləşdirməlidir.

Məsələn, əgər "müəllim" vətəncanlı, elcanlı, bir sözlə, əsl vətənpərvər olmasa, vətənini, elini sevməsə, qarşısında olduğu varlığı bu ruhda tərbiyə edə bilməz. Böyük Sədi demişdi:

Əgər bir müəllim olsa bədəsil,
Yetişdirə bilməz bəxtəvər nəsil.

Müəllimlik sənətində peşəkarlıq çox mühüm şərtdir. Peşəkarlıq dedikdə ixtisasa yiyələnmək prosesində qazanılan biliklər, bacarıqlar, düşünmə qabiliyyətləri nəzərdə tutulur. Onlardan: müəllimin öz fənninə və fənnin tədrisi metodikasına yiyələnməsini, psixoloji hazırlığı, dərin biliyin, geniş mədəni səviyyənin, pedaqoji ustalığın olmasını, pedaqoji işin sirlərini bilməyi, təşkilatçılıq bacarığının və vərdişlərinin olmasını, pedaqoji nəzarəti, ünsiyyət qabiliyyətini, natiqlik məharətini göstərmək olar.

Elmə həvəskarlıq müəllimliyin zəruri məziyyətidir. Elmi maraq müəllimə öz fənninə hörməti formalaşdırır.

Öz peşəsin sevgi müəllimin işinə verilən başlıca tələblərdəndir. Müəllimi bunsuz təsəvvür etmək olmaz.

Müəllim peşəsini dərin biliksiz, yüksək mədəni səviyyəsiz də təsəvvür etmək çox müşkül işdir.

Bütün qeyd olunan tələbləri özündə təcəssüm etdirmiş müəllim "ideal pedaqoq" adına layiqdir. O, peşəkarlıq nümunəsi, yüksək səviyyədə ifadə olunan vətəndaşlıq vəzifəsi və şəxsi funksiyaların daşıyıcısıdır.

Təcrübə göstərir ki, müəllimin şəxsiyyəti təkcə dərs dediyi müddətdə deyil, dərsdən sonra və ictimai yerlərdə də şagird aləminə müstəsna təsir göstərir. Ünsiyyətin düzgün qurulması, müəllimin şagird tərəfindən seçilməsinin şərtidir. Müəllimi özləri üçün ideal seçən şagirdlər onun bütün xüsusiyyətlərini nəzərə alır və hətta yamsılayırlar. İdeal müəllimə yaranan məhəbbət onun dərs dediyi fənnə də məhəbbət hissi əmələ gətirir. Müəllimə qarşı oyanmış rəğbət onlarda özlərinə məsuliyyətli yanaşmaq hiss və meylini yaradır. O, dərsini öyrənmədikdə "bilmirəm" sözünü deməkdən çəkinir, utanır, sanki müəllimini "incitmək" istəmir. Sevimli müəllimlər şagirdlər üçün sönməz işığa, şama bənzəyirlər.

Təlim-tərbiyə işinin səmərəli təşkili müəllimin pedaqoji ustalığından çox asılıdır. Pedaqoji ustalıq da düzgün ünsiyyətlə bağlıdır. O, müəllimi sevdirən, ideallaşdıran, qiymətləndirən amillərdən biridir. Pedaqoji ustalıq öz həvəsi, istəyi və uşaqları sevməsi ilə fəaliyyət göstərən hər bir müəllimin təlim-tərbiyə sahəsində daim təkmilləşməsi məharətidir. Pedaqoji nəzəriyyədə müəllim ustalığına iki formada yanaşılır: birinci, pedaqoji işin metodlarının dərk olunması, ikinci, tərbiyədə başlıca rolun metod deyil, müəllim şəxsiyyəti olduğunun əsaslandırılması. Pedaqoji ünsiyyətə yiyələnmək üçün tərbiyənin prinsiplərini, metodlarını, qanunlarını bilmək lazımdır. Təlim-tərbiyə prosesinin texnologiyasından səmərəli istifad etməyi baçarmaq lazımdır. Professor Y.P.Azarovun yazdığı kimi, "pedaqoji işdə hər şeyi pedaqoji ünsiyyət həll edir".

Müəllim ünsiyyətinin bir mühüm göstəricisi də şagirdləri, öyrənənləri fəallaşdırmaq bacarığının olmasıdır. Müəllimin ünsiyyəti təlim prosesini fəallaşdırmaq üçün rəngarəng metodlardan istifadə etmək yolu ilə dərsdə şagirdləri düşünməyə vadar etmək istedadına malik olmasıdır.

Müəllim ünsiyyətinin tərkib hissələrindən biri də təlim prosesində tərbiyə işini səmərəli aparmaq, məktəblilərdə yüksək əxlaqilik, vətənpərvərlik, əməksevərlik, müstəqillik hisslərini formalaşdırmaq bacarığıdır.

**Ədəbiyyat**

1. L.Qasımova, R.Mahmudova. Pedaqogika. Bakı, 2012.
2. M.İlyasov. Müəllimin pedaqoji ustalığı. Bakı, 2010.
3. H.Əliyev. Pedaqoji ustalığın əsasları. Bakı, 1999.
4. N.Kazımov. Pedaqoji ustalığın problemləri. Bakı, 2009.
5. В.С.Грехнев. Культура педагогического общения. М., 1990.
6. В.А.Кан-Калик. Учителю о педагогическом общении. М., 1987.

Л. Гасымова

**Педагогическое общение и его социально-психологический механизм**

*Резюме*

В статье автор раскрывает механизм социально-психологического общения и его влияние на формирование школьников.

L. Qasimova

**Pedagogical communication and its sosio-psychological mechanism**

*Summary*

The social-psychological mechanism of teachers communication is shown and define the influence of it in students formation in the a

## İKT-dən İSTİFADƏ ZAMANI KOQNİTİV FƏALİYYƏTİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Limunət Əmrahlı,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*

***Açar sözlər:** koqnitiv fəaliyyət, koqnitiv quruluş, koqnitiv səriştə, koqnitiv funksiya, yeni təfəkkür, dəyər-motivasiya sahəsi*
***Ключевые слова:** когнитивная деятельность, когнитивная структура, когнитивные компетенции, когнитивные функции, новое мышление, ценностно-мотивационная сфера*
***Key words:** cognitive function, cognitive structure, cognitive skills, cognitive function, new thinking, value – motivation area*

Son illərdə cəmiyyətdə "elekrton informasoya vasitələri" anlayışı geniş yayılmaqdadır. Onun xidmətlərindən istifadə artıq zərurətə çevrilib. İstər-istəməz hər kəs fəaliyyət sahəsindən asılı olmayaraq elektron informasiya sisteminin xidmətlərindən yararlanmaq zərurəti ilə üzləşir və yaşından asılı olmayaraq bu prosesdə müxtəlif çətinliklərlə qarşılaşır. Çətinliklərin səbəbləri, bir

tərəfdən subyektiv, digər tərfdən obyektiv səciyyə daşıyır. Bu məsələlərin mahiyyətini bilmək üçün əvvəlcə elektron vasitələrdən istifadə zamanı fəallaşan "koqnitiv quruluş" anlayışını nəzərdən keçirək.




Şəkil 1. İKT əməliyyatlarında aktuallaşan koqnitiv quruluşlar

*"Koqnitiv quruluş"* – əqli proseslərin yenidən, fərqli əlaqələrlə, yeni sürət və yeni assosiasiyalarla qurulmasını tələb edən dəyişən şəraitdə, təfəkkür tərzinin dəyişməsi koqnitiv əsaslar üzərində baş verir. Nəticədə şəxsiyyətdə yeni koqnitiv quruluşlar və funksiyalar formalaşır. Koqnitiv quruluş – şəxsiyyətin dərketmə fəallığının nizamlanması və istiqamətləndirilməsinin əsasında duran intellekttual (mental) təcrübədir. Bu quruluş koqnitiv strukturlaşma yolu ilə yaranır. Koqnitiv strukturlaşma – zəif quruluşu olan, pis formalaşdırılmış koqnitiv vəzifələrin yerinə yetirilməsinin əlverişli vasitədir.

Şəkildə 1-də verilmiş model İKT-də kommuniktiv əlaqələrin (virtual ünsiyyətin) ləngiməsinin, sürətlə geniş kütləri əhatə etməməsinin səbəblərini aydın ifadə edir. Bu ləngimədə daha çox psixoloji amillər özünə yer alır.

• *risklilik, çeviklik, iradilik, sistemlilik:* elektron əməliyyatlar zamanı istənilən dövlər qurumları ilə əlaqə qurmaq, cavabların operativliyi, dəqiqliyi, sistemliliyi, hüquqi tərəfləri diqqət mərkəzində saxlamaq;

• *virtual yaradıcılıq:* electron hökümətlə əlaqələr zamanı komputer texnolo-gi-yalarından səmərəli qaydad ayrarlanmaq, tərtib olunan sənədlərin kodlaşdırılması, simvollaşdırılması, zamanı estetik tələbləri, norma və qaydaları, dil tələblərini gözlə-mək, məzmunu aydın ifdə olunmasına nail olmaq;

• *koqnitiv assosiasiyalar:* elektron əməliyyatların yerinə yetirilməsi zamanı idrak proseslərinin operativ, dəqiq, mərkəzləşdirilmiş və əlaqəli fəaliyyətini tənzimləmək, əməliyyatların icrası üçün xüsusi əhəmiyyət kəsb edən proseslərarası əlaqələrin yeni formalarını yaranmasına səy göstərmək, toxunma (əl barmaqları), görmə və eşitmə qavrayışının verdiyi informasiyaların digər əqli funksiyalarla (hafizə, təfəkkür, təxəyyül, emosiya, iradə) əlaqəsini təmin etmək bacarığına sahibolma;

• *koqnitiv funksiyalar:* ali psixi funksiyalar, hafizə, diqqət, psixomotor koordinasiya, dil, təfəkkür, bələdləşmə, planlaşdırma və ali psixi fəaliyyətə nəzarət;

• *süni intellekt:* özünün zəif biliklərinə və məhdud informasiyalarına baxmayaraq intellektual sistemlərin köməyi ilə subyektin özü tərəfindən süni yollarla yaranan qeyri-ənənəvi intellekt növünün formalaşması;

• *yeni stereotiplər:* elektron əməliyyatların yerinə yetirilməsini təmin edən yeni, çevik, ardıcıl və sistemli, avtomatlaşmış psixomotor vərdişlərə, bacarıqlara sahibolma.

İndi isə fəaliyyətimizlə bağlı bir neçə əməliyyat sistemini həyata keçirərək. Əməliyyatları icra edərkən üzləşdiyimiz çətinliklə bizə elektron hökümətin özünü də alçatmaz edən obyektiv amilləri ayırd etməyə imkan verəcəkdir. Vətəndaşların elektron vasitələrlə əlaqələrinin qurulması üçün münasibətlər sisteminin dəyişməsi, mürəkkəbləşmiş etnomədəni sistemi dərin keyfiyyət dəyişməsinə aparır. Bu isə şəxsiyyətin dəyər-motivasiya quruluşunda münaqişəli vəziyyət yaradır.



⇨Dəyərlərin istiqaməti, həyat tərzinin qiymətləndirilməsi və şəxsi uğurlar haqqında təsəvvürlər dəyişir.

⇨ Yeni idarəetmə və münasibətlər tipinə keçid ictimai şüur səviyyəsinin artması ilə nəticələnir. Beləliklə, cəmiyyətin xarici (üstqurumu) ilə bağlı olanlara müvafiq olaraq daha dərin qatları (bazisi), hətta etnopsixoloji xüsusiyyətləri də assimilyasiyaya məruz qalır. Halbuki, müasirşəraitdə cəmiyyətin yeniləşməsi zərurəti bütün sferalarda aktuallaşıb. Demokratik institutlar tərəfindən problemlə bağlı layihə, model və texnologiyalar irəli sürülür, problemin həlli yolları göstərilir. Hazırda artıq bir çox ölkələrdə mühafizəkar, konservativ, ənənəvi tipli cəmiyyətlərin idarəetmə üslullarından imtina edilərək yeni, mütərəqqi idarəetmə qaydaları formalaşır. Onun uğurlu həlli – fərdlərin özünüidarəetməsindən keçir. Bunun üçün fərd bir çox səriştələrə sahib olmalıdır.

• *İnformasiyalardan yararlanmaq səriştəsi:* fəaliyyət üçün zəruri olan məlumatları İKT vasitəsi ilə əldə etmək, onalrı sistemləsdirmək, həll ediləcək problem baxımından lazım gələnləri seçmək, tələblərə uyğun tərtib edərək istifadə üçün yararlı hala gətirmək, tətbiq etmək, nəticələrin korrelyasiyasını aparmaq.

• *İctimai–fəallıq səriştəsi:* problemlərin həllində digər insanların və ictimai institutların resurslarından, elektron bazasından, həyata keçirdiyi layihələrin, proqramların məhsuldar nəticələrindən istifadə etmək, öz istəklərini ictimai maraqlarla uzlaşdırmaq.

• *Kommunikativlik səriştəsi:* qarşıya məqsədə çatmaq üçün kommunikasiyanın nailiyyətlərindən səmərəli istifadə etmək, "rəsmi virtual ünsiyyət" qaydalarını, texnologiyalarını mənimsəmək, məktublaşmaq, cavablandırmaq, təkliflər vermək, tədbirlər görmək, hüquqi və fiziki subyektlər qurmaq, onların fəaliyyətini "elektron hökümət" vasitəsi ilə nizamlamaq və s.

Elektron vasitələrin xidmətlərindən səmərəli istifadə etmələri üçün virtual münasibətlər sisteminə yeni kontekstə baxılması vacibdir. Bunun üçün 3 istiqamətlərdə dəyişmələr getməlidir: koqnitiv fəaliyyətdə, təfəkkür tərzində, dəyər-motivasiya sahəsində.

### Ədəbiyyat


1.Солсо Р. Когнитивная психология. СПб.: Питер, 2002.

1. Əmrahlı L.Ş. Eksperimental psixologiya. Bakı: ADPU, 2008.

2. Келли Дж. Когнитивное направление в теории личности // Теории личности. М.-СПб: Питер, 1997.

3. Бандура А., Роттер Дж. Социально-когнитивное направление в теории личности // Теории личности. М.:- СПб: Питер, 1997.


**Л. Амрахлы**

**Факторы, обуславливающие когнитивную деятельность при использовании СМИ**


***Резюме***

В тезисе подчеркиваются вопросы использования СМИ, связанные с когнитивной деятельностью. Здесь перечислены, с одной стороны, структура познавательной активности, с другой, компетенции, необходимые в этом случае. Понятно, что эффективное использование СМИ необходимо для повышения познавательной активности. Потому что, она тесно связана с когнитивными способностями. Для этого необходимо повышать уровень когнитивных навыков.


**L. Amrahli**

**Factors causing cognitive performance using the İCT**


***Summary***

Highlights issues in the thesis on the use of ICT (information and communication technologies) related to cognitive performance. In this case there are, on the one hand, the structure of cognitive activity on the other, the competence necessary. It is clear that, effective use of ICT to enhance the cognitive sphere is necessary. Because, it is closely related to the cognitive abilities. For this purpose it is necessary to increase the level of cognitive skills.

# STUTTERING AT SCHOOL

**Mehmet Önemli,**
*Republic Of Turkey, Ministry of Education*
*Düzce Guidance and Research Center*
onemlimehmet@gmail.com

*Key words: speech disorder, stuttering, school*
*Açar sözlər : uşaqlar, danışma pozuqluğu, məktəb, kəkələmə*
*Ключевые слова: детство, расстройство речи, заикание, школа*

**Introduction**

Language is the most important human communication system to externalize his thought and manages to be perceived by their fellows. The reason is that language has a social character and learned in the early years of human life, in order to apply it to communicate with members of his social environment. The speech also is the atomic ratio of every man in it as there is a choice to voice, syntax and lexical way to be expressed. Therefore it is a particular type of communication with a wide variety of forms (1, 2). These disorders have a negative impact on the psychological and social development of the individual (3). The communication disorders affecting the communicative competence of the child and the relationship with himself and the environment, resulting to be even having a tendency psychiatric disorders (4).

Living with a chronic disability can negatively influence an individual's emotional and psychosocial adjustment. Stuttering is an unpredictable disorder. These experiences may make persons who stutter more susceptible to negative emotional responses, poorer self-esteem, and higher anxiety levels (5, 6).

Speech problems become evident when a child begins to say his first words, although some may be considered normal. The speech disorders include disorders of rhythm or flow of speech and disorders in the production of speech sounds, while children with speech problems may have difficulty in understanding the speech of others. These include mutism, rapid speech and stuttering (7).

Stuttering is a common disorder of childhood that has concerned and challenged many speech-language pathologists working in the paediatric field. Conture (2001) defines stuttering as an abnormal disruption of the forward flow of speech by unnatural repetitions or prolongations of a sound, syllable, articulatory posture or by avoidance and struggle behaviour. Since the beginning of time, countless numbers of speech pathologists, researchers and laymen have attempted to unravel the enigma of stuttering and determine the aetiology of this puzzling riddle. Some of the theories that have been proposed over the years have ranged from attributing stuttering to constitutional, environmental and / or developmental factors to attributing this disorder to psychological and/or hereditary origins (8). This disorder usually occurs before the 8th year (70 - 90%) and particularly between the third to fifth year of age, when learning the speech. as a temporary stuttering occurs in 4% of children, and as a permanent symptom is estimated to cover 1% of the population (9). In many cases, stuttering goes away on its own by age 5, in others, it lasts longer. The proportion of boys to girls is 3:1, a great percentage of stuttering children are exhibiting anxiety symptoms and stuttering may co-exists with a variety of speech disorders as disturbance of linguistic manifestation, phonological disorder and Attention Deficit Hyperactivity Disorder (10). In this disorder involve and other factors, such as the body with the hitting of legs and the crossing fingers, but also and the mimic-muscle, with grimaces and facial twitching.

The cause of stuttering is currently unknown; however, brain imaging data suggest that it involves a problem with neural processing of speech, (11) linked to structural and functional anomalies at brain sites responsible for spoken language (12, 13) As these anomalies have only been investigated with school children and adults, it is unclear whether they are a cause or an effect of the disorder. There is genetic involvement in stuttering, with clear evidence of vertical



transmission within families. Around two thirds of those affected, or their parents, report a family history. There is greater monozygotic concordance than dizygotic concordance, which offers a genetic account of around 70% of cases. heir peers. Chronic stuttering is associated with clinical levels of social anxiety, with social phobia reported for 40–60% of clinical cases (14). However, it is clear that anxiety does not cause the problem. A lifetime of stuttering can cause significant quality-of-life impairment. Adults with chronic stuttering often fail to attain occupational potential,11 as employers can believe that those who stutter are less employable and promotable (15). A linear relationship between stuttering severity and educational attainment has been reported.

It can be a shock when your child starts to speak differently. Sometimes your child may get quite stuck. This can be painful to see, and you may feel helpless and worried. The classroom which includes the teacher and students is a team with bidirectional relationship. According to the expectations that the teacher has on school performance and behavior in each one of his student shapes the perception about him. Therefore, a child has poor school performance would be treated with ignorance and rejection (16). On the other side, teachers often report difficulty in knowing what to do about a child who stutters in the classroom. For example, should you talk to him about his speech or ignore it? And what should you do if other children tease her? These are only a few of the questions often asked by teachers. A major concern for most teachers is the child's reactions to his stuttering in the classroom (17). The problems of speech may affect not only the child's ability for verbal communication, but his quest for learning, behavior and socialization, causing low self-concept and self-esteem (4). Some of the negative emotions experienced by these children are stress, anxiety, frustration, fears and guilt (1). Children with stuttering often exhibit social isolation, difficulty to create friendships and are very timid. Their schooling failure entails rejection by family and school environment so the child develops feelings of frustration and inferiority. The indifference of teachers and their classmates also causes negative effects on their behavior and communication difficulties in group relations, and it seems not to be accepted from their peers. In such type of behaviors teachers should be patient and supportive; they should have the adequate knowledge on child psychology to help on the development of their specific personality and to improve their capabilities and skills so that they live together in the school community. Students with speech disorders usually —underestimated□ in school. Generally in school societies children tend to create groups with common codes, such as dressing, behavior, language and interests. When a child displays behavior different from the other children then classmates and peers will try to isolate it, alienate it and to mock it. Besides, it is also known that children are strict and harsh judges and many times they can use verbal or non-verbal group violence against —different□ children. In such cases it is not difficult for these children to be stigmatized (18). Moreover children that are suffering by speech disorders such as stuttering have to deal with a double test during school age. On the one hand they struggle with the communication difficulty and their speech disorder and in the other hand suffer because of discrimination and the isolation that different children face from their pers (19).

A majority of children who stutter have at least one co-occurring speech, language, or non-speech– language problem. Many studies had associate speech disorders with a variety of mental health issues such as severe cognitive, behavioral and social disorders (20). According to surveys, 50% of children with difficulties in language development show behavioral problems three times more than in the general population. Most children with stuttering have negative perceptions about themselves and their abilities. Thus the need for psychological support of the child by the teacher and the parents should be taken for granted (21). Over the years many therapeutic approaches have been applied for stuttering. Some focus on the family rather than the child in early term stuttering and defend not to make the child feel that talks differently. Others are trying to control the environment and solve the problem indirectly other apply technics like slow and accelerated speech and breath techniques (21).The most commonly applied treatment approaches are behavior modification, breathing exercises and speech therapy. Traditional treatment focuses on changing routine stereotypic behavioral patterns, reducing learned reaction and tension. Logotherapy Oriented Psychotherapy Program is thought to be efficient in the treatment of stuttering. The most

basic anxiety and fear experienced by the individuals whose stuttering is not physical but psychological is the thought of being disgraced. Before starting to speak, the stutterer experiences anxiety about the hesitations that may have. Then the anxiety and hesitation are turning to fear leading the individual in a state that prefers not to speak. As a result, not confronting this feared situation becomes the main purpose and this causes the stuttering to become chronic, because escape and avoidance behavior plays an important role in reducing anxiety experienced by the individual. This reduce in anxiety stiffen escape and avoidance reaction, the main aim of Logotherapy oriented Psychotherapy is to make persons confront their fears. As a result of risking confronting the feared thing, it was observed that there was a significant increase in the speech performance of the individual (22). The educational therapy should combine teaching by exploring the psychological problems which hinder the child's ability to learn. The purpose is to prevent the effects and understanding of the psychological reactions of the child in learning (1, 8). The mistakes of children are treated as unavoidable elements of their effort to learn rather than as indications of weakness. It is important to be individualized educational intervention and adaptation of educational material in abilities, needs and weaknesses of each student. The role of the family also is very important since it is the first society in human life and therefore exerts a great influence on child development and in shaping of personality. The interactions and relationships in the family constitute the basic mechanism for shaping the child's behavior.

**Conclusion**

The language disorder of stuttering, although prevents the student who has to participate in school activities as other children, did not inhibit the child's desire to participate fully in school activities. There is a need that the school community has to make measures that allows children that stutter to fully participate in everyday activities and are accepted from school environment. Furthermore teachers should be fully aware appropriate educational means as well as alternative evaluation measures that don't focus on speech and verbal procedures. Classmates and parents should be also informed for those children could be embraced and be an equal and active part of the classroom. It is very important to inform all those who have contact with your child at school, as teachers, about the importance of using smooth, relaxed speech when talking to him/her. When he/she has difficulty speaking, it's ok to acknowledge it by saying, —You had a little trouble getting that out.□! Repetition, explanation and motivation are essential elements of an educational and training program, which should be individualized according to the difficulties, skills, intelligence and interests of each student.

**References**


1. Voulgari M. (2012) disorders relating to communication of a child in preschool age and the positive effects of sport. Postgraduate Diploma Thesis. Department of Organization and Management. Sparta: University of Peloponnese.
2. Dragons DK (2011) Special pedagogy of speech and language problems: logopaideia – logotherapy: paidopsychologic and logotherapeftic rehabilitation strategies in preschool and school age.
3. Koubias E.L., Foustana A. (2003) Self-School-Aged Children with Speech and Conduct Problems. Paper presented at the 9th Congress of the Hellenic Association of Logopedics, Communication Disorders and Speech: Prevention, Research, Intervention and New Technologies in Health.
4. Angelopoulou- Sakantami N. (2004) Special Education Law developmental disorders & chronic disabilities. Thessaloniki: University of Macedonia, 2004.
5. Guitar, B. (2005). Stuttering: An integrated approach to its nature and treatment. Baltimore, MD: Williams & Wilkins.
6. Manning, W. H. (2001). Clinical decision making in the diagnosis and treatment of stuttering disorders (2nd ed.). Vancouver, Canada: Singular Thompson Learning.
7. Abalı O, Beşikçi H, Kınalı G, Tüzün ÜD. Kekeme çocuk ve ergenlerin anne babalarının psikiyatrik semptomlarının değerlendirilmesi. Düşünen Adam: Psikiyatri ve Nö- rolojik Bilimler Dergisi 2003; 16:144-146.





8. Starkweather, C.W., and Gottwald, S.R. (1990). The demands and capacities model: Clinical implications. *Journal of Fluency Disorders, 15,* 143 – 157.
9. Www.travlismos.gr / index.jsp. Access to 02/02/2015.
10. Korpa T. (2011) Speech and communication disorders. In Issues of mental health and social adjustment in children and adolescences. University of Athens.
11. Packman A, Onslow M. (2002). Searching for the cause of stuttering, 360: 655–6.
12. Sommer M, Koch MA, Paulus W, Weiller C, Buchel C.(2002). Disconnection of speech-relevant brain areas in persistent developmental stuttering, 360: 380–3.
13. Chang SE, Erickson KI, Ambrose NG, Hasegawa-Johnson MA, Ludlow CL.(2008). Brain anatomy differences in childhood stuttering, 39: 1333–44.
14. Iverach L, O'Brian S, Jones M et al.(2009). Prevalence of anxiety disorders among adults seeking speech therapy for stuttering. J. Anxiety Disord, 23: 928–34.
15. Yairi E. The onset of stuttering in two- and three-year-old children: a preliminary report. J. Speech Hear. Disord. 1983; 48: 171–7.
16. Tsiplitaris A. (2000) Psycho-Sociology of the Classroom, 4th ed. Athens: Perivolaki, 2000.
17. Kakouros E., Maniadaki K. (2006) Stuttering-The nature _ how to deal with children and adolescents. Athens: Typothito-C .Dardanus, 2006.
18. Kneisl C, Wilson H, Trigoboff E ,(2009) Contemporary psychiatric—mental health nursing, Ellin publishing, Athens 2009. 701-735
19. Goodyer I. M.(2000) Language difficulties and psychopathology. Bishop, D.V.M and Leonard, L.B Speech and Language Impairments in Children. Psychology Press Ltd, 2000.
20. Blood G, Ridenour V, Qualls C, Hammer C. (2003) Co-occurring disorders in children who stutter. Journal of Communication Disorders. Vol 6: 427–448.
21. Sakellaropoulou E.(2007) Students with stuttering and their treatment of the school environment. Step Scientist. Vol 6: 182-191.
22. Düşünceli B, koç M. (2013) Effect of logotherapy oriented treatment program on stuttering. International journal of social science. Vol 6(5): 249-266


**Məktəbli kəkələmə uşaqlar**

***Xülasə***


Kəkələməlik – danışma davranışında dəyişikliklər, hisslər, inanclar, mənlik anlayışı və ictimai qarşılıqlı əlaqə kimi xüsusiyyətləri ilə çox yönlü bir problemdir. Kəkələməlik, əsrlərdir ortaya çıxış səbəbləri araşdırılan və xüsusiyyətlərinin nələr olduğu müəyyən etməyə çalışılan bir danışma pozuqluğudur. Bu danışma pozuqluğunun insanlıq üçün bu cür əhəmiyyətli olması, insanın özünü ifadə etmədə istifadə etdiyi ən əsas funksiya olan danışmağı kəsilməyə məruz qoyan bir sıra fərqliliklərin var olmasından qaynaqlanmaqdadır. Araşdırmacılar, kəkələməliyin səbəbləri mövzusunda fərqli fikirlər ortaya atmışlar. Kəkələməliyi olan uşaqlar, məktəb mühitində müxtəlif problemlərlə üzləşirlər. Bu problemlərdən bəziləri; stress, qayğı, özünə inam əskikliyi, mənfi mənlik qəbulu, sosial təcrid və akademik müvəffəqiyyətsizlikdir. Bu elmi işin məqsədi də kəkələməlik, kəkələməliyin səbəbləri, məktəb mühitində kəkələmə uşaqların mövqeyi və müəllimlərin məktəb mühitində kəkələmə uşağa yanaşmalarının araşdırılmasıdır.


**Заикание детей в школе**

***Резюме***


Заикание – это многосторонная проблема таких особенностей как изменения в речевом поведении, чувств, убеждений, самооценки и социального взаимодействия. Заикание – это речевая проблема причины возникновения и особенности которой исследуются веками. Важность этой речевой проблемы для человечества, заключается в существовании ряда различий, прерывающих речь – самую основную функцию для самовыражения человека. У исследователей на эту тему существуют различные мысли. Дети-заики, сталкиваются с различными проблемами в школьной среде. Некоторые из этих проблем – стресс, тревога, неуверенность, восприятие отрицательной самооценки, социальной изоляции и неуспеваемость. Цель этой научной работы заключается в исследовании заикания, в причине заикания, позици детей-заик и подход учителей к ним в школьной среде.

# MÜASİR DÖVRDƏ ANOMAL UŞAQLARIN TƏLİM-TƏRBİYƏ İŞİNƏ CƏLB EDİLMƏSİ HAQQINDA FİKİRLƏR

**Qulam Əzimli,**
*professor*
E-mail: elmi.hisse.08@mail.ru

***Açar sözlər:*** *cəmiyyət, təhsil, xüsusiyyət*
***Ключевые слова:*** *общество, образование, особенность*
***Key words:*** *society, education, feature*

Fiziki və psixi cəhətdən qüsurlu uşaqlar haqqında ilk dəfə görkəmli Yunan alimi Aristotel «Hissi qavrayışlar və onların obyektləri haqqında» traktatında geniş məlumat vermişdir. O, insanın formalaşmasında eşitmə qavrayışı və nitqin roluna dair faktların təhlilinə əsasən belə nəticəyə gəlmişdi ki, karlıq-lallıq uşağın əqli qabiliyyətlərinə və idrak fəaliyyətinə ciddi təsir edir. Buna görə də, belə uşaqların təlim-tərbiyəsində xüsusi metodlardan istifadə edilməlidir.

Qədim dünyada kar-lal, kor adamlara əsl insan kimi baxılmırdı. Bu dövlətin qanunçuluğunda da öz əksini tapmışdı. Belə ki, Yunanıstanın kodeksində kar-lal, kor adamların vətəndaşlıq hüquqları məhdudlaşdırılmış və anomal uşaqların təliminə əhəmiyyət verilmirdi. İntibah dövründə anomal uşaqların tərbiyəsinə münasibət əsaslı şəkildə dəyişildi. Humanist nəzəriyyəçilərin ideyaları anomal uşaqların fərdi təlimə cəlb olunmalarına təkan verdi.

Ceralamo Kardano (1501-1576) kar-lal uşaqların təbiətini aşkar edib eşitmə qavrayışını itirmiş uşaqların təsnifatı prinsiplərini müəyyənləşdirdi, kar-lal uşaqların idrak imkanları haqqında mütərəqqi baxışı əsaslandırdı və təlim sistemini irəli sürdü. İlk növbədə Avropada belə uşaqlarla hüquq və tibb elminin nümayəndələri ilə yanaşı, təbiətşünaslar və filosoflar maraqlandılar. Təbiətşünaslar və filosoflar eşitmə və görmə qabiliyyətində, mərkəzi sinir sistemində və nitqində nöqsanları olan uşaqların idrak fəaliyyətinin xüsusiyyətlərini və imkanlarını öyrənməyə, bunların baş vermə səbəblərini müəyyən etməyə səy göstərmişdilər.

Təbiətşünasların, filosofların və hüquqşünasların, həkimlərin, psixoloq və pedaqoqların anomal uşaqlarla apardıqları işlər ayrı-ayrı ölkələrdə dövlətlərin də nəzər diqqətini cəlb etmişdir. Belə ki, klinik metodlardan istifadə edən həkimlər belə uşaqların orqanizmlərində baş verən patoloji halların yaranma səbəblərini öyrənməyə çalışmışlar.

Fiziki və psixi cəhətdən zəif inkişaf etmiş uşaqların idrak və praktik fəaliyyətlərini, habelə onların təlim məsələlərini öyrənməyə çalışan pedaqoq və psixoloqlar təlim-tərbiyənin xüsusi sistemini yaratmağa səy göstərmişlər.

Lal-kar uşaqlar üçün ilk tədris müəssisəsi 1770-ci ildə Parisdə, 1806-cı ildə Rusiyanın Pavlovsk, 1807-ci ildə isə Peterburq şəhərində təşkil edilmişdir. Sonralar oliqofren pedaqogika və loqopediya elmi yaranmışdır. Fiziki və psixi inkişafı nöqsanlı uşaqlar üçün ilk yardımçı, köməkçi sinif 1859-cu ildə Qallda, ilk köməkçi məktəb 1867-ci ildə Drezdendə, 1908-ci ildə isə Moskvada fəaliyyətə başlamışdır.

Azərbaycanda fiziki və psixi cəhətdən zəif inkişaf etmiş uşaqların təlim-tərbiyə məsələlərinə Azərbaycan Demokratik Cümhuriyyətinin fəaliyyəti illərində diqqət yetirilsə də, bu sahədə gözə çarpan iş görülə bilməmişdi. Çünki Azərbaycan Demokratik Cümhuriyyəti cəmi 23 ay yaşamışdır.

Azərbaycan sovetləşəndən sonra fiziki və psixi inkişafı nöqsanlı olan uşaqlarla işin təşkili yenidən diqqət mərkəzində oldu. Bakı Xalq Maarif şöbəsinin 1925-ci il sentyabr tarixli qərarı ilə Tibbi-Psixoloji Laboratoriya təşkil edildi.

Fiziki və psixi inkişafında qüsurları olan uşaqların təlim-tərbiyəsi işinə sosial, iqtisadi, hüquqi və digər amillər təsir göstərmişdir. Burada təbiətşünaslar, filosoflar, hüquqşünaslar, həkimlər, psixoloq və pedaqoqlar səylərini birləşdirib fiziki, psixi, sinir sistemi və nitqində nöqsanları olan uşaqların təlim-tərbiyə işini təşkil etməyə çalışmışlar. Uzun illər belə uşaqların iş görə bilmə, təlim alma qabiliyyət və imkanlarının olmasını çox vaxt qəbul etmədiklərinə görə nöqsanlı uşaqlar üçün təlim-tərbiyə müəssisələri dövlət təhsil sisteminə daxil edilməmişdir. Buna görə də nöqsanlı təlim-tərbiyə işləri ilə uzun müddət məşğul olunmamış, onlarla məqsədyönlü, sistemli təlim-tərbiyə işi aparılmamış və bu gün də bu sahədə nöqsanlar az deyildir.



# TƏLƏBƏ GƏNCLƏRDƏ SOSİAL MÜNASİBƏTLƏRİN FORMALAŞDIRILMASININ PSİXOLOJİ MƏSƏLƏLƏRİ

**Akif Quliyev,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*
E-mail: Akif.quliyev.54 @mail.ru

***Açar sözlər:*** *ünsiyyət, fəaliyyət, ünsiyyətdə qarşılıqlı münasibətlər, sosial qrup, aqressiya*
***Ключевые слова:*** *общение, действие, взаимоотношение в общении, социальная группа, агрессия*
***Key words:*** *sociability, activity, during sociability mutual relationship, social group, agression*

Psixoloji ədəbiyyatda ünsiyyətə müxtəlif müəlliflər tərəfindən fərqli təriflər verilmişdir. Onlardan biri aşağıdakı kimi səslənir: iki və daha artıq adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsirinə ünsiyyət deyilir. Qeyd etmək lazımdır ki, ünsiyyət prosesinin predmeti başqa insanlardır, onların arzu, istək və münasibətləridir. Ünsiyyətin başlıca funksiyalarından biri şəxsiyyətlərarası münasibətlərin formalaşması və inkişafıdır. Başqa sözlə, insanlar bu prosesdə bir-birinə olan münasibətlərini aydınlaşdırırlar, " qarşılıqlı təsir" göstərirlər.

L.S. Veqotskinin fikrincə, ünsiyyət tələbatı uşağın psixi inkişafının hərəkətverici qüvvəsi hesab oluna bilər. O, qeyd edir ki, uşağın xarici aləmə ən sadə münasibəti də başqa adama münasibət vasitəsilə ifadə olunur. İctimai münasibətlər kimi insanların şəxsiyyətlərarası münasibətləri də öz reallığını ünsiyyət prosesində tapır. Sosial münasibətlər, digər tərəfdən, məhz ünsiyyət prosesində formalaşır. İnsanlar birgə fəaliyyət prosesində müxtəlif formalarda əlaqə və münasibətlərə girirlər və bu münasibətləri düzgün yönləndirməyin müxtəlif üsulları mövcuddur. Xüsusilə tələbə kollektivində şəxsiyyətlərarası münasibətlərin formalaşdırılması iradi səy və düzgün rəhbərlik üsulları seçməyi tələb edir. Əfsus ki, bəzən qruplar və kollektivlərlə birgə fəaliyyət göstərən insanlar düzgün rəhbərlik üsulları seçmirlər və hər şeyə tənqidi prizmadan yanaşaraq münasibətləri qurmağa çalışırlar. Belə rəhbərlik üsulları qruplarda aqressiv davranışa şərait yaradır, onların real fəaliyyət göstərməsinə mənfi təsir göstərir. Qarşılıqlı təsir prosesində gənclər ilk növbədə təmasda olduğu insanlardan hörmət və xoş münasibət gözləyirlər. Buna görə də onların müsbət cəhətlərini nəzərə çarpdırmaqla, mənfi cəhətlər haqqında iradlar söyləmək məqsədəuyğun olardı.

Digər maraq doğuran məsələ isə gənclərin qarşılıqlı münasibətlər prosesində müəyyən davranış normalarını, əxlaq prinsiplərini onların hərəkətlərində reallaşdırmaq məqsədilə onlarda belə davranışlara maraq oyatmaq məqsədəuyğundur.

Ən mühüm amil insanların lazımi müsbət xüsusiyyətlərini təqdir və təşviq etməkdir. Eyni zamanda insanlara daha qısa zamanda təsir etməyin də özünəməxsus üsulları mövcuddur. Gənclər tərəfindən müsbət qarşılanmaq və onlara təsir etmək istəyiriksə ilk öncə onların maraq dairələri insanları bir-birinə daha da yaxınlaşdırar və bir-birlərini tanımasına şərait yaradar. Bu şəxsiyyətlərarası münasibətlərin düzgün formalaşmasına müsbət təsir göstərir. Professor Harry Overstreet yazmışdır: "Arzu və istəklər davranışlarımızın mənbəyini təşkil edir. Evdə, işdə, məktəbdə və məişətin digər bütün sahələrində ən çox önəm veriləcək məsələ başqasında bir şeyə bir şeyə dair qüvvətli istək oyada bilməkdir. Bunu bacaran insan çox böyük bir kütləni arxası ilə aparmağa nail olar". İstər təlim, istərsə də ailə şəraitində gəncləri tanımağa və onlarla qarşılıqlı təmas qurmağa səy göstərməliyik. Başqa sözlə desək, necə münasibət görmək istəyiriksə, ilk öncə həmin rəftarı qarşımızdakı insana biz özümüz göstərməliyik. Əgər biz başqaları ilə maraqlanmırıqsa, onlar niyə bizimlə maraqlanmaq istəsinlər? Unutmamaq lazımdır ki, riyakarlıq ikitərəfli qılıncdır: həm özümüzü, həm də qarşımızdakını kəsir. Digərlərinin sevgisini qazanmaq yolunda atılacaq addımlardan birincisi insanlara gülümsəmək və onlara adları ilə müraciət etməkdir. Bir insanın öz adını ən sevimli və dəyərli kəlmə hesab etdiyini daima xatırlamaq lazımdır. Həmçinin yaxşı bir dinləyici olmaq vacib şərtlərdən biridir. Qarşımızdakı insana özünü tanıtmağa, öz istəklərini söyləməyə imkan yaratmalıyıq. Şəxsiyyətlərarası sosial münasibətlər sahəsində hər kəsi düşündürən məsələlərdən biri də təmasda olduğumuz insana öz fikirlərimizi necə çatdırmaq və

düşüncələrini necə dəyişə bilməyimizdir. Əgər insanların düşüncələrini dəyişmək və düzgün davranmalarını istəyiriksə , ilk növbədə onlarla aqressiv danışmamalıyıq. Gənclərlə söhbətə "sənin fikirlərin yanlışdır və mən bunu sübut edəcəm" deyə başlasaq, bu onların qüruruna və zəkasına mənfi təsir göstərəcək. "Mən sizdən daha ağıllıyam, bir neçə mülahizə ilə mən bu mövzu ilə əlaqədar fikirlərinizi alt-üst edəcəyəm, düşüncələrinizi dəyişdirəcəm" deməklə onları müəllim və tərbiyəçiyə qarşı eyni formada davranmağa sövq edir. Lakin "mənim düşüncələrim daha fərqlidir və bəlkə də yanılıram" deyə sözə başlamaq daha düzgün və məqsədyönlü olardı. Digər tərəfdən yanılan tərəf biz olsaq, bunu səmimi şəkildə etiraf edib və söhbətə dostca başlamaq lazımdır. İkinci addım olaraq isə, əmrlər vermək yerinə xahiş xarakterli cümlələr qurmalı və qarşımızdakına "bəli" dedirtdirəcək suallar verməli və onun danışmağına imkan yaratmalıyıq. Söhbətə eyni fikirdə olduğunuz məqamlardan başlayıb, həmin insana müəyyən məqsəd üçün çalışdığımızı aşılamaq lazımdır. Çünki, bu zaman həmin gənc öz düşüncələrini reallaşdırdığını zənn edəcək və onun fikirlərini dəyişdirmək bizim üçün daha da rahat olacaq. Əsl natiq sözə qarşısındakının "bəli" deyəcəyi cümlələrlə söhbətə başlayır və nitqini o istiqamətdə qurmağa çalışır. Məsələyə qarşımızdakının gözü ilə baxmaq və onunla simpatiya qurmaq da vacib şərtlərdən biridir. Bundan başqa öz düşüncələrimizi müəyyən nümunələrlə izah etməyi əyani şəkildə göstərməliyik.

Yuxarıda sadalanan məsələlərə tələbə gənclərin fikir və mühafizələrini öyrənmək məqsədilə ADU-nun filologiya fakültəsinin I kurs tələbələrinə 10 bənddən ibarət anket-sorğu təqdim etdik. Tələbələrə verilən sualları oxuyub, təhlil edib və cavablandırmaq tapşırığı verildi.

Alınan nəticələrin təhlili göstərdi ki, tələbə gənclərin "Sizi tənqid edən insanlara münasibətiniz" sualına cavabları birmənalı olmamışdır. Qeyd etmək lazımdır ki, onların tənqidi fikirlərə münasibəti heç də həmişə müsbət qarşılanmır. Bir çox hallarda onlar ünvanlarına tərif deyilməsini xoşlayırlar. Gənclərin əksəriyyəti digər maraqlı bir suala "Siz hansı xarakterli insanlarla ünsiyyət qurmağı xoşlayırsınız" sualına səmimi, gülərüz, dinləməyi bacaran və ikiüzlü olmayan insanlarla təmasda olmağın vacibliyini vurğulayıblar. Onların fikrincə, insanlar ünsiyyət zamanı bir-birilərini düzgün anlamalı və həmsöhbətini axıra qədər dinləməli bacarmalıdırlar. Əfsus ki, bir çox hallarda tələbə gənclər təmasda olduğu müəllim, inzibati işçiləri və tələbə yoldaşlarını qavramağı və dinləməyi bacarmırlar. "Dostunuzda hansı keyfiyyətləri mütləq görmək istərdiniz?" sualına onların cavabı, yaxşı məsləhət verməyi bacaran, dostluğa sadiq, çətin anlarda dostuna dayaq olan , kollektivdə yüksək statusa malik olan insanlarla yaxın olmaq arzularını bildirmişlər. Ümumiyyətlə, tələbələrlə aparılan sorğular, alınan yazılı cavablar, müşahidələr göstərir ki, qruplarda şəxsiyyətlərarası münasibətlərin formalaşmasında, onların düşüncələrinin inkişafında ünsiyyətin, əvəzedilməz rolu vardır. Unutmaq lazım deyil ki, tələbə kollektivində yuxarıda deyilənlər nəzərə alınarsa, gənclərə daha tez təsir edib, onları lazımi istiqamətə yönəldə bilərik.

**Ədəbiyyat**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə.. Sosial psixologiya. Bakı, 2003.
2. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 1998.
3. Веготский Л.С. « Собр. Соч.». Т., М., 1984.


## SOSİAL FOBİYALI UŞAQLARIN DAVRANIŞ XÜSUSİYYƏTLƏRİ


**Solmaz Həsənli,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTPİ*
*E-mail: solmazhasanli@hotmail.com*



*Açar sözlər: sosial fobiya, uşaqlar, davranış xüsusiyyətləri*
*Ключевые слова: социальная фобия, дети, характеристики поведения*
*Keywords: socialphobia, children, behavioral characteristics*


Sosial fobiya insanda önəmli psixo-sosial problemlərə yol açan, geniş yayılmış, ciddi və insanın sosial həyatına olduqca mənfi təsir göstərən psixoloji problemdir. Araşdırmalar sosial fobiyanın təxminən 40%-nin 10 yaşından öncə, 95% -nin isə 20 yaşından əvvəl başladığını ortaya çıxarmışdır. Bu araşdırma nəticələri sosial fobiyanın uşaqlıq və yeniyetməlik dövrünün ən önəmli psixoloji problem olduğunu göstərir. Eyni zamanda məktəb fobiyası olan uşaqların da 40%-də sosial fobiyanın olduğu müəyyənləşdirilmişdir.



Sosial fobiyanın erkən yaşda başlaması bir çox ciddi problemlərə səbəb olur və təlim fəaliyyətinə mənfi təsir göstərir. Eyni zamanda sosial fobiya sonralar bir çox psixoloji problemlərin də ortaya çıxmasına yol açır. Bunların içində ən önəmlisi depressiyalar, spirtli içkilərə aludəçilik və narkotik maddələrdən istifadə kimi problemlər diqqət çəkir. Sosial fobiyalı insanlar ağır depressiyaların nəticəsində intihara da yönəlirlər. Bəs sosial fobyalı uşaqlar hansı davranış xüsusiyyətləri göstərirlər və belə uşaqları necə müəyyənləşdirmək olar?

İlk öncə onu qeyd edək ki, sosial fobiyalı uşaqlarda fiziolojik, düşüncə və davranışla bağlı problemə xas xüsusiyyətlər meydana gəlir. Bunlardan daha çox diqqət çəkən davranış xüsusiyyətləridir ki, sosial fobiyaya aid bir çox davranışların uşaqlarda müşahidə edilməsi uşağın bu psixoloji problemlə qarşı-qarşıya qalması haqqında bizə ilkin informasiya verir.

Valideynlər övladlarında sosial fobiyanın olub-olmamasını bilmək üçün bəzi davranış xüsusiyyətlərinə diqqət etməlidirlər. Sosial fobiyası olan uşaq onun üçün yad olan mühitdə həddən artıq ürkək, səssiz, hərəkətsiz və utancaq bir davranış göstərir. Bəzən də ağlamaq, ata-anasını bərk-bərk qucaqlamaq, onlara toxunmaq, yanlarından ayrılmamaq, hətta aqressivlik kimi davranışlar sərgiləyirlər. Qrup oyunlarına qatılmazlar, uzaqdan seyr etməklə kifayətlənirlər, hətta bir kənara çəkilib özlərini gizlədərək oyunu izləyərlər. Oyunlara qatılsalar belə digərlərinin sözləri doğrultusunda və önəmli rollar almadan hərəkət edər, oyunda öz sözlərini deməkdən çəkinirlər. Oynanan oyunda arxa planda qalırlar. Məktəbə getmək istəməyib müəyyən bəhanələr gətirərək evdə qalırlar.

Eyni zamanda müəllimlər də uşaqlarda sosial fobiyanı olub-olmamasını müəyyənləşdirmək üçün sinif içində şagirdlərin davranışlarını diqqətlə təhlil etməli və bununla bağlı məktəb psixoloquna məlumat verməlidirlər. Uşaq əgər çəkingən davranışlar göstərirsə, dərsi danışdığında və ya müəllimin sualına cavab verdiyində üzü qızarırsa, sinifdə lağ edilməkdən qorxursa və həddindən artıq həyəcanlanırsa bu davranışlar yuxarı yaşlarda da davam edəcək olan sosial fobiyanın xəbərçisidir.

Sosial fobiyalı uşaqlarda qorxu və stress yaradan mühitə girməkdən çəkinmək, mühiti tərk etmək, göz təmasından qaçmaq, həddən artıq xəyal quraraq real həyatla əlaqəsini kəsməyə çalışmaq və s. kimi davranışlar da müşahidə edilir.

Bir çox hallarda uşaqda sosial fobiyanın olması müəyyənləşdirilməzsə müəllimlər uşağın təlim uğurunun aşağı olması faktından yola çıxaraq onda aşağı zehni potensialın olmasını ön plana çəkirlər ki, bu da uşaq psixologiyasını həddən artıq zədələyən bir durumdur. Hətta sosial fobiyanın həmin uşaqda daha çox dərinləşməsinə və daha ciddi psixoloji problemlərə səbəb olmasına şərait yaradır.


**С. Гасанлы**


**Поведенческие характеристики детей с социальной фобией**


*Резюме*

В статье говорится о социальной фобии у детей. В то же время в статье анализированы поведенческие характеристики детей с социальной фобией.



**S. Hasanlı**


**Social phobic children behavioral characteristics**


*Summary*

The article is about social phobias inchildren. The article also enumerate behavioral characteristics social phobic of children

# EŞİTMƏSİ QÜSURLU MƏKTƏBLİLƏRİN TƏLİM PROSESİNDƏ İNKİŞAF ETDİRİLMƏSİ

**Dilarə Dostuzadə,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ARTPİ*
E-mail:d.dostuzade@mail.ru

*Açar sözlər: idrak, təfəkkür, tapşırıq, münasibət, əqli inkişaf*
***Ключевые слова:** познание, воображение, задание, отношение, умственное развитие*
***Keywords:** cognition, imagination, setting, attitude, mental development*

Eşitməsi qüsurlu məktəblilərin həyata hazırlanmaları, təlim fəaliyyətində iştirakı idrak proseslərinin inkişafı ilə bağlıdır.

Eşitməsi qüsurlu uşağın məktəbə daxil olması onun həyatında yeni mərhələnin başlanğıcını təşkil edir. Təlim eşitməsində qüsur olan məktəblilərin əsas fəaliyyətinə çevrilir, uşaq yeni şəraitə düşür, davranış motivləri əsaslı şəkildə dəyişir, onlar üçün qoyulmuş qaydalara əməl etməli olurlar. Uşağın məktəbə daxil olması onun həyat və fəaliyyətində ciddi dəyişikliklər əmələ gətirməklə yanaşı, onun cəmiyyətdəki sosial mövqeyi, yaşıdları və yaşlılarla ünsiyyət formaları və münasibətlərinin dəyişilməsini tələb edir.

Məktəbdə eşitməsi qüsurlu uşağın hərtərəfli inkişafı üçün əsaslı şərait yaranır. Məktəb uşaq şəxsiyyətini əqli, hissi-iradi planda inkişaf etdirir, onda bilik, bacarıq, vərdiş və qabiliyyətlərin yeni keyfiyyətdə təşəkkülünə, inkişafına zəmin yaradır.

Təlim prosesində məktəbli təbiəti öyrəndikcə anlayır ki, insan təbiətdən yalnız istifadə etmir, həm də onu öz tələbatına müvafiq surətdə dəyişdirir.

Eşitməsi qüsurlu uşaqlar məktəbdə bir sıra çətinliklərlə rastlaşırlar. Məşhur psixoloq V.V. Davudov məktəbə daxil olan uşaqların tədris prosesində qarşılaşdığı ilkin çətinlikləri 3 qrupa ayırır:

1. Bu çətinlik məktəbin özünəməxsus xüsusiyyətləri ilə bağlıdır (evə verilən tapşırıqların yerinə yetirilməsi, məktəb rejiminin gözlənilməsi, məktəbə vaxtında gəlib, dərsdə sakit oturmaq, diqqətli olmaq və s.).

2. Müəllimin ciddi tələbkarlığı, müxtəlif tapşırıqları verməsi, uşaqda gərginlik, sıxıntı yaradır və beləliklə o, düşdüyü yeni şəraitə çətin uyğunlaşır, yoldaşları ilə ünsiyyətə girməkdə çətinlik çəkir.

3. I sinifdə uşağın intellektual axtarışları və idrak müstəqilliyi yüksək səviyyədə olmur. Nəticədə uşaqda təlimin məzmununa maraq oyanmır. O, tədricən həcmcə artan biliklərə yiyələnməkdə çətinlik çəkir, qaydaları mənimsəyə bilmir.

Belə halların qarşısını almaq üçün uşağın əqli fəaliyyətini daim fəallaşdırmaq, onu mürəkkəb intellektual məsələlərin həllinə alışdırmaq lazımdır.

Təlim prosesində mənimsəmə qaydalarına yiyələnməyən uşaqlar ayrı-ayrı fənləri və tərkib hissələrini yüksək səviyyədə öyrənmək imkanından məhrum olurlar. Təlim düzgün təşkil olunduqda şagird bu və ya digər tapşırığı yerinə yetirir. Təlim prosesi həm əyani, həm də əqli planda həyata keçirilir.

Savad təlimi dövründə məqsəd kiçikyaşlı məktəbliləri oxu və yazı texnikasına yiyələndirmək və onların nitqini, təfəkkürünü, idrak marağını inkişaf etdirməkdir.

Savad təlimi dövründə şagirdlərin nitqinin və təfəkkürünün inkişaf etdirilməsi üzrə müntəzəm işlər aparılmalıdır. Müəllim kiçikyaşlı məktəblilərə suallara cavab verməyi, oyunları və gördükləri iş haqqında kiçik hekayələr qurmağı, bir hadisənin təsvir olunduğu şəkil üzrə hekayə yazmağı, oxunmuş mətnin məzmununu nəql etməyi və s. öyrətməlidir.

Ünsiyyət zamanı eşitməsi qüsurlu uşaqlarda yaranan qeyri-adi nitq, iradi nitqdən daha zəngin və düzgün olur. Ona görə də məşğələlərdə oyun və tapşırıqlar elə təşkil olunmalıdır ki, burada uşaqlar həm sadə geniş, həm də tabeli və tabesiz mürəkkəb cümlələrdən istifadə etsinlər. Məşğələlərdə dialoji nitq prosesində uşaqların dinləmə və anlama bacarığı, müsahibədə iştirak etmək, sual vermək və suala cavab vermək bacarığı formalaşır. Müsahibə əqli tərbiyənin fəal metodu olmaqla, uşaqların mühüm faktları müqayisə etmələrinə, mühakimə yürütmələrinə, ümumiləşdirmə aparmalarına imkan yaradır.



### Ədəbiyyat

1. Y.Ş.Kərimov. Təlim metodları. Bakı: "R.S.Poliqraf" MMS, 2007.
2. D.Ə.Dostuzadə. Eşitməsi qüsurlu uşaqlarla işin təşkili. Baki, 2011.
3. A.İ. Dyçkova, A.P. Qazova, S.A. Zıkov. Eşitmə pozğunluğu olan uşaqlarda nitq inkişafı. M., 1980.
4. A.H. Леонтьев. Проблемы развития психики. M: МГУ, 1972.

Д. Достузаде

**Развитие познавательной деятельностии у детей с дефектами слуха в процессе обучения**

*Резюме*

Подготовка к жизни, а также участие в процессе обучения у детей с проблемами слуха связано с развитием познавательных процессов.

В процессе воспитания важно уделять внимание на изучение таких познователыных процессов как восприятие, внимание, память, мышление, речь и воображение.

В статье даны рекомендации, которые помогут школьнику в развитии его творческого воображения, познавательного интереса.

D. Dostuzade

**Development of cognitive actidity of children with hearing impairments in learning**

*Summary*

Preparation for life, as well as participation in the learning prosess in children wиeh hearing problems related to the development ofcognitive prosesses.

In the prose of education it is important to pay attention to the stndy of cognitive prosesses such as perseption, attention, memory, thinking, lanuage and imagination.

This artices provides rekommendations that can help the student to develop his creative imagination, cognitive interest.

# İCTİMAİ FƏALLIĞIN ELMİ-NƏZƏRİ TƏDQİQİ

**Sevinc Orucova**
*Naxçıvan Dövlət Universiteti*
sevinc.orucova.71@mail.ru

***Açar sözlər:** sosial psixologiya, ictimai fəallıq, insan, psixoloji.*
***Ключевые слова:*** Социальная психология, общественная деятельность, человек, психологические
***Key words:*** social psychological, social activity, a man, psychological

İctimai fəallıq fəallığın əsas formalarından biridir. Psixoloqlar, pedaqoqlar, filosoflar və b. ictimai fəallıq anlayışına öz münasibətlərini bildirmişlər. Bu baxımdan akad. M.M. Mehdizadənin fikirləri xüsusi maraq doğurur: "Şagirdlərin ictimai-siyasi fəallığı dedikdə, onların dərsdənkənar, məktəbdə və məktəbdən kənarda icra etdikləri elə işlər nəzərdə tutulur ki, bu işlər şüurlu, könüllü, təmənnasız olaraq məktəbin, kollektivin, ümumiyyətlə, xalqın mənafeyinə yararlı olsun" (2).

E.A. Anufriyevin fikirləri də diqqəti cəlb edir. O, ictimai fəallıq anlayışını əsasən düzgün aydınlaşdırmışdır. Onun qənaətincə, ictimai fəallıq məfhumu şəxsiyyətin ictimai həyatın müxtəlif sahələrinə münasibətini onun konkret sosial-siyasi fəaliyyətini səciyyələndirir ki, bu da müxtəlif istiqamətlərdə olur. İctimai fəallıq insanın sosial iş bacarığının təzahür həddini ifadə edərək,

şəxsiyyətin xarakteristikasında ictimai münasibətlərin subyekti kimi əsas cəhəti təşkil edir. Nəticədə ictimai fəallıq insanın əməyə, cəmiyyətə və ictimai-siyasi fəaliyyətə münasibətini göstərir (3).

Ümumiyyətlə, insanın ictimai fəallığı, ilk növbədə onun özünü kollektivin üzvü kimi hiss etməsində, kollektivin və cəmiyyətin mənafeyi naminə ictimai fəaliyyətdə iştirakında, ictimai tapşırıqlara əməl edilməsində, təşəbbüskarlığın və özünüfəaliyyətin təzahüründə, kollektivin və cəmiyyətin qarşısında dayanan vəzifələrin yerinə yetirilməsi məqsədi ilə təşkilatçılıq bacarığı, qabiliyyəti və tələbatına yiyələnməkdə özünü göstərir. Deməli, insanın ictimai fəallığı dedikdə, onun öz bilik, bacarıq və qüvvələrini cəmiyyətdə gedən quruculuq işlərinə doğru yönəltməsi, ictimai fəaliyyətdə iştirak etmək sahəsində vərdişlərə yiyələnməsi və həmin fəaliyyətə tələbatın yaranması başa düşülməlidir. Həmin fəaliyyət müəyyən ictimai tapşırıqların yerinə yetirmək vəzifəsini öz üzərinə götürmək və onlara əməl etməklə məhdudlaşmamalı, fəaliyyətin digər növləri ilə birləşib hərtərəfli şəkil almalıdır. Bu, bir həqiqətdir ki, ictimai fəallıq olmadan, idrakı fəallıq təlimə münasibət səviyyəsinə yüksələ bilməz. Eləcə də, təşkilatçılıq fəaliyyətində fəallıq müəyyən istiqamətə malik olmadıqda cəmiyyətə zidd fəaliyyətə çevrilə bilər.

İctimai fəallıq şəxsiyyətin inkişafına xeyli dərəcədə kömək göstərir, mənəvi baxımdan insana zənginlik gətirir, ona yaradıcı, əxlaqi məmnunluq verir. Buradan aydın olur ki, ictimai fəallıq şəxsiyyətin zəruri keyfiyyəti, ictimai iş isə daxili tələbatı kimi özünü göstərir.

İnsanın ictimai işdə iştirakı hələ onun ictimai fəallığı demək deyildir. Çünki ictimai fəallıq, doğrudan da, əqidəliklə müəyyən olunur, bu da müvafiq bilik, hiss və iradi keyfiyyətlərin nəticəsi kimi özünü göstərir, mövcud bilikləri praktik fəaliyyətdə tətbiq edə bilmək bacarıq, vərdiş və adətləri ilə, öz əqidəsinə uyğun şəkildə fəaliyyət göstərməklə, ictimai fəaliyyətə maraq və tələbatla, şəxsiyyətin ictimai və kollektiv istiqamətini müəyyənləşdirən motivlərlə xarakterizə olunur.

İnsanın ictimai fəallığının ayrılmaz komponenti onun iradəsinin xassələridir. Məqsədyönlülük, qətiyyət, təkidlilik, müstəqillik, intizamlılıq, prinsipiallıq, təmkinlilik və s. buraya daxil edilə bilər.

Deyilənlərdən görünür ki, ictimai fəallıq, əvvəla insanın əsas xüsusiyyətlərinin biri kimi çıxış edərək şəxsiyyətin strukturunda öz ifadəsini tapır, ictimai fəallıq xüsusi sosial təzahürü əmələ gətirərək ictimai-siyasi münasibətlər sahəsində insanların hərəkət və əməllərində, davranışında meydana gəlir. Həmdə ictimai fəallıq şəxsiyyətin yönümünü müəyyən edir.

### Ədəbiyyat


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı. 2004.
2. Mehdizadə M.M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif. 1982.
3. Ануфриев Е.А. Социальная роль и активность личности М.: изд-во Московского ун-та, 1971.



С. Оруджова


**Анализ научно-теоретической общественной активности**

*Резюме*


В статье рескрываются вопросы относительно общественной деятельности. Также анализируются идеи Е.А.Ануфриева, И.И. Кернегана, В.Г.Моргиговича. Автор исследует общественную деятельность, основные психологические особенности человека.



С. Оруjова


**Scinetific-theoretical analyse of social activity**

*Summary*


The article was dealt with issues on social activity. Also view points ofE.A.Anufriyev, I.I.Kernega, V.Q,Mordikovich and others were taken into account. The author valued social activity as the main feature, psychological quality of a man.




# İNKLÜZİV TƏHSİL SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏHSİLİNİN MÜASİR MODELİ KİMİ


**Elmira Kərimova,**
*ARTPİ-nin aparıcı elmi işçisi*
E-mail: ema.umudova@mail.ru



***Açar sözlər:** inklüziv təhsil, xüsusi təhsil ehtiyacları olan uşaqlar, inklüziv təhsilin metodologiyası*
***Ключевые слова:** инклюзивное образование, дети с особыми образовательными потребностями, методология инклюзивного образования*
***Key words:** inclusive education, children with special educational needs, the methodology of inclusive education*


İnteqrasiyanın müasir forması – inklüziya ilk dəfə XX əsrin ikinci yarısında meydana çıxır. XX əsrin 70 – ci illərində liberal – demokratik islahatlar və iqtisadi yüksəliş nəticəsində hymanist ideyalar, yeni nəzəriyyə və texnologiyalar pedaqogikaya da tətbiq olunaraq təhsildə interaktiv və ekoloji yanaşmaların tətbiqini təmin etdi. İnklüziya proseslərinin genişlənməsində skandinav ölkələrində cərəyan edən «normallaşdırma» konsepsiyasının rolu böyükdür. Əsasında əlillərin sosial həyatının normallaşdırması və beynəlxalq hüquq normalarına uyğunlaşdırılması ideyaları duran konsepsiya sağlamlıq imkanları məhdud şəxslərin inteqrasiyalı (inklüziv) təlimi hüququnu da qanuni şəkildə təsdiqlədi.

Müasir təhsil sistemi təkcə məktəbin müəyyən tələblərinə cavab verən, standart imkanları olan, ümumi proqramı mənimsəyib təhsildə müvəffəqiyyət əldə edə bilən uşaqları qəbul edir. Nəticədə görürük ki, xüsusi təhsil ehtiyacları olan uşaqlar təhsil prosesindən kənarda qalır, çünki onlarla işləmək üçün ümumtəhsil məktəblərində korreksion və xüsusi təhsildə lazımı bilikləri olan müəllim, psixoloq, müəllim köməkçisi və s. yoxdur. Bu cür problemləri müasir məktəbdə inklüziv təhsil həll etməlidir.

İnklüziv təhsil nə deməkdir? İnklüziv təhsil (latınca *inklüzio* – daxil etmə) ümumi təhsilin inkişafı prosesidir. İnklüziv təhsil hamı uşaqların psixofiziki, intellektual və başqa xüsusiyyətlərindən asılı olmayaraq ümumtəhsil sistemində sağlam uşaqlarla birgə təlim – tərbiyəsidir. İnklüziya bütün şəxslər üçün, o cümlədən sağlamlıq imkanları məhdud şəxslər üçün təhsilin mümkünlüyünü nəzərdə tutur. İnklüziv təhsilin əsasında uşaqların hər bir diskriminasiyanı istisna edən, onların xüsusi təhsil ehtiyaclarını və ümumiyyətlə bütün həyatı hüquqlarını təmin edən və inkişafı üçün lazımı şərait yaradan ideologiya durur. Belə ki, inklüziya təhsilin təşkili prinsipi kimi sosial – pedaqoji xarakterli bir fenomendir. Müvafiq olaraq, inklüziya ayrıca bir uşaqın korreksiyasına və dəyişməsinə yox, məktəb və sosial mühitin hər uşaqın imkanlarına adaptasiya olunmasına istiqamətlənməlidir. İnklüziv təhsil ümumi təhsilin bir hissəsi olmalıdır, birlikdə isə onlar vahid təhsil sistemi kimi fəaliyyət göstərməlidirlər. Beynəlxalq sənədlər inklüziyanı "bütün uşaqların, psixofiziki imkanlarından asılı olmayaraq, mövcud şəraitdə cəmiyyətin həyatında iştirak etməsini təmin edən bir dəyər" kimi qiymətləndirirlər. Gördüyümüz kimi, burada "sağlamlıq imkanları məhdud uşaqlar" anlayışından istifadə edilmir, inklüziv təhsil yeni bir metodika və ya təhsil forması kimi təqdim edilmir. Çünki mükəmməl qanunlara görə, inklüziv təhsil təhsilin bir forması deyil, o, öz fəlsəfəsi olan yeni təhsildir, sərbəst seçim və imkanlar təhsilidir. İnklüziv təhsil ətrafında gedən pozitiv və neqativ mübaisələr bəzən anlaşılmazlıqlara gətirsədə, ümumilikdə bu prosesin inkişafına və inklüziv təhsil anlayışının məzmunca və mənaca doldurulmasına, bu sahədə olan yeniliklərin öyrənilməsinə kömək edir.

İnklüziv təhsilin inkişafındakı müasir mərhələnin problem və ziddiyyətlərlə zəngin olması açıq və peşəkar dialoq, konstruktiv mübahisələr, yerli təcrübənin nəzərə alınmasını və əməkdaşlığı tələb edir. Respublikada inklüziv təhsilin pilot layihə olması ondan xəbər verir ki, bizim təhsil hələ inklüziyaya keçid dövrü yaşayır. Bu dövrün əsas əlaməti bizim məktəbin və ümumiyyətlə təhsilin dəyişməyə və sistemli dəyişiklərə hazır olmasıdır. Amma belə dəyişiklər birdən və sürətlə baş vermirlər, onlar xeyli müddət tələb edirlər. Bu dəyişiklərin ən mürəkkəbi və çətini peşəkarların

təfəkküründə (müəllimin psixologiyası) və insanların şüurundakı dəyişiklərdən başlayır və iqtisadi dəyişiklərlə tamamlanır. İnklüziv təhsilin tətbiqi təkcə "maneəsiz mühit"in yaradılması çətinliyi ilə deyil, ilk növbədə sosial xarakterli çətinliklə üzləşir. Bunlar geniş yayılmış stereotiplər və xurafatlardan; müəllimlərin, uşaqların və onların valideynlərinin yeni təhsil prinsiplərini qəbul etməməsindən; yerli inklüziyaya aid sistemli psixoloji – pedaqoji bilik və texnologiyaların, monitorinq tədqiqatlarının olmamasından və s. ibarətdir. Elan edilmiş fəlsəfi əsas və prinsiplərlə yanaşı inklüziv təhsilin metodologiyasının olmaması ümumiyyətlə inklüziv təhsil ideyasına qarşı inamsızlıq və tənqid yaradır. Bu sahəyə aid tədqiqatların azlığı və ümumiyyətlə monitorinqin keçirilməməsi qeyri düzgün nəticələrə və qiymətləndirməyə gətirib çıxarır. Halbuki inklüziv təhsilin tətbiqinin cəmiyyətdə başa düşülməsi üçün bu proses haqqında məlumat verən, inklüziyanın müsbət tərəflərini insanlara başa salan ciddi tədqiqatlar aparılmalıdır.

İnklüziv təhsil müasir dövrdə böyük perspektivləri olan proqressiv təlim yoludur. Məhz bu, cəmiyyətdə inklüziyanın qəbul olunmasını təmin edir və hər uşaqda öz potensial imkanlarını realizə edib keyfiyyətli təhsil almağa inam yaradır. İnklüziv təhsilin hazırkı vəziyyəti göstərir ki, bu innovasion proses ümumiyyətlə təhsilin inkişafına güclü təsir göstərərək təhsilin humanistləşməsinə və yeni tipli müəllim icmasının yaranmasına kömək edir. İnklüziv proseslərin ardıcıl və məqsədyönlü inkişafının nəticəsi isə iklüziv cəmiyyətin yaradılmasıdır.

### Ədəbiyyat


1. S.Qasımov, E.Kərimova və b. İnklüziv təhsil sistemində ailə-məktəb, məktəb-valideyn münasibətləri. Bakı, 2006.
2. N.Hüseynova. İnklüziv təhsil. Bakı, 2015.
3. Н.Н.Малофеев. Специальное образование в меняющемся мире. М: 2007.


Э. Керимова

### Инклюзивное образование как современная модель образования лиц с ограниченными возможностями здоровья


*Резюме*

В статье говорится, что в настоящее время одним из направлений образования лиц с ограниченными возможностями здоровья в республике является инклюзивное образование. Инклюзия как социальная концепция, отражает гуманизацию общественных отношений и принятие прав людей с ограниченными возможностями здоровья. Результатом последовательного и целенаправленного развития процессов инклюзии станет возникновение инклюзивного общества.


E. Karimova

### Inclusive education as a modern model education of persons with disabilities


*Summary*

The article says that currently one of the areas of education of persons with disabilities in the country is an inclusive education system. Inclusion as a social concept, reflects the humanization of social relations and the adoption of the rights of people with disabilities to education. The result of the consistent and purposeful development processes of inclusion will be the emergence of an inclusive society.




## KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN YARADICILIQ QABİLİYYƏTLƏRİNİN XARAKTERİSTİKASINA DAİR


**Tünzalə Əliyeva,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Naxçıvan Dövlət Universiteti*



***Açar sözlər:*** *Kiçik yaşlı məktəblilər, yaradıcılıq, təsviri qabiliyyətlər, yaradıcılıq*
***Ключевые слова:*** *младшие школьники, творчество, изобразительные способности, виды творческой деятельности, личные качества в творческом подходе*
***Key words:*** *younger schoolchildren, creativity, descriptive abilities, kinds of creativity activity, personal features in the creative approach*


Müasir psixologiyada yaradıcılıq qabiliyyətləri anlayışından geniş şəkildə istifadə edilir. Bu anlayış yaradıcılıq anlayışı ilə sıx əlaqə və vəhdətdədir. Hazırkı dövrdə psixologiya üzrə tədqiqatlarda məktəbli yaradıcılığının müxtəlif növləri fərqləndirilir. Hamı tərəfindən qəbul edilmiş elmi, texniki, ədəbi, musiqi, təsviri sənət və s. bu kimi qabiliyyətlərlə yanaşı oyun, təlim, məişət, hərbi, idarəçilik, situativ yaradıcılıq qabiliyyətləri də ayırd edilir.

Yaradıcılıq anlayışı altında yeni maddi və mənəvi "məhsulun" analiz və sintezi üzrə hərəkətlər, təsirlər, metodlar, priyomların məcmusu başa düşülür. Yaradıcılıq fəaliyyətini fərqləndirən çox mühüm cəhət yerinə yetirilməsi nəzərdə tutulan məsələnin çox əhəmiyyətli informasiyalar şəraitində, yekun nəticələri qiymətləndirmə meyarları əsasında axtarılmasıdır. Bu isə xüsusi metodların köməyi ilə həyata keçirilir.

Bir cəhəti də qeyd edək ki, insan yaradıcı yanaşmaya yiyələnərkən bir sıra üstünlüklərə malik olur. Bunlardan bir neçəsini göstərək:

1. Yaradıcılıq həyat məqsədlərinin və özünü ifadə qabiliyyətlərinin təşəkkülü, yeni əlamət və formalar alması prosesidir.
2. Yaradıcı yanaşmaya yiyələnərək ailədə, cəmiyyət kollektivində baş verən ziddiyyətlərin uğurla həll edilməsi, yeni şəraitə müvəffəqiyyətlə adaptasiya olmaq imkanları yaranır.
3. Yaradıcılıq fəaliyyəti prosesində şəxsi keyfiyyətlər – əməksevərlik, məqsədə çatmaq əzmi, inadlı və iradəli olmaq, tənqidə dözümlülük və s. keyfiyyətlər formalaşır.
4. Yaradıcılıq fəaliyyəti prosesində fiziki və əqli əmək fəaliyyəti ahəngdar şəkildə uzlaşır, biri-biri ilə bağlı olur və s.

Şagirdin müstəqil yaradıcılıq fəaliyyəti onun qarşıya qoyulmuş vəzifələri öyrənməsi, həll edə bilməsidir. Uşaqları yaradıcılıq fəaliyyətinə qoşmaq - modellər, maketlər yarada bilmək, bədii və təsviri yaradıcılıq işləri ilə məşğul olmaq, müəyyən texniki vasitələr hazırlamaq, riyazi məsələləri həll edə bilmək prosesinə qoşmaqdır. Yaradıcılıq fəaliyyəti prosesində uşağın əvvəllər mənimsədiyi bilikləri tətbiq edə bilməsi, onları müxtəlif şəraitdə və müxtəlif məqsədlər üçün istifadə etməyi bacarması, fəaliyyət üsullarının kombinə edilməsinə səy göstərməsi, müəyyən məqsəd və vəzifələrin həllinin yeni yollarını tapa bilməsi olduqca vacibdir.

Şagirdlərin yaradıcılıq fəaliyyətinə qoşulması onların şəxsi yaradıcılıq keyfiyyətlərinin inkişafına, yəni sürətlə oxumalarına, əqli fəallığına, fəhmli və zirək olmasına, özünün bilik ehtiyatlarına yeni biliklər əlavə etməyə səy göstərməsinə, və beləliklə də uşaqların axtarış üsullarına yiyələnməsinə imkan yaradır. Bu zaman belə kompleks keyfiyyətlərin formalaşdırılması uşaqların müxtəlif yaradıcılıq məhsullarının yaranması ilə nəticələnir ki, bu da şagirdlərin minimum ümumixtisas biliklərinə yiyələnməsini, onların yaradıcılıq haqqında az da olsa fikir və məlumatları mənimsəməsini təmin edir.

Şagirdlərin yaradıcılıq işinə istiqamətləndirilməsi təlimin ilk günlərindən başlamalı, bütün mövzuların tədrisi prosesində və praktik işlərin gedişi zamanı həyata keçirilməlidir. Unutmaq lazım deyil ki, hər bir uşaq oyun fəaliyyətində belə "yaradıcılıq" nümayiş etdirmək istəyir. Ona görə də uşaqların yaradıcılıq imkanlarını üzə çıxarmaq, qorumaq və inkişaf etdirmək ibtidai sinif

müəllimlərinin ümdə vəzifəsi olmalıdır. Çünki təsviri fəaliyyət prosesində kiçik yaşlı məktəblilərin yaradıcılıq qabiliyyətlərinin inkişafına müasir təlimdə prioritet sahə kimi baxılır.


Ədəbiyyat

1. Məmmədov A. İdrak prosesləri. Bakı, 2005.
2. Psixologiya / Prof. S.İ. Seyidov və prof. M.Ə. Həmzəyevin elmi redaktorluğu ilə. Bakı, 2007.
3. Лейтес Н.С.Способности и одаренность в детские годы. М., 1984



**Характеристика творческих способностей младших школьников**

*Резюме*

В статье рассматриваются вопросы развития изобразительных способностей в творческой деятельности младших школьников. В ней также освещаются виды ученической деятельности по изобразительным способностям, вапросы воздействия личных качеств детей на процессы их творческой работы.

**On the characteristics of the creative abilities of young schoolchildren**

*Summary*

The article deals with the issues of improving descriptive abilities of young learners in their creative activity. It also explores kinds of learner activities on descriptive abilities and the impact of the personal features on the creative working process of the learner.


# AZƏRBAYCAN GÜZƏRAN PSİXOLOGİYASINDA DƏYƏRLƏR VƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA ONLARIN ROLU


**Nurəngiz Rzayeva,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
E-mail: nurengiz.rzayeva@gmail.com



***Açar sözlər:** güzəran psixologiyası, dəyərlər, tələbə, şəxsiyyət, ağıl, davranış*
***Ключевые слова:** житейская психология, ценности, студент, личность, ум, поведение*
***Keywords:** everyday psychology, values, the student, the person, mind, behaviour*


Psixologiyanın struktur komponentlərindən biri olan güzəran psixologiyası özünəməxsus çalarlarla xarakterizə olunur. Məzmun və mündəricəsi etibarı ilə insanın sosial varlığını əks etdirən xüsusiyyətləri ilə bağlı təsəvvürləri özündə birləşdirən güzəran psixologiyası məsələləri həmişə diqqəti cəlb etmişdir. Çünki güzəran psixologiyasına aid olan biliklərin kökü xalqın, etnosun təcrübəsindən, zamanın təfəkkür süzgəcindən gələn dəyərlərimizdə əks olunur və onların sübuta, təhlilə ehtiyacı olmur. Prof. Ə.Ə. Əlizadənin qeyd etdiyi kimi, "psixoloji faktlar güzəran psixologiyasında sistemli təhlil edilmir, onlar güzəran təcrübəsinin həqiqətlərinə arxalanır, təkcə xalqımızın hikmətli sözlərində deyil, həm də adət-ənənələrimizdə, inanc dünyamızda, evimizin ab havasında, ovqat duyumunda yaşayır" (1, 5).

Güzəran təcrübəsində əsas götürülən həqiqətlərdən biri budur ki, "insan başqa adamlar içərisində həmişə psixoloqdur." Dəyərlər də məhz bu kontekstdə insan şəxsiyyətinin əsas cəhətini təşkil edir və şəxsin həyat fəlsəfəsinin göstəricisinə çevrilir. İnsan başqa insanın məhəbbətində, ünsiyyəti prosesində özünün əsl insan həyatını əks edir. O, bu zaman başqa insan üçün mövcud olmağa başlayır. İnsan bir insan kimi yalnız özünün insana münasibətində mövcuddur. Baxtın fəlsəfəsində bu böyük bir dəyərdir. Bu ümumbəşəri bir dəyərdir ki, şəxsiyyət üçün xüsusi məna kəsb edir. Elə bu dəyərlər ictimai münasibətlər yolu ilə şəxsiyyətin ən dərin qatlarına nüfuz edərək onlardakı davranış tərzini, hisslərini və təfəkkürünü formalaşdırıb idarə edirlər. Onlar bəyənilmiş meyarlar olaraq insanın özünün və başqalarının davranışına qiymət verməkdə, hərəkətlərinin necə tənzimlənməsində əsas götürülür.



Güzəran psixologiyasına aid biliklər insanların gündəlik həyatında mühüm rol oynayır. Qarşılıqlı münasibətlərdə insanların maraqlarını, dəyərlərini, xasiyyətini nəzərə almadan onlarla birlikdə işləmək, ünsiyyətdə olmaq və yaşamaq çətindir. Bu xüsusda güzəran psixologiyasında dəyərlər sisteminin formalaşması üçün maraqlı faktlar mövcuddur. İnkişafda olan cəmiyyət üçün güzəran psixologiyasına aid bilikləri bilmək önəmlidirmi?

Ümumiyyətlə, bunları bilmək nə üçün lazımdır? Sosial-psixoloji hadisələrin genişləndiyi müasir dünyada gedən proseslər, dəyərlərin bir-birinə inteqrasiyası insanların mənəvi dünyasında, özləri haqqında təsəvvürlərində bir sıra yeniləşmələri ortaya çıxarır. Bunlar pozitiv və neqativ yönümlü ola bilir. Bəzən transformasiya olunmuş neqativ yönümlü dəyərlər milli dəyərlərin qorunub saxlanmasına, adət-ənənələrə zərbə vurur. "Bir qrup alimlər sivilizasiyanın inkişaf etməsilə insani keyfiyyətlərin azaldığını sübut etməyə çalışırlar". ( 2, 149). Bunlar da tərbiyə prosesinə, xüsusilə də gənclərin özünüdərkinə, özünüaktuallaşdırma, özününüreallaşdırma, özünütənzimlənməsində, nəhayət şəxsiyyət kimi formalaşmasında bir sıra problemlər yaradır. Tədqiqatlardan məlum olur ki, dəyərlərin dəyişməsi fərdin cəmiyyətə münasibətinin dəyişməsinə gətirib çıxarır. Bu da gələcək həyatla bağlantını çətinləşdirir. "Bir şey aydındır ki, həyat tərzi, həyat səviyyəsi insanların düşüncə və davranışına, bütövlükdə tərbiyəsinə təsir göstərir"( 2, 149) Ona görə də tarixən formalaşan, güzəran təcrübəsinə əsaslanan dəyərlər insanların bu günkü durumuna və sabahkı perspektivlərinə təsir etmək nöqteyi-nəzərindən psixoloji məna kəsb edir. Bu mənada güzəran psixologiyasında insanların mənəvi dünyası barəsində maraqlı təsəvvürlər formalaşırdı:

Güzəran psixologiyası üçün ağıl insanın inteqrativ məziyyətlərindən biri kimi dəyərləndirilirdi. Öyrənmənin səmərəli olması da məhz onunla əlaqələndirilir. Ulularımız xoşbəxtliyin kökünü insanın ağlı ilə ölçürdülər. Elmi psixologiyada bu anlam terminal dəyərdir və Rokiçin təsnifatında şəxsiyyət üçün əsas məqsəd olub, sanki insan həyatının mənasını müəyyən edir. "Oğuz oğlu və Dağ xan"ın söhbətində, "Lələn nağılı"nda ağıl ölçüləri güzəran təcrübəsi səviyyəsində açıqlanır. Bu xüsusda qavrayış effektləri də mühüm əhəmiyyət kəsb edir.

Güzəran psixologiyasında "and içmə", və "and vermə" psixoloji təsir vasitəsi kimi dəyərli idi. Andların təsir gücü böyük idi. "And içənin and yeri and içilən üçün qiymətli mənəvi sərvətdir" (dəyərdir-N.R) (1, 17) İnsanlar and içəndə də, and verəndə də mənəvi dəyərlərə söykənirdilər. Bu mənada çörəyə, ana südünə, qılınca and içir və bunu ezoterik paradiqmalarla dəyərləndirirdilər.

Güzəran psixologiyasında fərdə və sosial sferaya yönəlmiş dəyərlər mövcuddur. Bu dəyərlər sferasında əxlaqi cəhətə diqqət edən meyarlar güzəran təcrübəsinin sosial-psixoloji effektləri kimi səciyyələndirilirdi. Böyük-kiçik, bacı-qardaş, kişi-qadın, ər-arvad, qohum-qonşu və s münasibətləri tənzim edən bu meyarlar sosial normalar kimi əhəmiyyətli idi. Onlar hansısa davranış və rəftar tərzini rəğbətləndirir, bəzilərini isə qadağan edirdilər. Bu əxlaqi meyarlar dəyərlər sistemində özünəməxsus ölçülərlə seçilirdi və "göz bəbəyi" kimi qorunurdu. Bu ölçülər içərisində ictimai rəyə böyük önəm verilirdi. "El məni qınayar", "Eşidib bizə gülərlər" və s fikirlər qarşılıqlı münasibətlərdə əsas rol oynayırdı. "El qınayar" meyarı insanların etik etalon və stereotiplərində başlıca cəhətə çevrilmişdi. Namus haqqında təsəvvürlər bu baxımdan xüsusi məna kəsb edir, cəmiyyət və xalq tərəfindən dəyərləndirilirdi. "Əbilqasım", "Reyhan" nağıllarında maraqlı sosial-psixoloji problemlər təsvir olunur ki, gənc nəslin dəyərlər sisteminin formalaşması kontekstində bunlar psixoloji təsir gücü ilə seçimlidir. Bu və bu kimi deyimlərin motivi güclüdür. Bunlar insanın ictimai həyatdakı hədəf və məqsədini təyin edir, insana güc və enerji verir. El-obanın sərvət meylləri kimi anlanılan mərdlik, sədaqət, dostluq, namus, qeyrət, düzlük, inam, etibar, halallıq və s bu kimi dəyərlər müasir dövrümüz üçün daha səciyyəvidir. Nəzərə alsaq ki, bu gün dəyərlər sisteminin formalaşmasına təsir edən amillər heç də hamısı pozitiv deyil, həm də neqativ yönümlüdür, o zaman məsələlərin nə qədər prioritet olduğu aydın görünər.

Xüsusilə sosial şəbəkələr, KİV-nin bir sıra verilişləri güzəran təcrübəmizdən gələn və şəxsiyyətin mənəvi simasını şərtləndirən dəyərlərimizə ziddir və tərbiyə prosesini çətinləşdirir. Odur ki, əvvəldə qeyd etdiyimiz suallara cavab olaraq demək olar ki, güzəran təcrübəsində dəyərlərimizin formalaşmasına zəmin yaradan faktları bilmək zəruridir. Hər bir xalq, etnos özünün tarixi keçmişini bilməlidir.

## Ədəbiyyat


1. Ə.Ə. Əlizadə. Azərbaycan güzəran psixologiyası məsələləri. Bakı, 1994.
2. R.İ. Əliyev. Tərbiyə psixologiyası. Bakı, 2006.
3. А.Я. Гуревич. Категории средневековой культуры М.,1984.
4. Rokeach M. The nature of human values. New York 1973.


**Ценности в азербайджанской житейской психологии и их роль в формировании личности**


*Резюме*

Ценности в житейской психологии и их изучение в современном периоде приобретает важное значение для формирования личности. Анализ проблемы оказывает положительное влияние на самоуправление юношей в семье и обществе, самопознание и систему отношений.

***Summary***

Values in everyday psychology and their studying in the modern period gets great value for formation of the person. The problem analysis makes positive impact on self-management of young men in a family and a society, self-knowledge and system of relations.


# MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNKLÜZİV TƏHSİLİN TƏŞKİLİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ KADR TƏMİNATI


**Nailə Hüseynova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ADPU*
E-mail: nailyahuseyn72@gmail.com



***Açar sözlər:** inklüziv təhsil, xüsusi qaygıya ehtiyacı olan uşaqlar, məktəbəqədər müəssisə*
***Ключевые слова:** инклюзивное образование, дети с особыми потребностями, дошкольное учреждение*
***Key words:** inclusive education, children with special requirement, preschool*


Son zamanlar xüsusi təhsil ehtiyacları olan uşaqlar üçün bir sıra innovasiya yanaşmaları tətbiq edilir. Sosial statusundan, irqindən, fiziki və əqli problemlərindən asılı olmayaraq, hər bir uşaq inklüziv təhsil vasitəsilə öz inkişaf tələbatlarını ödəmə imkanı və digər uşaqlar kimi, normal təhsil alma hüququnu əldə edir. Məktəbəqədər uşaq müəssisələrinin idarə heyəti və tərbiyəçiləri xüsusi qayğıya və təhsilə ehtiyacı olan uşaqları qəbul edir və onları inkişaf səviyyələrinə görə diferensiasiya etmədən onların tələbatlarına uyğun xüsusi psixoloji-pedaqoji şərait yaradır. Məlumdur ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla eyni mühitdə tədris alan tipik uşaqların təhsil imkanları genişlənir, onlarda fəallıq, tolerantlıq və sərbəstlik kimi müsbət keyfiyyətlər daha çox inkişaf edir.

İnklüziv təhsilin inkişafı mürəkkəb, hərtərəfli, elmi, metodoloji və adminstrativ resurslara toxunan prosesdir. İnklüziv təhsil ideyasını qəbul edən məktəbəqədər müəssisələrin tərbiyəçiləri və idarə heyətinin özlərinin də xüsusi yardıma ehtiyacı var. Burada pedaqoji prosesin təşkili, qarşılıqlı təsirin işlənilməsi mexanizminin nəzərə alınması vacibdir. Əgər xüsusi təhsil ehtiyacı olan və sağlamlığında problemi olan uşaq bağçaya getmirsə, o zaman doğru olmayan təhsil istiqamətinin yaranması riski yarana bilər. Məktəb müəllimləri uşağın qabiliyyətlərini və fərdi keyfiyyətlərini bilmədikləri üçün, atipik uşaqlardan onların tipik həmyaşıdları kimi eyni bilikləri tələb edə bilərlər. Bu zaman bir sıra problemlərin ortaya çıxması qaçılmazdır. Burada özünəməxsus bir ziddiyyət yaranır: uşağın bacarıqları və onun qarşısına qoyulmuş tələblər kəskin fərqləndiyindən və uzlaşmadığından bu ziddiyyətlər nəticəsində onun təhsilə olan motivasiyası aşağı düşür, tədris



prosesi zamanı çətinliklər yaranır və son nəticədə onun sağlamlığındakı problemlər daha da kəskinləşir.

Təəssüf ki, uşaq bağçalarında uşaqların psixi sağlamlığı ilə bağlı hərtərəfli və obyektiv diaqnostika aparılmır. Valideynlərin öz övladlarının əqli inkişafı haqda dürüst və obyektiv məlumat verməməsi halları da təcrübədə tez-tez rast gəlinən hallardandır. Buna görə də uşaqların fiziki, intellektual və psixi inkişafı haqqında hərtərəfli biliyə malik olmaları üçün məktəbəqədər yaşlı uşaqların valideynləri arasında xüsusi maarifləndirici işlərin aparılması vacibdir.

Bundan əlavə bu prosesdə ailənin də rolunu nəzərə almaq vacibdir. Məktəbəqədər yaşlı uşaqların valideynləri məktəbdəki təhsilin onların övladlarının inkişafına uyğun olub-olmaması ilə maraqlanmalıdırlar. Ümumtəhsil orta məktəblərin və bağçaların idarə heyəti və müəllim-tərbiyəçiləri valideynlərlə söhbət zamanı maksimal dərəcədə onları yuxarıda qeyd edilən diaqnostik prosedurlardan keçməyə sövq etməli, normadan kənaraçıxmalar aşkar olandan sonra isə onlar ilə bərabər uşağın hazırlıq mərhələsində çalışaraq onu müasir cəmiyyətə və həyata hazırlamalıdırlar.

Bilik, bacarıq və vərdişlərin mənimsənilməsi üçün bütün uşaqlara kömək göstərməyə hazır olan pedaqoji kadrlarının hazırlanması olduqca vacibdir. Məktəbəqədər təhsil müəssisələrində mövcud psixoloji durum təhsilin uğurlu getməsinə şərait yaradır. Məktəbəqədər təhsil müəssisələrində bütün uşaqlara göstərilən qayğı, müəllim kollektivinə mənəvi və metodiki dəstək, təlim-tərbiyənin düzgün təşkili üçün vacib məsələlərdəndir.

İnklüziv təhsil ideyası, mütəxəssislərin həm peşəkar, həm də şəxsi keyfiyyətləri baxımından yetişdirilməsinə xüsusi tələblər irəli sürür. Pedaqoji kadrların əsaslı korreksiyaedici təhsili və peşəkar hazırlığının olması vacibdir. Əsaslı (baza) komponenti dedikdə, peşəkar pedaqoji hazırlıq nəzərdə tutulur. Xüsusi komponent dedikdə isə aşağıdakı psixoloji-pedaqoji biliklər nəzərdə tutulur:

fərqinin nümayiş etdirilməsi;

□ inklüziv təhsil mühitində uşaqların yaş və şəxsi keyfiyyətlərinin inkişafı haqqında biliklərin olması;

□ tədris prosesinin psixoloji və didaktik proyeksiyası haqqında metodların təqdim edilməsi;

□ tədris mühitində qarşılıqlı pedaqoji təsirin müxtəlif metodlarını həyata keçirmək bacarığı.

Bir müəllimin yetişdirilməsi prosesində treninqlərin, müxtəlif elmi seminarların, ustad peşəkar təlimlərin böyük əhəmiyyəti vardır. Açıq tədbirlərin keçirilməsi müəllimlərə və ümumiyyətlə, bütün pedaqoji heyətə öz məqsədini müəyyənləşdirməkdə və peşəkar yüksəlişə doğru irəliləməkdə yardımçı olur.

Mütəxəssislərin birgə çalışması inklüziv təhsili daha da canlı və effektiv edir, çünki birgə fəaliyyət çoxsaylı ideyaların ortaya qoyulmasına gətirib çıxarır, bu da öz növbəsində, uşaqların problemlərinin daha da dərindən dərk edilməsinə səbəb olur.

## Ədəbiyyat


1. "Azərbaycanda Sağlamlıq İmkanları Məhdud olan Uşaqlara Təhsil Xidmətlərinin Göstərilməsi Haqqında Tədqiqat". Müasir Təhsilə və Tədrisə Yardım Mərkəzi, 2009 (fəsil 3.1. Təhsil imkanları, təlim təcrübəsinin müşahidələri).
2. "Xüsusi qayğıya ehtiyacı olan uşaqlar: Yanaşmaların, siyasətlərin və praktikaların təkmilləşdirilməsi. Qiymətləndirmə hesabatı", Leyla İsmayılova və b. 2005, Fəsil İİ.3. Təhsil Müəssisəsinin mühiti, pp. 20-26.
3. Elmina Kazımzadə. Təhsilin əsasları Bakı, 2009. (fəsil 7).



**Н. Гусейнова**


**Основные направления организации инклюзивного образования в дошкольных учреждениях и подготовка кадров**


*Резюме*

В последнее время в отношении детей с особыми образовательными потребностями применяется ряд инновационных подходов. Для детей с особыми образовательными потребностями в дошкольных детских учреждениях создаются специальные психологические и педагогические условия для их развития.

Идея инклюзивного образования предъявляет определенные требования к обучению специалистов не только с точки зрения личных, а также и профессиональных качеств. Важно, чтобы кадры были профессиональными специалистами в области коррекционной педагогики. Здесь также рассмотрены основные компоненты профессионально – педагогической подготовки.

**N. Huseynova**

**The main directions of organizations inclusive education in pre-school and personnel training**

***Summary***

In recent years, a number of innovative approaches used for children with special educational needs. The Board of Directors and teachers of pre-school children's institutions are accepting children in need of special care and education.They create special psychological and pedagogical conditions without differentiation by social status, race, physical, emotional, and the level of their intellectual development, taking into account, to meet their needs.

The idea of inclusive education, imposes certain requirements for the training of specialists not only in terms of personal qualities, as well as professional. It is important that staff were professional experts and special correctional educated. Under the main (basic) component refers to the professional – pedagogical training.

## ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ КАК ПРИОРИТЕТ ОБРАЗОВАТЕЛЬНОЙ СИСТЕМЫ

**Лала Иманова,**
*заведующий отделом ИПОАР*
E-mail: inkluzivtehsil@gmail.com

***Açar sözlər:** inklüziya, inteqrasiya, adaptasiya, fərdiləşmə,sağlamlıq imkanları məhdud uşaqlar*
***Ключевые слова:** инклюзия,интеграция,адаптация,индивидуализация,дети с ограниченными возможностями здоровья*
***Keywords:** inclusion, integration, adaptation, individualization, children with disabilities*

Основным требованием, предъявляемым к современному образованию, является обеспечение гуманистической направленности, восприятие человека, его жизни как основной ценности. И в этой связи инклюзивное образование, создающее для каждого ребенка, в том числе и детей с особенностями психофизического развития, возможности наиболее полной и естественной социализации, является оптимальной моделью организации образовательного процесса. Приоритет практики инклюзивного образования закреплен в Саламанской декларации ЮНЕСКО, которая утверждает, что каждый ребенок, обладая уникальными особенностями, интересами, способностями и учебными потребностями, должен иметь доступ к получению образования в обычной школе, в которой созданы условия для удовлетворения его образовательных потребностей.

В настоящее время проблема образования детей с ограниченными возможностями здоровья привлекает внимание не только педагогов, психологов, социальных работников, но и является одним из приоритетных направлений в современной социальной и образовательной политике Азербайджанской Республики.

В процессе исторического развития образовательная система детей с ограниченными возможностями здоровья (ОВЗ) прошла путь от изоляции до инклюзии. Историю обучения детей с особенностями развития в школе можно условно разбить на следующие этапы. С начала до середины 60-х годов XX века – «медицинская модель», которая вела к изоляции людей с ОВЗ. С середины 60-х до середины 80-х годов XX века – «модель нормализации», интегрирующая людей с ОВЗ в общественную жизнь. С середины 80-х годов XX века до настоящего времени – «модель включения», т.е. инклюзия

Инклюзивное образование в Азербайджане находится в стадии формирования, поэтому для нашей страны задача налаживания системы инклюзивного образования требует решения



на государственном уровне. Именно инклюзивное образование обеспечит детям с особыми образовательными потребностями равные с их здоровыми сверстниками возможности развития, необходимого для максимальной адаптации и полноценной интеграции в общество.

Для реализации прав граждан с инвалидностью на образование и на интеграцию в социальную среду Министерство Образования Азербайджанской Республики с этого года начало реформировать систему образования с целью сделать образование инклюзивным. Инклюзивное Образование требует от образовательной системы высокой компетенции в педагогической, инженерной, психологической сфере, что в конечном итоге повышает качество самого образования в школе.

Для реформирования системы образования Министерство образования претворяет в жизнь Государственную Стратегию по Развитию Образования в Азербайджанской Республике, утвержденную Президентом Азербайджанской Республики 24 октября 2013 года. В ней, одним из приоритетных направлений указано развитие инклюзивного образования. Министром образования Республики 18 марта 2015 года был утвержден совместный проект Министерства Образования и Детского фонда ООН (UNICEF), направленный на внедрение инклюзивного образования на начальном образовательном уровне в Азербайджане. 29 марта 2015 года Министром Образования был утвержден годовой план действий в рамках осуществления Стратегии Развития Образования в Азербайджанской Республики, в котором также указаны первоочередные задачи и поэтапные действия министерства образования по развитию инклюзивного образования в системе образования Азербайджанской Республики. В рамках этого проекта будут задействованы две пилотные школы столицы. В каждой из этих школ будут открыты два пилотных класса, в которых будут учиться по 2-3-е детей с особыми нуждами. В рамках проекта будут открыты логопедические услуги в каждой из этих школ для охвата специальных образовательных нужд детей.

**Ədəbiyyat**

1. Hüseynova N. İnklüziv təhsil. Bakı, 2015.
2. Kərimova E., Qasımov S., İ.Sultanova, T.Ağayeva. İnklüziv təhsil sistemində ailə-məktəb, məktəb-valideyn münasibətləri. Bakı: Oka Ofset, 2006.
3. Kərimova E., Qasımov S., İ.Sultanova, T.Ağayeva. İnklüziv təhsil Bakı: Oka Ofset, 2006. .

**L. İmanova**

**İnklüziv təhsil sisteminin prioriteti kimi**

***Xülasə***

Hal-hazırda sağlamlıq imkanları məhdud uşaqların təhsil problemi yalnız müəllimlər, psixoloqlar, social işçilərin diqqətini cəlb etmir, bu problem Azərbaycan Respubliksının bu günkü social və təhsil siyasətinin prioritet istiqamətlərindən biridir.

**L. Imanova**

**Inclusive education as a priority of the education system**

***Summary***

At present the problem of educating children with disabilities not only attracts the attention of teachers, psychologists, social workers, but also is one of the priorities in today's social and educational policy of the Azerbaijan Republic.

For the realization of the rights of citizens with disabilities to education and to integrate socially and environment in the Ministry of Education this year began to reform the education system in order to make education inclusive.

# MƏKTƏB PSİXOLOQUNUN FƏALİYYƏTİNİN MOTİVASİYA STRUKTURU

**Reyhan Əhmədova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: reyhan-79@rambler.ru

***Açar sözlər:*** *məktəb psixoloqu, peşə motivləri, peşəkar özünüdərk, təlim, təhsil prosesi*
***Ключевые слова:*** *школьный психолог, профессиональные мотивы, профессиональное самопознание, обучение, образовательный процесс*
***Key words:*** *school psychologist, professional motives, professional self, training, educational process*

Müasir dövrdə pedaqoq-psixoloq peşəsi geniş yayılmışdır. Ona görə də dövrümüzün digər populyar peşələri kimi (məsələn, həkim, makler və s.) bura da axın artıb, nəticədə peşəkar fəaliyyətdən qeyri-məmnunluq və qeyri-müəyyənlik hallarının səviyyəsi yüksəlib. Bu səbəbdən məktəb psixoloqları arasında öz peşəsini dəyişmək istəyənlərin sayı yetərincədir. Bu tip problemlərin həlli üçün təhsil sistemində işləyən peşəkarların motivasiya sferasının tədqiqi aktual məsələ kimi müasir psixologiyanın qarşısında durur. Motivlər strukturunun müvəffəqiyyətlə formalaşdırılması əmək fəaliyyətinin düzgün təşkilindən və psixoloqların peşə planlarının uğurla həyata keçirməsinə şəraitin yaradılması ilə mümkündür.

Pedaqoq-psixoloqların peşə fəaliyyətinin motivasiya probleminin öyrənilməsi gənc mütəxəssislərə peşə motivasiyasının düzgün formalaşdırılmasına və özünü bu peşədə dərk etməsinə yardım edər. Peşə fəaliyyətinin düzgün formalaşdırılmış motiv strukturu öz əməyinin nəticələrindən sabit məmnunluq hissinin yaşanmasına, ağır sosial və maddi çətinliklər zamanı öz peşəsindən əminlik hissini təmin etmiş olur.

Tətbiqi psixologiya sahəsində mövcud olan əsas problemlərdən biri ali məktəbi bitirdikdən sonra gənc kadrların peşələrini dəyişmələridir. Buna görə də məktəb psixoloqlarında motivlər sisteminin formalaşmasının və bu peşədə özünüdərkin qayğısına tələbəlik zamanı qalmaq lazımdır.

Ümumiyyətlə peşə motivləri probleminin araşdırılması psixologiyanın çox vacib məsələlərindəndir. S.L.Rubinşteyn, A.N.Leontyev, D.N.Uznadze, Ə.Ə.Əlizadə, R. Əliyev, M. Həmzəyev və b. öz tədqiqatlarında dəfələrlə bu problemə toxunmuşlar. Ümumiyyətlə, müasir psixologiyada belə bir paradoksal hal mövcuddur ki, şəxsiyyətin təşəkkülünün ilkin mərhələləri (18 yaşadək) çox intensiv öyrənildiyi halda, yetkin şəxsiyyətin psixoloji məziyyətləri və yaradıcı qabiliyyətləri az tədqiq edilib. Məhz bu yaşda şəxsiyyət özünün professional ustalığını artırır, yaradıcı potensialını reallaşdırır, özünün yeni qabiliyyətlərini "kəşf" edir və s. Ona görə də şəxsiyyətin yetkinlik yaşında inkişafının, peşəkar kimi yetişməsinin psixoloji qanunauyğunluqlarının öyrənilməsinə ehtiyac var. Müasir psixologiyada şəxsiyyətin inkişafının çiçəklənmə dövrü və maksimal əmək qabilliyi dövrü akmeologiya elmi çərçivəsində aktiv araşdırılır (A.A.Derkaç, A.A.Bodalyov, E.A.Klimov və b.). Qeyd etmək lazımdır ki, professional fəaliyyətin motivasiyası, xüsusilə məktəb psixoloqu kimi vacib peşənin motiv sferasının araşdırılması ölkəmizdə lazımınca öyrənilməyib.

Məktəb psixoloqunun professional motivasiya sistemi ilə onun peşəkar inkişafının mərhələləri, özünüdərki və özünüreallaşdırma qabiliyyəti arasında mütəşəkkil və qanunauyğun psixoloji əlaqə mövcuddur.

Dövrümüzdə bu problem aspektində tədqiqatçıların qarşısında aşağıdakı məsələləri həll etmək məsələsi dayanır:

- peşə fəaliyyətinin motivasiya problemlərinin tədqiqinə mövcud nəzəri yanaşmaları və problemin məfhumlar kompleksini müəyyən etmək;
- fəaliyyətə və peşəkar kimi özünüdərkə və inkişafa neqativ təsir göstərən faktorları müəyyənləşdirmək;
- professional özünüdərk prosesində məktəb psixoloqunun motivlər sistemində gedən dəyişiklikləri peşə və yaş xüsusiyyətlərini nəzərə almaqla müəyyən etmək;
- gənc və yetkin mütəxəssislərin motivlər ierarxiyasının müqaisəli təhlilini aparmaq;
- məktəb psixoloqlarının peşədə motivasiya sisteminin dinamikasını müəyyən etmək üçün metodik strategiyanı işləməli, tədqiqat metodlarını seçməli və modifikasiya etməlidirlər.



Uğurlu peşəkar inkişafa əngəl olan faktorlar kimi isə aşağıdakıları qeyd edə bilərik: məktəb psixoloqunun funksiyalarının qeyri-müəyyənliyi, məktəb çərçivəsində səlahiyyət və vəzifəsinin sərhədlərinin qeyri-dəqiqliyi, məktəb admnistrasiyasının, pedaqoji kollektivin və məktəblilərin əməkdaşlığa qapalılığı.

Beləliklə, məktəb psixoloqunun peşəkar kimi təşəkkülünün motivasiya sistemi onun professional fəaliyyətinin aparıcı qüvvəsi kimi qiymətləndirilməlidir. Özünü peşəkar kimi realizə etmənin mümkünsüzlüyü şəraitində bir çox məktəb psixoloqları öz peşəsini dəyişmək barədə düşünürlər.

**Ədəbiyyat**

1. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya. Bakı, 2002.
2. Ə.Ə. Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004
3. Битянова М.Р. Организация психологической работы в школе. 3-е изд. М., 2001.
4. Борисова Е.М. О роли профессиональной деятельности в формировании личности // Психология формирования и развития личности / Под ред. Л.И. Анцифировой. М.: Наука, 1981.
5. Овчарова Р.В. Практическая психология образования. М.: Изд. центр Академия, 2003.

**Р. Ахмедова**

**Мотивационная структура деятельности школьного психолога**

***Резюме***

Мотивационная система профессионального становления школьного психолога оценивается движущим компонентом его деятельности. В условиях невозможности самореализации себя как профессионального психолога, многие специалисты раздумывают о возможности смены профессии. В статье рассматриваются факторы, которые способствуют такому решению.

**R. Ahmedova**

**Motivational structure of activity of the school psychologist**

***Summary***

Motivational structure is the primary motto of primary school physiologist's professional pattern. In case of professional atmosphere deficit for school psychologist to meet its demands in order to realize his duty, most cases to change profession is going real consideration. The topic mainly oriented to research such cases.

# TƏLƏBƏLƏRİN ŞƏXSİYYƏTİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

**Ayna Hacıyeva,**
*SDU-nun pedaqogika və psixologiya kafedrasının baş müəllimi*

***Açar sözlər:*** *şəxsiyyət, baxış, emosiya, insan, "mən" konsepsia*
***Ключевые слова:*** *личность, взгляд, эмоция, человек , я- концепция.*
***Key words:*** *sight, emotion, person, I" conception*

Gənclik, tələbənin sonrakı həyatını müəyyən edəcək məsul qərarların (peşənin və həyatda özünün yerinin seçilməsi, həyatda mövqeyinin, həyat yoldaşının seçilməsi, ailənin yaradılması və s.) qəbul edilməsi dövrüdür. Ali məktəbə qəbul olunmaq tələbənin öz qüvvəsinə və qabiliyyətinə inamını möhkəmləndirir, onda həyata ümid yaradır. İctimai özünütəyin və özünüaxtarış ilə ayrılmaz şəkildə bağlı olduğundan gənclik yaşı dünyagörüşünün formalaşmasının həlledici mərhələsidir. Həyatın bu dövründə tələbə özünün dünyaya baxış sistemini qurmağa, bu dünyadakı yerini müəyyənləşdirməyə çalışır.

İnsanın həyatında gənclik yaşı uşaqlıqdan müstəqil yetkinliyə keçidi təcəssüm etdirən dövrdür. Bu isə, bir tərəfdən fiziki və cinsi yetişməsinin başa çatması, digər tərəfdən ictimai baxımdan yetkinliyin əldə edilməsi deməkdir. Psixologiyada 18-25 yaş həddi, həm də yetkin şəxsin əxlaqi və estetik hisslərinin ən fəal inkişafı, onun xarakterinin formalaşması və sabitliyi, onun ictimai rolların tam kompleksinə yiyələnməsi kimi qəbul olunur. Bu yaş həm də intellektual və fiziki qüvvələrin inkişafı üçün senzitiv dövrdür.

Ali məktəbdə təhsil almaq şəxsiyyətin bir çox keyfiyyətlərinin sabitləşdiyi gənclik dövrü ilə üst-üstə düşür. Bu yaşda, həmçinin, erkən gənclik dövründə (X-XI siniflərdə) formalaşmaqda olan keyfiyyətlər – məqsədyönlülük, qətiyyət, inadkarlıq, müstəqillik, təşəbbüs, özünüidarə qabiliyyəti də əhəmiyyətli dərəcədə möhkəmlənərək sabitləşir.

N.A. Zimnyayanın qeyd edir ki, tələbəlik bütövlükdə şəxsiyyətin formalaşmasının, onun rəngarəng maraqlarının təzahürünün mərkəzi dövrüdür. Tələbə yaşında intellektin olduqca mürəkkəb səviyyədə strukturlaşması, insanın gələcəyin xadimi, peşəkar kimi intensiv və fəal şəkildə ictimailəşməsi prosesi gedir (1, 364).

Ə.S. Bayramovun "Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri" əsərində tələbə şəxsiyyətinin formalaşmasına təsir edən müxtəlif amillər araşdıraraq tədqiqatçıların qarşısına aşağıdakı sualları qoyur: biz öz tələbələrimizi yaxından tanıyırıqmı, ali məktəb dövründə baş verən ekstremal halların gənclərdə törətdiyi stress, frustrasiya vəziyyətlərindən istənilən səviyyədə xəbərdarıqmı, bu emosional vəziyyətləri törədən səbəb və şəraiti nə dərəcədə nəzərə alırıq, bu vəziyyətlərin aradan qaldırılması üçün əlverişli psixoloji iqlim yaratmağın lazım olduğunu nəzərə alırıqmı. Bu sualları Ə.S. Bayramov ali məktəbin əsas psixoloji problemlərindən hesab edir (2).

B.H. Əliyevə, R.V. Cabbarova görə, şəxsiyyətyönümlü təhsilin təşkilində aşağı-dakı məsələlərin nəzərə alınması məqsədəuyğundur: təhsildə tələbələrə şəxsiyyət kimi yanaşılması, təhsilin bir növ şəxsiyyət yönümlüyünün həqiqiliyinin təmin edilməsi. (3).

Tələbə, hər şeydən əvvəl cəmiyyətin bir üzvüdür. Onun emosional sahəsi yalnız tələbə auditoriyalarında deyil, həm də cəmiyyətdə baş verən siyasi-ictimai, sosial-iqtisadi amillərin təsiri altında formalaşır.

Hər şeydən əvvəl müasir gənclərin psixoloji xüsusiyyətlərinin 10-15 il əvvəkli həmyaşıdlarından fərqləndiyini qeyd etmək lazımdır. Hələ ilk müşahidə və araşdırmalardan belə görünür ki, onları qloballaşmanın təsirindən yaranan tamamilə yeni, fərqli sosial mühit əhatə əldə edir. Tələbə-gənclər hazırda şəxsiyyət olaraq həyat fəaliyyətinin müxtəlif sferalarında dəyişiklikləri qavramaqda hazırlıq nümayiş etdirir, alternativ mədəniyyətə yiyələnir, yeni həyat üslubu, təfəkkür ilə formalaşırlar.

Gənclik özünütəyini şəxsiyyətin formalaşmasında müstəsna dərəcədə mühüm mərhələdir. Bu yaşda insan həm bioloji, həm də ictimai baxımdan artıq yetkindir. Cəmiyyət, onun timsalında, artıq daha çox ictimai-istehsal fəaliyyətinin məsuliyyətli subyektini görür, nəinki sosiallaşmanın obyektini. Özünütəyinin başlıca nəticəsi kimi psixoloqlar tələbənin daxilən yetkin adam mövqeyini tutmaq, özünü cəmiyyətin üzvü kimi görmək, özünün dünyada yerini müəyyən etmək, yəni həyatda özünün yerini və təyinatını anlamaqla yanaşı, özünü və imkanlarını anlamaq tələbatını fərqləndirirlər.

### Ədəbiyyat


1. Зимняя, И. А. Педагогическая психология. М.: Логос, 2003.
2. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 190 s.
3. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008.
4. Эго-психология и связанные с ней направления в теории личности: Э. Эриксон, Э.Фромм, К.Хорни // Теории личности. СПб.: Питер, 1997.



**Характерные особенности личности студентов**

*Резюме*

Возраст 18-25 лет – это период наиболее активного развития нравственных эстетических чувств, становления и стабильности характера, овладения полным комплексом социальных ролей человека. Студенческая среда является особым социокультурным образованием в переходном периоде становления личности.

**Distinctive features of individual students**

*Summary*

Therefore, the social role of complex formation of an established character, to develop a more active development of moral and aesthetic sense – the age of 18-25 years.

Student environment of identity formation of a special cultural education in transition.




## MİLLİ XARAKTERİN FORMALAŞMASINA TƏSİR EDƏN SOSİAL PSİXOLOJİ AMİLLƏR


**Şəhla Kazımbəyli,**
*ADPU*
E-mail: nigar_abbasova @bk.ru



***Açar sözlər:**, idrak fəaliyyəti, şəxsiyyət, formalar, vasitələr, prinsiplər, keyfiyyətin yüksəldilməsi*
***Ключевые слова:**, познавательная деятельность, личность, формы, средства, принципы, повышение качества*
***Key words:** informative activity, the person, form, funds, principles, improving the quality*


İnsan sosial varlıqdır. O sosial münasibətlərdə inkişaf edir, formalaşır. Sosial münasibətlər əsas etibarilə cəmiyyətdəki sosial birlik formaları, siniflər, sosial qruplar, əmək kollektivləri, millət və xalqlar arasındakı münasibətləri, habelə ailə münasibətlərini əhatə edir. Deməli, sosial münasibətlər insan həyatının bütün sahələrini əhatə edir. Hər bir cəmiyyətin münasibətlər sistemi özünəməxsus sosial-psixoloji mahiyyət daşıyır. Bu özünəməxsusluq xalqın milli xarakterinin formalaşmasında böyük rol oynayır. Sosial münasibətlər sistemində yüksək qiymətləndirilən stereotip və yönümlər milli xarakterin yaranmasına səbəb olur.

Milli xarakterin sosial yoxsa bioloji-genetik anlayış olması haqqında mülahizələr həmişə ziddiyyət doğurmuşdur. Milli xarakterin sosial təsirlər nəticəsində formalaşması fikrini irəli sürən N. N. Andreeva, Q. U. Soldatova, E. M. Tarsilova və başqaları adətən məişət amillərini, ənənə, mədəni-tarixi inkişafı əsas götürür, münasibətlərin, peşə fəaliyyətinin müxtəlif xalqlara məxsus insanlarda psixoloji oxşarlıq yaratdığını qeyd edirlər. Digər bir qismi genetikanı əsas götürür. Onların fikrincə milli xarakter genetik olaraq nəsildən-nəslə ötürülür və heç bir dəyişikliyə uğramır. Son zamanlar isə hər iki amilin milli xarakterin formalaşmasında qarşılıqlı, birgə təsirini əsas götürürlər.

Nəticədə insanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər meydana gəlmişdi. Əsrlər, min illər boyu bu amillər içərisində üstünlük irsiyyətə verilmiş və belə bir fikir irəli sürülmüşdür ki, valideynlərdə müsbət və mənfi nə varsa övladlara keçir. İrsiyyət nəzəriyyəsinin hakim olduğu dövrlərdə zəka sahibləri həmin nəzəriyyəni qəbul etməklə yanaşı, tərbiyəyə böyük əhəmiyyət verirdilər. İnsanın cəmiyyətdə düzgün tərbiyə edilməsində bir sıra amillər mühüm rol oynayır. İnsan ayrı-ayrı yaş dövrlərində fiziki, psixi və mənəvi cəhətdən müxtəlif xüsusiyyətlərə malik olur, onun xarakterində müəyyən yeniliklər, dəyişikliklər yaranır. Buna görə də cəmiyyətimizin üzvü olan insan bilməlidir ki, hansı şəraitdə və hansı amillərin təsiri altında inkişaf edir, onun inkişafında irsiyyətin, mühit və tərbiyənin rolu nədən ibarətdir.

Hər bir cəmiyyətin sosial mühitində milli mənəvi dəyərlərin qorunması və milli ruhun yüksəldilməsi mexanizmləri mövcuddur. Cəmiyyət özü bu sosial mexanizmlər vasitəsilə milli xüsusiyyətləri lazımi şəkildə formalaşmasını tənzimləyir. Sosial mühit tarixi xarakter daşıyır. Hər dövrün siyasi quruluşu, tarixən qəbul etdikləri dinlər, zaman-zaman ünsiyyətdə olduğu xalqlar və s. sosial mühitə də təsir edir və xalqın sosial-psixoloji iqliminin özünəməxsusluğunu təmin edir. Hər bir etnos və millətin yaşadıqları mühitdəki sosial-psixoloji iqlimin başqa başqa olması onların milli

xarakterlərinin fərqli olmasını şərtləndirir. Cəmiyyət insanların dünyasıdır. İnsan bu dünyada doğulur, burada yaşayır, inkişaf edir, şəxsiyyətə çevrilir. Onun vasitəsilə müəyyən bilikləri, dəyərləri, davranış normalarını və s. mənimsəyir. İctimai həyatda insan fəaliyyətin müxtəlif növlərinə qoşulur, ətrafdakılarla qarşılıqlı təsirdə olur və müəyyən sosial mövqe qazanır. Sosializasiya-sosial statuslar və rollar, deviant (qeyri-normativ) davranış, münaqişələr və s. kimi mühüm sosial anlayışlar göstərilən prosesin müxtəlif cəhətləri əks etdirən abstraksiyalardır.

Sosializasiya – şəxsiyyətin inkişafı, bu cəmiyyətə, sosial birliyə, qrupa xas olan sərvətlərin, normaların, ustanovkaların, davranış nümunələrinin öyrənilməsi və mənimsənilməsi prosesidir. Beləliklə dünyaya gələn hər bir insan və ya fərd tədricən insan mədəniyyətini mənimsəməyə başlayır, öz xüsusiyyətlərini qazanır, cəmiyyətə daxil olur, başqa insanlar arasında özünü təsdiq edir və şəxsiyyətə çevrilir. Bu proses iki qarşılıqlı qarışan istiqamətlərdə gedir. Bir tərəfdən fərd sosial münasibətlər sisteminə daxil olaraq, öz cəmiyyətinin mədəni təcrübəsini, onun dəyərlərini və normalarını mənimsəyir. Bu halda o, ictimai təsirin obyektidir. Digər tərəfdən isə sosiallaşaraq insan cəmiyyətinin işlərində və onun mədəniyyətinin gələcək inkişafında daha geniş və fəal iştirak edir.

M. Məhərrəmov demişdir: "Şəxsiyyətin mahiyyəti yaşayıb fəaliyyət göstərdiyi cəmiyyətdə mövcud ictimai əlaqələrin məcmusudur. Xarakter isə həmin dövrün məhsuludur. Bəşəriyyət tarixinin hər dövrü öz xarakterini yaradır". Doğrudan da sosial mühitdə fərdi xarakterlər formalaşır, möhkəmlənir və sosial münasibətlərdə ümumi xalqa, millətə məxsus keyfiyyətlər əldə edir.

**Ədəbiyyat**


1. A.N. Abbasov. Pedaqogika: Dərslik. Bakı: Mütərcim, 2013.
2. F.A.Rüstəmov, T.Y.Dadaşova. Ali məktəb pedaqogikası: Magistratura pilləsi üçün dərslik. Bakı: Nurlan, 2007.
3. Bayramov Ə., Əlizadə Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989.


**Социально-психоогические факторы, воздействующие на формирование национального характера**


***Резюме***

Социально-экономические перемены общественной жизни нашей страны внесли соответствующие изменения в систему дошкольного образования, ставшей многофункциональной по своему предназначению. Одним из важных направлений в развитии познавательной деятельности дошкольников выступает создание условий, обеспечивающих полноценное умственное развитие детей, связанное с формированием устойчивых познавательных интересов, умений и навыков мыслительной деятельности, качеств ума, творческой инициативы.


**Social psychological factors affecting the formation of national character**


***Summary***

Social and economic changes of public life of our country have brought respective alterations in system of the preschool education, become multipurpose on the mission. As one of important directions in development of informative activity of preschool children creation of the conditions providing high-grade intellectual development of children, connected with formation of steady informative interests, skills of cogitative activity, qualities of mind, the creative initiative acts.




# AUTİZMLİ UŞAQLARIN AİLƏLƏRİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ


**Aidə Nəbiyeva,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: namazovaaida@mail.ru



***Açar sözlər:*** *özünə qapanma; real həyatdan uzaqlaşma; stereotipik davranışlar; exolaliya; nitq pozuntusu*
***Ключевые слова:*** *замкнутость; отдалиться от реальной жизни; стереотипичные формы поведения; эхолалия; нарушения речи*
***Key words:*** *isolation; move away from real life; stereotypical behaviors; eholaliya; speech disorders*


Bütün dünyada olduğu kimi, Azərbaycanda da əsrin əvvəllərindən başlayaraq autizm sindromunun sürətlə yayılmasını müşahidə edirik və artıq hər 80 nəfərdən birində bu problem aşkar olunur. Lakin bu barədə statistik məlumatlar azdır, çünki bir çox ailələr qeydiyyatdan keçməkdən çəkinirlər. Azərbaycanda autizmin aşkarlanmasında xeyli artım müşahidə olunur və artıq bu, cəmiyyətin qlobal probleminə çevrilir. Autizmin səbəbləri hələ dəqiq müəyyənləşmədiyindən müalicəsi də çətinləşir. Genetik faktorlar, texnika və sənayeləşmənin artması və s. bunun səbəblərindən hesab olunur.

İlkin olaraq yeni doğulan uşaqlarda, doğuşdan sonra bu əlamətləri müşahidə etmək mümkün olur, əsas əlamətlər iki-üç ayında üzə çıxır. Bu uşaqlar çağırılanda səsə reaksiya vermirlər, göz təması qura bilmirlər. Əgər valideynlər bu əlamətlərdən şübhələnərlərsə, mütləq mütəxəssisə müraciət etməlidirlər. Əvvəlcə nevropatoloqlara müraciət etmək lazımdır, diaqnoz qoyulduqdan sonra həkim autizm sindromlu uşağı müvafiq reabilitasiyaya yönəldəcək.

Erkən diaqnozun əhəmiyyətini xüsusi qeyd etmək lazımdır. Bunun nəticəyə müsbət təsir etdiyini inkar etmək olmaz. Problem əsasən nitq və göz təmasının olmaması ilə özünü göstərir, lakin bu, görünən tərəfdir. Normal uşaqda bir yaş iki aylığında ünvanlı sözlər eşitməliyik. Amma artıq biz 1 yaş 2 aylıq uşaqda ən azından hecalar müşahidə eləmiriksə, demək, problem var. Bunun digər nitq qüsurundan fərqi ondadır ki, bu zaman göz təması da olmur. Əvvəlcə eşitmə qabiliyyətinin normal olduğu müəyyənləşdirilməlidir. Autizmli uşaq adını çağırdıqda dönməz, amma hər hansı bir konfet kağızının xışıltısına və ya sevdiyi reklam səsinə reaksiya verər. Onlar bəzi səslərə həddindən artıq aqressiv reaksiya göstərə bilərlər. Məsələn, maşının səsinə onlar diksinərək, qışqıraraq və ya qulaqlarını tutaraq reaksiya verə bilərlər. Bu da onların həddindən artıq həssas olmasından irəli gəlir. Biz diqqətimizi lazım olan yerə yönəldə bilirik, amma autizmli uşaqlarda nitq görünən tərəfdir, artıq təsəvvür, təxəyyül, təfəkkürdə müəyyən gecikmələr olduğuna görə nitqin olmur, diqqəti yönləndirmək çətin olur.

Biz cəmiyyət olaraq autizmlilərə nə qədər qucaq açsaq, onların yanında olsaq, bu problemin fərqində olduğumuzu onlara göstərə bilsək, onlar da bizə doğru gələ bilərlər və biz cəmiyyətə daha çox insan qazandıra bilərik. Məşhurların əksəriyyətinin autizm sindromundan əziyyət çəkən insanlar olduğunu nəzərə alsaq, düzgün fəaliyyətin köməyi ilə onların texniki sahələrdə, şahmat və sair müstəvilərdə istedadını üzə çıxara bilərik.

Uşağın diaqnozunun gec qoyulmasının əsas səbəblərindən biri də köhnə stereotipik düşüncələrdir. Ona görə ki,bir çox hallarda bu tip uşaqların valideynləri "atası da belə idi ", "əmisi də gec danışıb " kimi kəlmələrə uyaraq həm özlərinin,həm də mütəxəssislərin işini çətinləşdirir. Autizmli uşaqların 80-90%- nin oğlan olması və cəmiyyətdə oğlan uşağı gec danışar kimi bir inancın olması ilə bağlıdır.

Qeyd olunan ən sadə əlamətlər autizm sindromlu uşaqların valideynləri tərəfindən bir çox hallarda ya müşahidə olunmur, ya da diqqətlərini çəksə belə ətrafdakı insanlar və yaxınları tərəfindən yalnış yönəldilərək uzun müddət nəzarətsiz qalmalarına gətirib çıxara bilir. Nəticədə daha böyük yaşlarda valideynlər uşaqlardakı qane edici inkişaf irəliləyişləri görməyincə daha çox narahat olmağa və problemin kökünün nədə olduğunu araşdırmağa başlayırlar.

Autizmli uşaqların ailəsini ən çox maraqlandıran suallardan biri də " Bu problem nədən yaranıb" sualı olur. Elə valideynlər olur ki, övladının probleminin həlli yolunda kifayət qədər əziyyət çəkmək və maliyyə xərcləmək yerinə həyat yoldaşının qohumlarının da bu problemdən əziyyət çəkdiyini və bu problemin onların genetik xəstəliyi olduğunu deyərək onları günahlandırırdı.

Valideyn qayğısının uşağın həyatında xüsusi yeri vardır. Bu qayğını həyatda nəyinsə əvəz etməsi mümkün deyildir. Psixoloqlar belə bir faktı müşahidə etmişlər ki, adətən ata anasından və bacı qardaşından uzun müddət uzaq düşən kiçik yaşlı uşaqlar çox vaxt fiziki və əqli cəhətdən normal inkişaf etmirlər. Tədqiqatçılar bu amili kiçik uşaqların yaxın adamlarla olan ünsiyyətə böyük və zəruri tələbatı ilə izah edirlər.

Autizmli uşaqlar cəmiyyətdə və ailədə sanki özlərinin kiçik dünyası varmış kimi davranırlar. Bu təkcə uşaqların probleminin dərinliyi ilə bağlı deyildir. Məsələ burasındadır ki, uşaqlarına qoyulan diaqnozu eşitdikdən sonra valideynlər ümidsizliyə və emosional təsirə məruz qalırlar. Məhz elə buna görə də uşaqları ilə yaxından ünsiyyət qurmaq,onlarla məşqlər keçirtmək və s. çox çətinliklə edə bilirlər. Buna görə də müalicənin və təlimin ilk günündən etibarən həkimlər, psixoloqlar, inkşaf mütəxəssisləri valideynlərin, xüsusilə da ananın emosional durumunun normal olmasının əsas faktoru sayırlar. Belə olduğu halda uşağa yardım etmək daha asan olduğu iddia olunur. Autizm keçilməz bir sədd deyildir. Valideynlərin bu cür ümidsizliyə qapılması onların uşağının təlimində passiv olmasına gətirib çıxarır.

Müalicə nəticəsində hətta ailədə autizmli uşağa münasibətin dəyişdiyini də müşahidə etmək olar. Elə ailələr var ki, autizmli uşaqları ata-ana belə qəbul etmir, hətta əvvəllər bu problemin atadan və yaxud anadan qaynaqlandığını düşünərək ailələr boşanırdılar. Autizmin peyvəndlər nəticəsində yaranması ehtimalı da şübhəli məqamlardan biridir. Lakin bəlkə də peyvənd olan problemi üzə çıxarır. Autizmin daha çox oğlan uşaqlarında ortaya çıxmasının da həlelik təsdiqini tapmış səbəbi yoxdur.

### Ədəbiyyat


1. Bünyamin Birkan, Otistik BIr Çocuğa Öyretmeye Hazırlık Becerilerinin Öyretimi, Özel Eğitim Dergisi: 1999
2. Bireyselleştirilmiş Eğitim Proqramlarının Geriştirilmesi Edvard B.Fiscus-Colleen J Mandell,Editor:Doç.Dr.Gönül Akçemete: 1997
3. İlköyretim Okulu Orta Düzeyde Öyretme Yetersizliyi (eğitilebilir) Olan Çocuklar EĞİTİM Proqrami,MEB Basımevi 2000


**Психологические особенности семей детей с аутизмом**


*Резюме*

Аутизм это отдельный мир. Как и во всем мире, так и в Азербайджане с начала века мы наблюдаем интенсивное распространение синдрома аутизма и теперь у одного из 80-ти человек обнаруживается данная проблема. Но об этом мало статистической информации, так как многие семьи опасаются проходить регистрацию. В Азербайджане наблюдается значительный прирост выявления аутизма и это уже становится глобальной проблемой общества. Из-за не точного определения причин аутизма усложняется его лечение. Его причинами считаются генетические факторы, техника, рост индустриализации и др.


**Psychological characteristics of families of children with autism**


*Summary*

Autism is a different world. As in all of the world, we observe rapidly spreading of autism sindrome since the beginning of the century in Azerbaijan also and this problem is revealed in one of 80 persons. But statistical information about this is very small, because many families deviate to register. Significant growth is observed in revealing of autism in Azerbaijan and this is already turns to a global problem of the society. Because of the reasons of autism is not vividly defined, its treatment is complicated. Genetic factors, growth of technique and industrialization and etc. are considered from its results.




## TƏLİM PROSESİNDƏ YARANA BİLƏN EMOSİONAL MÜHİTƏ MÜNASİBƏTDƏ MÜƏLLİM OBRAZI


**Hüseyn Mirzəyev,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPI*
E-mail: huseyn8002@gmail.com



***Açar sözlər:*** işgüzar səs-küy, təlim prosesində emosionallıq, müasir şagird, iradi-emosional qabiliyyət
***Ключевые слова:*** рабочий шум, эмоциональность в процессе обучения, современные учащиеся, волевая эмоциональная способность
***Key words:*** working noise, emotions in teaching process,the modern student, Willful-emotional ability


Təlim prosesinin uğurlu alınması üçün bir çox tələblər mövcuddur. Məlumdur ki, müasir səviyyədə sosial sifarişə cavab verə bilən dərsin təqdim edilməsində əsas məsuliyyət müəllimin üzərinə düşür. Hazırki zamanda elmin, müasir texniki vasitələrin anbaan inkişafı cəmiyyətin hər bir üzvünə sirayət etmiş olur. Daha çox informasiyanın qəbul edilməsi, təhliletmə tələbatının artması indiki halda, məktəb şagirdlərinin dünyagörüşünə, onların həyat hadisələrinə münasibətinə də əsaslı təsir göstərir.

Bu baxımdan belə bir fikir yürütmək olar ki, müasir dövrün şagirdlərini dərs prosesində "təəccübləndirmək" artıq çətindir. Şagirdin müəyyən bir istiqamət üzrə müəllimdən daha çox informasiyaya malik olması bu gün üçün sual doğuran hal deyil. Amma bu da bir faktdır ki, bir zamanlar şagird müəllimi "hər şeyi bilən" pedaqoq obrazında qəbul edirdi.

Dərs prosesinin uğurlu alınması və şagirdlərin fənnə olan marağının artırılmasını təmin edən amillərdən biri də təlimdə emosionallığın təmin edilməsidir. Tədris prosesində emosional sferanı formalaşdırma müəllimin peşəkarlıq səviyyəsinin göstəricisi kimi qiymətləndirilməlidir. Müşahidələr bunu deməyə əsas verir ki, müəyyən qisim pedaqoqlar dərs prosesində emosional məqamların baş verməsinə imkan yaratmırlar. Əksər hallarda bunun kökündə şagirdlər tərəfindən təlim prosesində törədilə bilən səs-küy və intizamsızlığın qarşısını ala bilməmək qorxusu dayanır. Nəticədə, müəllim öz mühafizəkar mövqeyində qalmaqla həyata keçirdiyi dərsin sanki nizamını qorumağa çalışır.

Müasir pedaqoji keyfiyyətlərə yiyələnmiş pedaqoq anlayır ki, tədris olunan fənnə qarşı sevgini şagirdlərə aşılamaq üçün dərsin məqsədyönlü şəkildə qurulması kifayət etmir. Dərs prosesində şagirdlərin müəyyən zaman müddətində sinifdə qalmalarının onlar üçün darıxdırıcı və yorucu olması yaş və fizioloji xüsusiyyətlərlə bağlıdır. Bir sözlə, bu bir təbii təzahürdür. Bu halın aradan qaldırılması işində müasir təlim texnologiyaları özünəməxsus əhəmiyyət daşıyır. Lakin problemin həlli istiqamətində təlim texnologiyalarının məqamında işlədilməsi, məqsədyönlü olması da böyük rol oynayır. Təlim prosesində müasir təlim texnologiyalarının tətbiqi şagirdlərin fəallığına, fikirlərini sərbəst ifadə etmələrinə, mühakimə yürütmələrinə şərait yaradır. Əgər təlim bu formada təşkil edilərə, şagirdlər baş verənlərə dinamik, çevik reaksiya verir və hadisələrə fərdi münasibət nümayiş etdirirlər. Bu da dərs prosesində emosional mühiti formalaşdırır.

Müasir dövrün meyarlarına cavab verən pedaqoq iradi-emosional qabiliyyətə malik olmalıdır. Bu qabiliyyətin varlığı müəllimin özünü, hislərini düzgün idarə etməsində, mülayimlik və ciddiliyi uzlaşdırmasında, səbirli və təmkinli olmasında təzahür edir. Hislərin idarə olunması müəllimlər üçün də çox vacib və çətin bir prosesdir. Təlim prosesində müəllimin şagirdlə ünsiyyətində rast gələ bilən kritik, mübahisəli anlar müəllim tərəfindən tam idarə olunmalıdır. Müəllim çalışmalıdır ki, bütün hallarda şagirdin sevgisini qazansın.

Təlim prosesində emosional mühit çox zaman işgüzar səs-küylə müşahidə olunur. Müəyyən olunmuş iş formasında şagirdlərin cəlb olunduqları fəaliyyətlərdə onların qarşılıqlı olaraq bir-biriləri ilə apardıqları müzakirələr, diskussiyalar sinifdə bəzən yüksək səs yaradır. Mühafizəkar baxışları ilə seçilən pedaqoqlar bu tipli hallardan narahatlıq keçirir və dərhal onun qarşısını almağa

çalışırlar. Məsələnin kökünə vardıqda, həmin xarakterdə olan müəllimlərin bu cür situasiyalar qarşısında aciz qalmaları ortaya çıxmış olur. Bəs belə zamanlarda müəllim hansı addımları atmalıdır?

Təbii ki, təlim –tədris prosesində şagirdlərin dərs prosesinin gedişinin pozulmasına yönəlmiş fəaliyyətlərinə yol verilə bilməz. İlk olaraq, müəllim işgüzar səs-küylə digər istisnaları ayırmağı bacarmalıdır. Əgər sinifdə yaranmış səs-küy tədris olunan fənlə bağlı işgüzar xarakter daşımırsa, müəllim bu halın qarşısını almağa borcludur. Lakin belə məqamlarda da mübahisə və konfliktlərin yaranmasına müəllim tərəfindən imkan verilməməlidir. Problemin bu yolla həlli yüksək pedaqoji keyfiyyətlərin müəllimdə təşəkkül tapmasından xəbər verir.

Təlim prosesinin müəyyən olunmuş gedişinə uyğun olaraq sinifdə yarana bilən işgüzar səs-küy isə müəllimdə narahatlıq yaratmamalıdır. Əgər şagirdlərin iş prosesində apardıqları danışıqlar dərsin ümumi ahəngini pozursa, bu zaman müəllim sakit və qaydalara uyğun olaraq yaranmış problemi aradan qaldırmağı bacarmalıdır. Bu kimi halların aradan qaldırılması üçün aşağıdakı qaydaların dərs prosesində tətbiq olunması məqsədəuyğun olar:

1. Şagirdlərin dərsdəki davranış qaydalarının əvvəlcədən (həmin qaydalar şagirdlərlə müzakirə edildikdən sonra) elan edilməsi;
2. Qiymətləndirmə meyarlarının dəqiq və əhatəli formada müəyyənləşdirilməsi.

**Ədəbiyyat**

1. Əliyev R. İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
2. Əliyev R. İ. Şagird şəxsiyyətinin formalaşmasının etno-psixoloji əsasları. Bakı: Araz, 2000.
3. Məmmədzadə R.H. İdarəetmə mədəniyyəti. Bakı, 1999.

## TEMPERAMENT TİPLƏRİNİN XÜSUSİYYƏTLƏRİ VƏ PEDAQOJİ PROSESƏ ONUN TƏSİRİ

**Turanə Hüseynova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: turan _husenova @mail.ru

*Açar sözlər: fəaliyyət, müəllim, şagird, temperament, davranış, tədqiqat, fərdiyyət*
*Ключевые слова: деятельность, учитель, студент, темперамент, поведение, исследования, индивидуальность*
*Key words: behavior, teacher, student,temperament , activity, research, individuality*

Temperamentin əsasını təşkil edən sinir sisteminin xassələri və onların müxtəlif kombinasiyaları yeni tədqiqatlar nəticəsində genişləndirilmişdir. Temperament haqda elməqədərki və elmi baxışları ümumiləşdirsək belə nəticəyə gələ bilərik ki, temperament insan şəxsiyyətinin psixi xassəsi kimi şəxsiyyətin həyat və fəaliyyətini, davranışını müəyyənləşdirir və insanın psixi həyatının bütün tərəflərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Psixoloji tədqiqatlar və pedaqoji praktika sübut etmişdir ki, temperament xüsusiyyətlərini həyat şəraiti və tərbiyə sayəsində, eyni zamanda özünütərbiyə vasitəsilə dəyişmək mümkündür. Hətta sinir sisteminin keyfiyyətindən(zəif və ya güclü) asılı olaraq, "yetkin insan belə öz temperament tipini müəyyən istiqamətdə dəyişə bilər" (S.L.Rubinşteyn).

Temperamentin təbiətinə müasir baxışlar insan psixikasının formal dinamik xarakteristikası olan temperamentin özünəməxsus struktura malik olduğunu sübut edir. Lakin insan davranışı təkcə sinir sisteminin təbii xüsusiyyətləri ilə şərtlənmir, həm də şəxsiyyət kimi formalaşma prosesində təlim, tərbiyə, mühit əhəmiyyətli dərəcədə təsir göstərir.İ.P.Pavlov bu səbəbdən sinir sisteminin xüsusiyyətləri içərisində sinir sisteminin plastikliyə malik olmasını xüsusi vurğulamışdır. Buna görə də uşağın davranışının dinamik xüsusiyyətlərinin formalaşmasında sinir sisteminin xüsusiyyətləri ilə yanaşı onun insanlarla münasibəti, həyat şəraiti, fəaliyyətin xarakteri də mühüm rol oynayır. B.M. Teplova görə, istənilən temperament tipində şəxsiyyət üçün arzu olunmayan xüsusiyyətlərin inkişafı təhlükəsi vardır. Məsələn kiçik yaşlardan sanqvinik şagirdləri həmyaşıdlarına diqqətli davranmağa, möhkəm uzünömürlü əlaqələr qurmağa həvəsləndirmək, davamlı maraq formalaşdırmaq lazımdır. Lakin sanqvinik tipli insanalar uşaqlıqdan düzgün tərbiyə edilməzlərsə yüngülağıllılıq, qeyri-dəqiqlik, iradəsizlik, küsəyənlik kimi keyfiyyətlərə meyl edərlər. Xolerik şagirdləri qayda-qanuna, intizama alışdırmaq çətindir. Belə şagirdlərə güc, hədə-qorxu gəlməmək və əsəb sistemini oyadan qıcıqlardan uzaq tutmaq şərtilə xüsusi rejimə, sakit danışmağa, digərlərinin arzuları ilə hesablaşmağa, güzəştə getməyə alışdırmaq lazımdır. Xolerik temperament xüsusiyyətləri tərbiyə edilməzsə aqrresivlik, kobudluq, davakarlıq, eqoizm kimi xüsusiyyətlərə meyilli olarlar. Fleqmatik temperament tipinə malik şagirdləri birgə fəaliyyətə həvəsləndirmək, çevikliyi, hərəkətliliyi onlara sevdirmək lazımdır. Fleqmatik şagirdlər laqeydlik, soyuqqanlılıq, süstlük kimi neqativ keyfiyyətlərə malik ola bilərlər. Melanxolik şagirdi incitmədən özünə inam yaratmaq, xırda uğuruna görə rəğbətləndirmək, ünsiyyətlilik, yardım sevərlik aşılamaq lazımdır. Digər, ona yad olan insanların yanında ona irad tutmaq, səs tonunu qaldırmaq onların bir azda qapalı, küsəyən, özünə inamsız olmasına şərait yaradacaq. Belə şagirdlərin tərbiyəsində onların özlərini sevimli, lazımlı hiss etmələri çox vacibdir. Təlim-tərbiyə işini düzgün qurmaqla, fəaliyyətini məqsədyönlü şəkildə istiqamətləndirməklə dəyərli fərdiyyətlər formalaşdırmaq olar.

İstər təlim fəaliyyətində, istərsə də şəxsiyyət tərbiyəsində temperament fəaliyyətin qiymətləndirilməsi nöqteyi-nəzərindən yanaşmaq doğru deyil. Davranışın məzmunu, şəxsiyyət xassələri, onun inkişaf səviyyəsi tərbiyə ilə müəyyən olunur. Hər bir uşaq özünün fərdi üslubuna, hərəkət tempinə, davranış dinamikasına malikdir. Bu göstəricilər onun temperament tipində ifadə olunur. Təlim-tərbiyə işinin müvəffəqiyyəti bir sıra digər amillərlə yanaşı təhsil alanların əsas fərdi psixoloji xüsusiyyətlərindən biri sayılan temperament xüsusiyyətlərini nəzərə almaqdan, hər kəsin inkişafı üçün əlverişli şərait yaratmaq və təlimdə uğurlu fərdi cığırını tapmaqdan asılıdır. Temperament tipinin müəyyənləşdirilməsində məqsəd hər bir uşağa xas olan təlim şəraiti ilə onu təmin etməkdir.

**Ədəbiyyat**

1. Əliyev R.İ. Psixologiya: Dərs vəsaiti. Bakı: Nurlan, 2003.
2. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı, 2006.
3. Əmrahlı L.Ş.Psixoloji xidmət. III kitab. Psixodioqnostika.Bakı 2014.
4. Немов Р.С. Психология: Учеб. для педвузов. Кн. 1. Общие основы психологии. М.: Владос, 1998.
5.Гиппенрейтер Ю.Б. Введение в общую психологию. Курс лекций. М.: Юрайт, 2002.

**Психологическая характеристика темпераментов и влияния его в педогогическом процессе**

*Резюме*

В статье изучается какую роль в обладании своим темпераментом играет воспитание, самовоспитание, сознательная установка учащегося на искоренение у себя отрицательных проявлений темперамента и закрепление положительных свойств.

**Psychological characteristics temperament and the effect on educational system**

*Summary*

The article deals with early psychologists speculated that differences in temperament can help or hinder performance in–and beyond-the classroom Variance in academic performance that persists when situational variables are held constant suggests that whether students fail or thrive depends not only on circumstance.

# DAVRANIŞ VƏ SOSİAL REFLEKSİYANIN QARŞILIQLI ƏLAQƏSİ

**Ofeliya Əlizadə,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
DDU

*Açar sözlər: davranış, refleks, sosial həssaslıq, sosial refleksiya, dərketmə və özünüdərketmə, subyektiv fəallıq*
*Ключевые слова: поведение, рефлекс, социальная чувственность, социальная рефлексия, познание и самопознание, субъективная активность*
*Key words: behavior, reflex, social sensuality, social reflection, knowledge and self-knowledge, subjective activity*

Davranış insanın social inkişafı prosesində bir çox daxili və xarici amillərin qovşağında formalaşan, mürəkkəb quruluşa malik olan psixoloji hərəkətlər sistemidir. Psixologiyada davranışa ayrıca kateqori yakimi baxılaraq daha çox insanın reflector sahəsi ilə əlaqələndirilir. Burada şüuraltı proseslərin reflector sahəilə qarşılıqlı təsirinə ciddi yanaşılır. Psixologiya dadavranış problem ilə ilk dəfə ciddi qaydada biheviorizmcərə-yanının nümayəndələri məşğul olmuşlar. C.B.Uotson 1919-cu ildə nəşr olunmuş "Psixolo-giya davranış haqqında elmdir" kitabında bihevorizmin mahiyyətini göstərmişdir. O, biheviorizmin inkişafını fəaliyyətin neyro-fizioloji əsaslarını dəqiqliklə öyrənmək-də, onun elementar faktlarından tutmuş, sosial təsirlərə qədər müəyyənləşdirməkdə görürdü. Bu ba-xımdan bihevioristlər davranışı dərindən öyrənməyə başladılar (azps.ru). Davranış, həmçinin sosial refleksiya ilə bilavasitə əlaqəlidir. Belə ki, davranışın normativliyi və mükəmməlliyi ilə sosial refleksiyanın yuxarı həddi bir-birilə yaxşı korrelyasiya olunur. Bu, əlbəttə ki, fərdin şərti-reflektor fəaliyyətinin göstəricilərindən əhəmiyyətli dərəcədə asılıdır. Bu əlaqəni aşağıdakı qaydada izah etmək olar.Məlum olduğu kimi, şərti refleksin yaranması üçün bağlı olan əlaqələr müvafiq qıcıqlayıcının təsiri ilə qurulur. Təsir itdikdə şərti refleks sönür, lazım gəldikdə yenidən qurulur. Belə yenidənqurulma orqanizmin özünümüdafiə sisteminin proqramı ilə tənzimlənir. Həmin ardıcıl-lıqla orqanizmlə ətraf aləm qıcıqlayıcıları arasında reflektor əlaqələr davam edir. Deməli, refleks – orqanizmin sosial mühitin təsirilə oyanan mexanizmi olmaqla onun özünüdərketməsində ilkin faktorlardan biri kimi çıxış edir.

J. Qodfrua refleksiyanın başvermə mexanizmini, onu oyadan hiss və emosiyaların nizamlanmasını aşağıdakı funksiyalarla əlaqələndirir. "Emosiyaları oyadan siqnallar beyinə gəldikdə, hər dəfə mühitin stimullarına qarşı hazırlıq görməyə ehtiyac qalmır, nəticədə hormonların sekresiyası ümumi fəallaşdırıcı hərəkətlə endofrin kimi maddənin işlənməsi ilə əvəzlənir. Bu maddə isə öz növbəsində beyin qabığına yuxunun ilk mərhələsinəki vəziyyətə yaxın olan davamlı gümrahlıq verir. Söhbət yaradıcılıq üçün əlverişli, eləcə də daxili obrazların şüuraltı səviyyədə fəallaşaraq oyandığı vəziyyətdən gedir (1, 224). Deyilənlərdən belə aydın olur ki, sosial refleksiyanın dərketmə və özünüdərk-etmə ilə də bağlılığını vardır. B.Skinner (2) və A.Bandura (3) özünüdərketməni daxili reaksiyaların nəticəsi kimi qəbul edirlər. L.S.Vıqotski buna adekvat olan "so-sial həssaslıq" anylayışından istifadə etməyi də məqsəduyğun sayır. O, "sosial həs-saslıq" anlayışını fərdin sosial aləmə qayğıkeş, qərəzsiz, səmimi münasibətini səciy-yələndirir. L.S.Vıqotski həssaslığın mahiyyətini belə izah edir: "Həssaslıq ifadəsi altında emosional reaksiyaların elə formaları başa düşülməlidir ki, başqa təsirlərlə bağlı olmur, hər şey onu müşayiət edən daxili reaksiyaların üzərinə düşür" (4, 113). Ə.Ə. Əlizadə və H.Ə. Əlizadə mənlik şüurunun quruluşunda dayanan mənəvi keyfiyyətləri refleksiya ilə əlaqələndirirlər: "Mənlik şüurunun formalaşması öz davra-nışını, özünün mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərk etməsi ilə başlayır. Onun rüşeymlərini hələ kiçik məktəbli yaşı dövründə yeni xüsusiyyət kimi meydana çıxan refleksiya təşkil edir" (5, 57). L.Ş. Bağırova sosial həssaslığa klassiklərin nöqteyi-nəzərindən yanaşaraq onu dərketmənin əsas komponentlərindən biri kimi qəbul edir: "Sosial həssaslıq və onunla bağlı olanlar insanın daxili bütövlüyünün hissələridir. Onlardan hər hansı birinin normal inkişaf etməməsi digərlərinə də ləngidici təsir göstərir, yaxud birinın dinamik in-



kişafı digərlərinin də inkişaf intensivliyini artırır, çünki inkişaf özü təbiət qanunları ilə şərtlənir. İnkişafın əsasında isə dialektik qanunauyğunluqlar dayanır" (6, 202).

Bütün bunlar bizə subyektin sosial refleksiyasının mahiyyətini izah etməyə imkan verir. Sosial refleksiya fərddən subyektiv fəallıq tələb edir. N.İ. Qutkina sosial refleksiyanı insanın şüur sahəsindəki refleksiyası, onun özü tərəfindən öyrənilməsi kimi müəyyən edir. O, özünüdərketmənin daha bir mühüm xarakteristikası olan öz xüsusiyyət və imkanlarının perspektivlərinə inanmaq, eləcə də onları tənqidi dərk etmək bacarığını da vurğulayır (7, 120). Sosial refleksiya, həm də empatiyanı səciyyələndirən affektiv məhsuldur. Şəxsiyyətin inkişafının əsas mənbələri praktik fəaliyyət və ünsiyyətdir. Özünüdərkin inkişafına əminliyin formalaşmasına da sosial refleksiyanın baş verdiyi fəaliyyət və ünsiyyət, o cümlədən rol davranışın formalaşdığı mühit təsir göstərir. Həmin mühit-dəki iki əsas amil sosial refleksiyanın səmərəliliyik dərəcəsini müəyyənləşdirməyə imkan verir: a) bilavastə fərdi əhatə edən sosium) sosial qiymətləndirmələr; b) şəxsi motivasiya və dəyərlərin oriyentasiyası, özünün səmərəli fəaliyyətinə gözləmələr. Beləliklə, fərdin özünüdərketməsinin əsasında duran struktur komponenti kimi sosial refleksiyanın xüsusiyyətlərini belə səciyyələndirə bilərik: sosial refleksiya subyektin mühitdən aldığı informasiyalara seçici münasibəti əsasında formalaşır; sosial refleksiyanın yeni informasiyaya ardıcıllığı və məqsədyönlü reaksiyası tələbatlarla bağlılığında asılıdır; sosial refleksiya və subyektiv fəallıq arasında sıx asılılıq var, belə ki, hər ikisi subyektin sosial maraqlarına, o cümlədən özünüdərketməyə yönəlir. Göründüyü kimi, rol davranışın inkişafı refleksiya kimi mühüm fenomen sayəsində baş verir.

Ənənəvi anlamda bu anlayış subyekt tərəfindən daxili psixi vəziyyətin dərkolunma bacarığını ifadə edir. Refleksiya, həmçinin subyekt tərəfindən digərləri tərəfindən özünün şəxsi xüsusiyyətləri, emosional reaksiyaları və koqnitiv qabiliyyətlərini necə anladıqlarını müəyyənləşdirməyə imkan verir. Refleksiyanın başqa bir izahını kommunikasiya zamanı və birgə fəaliyyətdə baş verən təzahürlərin köməyi ilə vermək olar. Təlim və oyun fəaliyyəti, psixoloji treninqlər, tapşırıqların kollektiv həlli zamanı, inzibati orqanlarla əlaqələr zamanı və s. Refleksiv hərəkətlərin özünüdərkə təsiri digər insanlarla ünsiyyət prosesində daha güclü olur.

**Ədəbiyyat**

1. Годфруа Ж.Что такое психология: Том 1: М.: Мир 1992, 496 с.
2. Теория оперантного подкрепления Скиннера // Теории личности. Келвин С. Холл, Линдсей Г. М.: Апрел Пресс, 2000.
3. Бандура. Роль подражания в формировании нового поведения //doshkolnuk.com
4. Выготский Л.С. Педагогическая психология. М.: Педагогика, 1991.
5. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. I hissə. Bakı: ADPU-nun mətbəəsi, 2008.
6. Bağırova L.Ş. Məktəbəqədər yaşlı uşaqlarda mənəvi keyfiyyətlərin formalaşmasının psixoloji xüsusiyyətləri // Psixol.üzrə.fəl.dokt... dis. Bakı, 2004, 142 s.
7. Гуткина Н.И. Личностная рефлексия как один из механизмов самосознания // Формирование личности в переходный период от подросткового к юношескому возрасту. М.: Педагогика, 1987,с. 84-95
8. Jakobson R. Towards a linguistic typology of aphasic impairments. B: de Reuch A.V. S. and O'Connor M. (eds.) Disorders of Language. Boston, Little, Brown, 1964, p. 21-42.

**Взаимодействия поведение исоциальной рефлексии**

*Резюме*

В тезисе описаны отношения между поведением и рефлексией. Эти отношения рассматриваются в поведенческих и социальных контекстах . Подчеркивается, что норма поведения и социальная рефлексия зависит от самопознания.

**Interactions behavior and social reflection**

*Summary*

The thesis describes the relation between behavior and reflections. This relation considered of behavioral and social context. It is emphasized that, standards of behavior and a social reflections depend from self-knowledge.

# PEDAQOJİ PROSESDƏ ÜNSİYYƏTİN ROLU

**Arzu Babayeva,**
*Bakı şəhəri 151 nömrəli məktəbin müəllimi*
E-mail: arzubabayeva@mail.ru

*Açar sözlər: pedaqoji proses, fəaliyyət, yaradıcı təfəkkür, ünsiyyət*
*Ключевые слова: педагогический процесс, деятельность, творческое мышление, общение*
*Key words: pedagogical prosses, activity, creative thinking, communication*

Müasir dövrdə respublikamızda təhsil sahəsində aparılan islahatlar, təhsilin inkişaf etmiş Qərb dövlətlərinin təhsil sisteminə inteqrasiyası, cəmiyyətin humanistləşdirilməsi, demokratikləşdirilməsi təhsil sisteminin də qarşısına bir sıra həlli vacib məsələlər qoyur. Təhsil sahəsində dövlətin strateji hədəfi ölkədə sosial-iqtisadi sahədə əldə edilən nailiyyətlərin daha da inkişaf etdirilməsidir. "Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır" (1),

Azərbaycan Respublikasında təhsilin nəticəyönümlü, şəxsiyyətyönümlü olması, "hafizə məktəbindən" "təfəkkür məktəbinə" keçilməsi, "subyekt-obyekt" münasibətlərinin "subyekt-subyekt" münasibətləri ilə əvəz olunması prioritet məsələ kimi qarşıya qoyulmuşdur. Nəticədə yeni keyfiyyətlərin daşıyıcıları olan, rəqabətəqabil, risk etməyi, müstəqil düşünməyi bacaran, yaradıcı qabiliyyətə malik olan şəxsiyyətlər formalaşdırılmalıdır. Bunların həyata keçirilməsində başlıca sima müəllimdir. Son dövrlərdə pedaqoji, psixoloji ədəbiyyatda göstərilir ki, pedaqoji fəaliyyətdə yüksək peşəkarlıqla yanaşı, müəllimin şəxsiyyəti və onların vəhdəti önəmli rol oynayır. Müəllimin pedaqoji yaradıcılığının inkişaf etdirilməsi, peşəkarlıq səviyyəsinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Müəllimin peşəkarlıq səviyyəsi isə ilk növbədə onun şagirdlərlə ünsiyyətində təzahür edir. Məhz buna görə də son illərdə mürəkkəb, çoxaspektli pedaqoji ünsiyyət problemi "müəllim-şagird" münasibətləri sistemində araşdırılır. Pedaqoji ünsiyyət prosesində müəllimin fərdi-psixoloji xüsusiyyətləri, temperament tipi, şəxsi keyfiyyətləri mühüm rol oynayır. Bunlardan asılı olaraq, eləcə də müəllimin şagirdlərinə müsbət emosional münasibəti şagirdləri fəallaşdırır, onların təlim marağını yüksəldir. Əksinə, müəllim-şagird münasibətləri avtoritar üslub əsasında qurulduqda bu, özünü şagirdlərin davranışında, təlimə münasibətində neqativ baxımdan təzahür etdirir.

Pedaqoji prosesin həyata keçirilməsində pedaqoji ünsiyyət mühüm forma sayılır. Onun başlıca məqsədi ictimai və peşə təcrübəsinin müəllim tərəfindən təhsilalanlara ötürülməsindən ibarətdir. Pedaqoji ünsiyyət prosesində müəllimin birtərəfli mövqeyi qəbuledilməzdir. Başqa sözlə, müəllimin istənilən situasiyaya, istənilən hərəkətə görə şagirdi tərifləməsi və ya əksinə, daim şagirddən narazı qalması, başqa sözlə, daim onu "küncə sıxışdırması" heç də səmərəli yol deyil. Hər iki hal şagirdlərdə mənfi keyfiyyətlərin formalaşmasına səbəb olur. Vacib olanı isə müəllimin şagirdə xeyirxah, obyektiv, ədalətli münasibətidir. Düzlük, qərəzsizlik, şagirdə inam, qayğı, sözünün üstündə durmaq müəllim-şagird münasibətlərində vacibdir. Yalan, riyakarlıq və s. bu kimi xüsusiyyətlər pedaqoji ünsiyyətdə yolverilməzdir. Çünki o, şagirdin mənəvi, əxlaqi tərbiyəsinə mənfi təsir göstərir.

Pedaqoji ünsiyyət humanizmə əsaslanmalıdır. Humanist ünsiyyətin dəyəri ondadır ki, o, şagirdlərdə bərabərlik, ədalətlilik, azad düşüncəyə malik olmaq kimi keyfiyyətlər formalaşdırır. Pedaqoji ünsiyyət zamanı özünün azadlığını düşündüyü kimi, qarşısındakının da hüquq və azadlığını düşünməlidir. Müəllim şagirdin istəyinə, hisslərinə hörmətlə yanaşmalıdır. Çalışmalıdır ki, ünsiyyət zamanı tərəflər özlərini bərabər səviyyədə hiss etsinlər. Yalnız belə olduqda ünsiyyət şagirdin mənəvi zənginliyinə xidmət etmiş olur. Lakin bu heç də o anlama gəlməməlidir ki, ünsiyyətdə tərəflərin sərbəstliyi, hüquq bərabərliyi onları məsuliyyətdən, fərdi nəzarətdən azad edir. Təbii ki, pedaqoji ünsiyyət etik norma və qaydalara əsaslanaraq aparılmalıdır. Məsuliyyət hissi məhz şagirddə formalaşdırılmalı olan vacib keyfiyyətdir.



Pedaqoji ünsiyyət ilk növbədə təlim prosesində həyata keçirilir. Burada müəllim məqsədyönlü, sistemli şəkildə verbal ünsiyyətdən istifadə etməklə auditoriya ilə əlaqə yaradır, informasiyanı çatdırır, dərsi izah edir. Burada şagirdlərlə əlaqənin qurulması müəllimin pedaqoji ustalığından asılıdır. Müəllimin pedaqoji prosesdə kommunikativ təsiri üç səviyyədə özünü göstərir: emosional, koqnitiv və sosial-psixoloji.Emosional ünsiyyətə ünsiyyət zamanı münbit, komfort mühitin yaradılması aiddir. Belə də şagird özünü sərbəst, rahat hiss edir, dərs onunçun yorucu, darıxdırıcı olmur. Ünsiyyətin koqnitiv tərəfi dərsin məzmununun çatdırılması və şagirdlərin idrak fəallığının yüksəldilməsi ilə əlaqədardır.

Ünsiyyətin sosial-psixoloji səviyyəsinə şəxsiyyətlərarası münasibətlər aiddir. Bu səviyyə yalnız müəllim-şagird münasibətləri ilə məhdudlaşmır. Eynilə şagird-şagird, şagird və qrup üzvləri arasındakı münasibətlərlə tənzimlənir. Bütün bunlar kompleks şəkildə kollektivdə psixoloji mühiti formalaşdırır. Bütün bunlar isə vəhdət halında şagirdlərin mənəvi tərbiyəsinin, düşüncə tərzinin, davranışının əsasını təşkil edir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Dərslik. Bakı: Maarif, 1989.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.

**Роль общения в педагогическом процессе**
*Резюме*

В статье говорится о творческой деятельности учителя в педагогическом процессе и об общении как одном из его способов. Указывается, что в успешном обучении ученика и формировании его как личности общение играет важную роль.

**The role of communication in pedagogical process**
***Summary***

The article deals with creative activity and communication manner of the teacher in pedagogical process.

It is shown that the communication takes an important role in the student's training success and occuring as personality.

# KOLLEKTİVDƏ MÜNAQİŞƏNİN YARANMASININ SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Cavid Əliyev,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Turizm və Menecment Universiteti*
E-mail: ca_eliyev89@yahoo.com

***Açar sözlər:** münaqişə, münasibətlər sistemi, sosial normalar, qrup üzvləri*
***Ключевые слова:** конфликт, система отношений, социалные нормы, члены группы*
***Key words:** conflict, system of relations, social norme, qroup members*

Cəmiyyət həyatında baş verən dəyişikliklər, yeniləşmə ictimai, siyası, hüquqi, iqtisadi sahələrlə yanaşı davranış və düşüncədə, mənəvi-psixoloji sferada da mühüm keyfiyyət dəyişikliklərin əsəbəb olmuşdur. Totalitar, qapalı, ümumimülkiyyətə əsaslanan bir cəmiyyətdən tamamilə onun əksi olan bazar iqtisadiyyatına, dünyəvi, demokratik bir cəmiyyətə keçilmişdir. Bu isəidarəetmə sistemində də əsaslı dəyişikliklərin aparılmasını zəruri etmişdir.

İstənilən bir cəmiyyətin inkişafı ilk növbədə onun dinamik şəkildə yeniləşməsindən, məhsuldar, səmərəli fəaliyyətin təşkilindən, qarşılıqlı münasibətlərin hansı səviyyədə qurulmasından çox asılıdır.Tədqiqatlar göstərirki, idarəetmədə mənəvi və əxlaqi dəyərlərə istinad olunmadıqda o,

zorakılığa, haqsızlığa, social ədalətsizliyə gətirib çıxarır. Nəticədə iqtisadiyyata zərər dəyir, qarşılıqlı ittihamlar və konflikt yaranır.

Fəaliyyət sahəsində nasılı olmayaraq, istənilən kollektivin inkişafı üzvlərin hansı səviyyədə birgə fəaliyyət göstərməsindən, əməkdaşlıqdan, istehsalın səmərəli təşkilindən, idarəetmə üsul və formalarından çox asılıdır.

Bunun üçün isə kollektivin fəaliyyətində, münasibətlər sisteminin qurulmasında, texnoloji bilik və vərdişlərin qazanılmasında inzibati-amirlik metodundan demokratik idarə etmə metoduna keçilməsində rəhbərin şəxsi keyfiyyətləri müstəsna rol oynayır. Hələ vaxtilə F.M. Dostoyevski yazırdıki, insane öz hakimiyyətini digər insanlar üzərində tətbiq etdikdə, o qəddarlaşır, kobudlaşır, Tirana çevrilir.

Müasir dövrdə sosioloq və psixoloqların daha çox diqqət yetirdiyi məsələlərdən biri də kollektivdə münaqişə, onun baş vermə səbəbləri və aradanqaldırılmasının səmərəli yollarının tapılmasıdır. Uzun müddət hesab edilmişdir ki, münaqişə kollektiv üzvlərinin eyni obyektə, hadisələrə fərqli münasibətlərindən yaranır. Bildirirlər ki, onun həlli yollarından kollektiv müzakirə, qərarların birgə qəbul edilməsindən asılıdır. Göstərirlər ki, maraqların toqquşması, fərqli münasibətlərin olması da münaqişəni yaradan səbəblərdəndir.

Son dövrlərdə isə şəxsiyyətlərarası münaqişəyə daha çox diqqət yetirilir. O, bir çox hallarda özünü ünsiyyət və emosional münasibətlərdə əks etdirir. Bəzən isə münaqişə tərəflərarasında şəxsi ləyaqət, mənlik hissinin tapdanması ifrat özünü qiymətləndirmənin nəticəsi olaraq meydana çıxır. Bununla belə, göstərilir ki, münaqişə heçdə həmişə neqativ yönümlü deyil, bəzən pozitiv yönümlüdə olur. Başqa sözlə, münaqişə sosialinteqrasiyaya, nifaqınaradan qaldırılmasına, social mütəşəkkiliyə şərait yaradır. Münaqişə eyni zamanda insanın iradi keyfiyyətlərini möhkəmləndirir, yaradıcı təfəkkürünü inkişaf etdirir, social münasibətlərin qorunmasına xidmət edir.

Maraqlıdır ki, kollektivin inkişafı, onun ətalətdə qalmaması da münaqişə ilə bağlıdır. Yəni kollektivdə yeniləşmə, inkişaf münaqişədən, onun mahiyyətində asılıdır. Yeniləşmə özü isə insanları, ayrı-ayrı social qrupları münaqişə vəziyyətinə salır. Psixoloqlar (N.V. Qrişina, N.N. Qrebenko, B.D. Parıgin, Q. Zimmel və b. kollektivdə münaqişənin baş verməsinin qaçılmaz olduğunu və onun aşağıdakı təsirlərdən yarandığını göstərirlər: 1) intrapsixi proses və amillərin təsiri ilə yaranan; 2)vəziyyətin dəyişməsi ilə meydana çıxan; 3)cəmiyyət dəgedən proseslərin ayrı-ayrı fərdlər tərəfindən necə qavranılması və dərk olunmasından; 4) subyektiv interpretasiyadan; 5) koqnitiv anlama və dərketmə dənasılı olaraq baş verən münaqişələr.

Qeyd etmək istərdik ki, müxtəlif psixologiya məktəbləri münaqişənin baş vermə səbəbləri və həlli yollarına fərqli yanaşırlar.

Biheviorist psixologiyanın nümayəndələri münaqişəni social kontekstdə və pozitiv yönümdən şərh edirlər. Bu isə insanın daxili aləminin, hiss və emosiyalarının dərk olunamsı baxımından əhəmiyyətlidir.

Münaqişəyə koqnitiv yanaşma isə onun baş vermə səbəblərini, affektiv davranışın xüsusiyyətlərini öyrənməyə kömək edir.

Göründüyü kimi, müxtəlif psixologiya məktəbləri münaqişənin, davranışın, digər formalarının situativ determinantlarını tam şəkildə aydınlaşdıra bilməmişlər. Bununla belə, onlar bir-birlərini tamamlayır. Yəni insanın mahiyyəti, onun sosial-psixoloji baxımdan dərk olunması üçün bu nəzəriyyələrin qanunauyğunluqlarından kompleks şəkildə istifadə olunmalıdır.

Həyat şəraitinin pisləşməsi insanın ona adekvat reaksiya verməsinə səbəb olur. Bəzən insanlar sosial mühitdə, cəmiyyət həyatında baş verən dəyişikliklərə biganə yanaşır, lakin şəxsi həyatında baş verənlərə ağrılı reaksiya verir, böhran vəziyyətinə düşür.

F.E.Vasilyuk göstərir ki, reallığı qəbul edən şəxslər situasiyanın dəyişməsilə özünün ilkin tələbatlarını ödəyə bilmədikdə stress vəziyyətinə düşürlər. Həyat tərzinin dəyişməsi şəxsiyyətin strukturunda da dəyişikliyə səbəb olur. Bu isə yeni münasibətlər sisteminə daxil olmaq, yeni norma, ənənələri mənimsəmək deməkdir və bu da istər-istəməz gərginlik yaradır, münaqişəyə səbəb olur.

Göründüyü kimi, kollektivdə, sosial mühitdə baş verən dəyişiklik, istər pozitiv olsun, istərsə də neqativ gərginlik, münaqişə yaradır. Fərdi-psixoloji xüsusiyyətlərindən asılı olaraq kimi situasiyaya adaptasiya oluna bilir, kimi isə münaqişə vəziyyətinə düşür.

**Ədəbiyyat**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixolgiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları . Bakı: "TS" 2000.



3. Василюк Ф.Е. Жизненный мир и кризис : типологический анализ критических ситуаций // Психологический журнал, 1995, № 3
4. Гришина Н.В. Психология конфликта. СПб. Питер, 2001.

**Социально-психологические особенности возникновения конфликта в коллективе**

*Резюме*

В статье изучаются социально-психологические вопросы и причины возникновения конфликта. Показано, что конфликт может играть как негативную, так и позитивную роль – это связано с личными качествами.

**Socio-psychological features of conflict emergence in the staft**

*Summary*

The article deals with socio-psychological problems of conflict emergence, it's happening reasons. It is shown that conflict neqatively, but also positively. And it depends on the personal features.

## DİQQƏTİN PSİXOLOJİ QURULUŞU VƏ PSİXİ FƏALİYYƏTİN İDARƏ OLUNMASININ PSİXOPEDAQOJİ XÜSUSİYYƏTLƏRİ

**Günay Axundova,**
*AMİ-nin II kurs magistrantı*
E-mail: axundova_gunay@mail.ru

***Açar sözlər:** diqqət, fizioloji əsaslar, qıcığın optimal zonası, qıcıq, psixofizioloji mexanizm*
***Ключевые слова:** внимание, физиологические основы, оптимальная зона возбуждения, раздражение, психофизиологический механизм*
***Key words:** attention. Physiological bases, optimum Zone of reflex, reflex, physiological mechanism*

Diqqətin nəyə yönəlməsindən asılı olaraq onun iki növü vardır: xarici və daxili diqqət. Diqqətin üç növünü müəyyən edirlər: qeyri-ixtiyari diqqət, ixtiyari diqqət və ixtiyaridən sonrakı diqqət. İlk dövrlərdə uşaqların diqqəti qeyri-ixtiyari xarakter daşısa da müəyyən inkişaf yolu keçir [2, 46]. Uşaqlarda diqqətin həcmi yaş artdıqca genişlənir. İxtiyari diqqətin inkişafında uşaq fəaliyyətinin düzgün təşkilinin böyük əhəmiyyəti vardır. Qeyri-ixtiyari diqqət qabaqcadan qarşıya qoyulmuş məqsədlə, heç bir xüsusi niyyətlə bağlı olmayan və iradi cəhd tələb etməyən diqqət növüdür. Uşaq maraqlı nağıl dinləyəndə, cizgi filminə baxanda onda diqqətin həmin obyektə yönəlməsi, mərkəzləşməsi baş verir.

Deməli, burada heç bir iradi səy tələb olunmur. Qeyri-ixtiyari diqqət insanın qarşısındakı məqsədi ilə bilavasitə bağlı olmur. Uşaqların diqqəti məktəbdə daha yeni keyfiyyət kəsb etməklə səmərəli inkişaf edir. Məlumdur ki, qeyri-ixtiyari diqqət ən çox uşağın marağı ilə əlaqədardır. Bağçaya daxil olmaqla uşağın marağı, xüsusilə də təlim məşğələlərinə olan marağı genişlənir. Bu da öz növbəsində qeyri-ixtiyari diqqətin inkişafına səbəb olur.

Qeyri-ixtiyari diqqətin əmələ gəlməsinə təsir edən qıcıqlandırıcılar bir sıra xüsusiyyətlərə malikdir:

* Qıcıqlandırıcının qüvvəsi və gözlənilmədən təsir, qüvvətli səs, güclü səs, kəskin iy diqqəti cəlb edir. Onların təsiri bilavasitə qıcıqlayıcının mütləq qüvvəsindən deyil, nisbi qüvvəsindən asılıdır. İki qıcıqlandırıcının hansı daha qüvvətlidirsə diqqəti məhz o cəlb edəcəkdir. Əgər qıcıqlandırıcıların qüvvəsi bərabərləşirsə, onda diqqət gah bu, gah da başqa qıcıqlayıcı arasında tərəddüd etməyə başlayır. Onlardan gah biri, gah da digəri üstün olur.

* Qıcıqlayıcının yeniliyi, qeyri-adiliyi və kontrastlığı, yeni əyani vəsait, yeni maşın modeli, qrupa yeni uşağın daxil olması və s. qeyri-ixtiyari surətdə diqqəti cəlb edir. Məlumdur ki, ətraf aləmə baş verən yeniliklər dərhal bələdləşmə refleksi əmələ gətirir. İnsan həmin hadisənin nədən ibarət olduğunu bilməyə can atır.

* Obyektin hərəkətdə olması. Məlumdur ki, hərəkətlər, cisimlər, adətən diqqəti ya cəlb etmir, ya da ancaq xüsusi məqsəd olduqda diqqət həmin obyekt üzərinə yönəldilir. Lakin hərəkətin

başlanması və və ya dayanması diqqəti cəlb edir. Tərbiyəçi uşağın diqqətini nəinki səsini qaldırmaqla, həm də izahatını dayandırmaqla da cəlb edə bilər. Qeyri-ixtiyari diqqət insanın emosional vəziyyətindən asılı olaraq əmələ gəlir.

* Buraya insanın sağlamlıq dərəcəsi, əhval-ruhiyyəsi, tələbatı, maraqları və s. aiddir. Məsələn, bir cisim bizdə davamlı diqqət yaradır, onu uzun müddət müşahidə etməyə yönəldir. Bundan əlavə təsir edən qıcıqlayıcının insanın tələbatına, daxili vəziyyətinə uyğun gəlməsi də vacibdir. Ac adamı xörəyin iyi tez cəlb edir. Buradan belə nəticəyə gəlmək olar ki, qeyri-ixtiyari diqqət bizə təsir edən qıcıqlayıcıların xüsusiyyətindən, yəni xarici şəbəkələrdən, insanın daxili emosional vəziyyətindən, şəxsiyyətin istiqamətindən asılıdır [ 1, 250-251].

İxtiyari diqqətin yaranması insanın niyyəti və məqsədi ilə bağlıdır. İxtiyari diqqət şüurlu surətdə icra olunan fəaliyyətin məqsədi ilə əlaqədar olub obyekti müəyyən sistem üzrə onu ətraflı öyrənməyə imkan verir. İxtiyari diqqətdə cisim və hadisələr insan üzərində deyil, əksinə insan onların üzərində hakim olur.

Uşaqların təlim prosesində davamlı ixtiyari diqqətinin əmələ gəlməsi bir sıra şərtlərdən asılıdır:

* həmin fəaliyyəti yüksək dərəcədə yerinə yetirmək üçün borc və məsuliyyəti dərk etmək. Xüsusən də, fəaliyyətin ictimai mənasını, faydasını aydın dərk edəndə diqqətin davamlılığı artır.

* icra edilən işin və yaxud da fəaliyyətin konkret məqsədini aydın dərk etmək. Bəzən uşaq hər hansı bir təlim materialını nə üçün öyrəndiyini aydın dərk etmir, "öyrənmək xətrinə öyrənmək", müəllimə cavab vermək naminə oxumaq ona heç bir şey vermir.

* Əlavə maraqların yaranması. Bəzən fəaliyyətin özü və ya gedişi uşağı bilavasitə maraqlandırmır, nəticəyə olan maraq və ya özünütəsdiq həvəsinin yaranması əlavə maraq kimi diqqəti işin gedişinə səfərbər etməyə kömək göstərir.

* Uşaqlarda diqqətin inkişafı və formalaşmasının əsas faktorlarına gəldikdə burada belə bir qənaətə gələ bilərik ki, uşaqlarda diqqət çox kiçik yaşlarda inkişaf etməyə başlayır. Uşaqlarda ixiyari diqqətin tərbiyəsində aşağıdakı əsas şərtlərə əməl olunmasını məqsədəuyğun hesab etmək olar:

Diqqətin tərbiyəsi maraqların olmasından asılıdır. Davamlı marağa malik olan uşaqlarda diqqət səmərəli inkişaf edir; Diqqəti ixtiyari olaraq obyekt üzərində cəmləşdirə bilmək bacarığının aşılanması; Uşaqların özünü əlverişsiz şəraitdə işləməyə alışdırılması; Diqqətsizliyin aradan qaldırılması üçün iradi keyfiyyətlərdən istifadə edilməsi; Diqqəti tərbiyə etmək üçün onun xüsusiyyətlərini dərindən öyrənmək vacib və zəruridir. Diqqətin üçüncü növü ixtiyaridən sonrakı diqqət növüdür. İxtiyari diqqətdən sonrakı diqqəti iki mərhələyə ayırmaq olar. Birinci mərhələdə uşaq öz məqsədinə nail olmaq üçün iradi səy göstərir. İkinci mərhələdə isə o, mətnlə maraqlanmağa başlayır, onu "birnəfəsə öyrənir". Məşğələ zamanı da uşaqlarda ixtiyari diqqətdən sonrakı diqqətin yaradılması onları yeni tapşırıqların icrasına asanlıqla cəlb etmək imkanı verir. Bunun üçün müəllim şagirdlərdə təlim tapşırıqlarının inkişafı və tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirməlidir.

İxtiyari diqqət qeyri-ixtiyari diqqətdən aşağıdakı xüsusiyyətlərinə görə fərqlənir:

* Məqsədəuyğunluluq. İxtiyari diqqət insanın fəaliyyəti zamanı qarşıya qoyduğu məqsədlərlə müəyyən olunur.

* Mütəşəkkillik. İxtiyari diqqət zamanı biz bu və ya digər cisim və hadisəyə diqqət yetirməyə hazırlaşırıq. Diqqətimizi şüurlu olaraq həmin cismə və ya hadisəyə yönəldirik.

* Yüksək davamlılıq. İxtiyari diqqət işi nisbətən uzun müddətdə görmək imkanı verir.

Beləliklə, ixtiyari diqqət o zaman baş verir ki, insan qarşısına müəyyən məqsəd qoyur, iradi səy göstərir və ona nail olmağa çalışır. Bir sözlə, insanda müəyyən məqsəd olur və onun ətrafında o, cəhd göstərir. Şüurlu məqsəd sözlərlə ifadə olunur. Məqsəd və iradi səydən əlavə diqqətin beş əsas xüsusiyyətini də fərqləndirirlər ki, onlar da ixtiyari diqqətdə təzahür edir: diqqətin mərkəzləşməsi, davamlılığı, həcmi, paylanması, keçirilməsi.

Diqqətin mərkəzləşməsi zamanı şüurumuz bir obyekt və ya bir neçə fəaliyyətə yönəlir, başqalarından uzaqlaşır.



Diqqətin davamlılığı obyektlər içərisində uzun müddət və fasiləsiz olaraq diqqətin saxlanmasında ifadə olunur. Burada diqqət bir obyektdən başqasına keçirsə də onlar ümumi məqsədə tabe olan fəaliyyət obyektləri kimi qalır. Diqqətin davamlılığı əşyaları xarici görünüşünə və xassələrinə görə tanımağa imkan verir ki, nəticədə uşağın təcrübəsi məzmunca zənginləşir.

Diqqətin paylanması eyni vaxtda iki müxtəlif və daha artıq işi yerinə yetirmək bacarığı ilə xarakterizə olunur. Məsələn, tərbiyəçi yeni materialı məşğələ zamanı həm izah edir, həm uşaqların intizamına, həm də izahatının aydın olub olmadığına nəzarət edirsə, bu tərbiyəçinin diqqətinin paylanmasıdır.

Diqqətin paylanmasının əsas şərti icra olunan işlərdən heç olmasa birinin icrasının yaxşı mənimsənilməsi, vərdiş halına keçməsidir. Diqqətin paylanması yaşdan da asılıdır. Uşaqlar yaşlılara nisbətən diqqətlərini paylamaqda daha çox çətinlik çəkirlər. Bunun əsas səbəbi də uşaqların mənimsədikləri işlərin az olmasından irəli gəlir. Diqqətin keçirilməsi diqqətin şüurlu surətdə bir obyektdən başqa obyektə və ya bir fəaliyyətdən başqa fəaliyyətə yönəlməsidir. Diqqətin yayınması qarşıda duran məqsədlə əlaqədar olmayan cisim və hadisə üzərinə yönəldilməsidir. Məsələn, tərbiyəçinin məşğələni izah edərkən, uşağın oyuncaqla oynaması, yoldaşı ilə söhbət etməsi və s. onun diqqətinin yayınmasını göstərir.

Dalğınlığın iki formasını fərqləndirirlər: birincisi, dalğınlıq ixtiyari diqqətin zəifliyinin təzahürüdür. Bu zaman biz diqqətimizi müəyyən obyekt üzərində mərkəzləşdirə bilmirik. Şagirdlərlə diqqətin dalğınlığı müşahidə olunduqda onlar nə dərs zamanı, nə ev tapşırıqlarını yerinə yetirərkən diqqətli olmurlar. Bu çətinliklər təlim fəaliyyətinə də öz mənfi təsirini göstərir. Dalğınlığın ikinci forması ixtiyari diqqətin hər hansı bir obyekt və ya hadisə üzərində güclü, gərgin və davamlı surətdə mərkəzləşməsi sayəsində baş verir [6, 135].

**Ədəbiyyat**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-çap, 2002.
2. Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı, 2005.
3. Quliyev E.M. Kiçik məktəblilərdə idrak fəaliyyətinin inkişaf xüsusiyyətləri. Bakı, 1995.
4. Məmmədov A.Y. İdrak prosesləri. Bakı, 2005.
5. Вишневская В.П. Особенности развития внимания в условиях автомати- зированной обучающей системы (АОС): Автореф. дис. ...канд. психол. наук. Минск, 1991.
6. Воробей А.А. Диагностика и коррекция внимания младших школьников: Учеб.-метод, пособие. Кемерово, 1995. ..


## ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASINDA İNKLÜZİV TƏHSİLİN ROLU


**Aynur Vəliyeva,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: *veliyeva_86aynur@mail.ru*



***Açar sözlər:** dövlət, şəxsiyyət, cəmiyyət, məktəb, inklüziv*
***Key words:** State, personality, society, school, inkluziv*
***Ключевые слова:** государство, персона, общество, школа, инклузия*


Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, milliyyətindən, iqtisadi və sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir. Vətəndaşlar təhsilin növünü, təhsil müəssisəsini və tədrisin dilini sərbəst şəkildə seçmək hüququna malikdir. Azərbaycan dövlətinin təhsil siyasətinin əsası, vətəndaşlar üçün keyfiyyətli təhsilin təmin edilməsi ilə yanaşı, təhsil islahatlarının aparılması prosesində milli azlıqları, qaçqınları, məcburi köçkünləri təmsil edən uşaqların, həmçinin sağlamlıq imkanları məhdud uşaqların keyfiyyətli təhsil alması

üçün bərabər imkanların yaradılması təşkil edir ("Təhsil haqqında" Azərbaycan Respublikası Qanunu).

Təhsil sisteminin inkişafı hər bir cəmiyyət üçün strateji əhəmiyyət daşıyan məsələlərdən biridir. Ona görə ki, təhsil sosial proseslərə təsir göstərən ən mühüm faktorlardan biri olmaqla həm qabaqcıl texnologiyaların mənimsənilməsinə köməklik göstərir, həm də cəmiyyətdə dəyərlər sistemini formalaşdırır. Demokratik təhsilin isə əsas prinsipi kimi, cəmiyyətin bütün üzvlərinin onların sağlam və ya əlilliyi olan şəxslərin bərabər təhsil alma hüquqlarının təmin edilməsi çıxış edir. Məhz bu cəmiyyətdə sosial bərabərliyin qorunmasına şərait yaratmış olar. Sosial bərabərliyin təmin edilməsi imkanı isə inklüziv təhsilin həyata keçirilməsi ilə bağlıdır.

İnklüziv təhsil – hər uşağın fərdi ehtiyaclarını nəzərə alaraq əlilliyi olan uşaqların öz həmyaşıdları ilə birlikdə ümumtəhsil məktəblərində eyni siniflərdə təhsil alması deməkdir.

İnklüziv təhsil 4 əsas xüsusiyyəti özündə əks etdirir:

✓ Əqli və fiziki imkanları əhatə edən müxtəlif tələblərin təmin edilməsi və müxtəlifliklərin hesaba alınma imkanlarının optimal üsullarının axtarışı;

✓ Şagirdin yaradıcı potensialının və məsələləri həll etmə bacarığının müxtəlif yollarla stimullaşdırılması;

✓ Uşaqların məktəbə getmək, öz fikrini ifadə etmək, keyfiyyətli tədris prosesində iştirak edərək şəxsi, sosial və etnik xüsusiyyətlərindən asılı olmayaraq, müəyyən nəticələr əldə etmək hüquqlarının təmin edilməsi;

✓ Sosial təcrid olunmaya məruz qala bilən, həmçinin davamiyyəti pis olan şagirdlərə mənəvi dəstəyin göstərilməsi.

Müasir təhsil sistemində xüsusi qayğıya ehtiyacı olan uşaqların (XQEU) öz yaşıdları ilə birgə təlimini nəzərdə tutan inklüziv təhsil modelinə daha çox üstünlük verir. İnkliziv təhsilin həyata keçirilməsi belə bir inam üzərində qurulubdur ki, inklüziv təhsil hər bir insanın hüququdur və o, bütün uşaqlar və ümumilikdə isə bütün cəmiyyət üçün əhəmiyyətlidir. Bütün uşaqlar kimi XQEU da fərdi xüsusiyyətləri, maraqları, qabiliyyət və ehtiyacları nəzərə almaqla təlim və tərbiyə almaq hüquqları vardır. XQEU-in inklüziv təhsilinin əsas məqsədi onların cəmiyyətdə tam inteqrasiya olunması, bütün vətəndaşlara şamil edilən sosial dəyər və rifahlardan istifadə etməsidir. Təhsilin belə bir formada təşkili XQEU-ın cəmiyyətə daha uğurla inteqrasiya etməsinə köməklik etməklə xüsusi əhəmiyyət kəsb edir.

Tədqiqatlar göstərir ki, zəruri dəstək verməklə uşaqların adi siniflərə daxil etmək olar. Gün ərzində uşaqlar sinfin ruhunu hiss etmələri və bu kollektivə məxsus olma hissini keçirmələri üçün çoxsaylı imkanlara malik olurlar. Uşağın kollektivə mənsub olmaq, "uşaqlardan biri olmaq" cəhdi isə ona yeni bacarıqlar əldə etməsi üçün imkan yaradır.

İnklüziv təhsilə dair dünya təcrübəsinin öyrənilməsi göstərir ki, bu prinsipə görə bütün uşaqlar lap əvvəldən məktəbin təhsil və sosial həyatına daxil olmalıdır. İnkluziv təhsil tətbiq edilən məktəblərdə yalnız XQEU deyil, bütün şagirdlər qayğı ilə, əhatə olunur ki, bu da onlara cəmiyyətdə uğur qazanmaq imkanı verir. Belə məktəblərin məqsədi bütün şagirdlərin dolğun həyatını və kollektivdə fəal iştirakını təmin etmək, bununla da onların qarşılıqlı əməkdaşlığına şərait yaratmaqdan ibarətdir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumi təhsilə sadəcə olaraq fiziki baxımdan daxil olması onlar tərəfindən ümumi təhsilin məzmununun dərk edilməsi demək deyildir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsilin məzmununu dərk etməkdə uğur qazanmalarına imkan yaratmaq məqsədilə biz məzmunun sadə, yadda qalan, həyati əhəmiyyətli və davamlı olması üçün səmərəli yollar tapmalıyıq.

### Ədəbiyyat


1. "Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə inkişaf proqramı (2005-2009).
2. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2001.
3. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.





А. Велиева

**Рол инклозивного оброзованиэ в формировании мечности**

***Резюме***

В статье отмечается что, общеобразовательная система должна охватывать всех детей и обеспечивать их равными возможностями, поддерживать их индивидуальные достижения, создать благоприятные условия для образования детей с разными уровнями развития и способности.

A. Valiyeva

**The role of personality in the development of inclusive education**

***Summary***

The general educational system have to rover all children, provide for the children to possess the equal right and have to support each of their personal achievements. The inclusive approach to the education have to serve to these aims and visual aids for children of different skills and abilities should be mentioned.


# ПРОБЛЕМЫ РОДИТЕЛЕЙ ВОСПИТЫВАЮЩИХ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ


**Гюнель Ахмедова,**
*старший научный сотрудник ИПОАР*
E-mail:gunelahmedova@yandex.ru



***Açar sözlər:*** *ailə, sağlamlıq imkanları məhdud uşaqlar, kömək, sosial pedaqoq, tərbiyə*
***Ключевые слова:*** *семья, дети с ограниченными возможностями здоровья, помощь, социальный педагог, воспитание*
***Key words:*** *family, children with disabilities, assistance, social pedagogue, education*


Ухудшение экологической обстановки, высокий уровень заболеваемости родителей, ряд нерешенных социально-экономических, психолого-педагогических и медицинских проблем способствует увеличению числа детей с ограниченными возможностями здоровья.

В настоящее время в нашей стране есть около 64 тысяч детей с ограниченными возможностями здоровья. 1105 из них учатся в специальных школах, 2264 в специальных школах-интернатах (из которых 1353 остаются в учреждениях на ночь), 7750 привлечены к образованию на дому, 298 к инклюзивному образованию.

Семьи, воспитывающие детей с ограниченными возможностями здоровья, вынуждены зачастую решать все проблемы, связанные с инвалидностью ребенка самостоятельно.

Рождение ребенка с нарушениями в развитии всегда является стрессом для семьи. Проблема воспитания и развития "особого" ребенка чаще всего становится причиной глубокой и продолжительной социальной дезадаптации всей семьи. Родители, воспитывающие ребенка с ограниченными возможностями здоровья, получают крайне недостаточную информацию о том, как и чему его учить, как управлять его поведением.

В семьях, имеющих ребенка-инвалида, уровень материальной обеспеченности оказывается ниже, чем в семьях со здоровыми детьми. Это обусловлено вынужденным большинством матерей оформлением сокращенного рабочего дня; вынужденной сменой работы нередко с потерей заработной платы и т.д.

Никому не хочется иметь ребенка с физическими или иными недостатками. Ничего удивительного нет в том, что родители волнуются в ожидании ребенка: каким он родится, и если он появляется на свет с нарушениями или больным, для них это глубокое потрясение.

Большинство семей в решении своих проблем в повседневной жизни сталкиваются с непониманием и пренебрежением окружающих, ощущают равнодушие и безразличие. Отношение сверстников к атипичным детям часто бывает пренебрежительным или безразличным. Они часто не умеют общаться, играть, участвовать в совместной деятельности с таким ребенком(4).

Ребенок с ограниченными возможностями и семья, в которой он воспитывается, нуждаются в помощи специалиста, который смог бы активно войти в конкретную

жизненную ситуации семьи, смягчить воздействие стресса, помочь мобилизовать имеющиеся внутренние и внешние ресурсы всех членов семьи. Таким специалистом, профессионалом, подготовленным к решению такого рода социально-психолого-педагогических проблем, и является социальный педагог.

Цель социального педагога – способствовать социальной адаптации и реабилитации семьи в ситуации рождения ребенка с ограниченными возможностями здоровья (5).

Задача социального педагога – помочь родителям преодолеть первоначальную реакцию подавленности и растерянности, а в дальнейшем занять активную позицию в реабилитации ребенка, сосредоточив усилия не только на лечении, но и на развитии его личности, на поиске адекватных способов социализации и достижении оптимального уровня адаптации в обществе. Социальный педагог выступает посредником между ребёнком и взрослым, ребёнком и его окружением, а также в роли наставника при непосредственном общении с ребёнком или его окружением (3).

Литература


1. Павленок, П.Д., Руднева М.Я. Технология социальной работы с различными группами населения [Текст] : Учеб. Пособие. М.: ИНФРА-М, 2010.
2. Строгова Н.А., Магарычева Е.А. Проблема психологической помощи родителям, имеющим детей с отклонениями в развитии // Школьный логопед, 2007, № 1


G. Əhmədova

**Sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin problemləri**


*Xülasə*

Əksər hallarda sağlamlıq imkanları məhdud olan uşaqların ailələri uşaqlarının əlilliyi ilə bağlı problemləri müstəqil həll etməyə məcbur olurlar. Həm atipik uşağa, həm də onun tərbiyə aldığı ailəyə xüsusi hazırlanmış mütəxəssisin professional köməyinə böyük ehtiyac var. Ailələrdə sosial-pedaqoji-psixoloji problemlərin öhdəsindən gələ biləcək – sosial pedaqoqlar hazırlanmalıdırlar.


G. Ahmedova

**The problems of parents with children with disabilities**


*Summary*

Families bringing up children with disabilities often have to solve all the problems related to the disability of the child yourself. Child with a disability and the family in which he grew up, need the assistance of a specialist. Such a specialist, professional, trained to deal with this kind of socio-psychological-pedagogical problems, should be a social pedagogue.


## AİLƏDƏ QARŞILIQLI MÜNASİBƏTLƏR VƏ UŞAQLARIN PSİXİ İNKİŞAFINA ONUN TƏSİRİ


**Kifayət Əhmədova,**
**Naxçıvan Müəllimlər İnstitutunun baş müəllimi**
*E-mail: kifayetahmadova@mail.ru*



***Açar sözlər:** inkişaf, mühit, münasibətlər, ailə, tələbat*
***Ключевые слова:** развитие, среда, отношения, семья, потребность*
***Key words:** development, the environment, the attitude, family, the need*


Psixoloqlar ailəni bir çox mürkkəb funksiyaları özündə birləşdirən sosial institut və ya kiçik sosial qrup kimi təqdim edir, araşdırırlar.

N.Y.Solovyov ailəni ər-arvadın, valideyn və övladların birgə yaşayışının, ümumi təsərrüfatının,münasibət və ünsiyyətlərinin qurulduğu kiçik qrup hesab edir. Ailənin öz funksiyasını düzgün yerinə yetirməsi nəinki onun üzvləri, həm də bütövlükdə cəmiyyət üçün əhəmiyyətlidir.

Ailənin funksiyaları içərisində ailə mühiti, qarşılıqlı münasibətlər sistemi və ünsiyyət xüsusilə vacibdir. Psixoloqlar birmənalı şəkildə sübut edirlər ki, tərbiyənin bünövrəsi və şəxsiyyətin formalaşmasının əsası ailədən başlayır.

Tərbiyə işində ailənin mühüm təsiri həm də onunla bağlıdır ki, uşaq gözünü ailədə açır və burada öyrəndikləri demək olar ki, həyatları boyu onları izləyir. Şəxsiyyətin pozitiv və neqativ cəhətlərinin formalaşması da ailədən başlayır.

Ailədaxili münasibətlərdən asılı olaraq orada formalaşan keyfiyyətlər uşaqların emosional sferasında , ünsiyyətində və digər insanlarla münasibətində də öz əksini tapır. Hətta pis ailə mühitində böyüyən uşaqlar sonradan özləri ailə qurduqda daim ailədaxili münaqişə ilə üzləşirlər.

Ailədaxili münasibətləri üfiqi və şaquli olmaqla iki qrupa ayırırlar. Bunlardan birincisi ər-arvad, ikincisi valideyn-övlad münasibətlərinə aiddir. Təbii ki, bunlar bir-birilə qarşılıqlı vəhdətdədir və biri digərinə təsir edir. Əgər ər-arvad münasibətləri pisdirsə bu, öz növbəsində uşaqlara qarşı münasibətdə də özünü göstərəcək. Və yaxud, əksinə ər-arvadln münasibətləri yaxşıdır, amma uşaqlara qarşı laqeyddirlər. Hər iki halda uşaqların şəxsiyətinin formalaşmasında, psixi inkişafında problemlər yaranır.

Ailə problemlərini öyrənən psixoloqların tədqiqatları göstərir ki, böyüklərin, xüsusilə anaların qəyyumluğundan məhrum olmuş uşaqlarda adətən qorxu və nevroz əlamətləri özünü göstərir. Z. Freydə görə uşaq vaxtı anasından ayrı düşmüş adamlar daim köməksizlik, qorxu hissi yaşayırlar.

Digər tədqiqatlara görə valideynlərindən ayrı yaşayan uşaqlar bütöv şəxsiyyət kimi formalaşmağda çətinlik çəkir, psixikasında, emosional sferasında problemlər yaşanır.

Şəxsiyyətin "MƏN"I mahiyyət etibarilə sosialdır. Başqa sözlə, uşaq şəxsiyyətində böyüklərin, xüsusilə valideynlərin təsiri, təlim-tərbiyə işini necə təşkil etmələrindən asılı olaraq formalaşır. Bu isə öz növbəsində uşağın özünütəsdiqi, özünü reallaşdıra bilməsinin əsasını qoyur. M.İ.Lisina, D.B.Elkonin, Ə.Ə.Əlizadə və b. hesab edirlər ki, kiçik yaşlarında ana uşaq üçün onu yedizdirən, müdafiə edən ən yaxın insandır.

Ailədə qarşılıqlı münasibətlərdən asılı olaraq yalnız idrak prosesləri deyil, həm də mənəvi, emosional sfera inkişaf edir. Bununla yanaşı inkişaf yalnız ailə mühitindən deyil, həm də ictimai proseslərdən asılıdır. Çünki social mühit yalnız xarici şərait deyil, həm də daxili inkişafın vacib şərtlərindəndir. Amerika psixoloqu Bolduin göstərir ki, təlim prosesində bütün şagirdlərə eyni davranış normaları, əxlaq qaydaları və biliklər öyrədilir, lakin biliklərin mənimsənilməsi, cəmiyyətə adaptasiya fərqlidir. Deməli, problemin kökündə həm də fərdi fərqlər, ailə tərbiyəsi dayanır.

Tədqiqatlar, eləcə də bizim müşahidələrimiz göstərir ki, valideynin uşağa qarşı soyuqluğu ailə mühitindəki gərginlik, uşaqlara qarşı ayrı-seçkilik, eləcə də həddsiz qəyyumluq, uşağın hədsiz dərəcədə əzizlənməsi mənfi nəticələrə səbəb olur. Vaxtilə V.A.Suxomlinski yazırdı: "İdarəetməyə insanın insan üzərində "ağalığı" kimi yanaşmaq səhvdir. Belə bir hakimiyyət uşaq qəlbini boş qoyur, onda inamsızlıq, hətta insana nifrət hissi yaradır". V.A.Suxomlinski bununla yanaşı, başqa bir fikri də əsaslandırır: "Övladını bədbəxt etməyin ən asan yolu onun bütün istəklərini yerinə yetirməkdir".

Yuxarıda deyilənləri belə ümumiləşdirmək demək olar ki, uşağın şəxsiyyət kimi formalaşması, psixi inkişafı mürəkkəb bir proses olmaqla həm ailədaxili münasibətlərdən, həm sosial mühitdən, həm də uşağın fərdi-psixoloji xüsusiyyətlərindən asılıdır. Uşaqlar nə fiziki, nə də psixoloji baxımdan böyüklərsiz, xüsusilə valideynlərsiz yaşaya, harmonik inkişaf edə bilməzlər. Eyni zamanda uşağın şəxsiyyət kimi formalaşmasında yalnız valideynlər deyil, sosial mühit, sosiomədəni amillər, adət-ənənələr də mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**


1. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
2. Əliyev R.İ. Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006
3. Ковалев.Р.И. Психология соврoменной семье. М. : Просвещение,1988.
4. Сухомлинский В. А. Сто советов учителю .М.: Просвещение, 1984.

# MÜASİR MÜƏLLİMİN VALEOLOJİ KOMPETENSİYALARI

**Heydər Cəfərov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: heysevsara@mail.ru

***Açar sözlər:*** *diskomfort təhsil şəraiti, pedaqoji zorakılıq, valeologiya, cismani və mənəvi-psixoloji sağlamlıq, sağlam həyat tərzi, yeni kompetensiyalar, şəxsiyyətyönümlü təhsil*
***Ключевые слова:*** *дискомфортные образовательные условия, педагогическое насилие, валеология, педагогическая валеология, дидактогения, телесное и духовно-психологическое здоровье, здоровый образ жизни, новые компетенции, личностно-ориентированное образование*
***Key words:*** *discomfort educational conditions, pedagogical violence, valeology (the science of healthy lifestyle), the physical and psychological health, new competencies, personality education*

Cəmiyyətin inkişafı ilə müəllim peşəsinin statusu düz mütənasibdir. Belə ki, bütövlükdə müəllimin fəaliyyəti ölkənin həyatında baş verən siyasi, ictimai-iqtisadi və mədəni dəyişikliklərlə şərtlənir. Dövlətin maddi-texniki bazası möhkəmləndikcə, məhsuldar qüvvələr və istehsal münasibətləri inkişaf etdikcə, keyfiyyətcə bir mərhələdən digərinə yüksəldikcə qanunauyğun olaraq üstqurumun başlıca komponentlərindən biri kimi təhsilin (təlimin, tərbiyənin) də məqsədi, vəzifələri və məzmunu dəyişir. Tərbiyə institutları və onları təmsil edən subyektlər isə cəmiyyətin cari və perspektiv tələbatına müvafiq olaraq fəaliyyətlərinin başlıca istiqamətini yeni məqsədin, vəzifələrin dərk edilməsi və həyata keçirilməsinə yönəldirlər.

Son 50 ildə bir sıra obyektiv (ictimai-siyasi hadisələr, süni və zorakı miqrasiya, ekoloji tarazlığın pozulması və s.) və subyektiv (qeyri-sağlam və oturaq həyat tərzi, zərərli vərdişlər, diskomfort təhsil şəraiti, pedaqoji zorakılıq, təhsilin məzmunu ilə təhsilalanların təbii inkişafı arasındakı ziddiyyət və s.) amillərin təsiri nəticəsində bütövlükdə əhalinin, xüsusilə təhsilverənlərin və təhsilalanların səhhəti, sağlamlığı, cismani durumu və mənəvi-psixoloji rifahında ciddi problemlər yaranmışdır. İctimai narahatçılıq doğuran isə bu problemlərin ildən-ilə get-gedə kəskinləşməsidir.

Xüsusi qeyd etmək lazımdır ki, XX əsrin sonlarında SSRİ-nin dağılması ərəfəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində yaşayan erməni əhalisinin seperatçı ixtişaşları, 1988-ci ildən başlayaraq 250 mindən çox aborigen azərbaycanlıların insanlıqla bir araya sığmayan qəddarlıq və vəhşiliklə Ermənistandan çıxarılması, 1990-cı il yanvarın 20-də SSRİ silahlı qüvvələrinin Bakıda, o cümlədən ölkəmizin digər şəhər və rayonlarında törətdikləri qırğınlar, daha sonralar Ermənistan ordusunun ölkəmizə hücumu, Dağlıq Qarabağı və onun ətrafında olan yeddi rayonu işğal etməsi, bir milyondan çox əhalinin doğma yurd-yuvasından xüsusi qəddarlıqla qovulması, onların qaçqın və köçkün vəziyyətinə düşməsi, bununla yanaşı ölkə daxilində müxtəlif siyasi qruplaşmaların hakimiyyət uğrunda gedən mübarizəsi, keçid mərhələsində olan iqtisadiyyatın zəifləməsi və s. nəticəsində əhalinin fiziki, cismani və mənəvi-psixoloji sağlamlığına çox ciddi zərbə vurulmuşdur. Bu gün 20-25 yaşı olanlar məhz xalqımızın siyasi, ictimai, iqtisadi, cismani və mənəvi-psixoloji baxımdan düçar olduğu həmin əzablı-əziyyətli, iztirablı-sarsıntılı, narahat və gərgin illərdə (1990-1995) doğulmuş, hələ dünyaya göz açmamış, bütün bu hadisələrin canlı şahidləri olan analarının bətnində ikən həyəcanlı anlar yaşamış, genetik əsəbi-psixoloji diskomforta məruz qalmış gənclərdir.

Qeyd olunan obyektiv və subyektiv amillər bütün təhsilalanların və xüsusilə tələbə gənclərin mənəvi və cismani sağlamlığına, psixoloji, əqli və intellektual durumuna ciddi mənfi təsir



göstərmişdir. Belə bir vəziyyətin səciyyəvi xarakter daşıması müasir ictimai həyatın tələbatı kimi valeologiya elminin yaranmasına səbəb olmuş, sağlam həyat tərzini, bütövlükdə bütün insanların, o cümlədən tələbə gənclərin özlərini şəxsi sağlamlığının qayğısına qalmasını, onun təmin edilməsi, möhkəmləndirilməsi və mühafizəsinə cəlb olunmasını aktuallaşdırmışdır. Bu sahədə tələbə gənclər üçün başlıca fəaliyyət növü kimi təhsil çox böyük əhəmiyyət daşıyır. Belə ki, "təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir" (1). Göründüyü kimi, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında da təhsilin əhalinin, o cümlədən tələbə gənclərin sağlam həyat tərzinin təmin edilməsində əhəmiyyəti xüsusi vurğulanır. Bu, ilk növbədə pedaqoji ali təhsil müəssisələrinin tədris planı, proqramları və dərsliklərinə sağlam həyat tərzinə dair materialların salınmasını, ən başlıcası isə valeologiya, pedaqoji valeologiya, didaktogeniya kimi sağlam həyat tərzini öyrənən və tələbə gənclərin cismani, mənəvi-psixoloji, intellektual sağlamlığının təmin edilməsində ictimai əhəmiyyət kəsb edən elmlərin tədris olunmasının vacibliyini göstərir. Bu proses müəyyən vaxt tələb etdiyindən müasir dövrdə tələbə gənclərin sağlam həyat tərzinin təbliğ və təmin olunmasında əsas vəzifə müəllimlərin üzərinə düşür.

Bu deyilənləri nəzərə alaraq müasir müəllim dövlət tərbiyə institutunun xüsusi təhsil almış və hazırlanmış səriştəli təmsilçisi kimi böyüyən nəsillərin təlim-tərbiyə və təhsili sahəsində dövlət siyasətini həyata keçirməklə yanaşı, həmçinin yeni kompetensiyalara, o cümlədən valeoloji bilik və bacarıqlara yiyələnməli, təhsilalanlara cismani sağlamlığın, mənəvi-psixoloji, əqli-intellektual durumu və sağlam həyat tərzinin aşılanması, sağlam həyat tərzi şüuru və mədəniyyətinin formalaşdırılması sahəsində yardımçı və nümunə olmalı, bunun üçün bilavasitə məsuliyyət daşımalı, ən vacibi isə təhsilalanları oturaq həyat tərzindən, zərərli vərdişlərdən çəkindirməyi, özlərinin şəxsi sağlamlığının qayğısına qalmağa, təmin olunması və qorunmasına cəlb etməyi, beləliklə təhsilin şəxsiyyətyönümlülüyünü həyata keçirməyi bacarmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr

**Г.А. Джафаров**

**Валеологические компетенции современного учителя**

***Резюме***

Преподаватель, как представитель государственного института воспитания, направляет свое усилие на выполнение новой поставленной цели, что требует овладения современными компетенциями. Ибо за последние 50 лет под влиянием некоторых объективных (общественно-политические события, насильственная миграция, нарушение экологического равновесия и др.) и субъективных (малоподвижный образ жизни, вредные привычки, дискомфортные образовательные условия, педагогическое насилие, противоречие между природным развитием обучающихся и содержанием образования и др.) факторов возникли серьезные проблемы в физическом и духовно-психологическом состоянии здоровья населения, в частности у студенческой молодежи.

**H. A. Jafarov**

**Valeology competence of the modern teacher**

***Summary***

Teacher as a representative of the state educational institute focuses his activities to set his new task. This is due to the learning competencies. So, in the last 50 years, a number of objective ((social and political events, artificial and forced migration, violation of environmental balance, etc.) and subjective (unhealthy and sedentary lifestyle, habits, discomfort educational conditions, pedagogical violence, the contrast between the natural course of the learners in the content of education, etc.) serious problems arose as a result of factors the whole population, especially educators and students' health, strength and physical condition, moral and psychological well-being.

# MÜƏLLİMLƏRİN PEŞƏKARLIQ SƏVİYYƏSİNƏ QOYULAN MÜASİR TƏLƏBLƏR

**Xalidə Talıbova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*ARTPİ*
E-mail: xalidetalibova@mail.ru

*Açar sözlər: müəllim peşəkarlığı, müasir tələblər, xarici təcrübə, peşəkar səriştə, ixtisasartırma sistemi*
*Ключевые слова: профессионализм учителя, современные требования, зарубежный опыт, профессиональная компетентность, система квалификации*
*Key words: teacher professionalism, modern requirements, foreign experience, professional competence, qualification system*

Cəmiyyətdə gedən sosial, iqtisadi və elmi-texniki proseslər yüksək ixtisaslı, təşəbbüskar, yüksək təhsilli və mədəniyyətli mütəxəssislərin hazırlanmasını tələb edir. Müasir tələblərə cavab verən təhsil işçisi öz elmi metodiki səviyyəsini daimi artırmalı, peşəkarlıq səviyyəsini yaxşılaşdırmalı, öyrənmək qabiliyyətini və yeni informasiya mənbələrindən istifadə bacarığını yüksəltməlidir. Mütəxəssislərin və müəllimlərin peşəkarlıq səviyyəsinə qoyulan müasir tələblər təbii olaraq işçiləri məcbur edir ki, onlar sərbəst olaraq peşəkarlıq şəriştəliklərini təkmilləşdirsinlər. Bu istiqamətdə onlara birbaşa institutlar, müvafiq fakültələr, ixtisasartırma və yenidən hazırlanma mərkəzləri (əlavə təhsil sistemi) kömək göstərə bilərlər. İxtisasartırma institutları və ya mərkəzləri qabaqcıl pedaqoji təcrübəni ümumiləşdirərək onu innovatik ideyalar və texnologiyalar səviyyəsinə qaldırmalıdır.

Təhsil sisteminin inkişafı müəllimlərin peşəkar inkişafı problemi ilə birbaşa əlaqəlidir. Müəllimin şəxsiyyətinə və peşəkar fəaliyyətinin məzmununa qoyulan müasir tələblərlə yanaşı onda aşağıda qeyd olunan keyfiyyətlərin də olması nəzərdə tutulur:

- metodoloji savadlılıq, kifayət qədər yüksək nəzəri və praktiki hazırlıq;
- iradə və emosiya baxımından peşəkar fəaliyyətin sabitliyi, peşəkar fəaliyyətdə şəxsi potensialların (idrak, əqli, yaradıcılıq, kommunikativ və estetik) yüksək reallaşdırma səviyyəsini nəzərdə tutan müsbət motivasiya sahəsi;
- peşəkar səriştə, yaradıcılıq fəaliyyətinə hazırlıq, kreativlik;
- peşə məsələlərini müstəqil şəkildə formalaşdırmaq və həll etmək bacarığı;
- sadalananların nəticəsi kimi, pedaqoji fəaliyyətdə analitik, proqnostik, layihə, təşkilatçılıq və kommunikativ bacarıqları formalaşdırmaq bacarığı.

Sadalanmış keyfiyyətlərin mövcudluğu müəllimin daimi dəyişkən sosial-pedaqoji şəraitdə effektiv şəkildə işləmək bacarığını müəyyən edir. Bu müəllimdə qeyd edilən keyfiyyətlərin formalaşmasının yollarının, vasitələrinin və mexanizmlərinin öyrənilməsini, onların inkişaf şəraitinin və təzahür məqamlarının tədqiq olunmasını aktual edir.

İxtisasartırma sisteminə tərəfimizdən müəllimlərin peşəkar inkişafına müxtəlif dərəcədə təsir göstərə bilən fasiləsiz təhsilin struktur elementi kimi baxılır. İxtisasartırma sistemi müəllimlərin peşəkar inkişafını kifayət qədər sürətli tempini təmin edə bilər və ya bu prosesə ümumiyyətlə heç bir təsir göstərməyə bilər.

Müəllimlərin ixtisasartırma sisteminin vaxtında təşkil olunması, ilk növbədə bu sistemə onların cəlb olunmasının epizodikliyi ilə, ikinci növbədə isə, onların pedaqogika elmində, psixologiyada və xüsusi metodologiyalarda yeniliklər haqqında məlumatlandırılması ilə xarakterizə olunur. Bununla əlaqədar olaraq ixtisasartırma sisteminin müəllimlərin peşəkar inkişafına daimi müsbət təsiri təmin edən şərtləri aşkar etməyə, ixtisasartırmanın yeni mövzusunun, onun müəllimin şəxsiyyətinin inkişafına yönəldilmiş təşkilati formalarının axtarışına yönəldilmiş tədqiqatlar aktuallığa malik olur.

İxtisasartırma sisteminin müəllimlərin peşəkar inkişafında yerinin və rolunun anlaşılması və onların peşəkar inkişafında olan problemlərin mümkün olan həlli yollarının müəyyən edilməsi üçün



nəzəri və təcrübi tədqiqatların, pedaqoji təcrübənin ümumiləşdirilməsinin nəticələrinin, tarixi – pedaqoji tədqiqatların öyrənilməsi böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda bu problemin həlli üçün xarici ölkələrin müəllimlərinin peşəkar inkişaf təcrübəsinin öyrənilməli və ondan istifadə edilməlidir.

Müasir şəraitdə müəllimlər dərslərində daha çox informasiya-kommunikasiya texnologiyalarından (İKT), internet, distant təhsildən istifadə edirlər. Təhsildə belə yanaşmalar mükəmməl bacarıq tələb edir. Məsələn, Macarıstan, Fransa, İtaliya, İrlandiya və digər Avropa ölkələrində müəllimlərin İKT bacarıqların olması orta və ali məktəblərdə mütləq tələbdir. Beləliklə, bir çox əlavə təhsil müəssisələrində müəllimlərin peşəkar inkişafları üçün və iş yerlərində İKT proqramlarının tədrisi proqramları, tədris planları hazırlanmışdır.

Son illərdə Finlandiyada təcrübənin paylanmasına əsaslanan yeni növ ixtisasartırma təlimləri çox inkişaf etmişdir. Bu təlimlərin əsas məqsədi odur ki, məktəb müəllimləri özlərinin gündəlik peşəkar fəaliyyətinə dair təcrübələrini universitet müəllimlərinə çatdırırlar və öz növbəsində universitet müəllimləri özlərinin tədqiqat işlərinin nəticələrinə əsaslanan fərqli təlim və metodoloji aspektləri özündə əks etdirən son tədqiqatlar barəsində məktəb müəllimlərinə məlumat verirlər.

Bu ideyanın əsas məqsədi qarşılıqlı seminarların və pedaqoji günlərin hər il birlikdə keçirilməsidir. Həm məktəb müəllimləri, həm də müəllim hazırlığı ilə məşğul olan universitet müəllimləri bu görüşlər də iştirakçı olmaqla yanaşı, həm də təlimçi olurlar. Məktəb müəllimləri bu seminar və məruzələrdə iştirak etməklə kreditlər əldə edə bilirlər, hansı ki bu onların dərəcəsi üçün vacibdir. Bu kreditlər həmçinin onların magistr təhsili üçün də istifadə oluna bilər və ya məcburi ixtisasartırma təlimlərini əvəz edə bilər.

Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya – kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur.

**Ədəbiyyat**

1.Вершловский С.Г. Как решаются сегодня проблемы профессиональной деятельности учителя. M., 2002.

2. Таратута Ю. Педагогическая приемка: учителя попали под скрытое распределение. URL : http://www.kommersant.ru/doc.aspx?DocsID=541509.

3. Bolam R. Teacher recruitment and induction // International Encyclopedia of Teaching and Teacher Education. Oxford, 1995.

**Уровень современного профессионализма учителей**
*Резюме*

Современная организация повышения квалификации педагогов характеризуется, во-первых, эпизодичностью включения в нее педагогов и, во-вторых, направленностью на их информирование о новом в педагогике, психологии и частных методиках. В связи с этим становятся весьма актуальными исследования, выявляющие условия, обеспечивающие постоянное положительное влияние системы повышения квалификации на профессиональный рост педагогов, поиск нового содержания повышения квалификации, его организационных форм, направленных на развитие личности педагога.

**The level of professionalism of teachers of modern requirements**
*Summary*

Modern organization of professional development of teachers is characterized, first, episodic inclusion of teachers and, secondly, aimed at informing them about the new pedagogy, psychology and individual techniques. In connection with this study are highly relevant, revealing conditions ensuring continuous positive effect of training on the professional development of teachers, the search for new training content, its organizational forms, designed to develop the personality of the teacher.

# YUXARI SİNİFLƏRDƏ MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ VƏ PEDAQOJİ ASPEKTLƏRİ

**Fərmayıl Əsgərov,**
*Naxçıvan Muxtar Respublikası Şərur rayonq Zeyvə məktəbi*

**Açar sözlər** : *müəllim, yuxarı sinif şagirdləri, tərbiyə prosesi, oxşama metodu, yeniyetmə*
**Ключевые слова**: учитель, старшеклассники, процесс воспитания, метод подражания, подросток.
**Key words**: teacher, upper class pupils, process of up-bringing, method of resembling, teenager

Müəllim-şagird münasibətləri heç də həmişə bərabər olmur. Yaş fərqi, həyat təcrübəsinin eyni olmaması, sosial fərq özünü göstərir. Bu görünməyən sədləri keçən müəllim özünü aldadıcı vəziyyətə qoyur, şagirdin gözləntilərini doğrultmur. Şagird tərbiyəçidə rəhbər, böyük qardaş, qayğısını hiss etmir.

Şagirdə şəxsi yanaşma – iki şəxsiyyətin qarşılıqlı münasibətidir. K.D. Uşinski yazırdı: «Tərbiyədə hər şey tərbiyəçinin şəxsiyyətinə əsaslanmalıdır, çünki tərbiyə gücü ancaq canlı mənbədən, insan şəxsiyyətindən süzülüb gəlir ».

Yuxarı sinif şagirdlərini müxtəlif şəraitlərdə, müxtəlif əhatədə – yaşıdları ilə və yaşlılarla münasibətini müşahidə etmək lazımdır. Onda müəllim şagirdin psixoloji portretini yarada biləcək. O, şagirddə gedən irəliləmələri və ya geriləmələri müşahidə edəcək.

Formalaşan şüur konkret misallara söykənən dayaq axtarır. Bu işdə liderə oxşama, onu yamsılama baş verir. Yamsılama, liderə oxşama üç mərhələdə baş verir.

- Birinci mərhələdə: hər hansı konkret hərəkətə oxşamaq, onun kimi hərəkət etmək durur.
- İkinci mərhələdə: yamsılamada misal ola biləcək hərəkətlə sonrakı hərəkət arasında əlaqə yarana bilər.
- Üçüncü mərhələdə: oxşamaq istəyənlə müstəqil hərəkətlər arasında sintez baş verir.

Yeniyetmə yaşı heç də sadəcə olaraq həyata hazırlıq fazası deyil. Yeniyetməlik illərinin xoşbəxt, yaradıcı keçməsi, müəllimlər ilə xüsusi münasibət şagirdin əhval-ruhiyyəsində əks olunur. O özünü burada tapır. Əksinə kiçik inciklikər, əzbərləmələr, sinifdə hakim olan birtərəfli ab-hava şagirdə mənfi təsir edir. o ruhdan düşür, məktəbi bitirdiyinə sevinir.

Yeniyetmənin şəxsiyyəti heç də birmənalı olmur. o, ziddiyyətli və dəyişkəndir.

Müəllimlərin ən tipik səhvlərindən biri şagirdin qəlbinin dərinliyinə nüfuz edə bilməməsidir. Şagirdə formal göstəricilərlə yanaşmasıdır. Dərsə gəlir, nizam-intizamlıdır, sakitdir və ya əksinə bu ənənəvi dərsin formallığı idi. Heç də sözəbaxan şagird həmişə təşəbbüskar olmur.

A.S. Makarenko yazırdı: «Əgər insan pis tərbiyə olunubsa tərbiyəçi günahkardır, yaxşı tərbiyə olunubsa o yenə də tərbiyəyə borludur».

Hər bir məktəbdə 20-30, bəzən 40-50 və ya daha çox müəllim olur. Lakin hər şagirdin qəlbində yalnız bir neçə müəllimin yeri olur. O da şagirdə şəxsiyyət kimi yanaşan, onun mənliyinə hörmət edən, nə istədiyini bilən müəllimlərdir.

Azərbaycan cəmiyyətində müəllim adından yüksək ad yoxdur. Biz öz biliyimizi, təcrübəmizi, savadımızı artıraraq bu adı layiqincə daşımalıyıq.



# MÜƏLLİMLƏRİN PEŞƏKAR İNKİŞAFINDA İKT- nin TƏTBİQİNİN ƏHƏMİYYƏTİ

**Vüsal Qasımov,**
*ARTPİ-nin elmi işçisi*
E-mail: vusal-qasimov-79@mail.ru

***Açar sözlər:*** *İKT təlimi, online təhsil, İKT-dən istifadə, müəllim təlimi, təlim yanaşmaları*
***Ключевые слова:*** *подготовка в области ИКТ, интерактивное обучение, использование ИКТ, педагогические, учебные подходы*
***Key words:*** *ICT training, online training, ICT use, teacher training, training approaches*

Tədris bizim cəmiyyətdə getdikcə ən çətin peşələrdən birinə çevrilir, haradakı bilik sürətlə genişlənir müasir texnologiyalar müəllimlərdən bu texnologiyalardan onların tədris prosesində necə istifadə etməyi öyrənməyi tələb edir. Yeni texnologiyalar müəllimlərin təlim ehtiyaclarının artırmasına baxmayaraq, onlar həmçinin bir sıra həlli yollarını da təklif edir. Bugünkü texnologiyalar tədris və öyrənmə üçün əsas vasitədir. Bu vasitələrdən səmərəli və məhsuldar istifadə etmək üçün , müəllimlərə bu texnologiyaları tətbiq etmək imkanlarını öyrənmək, təlim və sınaqdan keçirmək üçün vaxt lazımdır. İnformasiya və kommunikasiya texnologiyaları (İKT), müəllimlərin peşəkar inkişafı üçün daha çevik və effektiv yollarla təmin edə bilir və onları qlobal müəllim icmasına qoşulmasına imkan yaradır. Yalnız bundan sonra müəllimlər məlumat və yeni texnologiyalardan istifadəyə əmin ola bilər.

Müasir innovativ texnologiyaların inkişafı müəllim peşəsi üçün yeni imkanlar yaratmış lakin eyni zamanda müəllimlərə bu yeni texnologiyalardan onların tədris prosesində necə istifadə etməyi öyrənmək üçün tələblər qoymuşdur. Bu problemlər müəllimlərdən öz işlərini davam etdirərkən davamlı özlərini yenidən hazırlanmasını və yeni bilik və bacarıqları əldə etməsini tələb edir. Bu gün müxtəlif İKT vasitələri yalnız təlimin çatdırılması prosesini deyi , həm də özünü asanlaşdıra bilir. Bundan başqa, İKT təhsil və peşəkar inkişaf üçün beynəlxalq əməkdaşlıq və şəbəkəyə də kömək edə bilir. Multimedia poçt vasitəsilə video konfranslardan başlamış bir sıra İKT variantları var ki, müəllimlər problemlərinin həlli üçün onlardan istifadə edilə bilər.

Əslində, artıq bir faktdır ki, İKT bu gün müəllimlər üçün ömür boyu peşəkar inkişaf üçün daha çevik və səmərəli yolları təmin edir. Çünki sürətli İKT inkişafı, xüsusilə İnternet ənənəvi ilkin müəllim hazırlığı, eləcə də ixtisasartırma təlim müəssisələrində bütün dünyada təlimlərin strukturunda və məzmununda və kursların çatdırılması üsullarında sürətli dəyişikliklərə səbəb olmuşdur. Lakin, səmərəli yeni texnologiyaları özündə birləşdirən pedaqogika həm ilkin müəllim hazırlığı və həm də ixtisasartırma təhsil müəssisələrində çətin bir məsələ olmuşdur.

Araşdırmalar göstərir ki, İKT müəllimlərin öyrətmək yolunu dəyişdirə bilər ki, bu təlim daha çox tələbələrə dəstək olacaq yanaşmaların və ali məqsədin inkişafı üçün əməkdaşlığa əsaslanan fəaliyyətlərin təşviqində xüsusilə faydalıdır. Təlim və tədris prosesində İKT-nin əhəmiyyətini nəzərə alaraq, dünya ölkələrinin əksəriyyəti İKT müəllimi hazırlığı təliminin bir sıra forma və dərəcələrini müəyyənləşdirmişlər. Baxmayaraq ki, bir çox müəllimlər tədris və təlim prosesində texnologiyalardan səmərəli istifadə üçün onları hazırlayacaq adekvat təlimin olmamasını bildirmişlər, lakin dünyanın bir sıra ölkələrində müəllim hazırlamaq üçün texnologiyalardan səmərəli istifadə edən bir sıra səylər edildiyi görünür.

İKT-nin bir çox nümunələri, xüsusilə İnternet və onlayn kommunikasiya texnologiyaları var ki, müəllimlərin davamlı peşəkar inkişafına və şəbəkələrinə dəstək üçün istifadə olunur. Bir çox ölkələr müəllimlərin peşəkar inkişafını asanlaşdırmaq üçün onlayn mənbələr yaratmışlar hansı ki, bu peşəkar inkişaf onların gündəlik təcrübəsinin ayrılmaz hissəsi olmalıdır və internetdən istifadə müəllimlərin davamlı peşəkar inkişaf fəaliyyətlərini artırmasına, müəllimləri böyük müəllim icmaları ilə birləşməsinə və mütəxəssis qrupları ilə qarşılıqlı əlaqəsinə imkan verəcəkdir.

Böyük Britaniyanın Virtual Müəllim Mərkəzinin veb saytı "Karyera inkişafı" bölməsi yaratmışdır ki, bu da müəllimlərin davamlı peşəkar inkişafına dəstək olmaq üçün onları bir sıra təlim və tədris resursları və linklərlə təmin edir. "Dəstək Provayderlər" başlığı altında, məsələn,

müəllimlər peşəkar inkişafı üçün bir sıra resurslar tapa bilərlər, belə ki, İKT Dəstək Şəbəkə Rəhbərliyi kimi adlanan link İKT təminatı və təliminə asan girişi təmin edir. Müəllimlər həmçinin Yeni İmkanlar Fondu adlı linkdən istifadə edə bilərlər hansı ki, müəllim və kitabxanaçılar üçün İKT təlimini təmin edir. "Beynəlxalq Peşəkar İnkişaf" saytı müəllimlərə bütün dünyada olan təhsil ideyaları və ən yaxşı təcrübələri öyrənməkdə kömək edir. Böyük Britaniyanın Müəllim Şəbəkəsi, müəllimlər üçün müstəqil peşəkar assosiasiyası da həmçinin, müəllimlərin peşəkar inkişafını və milli və beynəlxalq müəllim şəbəkələrini dəstəkləyir.

Koreyanın EduNet şəbəkəsi 12-ci sinif tələbələri və müəllimlər üçün vahid təhsil internet xidmətidir və Koreya Təhsil və Araşdırmalar İnformasiya Xidməti tərəfindən idarə edilir. EduNet vasitəsilə, müəllimlər təlim müəssisəsi, məzmunu, təlimatçısı, nəşr ili və təlimin növünə görə materialları axtarış edə bilərlər və özünü-tədris üçün onlara yükləyə bilərlər. Bu online materialları fərdi təhsil üçün istifadə edilə bilər və ya təhsil müəssisələri tərəfindən təklif olunan online müəllim təlim kursları üçün öyrənmə resursları kimi istifadə edilə bilər.

Yuxarıdakı nümunələrə oxşar, ABŞ Müəllimlər Şəbəkəsi, ümummilli, qeyri-kommersiya təhsil təşkilatı, ictimai məktəb sistemi çərçivəsində peşəkarlıq və yaradıcılıq nümunəsi əsasında yenilikçi müəllimləri müəyyənləşdirir və birləşdirir. Bu şəbəkə tədris və şagird nailiyyətlərinin yaxşılaşdırılması üçün müəllim və təhsilverənlər arasında interaktiv əməkdaşlığı təşviq edir, onları özlərinin peşəkar inkişafının planlaşdırması üçün resurslar ilə təmin edir, qabaqcıl sinif müəllimləri işini yayır və lazım olan bilik və bacarıqlar ilə müəllimləri təmin etmək üçün çalışır. Beynəlxalq səviyyədə, Dünya Bankının Dünya İnkişaf Proqramı inkişaf etməkdə olan ölkələrdə İnternet bağlantısı və təhsil sahəsində İKT və digər texnologiyaların istifadə üçün müəllim, müəllim təlimçilər və tələbələr üçün təlimlər təşkil edir.

Müəllim təlimində İKT yanaşmaların təhlili göstərir ki, müəllim hazırlığı və peşəkar inkişafda İKT-nin qəbul edilməsinin bir sıra imkanları vardır. Ümumiyyətlə, bir çox dövlətlərin və müəllimlərin ixtisasartırma institutlarının təhsil və müəllim hazırlığında İKT-nin inteqrasiyasının əhəmiyyətini tanıdıqları görünür.

### Ədəbiyyat


1. Səfərəliyeva F. Q. Məktəb informatika kursunda proqramlaşdırmanın tədrisi: Ped.elm.nam. ... dis. avtoref. Bakı, 2007.

2. Апатова Н.В. Информационные технологии в школьном образовании. М.: Просвещение, 1994.

3. Бешенков С.А. Информатика и информационные технологии // Информатика: Еженед. прил. к газ. «Первое сентября», 1998, № 39


### Важность профессионального развития учителей в использовании икт


*Резюме*

Обучение становится одним из самых сложных профессий в нашем обществе, требующем от учителей правильное использование ИКТ технологий в своем преподавании. Информационные и коммуникационные технологии могут обеспечить более гибкие и эффективные пути профессионального развития учителей, повышения квалификации учителей, преподавателей и подключить к мировому сообществу учителей.


### The importance of teachers' professional development in the use of ict


*Summary*

Teaching is becoming one of the most challenging professions in our society where knowledge is expanding rapidly and modern technologies are demanding teachers to learn how to use these technologies in their teaching. Information and communication technology (ICT) can provide more flexible and effective ways for professional development for teachers, improve pre- and in-service teacher training, and connect teachers to the global teacher community.




# SƏRİŞTƏLİ MÜƏLLİM KADRLARININ HAZIRLIĞI TƏHSİLİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN AMİLİ KİMİ


**Yaqut Əzimzadə,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ARTPİ*
E-mail: reraro61@mail.ru



***Açar sözlər:** Təhsil, strategiya, müəllim, inovasiyalar, kurikulum*
***Ключевая слова:** Образование, стратегия, учитель, инновации, курикулум*
***Key words:** Education, strategy, the teacher, innovasi, kurikulum*


Səriştəli müəllimin əsas keyfiyyətləri hesab olunan ilk növbədə onun uşaqlara məhəbbəti, onların səviyyəsinə enib onlarla düzgün ünsiyyət mədəniyyəti və münasibətidir. Müəllimin yüksək əxlaqi keyfiyyətlərə, mənəvi zənginliklərə, milli-mənəvi və bəşəri dəyərlərə sahib olması, ixtisasını dərindən bilməsi onun peşə kompetensiyasının əsas tərkib hissəsidir. Strategiyada bu barədə bir daha xatırlanır: "...milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq" (1) təhsil işçilərinin qarşısına mühüm bir vəzifə kimi qoyulmuşdur.

Əlbəttə, burada müəllimin kommunikativ, akademik və didaktik qabiliyyətləri xüsusi yer tutur. Kommunikativ qabiliyyət müəllimin ünsiyyət mədəniyyəti, akademik qabiliyyət müəllimin ixtisas biliyinin dərinliyi, mükəmməlliyi, onun ümumi bilik və dünyagörüşü, didaktik qabiliyyət isə onun öyrətmə metodikasıdır. Strategiyada göstərilir: "Təhsilalanın savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından, tədris təcrübəsindən və peşəkarlıq səviyyəsindən xeyli asılıdır" (1).

Təhsilin məzmununun yeniləşməsində müəllimin akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların, səriştənin vacibliyi, müəllimin öyrətmə qabiliyyəti önə çəkilir və deyilir: "Səriştə – əldə olunmuş bilik və bacarıqları praktiki fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabiliyyətidir"(1). Demək, bilikləri öyrətmək, tətbiq etmək səriştəli müəllimin mühüm keyfiyyəti, onun didaktik qabiliyyətinin əsas göstəricisidir. Necə ki demişlər: "Öyrədən insan bilən insandır".

Səriştəli müəllim anlayışına həmçinin müəllimin yeni təlim texnologiyalarından, innovativ metodlardan düzgün və səmərəli istifadə etməsi nəzərdə tutulur. Bu gün təhsilin keyfiyyəti bir çox cəhətdən yuxarıda deyildiyi kimi "necə öyrətmək" məsələsindən çox asılıdır. Bu baxımdan səriştəli müəllim innovasiyalara yiyələnməli və bunlardan yaradıcılıqla istifadə etməyi bacarmalıdır. Elə strategiyanın ikinci istiqaməti də təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət yeni pedaqoji texnologiyaların tətbiqini, innovativ metodlardan istifadəni özündə birləşdirir.

Bu istiqamət təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən, yeni pedaqoji texnologiyalardan fəal istifadə edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir. Burada təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı aparılan işlər, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasından istifadə xüsusi diqqətə alınır. Bu bir növ "necə öyrətmək" məsələsini özündə ehtiva edir. Strategiyada göstərilir ki, "Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal-interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur"(1).

Bu gün məktəblərimizdə tədris prosesində interaktiv təlim metodlarından istifadə getdikcə genişlənməkdə, artmaqda və öz səmərəsini verməkdədir. Avropa alimlərinin fikrincə, səmərəli, təkmil pedaqoji fəaliyyətin yarısı pedaqoji texnologiyaların, o biri yarısı isə müəllimin pedaqoji ustalığının payına düşür.

Səriştəli müəllimin mühüm keyfiyyətlərindən biri onun yaxşı idarəçi olmasıdır. Müəllimin hər şeydən əvvəl yaxşı idarəçi, yaxşı təşkilatçı olmalıdır. Təşkilatçılıq qabiliyyəti müəllimin pedaqoji qabiliyyətinin ayrılmaz tərkib hissəsidir.

Səriştəli müəllimin mühüm keyfiyyətlərindın biri onun daim oxuyub öyrənməsidir. Müəllim oxumasa, öyrənməsə öyrədə bilməz. Strategiyanın dördüncü istiqaməti ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasıdır.

Səriştəli müəllim daim oxuyub, öyrənməli, öz təhsilini, ixtisas biliyini müntəzəm olaraq dərinləşdirməlidir. Strategiyada göstərilir: "Bilik və bacarıqlarını davamlı artıran müəllimlər təhsilalanların nailiyyətlərinə əlavə töhfə verirlər"(1). Burada müəllimin səriştəlilik, tədqiqatçılıq bacarıq və qabiliyyətinin inkişaf etdirilməsi, müəllimlərin elmi-tədqiqat işlərinə cəlb edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu istiqamət həmçinin təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir. Həmçinin bu istiqamətdə göstərilir ki, "ömür boyu təhsilə artan tələbatın ödənilməsi üçün kitabxana fəaliyyətinin modernləşdirilməsi, rəqəmsal təhsil resurslarından istifadə imkanları genişləndirilməlidir..."(1) Bütün bunlar isə son nəticədə iqtisadi inkişafa səbəb olur. "İnsanın ömür boyu təhsil almaq tələbatının ödənilməsi isə təhsilin iqtisadi həyatda rolunu yüksəldən amillərdən ən mühümüdür" (1).

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası". "Xalq qəzeti", 2013, 25 oktyabr

2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dovlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı.

3 ."Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası". Azərbaycan Respublikası Prezidentinin 29 dekabr, 2012-ci il tarixli Fərmanı. "Xalq qəzeti", 2012, 30 dekabr

4. Abbasov Ə.M. Qiymətləndirmə konsepsiyası – konseptual sənəd. Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. "Təhsil sistemində monitorinq və qiymətləndirmənin yeri" mövzusunda respublika elmi-praktik konfransının materialları. Bakı, 27 aprel, 2012.

5. İbrahimov F. N., Hüseynzadə R.L. Pedaqogika: Dərslik 2 cilddə. I cild. Bakı: Mütərcim, 2013.



**Я. Мустафа**

**Подготовка компетентного учителя как основное условие повышения качества образования**

***Резюме***

В Государственной стратегии по развитию образования в Азербайджанской Республике, утвержденной Постановлением Президента Азербайджанской Республики Ильхамом Алиевым от 24 октября 2013 года, подчеркивается важность подготовки квалифицированных педагогических кадров, развитие их знаний и навыков. Государственная стратегия по развитию образования считает своими целями создание новой, передовой системы образования, соответствующей стандартам передовых образовательных систем современного мира, учитывающей индивидуальные способности обучаемых, отвечающей интересам личности.

Этот ценный документ является новым этапом развития системы образования в стране, методологической основой нашей системы образования и фундаментальным принципом науки Педагогики

**Y. Mustafa**

**Preparation of competent teachers as the main condition for improving the quality of education**

***Summary***

The article refers to the State Education Strategy in the Republic of Azerbaijan Presidential Decleration of Ilham Aliyev on October 24, 2013 issue of the development of education in the country. In this state strategic document in five areas that cover the development of education in the country, depending and expanding the content of education curriculum improvement, as well as scientific management of the education system and its modernization and financing institution. It's safe to say that this document is the methodological basis of our education system and the fundamental principle of pedagogy.




## MÜƏLLİM ŞƏXSİYYƏTİ VƏ ONA VERİLƏN TƏLƏBLƏR TƏHSİLİN MODERNLƏŞDİRİLMƏSİNİN ŞƏRTLƏRİNDƏN BİRİ KİMİ


**İsmət Məmmədova,**
*ARTPİ-nin böyük elmi işçisi*
E-mail: ismet.memmedova@mail.ru
**Zeynəb Hüseynova,**
*Naxçıvan Müəllimlər İnstitutunun laborantı*
E-mail:zizideniz@yahoo.com



***Açar sözlər:** təhsil sistemi, müəllim şəxsiyyəti, səriştəlilik, təlim, ustad müəllim.*
***Ключевые слова:** система образования, личность учителя, компетентность, обучение, мастеручитель*
***Key words:** the education system, the personality of teacer, competence, training, master teacher*


Təhsildə yeni yanaşmaların tətbiqi dünya təhsil sferasında təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir.

Ümumbəşəri dəyərlərə istiqamətlənən yeni təhsil sistemində müəllim şəxsiyyəti başlıca rol oynayır. Müasir dövrdə təhsilalanların şəxsiyyət kimi formalaşdırılasında və bütövlükdə cəmiyyətin inkişafında müəllim şəxsiyyəti əsas amillərdən biridir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" təhsilimizin inkişafındfa yeni bir mərhələ olduğu kimi, yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik səriştəli müəllim kadrlarının hazırlanması məsələsinə də xüsusi diqqət yetirmişdir.

Səriştəli, yüksək mənəvi, əxlaqi keyfiyyətlərə malik müəllimin ilk növbədə onun uşaqlara məhəbbəti, sevgisi, onların səviyyəsinə enib onlarla düzgün ünsiyyət mədəniyyəti və münasibətidir. Müəllimin yüksək əxlaqi keyfiyyətlərə, mənəvi zənginliklərə, milli mənəvi bəşəri dəyərlərə sahib olması, onun bir şəxsiyyət kimi formalaşmasında xüsusi yer tutur. Strategiyada bu haqda göstərilir:"...ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərəyiyələnən,müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq"(1). Orada deyidiyi kimi müəllim –təhsil prosesinin istiqamətləndiricisi və koordinatoru kimi fəaliyyət göstərməlidir.

Yunan filosofu Platon deyirdi ki, çəkməçinin bir cüt ayaqqabını pis tikməsi bir nəfərə ziyan vurur, müəllimin pis fəaliyyəti bütün cəmiyyətə ziyan vurur.

Müəllim ilk növbədə bilikli olmalı, zəruri bacarıqlara yiyələnməli, çevik təfəkkürlü, dəyərli, mənəvi keyfiyyətləri mənimsəmiş, yaradıcı tətbiq edən şəxs olmalıdır. Hər bir müəllim öz fəaliyyətinə yeni Təhsil Strategiyasının tələbləri baxımından yanaşmalıdır.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Müəllimlik şərəfli bir sənətdir. Azərbaycan müəllimləri bu yüksək adı şərəflə daşıyırlar"(2).

Özünə, şagirdlərinə, tələbələrinə hörmət edən, pedaqoji etika çərçivəsində onlarla davranan müəllim həyatda, cəmiyyətdə təkamül tapan hər bir fakt və hadisənin başlıca memarıdır. Nəriman Nərimanov bu haqda yazırdı: "...məktəbin tərəqqi tapması milli müəllimlərlə bağlıdır".

Yaradıcı müəllim müasir dərsə verilən tələbləri anlamalı, onun strukturunu mənimsəməli və təlim texnologiyalarına yüksək səviyyədə yiyələnməli, təlim prosesinə yeniliklər gətirmək həvəsi ilə çalışmalıdır.

Müəllimlər qarşısında qoyulan müasir pedaqoji-psixoloji tələblərin dəyişməsi onların fəaliyyət imkanlarının genişlənməsinə şərait yaradır. Müəllim yüksək insani keyfiyyətlərə, təlim mədəniyyətinə malik olmalı, ədalətli olmalı, şagirdlərlə münasibətdə şəraitə uyğun mexanizm tapmalı, dözümlü olmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
2. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516s

**И. Мамедова**

**Личность учителя и требования, предъявляемые к ней как важное условие модернизации образования**

***Резюме***

Образование это область, служащая развитию общества, в которой существует постоянная потребность. Наряду с модернизацией образования Азербайджана, усовершенствованием содержания и структуры образования, форм организации обучения, этот процесс связан так же с повышением уровня профессиональности учителей. В статье отмечается, что личность учителя в педагогическом процессе играет важную роль в воспитании учеников. В этом отношении характеризуются компоненты, которые в совокупности составляют личность учителя. Отмечается права и задачи учителя в общей системе воспитания студентов.

**İ. Mammadova**

**The personality of the teacher and the requcrement to it as an important condition for the modernization of education**

***Summary***

Education is an area that serves as the development of society in which exists a constant need. Along with the modernization of education in Azerbaijan, improving the content and structure of education, forms of organization learning, this process is associated with increasing the lever of teachers professionalism. In article it is noticed, that the person of the teacher in pedagogical process plays the important role in education of students. Components which in aggregate make the person of the teacher are in this respect characterized. It is marked the rights and problems of the teacher in the general educational system of students.

# MÜƏLLİM KADRLARININ HAZIRLIĞINDA PEDAQOJİ TƏCRÜBƏNİN ROLU

**Leyla Həsənova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*BDU*
E-mail: reraro61@mail.ru

*Açar sözlər: pedaqoji təcrübə, müəllim hazırlığı, səriştəli müəllim, tələbə fəallığı, kurikulum*
*Ключевые слова: педагогическая практика, подготовка учителя, компетенции учителя, активность студента, куррикулум*
*Key words: teaching practice , teacher training , teacher competence , the activity of the student , Curriculum*

Səriştəli, peşəkar müəllim kadrlarının hazırlığında pedaqoji təcrübənin böyük əhəmiyyəti vardır. Son illər pedaqoji təcrübənin müasir tələblərə uyğun səviyyədə həyata keçirilməsi, onun praktik müəllim hazırlığındakı rolunun artırılması məqsədi ilə respublika Təhsil Nazirliyi tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Lakin, bütün bunlara baxmayaraq yenə də mürəkkəb pedaqoji proses olan pedaqoji təcrübənin təşkili, onun nəzəri məsələləri, keçirilməsi qaydaları, metodikası haqqında yazılara, metodik göstərişlərə ehtiyac duyulmaqdadır.

Pedaqoji təcrübə yüksək ixtisaslı pedaqoq hazırlığının ümumi sisteminin ən mühüm komponentlərindən birini təşkil edir. Pedaqoji təcrübənin əsas məqsədi ixtisası üzrə təcrübə keçən tələbə-təcrübəçidə müəllimə xas olan peşə qabiliyyət və bacarıqlarını praktik olaraq formalaşdırmaq, onlara pedaqoji prosesin səciyyəvi cəhətlərini, xüsusiyyətlərini təcrübə prosesində anlatmaq və pedaqoji fəaliyyətin əsas funksiyalarını aşılamaq təcrübə qazanan tələbəni peşəkar müəllimlik fəaliyyətinə istiqamətləndirməkdən ibarətdir.



Pedaqoji təcrübənin əsas vəzifəsi tələbələrin ali və orta ixtisas təhsili müəssisələrində aldıqları nəzəri bilikləri möhkəmləndirmək və dərinləşdirməkdən, təcrübə zamanı aparılan təlim-tərbiyə işlərində bunlardan yaradıcılıqla istifadə etməkdən, tələbələrdə uşaqlar və yeniyetmələrlə aparılan təlim-tərbiyə işlərini müşahidə və təhlil etmək bacarığı aşılamaqdan, psixologiya, pedaqogika, metodika, fiziologiya, gigiyena fənlərinə aid biliklərə istinad etməklə və şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə almaqla tələbələrə təlim-tərbiyə işi aparmağı öyrətməkdən, müasir təlim üsullarını, ixtisas fənni üzrə yeni pedaqoji texnologiyaları tətbiq etmək bacarığı formalaşdırmaqdan ibarətdir.

Pedaqoji təcrübə nəzəri təlimi həyata, praktik işə, müəllimlərə yaxınlaşdırır; konkret şəraitdə tələbələrdə fəallığı, pedaqoji peşə qabiliyyət və maraqlarını inkişaf etdirir; məktəb kollektivində nəzəri bilikləri əməli işlə ümumiləşdirərək, hər bir tələbədə-gələcək peşəkar müəllimin ən mühüm pedaqoji bacarıq və qabiliyyətlərini özündə birləşdirir. Belə ki, "Müəllimin səmərəli fəaliyyəti üçün başlıca amillərdən biri onun ixtisas uyğun və ümumi biliklər sisteminə yiyələnməsidir. Bura ixtisas biliyi ilə bərabər pedaqoji, psixoloji, fəlsəfi, metodiki biliklər daxildir. Fəaliyyət prosesində həmin biliklər vəhdətdə bir-birilə əlaqəli şəkildə istifadə olunur (3, 154-155).

Pedaqoji təcrübə prosesində tələbələrin auditoriya şəraitində aldıqları nəzəri biliklər möhkəmlənir və dərinləşir, məktəbdə tədris-tərbiyə işinin təşkili, keçirilməsi təcrübəsi praktik olaraq öyrənilir. Pedaqoji təcrübə müddətində təcrübəçi tələbə-gələcək müəllim təlim-tərbiyə prosesinin müxtəlif tərəflərini müşahidə və təhlil edir, qabaqcıl müəllimlərin və sinif rəhbərlərinin təcrübəsi ilə tanış olur, sinifdənxaric məşğələləri, uşaqlarla tərbiyəvi işi və digər tədbirləri həyata keçirir.

Pedaqoji təcrübə prosesində tələbələri müasir pedaqoji elmin və təcrübənin problemlərinin həllinə cəlb etmək, ali məktəbdə əldə olunmuş nəzəri bilikləri tətbiq etməyi və eyni zamanda, yaxşı müəllimlərin təcrübəsini mənimsəməyi onlara öyrətməkdir. Pedaqoji təmayüllü bütün ali məktəblərdə tələbələrin pedaqoji təcrübəsi təşkil olunur və bu işin təşkilinə kifayət qədər saat ayrılır.

Pedaqoji təcrübənin səmərəliliyinin yüksəldilməsi məsələləri, müəllim hazırlığı sistemində onun rolu və yeri haqlı olaraq pedaqogika elminin diqqətini getdikcə daha çox cəlb edir. Pedaqoji təcrübə ilə təlim prosesi arasındakı qarşılıqlı əlaqədə olan müxtəlif təlim- tərbiyə təşkili formaları məsələsini həll edərkən əsas diqqəti peşəkar müəllim hazırlığına yönəltmək lazımdır. Pedaqoji təcrübənin nəticələri yalnız təşkilatçıların müvəffəqiyyətli fəaliyyətindən deyil, həm də tələbələrin özlərinin fəallığından və təşəbbüskarlığından çox asılıdır. Pedaqoji təcrübənin keyfiyyəti tələbələrin ictimai-siyasi, psixoloji-pedaqoji və metodik biliklərinin həcmindən və keyfiyyətindən, onların peşəkarlıq və mədəni səviyyəsindən, işdə müəllim üçün zəruri olan bacarıq və vərdişlərə yiyələnmə dərəcəsindən birbaşa asılıdır. Pedaqoji təcrübənin səmərəliliyi bir çox cəhətdən sinif rəhbərinə köməkçi kimi təhkim edilmiş tələbənin həmin sinif qarşısında duran konkret tərbiyəvi vəzifələrin mahiyyətini öyrənmək və həll etmək bacarığı ilə də müəyyən olunur.

**Ədəbiyyat**

1. Heydər Əliyev. Müəllimlərin Birinci Qurultayında nitq. 11 İyun 2008-ci il.
2. Respublika prezidentinin 24 oktyabr, 2013-cü il sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Xalq qəzeti", 2013, 25 oktyabr
3. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika. Dərslik. 2 cilddə. Bakı: Mütərcim, 2013.
4. "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası" (Milli Kurikulum).

**Л. Гасанова**

**Роль педагогической практики в подготовке учительских кадров**

***Резюме***

Проблема подготовки педагогических кадров — одна из важнейших в современной системе педагогического образования. Важным условием формирования профессиональной подготовки студентов является педагогическая практика. Назначение практики студентов заключается в подготовке к основным видам профессиональной деятельности, реализации приобретенных профессиональных знаний, навыков, умений и профессиональной адаптации, т.е. вхождения в профессию, освоения социальной роли, профессионального самоопределения, формирования позиций, интеграции личностных и профессиональных качеств.

L.Hasanova

**The role of teaching practice in teacher training**

***Summary***

The problem of teacher training – one of the most important in the modern system of teacher education. An important condition for the formation of students' professional training is a teaching practice. Appointment of practice is to prepare students to basic professional activity, the implementation of the acquired professional knowledge, skills, abilities and professional adaptation, ie, entry into the profession, the development of the social role, professional self-formation position, the integration of personal and professional qualities.

# ABŞ-da AZƏRBAYCAN LOBBİSİNİN FORMALAŞMASI

**Aygün Məmmədova,**
*ADPU*
E-mail: *Kamandari_a@mail.ru*

*Açar sözlər: Azərbaycan, ABŞ, lobbi, prioritet, diaspora, struktura*
*Ключевые слова: Азербайджан, США, лобби, приоритет, диаспора, структура*
*Key words: Azerbaijan, USA, lobby, priority, diaspora, structure*

Lobbi anlayışı 1553-cü ildə İngiltərədə "gözətçi meydançası" kimi işlədilirdi. Bu müddətdən xeyli 100 il sonra parlamentin dəhliz və vestibülündə icmalar palatasının nümayəndələrinin qeyri-rəsmi görüşləri̇lə müşahidə edilən lobbi siyasiləşmiş fəaliyyətə çevrilmişdi [4, s16]. Diasporun təşkilatlanması nəticəsində lobbi yaranır. Lobbizm bilavasitə öz dövlətinin yüksək səviyyəli elitasına məxsusdur. Hələ qədimdən xalqların müxtəlif ölkələrə səpələnməsi nəticəsində bir ərazidən olan insanların birliyi formalaşmışdır ki, bu da "diaspor" termininin yaranmasına səbəb olmuşdur. Diaspor xalqın və ya etnik birliyin müəyyən hissələrinin mənsub olduğu ölkənin hüdudlarından kənarda yaşaması deməkdir. [5, s67] . Əslində bu elə bil bütöv bir güzgünün sınması nəticəsində onun parçalanmış hissələrinin ayrı-ayrı ərazilərə dağılmasına, səpələnməsi, sonra onun zaman keçdikcə bütöv qalmış hissəsinin öz digər hissələrini axtarmağa başlamasına bənzəyir. Hər bir, dövlət o cümlədən Azərbaycan Respublikası öz xaricdə yaşayan soydaşlarının vasitəsilə xarici dövlətlərlə əlaqələrini möhkəmləndirir.

Lobbi diasporun siyasiləşmiş formasıdır. Diaspor əgər xaricdəki həmvətənlilərimizin ən adi üzvlərini öz sıralarına cəlb edirsə, lobbi belə struktur deyildir. Lobbizm ilk növbədə həmin insanların ən qabaqcıl siyasi cəhətdən hazırlıqlı, hadisələrin gedişindən xəbərdar olub, dərhal lazımi tədbir görən, yaşadığı dövlətin qanunverici və icraedici orqanlarına təsir etmək imkanlarına malik olan elit təbəqəyə mənsub şəxslərdən ibarət strukturdu.

"Lobbi" termini ABŞ-da 1829-cu ildən etibarən daha geniş miqyasda istifadə edilməyə başlanmışdı. Amerikada lobbiçiliyin gündəmə gəlməsi XIX əsrin II yarısına təsadüf edir. ABŞ prezidenti Qrant işdən sonra iqamətgahı ilə üz-üzə yerləşən qəlyanaltıya düşərək onun vestibülündə dincəlməklə qeyri-rəsmi görüşlər keçirirdi. Amerika prezidentinin əyləncəyə meyilli olmasından xəbər tutan ictimaiyyətin nümayəndələri otelin nəzdində yerləşən bu məkana gəlməklə, öz problemlərindən, çətinliklərindən danışmaqla prezidentdən kömək gözləyirdilər [4, s16]. Bu işdən xaric qeyri rəsmi görüşlər siyasi xadimlər arasında əlaqə xarakteri olmaqla yanaşı siyasət tarixində mürəkkəb taleli siyasi hadisə olan lobbizmin bünövrəsinin qoyulması idi.

Hazırda Amerikada yaşayan azərbaycanlıların 91 faizi özlərinin mənşəyini Cənubi Azərbaycan, 9 faizi isə Şimali Azərbaycandan hesab edir [1, 220]. Birləşmiş Ştatlarda mövcud Azərbaycan diaspor assosiasiyaları, icmaları qarşısında duran əsas məqsəd və vəzifələr tərəflər arasında diaspor münasibətlərinin, lobbiçilik fəaliyyətinin genişlənməsinə, perspektivli çoxtərəfli tərəfdaşlığın inkişafına dəstək vermək, Amerika ictimaiyyətinə Azərbaycanın qədim tarixi, müasir



ictimai-siyasi həyatı [6, 9], zəngin mədəniyyəti və tolerant ölkə olması barədə məlumatlandırmaqdan ibarətdir. Burada diaspor həm də lobbiçilik fəaliyyətini həyata keçirir.

Azərbaycan diasporunun güclənib lobbiyə çevrilməsində ümum milli liderimiz Heydər Əliyevin xüsusi xidmətini qeyd etmək lazımdır. Bu işdə Heydər Əliyevin xarici ölkələrə, xüsusilə də ABŞ-a səfərləri müsbət rol oynamışdır. Ulu öndər ABŞ-a bütün səfərlərində bu ölkədə yaşayan həmvətənlilərimizlə görüşmüş və onları Azərbaycan həqiqətlərini dövlət səviyyəsində Amerikalılara çatdırılması işində fəal iştirak etmək, daha mütəşəkkil qüvvə kimi onlara fəaliyyətlərində mübariz olmağı tövsiyə etmişdir [2, 692]. O, öz çıxışlarında qeyd edirdi ki, hər bir azərbaycanlı harada olmasından asılı olmayaraq, hiss etməlidir ki, azərbaycanlıdır və dövlətinin maraqları onun amalıdır və bunları qorumaq, xidmətində durmaq onun vəzifəsi, vətəndaşlıq borcudur.

Lobbiçilik siyasətdə hər zaman mütərəqqi xarakter daşımır. Lobbi bəzən dünyanın müxtəlif yerlərində baş verən münaqişələrin dinc yolla nizamlanmasında müəyyən təsir qüvvəsinə malik olsa da, digər məsələlərin həllində mənfi təsir də edə bilər. Məsələn: ABŞ-da yaşayan erməni lobbisinin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi bu məsələni nizama salmaq əvəzinə daha da gərginləşdirir. Azərbaycan lobbisinin fəaliyyəti isə ona cavabında hələ ki, kifayət qədər güclü deyildir. Azərbaycan diasporunun güclənib lobbiyə çevrilməsində Ümummilli liderimiz Heydər Əliyevin xüsusi xidmətlərini qeyd etmək lazımdır. 1997-ci ildə Dünya Azərbaycanları Konqresinin I qurultayı 600-dən çox nümayəndənin iştirakı ilə ABŞ-ın Los-Anceles şəhərində keçirilmişdir [8, Vikipediya: Azərbaycan diasporu 31/07/10]. Konqresin əsas məqsədlərindən biri xaricdəki ictimai birlikləri, təşkilatlarımızın pərakəndəliyinin aradan qaldırılıb nizamlamaq və diasporun əsasını təşkil edən lobbiçilik proqramının hazırlanması idi. DAK-ın Qurultaylarında müzakirəyə çıxarılan məsələlər soydaşlarımızın təşkilatlanması işində böyük bir addım olmuşdu. 2002-ci il 5 iyul tarixli prezident Heydər Əliyevin "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" fərmanı və 2008-ci il noyabrın 19-da Azərbaycan Respublikasının prezident İlham Əliyevin imzaladığı sərəncamla Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında məhz Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması ABŞ-da soydaşlarımızın təşkilatlanması prosesini sürətləndirdi. Belə ki, 2002-ci ilə kimi xaricdəki təşkilatlarımızın sayı 218 idisə, hal-hazırda bu qurumların sayı 420-ni keçmişdir [9, preslib.az].Onlardan artıq 22-si Amerikada Azərbaycan təşkilatı kimi qeydiyyatdan keçmişdir [6, 38]. Məhz bu qurumların birgə səyi nəticəsində Azərbaycan həqiqətlərinin ABŞ ictimaiyyətinə çatdırılması ilə bağlı xeyli iş görülmüşdür. Xüsusən də, ölkəmizdə törədilən bir çox tarixi hadisələr - Ermənistanın Dağlıq Qarabağ ətrafında apardığı təcavüzkarlıq siyasəti, 1990-cı il yanvarın 20-də Bakıda ruslar tərəfindən törədilən faciə, Xocalıda 1992-ci il fevralın 26-da baş vermiş qırğınlar, ermənilər tərəfindən torpaqlarımızın 20 faizinin işğal edilməsi, bir milyon vətəndaşımızın öz doğma yurdlarından qaçqın düşməsi, qürbətdəki soydaşlarımızın daha da möhkəm olub, birgə fəaliyyət göstərməsinə səbəb olmuşdu. ABŞ-da Azərbaycan Amerika Alyansı (AAA) qeyri-hökumət təşkilatının keçirdiyi ən iri miqyaslı tədbirlərdən biri 2012-ci ilin fevralında Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı təşkil etdiyi kampaniyadır [7, diaspora.gov.az]. Bu kampaniya yüz milyonlarla insanı əhatə etmiş və ümumilikdə silsilə tədbirlərdən ibarət olmuşdur.

**Ədəbiyyat**

1. Arzumanlı. V. Azərbaycan diasporu. Bakı: Qartal-2001.
2. "Azərbaycan diasporu" ensiklopedik məlumatlar toplusu. Bakı, 2012.
3. Azərbaycan diasporu: böyük yolun başlanğıcı. Bakı: Çaşıoğlu, 2006.

**А.Маммедова**

**Формирование азербайджанской лобби в Соединенных Штатах**

***Резюме***

В статье отражается формирование лобби в США. Формирующиеся политические организации в Соединенных Штатах распространяет ложную информацию о нашей стране. В статье отмечается актуальность этого вопроса.

A.Mammedova

**The formation of azerbaijan lobby in the United States**

*Summary*

The formation of the lobby in the US is reflected in the article. The article noted the urgency of the issue. Higher-level elite lobbying their state, if not the best in the lobby of the Diaspora has affected him focus on it.

The lobby in the United States as political organizations formed by spreading the truth about our country, denies false information.

# I DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ RUS-ERMƏNİ HƏRBİ-SİYASİ BİRLİYİNİN YARADILMASI

**P. Səfərov**
*dosent*
**Afaq Abdullayeva,**
*ADPU*
E-mail: *aafaq@bk. ru*

***Açar sözlər:** Osmanlı imperiyası, Şərqi Anadolu, "Erməni məsələsi", Qərb ölkələri, Rusiya*
***Ключевые слова:** Османская империя, Восточная Анатолия, «армянский вопрос», страны Запада, Россия*
***Key words:** The Ottoman Empire, East Anatolia, "The Armenian issue", countries of the West, Russia*

XIX əsrin 90-cı illərində Şərqi Anadoluda iri dövlətlərin, o cümlədən daşnaq erməni millətçi burjuaziyasının maddi və mənəvi dəstəyi sayəsində hökumətə qarşı baş vermiş qiyamların uğursuzluqla nəticələnməsi Daşnaqsütyun partiyasını apardığı siyasətinə yenidən baxılmasını labüd edirdi. Partiya sultan II Əbdülhəmid hakimiyyətinə qarşı mübarizə aparan ümumtürk inqilabi hərəkatında dayaq axtarmağa başladı. Ümumtürkiyə inqilabı hərəkatına rəhbərlik edən gənc türklərlə saziş bağlandı. Ermənilərin gənc türklərlə ilk əlaqələri 1895-ci ilə təsadüf edir. O vaxt gənc türklərin liderləri – Əhməd Riza və Murad Mizancı Londonda Əbdülhəmidə qarşı vahid cəbhə yaratmaq barədə danışıqlar aparılması məqsədi ilə qçaqçılarla ünsiyyət qurmağa can atırdılar(4, 94-95). Lakin gənc türklər erməni terrorçuları ilə hər hansı bir ümumi platforma tapmaq üçün çox səy göstərdilər. Məqsəd isə ölkədə sultan əleyhinə cəbhəni gücləndirməkdən ibarət idi.

Qeyd etmək lazımdır ki, Sultan II Əbdülhəmid hakimiyyətinə qarşı Türkiyədəki bütün güclər bir ittifaqda birləşmişdilər. Bu işdə əsas hərəkətverici qüvvə qərb dövlətləri və erməni komitəçiləri idi. Bu qüvvələr içərisində ən fəalı İttihad və Tərəqqi partiyası idi. Partiyanın təsisçilərindən olan Abdullah Cevdet bəy qısa vaxt ərzində partiyanın Nizamnaməsini işləyib hazırladı (1, 65).

4 fevral 1902-ci ildə Parisdə toplanan Gənc türklərin I konqresində İttihad və Tərəqqi partiyasının 2 nüfuzlu lideri Prens Səhabəddin və Əhməd Rza bəy başda olmaqla türk nümayəndə heyəti də geniş tərkibdə iştirak edirdi. Çıxarılan qərarlardan birində inqilabın uğurla nəticələnməsi üçün əcnəbi dövlətlərin müdaxiləsinə ehtiyac duyulduğu bildirilirdi. Erməni nümayəndə heyəti bu qərarın qəbul edilməsində canfəşanlıq etməklə yanaşı partiyanın liderlərindən olan Prens Səhabəddinin də yardımından faydalanmaq niyyətində idilər (1, 65). Əgər gələcəkdə bu proqram yerinə yetirilərdisə ermənilər türklərdən öncə muxtariyyət, sonra isə müstəqil Ermənistan dövləti yaradılmasının razılığını alacaqdılar. Bu baxımdan ermənilər birmənalı olaraq Prens Səhabəddinin proqramını dəstəkləyirdilər. Partiyanın təsisçilərindən olan Əhməd Rza bəy və gənc türklərin əksəriyyəti ölkəni parçalamağa sürükləyən belə bir qərarın qəbul edilməsi ilə razılaşmadılar. Bunun əksinə olaraq partiyanın ideoloqlarından olan Prens Səhabəddin erməniləri birmənalı olaraq dəstəkləyirdi. Bir qrup gənc türk Prens Səhabəddinin, digər bir qrup isə Əhməd Rza bəyin ətrafında toplaşmağa başladılar. Həm Əhməd Rza bəy, həm də Prens Səhabəddin tərəfindən qəbul edilən təklifə baxılması üçün 27 dekabr 1907-ci ildə Parisdə Gənc türklərin II konqresinin açılması məqsədəuyğun hesab edildi. 27 dekabrda toplanan konqresdə işirak edən ermənilər tutduqları qeyri-



konstruktiv mövqedən "əl çəkərək" Osmanlı imperatorluğunun mülki və siyasi müstəqilliyini qəbul edir, digər tərəfdən xidmət üçün əsgər verməkdən və qiyamlardan müvəqqəti də olsa "imtina etməli" olurdular. Bu növbəti erməni hiyləsindən biri idi (1, 66).

Gənc türklərlə daşnaklar arasında aparılan intensiv danışıqlarda xüsusilə, 2 məsələdə fikirlər haçalanırdı. Birincisi, ermənilərin elə ilk vaxtlardan bildirdikləri və hərəkatlarının da ana qayəsini təşkil edən muxtariyyət və müstəqil erməni dövlətinin yaradılması haqqında məsələ idi. İkincisi, Avropa ölkələri və Rusiyanın köməyinə arxalanaraq Osmanlı imperiyası daxilində hərəkət etmək fikrini irəli sürsələr də, gənc türklər isə Avropa ölkələri və Rusiyanın Osmanlı imperiyasının parçalanması və məhv edilməsinə yönəlik düşmən münasibətinə qatı etirazlarını bildirdilər.

Sultan II Əbdülhəmidin silah idxalına qoyduğu qadağanın İttihad və Tərəqqi hökuməti tərəfindən aradan qaldırılması ermənilərin sürətlə silahlanmasına yol açdı. İstanbulda 31 mart hadisəsinin ertəsi günü Adanada ermənilərin müsəlman türklərinə qarşı hücumları intensiv hal almağa başladı. Hadisə hər zaman olduğu kimi bu dəfə də Avropaya "müsəlmanlar erməniləri qətlə yetirir", "ermənilərin qanı axıdılır" şəklində çatdırıldığından İttihad və Tərəqqi hökuməti təlaşa düşdü. Adanada baş vermiş hadisələrdən dərhal sonra Qərb dövlətləri, o cümlədən Rusiya yenidən "İslahat məsələsi"ni gündəmə gətirdi.

XIX əsrin sonlarından etibarən iri dövlətlər tərəfindən ortalığa atılmış "İslahat məsələsi" XX əsrdən etibarən daha da dərinləşərək Türkiyənin baş ağrısına çevrilmiş oldu. Osmanlı imperiyasına qarşı "erməni məsələsi"ndən diplomatik təzyiq vasitəsi kimi istifadə edən Rusiyanın hakim dairələri 1913-cü ilin iyun ayında Şərqi Anadoluda "yaradılacaq" erməni "muxtariyyəti" layihəsini işləyib hazırladılar. Hazırlanmış yeni layihəyə "rus işi" adı verildi. Çünki layihənin əsas müddəaları Rusiyanın İstanbuldakı səfirliyinin əməkdaşı A.Mandeşltam tərəfindən hazırlanmışdır. İslahat layihəsi 1913-cü ilin iyun ayının 8-22-də Osmanlı hökumətinə təqdim olundu. Layihədə Şərqi Anadoluda yaradılacaq vilayətlərdə bölgü sistemi ləğv edilməklə Rusiyanın himayəsi altında "Erməni vilayəti"nin yaradılması nəzərdə tutulurdu. Daha dəqiq desək, Ərzurum, Van, Bitlis, Diyarbəkr, Harput və Sivasın bir qismi "erməni vilayəti" adı altında vahid mərkəz halına gətirilməklə yanaşı, həmçinin vilayətin başına da böyük dövlətlərin istəyi ilə sultan tərəfindən 5 il müddətinə müsəlman və ya xristian baş müfəttişin təyin edilməsi planlaşdırılırdı. Sənədə görə valiyə idarə, mülki, ədliyyəyə dair geniş səlahiyyətlər verilməli, vilayətdə rəsmi yazışmalar türk və erməni dillərində aparılmalı idi. Layihə türk hökumətinə təqdim olunduqdan sonra altı dövlət (İngiltərə, Rusiya, Fransa, Avstriya-Macarıstan, Almaniya, İtaliya) səfirlərinin müzakirəsinə verildi. Rusiya İstanbuldakı elçisinə Almaniya ilə münasibətlərin yenidən araşdırılmasına dair direktiv imzaladı. Hər iki elçi arasında aparılmış müzakirələrə sonradan digər dörd dövlətin (İngiltərə, İtaliya, Avstriya-Macarıstan, Fransa) də qoşulması sonda 22 sentyabr 1913-cü ildə müqavilə bağlanması ilə nəticələndi. Hazırlanmış yeni layihəyə görə aparılacaq islahat yalnız

ermənilərin məskunlaşdıqları Şərqi Anadolu ərazilərinə deyil, bütün imperiya ərazisinə şamil ediləcəkdi(1, s.69)

16 dekabr 1913-cü ildə Sədrəzəm erməni islahatında xüsusilə fəal görünən rus və alman elçilərinin təzyiqlərini aradan qaldırmaq üçün hər iki tərəfi qane edəcək yeni bir sənədin hazırlanmasını öz üzərinə götürdü. Amma bütün bunlara baxmayaraq, rus tərəfi qəbul edilmiş sənədin natamam olduğunu və yenidən işlənməsini bildirməklə yanaşı, alman tərəfinin də rus mövqeyindən çıxış etməsinə çalışırdı. Rus hökuməti 14 yanvar 1914-cü ildə Fransa, İngiltərə və Almaniyaya göndərdiyi bildirişdə "artıq Şərqi Anadolu torpaqları "Ermənistan" şəklində göstərilməklə yanaşı, bölgədəki siyasi durumun qənaətbxş olmadığını bildirərək yaranmış qarşıdurmalara Osmanlı hökumətinin göz yummasını vurğulayırdı". Bu bildirişdən sonra Fransa hökuməti bölgədəki vəziyyəti yerindəcə araşdırmaq üçün Ərzincandakı baş konsulluğa tapşırıqlar verdi (1, 70)

Hakimiyyət daxilində baş vermiş qarşıdurma və iri dövlətlərin durmadan artan təzyiqləri və digər məsələlər İttihad və Tərəqqi hökumətini Rusiya ilə münasibətləri daha da yumşaltmağa sövq edirdi. Belə ki, 8 fevral 1914-cü ildə Xarici İşlər Nazirliyinin səlahiyyətlərini də icra edən Sədrəzəm Seyid Həlim paşa ilə Rusiyanın İstanbuldakı məsləhətçisi arasında müqavilə imzalandı. Bu sənəddə nəzərdə tutulan dil məsələsi, rus sənədindəkinə nisbətən bir az yumşaldılmışdı. Rus sənədində Şərqi Anadolu üçün məhəlli əsgərlik sisteminin tətbiq edilməsi nəzərdə tutulurdu. Yəni hər kəs yaşadığı

ərazinin sərhədləri daxilində əsgəri xidmətini yerinə yetirməli idi. Hökumət bunu yalnız Şərqi Anadoluya deyil, bütün imperiya ərazisinə şamil etdi. 7 avqust 1913-cü ildə imzalanmış sənəddə hər kəsin yaşadığı yerdə əsgəri xidmət etmələri əsas götürülürdüsə, rus sənədində bu kimi məsələlər nəzərdə tutulan səviyyədə qabardılmırdı. Bu sənəddə həmçinin sultan II Əbdülhəmid zamanında Şərqi Anadolu ərazilərində yaradılmış və tərkibi silahlı kürd birləşmələrindən təşkil edilmiş Həmidiyyə alaylarına ermənilərin də daxil edilməsi və digər məsələlər nəzərdə tutulurdu.

Yaranmış şəraitdə erməni kilsəsi də fəallığını artırmışdı. Bu zaman ermənilərin katalikosu Qafqaz canişini İ.İ. Vorontsov-Daşkov ilə görüşdü. O, Sankt Peterbuqa gedib imperator II Nikolay ilə görüşmək istədiyini bildirərək qəbul olunması üçün kömək göstərilməsini xahiş etdi. Canişin onu görüşdən çəkindirərək buna lüzum olmadığını, özünün məsələ barədə imperatora yazacağını dedi. Həqiqətən də İ.İ.Vorontsov-Daşkov 1912-ci il oktyabrın 10-da imperator II Nikolaya bu barədə bir məktub yazdı (3, 206)

Cənubi Qafqaz canişini İ.İ.Vorontsov-Daşkov çar Nikolay Romanova yazdığı 10 oktyabr 1912-ci il tarixli məktubunda, I Pyotr dövründə bünövrəsi qoyulmuş olan siyasətə təkrar geri qayıtmağın vacibliyini xatırladaraq, "əzəli rus siyasətinə geri qayıdaraq Türkiyə ermənilərinə hamilik etməyin vaxtı gəlmişdir", deyə açıqca qeyd etmişdi (2, 95) Canişin yazırdı ki, ermənilər həmişə bizə xidmət etmişlər. Qeyd edirdi ki, biz Berlin traktatına əsasən türk hökumətindən ermənilərə dair tələblər irəli sürə bilərik, erməniləri əlimizdən buraxa bilmərik. Vandakı bütün ermənilər, daşnaklar istisna olmaqla Rusiyanın tərəfindədirlər.

İstanbuldakı erməni keşişi, Osmanlı dövlətinin poçt və teleqraf naziri Oskan Mardukyan və digərləri 1912-ci ilin noyabr ayında İstanbuldakı səfir M.N. Girs ilə görüşdülər. Onlar Avropa dövlətlərinin nəzarəti altında islahatların aparılmasına inanmadıqlarını deyərək, Rusiyanın ermənilər yaşayan vilayətləri işğal etməsini və bunun daimi olmasını istədiklərini bildirdilər. M.N. Girs bu görüş barədə 1912-ci il noyabrın 13-də Xarici İşlər Nazirliyinə məlumat verdi. Elə həmin gün o, Sankt Peterburqdan aldığı notanı Osmanlı dövlətinə təqdim etdi. Notada ermənilərin Rusiyaya birləşmək istəkləri, "erməni məsələsi"nin Rusiya üçün birinci dərəcəli olduğu deyilirdi. Səfir islahatların nəticə verməyəcəyi təqdirdə rus ordusunun ermənilər yaşayan vilayətlərə girə biləcəyini söylədi (3, 210) Bu, əslində Osmanlı dövlətinə müharibə elan etmək idi. Beləliklə, Rusiya ermənilərə yönəlik siyasətində dəyişiklik edərək, Osmanlının daxili işlərinə qarşımağa başladı.

"Orizon" qəzeti 1912-ci il dekabrın 12-də yazırdı ki, belə şəraitdə Türkiyə ermənilərinin təminatının iki yolu vardır: yollardan biri Sankt Peterburqa və ya ola bilsin, Londona aparır; ikincisi isə silahlanıb Türkiyə hökumətinə qarşı döyüşməkdir. Ermənilər Sankt Peterburqu vəələ silah alıb Osmanlı dövlətinə qarşı döyüşmək yollarını seçdilər. Bu yolların seçilməsində katalikos müstəsna rol oynadı. O, xarici işlər naziri S.D.Sazonov vasitəsi ilə imperator II Nikolaya müraciət edərək Türkiyənin Kiçik Asiya hissəsindəki ermənilərin Rusiyanın himayəsinə almasını xahiş etdi.

Balkan müharibəsi zamanı səfərbərlik elan edildikdə ermənilər fərarilik edərək Qafqaza qaçmağa başladılar. Artıq Rusiyanın Osmanlı dövləti ilə sərhəddə qoşun hissələri toplamasına dair xəbərlər dolaşırdı. Xəbər türklər və ermənilər tərəfindən fəqrli qarşılanırdı. Erməni silahlıları birmənalı bildirirdilər ki, müharibə olacağı təqdirdə onlar türklərə qarşı vuruşacaqlar. Daşnaklar müharibə olardısa, ermənilərin erməni silahlılarına qatılmasını təbliğ edirdilər. Vilayətdəki ermənilər ruspərəst idilər. Buna görə də çarizm erməni ünsürü arasında fəal iş aparır, silah və sursat toplamalarına bəzən laqeyd qalırdılar. Bu zaman Osmanlı dövlətinin daxili və beynəlxalq vəziyyəti ağır idi. Üzücü olan I Balkan müharibəsi 1913-cü il may ayının 30-da başa çatdı. Bolqarıstan, Serbiya, Yunanıstan və Qaradağdan ibarət Balkan ittifaqı Osmanlı dövlətinin Balkan yarımadasındakı torpaqlarının çoxunu ələ keçirdi. Albaniyanın müstəqillik qazanması erməni elementini daha da ruhlandırdı.

1913-cü il iyunun 30-da başlanan İkinci Balkan müharibəsi həmin il avqustun 10-a kimi davam etdi. Bolqarıstan ağır məğlubiyyətə uğradıldı. Yaranmış fürsətdən "Gənc türklər" istifadə edərək, Ədirnəni və ətrafdakı yerləri Türkiyəyə qaytardılar. Osmanlı dövləti Avropadakı torpaqlarının bir hissəsini itirmiş oldu. (5, 43) Balkan müharibələrindən sonra "erməni məsələsi" ciddi şəkil almağa və diqqəti daha çox cəlb etməyə başladı.



Belə bir şəraitdə, 1914-cü il yanvarın 1-də İstanbulda Daşnaqsütyun Türkiyənin şərq vilayətlərində islahatlar aparılması məsələsini müzakirə etdi və həbsdə olan ermənilər üçün ianə toplamağa başladı. Osmanlı hakimiyyəti isə xarici ölkələrin müdaxilələrinin artdığını görüb erməni elementinin istəklərini islahatlar yolu ilə həll etməyə çalışırdı. Buna görə də müvafiq addımlar ataraq yenidən ermənilərə islahatlar haqqında təklifini etdi. Ermənilər isə ondan imtina etdilər. Az sonra Osmanlı dövləti çar Rusiyasının təzyiqləri altında ermənilər yaşayan vilayətlərdə islahatlar aparmağa razı oldu. Beləliklə, I Dünya müharibəsi ərəfəsində qərbin iri imperialist dövlətlərinin Osmanlı imperiyasının daxili işlərinə birbaşa müdaxiləsi və islahat məsələsi ilə bağlı sultan hökumətinə edilən bu və ya digər təzyiqlər müharibənin başlanması ilə zəifləmiş oldu.

### Ədəbiyyat

1. Cəfərov T. Qondarma erməni soyqırımı faktların dili ilə. Bakı: Apastrof kitab evi, 2013.
2. Emin Arif (Şıxəliyev). Erməni iddialarının siyasi mahiyyəti. Bakı: Nurlan, 2006.
3. Qasımlı M. "Erməni məsələsi"ndən "erməni soyqırımı"na: gerçək tarix axtarışında (1724-1920). Bakı: Mütərcim, 2014.
4. Nəcəfov B. Düçmənin iç üzü: XIX əsrin sonu XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi,III cilddə, I cild. Bakı: Çaşıoğlu, 2007.
5. Mustafayeva S., Cavadova Z. Birinci dünya müharibəsi dövründə beynəlxalq münasibətlər: Dərs vəsaiti. Bakı: ADPU, 2010.

**P. Səfərov, A.Abdullayeva**

**At the end of the world war i establishment of a military political union**

***Summary***

On the eve of the World War I Russia, France, England and the USA made more efforts to put pressures on Turkey for dividing it into spheres of influence. Under pressure of these states Turkey had to make reforms to ensure the rights of one quarter of the Armenian minority. But Armenians had another plans. By worsening the situation in the eastern Armenian regions they tried to exploit a complicated international situation in their own favor to establish here an Armenian state. With this aim they were holding separative negotiations with Russia.

**П. Сафаров, А. Абдуллаева**

**Создание военно-политического объединения в конце I мировой войны**

***Резюме***

В канун первой мировой войны Россия, Франция, Англия и США усилили давления на Турцию с целью расчленения её на сферы влияния. Под нажимом этих государств Турция вынуждена была согласится на проведения реформ с целью обеспечения прав национальных меньшинств в т.ч. армянского меньшинства. Но армяне вынашивали другие планы. Они хотели использовать сложную международную ситуацию в свою пользу, накаляя обстановку в восточных армяно населённых регионах с целью создания здесь армянского государства. Для достижения своей цели они вели сепаративные переговоры с Россией.

## SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ STRATEJİ İDARƏETMƏNİN MODERNLƏŞDİRİLMƏSİNİ ZƏRURİ EDƏN ŞƏRTLƏR

**Rahim Sadıqov,**
*iqtisadiyyat üzrə fəlsəfə doktoru*
E-mail: ekonomist.72@mail.ru

Sənaye müəssisələrində strateji idarəetmənin modernləşdirilməsini uğurla həyata keçirməyə istiqamət verən bir sıra elmi-ideya mövcuddur. Onlardan biri də bu problemin tədrisinin ən müasir yollarla həyata keçirilməsidir. Respublikamızın ali məktəblərdə iqtisadiyyat ixtisası üzrə təhsil alanlara strateji idarəetmə ilə bağlı ən yeni elmi ideyaların verilməsinə yəni modern səviyyədə tədrisində zəruri ehtiyac duyulur. Bu məqsədlə strateji idarəetmə probleminin tədrisi zamanı həmin ən yeni elmi ideyaların aşağıdakı şəkildə verilməsini məqsədəuyğun hesab edirik.

Azərbaycan respublikasında mütəmadi olaraq həyata keçirilən quruculuq işlərindən biri də yeni sənaye müəssisələrinin yaradılması hesab olunur. Yeni yaradılan sənaye müəssisələrinin idarə edilməsi işinə isə köhnə steriotiplər əsasında yanaşmaq qeyri mümkündür. Niyə? Birincisi, ona görə ki, ölkəmizdə artıq bazar iqtisadiyyatının Avropa standartlarına uyğunlaşdırılması ilə bağlı dövlət direktivlərinin tələbləri mövcuddur. İkincisi, idarəetmənin dünya standartlarına uyğun yeni modellərinin yaradılmasına zəruri ehtiyac duyulur. Bu ehtiyacı nəzərə alaraq biz sənaye müəssisələrinin strateji idarəetmə işinin modernləşdirilməsi işinin mahiyyətini bir qədər ətraflı şərh etməyi məqsədə müvafiq hesab edirik. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, strateji idarəetmə anlayışı XX əsrin ilk illərindən başlayaraq bir termin kimi işlənməyə başlamışdır. Hələ 1902-ci ildə ABŞ-da marketinq fəaliyyəti nəzərə çarpırdı və onun strateji idarə olunması zərurəti meydana çıxırdı. 1920-ci ildə Beynəlxalq Ticarət Palatası yarandığı vaxtdan etibarən palata ticarət və sənaye müəssisələrinin strateji idarə olunması ilə bağlı bir sıra tövsiyə və məsləhətlərini verdi. Həm 30-40, həm 50-60, həm 70-80-ci illərdə marketinq sənayesi mallarının istehsalı, idxalı, ixracı və satışı ilə bağlı strateji idarəetmə üsulları tədricən təkmilləşdirildi. Lakin bizim ölkəmizdə yalnız müstəqillik qazandığımız illərdən etibarən bu termin geniş işlənməyə başladı.

Sənaye xalq təsərrüfatının ən mühüm tərkib hissələrinin biri olmaqla istehsalın spesifik xüsusiyyətlərinə məxsus olan müəssisələrdə təşəkkül tapır. Ona görə sənaye müəssisələrinin idarə olunması xalq təsərrüfatının digər tərkib hissələrinin idarə olunmasından köklü surətdə fərqlənir. Ona görə sənaye müəssisələrində istehsalın növləri də, xarakteri də müxtəlif olmasına baxmayaraq onların hamısının idarə olunması istehsalın idarə olunması kimi başa düşülür. Lakin ərazi prinsipi üzrə xalq təsərrüfatının hər hansı bir tərkib hissəsinin idarə olunması qeyd etdiyimiz kimi ümumi mənada istehsalın idarə olunması kimi başa düşülməlidir. Sənayedə istehsalın idarə edilməsi istehsalın inkişafının obyektiv qanunlarına uyğun olaraq ictimai əmək prosesinə nizamlayıcı təsir göstərməyin konkret-tarixi üsuludur. Hansı ki, bu üsul sosial idarənin əsas növlərindən biri hesab olunur.

İdarə etmənin sahibkarlıq fəaliyyətinə şamil olunan tərəfinə menecment deyilir. *Menecment* ingilis sözü olub idarə etmə, təşkil etmək deməkdir.

Strateji idarəetmənin modernləşdirilməsi zamanı aşağıdakı suallara da cavab verməк lazım gəlir: müəssisədə işi necə qurmaq? nəyi istehsal etmək? nəyi, necə, nə cür istehsal etmək? müəssisəni novator üsullarla necə idarə etmək? bazarı hansı novator üsullarla necə ələ almaq? müştəriləri necə əldə saxlamaq? rəqabət qabiliyyətini necə möhkəmləndirmək? satışı, təchizatı, maliyyə işini necə qurmaq?

Strateji idarəetmənin əsas funksiyalarından ən başlıcasını planlaşdırma təşkil edirsə, planlaşdırmanın əsasını isə planların tərtib olunması təşkil edir.

Strateji planlaşdırma özünü gələcəyə sistematik hazırlıq formasında göstərir. Lakin bu, yüksək idarəetmə fəaliyyəti çərçivəsində həyata keçirilməsi zəruri sayılan işlərin hamısı ilə bağlı uğur qazana bilməz. Buna görə də strateji idarəetmənin modernləşdirilməsinin qarşısında 2 əsas məqsəd dayanır. Onlardan birincisi strateji məqsədlərin seçilməsi (uzunmüddətli, orta müddətli, qısa müddətli məqsədlər). İkincisi isə strateji məqsədlər üçün planların işlənməsidir.

Strateji planlar bazarı öyrənir, müəssisənin rəqabət imkanlarını təhlil edir, onun rəqabət qabiliyyətinin yüksəldilməsini nəzərdə tutur. Strateji planlaşdırmada baş verən hər hansı çatışmazlıqlar və ya rəhbərin idarəetmə səriştəsinin aşağı olması təsərrüfat münasibətlərinin pozulmasına, müqavilə öhdəliklərinin yerinə yetirilməməsinə, investisiya aktivliyinin zəiflənməsinə gətirib çıxara bilər. Təcrübə və müşahidələr göstərir ki, bir sıra müəssisə rəhbərləri problemlərin həllində strateji məsələlərə fikir vermirlər. Bu da problemlərin lazımi səviyyədə təhlil olunmamasına və aradan qaldırılmamasına gətirib çıxarır. Bütövlükdə srtateji idarəetmənin inkişafı başlıca olaraq yeniliyin, xüsusilə innovasiya sistemlərinin və modern idarəetmə sistemlərinin müxtəlif modellərinin yaranması ilə müəssisə və təşkilatların inkişafı ilə sıx bağlıdır.

Qeyd olunanlar sənaye müəssisələrində strateji idarəetmənin modernləşdirilməsini şərtləndirən əsas cəhətlər hesab olunur. Hansı ki, bu cəhətlərə istinad etməklə sənaye müəssisələrində strateji idarəetmənin modernləşdirilməsinə nail olmaq olar.



**Ədəbiyyat**


1. S. Məmmədov, R. Abutalıbov, S. Quliyev, O. İsayev, M. Yusifov. İdarəetmənin əsasları. Bakı: Nurlan, 2009.
2. Nadirov A.A. Azərbaycan regionlarının sosial-iqtisadi inkişaf problemləri // "Azərbaycan Respublikasında milli iqtisadiyyatın inkişaf etdirilməsi problemləri" mövzusunda elmi-praktik konfransın tezis-materialları. Bakı, 2004.


## TƏHSİLALANLARIN ÜRƏK XƏSTƏLİKLƏRİNƏ QARŞI MÜBARİZƏ AMİLLƏRİ VƏ ONLARIN, ELMİ-PEDAQOJİ-FİZOLOJİ ƏSASLARI


**Təranə Mövsümova,**
*biologiya üzrə fəlsəfə doktoru*
E-mail: m.tarana@mail.ru


Şagirdlərlə yanaşı tələblərin də gigiyenik tərbiyəsinin təşkili ilə bağlı qarşıya mühüm vəzifələr dayanır. Bəzən əyani təhsil ala-ala işləyən tələbələr iş, yuxu və qidalanma rejimlərini ciddi şəkildə pozduqları hallarda qan təzyiqindən şikayətlənirlər. Həmin tələbələrdə baş ağrısı, başgicəllənmə, gözqaralma, iştahasızlıq, süstlük halları baş qaldırdığı üçün onlar vaxt azlığı ucbatından həkimə yox, apteklərə müraciət edirlər. Öz mallarını satmağa daha çox üstünlük verən aptek işçiləri onlara məsləhət bildikləri dərmanları reseptsiz verirlər. Bir çox hallarda həmin dərmanlar tələbə gənclərin səhhətinə mənfi təsir göstərir. Onların qan təzyiqi tez-tez dəyişir. Ona görə tələbələrə qan dövranı, qanın orqanizmdəki fəaliyyəti ilə bağlı tövsiyələr verməyə ciddi ehtiyac vardır.

Qanın geriyə hərəkəti venalar vasitəsilə həyata keçirilir. O, bütün hüceyrələrdəki tullantıları yığıb ürəyin sağ mədəciyinə doldurur. O da öz növbəsində sıxılaraq həmin qanı ağciyərə ötürür. Qan ağciyərdə oksigenin təsiri altında təmizlənir, zənginləşir və yenidən ürəyə doğru qayıdır. Ürəyin sol qulaqcığına çataraq, oradan da sol mədəciyə daxil olur. Sol mədəcikdən qan yenidən arteriyalar vasitəsilə bütün orqanizmə paylanır. Hüceyrələrin qidalanması ən nazik damarlar – kapillyarlar vasitəsilə həyata keçirilir. Kapillyarlara daxil olan qan hüceyrələrə oksigen, vitaminlər, yağlar, karbohidrogenlər, mineral duzlar daşıyır. Həm də hüceyrədə əmələ gələn tullantıları qəbul edərək özü ilə aparır. Kapillyarlardakı qanın miqdarı orqanizmdə olan bütün qan kütləsinin cəmi 5%-ni təşkil etməsinə baxmayaraq, qan dövranının əsas funksiyası – qanla toxumalar arasında gedən maddələr mübadiləsi burada baş verir (1, 10).

İmtahanlar qabağı ciddi mütaliə edən, işləyə-işləyə, yəni təsərrüfatda çalışa-çalışa əyani oxuduqları üçün rejimə əməl etmədən, yuxusuz qalaraq kitab oxuduqları üçün tələbələr özlərini, necə deyərlər, yükləyirlər. Belə hallarda onların ürək, qan-damar sistemində ciddi dəyişikliklər baş verir. Beləliklə, qanın təzyiqinin mütənasibliyi pozulur. Təkcə tələbələr yox, bütün insanlar bilməlidirlər ki, "Arteriya damarlarının divarları qalın və elastikdir. Bu da onun mütəhərrik olaraq genişlənib daralmasına imkan verir. Ona görə də o, ürəkdən qanı daha yaxşı sorur. Venalar isə daha nazik damar divarlarına malikdir və damarın müəyyən hissələrində klapanlar var və klapanlar qanın geriyə axmasının qarşısını almaq üçündür. Aydındır ki, nasos bu iki trubanın arasında yerləşməlidir. Amma adi nasosdan fərqli olaraq insan orqanizmində arteriya və venanın bir ucu ürəyə, digər ucları isə kapilyarlara birləşmişdir" (1, 13-14).

Müəllimlərə və valideynlərə dəfələrlə tapşırıqlar verilməsinə baxmayaraq onlar uşaqların kapilyarları, ürək damarlarını, venalarını qorunması ilə bağlı tibbi profilaktik işlər aparmırlar. Çox vaxt uşaqların əsasən yuxu və iş rejimini pozurlar. Hər iki halda ürək gərgin işləyir. Kapilyarlar təzyiq altında qalır.

Ürək ikili funksiyanı yerinə yetirir: dartılıb-gərilmə (uzanıb-yığılma) və döyünmə (sıxılıb-genişlənmə). Döyünmə ürəyin sağ tərəf hissəsi vasitəsilə həyata keçirilir. Beləliklə, əsas motor kapillyarlarda, ikinci dərəcəli motor isə venoz sistemdə və ürəyin sağ kameralarında yerləşir (1, 14).

Kasudzo Nişinin "Sağlamlığın qızıl qaydaları" kitabından bu informasiyaları götürməyimizin əsas səbəbi valideynləri haqqında danışılan problemlə bağlı maarifləndirməkdir. Bir çox hallarda

ələbə və məktəbli uşaqlarının qan təzyiqi, ürəkdöyünmə normalarının pozulması halları ilə üzləşən valideynlərə bu barədə bir sıra məsləhətlər vermək çox faydalıdır.

Bu gün valideynlərə belə tövsiyələrin, məsləhətlərin verilməsinə ciddi ehtiyac vardır. Ona görə ki, insan ömrünün davamlı, sağlam olması da belə tövsiyə və məsləhətlərdən çox asılıdır. Bəzi hallarda valideynlərin bir qismi məktəbli övladlarını fiziki işlərə cəlb etməklə onları həddindən artıq işlədirlər. nəticədə həmin uşaqlar gənclik dövründə belə öz yaşlarından artıq yaşlılar kimi görünürlər.

Deməli, təhsilalanların həddindən artıq işə cəlb olunması zamanı onların ürək döyüntüsünün daim artması artıq enerji məsrəfinə səbəb ola bilər. Ona görə də onların məqsədyönlü şəkildə xalq təbabəti qaydalarına uyğun olan bir tərzdə ürək fəaliyyətini normallaşdıran fiziki tapşırıqları yerinə yetirməyə istiqamətləndirmək lazımdır. Belə normal fiziki tapşırıqlar müntəzəm olaraq yerinə yetirildikdə uşaqların kapilyarları heç bir təzyiqə məruz qalmır.

Bütün bunlar deməyə əsas verir ki, istər kiçik yaşlı, istər orta yaşlı, istərsə də böyük yaşlı məktəblilərə, istərsə də ali məktəb tələbələrinə ürək-damar sistemi, qan təzyiqi, qanın arterial fəaliyyəti, kapilyarlar haqqında mütəmadi olaraq məlumat vermək lazımdır.

Doğrudur, həm orta ümumtəhsil məktəblərinin yuxarı siniflərində, həm ali məktəblərin pedaqoji təmayülü fakültələrində belə nəzəri məlumatlar verilir. Lakin bu məlumatlar çox səthi olur. Unutmaq olmaz ki, orta ümumtəhsil və ali məktəblərin bütün pillələrində təhsil alanlara tibbi biliklərin verilməsi nə qədər vacibdirsə, ürək-damar sistemi haqqında məlumatların verilməsi də bir o qədər zəruridir.

Əgər təhsil alanın sağlamlığını pozularsa, deməli o, nəinki təhsilini davam etdirməkdən məhrum olur, hətta gələcəkdə əmək fəaliyyətini normal şəkildə qura bilməyəcəkdir. Üstəlik xəstə adamın normal ailə həyatı qurmasında da problemlər yaranacaqdır. Belə halların baş verməməsi üçün ilk növbədə təhsil alanlara tibbi biliklərin verilməsi daha məqsədəuyğun hesab olunur. Tibbi biliklərin verilməsi zamanı isə xalq təbabəti ilə bağlı ən zəruri məlumatların, məsləhətlərin, tövsiyələrin onlara çatdırılması çox faydalı hesab olunur.


**Ədəbiyyat**

1. Kasudze Nişi. Sağlamlığın qızıl qaydaları (xəstələnməyə qoymayan və xəstəlikləri sağaldan üsullar). Bakı: Apastrof , 2011.
2. Kasudze Nişi. Təbii cavanlaşma sistemi (cavanlığın hərəkətverici qüvvəsini gücləndirən çalışmalar).
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Maarif, 2002.


## İBTİDAİ SİNİFLƏRDƏ ŞAGİRDLƏRİN TƏRBİYƏSİNDƏ MÜƏLLİM ŞƏXSİYYƏTİNİN ROLU


**Qızıltac Şahbazova,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent, əməkdar müəllim*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: qızıltac.şahbazova @ mail.ru



*Açar sözlər: Şəxsiyyətyönümlü, təhsil, tərbiyədici, təlim, pedaqoji ustalıq*
*Ключевые слова: обучение, личность, воспитывающий, обучение, педагогическое мастерство*
*Key words: personality directed, education, educational, teaching, pedagogical skill*


Təhsili həyata keçirən, cəmiyyət üçün hərtərəfli inkişaf etmiş şəxsiyyətlər formalaşdırmaq müəllimin üzərinə düşən ən məsul bir vəzifədir. Təlimin müvəffəqiyyətlə qurulması, tərbiyədici təşkili müəllim şəxsiyyətindən, onun bilik və qabiliyyətindən, pedaqoji ustalığından asılıdır. Tərbiyədici təlim prosesində müəllim şəxsiyyətinin rolu haqqında Azərbaycan pedaqoqlarının bir çox dəyərli fikirləri var.



Dərsin tərbiyəvi əhəmiyyətini təmin edən mənəvi zənginliyə, əxlaqi saflığa, fiziki kamilliyə malik olan insanlar yetişdirmək hər bir müəllimin qarşısına aktual bir məsələ kimi qarşıya qoyulur. Bu keyfiyyətləri şagirdlərdə formalaşdırmağın ən səmərəli yolu müəllimin şəxsi nümunəsidir. Bunun üçün ibtidai sinif müəlliminin şəxsiyyətini səciyyələndirən ən mühüm keyfiyyətlər onun mənəvi zənginliyi, şəxsi nüfuzu, xüsusi hörmətə malik olmasıdır. Bu keyfiyyətlər təlim prosesində şagirdlərə əxlaqi sifətlərin aşılanması üçün vacib olan vasitələrdir. Bununla yanaşı, dərin bilikliliyi, mehriban qayğıkeş münasibətliliyi, hər şeyi bilən, bacaran əvəzsiz qabiliyyətliliyi ilə həmişə insanlar arasında seçilən və öz şagirdinin xəyalında əbədi yaşayan müəllim, həmişə ən nüfuzlu şəxsiyyət sayılmışdır. Y.A. Komenskinin dediyi kimi, "Müəllimlər insanlar arasında ən seçilmiş şəxslər olmaqla, ən yaxşı əxlaqları etibarilə təqdirə layiqdirsə, bu şagirdlərin həqiqi əxlaqi həyatını yüksəltmək üçün ən yaxşı vasitə olacaqdır".

Dərsə verilən müasir tələblərdən biri də öyrədiləcək materialın ideya-siyasi istiqamətini düzgün müəyyənləşdirmək və tərbiyəvi cəhətini aşkar edib şagirdlərə aşılamaqdır. Buna görə də tərbiyəedici təlimin əsas tələbin i- şagirdləri gələcək cəmiyyətin hərtərəfli inkişaf etmiş şəxsiyyətləri kimi yetişdirmək üçün müəllimin elmi-nəzəri biliyə, metodik hazırlığa, pedaqoji ustalığa, hərtərəfli biliyə, mənəvi zənginliyə bir sözlə onun yüksək şəxsiyyət kimi formalaşması çox vacibdir.

Kiçik yaşlı uşaqlar müəllimlə daha yaxından ünsiyyətdə olduqları üçün onlar arasında əlaqə, yaxınlıq yuxarı siniflərdə oxuyan şagirdlərin fənn müəllimləri ilə olan əlaqəsindən daha çoxdur. Bu yaxınlıq ondan irəli gəlir ki, əgər yuxarı sinif şagirdləri ilə bir neçə müəllim məşğul olursa, I-IV sinif şagirdləri ilə bir və ya iki müəllim məşğul olur. Elə buna görə də çox vaxt ibtidai sinif şagirdləri uzun müddət məktəbdə öz müəllimlərindən başqa heç bir müəllimi tanımaq istəmir. 4 il müddətində onlar arasında əlaqə və yaxınlığın dərinləşməsi tədricən müəllim şəxsiyyətinin sinif şagirdləri üçün əsas təsir obyektinə çevrilməsinə, nəticədə isə müəllim şəxsiyyətinin şagirdləri həyatına böyük təsirinə səbəb olur. Ailə şəraitindən, mehriban ata-ana qayğısından ayrılıb, ona tam aydınlığı ilə məlum omayan tərzdə bir həyata , məktəbə qədəm qoyan hər bir məktəbli yeni insana-müəllim sözü ilə ifadə olunan bir şəxsiyyətlə qarşılayır. Müəllim haqqında indiyə qədər aldığı məlumatların doğru-dürüstlüyünü yoxlamaq, müəllimi " kəşf" etmək, yaxından tanımaq, ona uyuşmaq, yaxınlaşmaq bu dövrdə şagirdin qarşısıalınmaz daxili ehtiyac hissləridir.

Nümunə müəllimin şəxsi keyfiyyətlərinin güzgüsüdür ki, onun danışığından tutmuş ən adi hərəkətlərinədək məktəbdə, ailədə, ictimai yerlərdə özünü aparması, danışıq tərzi, gördüyü işləri, insanlarla əlaqəsi, biliyi, dünyagörüşü, bacarığı, qabiliyyəti və s. şəxsi keyfiyyətləri bu güzgüdə daha aydın əks olunur.

Y.A. Komenskinin dediyi kimi "Müəllim üçün ən yaxşı qayğı şagirdləri öz yaxşı nümunəsi ilə qüvvətli sürətdə cəlb etməkdən ibarətdir... şagirdlərin öz müəllimləri nümunəsində tərbiyə olunmasından daha təbii şey yoxdur".


**Ədəbiyyat**

1. Y.A. Komenski. Seçilmiş pedaqoji əsərləri. Azərnəşr. Bakı, 1961.
2. Ə. Əlizadə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri pedaqogika. Bakı, 2008.
3. M. Mərdanov. "Həyati bacarıqlara əsaslanan təhsil" kitabına ön söz. Bakı: Mürtəcim, 2006.
4. Kurrikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı: Kövsər, 2008.



**К. Шахбазова**

**Роль личности учителя в воспитании учеников начальных классов**

*Резюме*

В статье говорится о беспримерной роли учителей в воспитании учеников начальных классов.

**G. Shahbazova**

**The role of teacher personality in primary class pupils education**

*Summary*

The article deals with incomparable role of teachers in primary class children upbringing.

# TƏHSİL PROSESİNDƏ ŞAGİRD ŞƏXSİYYƏTİNİN FORMALAŞDIRILMASININ PRİORİTET MƏSƏLƏLƏRİ

**Vüsalə İsmayılova,**
*Naxçıvan Dövlət Universiteti*

*Açar sözlər: lider,islahat proqramı, təlim, təhsil*
*Ключевые слова: лидер, программа преобразования, воспитание, образование*
*Key words: leader, program of transformation, education, education*

Təhsil zaman və məkan daxilində insan şəxsiyətinin və mədəniyyətinin formalaşmasında, onun tərbiyəsində, bacarıqlarının dərinləşməsində həlledici rol oynayır. Tərbiyə çoxamilli prosesdir. Bu o deməkdir ki, uşaq şəxsiyyətinin formalaşması çox müxtəlif amillərin təsiri ilə baş verir: məktəb, ailə, ictimaiyyət, geniş sosial mühit, məhəllə və yoldaşlıq mühiti, yaşlı adamlar, kino, televiziya, bədii əsərlər və s. tərbiyədə mühüm rol oynayır. A.S.Makarenkonun sözləri ilə desək, uşağı hər şey – adamlar, əşyalar, hadisələr, ilk növbədə isə valideyn və müəllimlər tərbiyə edir. Təhsil sistemində aparılan uğurlu islahatlar bunu deməyə əsas verir ki, müasir təlim metodlarının geniş tətbiqi və səmərəli istifadəsi nəticəsində yeni nəslin yetişdirilməsi sahəsində mühüm nailiyyətlər əldə ediləcəkdir.

Ümummilli liderimiz Heydər Əliyevin tapşırığı əsasında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli Qərarı ilə Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartının təsdiq edilməsi və buna uyğun olaraq, həyata keçirilən islahatlar təhsil sistemində mühüm yeniləşməyə təkan vermişdir. 24 oktyabr 2013-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq olunmuşdur. Strategiyada göstərilir ki, strateji istiqamətlərdən biri də "təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur". Eyni zamanda göstərilir ki, təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır.

Tərbiyəvi məsələlərin variativ sisteminin yaradılması və səmərəli şəkildə istifadə edilməsi üçün fəal təlim – tərbiyə metodlarından istifadə edilməlidir. Fəal təlim metodlarının tətbiqi zamanı şagirdlərin birgə fəaliyyəti təşkil olunur. Qrupda, cütlərdə birləşən şagirdlər birgə işləyir, qarşılıqlı münasibətdə olur, bir-birinə köməklik göstərir, əməkdaşlıq edir, bacarıq və vərdişləri hazır şəkildə deyil, müstəqil şəkildə aydınlaşdıraraq mənimsəyirlər. Eyni zamanda öz fikrini düzgün əsaslandırmaq və qimətləndirmək bacarığına malik olurlar. Fəaliyyət prosesində şəxsiyyətin qabiliyyəti inkişaf edir. Təlim texnologiyalarının müasir istiqamətləri şagirdlərin hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına və inkişafına yönəldilmişdir. Bu tərzdə formalaşan şəxsiyyət öz yaradıcı qabiliyyətini fəal surətdə həyata keçirməyi bacarır. Mənim fikrimcə, müasir dövrdə uşaq və gənclərin mənəvi tərbiyəsi, onların saf əqidəli şəxsiyyət kimi formalaşması üçün ilk öncə məktəb aşağıdakıları təmin etməlidir:

- məktəbdə müstəqil, demokratik fikirli, prinsipial, qətiyyətli şəxsiyyətin formalaşması üçün əlverişli şərait yaradılmalıdır;
- yaşından asılı olmayaraq hər bir şagirdə şəxsiyyət kimi baxılmalıdır;
- şagirdlərin arzu və istəklərinə diqqət yetirilməlidir;
- şagirdlərdə öz imkanlarına, cəmiyyət üçün gərəkli olduqlarına inam hissi aşılanmalıdır;
- şagirdlərin istedad və qabiliyyətlərinin inkişafı üçün lazımi şərait yaradılmalıdır.

Bütün bunlara isə yeni metodları təlimə layiqincə tətbiq etməklə nail olmaq olar. Şübhəsiz ki, bu sahədə müəllim əməyi ən mühüm vasitədir. Bəzən müəllimlərin müasir dövrün tələblərinə uyğun təlim, təhsil-tərbiyə prosesini, təlim texnologiyalarını yaxşı bilməməsi, elmi-metodik ədəbiyyatla yaxından tanış olmaması şəxsiyyətin hərtərəfli inkişafında mənfi nəticələr yaradır. Ona görə də pedaqoji əməkdaşlıq, təlim-tərbiyə elə qurulmalıdır ki, hərtərəfli şəxsiyyət tərbiyə etmək mümkün olsun. Bu gün məktəb şagirdin əqli inkişafının psixoloji ölçülərini həll etmək üçün təhsilin inkişafetdirici, tərbiyəedici olmasını təmin etməlidir.



1. Təhsilin inkişafetdirici xarakterinin təmin edilməsi.

Bu halda tədris – təlim prosesinə öyrədənin (pedaqoqun) münasibəti dəyişir. Bilikvermə, bacarıq və vərdişlərin aşılanmasından başqa, dərsdə fərdi və sosial əhəmiyyətli keyfiyyətlərin (təfəkkür, nitq, emosional hissi davranış, kommunikativ, fiziki, yaradıcı) inkişaf etdirilməsi nəticəsində:

- Dərsdə şəxsiyyətyönümlü və problemli texnologiyalar üstünlük təşkil edir;
- dərsin praktik, həyati və mənəvi- praqmatik yönümlülüyü (öyrənən həm inkişaf edir, həm də cəmiyyət üçün faydalı insana çevrilir) güclənir

2. Təhsilin tərbiyəedici xarakterinin təmin edilməsi

Təhsilin tərbiyəedici xarakterinin təmin edilməsi üçün fəal təlim metodları ilə işləyən hər bir müəllim şəxsiyyətin formalaşmasında aşağıdakıları təmin etməlidir:

- müəllim-şagird münasibətləri qarşılıqlı əməkdaşlığa çevrilməli;
- tədris prosesində demokratik əsaslara üstünlük verilməli;
- şagirdlərin fərdi xüsusiyyətlərini, meyil və maraqlarını nəzərə almaqla təhsil prosesinin diferensiallaşmasına üstünlük verilməli;
- şagirdlərin əqli və praktik fəaliyyəti ilə bağlı qabiliyyətlərinin formalaşması ön plana çəkilməli;
- dərs məqsədyönlü və inkişafetdirici xarakter daşımalı;
- fəal təlim metodlarından-əqli hücum, rollu oyun, müzakirə, cütlərlə iş, qruplarla iş və s. istifadə edilməsi.

Müasir təlim metodları şəxsiyyətin formalaşdırılmasında mühüm rol oynayır. Müəllim şəxsiyyətin formalaşmaqda olan xüsusiyyətlərinə təsir etməklə onun fəaliyyətini müvafiq qaydada istiqamətləndirir. Belə olan tərzdə müsbət şəxsi keyfiyyətlər yaranır.

Bu gün öyrətməyə deyil, öyrənməyi öyrətməyə yönələn tədris sistemi, qiymətləndirmənin şagirdlər tərəfindən aparılması, məlumatların toplanmasında şagirdlərə verilən sərbəstlik gələcəyin şəxsiyyətlərinin yetişdirilməsində çox ciddi, əsaslı yenilikdir. Təhsil sistemində aparılan uğurlu islahatlar bunu deməyə əsas verir ki, müasir təlim metodlarının geniş tətbiqi və səmərəli istifadəsi nəticəsində yeni nəslin yetişdirilməsi sahəsində mühüm nailiyyətlər əldə ediləcəkdir.

Ulu öndər Heydər Əliyevin dediyi kimi "Azərbaycanımızı çiçəklənən, inkişaf edən, firavan, qüdrətli bir dövlətə çevirməyə qadir, müstəqillik ideyalarına sadiq, özünü vətənin azadlığı naminə fəda etməyə hər an hazır olan, yeni təfəkkür tərzini qavrayaraq müasir tələblərə cavab verən sağlam əqidəli, milli ruhlu nəsil yetişdirmək" hər bir pedaqoji kollektivin əsas vəzifəsi və borcu olmalıdır.

**Ədəbiyyat**

1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.
2. Azərbaycanın təhsil siyasəti (1998-2005). II kitab: Bakı: Təhsil, 2005.
3. Abdulla MEHRABOV. Müasir dərs: onun təşkili və gedişinə qoulan əsas tələblər. http://www.almazhasret.com/?p=3465

**Вюсала Исмаилова**

**Приоритетные вопросы формирования личности учащихся в процессе образования**

***Резюме***

В данной статье рассматриваются активные методы обучения. заслуги выдающейся личности Гейдара Алиева относительно вопросов национального образования и воспитания

**Vusala Ismailova**

***Summary***

Theoretical conception of personage of Гейдара of Алиева in relation to the questions of national community and education.

In this article the merits of personage of Гейдара of Алиева are examined in relation to the questions of national community and education

# QRAFOLOGİYANIN QISA İNKİŞAF TARİXİ

**Salatın Hacıyeva,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: haciyevasalatin@gmail.com

***Açar sözlər:*** *qrafologiya, əl yazısı, xarakter, inkişaf tarixi, tətbiq sahələri*
***Ключевые слова:*** *графология, почерк, характер, история развития, сферы применения*
***Key words:*** *graphology, manuscript, character, development history, application sphere*

*Qrafologiya* iki yunan sözündən–"grophos"- yazmaq və "logos"-bilik, elm, öyrənmək sözlərindən əmələ gəlmişdir. O, insanın xəttinə əsasən onun ağlını, iradi gücünü, emosionallığını, özgüvənini və s. xüsusiyyətləri təyin etməyə imkan verir. Qrafoloqların fikrincə insanın üz ifadəsi və səsi təkrarolunmaz olduğu kimi, tamamilə eyni olan iki xətt də tapmaq qeyri mümkündür. Əl yazısı insanın iqtisadi mənşəyini, yaşayışını, həyatdakı mövqeyini və təhsilini əks etdirir. Fransa kimi ölkələrdə şirkətlərin 80 faizi iş görüşlərində əl yazısı vasitəsi ilə kadrın kimliyini təhlil edir. Qrafologiyadan sənayedə işçi seçimində, tibbdə xəstənin diaqnozunun müəyyən edilməsində, ədliyyə sahəsində günahkarların üzə çıxarılmasında, təlimdə məşğələlərin yönləndirilməsində, rəhbərlik və digər sosial sahələrdə geniş şəkildə istifadə olunur. Bir çox insan qrafologiyanın köməyi sayəsində qabiliyyətinin olduğu sahələrə yönəldilmiş, bir çox insanların psixi xəstəliklərinin olduğu üzə çıxarılmış, bir çox uyğunsuz evliliklərin qarşısı alınmışdır. Ensiklopedik lüğətlərdə qrafologiya haqqında belə bir fikrə rast gəlinir ki, " Qrafologiya əl yazısına baxaraq, yazan insanın xarakterini açmağa çalışan və elmiliyi təsdiq olunmuş bir metoddur". Əl yazısına əsasən şəxsiyyətin xüsusiyyətlərinin təyin edilməsi fikri əslində yeni fikir deyil. İnsanın yazını mənimsədiyi dövrlərdən etibarən ayrı-ayrı elm sahələrinin nümayəndələri belə qənaətə gəlmişdilər ki, əl yazısı (yazılı kod) yalnız yazının məzmunu barədə informasiyanı özündə ehtiva etmir, həm də qeyri –ixtiyari olaraq, yazı müəllifinin daxili aləmi haqqında da məlumatlar verir . İnsanın əl yazısı ilə fərdi psixoloji xüsusiyyətləri arasında əlaqənin olması barədə hələ antik dövrlərdə müəyyən məlumatlar verilirdi. Bu sahə ilə bağlı ilkin məlumatlara Aristotelin (e.ə.IV əsr ), Teofrastın (e.ə.372-287-ci illər), Dimitri Falerskiy, məşhur antik komediyaçı Menandrın (e.ə.342-292-ci illər), yunan yazıçısı Dionisi Qalikarnasskinin (e.ə.I əsrin II yarısı) və başqalarının da tədqiqatlarında rast gəlmək mümkündür. Onlar insanın xarakteri ilə yazısı arasında əlaqənin olduğu qənaətində idilər və bu fikri təsdiqləmək üçün bir sıra tədqiqatlar aparmış, yazılar arasındakı psixoloji fərqləri öyrənməyə çalışmışdılar. Məsələn, Roma imperatorlarının mirzəsi Müqəddəs Qay Trankvill imperator Avqustun yazısını analiz edərək onun ehtiyatlı və xəsis olduğunu müəyyən etmiş və bunu hərflərin sıxlığı və sətrlərin isə yığcam yazılması ilə əlaqələndirmişdir. Roma imperiyasının süqutundan sonra qrafologiyaya maraq bir qədər azalsa da, orta əsrlərdə bu sahəyə yenidən maraq oyandı. XIV əsrdə bu elm sahəsi okkultizmin daxilində tədris edilməsinə baxmayaraq bir çox ədiblər bu sahə ilə ciddi məşğul olurdular. XVIII –XIXəsrlərdə Fransa, İtaliya, Almaniya və Rusiyada əl yazısı ilə insanın psixoloji xüsusiyyətləri arasındakı əlaqəyə maraq həddindən artıq yüksəlir. Qrafologiya həmçinin Vilyam Şekspir, İ.V.Höte, Lafater, Corc Sand, Aleksandr Düma-oğul, Volter Skott, Edqar Po, Ç. Darvin, A.P.Çexov, V.Solovyov və s. bu kimi məşhur insanların da geniş marağına səbəb olmuşdur. İ.V.Höte yazırdı: " Əl yazısı insanın bütün vücudu, həyat şəraiti, fəaliyyəti, onun əsəb sistemi ilə bilavasitə bağlıdır, ona görə də, münasibətdə olduğumuz hər şey kimi, yazı üslubumuz da fərdiyyətin şübhə doğurmayan çap materiallarını özündə daşıyır."

İnsanın fərdi psixoloji xüsusiyyətləri ilə əl yazısı arasında əlaqənin olması antik dövrlərdə ehtimal olunsa da, bu sahədə ilk sanballı əsər 1622 –ci ildə İtalyan həkimi Kamillo Baldo tərəfindən yazılmışdır. Baldonun ardınca Lafater öz kitabının 3-cü bölməsində yazıların xarakteri barədə məlumatları daxil etmişdir. 1792-ci ildə Berlindən olan İohan Qrossman insan xarakterinin onun yazısında əks olunmasının fizioloji izahını vermişdi.



Qrafologiyaya maraq gündən-günə artır, bu sahədə geniş tədqiqatlar aparılırdı.Alman alimi Adolf Henç il ərzində 60 min yazını tədqiq etmiş və nəticədə 1862-ci ildə "Hiroqrammatomantiyu, yaxud da xarakterin yazı ilə öyrənilməsi bacarığı" kitabını nəşr etdirmişdi. Artıq 1830-cu illərdə Parisdə "qrafoloqlar məktəbi" mövcud idi. Qrafoloiyanın atası isə fransız rahibi Jan İppolit Mişon(1806-1881-ci illər) hesab olunurdu. Çünki məhz o, ilk dəfə olaraq yazıların tədqiqi üsullarını sistem halına salmışdı. J.İ.Mişon 1871-ci ildə "Qrafologiya" jurnalını təsis etmiş, 1881-ci ildə isə Parisdə qrafoloqlar cəmiyyətini yaratmışdı. Uzun illər qrafoloqlar tərəfindən istifadə olunan "Qrafoloji sistem" adlı kitabın müəllifi də Mişon olmuşdur. Bu kitabın girişində o, qrafologiyaya belə izah verirdi: "hər bir yazı nitq kimi ruhun əqli və əxlaqı özəlliyini göstərir, yazı baxışla görülə bilən ruhun əl izidir". Mişon öz tədqiqatlarında özəl xarakterik xüsusiyyətləri də ayır edirdi. Mişonun fikirləri sonralar Flandrin, K.Jamenin, A.Verinarın çalışmalarında inkişaf etdirilmiş və əsaslandırılmışdır. Mişonun müasiri K. Jamen isə "Qrafologiya haqqında traktat", "Yazı və xarakter" əsərlərində qrafoloji müşahidələri ümumiləşdirməyə və sistemləşdirməyə, bütünlükdə qrafoloji qanunları şərh etməyə cəhd göstərmişdir. Mişondan fərqli olaraq o, intellektual səviyyəni və əxlaqi vəziyyəti analiz edirdi. K.Jamen qeyd edirdi ki, "xarakterin fərdiliyi" baxımından insan öz əl yazısını dəyişdirə bilməz.Yalnız yazıda bəzi detallar dəyişikliyə uğraya bilər. "Əgər qrafoloq öz əl yazısında hansısa ifadəli cizgini göstərməkdən qaçırsa, o , bunu gizlətməklə başqa bir xüsusiyyəti büruzə vermiş olur". Onun fikrincə, həmçinin milli xətt mövcuddur və hər bir nəsil xüsusi əl yazısına malikdir. Əl yazısındakı fərdilik yazan insanın psixoloji, fiziolji xüsusiyyətlərindən və başqa səbəblərdən asılıdır. XIX əsrin sonu XX əsrin əvvəllərində qrafologiyanın inkişaf tarixində yeni bir dövr başlayır. Bu dövrdə alman qrafoloqları V. Langenbrux, Q. Busse, V. Preyer, Q. Mayer və xüsusilə L.Klyagesin tədqiqatları diqqəti cəlb edir.V.Langenbruxun fikrincə yuxarı doğru qalxan sətir – ruh yüksəkliyi, aşağı enən sətir –ruh düşkünlüyü, çox tələsik yazı – israfçılıq, bədxərclik, ləng yazı isə tamahkarlıq, xəsislik əlamətidir. V. Langenbruxdan başlayaraq, qrafoloqlar əl yazısındakı əlamətlərin dəyərləndirilməsinin zəruriliyini dərk etməyə başladılar. 1899 –cu ildə Q.Busse məhkəmə qrafologiyasının əsasını işləyib hazırlamışdı. XX əsrin əvvəllərində qrafoloji tədqiqatların mərkəzi Fransadan Almaniyaya köçürüldü. Bioloq V.Preyer əl yazısının fiziologiyası, psixologiyası və patologiyası məsələlərini öyrənmiş, hipnoz vəziyyətində yazılmış yazılar üzərində eksperimentlər aparmışdır. Eksperimentlər nəticəsində tamamilə müxtəlif, adi halda yazılmış yazıya bənzəməyən əl yazıları alınsa da, qapalılıq, hiyləgərlik və s. xarakter xüsusiyyətlərini əks etdirən əlamətlər öz sabitliyini qoruyub saxlamışdır. Məsələn, xəsislik xüsusiyyəti əl yazısında hərflərin sıxlığı və səhifə kənarlarında boş sahələrin azlığı və ya olmaması ilə xarakterizə edilir. Professor Vilhelm Preyer müəyyən etmişdi ki, travma nəticəsində əllərini itirmiş insanların sonradan ayaq barmaqlarının və ya ağzının köməyi ilə yazdıqları hərflər, əvvəllər əllə yazdıqları hərflərlə eyni olmuşdur. Bu da onu göstərir ki, əl yazısı əslində beyin yazısı imiş. 1939-cu ildə ABŞ –ın psixoloji klinikalarından birində əlin ifadəli hərəkətlərini və əl yazısını intensiv surətdə öyrənən Qordon Ollport və Filipp Vernoy belə bir qərara gəlmişdilər ki, fərdin hərəkətləri daxili sabitliyə malikdir. Əgər insanın hərəkətlərində rigidlik və lənglik varsa, bu onun poza, jest, mimika və yerişində olduğu kimi əl yazısında da təzahür edir."İfadəli hərəkətlərin öyrənilməsi" adlı əsərində Ollport yazırdı: "Həqiqətən də yazı elə bir kristaldır ki, onun köməyi ilə insanın tam olmasa da bir çox psixoloji xüsusiyyətlərini çətinlik çəkmədən görmək olar." 1939-cu ildə ingilis qrafoloqu Hans Yakobi "Xəttin analizi" kitabını nəşr etdirir, digər ingilis qrafoloqu Robert Sodak yazının analizində ilk dəfə transportir, xətkeş və xronsirkuldan istifadə etmiş, həmçinin yazı prosesində əlin təzyiqini öyrənməyə başlamışdır. 1948-ci ildə V.Vulf öz təcrübələri ilə müəyyənləşdirdi ki, insan xəttinə məxsus özəlliklər bilavasitə altşüura bağlıdır və idarə olunmazdır. Bütün araşdırmalarını "Təhtəlşüurun dioqramları" adlı kitabında toplayaraq nəşr etdirdi.

Qrafologiyanın əldə etdiyi nəticələr insanı təəccübləndirəcək dərəcədə parlaq və əhatəlidir. Bütün bunlara baxmayaraq qrafoloqlar arasında bəzi məqamlarda fikir ayrılıqları və yanılmalar da olur. Bu da bir çox hallarda qrafologiyanı bir elm kimi şübhə altına salır. Lakin elm inkişaf etdikcə yeni metodlar, yeni yanaşmalar ortaya çıxır. Bu da qrafologiyanın bir elm kimi inkişaf etməsinə böyük təkan verir.

## Ədəbiyyat


1. Ə . S. Bayramov, Ə. Ə. Əlizadə. Psixologiya. Bakı: Maarif, 1989.
2. Моргенштерн, И. Психографология. Наука об определении внутреннего мира человека по его почерку / И. Моргенштерн. СПб.: Питер, 1994.
3. Зуев-Инсаров, Д. М. Почерк и личность / Д. М. Зуев-Инсаров. М.: Изд-во «СТ», 1993.



**С. Гаджиева**


**Краткая история развития графологии**


***Резюме***

В статье говорится о вопросах краткой истории развития графологии. Здесь дается информация о создании графологии, этапы развития и проведения исследований в различных временах. В статье также рассмотрены вопросы о значении и сферах применения графологии.



**S. Hajiyeva**


**Short history of the graphology**


***Summary***

In article is dealt with history of the graphology. Here is given information about formation of the graphology, stages of development and carried out researches in various time. In the article importance of grafology and conceptions related to application sphere were also given.


## MÜASİR DÖVR ÜÇÜN XÜSUSİ İSTEDADLAR ÇOX ÖNƏMLİDİRLƏR


**Südabə Məmmədova,**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Naxçıvan Müəllimlər İnstitutu*
E-mail: s.mammadova@list.ru



*Açar sözlər: internet portal, istedad, insan kapitalı, sərmayə, yaradıcılıq*
*Key words: Internet portal,talent,human capital, profit, creativity*
*Ключевые слова: интернет портал,талант, человеческий капитал, оснавной капитал, творчества*


Ümummilli liderimiz Heydər Əliyev gənclərin Vətənimizə layiq hərtərəfli, ahəngdar inkişafı üçün təhsilin imkanlarını həmişə qiymətləndirmiş və milliliyimizin, müstəqilliyimizin təməli olan təhsilə daim xüsusi qayğı göstərmişdir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də gənclərimizdə vətəndaşlıq mövqeyinin formalaşmasına, xüsusi istedada malik olan uşaqların üzə çıxarılmasına çox önəm verir. Buna bariz nümunə kimi, 17 aprel 2006-cı il tarixdə ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006 -2010-cu illər)"nın qəbul edilməsini göstərmək olar. Proqram 2006-2010-cu illər üçün nəzərdə tutulsa da, *istedadların müəyyənləşdirilməsi, dəstəklənməsi və inkişaf etdirilməsi problemi* indi də olduqca aktualdır.

Uşaqlar bizim gələcəyimizdir. Xüsusi istedada malik uşaqlar isə xalqımızın intellektual və mənəvi sərvətidir. Bu gün onlara yatırılan sərmayə gələcək üçün insan kapitalını qarantiyə alır. Onların vasitəsilə elmimizi və mədəniyyətimizi, bütövlükdə milli-sosial həyatımızı inkişaf etdirmək imkanlarımız çoxalır. Gələcəkdə dövlətçiliyimizin gücləndirilməsində istedadlı insanların həlledici rolu barədə indidən düşünmək dövrün və zamanın tələbidir. Bir sözlə, bu gün cəmiyyətin istedadlı uşaq və gənclərə olan diqqəti sabahkı elmə, mədəniyyətə, sosial tərəqqiyə olan qayğısı kimi qiymətləndirilməlidir.

İstedadlı uşaqlarla əlaqədar milli asosiasiyalar və xeyriyyə fondları xeyli vaxtdir ki, bir sıra ölkələrdə fəaliyyət göstərir. Onların əsas məqsədi istedadlı uşaqları axtarıb üzə çıxarmaq,



dəstəkləməklə inkişaflarını təmin etməkdir. Hətta qabaqcıl ölkələrdən biri olan ABŞ-da istedadlı uşaqların məktəblərə seçimi yaradıcılıq meyarlarına uyğun təşkil edilir.

İlk dəfə 1988-ci ilin noyabrın 10-13-də İsveçrənin Sürix şəhərində Qərbi və Şərqi Avropa ölkələrinin elmi mərkəzlərinin, Beynəlxalq Assosiasiyanın və s. nümayəndələrinin iştirakı ilə istedadlı uşaqlarla bağlı Avropa konfransı keçirilmişdir. Bu konfransda yüksək qabiliyyətlər üzrə Avropa Assosiasiyası təsis edilmişdir.

İndi bizim ölkəmizdə də xüsusi istedada malik uşaqların yaradıcılıq potensiallarının inkişaf etdirilməsi məqsədilə sistemli işlər aparılır. İndi birinci siniflərə qəbulda dəyişiklik edilərək, ailəsinin razılığı olduqda 6 yaşdan kiçik olmasına baxmayaraq, xüsusi istedada malik uşaqların müsahibə və ya imtahan yolu ilə məktəblərə götürülməsinə icazə verilməsi məsələsi də təklif edilmişdir.

İstedadlar nadir və mühüm varlıqlardır, millətin yaşam gücü məhz onlardadır. Odur ki, *istedadları* qorumaq, hifz etmək lazımdır. Məşhur bir kəlamı yada salmaq yerinə düşər: "İstedadlara kömək et, istedadsızlar özlərinə yol tapacaqlar".

Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə müəyyən işlərin görülməsinə baxmayaraq, həmin işlər kifayət edəcək dərəcədə və səviyyədə olmadığından bu sahədə tədqiqat və araşdırma aparmağa ehdiyac duyulur. İstedadların aşkarlanması və üzə çıxarılması üçün istedadlı insanlardan və mütəxəssislərdən ibarət xüsusi qrupların yaradılması, seçilmiş istedadların istiqamətlərinin müəyyənləşdirilməsindən ötrü uyğun cədvəllərin tərtib edilməsi və xüsusi təlim proqramlarının hazırlanması, onların vaxtaşırı konkurs, olimpiada, sərgi və festifallar vasitəsilə Ümumrespublika səviyyəsində tanınması və rəqabətə cəlb edilməsi həllini gözləyən məsələlərdəndir.İstedadlı uşaqlara xüsusi psixoloji dəstək tələb olunur ki, bunun da onların özünəməxsus inkişaf yolu tapmalarına yardım və faydası çoxdur. Bu işdə biz pedaqoq-psixoloqlarla həm orta məktəb psixoloqları, müəllimləri,həm də valideynlərin sıx əməkdaşlığı labüddür.Xüsusi istedada malik olan uşaqların (gənclərin) seçimi müntəzəm və davamlı bir proses olduğundan, sıralarında və istiqamətlərindəki dəyişikliklər nəzərdə saxlanmalı, valideynlərinin pedaqoji-psixoloji maarifləndirilməsi aparılmalıdır.

"Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcı potensialının inkişafı üzrə Dövlət Proqramı"nın 17 aprel 2006-cı ildə respublikamızın prezidenti İlham Əliyev tərəfindən və ardınca, "Naxçıvan Muxtar Respublikasında xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcı potensialının inkişafı üzrə Dövlət Proqramı"nın 30 may 2006-cı ildə Ali Məclisin sədri Vasif Talıbov tərəfindən Muxtar Respublikamız üçün ayrıca sərəncam olaraq imzalaması məsələnin yerinə yetirilməsini ən ciddi və qlobal psixoloji-pedaqoji problem kimi qarşımıza qoyur. Həmin proqramlara aşağıdakı vəzifələr daxildir: istedadlı uşaq və gənclərin inkişaf perspektivlərini müəyyənləşdirən sosial-psixoloji tədqiqatların aparılması; xüsusi istedadlı uşaqların üzə çıxarılması və onlarla işləmə mexanizmlərinin formalaşdırılması; istedadlı uşaqların məlumat bankının, eləcə də milli reyestrin və internet portalının yaradılması, istedadlı uşaqların oxuduğu təhsil müəssisələrinin normativ-hüquqi bazasının təkmilləşdirilməsi və sair.Proqramda həmçinin, bu kateqoriyadan olan uşaqlar üçün yeni təhsil müəssisələrinin yaradılması və mövcud müəssisələrin maddi-texniki bazasının təkmilləşdirilməsi nəzərdə tutulub.

Tədqiqatçıların və psixoloqların araşdırmalarından belə nəticəyə gəlmək olar ki, digər ölkələrlə müqayisədə Azərbaycanda istedadlı uşaqlar daha çox dünyaya gəlir. Lakin ailələrin pedaqoji – psixoloji məlumatsızlığı üzündən biz bu istedadların əksəriyyətini itiririk.

Pedaqoqların istedadlı uşaqlarla işi həm mürəkkəb, həm çətin, həm də davamlı olaraq aparılmalı və daim yenilənməli bir prosesdir. Bu isə hər şeydən əvvəl məktəb rəhbərliyindən və müəllimlərdən istedadlı uşaqların psixologiyasının düzgün istiqamətləndirilməsi yolunda müəllim-valideyn-psixoloq üçlüyü arasında daimi əməkdaşlıq əlaqələri qurmağı tələb edir.

Təhsilin başlıca məqsədlərindən biri istedadlı uşaqların bütün qabiliyyət və imkanlarının vaxtında aşkarlanması, inkişaf etdirilməsinin metodoloji əsaslarının yaradılması və onların bu qabiliyyətlərini tətbiq etmələri üçün uyğun və real şəraitlə təmin olunmalarıdır. Çünki cəmiyyət müasir problemlərin həllini gələcəkdə, məhs bu uşaqlardan gözləyir.

İstedadın real həyat təzahürləri, vaxtında aşkarlanmasının vacibliyi, onun düzgün inkişafının təmin edilməsi, sosial aktuallaşdırılması və problemlərinin həlli yollarının göstərilməsi cəmiyyət üçün istedadın elmi əsaslandırılmasından və bu barədə hər cür elmi nəzəriyyələrdən daha önəmlidir. Fəal yaradıcı şəxsiyyətin formalaşması və istedadın inkişafına kömək məqsədi üçün istedad əlamətləri pedaqoji-psixoloji yöndən obyektiv gerçəkliklərlə möhkəmləndirilməlidir.

Qeyd olunduğu kimi, istedadların aşkarlanması və üzə çıxarılması üçün istedadlı insanlardan və mütəxəssislərdən ibarət xüsusi qrupların yaradılması və seçimlərin müntəzəm və davamlı bir proses olaraq aparılması ən aktual, zəruri işlərdir. Əslində istedadların düzgün seçilməsi uzunmüddətli, hətta uzun illərin təcrübəsini qazanmağı tələb edən bir prosesdir. İlk baxışda sadə görünməsinə baxmayaraq bu proseslərin olduqca mürəkkəb və çətin olduğunu həmin sahədə çalışanlar daha yaxşı bilirlər. Bu səbəblərdən də, istedadların bir mərkəzdən idarə olunmasının daha məqsədəuyğun olduğunudüşünürük.

**Ədəbiyyat**


1. Elxan Bayramov. «Xüsusi istedada malik olan uşaqların yaradıcılıq potensialının inkişafının psixoloji problemləri». Avtoreferat, Bakı, 2013, 37 səh.
2. Firədunİbrahimov « İstedadlıuşaqlarlaaparılanpraktikişintəlimaspektləri». http:// www.qooqle.az.
3. S.K.Məmmədova. Naxçıvan Muxtar Respublikasında istedadlı şagirdlərlə aparılan işlər. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 17.03.2014-cü il, 314 saylı əmri ilə bu metodik vəsaitin çap edilməsi üçün müəllifə nəşr hüququ (qrif) verilmişdir. Naxçıvan, 2014, 101 səh.
4. Xüsusi istedada malik olan uşaqların (gənclərin )yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı(2006 -2010-cu illər), 9 səh., http:// www.qooqle.az.
5. Xüsusi qabiliyyəti olan uşaqlarla işin reallaşdırılması mexanizmi. 5 səh.,http:// www.qooqle.az.



**Судаба Мамедова**

**В современном мире очень важныособые таланты**

*Резюме*

В статье Судабы Мамедовой много внимания уделяетсяособыхталантов, а также, их выборов. В Азербайджане рождаются многоособых талантов. Но, в причине неопытностиродителей, большое количестваих пропадает. По этому, авторсчитает целесообразнымуправлениемоснавних талантовс одного центра.

**Sudaba Mammadova**

**Talented people aremore importantat present fime**

*Summary*

The artikle deals with the importance of spesial talents for human capital, issues taking into account in arranging their choice and some shortages.Ruling of talented people from a concrete center is considered.


# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN HƏYATINDA DİDAKTİK OYUNLARIN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ


**Zeynab Zeynalova,**
*Naxçıvan Müəllimlər İnstitutunun müəllimi*
E-mail:zeynab.zeynalova@yahoo.com



*Açar sözlər: məktəbəqədər, uşaq, didaktik oyun, tərbiyə, tərbiyəçi*
*Ключевые слова:дошкольный, дети, дидактические игр, воспитание, воспитатель*
*Key words: under school age, child, didactic game, upbringing, teacher*


Oyun məktəbəqədər yaşlı uşaqların həyatında mühüm və vacib tərbiyə vasitəsi olmaqla çox böyük əhəmiyyətə malikdir. Uşaqlarda məntiqi təfəkkürün formalaşmasında, dərk etmə qabiliyyətinin inkişaf etdirilməsində, müşahidə bacarığının genişləndirilməsində və s. oyun çox müsbət rol oynayır. Əsas fəaliyyət sahəsi olmaqla oyun uşaqların dünyagörüşünün formalaşmasında müstəsna əhəmiyyətə malikdir. Y.A. Komenskinin fikrincə, "külək olamadan od yanmadığı kimi oyun, hərəkət, məşq olmadan uşaq böyüyüb inkişaf edə bilməz. Oyun uşaqlarda şən ovqat, sevinc, fantaziya yaradır. Oyunda uşağın əqli keyfiyyətləri, mənəvi və estetik hissləri, fiziki qüvvələri inkişaf edir.



Məktəbəqədər yaşlı uşaqların həyatında didaktik oyunların tərbiyəvi əhəmiyyəti çox böyükdür. Didaktik oyunlar məktəbəqədər yaşlı uşaqlarda bədii hisslərin və zövqün, bədii yaradıcılıq qabiliyyətlərinin, ətraf aləmdəki obyektləri müşahidə və müzakirə etmək bacarığının inkişafını təmin etməklə bərabər, onun əqli qabiliyyət və əxlaqi keyfiyyətlərinin tərbiyə vasitələrindən biri hesab edir. Bilik, bacarıq və vərdişlərə nail olmaq və onları möhkəmləndirmək üçün uşaqdan dəfələrlə təkrarlamalar, təmrinlər tələb olunur. N.K.Krupskaya göstərmişdir ki, uşaq "hər şeyi əli ilə yoxlamalı, onu iyləməli, onun üzərində on dəfələrlə nə isə etməli, on dəfələrlə onu nəzərdən keçirməli, on dəfələrlə onun adını təkrar etməlidir və i.a." [1]. N.K. Krupskaya oyunda təhsil əhəmiyyətini yüksək qiymətləndirmişdir. O demişdir ki, "oyun-təcrübədə yoxlamadır".

Hər bir didaktik oyun, bir tərəfdən uşaqlara yeni təsəvvür, yeni bilik və vərdişlər aşılayır, digər tərəfdən, onların məşğələlərdə qazandıqları bilik, bacarıq və şəxsi təcrübələrinin möhkəmləndirilməsinə, anlayışlarının daha da genişlənməsinə kömək edir [2].

Məktəbəqədər yaşlı uşaqların estetik tərbiyəsində didaktik oyunların rolu böyükdür. Uşaqlarda estetik zövq və maraqlarının genişlənməsində mühüm əhəmiyyət kəsb edir. Uşaqların bədii yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə onlarda qavrayışı, təfəkkürü, təxəyyülü inkişaf etdirir. Didaktik oyunların köməyi ilə tərbiyəçi təsəvvürləri inkişaf etdirir, dəqiqləşdirir, onları düşünülmüş edir. Məsələn, uşaqlar əşyaların müxtəlif rəngli olduğunu müşahidə edir, rənglərin adlarını yadda saxlayırlar. Bu da əşyaların estetik cəhətdən dərk olunmasının mühüm şərtlərindən biridir [4].

Məktəbəqədər yaşlı uşaqlarda estetik inkişafı təmin etmək üçün bir çox strategiyalar həyata keçirilir. Belə ki, oyun zamanı yaradıcılığa həvəslindirən müvafiq mühitin yaradılması, rəqs, musiqi və s. kimi müxtəlif incəsənət növlərindən istifadə edilməsi və incəsənət nümunələri vasitəsilə özünü ifadə etməyə həvəsləndirilməsi, qiymətləndirmə bacarığının yaradılması, estetik inkişafın təmin edilməsi üçün ailələrin maarifləndirilməsi bu strategiyanın əsasını təşkil edir.

Didaktik oyunun qaydaları uşaqlarda dözümlülük, soyuqqanlılıq, intizamlılıq tələb edir. Didaktik oyun uşaqlara ana dilini, saymağı öyrətmək, bitkilər, heyvanlar haqqında, əşyaların keyfiyyət və xassələri haqqında təsəvvürləri inkişaf etdirmək üçün tətbiq olunur. Oyunda uşağın xarakter xüsusiyyətləri, onun inkişaf xüsusiyyətləri meydana çıxır. Buna görə də oyun hər bir uşağa fərdi surətdə yanaşmağı tələb edir. Tərbiyəçi vəzifənin seçilməsində, motivasiyanın qoyuluşunda bu xüsusiyyətləri nəzərə alır. Məsələn, uşağın birinə sadə, digərinə mürəkkəb tapmacalar verir. Birinə yardımçı suallarla kömək edir, digərinə isə tamamilə müstəqil surətdə həll etməyi tələb edir. Cəsarətsiz, utancaq uşaqlar xüsusi diqqət tələb edirlər. Bəzən belə uşaq tapmacanın necə tapıldığını bilir, lakin cəsarətsizliyi üzündən danışmır. Bu zaman tərbiyəçi uşaqda olan utancaqlığı aradan qaldırmaq üçün onu ruhlandırır, kiçik bir müvəffəqiyyət üçün tərifləyir, kollektiv qarşısında çıxış etməyə alışdırmaq üçün onu tez-tez çağırır [3].

Oyun zamanı uşaqlarda bir-birlərinə xeyirxah münasibət tərbiyə edilir, tapşırığı yaxşı yerinə yetirməyə həvəs oyadılır. Uduzanların istehza edilməsinə, udanların isə lovğalanmasına yol verilmir.

Beləliklə, didaktik oyunda təlim uşaqların hərtərəfli tərbiyəsi ilə ayrılmaz surətdə əlaqədardır.

**Ədəbiyyat**


1. Н.К.Крупская. Педагогические сочинения. Т.6, изд. АПН РСФСР, 1959.
2. F.Sadıqov, O.Həsənli. Didaktika. Bakı: Elm və təhsil, 2015.
3. Mktəbəqədər pedaqogika. Bakı, 1964.
4. A.S.Makeronko. Seçilmiş pedaqoji əsərləri. 2-ci cild. Bakı, 1988.



**Z. Zeynalova**

**Educational importance of didactic games in under school age children life**

*Summary*

It is stated about the role of didactic games having educational importance in children life in the article. Types of upbringing live physical, aestetic, moral existing in didactic games ensures formation of tolerance, aestetic taste, ability and other qualities of under school age children.

З. Зейналова

**Воспитательная значимость дидактических игр в жизни детей дошкольного возраста**

*Резюме*

В статье рассказывается о роли дидактических игр, имеющих воспитательное значение в жизни детей. Воплощение физических, эстетических, нравственных видов воспитания в дидактических играх способствует развитию выносливости, нравственных ценностей, способностей и других качеств у детей дошкольного возраста.

# UŞAQLARIN ƏXLAQI MILLI MƏNƏVI ŞÜURUNUN FORMALAŞDIRILMASI YOLLARI

**Günay Şirəliyeva,**
*Naxçıvan Müəllimlər İnstitutu*

***Açar sözlər:*** *məktəbəqədər, uşaq,əxlaq,təhsil,tərbiyə*
***Ключевыеслова:*** *школь, овразование, дашкольный, воспитание, мораль.*
***Key words:*** *school, education , under school, upbringing, morality*

Bəşəriyyət tarixində həmişə yetişməkdə olan gənc nəsli yüksək əxlaqi ruhda tərbiyə etməyə böyük əhəmiyyət verilmişdir. Yalnız gənc nəsli yüksək milli, mənəvi ruhda tərbiyə etməklə Azərbaycan xalqı öz ərazi bütövlüyünü qoruya biləcək, respublikamızı iqtisadi, siyasi və mədəni cəhətdən qüdrətli bir dövlət kimi inkişaf etdirəcəkdir. Bu məqsədlə dəməktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi dövrün ən aktual problemi kimi ön plana çəkilmişdir.

Onu da nəzərə almaq lazımdır ki, məktəbəqədər yaşlı uşaqlarda yüksək əxlaqi keyfiyyətlərin aşılanması çətin və mürəkkəb prosesdir. Vətənə məhəbbət, milli həmrəylik, milli birlik, sülhsevərlik, mərdlik, qəhrəmanlıq, insana qayğı, əməksevərlik, dəyanətlilik və s. bu kimi əxlaqi keyfiyyətlərin bünövrəsi təlim tərbiyə prosesində qoyulur.

Bunun üçün tərbiyəçi əxlaq tərbiyəsinin elmi8 əsaslarına mükəmməl yiyələnməli, onun məzmunu və əhəmiyyətini dərindən bilməli, öz fəaliyyətində onlardan bacarıqla istifadə etməlidir.

Etika-əxlaq haqqında nəzəriyyədir. Etika ictimai şüurun xüsusi bir forması olmaq etibarı ilə əxlaqın inkişaf qanunauyğunluqlarını və cəmiyyətin həyatında onun rolunu öyrənir. O, əxlaqın prinsiplərini və normalarını aşkar edib əsaslandırır, xalqın quruculuq fəaliyyət yollarında apardığı mübarizədə onun əhəmiyyətini göstərir.

Əxlaq insanların mənəvi münasibətlər sahəsini əhatə edən ictimai şüurun formalarından biridir. O, hər şeydən əvvəl cəmiyyətin maddi həyat şəraiti ilə müəyyən olunur, insanların ictimai varlığını etdirir. Cəmiyyətin inkişafı ilə, onun iqtisadi quruluşunun dəyişməsi ilə birlik də əxlaq da dəyişir. Buna görə də cəmiyyət nəinki əxlaqı yaradır, həm də onu qoruyur və inkişafına təsir edir. Əxlaqın formalaşmasına və inkişafına ictimai şüurun, siyasətin, hüququn, fəlsəfənin, incəsənətin, ədəbiyyatın ciddi təsiri olur. Onlar əxlaqın məzmununa və xarakterinə təsir göstərir.

Onu da qeyd etmək lazımdır ki, əxlaq normaları ilə hüquq normaları arasında müəyyən qədər yaxınlıq olduğu kimi, fərqli cəhətlər də vardır.

Əxlaq tarixi hadisədir və milli xarakter daşıyır. Buna görə də bütün dövrlərdə dünya xalqlarının öz etnik münasibətlərinə uyğun əxlaqi qanunları mövcud olmuşdur.

Əxlaq tərbiyəsi uşaqlarda əxlaqi hisslərin, adətlərin, əxlaqi şüurun inkişaf etdirilməsinə xidmət edir, çünki məktəbəqədər yaşda uşaqların hərəkət və davranışında hələ hisslər üstünlük təşkil edir. Ona görə də tərbiyə müəssisələrində uşaqlarda müxtəlif hisslər-qohumlara və böyüklərə hörmət, öz xalqına məhəbbət, başqa xalqlara sevgi və hörmət, ilkin dostluq və yoldaşlıq kimi müsbət əxlaqi keyfiyyətlər, düşmənə, vətən xainlərinə, oğru və cinayətkarlara isə nifrət hissi tərbiyə edilir.

Hətta bu gün bir çox psixoloq və pedaqoqlar xüsusilə "proqressiv" hesab olunanlar da azyaşlı uşağın şüurlu şəkildə tərbiyələndirilməsinin düzgün olmadığını zənn edirlər. Onlar belə hesab



edirlər ki, informasiya bolluğu uşağın əsəb sisteminə əks-təsir göstərir və hər şeyi, necə istəyirsə elə də etməyi, onun öz öhdəsinə buraxmaq daha təbii olardı.Bəziləri hətta əmindirlər ki, bu yaşda uşaq - eqoistdir və hər şeyi yalnız öz kefinə uyğun edir. Məhz, həmin səbəbdən bütün dünyada valideynlər bu cür ideyaların təsiri altında olur və düşünülmüş şəkildə "rahat burax" prinsipinə əməl edirlər. Və elə həmin valideynlər övladları uşaq bağçasına və yaxud məktəbə getməyə başlayan kimi, anındaca bu prinsipdən imtina edərək qəfildən ciddiləşir və uşaqlarını tərbiyə etməyə girişirlər, onlara nəsə öyrətməyə səy göstərirlər.

Məktəbə hazırlıq qrupunda uşaqlara davranışın bəzi şüurlu elementləri də tədricən aydın olmağa başlayır.Onlarda yaxşı və pis haqqında müəyyən təsəvvürlər, öz davranışında əxlaq qaydası motivlərinə müəyyən qədər əsaslanmaq bacarığı tərbiyə olunur. Onlar davranış tələblərini dərk etməyə, öz hərəkətlərini və rəftarını aydınlaşdırmağa daha çox qabil olur. Bu yaşlı uşaqlarda təmkinliyi tərbiyə etmək öz hərəkətlərini məhdudlaşdırmaq bacarığını inkişaf etdirmək olar. Lakin məktəbəqədər dövrdəuşaqların əxlaqi davranışında şüur hələ həlledici qüvvəyə malik olmur. Çox vaxt şüur uşağın pis hərəkətə və davranışa yol verməsindən sonra fəaliyyətə başlayır. Bu zaman uşaq tərbiyəçinin və yoldaşlarının onun hərəkətlərinə pis münasibətindən sonra həyəcan keçirir, əməlindən peşman olur və "Mən bilmədim","Onu fikirləşmədim","Yaxşı hərəkət etməmişəm" kimi təəssüf dolu etiraflar söyləyir. Bu, onun göstərir ki, artıq uşaqda təfəkkür konkretliyi nəzərə çarpır. Onun təcrübəsi və həyəcanları ilə, müşahidə etdiyi faktlarla, obrazlı təəssüratları ilə bağlı olduğu üçün ona anlaşıqlı olur. Şüuru tədricən formalaşdıraraq məktəbəqədər yaşlı uşaqlarda hiss və adətlərin tərbiyəsinə diqqət yetirmək onlarda əxlaqi hisslərin, adətlərin və şüurun formalaşmasına nail olmaq çox vacibdir.

6yaşlı uşaqlarla aparılan tərbiyə işləri onların hərtərəfli inkişafına, məktəbə hazırlığının tam formalaşmasına yönəldilməlidir. Onun ən mühüm mərhələsi ictimai həyatın hadisələri haqqında uşaqlarda təsəvvür və biliklərin ardıcıllıqla genişləndirilməsi, təlimə marağın formalaşdırılması və məktəbdə oxumağa həvəsin yaradılması olmalıdır.

Uşaq bağçasına məxsus əxlaq tərbiyəsi proqramı yaşdan asılı olaraq tədricən dərinləşir və genişlənir. Əgər kiçik qruplarda sadə davranış normaları tələb olunursa, böyük yaşlı qruplarda bu normalar daha da genişlənir, onlardan bütün qrupun mənafeyinə uyğun olan davranış qaydaları tələb olunur. 5 yaşdan başlayaraq uşaqlarda yaxşı adamların əxlaqi keyfiyyətləri haqqında ilkin ümumi anlayışlar, özünün və başqalarının hərəkətlərini qiymətləndirmək təsəvvürləri formalaşdırılır. Bununla da cəmiyyət üçün gələcək vətəndaşın mənəvi simasının əsası qoyulur. Uşaqlarda öz davranışını idarə etmək bacarığını o halda tələb etmək olar ki, qarşılıqlı münasibətlərin normaları, nümunələri onlara məlum olsun. Başqa sözlə, necə davranmaqqaydalarını bilsin və onların əməlləri yaşlılar tərəfindən qiymətləndirilsin. Bunlarsız bir qayda olaraq, uşaq özünü qeyri-iradi, qeyri-təmkinli aparır.

Məktəbəqədər yaşlı uşaqların əxlaqi cəhətdən formalaşmasında tərbiyə verilən başlıca tələbləri bilmək mühüm əhəmiyyət kəsb edir. Tərbiyəçi məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi prinsiplərini yaxşı bilməsə, qarşıya qoyduğu məqsədə nail ola bilməz.

**Ədəbiyyat**

1. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı."Kurikulum" jurnalı, 2010, №4.
2. Kurikulum islahatı: tədqiqatlar, nəticələr/ nəşrə haz: Ə.Abbasov, İ.Cavadov.-Bakı: Mütərcim.2011. .

# KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN YARADICILIQ QABİLİYYƏTLƏRİNİN XARAKTERİSTİKASINA DAİR

**Tünzalə Əliyeva,**
*Naxçıvan Dövlət Universitetinin dissertantı*

***Açar sözlər:*** *Kiçik yaşlı məktəblilər, yaradıcılıq, təsviri qabiliyyətlər, yaradıcılıq fəaliyyətinin növləri, yaradıcı yanaşmada şəxsi keyfiyyətlər.*
***Ключевые слова:*** *младшие школьники, творчество, изобразительные способности, виды творческой деятельности, личные качества в творческом подходе*
***Key words:*** *younger schoolchildren, creativity, descriptive abilities, kinds of creativity activity, personal features in the creative approach*

Müasir psixologiyada yaradıcılıq qabiliyyətləri anlayışından geniş şəkildə istifadə edilir. Bu anlayış yaradıcılıq anlayışı ilə sıx əlaqə və vəhdətdədir. Hazırkı dövrdə psixologiya üzrə tədqiqatlarda məktəbli yaradıcılığının müxtəlif növləri fərqləndirilir. Hamı tərəfindən qəbul edilmiş elmi, texniki, ədəbi, musiqi, təsviri sənət və s. bu kimi qabiliyyətlərlə yanaşı oyun, təlim, məişət, hərbi, idarəçilik, situativ yaradıclıq qabiliyyətləri də ayırd edilir.

Yaradıcılıq anlayışı altında yeni maddi və mənəvi "məhsulun" analiz və sintezi üzrə hərəkətlər, təsirlər, metodlar, priyomların məcmuyu başa düşülür. Yaradıcılıq fəaliyyətini fərqləndirən çox mühüm cəhət yerinə yetirilməsi nəzərdə tutulan məsələnin çox əhəmiyyətli informasiyalar şəraitində, yekun nəticələri qiymətləndirmə meyarları əsasında axtarılmasıdır. Bu isə xüsusi metodların köməyi ilə həyata keçirilir.

Bir cəhəti də qeyd edək ki, insan yaradıcı yanaşmaya yiyələnərkən bir sıra üstünlüklərə malik olur. Bunlardan bir neçəsini göstərək.

1. Yaradıcılıq həyat məqsədlərinin və özünü ifadə qabiliyyətlərinin təşək-külü, yeni əlamət və formalar alması prosesidir.

2. Yaradıcı yanaşmaya yiyələnərək ailədə, cəmiyyət kollektivində baş verən ziddiyyətlərin uğurla həll edilməsi, yeni şəraitə müvəffəqiyyətlə adaptasiya olmaq imkanları yaranır.

3. Yaradıcılıq fəaliyyəti prosesində şəxsi keyfiyyətlər – əməksevərlik, məqsədə çatmaq əzmi, inadlı və iradəli olmaq, tənqidə dözümlülük və s. keyfiyyətlər formalaşır.

4. Yaradıcılıq fəaliyyəti prosesində fiziki və əqli əmək fəaliyyyəti ahəngdar şəkildə uzlaşır, biri-biri ilə bağlı olur və s.

Kiçikyaşlı məktəblilərin yaradıcılığı onların orijinal, özünəməxsus fəaliyyət məhsuludur. Təlim prosesində müstəqil olaraq mənimsənilmiş bilik, bacarıq və vərdişlərin tətbiqi, o cümlədən həyata keçirilməsi, həmçinin məlum fəaliyyət üsullarının kombinə edilməsi, qarşıya qoyulmuş vəzifələrin həllinə yeni yanaşmaların müəyyən edilməsi və s. şagirdlərin yaradıcı fəaliyyəti kimi qiymətləndirilir.

Şagirdin müstəqil yaradıcılıq fəaliyyəti onun qarşıya qoyulmuş vəzifələri öyrənməsi, həll edə bilməsidir. Uşaqları yaradıcılıq fəaliyyətinə qoşmaq -modellər, maketlər yarada bilmək, bədii və təsviri yaradıcılıq işləri ilə məşğul olmaq, müəyyən texniki vasitələr hazırlamaq, riyazi məsələləri həll edə bilmək prosesinə qoşmaqdır. Yaradıcılıq fəaliyyəti prosesində uşağın əvvəllər mənimsədiyi bilikləri tətbiq edə bilməsi, onları müxtəlif şəraitdə və müxtəlif məqsədlər üçün istifadə etməyi bacarması, fəaliyyət üsullarının kombinə edilməsinə səy göstərməsi, müəyyən məqsəd və vəzifələrin həllinin yeni yollarını tapa bilməsi olduqca vacibdir.

Şagirdlərin yaradıcılıq fəaliyyətinə qoşulması onalrın şəxsi yaradıcılıq keyfiy-yətlərinin inkişafına, yəni sürətlə oxumalarına, əqli fəallığına, fəhmli və zirək olmasına, özünün bilik ehtiyyatlarına yeni biliklər əlavə etməyə səy göstərməsinə, və beləliklə də uşaqların axtarış üsullarına yiyələnməsinə imkan yaradır. Bu zaman belə kompleks keyfiyyətlərin formalaşdırılması uşaqların müxtəlif yaradıcılıq məhsullarının yaranması ilə nəticələnir ki, bu da şagirdlərin minimum ümumixtisas biliklərinə yiyələnməsini, onların yaradıcılıq haqqında az da olsa fikir və məlumatları mənimsəməsini təmin edir.



Şagirdlərin yaradıcılıq işinə istiqamətləndirilməsi təlimin ilk günlərindən başlamalı, bütün mövzuların tədrisi prosesində və praktik işlərin gedişi zamanı həyata keçirilməlidir. Unutmaq lazım deyil ki, hər bir uşaq oyun fəaliyyətində belə "yaradıcılıq" nümayiş etdirmək istəyir. Ona görə də uşaqların yaradıcılıq imkanlarını üzə çıxarmaq, qorumaq və inkişaf etdirmək ibtidai sinif müəllimlərinin ümdə vəzifəsi olmalıdır.Çünki təsviri fəaliyyət prosesində kiçik yaşlı məktəblilərin yaradıcılıq qabiliyyətlərinin inkişafına müasir təlimdə prioritet sahə kimi baxılır.

### Ədəbiyyat

1. Məmmədov A. İdrak prosesləri, Bakı, 2005
2. Psixologiya (Prof. S.İ.Seyidov və prof. M.Ə.Həmzəyevin elmi redaktorluğu ilə), Bakı, 2007
3. Лейтес Н.С.Способности и одаренность в детские годы. Москва, 1984

### Характеристике творческих способностей младших школьников

***Резюме***

В статье рассматриваются вопросы развития изобразительных способностей в творческой деятельности младших школьников. В ней такпсе освещаются виды ученической дкятельности по изобразительным способностям, вапросы воздействия личных качеств детей на процессы их творческой работы.

### On the characteristics of the creative abilities of young schoolchildren

***Summary***

The article deals with the issues of improving descriptive abilities of young learners in their creative activity. It also explores kinds of learner activities on descriptive abilities and the impact of the personal features on the creative working process of the learner.

# MUXTARİYYAT ƏRƏFƏSİ VƏ MUXTARİYYATIN İLK İLLƏRİNDƏ NAXÇIVANDA MƏKTƏB TƏHSİLİNİN VƏZİYYƏTİNƏ DAİR

**Vahid Rzayev**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*

*Ключевые слова: первые годы автономии, Нахчыванская городская школа, сельские школы, школа с родным языком обучения, русско-азербайджанская школа*
*Key words: first years of autonomy, Nakhchivan city school, rural school, school with native language training, Russian-Azerbaijani school.*

1918-1924-cü illərdə Azərbaycanın siyasi və mədəni həyatında həmişə mühüm rol oynayan qədim Naxçıvan diyarı özünün çox ziddiyyətli və mürəkkəb bir dövrünü yaşamışdır. "Birinci dünya müharibəsi, xarici hərbi müdaxilə, daşnak fitnəkarlıqları və basqınları şəraitində Naxcıvan məktəbləri də demək olar ki, tamamilə bağlanmış, məktəb binaları kazarmalara, xəstəxanalara və yaxud qaçqınlar üçün sığınacaqlara çevrilmişdi" (5, 48). Belə bir vəziyyət mövcud məktəb şəbəkəsinin kəmiyyətcə azalmasına, təlim-tərbiyə işlərinin xeyli dərəcədə aşağı düşməsinə səbəb olmuşdur.

Təhsilin iflic vəziyyətinə düşməsi bu sahə üzrə dövrün statistik təsvirlərində dəqiq olmayan məlumatların yer almasına şərait yaratmışdır. Bəhs olunan dövrə aid arxiv sənədlərində məktəblərin sayı, onların necə bir struktur-məzmuna malik olması ilə bağlı ziddiyyətli məlumatlarla rastlaşırıq ki, bu da həmin dövrün tədris müəssisələrinin tam mənzərəsini yaratmaq işində çətinliklər yaradır, mövcud tarixi, ədəbi, pedaqoji tədqiqatlarda mübahisəli, düzgün olmayan fikir və yanaşmaların formalaşmasına gətirib çıxarır.

Ayrı- ayrı tədqiqatlarda arxiv materiallarına əsaslanaraq göstərilən məlumatların, statistik rəqəmlərin təzadlı mənzərəsi tez-tez müşahidə olunur. Məsələn, bir tədqiqatda 1921-ci ildə 58 məktəbdə 4351 şagirdin oxuduğu qeyd olunur (3,8), digərində 47 məktəb və bu məktəblərdə 2440 şagirdin təhsil aldığı göstərilir(2,29). Yaxud göstərilən tədqiqatların birində Naxçıvan MSSR-nın ilk ilində 75 məktəbin olduğu və bu məktəblərdə 6573 nəfər şagirdin təhsil aldığı qeyd olunur (3, 8), digərində isə 61 birinci, bir ikinci dərəcəli olmaqla cəmi 62 məktəbin mövcudluğundan bəhs olunur (2, 29). Bu cür ziddiyyətli statistik rəqəmlərin sayını artırmaq olar.

Qeyd edək ki, arxiv sənədlərindən irəli gələn bu uyğunzuluqlar bir sıra obyektiv və subyektiv amillərlə bağlı olmuşdur. Diyarın qarşılaşdığı siyasi və iqtisadi çətinliklər, mərkəzi hökumətin faktik olaraq bu çətinlikləri aradan qaldırmaq iqtidarına malik olmaması, məktəblərin maddi-texniki bazasının zəifliyi, tədris ləvazimatlarının çatışmazlığı, müəllim kadrlarının azlığı və s. bu kimi səbəblərdən mövcud məktəblər fasilələrlə işləmiş, hətta bir çox məktəblər öz fəaliyyətini dayandırmalı olmuşdur. Məhz belə bir vəziyyət statistik mənbələrdə qeyri-dəqiq, stabil olmayan məlumat və rəqəmlərin yer almasına şərait yaratmışdır.

Çarizmin bolşevizmə məğlub olması Azərbaycanda milli mənafelərə istiqamətlənmiş siyasi-ideoloji hərəkatın güclənməsinə şərait yaratdı. 1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikasının yarandığı elan olundu. Ölkənin ictimai-siyasi həyatındakı bu dəyişikliyin Naxçıvan bölgəsinə təsiri daha qüvvətli olmuşdur. Lakin "Naxçıvan Milli Komitəsi Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən onunla birləşməyə hazır olduğunu bildirsə də, yaranmış siyasi və beynəlxalq vəziyyət xalqın bu arzusunu həyata keçirməyə imkan verməmişdir" (1 ). Bununla belə bölgənin mədəni və təhsil həyatında az-çox yeniliklərin yaranması, bu təsisatlarda mili məzmuna aid əlamət və keyfiyyətlərin formalaşması az da olsa, müşahidə edilirdi.



Bu dövrdə müxtəlif adda, müxtəlif məzmuna malik tədris müəssisələri fəaliyyət göstərmişdi. Bu tədris müəssisələrini üç böyük qrupda birləşdirmək mümkündür. Birinci qrupa çarizmin rəsmi dövlət məktəbləri kimi yaranmış və yeni şəraitdə fəaliyyətini davam etdirən təhsil müəssisələrini daxil etmək olar. Bura ilk növbədə 1837-ci ildən qəza məktəbi kimi fəaliyyətə başlamış, 1873-cü ildən şəhər məktəbinə çevrilmiş, nəhayət 1912-ci ildən Ali şəhər məktəbi statusu almış təhsil müəssisəsi aid edilə bilər. Yaxşı tədris ənənələrinə malik bu təhsil ocağı Naxçıvan şəhərində rus imperiyasının ilk rəsmi dövlət məktəbi Naxçıvan şəhər məktəbi bölgədə maarifçi ənənələrinin formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Birinci qrupa aid edilə biləcək məktəblər sırasına XIX əsrin sonlarında meydana gəlmiş, XX əsrin əvvəllərində nisbətən geniş şəbəkəsi yaranmış kənd məktəblərini də daxil etmək olar. Tarixə əsasən xalq məktəbləri kimi düşmüş bu tədris ocaqları diyarın Yengicə (1882), Nehrəm (1885), Cəhri (1885), Baş Noraşen (1885), Şahtaxtı (1888), Vənənd (1896), Bənənyar (1896), Mahmudoba (1896), Milax (1896), Biləv (1896), Sədərək (1896), Şahbuz (1896) və digər kəndlərində ibtidai təhsilin yayılmasında əhəmiyyətli rol oynamışdır.

Kənd məktəblərində dünyəvi təhsil verilirdi. Kənd məktəblərini əhəmiyyətli edən cəhət ondan ibarət idi ki, burada şagird kontingenti onların ictimai vəziyyəti nəzərə alınmadan təşkil olunurdu. Kəndin aşağı təbəqəsinə mənsub olan uşaqlar bu məktəblərdə çoxluq təşkil edirdi.

Bəhs olunan dövrdə məktəb təhsili üçün səciyyəvi xüsusiyyət kimi dövrün qabaqcıl pedaqoji ideyalarını və mütərəqqi məzmuna malik milli tərbiyə ənənələrini özündə birləşdirən ana dili məktəblərinin meydana gəlməsi və inkişafı idi. Bu, ikinci qrupa aid olan məktəblər dövrün qabaqcıl pedaqoji ideyalarını və mütərəqqi məzmuna malik milli tərbiyə ənənələrini özündə birləşdirən tədris ocaqları idi. Bu tədris ocaqları Azərbaycan dili, həmçinin ibtidai məktəbin digər fənləri üzrə dərslik və vəsaitlər hazırlamaq işində də əhəmiyyətli rol oynamışdır. Bu məktəblər zamanına görə yüksək pedaqoji-metodik fikrin formalaşması, əhali arasında geniş şəkildə yayılmasında da müstəsna xidmətlər göstərmişdir. Savad təlimində səs üsulunun, əyani təlim metodlarının təbliğində, öyrətmə zamanı onlardan geniş şəkildə istifadə olunması işində bu tədris ocaqları əsl nümunə göstərmişlər.

Doğma diyarda ana dili məktəblərinin yaranması və fəaliyyəti görkəmli pedaqoq, şair, publisist Məhəmməd Tağı Sidqinin adı ilə bağlıdır. Sidqi 1882-ci ildə Ordubadda "Əxtər" məktəbini, 1894-cü ildə Naxçıvanda "Məktəbi-tərbiyə"ni yaratmaqla Azərbaycanda ana dili məktəbləri üzrə təcrübənin zənginləşməsinə, bu sahədə ənənələrin möhkəmləndirilməsinə misilsiz töhvələr vermişdir.

"Məktəbi-tərbiyə" 1896-cı ildə Naxçıvan oğlan rus-Azərbaycan məktəbi adlandırılaraq xalq məktəblər direksiyasının tabeliyinə verildi. Bu məktəb muxtariyyat ərəfəsində də öz fəaliyyətini davam etdirmişdir. Tədqiqatlarda Naxçıvan qız rus-Azərbaycan məktəbi haqqında da məlumatlar verilir. H.Z. Tağıyevin təsis etdiyi qız məktəbinin ilk müdavimlərindən olan tanınmış müəllim və maarifçi Nazlı Nəcəfova 1912-ci ildən bu məktəbdə müəllim, az sonra isə müdir işləmişdir.

Qeyd edək ki, bəzi tədqiqatlarda bu dövrdə təhsil müəssisələri kimi, Naxçıvan şəhərində "Xeyriyyə" məktəbi, Ordubadda ibtidai normal məktəbi ilə yanaşı, "Rüşdiyyə" və "Edadiyyə" məktəblərinin fəaliyyət göstərdiyi bildirilir. Lakin göstərməliyik ki, bu tədris müəssisələrinin reallığı həqiqi elmi faktlar, arxiv sənədləri ilə təsdiqini gözləyir.

Beləliklə, bir çox çətinliklərə baxmayaraq bəhs olunan dövr məktəblərdə yetişən nəslin tərbiyəsi işinin milli zəmin üzərində qurulmasına, bu istiqamətdə lazımi tədbirlərin həyata keçirilməsi işinə səylər kimi çox əhəmiyyətli bir dövr hesab oluna bilər. Bütün bunlar Azərbaycanın siyasi tarixinin mühüm hadisəsi kimi Naxçıvan Muxtar Respublikasının yaranması, bölgədə milli istiqlal ideyalarının güclənməsi və möhkəmləndirilməsi işinin bir hissəsi idi.

**Ədəbiyyat**

1. Baxşəliyev V. Naxçıvan Milli Komitəsinin müstəqillik uğrunda mübarizəsi, "Şərq qapısı", 2014, 29 yanvar
2. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları, Bakı: m və təhsil, 2011.
3. Mollayev İ.A. Naxçıvan MSSR-də xalq maarifinin inkişafı. Bakı: Bilik, 1983.
4. Quliyev M. Unudulmaz maarif fədaisi Nazlı xanım Tahirova. "525-ci qəzet", 2013, 30 may

5. 5.Sadiqov S.N. Naxçıvan Muxtar Respublikasının tarixindən. Bakı, 1995.

**В. Рзаев**

**О положении в школьном образовании в нахчыване до предоставления автономии и в первые годы автономии**

*Резюме*

В статье нашло отражение описание общего положения в городских и сельских школах, русско-азербайджанских школах и других учебных заведениях региона в первые годы автономии Нахчывана.

**V. Rzayev**

**About the situation in school education in nakhchivan before obtaining autonomy and in the first years of autonomy**

*Summary*

Description of the general situation in urban and rural schools, Russian-Azerbaijani school and other educational institutions of the region in the early years of the autonomy in Nakhchivan is reflected in the paper.

# MOLLANƏSRƏDDİNÇİ PEDAQOQLARIN İCTİMAİ, İDEYA-SİYASİ GÖRÜŞLƏRİNƏ BİR NƏZƏR

**Kamal Camalov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*

*Açar sözlər:Mollanəsrəddinçilər, ictimai-siyasi görüşlər, elmə, maarifə həvəs, pedaqoji fikir*
*Ключевые слова: молланасреддиновцы, общественно-политические воззрения, страсть к науке и просвещению, педагогические мысли*
*Key words: mollanasraddin followers, social-political, view points, inclination to education, science*

Mollanəsrəddinçilərin (C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Qəmküsar, Q.Şərifzadə, S.Mümtaz, Y.V.Çəmənzəminli, Ə.Nəzmi, Ə.Haqverdiyev və b.) şəxsi-nöqteyi nəzərləri, soail inkişafın səviyyəsi ilə şərtlənən realist xətti-hərəkətləri vardır ki, əsərlərinin problematika və məzmunu həmin nöqteyi-nəzərlə, həmin xətti-hərəkətlə təyin olunur.

XIX əsrin axırları – XX əsrin əvvəllərində Avropada yeni tipli elm və təhsil ocaqları cərəyan etməkdə idi. Azərbaycanda isə elmin və təhsilin ətalətə uğraması bir sıra maarifçilər dəstəsinin (M.Şahtaxtlı, F.Köçərli, H.Minasazov, C.Ünsizadə, Ə.Hüseynzadə və b.) böyük narahatçılığına səbəb olmuşdu. "İlahi, bizim millətin mərifət baharı nə vaxt gələcək? Elm çiçəklərimiz nə zaman açılacaq? Həmişə belə gözü bağlı, dili lalmı qalacağız? Bu nə halətdir ki, düşmüşük? Bu nə yükdür ki, biz çəkiriz? Daha nə zamana qədər bu cəhalət boyunduruğundan qurtara bilməyəcəyiz? Axı biz də insanıq"[2] – deyərək fəryad qoparanlardan biri də maarifçi-pedaqoq Məhəmmədağa Şahtaxtlı idi.

Məhəmmədağa Şahtaxtlı və onun əməkdaşları xalqa xidmət etməyi, maarif və mədəniyyəti xalq arasında yaymağı ümdə vəzifə hesab edirdilər. Bu kimi xidmət, maarif və mədəniyyət məsələləri isə çar senzurasının ciddi nəzarəti altında idi. Bütün bunlara baxmayaraq, XX əsrin əvvəllərində xalqın elmə, maarifə həvəsində bir canlanma müşayiət olunurdu. Mətbuat orqanlarının sayı durmadan artırdı. Oxucular yeni-yeni əsərlər gözləyirdi. Belə bir dövrdə yeni-yeni ideyaları xalqa vaxtında çatdırmaq vacib idi. Bunun üçün də kiçik həcmli əsərlərə ehtiyac artmışdı. Bununla belə bu əsərlər günün ehtiyacı ilə yarandığından bəzən satirik şeir, felyeton və ya publisistik səciyyəli olurdu, burada da ideyaya üstünlüyü mollanəsrəddinçilər verirdi.

---

[2]. Məhəmmədağa Ş. Seçilmiş əsərləri (Toplayanı, tərtib edəni və ön sözün müəllifi İsa Həbibbəyli). Bakı: Çaşıoğlu, 2006.



Ü. Hacıbəylinin sözləri ilə desək, amal və əfkarı uca olan adamlar H.Zərdabi, M.Şaxtaxtlı, Ə.Ağayev, C.Məmmədquluzadə, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ö.F.Nemanzadə, Ə.Topçubaşov, F.Xoyski, H.Cavid və digərləri bu sahədə önəmli rol oynayıblar. Deməli, milli siyasətimizin məna və mahiyyəti sələflərimizdən bizə yadigar qalıb. Ə.Topçubaşov yazırdı: "Allah biz türklərə anadangəlmə təbii işləmək istedadı verib, ruslar çalışır ki, bizim xalqda olan bu istedadı öldürsün. Bizi təhkimçi halına salsınlar ki, biz kölə vəziyyətinə düşək və zəlil xalq olaq".

Yeni ideyalar aşılayan, məzhəkiçiliyin gələcək yolunu işıqlandıran mollanəsrəddinçilər bir kəndin, bir qəsəbənin simasında böyük bir vilayəti ümumiləşdirir, rast gəlinməyən kamil tip və xarakter yaradır, ilk baxışda nəzərə çarpmayan ailə-məişət məsələlərinə ictimai məna verirdilər. Azərbaycan məktəb və pedaqoji fikir tarixinin qızıl fonduna daxil olan gözəl satirik-ÿumoristik şeir, felyeton, hekayələr də bundan sonra yarandı.

XX əsrin əvvəlləri Azərbaycan ictimai fikri tarixində yeni mərhələdir. XX əsrin əvvəlləri, həm də ədəbi-pedaqoji görüşlərin mübarizəsi ilə diqqəti cəlb edirdi. Yeni dövr pedaqoji fikir mübadiləsinə böyük bir ehtiyac yaratmışdı. Mübahisəyə, müzakirəyə səbəb olan məsələlər isə çox idi. Bu məsələlər mollanəsrəddinçiləri düşündürür və maraqlandırırdı. Sənətin həyata münasibəti, xəlqilik, xalq pedaqogikasından istifadə yolları və s. XX əsr tənqidində öz həllini gözləyirdi. Bildiyimiz kimi, hər mollanəsrəddinçinin dünyagörüşündən, hər qəzetin, hər jurnalın siyasi, ədəbi-pedaqoji mövqeyindən asılı olaraq həll edilirdi. Başqa sözlə, bu məsələlərə cavab verərkən, hər müəllifin, hər mətbuat orqanının ədəbi-pedaqoji mövqeyi öz-özlüyündə meydana çıxırdı.

"Molla Nəsrəddin" jurnalı, Arazın bu tayındakı həmvətənləri kimi, Cənubda yaşayan azərbaycanlıların taleyini də siyasi-tarixi və coğrafi baxımdan əhatəli, iri miqyaslı, ciddi əhəmiyyətə malik ictimai hadisə kimi qələmə almışdır. Bu mənada "Molla Nəsrəddin" jurnalı yalnız Qafqaz türklərinin, daha çox da Şimali Azərbaycan vətəndaşlarının deyil, həm də Cənubi Azərbaycan türklərinin mətbu orqanı olmaq vəzifəsini böyük məsuliyyət və şərəflə yerinə yetirmişdir. Bakıda, Qarabağda, Naxçıvanda olduğu kimi, Təbrizdə, Xoyda və Zəncanda əhali "Molla Nəsrəddin"i vaxtaşırı alıb oxumuş, yaymış və müzakirə etmişdir.

Mollanəsrəddinçilər inqilabi hərəkatın Türkiyə və İranda da genişlənməsi işinə çalışırdı. Mollanəsrəddinçilər jurnalın birinci nömrəsindən başlayaraq qadınlara insan kimi yanaşmayı, qızların da oğlanlar kimi məktəbə cəlb olunması uğrunda mollalarla, qaragüruhçularla ciddi mübarizə aparmışdır. Bunu bir daha 1923-cü ildə 25 fevral tarixli "Kommunist" qəzeti də işıqlandıraraq yazır ki, Bünyadzadə adına teatrda mitinq keçirilmişdir. "Molla Nəsrəddin" məcmuəsinin müdiri Cəlil Məmmədquluzadə alqışlar altında səhnəyə çıxıb əvvəlcə Molla Nəsrəddin tərəfindən hazirunə salam verib deyir ki: bu qoca Molla Nəsrəddin 17 ildir ki, qadınları adamyeyən müsəlman mollalarının və kişilərinin əlindən xilas etməyə çalışır[2].

Yekun olaraq qeyd edək ki, mollanəsrəddinçilər hər şeyə rəğmən ictimai-siyasi həyatın, pedaqoji-psixoloji, ədəbi-mədəni həyatın inkişafı üçün geniş imkanlar, insanların məişətində və şüurunda mühüm dönüş yaratmış, böyük ideallar uğrunda mübarizə aparmışlar.

**К. Джамалов**

**Взгляд на общественные, идейно-политические воззрения педагогов-молланасреддиновцев**

*Резюме*

В статье анализируются интересные мысли самих сотрудников журнала «Молла Насреддин» о его литературно-педагогической позиции и воздействии. В ней подчеркивается, что молланасреддиновцы освещали ряд злободневных вопросов своего времени. Так, Мирза Джалил и его сподвижники рассматривали журнал «Молла Насреддин» как орган, призванный пробуждать политическое сознание народа, как средство печати, ведущее неустанную борьбу с тьмой и невежеством, догматизмом и безграмотностью, царствующими в мусульманском мире.

---

[2]. Q.Məmmədli. Molla Nəsrəddin (Salnamə). Naxçıvan. Əcəmi, 2009.

K. Jamalov

**View to the social conceptions of molla nasraddin follawers-pedagogues**

*Summary*

In the article very interesting view points of members about literary-pedagogical position and influence of Molla Nasraddin magazine were searched. It is noted that Molla Nasraddin follawers touched the most important issues of time in their works. Mirza Jalil and his fellows estimated Molla Nasraddin magazine as a meaus of forming political intellect of people, fighting press sample against ignorance and intellectual darkness, lack of education covering the whole moslem world.

# RƏŞİD BƏY ƏFƏNDİYEV ÜMUMİ TƏHSİL, MƏKTƏB VƏ TƏLİM MƏSƏLƏLƏRİ HAQQINDA

**Vəfa Həsənova**
*Naxçıvan Müəllimlər İnstitutu*

*Açar sözlər: elmi pedaqoji, ümumi təhsil, məktəb, təlim, uşaq baxçası*
*Ключевые слова: научно-педагогическая деятельность, общее образование, школа, обучение, детиский сад*
*Key words: scientific-pedagogical, general education, school, teaching, play schoo.*

Yüksək elmi biliyə, böyük pedaqoji məharətə malik olan və pedaqoji ustalığına böyük səylə öz tələbələrinə öyrədən Çernyayevski Rəşid bəyin pedaqoji həvəs və istedadını görərək onu elmi-pedaqoji işə cəlb etmişdir. Seminariyada yeni təşkil olunan Azərbaycan ibtidai tədqiqat məktəbi üçün proqram və ana dilində dərs kitabı olması pedaqoji təcrübə dərsləri deyən tələbələr tədqiqat məktəbi şagirdləri üçün böyük çətinlik törədirdi. Ona görə də Çernyayevski Azərbaycan tədqiqat məktəbi üçün proqram və dərs materialları hazırlamaqdan ötrü 1886-cı ildə özünün başçılığı altında komissiya təşkil edir. Rəşid bəy Əfəndiyev bu Komussiyanın fəal üzvü olur. Ancaq üsul olduqca çətinlik törətdiyindən Azərbaycan ana dili kitablarına, xüsusilə də, əlifba kitablarına olan ehtiyac günü-gündən şiddətlənirdi.

Rəşid bəy seminariyanın II kursunda oxuduğu vaxtdan Uşinskinin qızğın tərəfdarı olmuşdur. Semyonov və müsəlman şöbəsinin inspektoru Çernyayevskinin təsiri ilə elmi-pedaqoji işə başlamışdır. O hələ tələbə ikən elmi-pedaqoji fəaliyyətə başlamasına Semyonovun böyük təsir göstərdiyini tərcümeyi-halında belə xatırlayırdı.

«Seminariyanın direktoru məşhur pedaqoq Semyonov mənə dedi ki, sən rus şairlərin türk dilinə tərcümə et və yeni məktəb meydana gətirməyə çalışır.»

Buna görə də, Çernyayevski komissiyanın tərtib etdiyi həftəlik proqrama əsasən toplanmış materiallardan 1881-ci ildə bir əlifba kitabı tərtib edərək, bu kitabı 1882-ci ildə Rəşid bəyin xətti ilə çap etdirir. Bu kitab «Vətən dili» adı ilə oxucuların sevimli kitabı olur. Sonralar isə tədqiqat məktəbinin müəllimi Səfərəlibəy Vəlibəyov ilə birlikdə bu kitabı yenidən işləyərək, 1888-ci ildə geniş tirajla çap etdirilir.

Rəşid bəy Əfəndiyev hələ Çernyayevski təşkil etdiyi komediyada «Vətən dili» kitabının materiallarını seçdiyi zaman ana dilində mükəmməl məktəb yaratmaq üçün təkcə əlifba kitabı kifayət etməyəcəyini düşünürdü. Buna görə də o, Evtuşentski və Vulixovun «Elementar həndəsə» kitabını rus dilindən Azərbaycan dilinə tərcümə etməklə bərabər seminariyada həll etdiyi hesab məsələlərindən ibarət «Arorimerika» məcmuəsi kitabını yazmışdır. O, bu kitabda ibtidai xalq məktəbində oxuyan uşaqlara həndəsə və hesabda mükəmməl məlumat verməyə səy edərək, qarşısına qoyduğu məqsədə qismən müvəffəq olmuşdur. Bu əsərlərin çox müvəffəqiyyətli və dəyərli olması onunla izah olunur ki, bu əsərlər seminariyanın başqa ekspanatları ilə birlikdə ümumi-Rusiya kənd təsərrüfatı sərgisində nümayiş etdirilmiş və baş sərgi komitəsi bu ekspanatlara görə seminariyanı gümüş medal və iki dərəcəli diplomla mükafatlandırdı.

Semyonov və Çernyayevski mühazirə və söhbətlərində Uşinskinin pedaqoji görüşləri və tərəqqipərvər fikirləri haqqında ətraflı və dərin məlumat alan Rəşid bəy Əfəndiyevin xəlqçiliyinə əsaslanan pedaqoji görüşlərin və fəaliyyətinin inkişaf etməsində Uşinskinin «Pedaqoji ədəbiyyatın faydası», «Məktəbin üç ünsürü», «Tərbiyədə əxlaqi ünsürlər haqqında», «İctimai tərbiyədə xəlqçilik», «Xalq məktəbinə aid məsələlər və s. adlı məqalələri», «Ana dili», «Uşaq ailəsi» adlı dərs kitablarının böyük rolu olmuşdur. Rəşid bəy tərcümeyi halında yazır ki, «Pedaqogikanı öyrəndikdən sonra mən anladım ki, köhnə məktəb dağılmışdır. Bu isə yalnız Uşinskinin yeni üsulla olan kitabları kimi öz məktəbimiz üçün ana dilində dərs kitabı tərtib etməklə mümkündür». Bu sözlər Uşinskinin pedaqoji görüşləri və irsinin Rəşid bəyin pedaqoji fəaliyyətindəki xəlqlik prinsipləri idi.

K.D. Uşinskinin pedaqoji və metodik əsrlərində xalqa qiymət verərək göstərirdi ki, unutmayaq ki, bu xalq elə bir dərin dil yaratmışdır ki, dərinliyini hələ indiyə qədər ölçə bilməmişik. Xalqın bizə bağışladığı dil təkcə özü qədər böyük təhsilə və inkişafa malik olsa da xalq orqanizminin qarşısında son dərəcə də aşağıda durur.

Bir millətin elmi və mədəni inkişafı üçün onun ana dilinin rolunu dərindən dərk edən və dərk etdiklərini xalqa izahetməyi özü üçün şərəfli vəzifə bilən Rəşid bəy nəzəriyyədən əməli işə keçir. Uşinskinin rus məktəblərindən əcnəbi dilini qovaraq yeni tipli milli xalq məktəbləri yaratmaq üçün ana dilində əlifba və qiraət kitabları yazdığı kimi Rəşid bəy də yeni yaradılan xalq məktəbləri üçün ana dilində dərs kitabları yaratmağı qarşısında əsas məqsəd qoyur.

Rəşid bəy Əfəndiyev seminariyanı bitirib müəllimliyə başladıqdan sonra müəyyən edir ki, «Vətən dili» kitabı vasitəsilə qısa müddətdə ana dilində uşaqlara mükəmməl savad öyrətmək çətindir. Bu çətinliyi aradan qaldırmaq üçün yeni sadə əlifba kitabı lazımdır. Buna görə də o, 1887-ci ildə «Uşaq bağçası» adlı yeni əlifba kitabı yazır. Rəşid bəy bu kitabı yazarkən böyük rus pedaqoqu və özünün Qutqaşen məktəbindəki yeddiillik müəllimlik təcrübəsinə əsaslanır.

Rəşid bəy kitabın yazılmasında Uşinskiyə əsaslandığını öz tərcümeyi-halında belə göstərmişdir.

«Mən o zaman məktəblər tarixinə göz gəzdirdim, gördüm ki, rus məktəbi vaxtilə kilsə slavyan dilində» götürüb ana dilində Uşinskinin «Раднaя слова» kitabı ilə məktəblərini milliləşdirirlər. Tək buna təqlidən balalarının da ərəb və fars dilindəki, mövhumatı lüğət əzbərləmək ana dilində əsaslı bir dərsxana meydana gətirə bildim.

Ərəb hərfinin hər birinin başda, ortada, sonda və başqa hərflərlə bağlı yazılan dörd şəkli göstərilirdi.

Beləliklə, şagirdlər 32 hərf əvəzinə 28 hərf şəkli öyrənilməsi üçün 6 ay vaxt lazım gəlirdi. Belə olduqda isə uşaqlar qırıq-qırıq, rabitəsiz səslərdən ibarət cümlələrdən başqa birinci sinifdə heç bir məzmunlu qiraət parçası öyrənə bilmir və ifadəli yazılar yazmaqdan məhrum qalırdılar. Hər bir hərfin 4 şəklinin öyrənilməsi həm də dərs zamanı şagirdləri çaş-baş salır və ana dilindən çoxlu imla səhvlərinin buraxılmasına səbəb olurdu. Buna görə də Rəşid bəy «Uşaq baxçası» kitabını tərtib edərək, ərəb əlifbasından Azərbaycan dilinə lazım olmayan, dilimizin ahəngdarlığını pozan, uşaqların ana dilində mükəmməl savad öyrənməsinə mane olan 8 hərfi tullayır. Hər bir hərfin öyrənilməsi üçün bir dərs tətbiq edir. Beləliklə, bütün hürufatın asan və mükəmməl sürətdə öyrənilməsini bir aya qurtarmağı nəzərdə tuturlar. Bunun nəticəsidir ki, müəllim «Uşaq bağçası» kitabının cildi üzərində haqlı olaraq «Savadsız adam bu kitabı bir ayda oxuyar və yazar» cümləsini yazmışdır.

K.D. Uşinskinin ana dilində kitabını təkcə savad öyrənməsi kifayət hesab etməyərək, bu kitabların uşaqlara faydalı elmi və həyati tərbiyəvi bilik verə bilməsini də təkidlə tələb edirdi. O, yazırdı: «yalnız savad məktəbləri faydasına olaraq, öz azadlığından istifadə etməyi öyrənsin».

Rəşid bəy də Uşinskinin bütün bu fikirlərini rəhbər tuturdu. Uşinskinin uşaqlar üçün yazdığı əlifba və oxuya aid dərs kitabları təbiət və coğrafiyadan da məlumat verirdi. Çünki o uşaq zəkasının və şüurunun təbiət, coğrafiya və tarix dərsləri vasitəsilə daha geniş və düzgün inkişaf etməsini irəli sürürdü. Rəşid bəy də buna əsaslanaraq kitabındakı bir sıra bədii materiallarda elmi-təbii, coğrafi, tarixi hadisələr və onun quruluşu haqqında məlumat vermişdi.

Bütün bu materiallar uşaqların dünya görüşünün obyektiv surətdə inkişaf etməsinə kömək edirdi.

Uşinskiyə görə, tərbiyə yalnız insanın ağlını inkişaf etdirmək deyil, həmdə onda əməyə ciddi ehtiras sevgi və bədiilik yaratmalıdır. Uşağı fəal işə əməyə və şəxsi yaradıcılıqla yanaşaraq

müsəlman məktəblərinin inkişafına, müsəlman ruhanilərinin təsirinə qarşı ciddi mübarizə etməklə ana dilində ümumi xalq məktəbləri şəbəkəsinin inkişafı üçün çalışmağı rus və Azərbaycan xalqları arasında dostluğun, mehribançılığın möhkəmlənməsini təbliğ etmişdir. Uşinskinin pedaqoji fəaliyyətində müəllimlərə metodik göstərişlər verilməsi məsələsi də mühüm yer tuturdu. Uşinskinin ardıcılı olan Rəşid bəyin pedaqoji fəaliyyətində də uşaqlara ana dilindən savad öyrənmək üsulları haqqında müəllimlərə metodik göstərişlər verilməsi özünü bariz şəkildə göstərmişdir.

## MÜASİR DÖVRDƏ ŞƏXSİYYƏTİN FORMALAŞMASINDA YUSIF VƏZIR ÇƏMƏNZƏMİNLİ İRSİNDƏ AİLƏNİN ETNOPSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Könül Həsənquliyeva,**
*ADPU -doktorantı*
E-mail: elmi hisse@mail.ru

***Açar sözlər:*** *Ədəbiyyat, yazıcı, Azərbaycan xalqı, ailə*
***Ключевые слова:*** *литература, писатель, азербайджанский, народ, семья*
***Key words:*** *literature, writer, Azerbaijani, people, family*

Yusif Vəzir Çəmənzəminli Azərbaycan həyatını yenidən qurmaq, müasirləşdirmək və maarifləndirmək proqramında qadın mühüm yerlərdən birini tutmuşdur. Azərbaycan qadınlarının insanlığı, hüquq azadlığı, bərabərliyi barədə çox adamın danışmağa cəsarət etmədiyi bir dövrdə Yusif Vəzir Çəmənzəminli istər əsərlərində və istərsə də ictimai-siyasi fəaliyyətində Azərbaycan qadınlarının dözülməz vəziyyətinə fiziki-mənəvi əsarətinə qarşı çıxmış və bir neçə «Dəli», «Qoca nənənin ölməsi münasibətilə», «Ana və analıq , «Arvad əziz məxluqdur», «Analıq hissi müqəddəsdir», «Analara hörmət etmirlər», «Arvada ixtiyar verilməlidir», «Analıq», «Evdar arvad»,«Arvadlar elmli gərək olsunlar», «Arvadsız uşaqlar», «Analı yetimlər», «Analı uşaqlar», «Həqiqi ana», «Studentlər», «İki od arasında», «Qızlar bulağı», «Qan içində», «Dürnisə və Kərbəlayı Eyvaz», «Mariya», «Qayınananın oyunları» və s. o, qadın probleminə yeni özünəməxsus istiqamətdən yanaşmışdır.

«Nizamlı milli bir məktəb qurtarmış, çox bilikli, açıq fikirli bir arvad təsəvvür ediniz. Bu anadır. Ana mehriban bir adamdır. Bunun qəlbi dili ilə, dili də qəlbi ilə müvafiqdir. İkisi də təmiz ikisi də pak və pakizə... Həqiqi ana balalarını döyməz. Bunları tənbeh eləməz. yalnız analara məxsus bir istedadla övladlarının ürəyində bir hiss oyandırar. Bunun sayəsində balalar analarını istərlər. Ona hörmət edib sözlərinə əməl edirlər» (Y.V. Çəmənzəminli. Əsərləri, 2005, I c. səh.436).

Y.V. Çəmənzəminli analığı qadının müqəddəs vəzifəsi hesab edir. Onun fikrincə ana tanrının fikirlərinin vasitəsidir. Çünki analıq təkcə övlad dünyaya gəlməkdən ibarət deyil, ana övladına tərbiyə verir, pisi və yaxşını başa salır, balasının salamatlığından ötrü canını əsirgəmir. Gözəl və həssas bir qəlbə malik olan sənətkar ən ümdə xüsusiyyətlərindən biri kimi aşağıdakıları qeyd edir. «Analar böyük vəzifələrini icra etdikdə heç bir əvəz almaq fikrində olmurlar. Çünki əvəz adi insan arasında xüsusi işlərdə olar. Analıq isə xüsusilikdən çox uzaqdır. Analıq o qədər ucadır ki, öz-özlüyündə elə bir müvəffəqiyyətdir ki, ona nail olmağa kişilər layiq olmamışıq. Bu imtiyaz təkcə arvadlara verilib» ( Y.V Çəmənzəminli. Əsərləri, 2005, I c. səh.437).

Qeyd edək ki, gender anlayışı «məğlub-kişi- məğlub-qadın» fəlsəfəsinə söykənmir. Bu, konkret olaraq vacib olanın mövcud olana münasibətləri ifadə edir. Bu fikrin aydın ifadəsi üçün mövcud olanlara əsrlərdən bəri istər dini, istərsə də əxlaqi, fəlsəfi, bədii ədəbiyyatlarda əks olunan fikirlərin fonunda nəzə yetirmək lazımdır. Üca Allahımızın bəşər övladına mərhəmətinin təcəssümü olan «Qurani-Kərim» bir çox surələrində qadına münasibətin dünyaya övlad gətirən anaya yaraşacaq dərəcədə gözəl olduğunu görürük.

Yusif Vəzir Çəmənzəminlinin yaradıcılığı bu baxımdan diqqəti cəlb edir. Yusif Vəzir Çəmənzəminli həmişə xalqını sevən, onun folklorunu, elmini, dini etiqadlarını bilən, milli-mənəvi dəyərlərinin yüksək qiymətləndirən, gənc nəslin elm və savad almasına çalışan, onların milli ruhda yetişmələrinə yüksək qiymət verən tarixi şəxsiyyət kimi göz önünə gəlir.



Yusif Vəzir Çəmənzəminli əsərlərində etnopsixoloji baxımdan düzgün qurulmayan ailələrin sonunda faciə ilə bitməsini əsərlərində təhlil edir, ata-anaların, uşaq və yeniyetmələrin, gənclərin faciəli taleyinə diqqət cəlb edirdi. «Biz kimik və istəyimiz nədir?», «Milli-mədəni işimiz», «Azərbaycan nağıllarının əhval-ruhiyyəsi», «Folklor yoldur», «Ana və analıq», «Arvad əziz məxluqdur», «Analıq hissi müqəddəsdir», «Analara hörmət etmirlər», «Arvada ixtiyar verilməlidir»,«Analıq», «Evdar arvad», «Arvadlar elmli gərək olsunlar», «Arvadsız uşaqlar», «Analı yetimlər», «Analı uşaqlar», «Həqiqi ana», «Müsəlman arvadlarının sərgüzəştləri», «Kənddən şəhərə göndərilmiş bir kağız», «Şaqqulunun xeyir işi» hekayələrində, «Studentlər», «Qızlar bulağı», «Qan içində» adlı romanlarında ictimai-sosial həyatın digər problemlərinin göstərməklə yanaşı, ailə həyatının etnopsixoloji məsələlərinin də tədqiq etmiş, gənc hələ elmin, savadın, təhsilin qüdrətini əyani olaraq göstərmişdir. «Şaqqulunun xeyir işi» hekayəsinə diqqət yetirək. Hekayədə kənddəki bir ailədən (ailə başçısı- Nalbənd Kərbəlayı Qurban, onun arvadı Nənəxanım, oğlanları Şaqquli bəy) söhbət gedir.

Yusif Vəzir Çəmənzəminli elmi faktlarla sübut edir ki, ailə cəmiyyətin yaşadıcısıdır, onu qoruyub saxlayan ilk özəkdir. Ailədə təhsil bərqərar olmalıdır. Ər-arvad, uşaqlar bərabər hüquqa malik olmalıdırlar. Azərbaycan ailələrində diqqəti cəlb edən müsbət adət-ənənələr (ailə ləyaqətini namus və qeyrət, qadın və qızların ismətini, kişi qüruru, mərdlik və dözümlülük, qarşılıqlı hörmət, böyük-kiçik yerini gözləmək, nəsilə, kökə, qan yaddaşına, torpağa, vətənə bağlılıq, yüksək əxlaq, əxlaqi məsuliyyət və s. onlarca başqaları) çoxdur, bunlara əməl olunmalı, ailənin saflığı üçün ailə üzvləri arasında həya, abır gözlənilməli, üzvlər arasında psixoloji pərdə götürülməməlidir. Övladın yaxşısı ona anasından qalan mirasla deyil, ağlı ilə ölçülür. Övlad üçün ən yaxşı miras ata-babaların qoyub getdiyi əxlaqi, sosial-psixoloji sərvətlərdir.

Yusif Vəzir Çəmənzəminli bir daha göstərir ki, ailə valideyn-övlad münasibətlərində adət-ənənələr pozulanda, həya-abır gözlənilməyəndə övladlar validenylərin üzünə ağ olur, onları saymırlar. Şaqqulu evə qayıdanda anasının atası ilə sözləşdiyini görüb soruşur:

«-Nə olub, yenə qoca kişi ilə dava-dalaş eləmişsiniz ay nənə! Nə üstə oldu, de görüm.

- Nə üstə olacaq? Sənin üzündən. Deyir niyə gecələr gəlir» (s.23).

Şaqqulu bunu eşidən kimi qəzəbi halda: «Onluq nə var? Gəzirəm özümə. Vallah boğazını quş boğazı kimi üzərəm» deyib yatmağa getdi (s.23).

Yusif Vəzir Çəmənzəminlinin Azərbaycanın bir çox ailələrindəki bu vəziyyət narahat edirdi. O, əyani surətdə gənclərə, onların valideynlərinə göstərirdi kit, belə ailələrdən cəmiyyət üçün, millət üçün saf niyyəti, əxlaqlı, mənəvi kamilliyə malik olan şəxsiyyət yetişdirmək çətindir və belə ailələrin sonu yoxdur.

Beləliklə, Y.V. Çəmənzəminlinin yaradıcılığının təhlilindən bu nəticəyə gəlmək olar ki, qadın əxlaqi cəhətdən təkmilləşməli, islamiyyətdə və ümumiyyətlə cəmiyyətdə böyük hörmət bəslənilən analıq adına və mənsubiyyətinə layiq olmalıdır. Üzərinə belə böyük məsuliyyət qoyulmuş qadın-ana öz dəyərini bilməli və bu məsuliyyəti dərk etməlidir. Çünki ananın mənəvi cəhətdən yoxluğunun cəzasını həm ailədəki övladlar, həm də cəmiyyət çəkir. Bu isə pism və acınacaqlıdır.

**Ədəbiyyat**

1. Yusif Vəzir Çəmənzəminli. Seçilmiş əsərləri. III cildlik. I cild Bakı,2005
2. Yusif Vəzir Çəmənzəminli. Seçilmiş əsərləri. III cildlik. II cild Bakı,2005
3. Yusif Vəzir Çəmənzəminli. Seçilmiş əsərləri. III cildlik. III cild Bakı, 2005
4. Z.Göyüşov. Əxlaqi sərvətlər. Bakı,1986
5. Z.Göyüşov XIX əsr Azərbaycan maarifçilərinin etik görüşləri. Bakı, 1960
6. Z.Göyüşov. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri. Bakı, 1964
7. Ə.Baxşəliyev. Azərbaycan mili-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti. Bakı,2011
8. Ə.Baxşəliyev. Psixologiya tarixi oçerkləri. Bakı,2012

**Этнопсихологические задачи семейных отношений в наследие Юсиф Везир чеменземинли**

***РЕЗЮМЕ***

В истории многовековой азербайджанской литературы особое место занимает имя и творчество Юсифа Везира Чеменземинли. Развитие азербайджанской литературы XX века, в частности, прозы и

романа, трудно представить без произведений этого замечательного писателя. Будучи человеком, обладающим огромным запасом знаний, наделённым редким талантом в области литературы, он щедро отдавал себя развитию и приумножению духовного богатства родного народа, самоотверженно служа ему своим оружием – пером: пером писателя, публициста, фольклориста, учёного. В своих произведениях выдающийся мастер слова неоднократно изображал историю родного края, обращался к судьбам отдельных представителей азербайджанского народа.

**Ethnopsychological problems in family relationships legacy Yusif Vazir Chamanzaminli**

***Summary***

In the centuries-old history of Azerbaijani literature occupies a special place the name and work of Yusif Vazir Chamanzaminli. Development of Azerbaijani literature of the twentieth century, in particular, prose and novel, it is difficult to imagine without the works of this remarkable writer. As a person who has a huge amount of knowledge, endowed with rare talent in the field of literature, he generously gave himself to the development and enhancement of the spiritual wealth of the native people selflessly serving him his weapon – the pen: the pen of the writer, journalist, folklorist scientist. In his works, a master of words repeatedly portrayed the history of his native land, appealed to the fate of individual representatives of the Azerbaijani people.

## MAARİF FƏDAİSİ ƏLİQULU QƏMKÜSAR

**Gülmira Hacıyeva,**
*Naxçıvan Müəllimlər İnstitutu*

***Açar sözlər:*** *Əliqulu Qəmküsar, mühərrir, təlim-təhsi, milli azadlıq,*
***Ключевые слова:*** *Алигули Гамкусар, национальная свобода, творчество*
***Key vords:*** *Aliqulu Gamgusar, teaching, education, national freedom, creativity.*

XX əsr Azərbaycan pedaqoji fikir tarixində görkəmli satirik şair, mollanəsrəddinçi kimi tanınan Ə. Qəmküsarın bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırmaqdan ibarət olub. O, həmişə millətini, xalqını həddindən artıq sevən və millətinə həddindən artıq xidmət edən bir insan olmaqla yanaşı, həm də qorxmaz, döyüşkən bir mühərrir olmuşdur.

«Molla Nəsrəddin» həm də səhnələşdirilmiş əsərləri ilə Bakıda, Təbrizdə, Naxçıvanda və Gəncədə yayılıb şöhrətləndiyi qədər, Tehranda və İstanbulda, Daşkənddə və Aşqabadda, Kazanda və Orenburqda, Həştərxanda və Ufada, Moskvada və Peterburqda, Səmərqənddə və Kəlkütdədə də yayılmış, hər yerdə də mütərəqqi ictimai qüvvələr mühitində böyük nüfuz qazanmışdır.

Molla Nəsrəddin» jurnalının hər bir əməkdaşı təqiblərə, tənqidlərə, təhqirlərə, hücumlara, hədələrə və s. məruz qalmışdır. Ancaq bütün bunlara rəğmən mollanəsrəddinçilər yollarından dönməmiş, öz amal və ideyalarına sona qədər sadiq qalmışlar. Belə hücumlara məruz qalanlardan biri də Əliqulu Qəmküsar olmuşdur. Azərbaycan SSR xalq artisti Mustafa Mərdanov «Əlli il Azərbaycan səhnəsində» adlı kitabında İrəvanda Ə. Qəmküsarın başına gələn bir faciəvi hadisəni belə xatırlayır: «Birinci «Dəmirçi Gavə» tamaşasını göstərdik. İkinci tamaşamız «Ölülər» oldu… Onu da deyim ki, tamaşaçılar bir yana qalsın, biz aktyorlar da Mirzə Əliqulunun roluna valeh olmuşduq. «Ölülər» tamaşası böyük müvəffəqiyyətlə keçdi. Mirzə Əliqulunu üç dəfə səhnəyə çağırdılar. Bütün salondakılar onu səmimi alqışladılar.

…Lakin bu sevinc çox davam etmədi… Mehmanxana xidmətçisi tələsik içəri girib məni oyatdı:

«Durun, cənab Mərdanov, yoldaşınızı öldürdülər!»

Mən tələsik geyinib aşağı düşdüm. Mirzə Əliqulunu başı-gözü qan içində mehmanxana qabağında uzatmışdılar. Əhvalat belə olmuşdu: Mirzə Əliqulu adəti üzrə «Molla Nəsrəddin» jurnalı üçün material toplamaq məqsədi ilə hacıların, kərbəlayların, seyidlərin, dərvişlərin bol yeri olan İrəvan bazarına gedibmiş. İrəvan möminləri, «din mücahidləri» dünənki «biabırçı» tamaşadan xəbər tutub, onun əsas iştirakçısı olan Mirzə Əliqulunu gördükdə: «Bu kafir oğludur bizim dinimizə



gülüb, şeyxlərimizi biabır edən, budur babı oğlu, babı!» – deyərək şairi döyüblər. Mirzə Əliqulunu Tiflisə göndərməli olduq».

Fanat mollalar qızların təhsil almasını, musiqini, xarici dilləri, dünyəvi elmləri və s. öyrənməyin «Quran»da haram buyrulduğunu misal gətirirdilər. Onlar baxışlarında qızların oxumasını, təhsil almasını islam dinə qarşı çıxmaq kimi dəyərləndirirdilər. Əliqulu Qəmküsarın müəllimi, görkəmli pedaqoq-müəllim Məhəmməd Tağı Sidqi də «Quran»dan sitat gətirərək qara camaatı inandırmağa çalışırdı ki, qızların təhsil almasında heç bir qadağa yoxdur.

Belə uzun sürən mübahisə və təbliğatdan sonra 1896-cı ildə Sidqi «Qız məktəbi» təsis etmiş və cəmi səkkiz qızın təhsil və tərbiyəsi ilə məşğul olmuşdur. Sidqi qızlara dünyəvi təhsil verməklə kifayətlənməmiş, həmçinin bu gün də tərbiyəvi əhəmiyyətini itirməyən (təxminən bir əsrə yaxın olmasına baxmayaraq) gözəl bir dərslik «Töhfei-benat, yainki qızlara hədiyyə» əsərini ərmağan etmişdir.

«Molla Nəsrəddin» jurnalının əməkdaşları da ağlasığmayan bu fikirləri alt-üst edir, din xadimlərini dinə, şəriətə sədaqətlə qulluq etməyə çağırır, onları tərbiyələndirməyə çalışırdı.

Azərbaycan xalqını, onun mədəniyyətini, pedaqoji fikir tarixini, elmini yüksəklərə qaldıran Əliqulu Qəmküsarın yaratdığı əsərlər milli sərvətdir. Mir Cəlal Paşayevin və Firidun Hüseynovun universitet tələbələri üçün müştərək hazırladığı «XX əsr Azərbaycan ədəbiyyatı» adlı dərslik kitabında qeyd edilir ki, «Yerli (Naxçıvan) ləhcənin təsiri də Qəmküsarın əsərlərində duyulmaqdadır» (3, səh.218).

Cəmisi 39 il yaşayan Əliqulu Qəmküsar XX əsrdə Azərbaycan pedaqoji fikirinin inkişafı tarixində, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. 1919-cu ildə axşam evə qayıdarkən «Qızıl ordu»nun agent əsgərinin gülləsinə tuş gələn Əliqulu Qəmküsarın ölümü «Molla Nəsrəddin» jurnalının əməkdaşlarının kədərinə səbəb oldu.

Yekun olaraq qeyd edək ki, Əliqulu Qəmküsarın bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan və həmçinin xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur.

**Ədəbiyyat**

1. Əliqulu Qəmküar. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006.
2. İ. Mollayev. M.T. Sidqinin təlim haqqında fikirləri // Naxçıvan, Naxçıvan, 2004, №
3. Mir Cəlal., F. Hüseynov. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982.

## ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНСТВА В ПРОСВЕТИТЕЛЬСКОМ ДВИЖЕНИИ АЗЕРБАЙДЖАНА КОНЦА XIX – НАЧАЛА XX ВЕКА

**Саида Пашаева,**
*главный методист Сумгаитского государственного университета*
E-mail: saida.74@list.ru

***Ключевые слова:*** *национальная идентичность, государственность, идеология, просвещение, прошлые столетия*
***Açar sözlər:*** *milli identikliyi, dövlətçilik, ideologiya, maarifçilik, ötən əsrlər*
***Key words:*** *national identity, state, ideology, education, past centuries*

Вопрос об идеологии азербайджанства и азербайджановедение стал объектом исследования различных областей наук. Так, им занимались Н. Шамсизаде «Идеология азербайджанства», Анар «Размышления об азербайджанстве», Р. Мехтиев «Азербайджан:историческое наследие и философия независимости», «Политика Азербайджана: вчера, сегодня, завтра», Я. Гараев «Национальное самосознание и азербайджанство – этническая память», Н. Джафаров «Введение в азербайджановедение», А.Тагиев «Национальная идея и национальная идеология» и многие другие. Несмотря на то, что в научной среде термин азербайджанство считается относительно

новым понятием, можно утверждать, что идеи этого понятия уходят корнями в далекое прошлое и тесно связаны с развитие идеологии просвещения конца XIX- начала XX века. Нынешнее развитие этого понятия связано с потребностью национального единения. Берущее свое начало еще с мифологии, нашедшее свое дальнейшее развитие в период просветительства, реализма и романтизма в период XIX-XXвека, идеология азербайджанства с 1918-го года стала основной идеологией в первом демократическом государстве на Востоке.

Сформированная в процессе борьбы с имперскими идеями, независимая идеология стала для всех народов, проживающих в этом государстве, нравственной святыней. Она стала своеобразным итогом развития просвещения. С одной стороны, издательство «Фиюзат» с идеей тюркизма, с другой – деятельность «Молла Насреддина» с широким распространением идей национальной идентичности.Это и создание азербайджанского отделения Горийской Семинарии, и создание первой «Азбуки». Кроме того, широкая деятельность представителей просветительства и известные на весь мир имена Ф. Кочарли, С. Велибеков, С. Ганизаде, У. Гаджибейли, Дж. Мамедкулизаде, Р. Эфендиев, М. Магомаев, С. Ахундов, Г. Сулейманов, Н.Нариманов, О. Эфендиев, И. Векилов, Ф.Агазаде и многих других, которые после окончания Горийской Семинарии подключились в ряды борющихся за независимость Азербайджана и неотступно до конца своей жизни продолжали эту борьбу. Известна историческая роль газеты «Экинчи» и самого Г.Зардаби, призывающего подрастающее поколение не забывать свои корни, что способствовало развитию таких патриотов Родины, как А. Топчибашов, А.Агаоглу, А. Гусейнзаде. Именно статья А. Гусейнзаде «Что такое молодой тюркизм?», напечатанная еще в начале прошлого столетия в газете «Каспий», стала толчком для развития идеологии азербайджанства с целью объединения всей нации. Написанные им статьи в различных изданиях того периода – «Фиюзат», «Жизнь» и многих других –служат единственной идее, которая отражена в одном предложении: «Мы нуждаемся в патриоте с тюркским самосознанием, с исламскими вероисповеданием, Европейскими (современными) идеями». Тем самым он стал маяком в развитие идеологии азербайджанства, которое с 1907 по 1918 год было немало важным, так как воспитание в подрастающем поколении национальных и патриотических чувств является ведущим фактором в успешном развитие государства.

Большие заслуги в существовании и модернизации азербайджанства принадлежат Гейдару Алиеву. Он был не только теоретиком, но и практиком. Помимо разрешения проблем своего периода, он также внес большой вклад в определении будущего пути азербайджанского народа.

"Для каждого человека национальная принадлежность является источником гордости. Я всегда гордился и сегодня горжусь тем, что я азербайджанец. Каждый азербайджанец должен гордиться своей национальной принадлежностью, мы должны развивать азербайджанство – язык, культуру, национально-духовные ценности, обычаи и традиции Азербайджана. Основой идеи является то, что азербайджанцы, живущие в различных странах, не забывали своих национальных корней, национальной принадлежности. Нас всех объединяет идея азербайджанства».

После обретения Азербайджаном государственной независимости азербайджанство, как ведущая идея, стала основной идеей для всей нации во всем мире. Ни одно средство не объединяет народы так, как язык, национально-духовные традиции, ценности.

**Литература**


1. Из выступления Президента Азербайджана Гейдара Алиева на I съезде азербайджанцев мира, 9 ноября 2001 г.
2. Мехтиев Р.Э. Азербайджан: историческое наследие и философия независимости. Баку, 2001
3. Cəbrayılov R.K. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Bakı: Azərbaycan, 2011.
4. Tahir Aydınoğlu. Heydər Əliyev azərbaycançılıq ideologiyasının banisidir. Bakı, 2009.



**S. Pashaeva**

**XIX əsrin sonu-XX əsrin əvvələrində Azərbaycan maarifçi hərəkatində azərbaycançılıq ideologiyasi**

***Xülasə***

Hər bir ölkənin mütərəqqi inkişafı milli potensialından asılıdır. Nə dərəcədə o sağlamdır, o dərəcədə də onun nailiyyətləri bütün sahələrdə yüksəkdir: həm iqtisadiyyatda, həm də elm və təhsildə. Bir dövlət kimi Azərbaycanın inkişafı eyni ərazidə yaşayan bütün xalqları bir araya gətirmək məqsədi olan ideologiyasından asılıdır. Məqalədə azərbaycançılıq anlayışının tarixi əsasları araşdırılır.

**S. Pashaeva**

**Ideology azerbaijanism educational movement in Azerbaijan late XIX – early XX century**

***Summary***

Progressive development of any country depends on its national capacity. How good is great, and so are his best achievements, both in the economy and in science and education. Azerbaijan's development as a nation depends on ideology, the purpose of which is to bring together living in the same territory all peoples together. The article discusses the historical basis of such concepts as Azerbaijanism.


## MƏMMƏD ARAZIN "ATAMIN KİTABI" POEMASINDA MƏNƏVİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ


**Mehparə Əhmədova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: mehbara@mail.ru



***Açar sözlər:** xalq şairi Məmməd Araz, mənəvi tərbiyə, atamın kitabı, torpağa bağlılıq*
***Ключевые слова:** народный поэт Мамед Араз, нравственное воспитание, «Книга моего отца», привязанность к земле.*
***Key words:** national poet Mammad Araz, moral education, "My fathers book", loyailty to the homeland.*


Mənəvi tərbiyə məsələləri ilə bağlı Məmməd Arazın "Atamın kitabı" poeması əvəzsizdir. Poema çoxplanlıdır. Lakin pedaqoji fikir tarixində bu dəyərli əsər təhlil obyektinə çevrilməmişdir.

Məmməd Arazın təsvir və tərənnüm etdiyi İnsan da, Torpaq da ümumi fəlsəfi, bəşəri kontekstindən çox konkret milli koloriti ilə seçilir. Bu torpaq müqəddəs Azərbaycan torpağı, zəhmətkeş, məğrur İnsan azərbaycanlıdır. Onlar həm ümumiliyi, həm də fərdiliyi təmsil edirlər. Mərhum şair İsa İsmayılzadə yazırdı: "Atamın kitabı" -Azərbaycan torpağı haqqında, bu torpağın yetişdirdiyi nurlu, müdrik ağsaqqallar haqqında, təbiətlə üz-üzə, nəfəs-nəfəsə ərsəyə yetişən insanlar haqqında etiraf nəğməsidir (1).

Poemada ağır müharibə illərinin nəfəsi duyulur. Xalqın dözümündən, çətin imtahan günlərindən səhifələr açılır, insan sədaqətindən, dostluq sınağından, insanın insana inamından bəhs edilir.

"Haşiyə" fəslində şair təsirli, yaddaqalan bir səhnə yaratmışdır. Burda insan sədaqətinin imtahan səhnəsi qısa sətirlərdə açılır. Ömrü boyu toxum səpən əllərə bir kağız uzadıb "qol çək" – deyə tələb edənlərə qoca – "əlli ilin qonşusuyuq, o dumdurudu" – deyə rədd cavab verir. Onu cinayətə, haqsızlığa sövq edənlərə "bu saqqalıma yaraşmaz, axı, kişi olan böhtan işə bulaşmaz axı!" – deyir. Bu səmimi etirafın qabağında haqsızlığın amansız səsini eşidir.

Poemanın "Bir qəbrin önündə" fəsli pedaqoji-psixoloji sadəliyin təsir gücünə yaxşı misal ola bilər.

Mahmud qızının qəbrinə üz tutub sanki özü-özü ilə xatirələr dilində danışan qəhrəman, oxucunu da özü ilə bərabər sınaqlı, incikli günlərə aparır.

Qardaş getdi, oğul getdi davaya,
Qadınların kişiliyi başladı.
Yanğın düşdü gəlinlərin ömrünə,
Gülüşlərin payızlığı başladı.
Qəzəblərin səpinləri başladı,
Nifrətlərin əkinləri başladı,
Sınaqların çətinləri başladı (3, 161).

Bu tutumlu, amansız sətirlərdə romantik şair Hüseyn Cavidin publisist yazısı olan "Həsb-hal" əsəri hər bir oxucunu necə riqqətə gətirirsə? M. Arazın "Atamın kitabı" poeması da həzin bir həsb-hal ilə başlayır.

Yer üzündə fəlakət yaradanların, yurdları kor qoyan, insanları didərgin salan qara qüvvələrin

hökmü nə qədər davam edəcək? Şair insan səadətinə qənim çıxanları yer üzündən yox etmək üçün "qələmlərin ucundakı qara gilə amansız qara güllə olmalıdır" - deyir. Sənət insan, insan səadəti uğrunda mübarizə silahı olmalıdır. Poema tragik notlarla zəngin olsa da, nikbinlik əhval ruhiyyəsi də öz əksini göstərməkdədir. Şair ömür yolumuzun çətin döngə-dolaylarını bacarıqla təsvir edir ki, bu çətinlərdən qalib çıxan insanların sadə qəhrəmanlığını, sadə qəlbini, mətanət və inamını gözümüzdə və zehnimizdə canlandırır.

Diqqətəlayiq haldır ki, poemada qələmə alınan atanın nüfuzu zorakılığa, lovğalığa, süni məhəbbətə, gərəksiz mərhəmətə əsaslanır. Ailənin başçısı öz nüfuzunu həyatı və işi, vətəndaşlıq siması, davranışı ilə qazanır, halallıq, zəhmətsevərlik, torpağa məhəbbət onun əsas keyfiyyətləridir. Yüzillik ömrünü özünəməxsus intizamla yaşayan valideyn eyni dəqiqliyi övladlarına da aşılayır.

Məmməd Araz "Atamın kitabı" poemasında xeyirxahlıq, ədalət, haqq sözü demək, ədəb qaydaları, mənəvi tərbiyə, onun tərkib hissələri haqqında, elmlə tərbiyənin vəhdəti haqqında, anaya, ataya, yaxın qohumlara məhəbbət, böyüyə hörmət, kiçiyə qayğı haqqında bu gün mənəvi tərbiyənin, ümumiyyətlə tərbiyənin əsasını, məhək daşını təşkil edən fikirlər söyləmişdir.

**Ədəbiyyat**


1. İsmayılzadə İ. Poetik həqiqətin gücü. "Ədəbiyyat və incəsənət" qəz., 1976, 31 yanvar
2. Məmməd Araz. Seçilmiş əsərləri. Dörd cilddə, IV cild. Bakı: Ozan, 2003.
3. R. Rza. Duyğuların izi ilə. Bakı: Yazıçı, 1990.



**М. Ахмедова**


**Вопросы нравственного воспитания в поэме «Книга моего отца» Мамеда Араза**


*Резюме*

Объектом исследования статьи являются мысли, о доброте, справедливости, правилах поведения и нравственности, нравственном воспитании, его составных частях, о любви к матери, отцу, родственникам, отраженных в творчестве видного народного поэта Мамеда Араза, воспитывающего такие нравственные качества, как правдивость, почёт и уважение к старшим, забота о младших, составлющие основу нравственного воспитания.



**M. Ahmadova**


**The moral education issues in the poem "My father's book" by Mamad Araz**


*Summary*

In the article the thoughts on gentleness, justice, being truthful, morality, moral education and its components, the unity between education and training, love for parents and close relatives, respect for the elderly people, care to the little ones, as a whole education in the creative activity of the prominent national poet Mammad Araz became the object of the research.


## FİNLANDİYA OGRETMEN YETİSTİRME PROGRAMI VE AZERBAYCANDA NİTELİKLI OGRETMEN YETİSTİREBİLMEK İCİN YAPILMASI GEREKENLER


**Muhammed Ali Altunkaynak,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu*
E-mail: i.altunkaynak@hotmail.com



*Key words: PISA result ,Educational system of Azerbaijan , Teacher training system of Finland, Skilled teacher*

*Anahtar kelimeler: PISA sonuçları , Azerbaycan eğitim sistemi , Finlandiya öğretmen yetiştirme sistemi , Nitelikli öğretmen*


PISA (Program for International Student Assessment – Uluslararası Öğrenci Başarısını Belirleme Programı) OECD ülkelerindeki 15 yaş grubu öğrencilerin zorunlu eğitim sonunda, günümüz bilgi toplumunda karşılaşabilecekleri durumlar karşısında ne ölçüde hazırlıklı yetiştirildiklerini belirlemek amacıyla geliştirilmiş bir programdır. PISA ile ölçülmeye çalışılan nitelik, öğrencilerin okulda müfredat kapsamında ele alınan konuları ne dereceye kadar öğrendikleri değil, gerçek hayatta karşılaşabilecekleri durumlarda sahip oldukları bilgi ve becerileri kullanabilme yeteneği, analiz edebilme, akıl yürütme ve okulda öğrenilen fen ve matematik kavramlarını kullanarak etkin bir iletişim kurma becerisine sahip olup olmadıklarıdır(1)Bu amaçla öğrencilere çoktan seçmeli, karmaşık çoktan seçmeli, açık uçlu ve kapalı uçlu olmak üzere farklı türleri içeren toplam 100 soru sorulmaktadır (2)

1997'de geliştirilen bu değerlendirme programı ilk kez 2000 yılında uygulanmıştır. Üç yılda bir verilen bu imtahanlarda her dönemde belli bir derse üstünlük verilirmiştir. Ancak öğrenciler diğer ana derslerdende sınanmış olurlar. 2000 yılında yapılan 32 farklı ülkeden 265.000 öğrenciye PISA uygulanmistir. 2000 yılında öğrencilerin okuma becerilerine ağirlik verilmistir. 2003 yılında içinde 30 OECD ülkesinin de bulunduğu 41 ülkede 275.000'den fazla öğrenciye PISA sınavı uygulanmıştır. Bu uygulamada ise matematik okuryazarlığı alanina agırlık verilmiştir. 2006 yılında yapılan uygulamaya 56 ülke katılmış ve üstünlük fen bilgisi okur yazarliği olmustur. 2009 yılında yapılan uygulamada ise üstünlük tekrardan okuma (anlama ) becerilerine verilmiştir. PISA uluslararası düzeyde yapılmış bugüne kadarki en kapsamlı eğitim araştırmasi olmustur.

2000 yılında uygulanmaya başlanan bu projeye Azerbaycan ilk olarak 2006 yılında katılmıştır. 2006 yılında PISA imtahanlarında okuma becerilerine göre Azerbaycan 353 puanla 54.yeri almıştır. 2009 yılında ise PISA imtahanlarında okuma becerilerine göre Azerbaycan 362 puan toplamakla 64.yeri tutmuştur. Azerbaycan okuryazarliği diğer değerlere göre daha yüksek netice elde etmiştir. 2006 yılında 33.yeri almiştir. 2009 yılında ise 431 puanla 45.yeri almistir. 2009 fenbilimleri okuryazarlığında 63.yeri tutmustur.2006 yılındaki neticeden 8 basamak geriye düşmüştür. Son dört yılda Azerbaycan göstericilerinin değişip değişmediği bilinmemektedir. Çünkü ülke üç yılda bir yapilan değerlendirmelerin yalniz ikisine 2006 ve 2009 yıllarındaki değerlendirmelere katilmistir ve 2012 yılında yapılan PISA testine katılmamıştır.

PISA sonuçlarında en yüksek puan alan ülke olan Finlandiya 2003 yılı neticelerine göre matematik okuryazarlığında 544, fen bilimleri okuryazarlığında 548 ve okuma becerisi alanında 543 ortalama puan alarak her üç alandada üst sıralarda yer almıştır. Finlandiya lı talabeler 2006 yılında matematik okuryazarlığında 548 fen bilimleri okuryazarlığında ise 563 oratalama puan almışlardır.Finli öğrenciler aynı başarıyı 2009 yılındada göstermişlerdir. PISA sonuçlarına gore yüksek netice gösteren Finlandiya bircok ilim adamının dikkatini çekmeyi başarmıştır.Birçok bilim adamı Finli öğrencilerin elde ettiği başarıların arkasındaki eğitim sistemini daha dikkatli incelemeye ve analiz etmeye çalışmıştır. Finli öğrencilerin elde ettiği başarıların arkasında eğitim sistemindeki dört unsur öne çıkmaktadır

- Öğretmen yetiştirme programı
- Geleneksel okul yaşamı
- Kültürel olarak öğretmenlik mesleğine bakış
- Hizmet içi öğretmen eğitimi

Öğretmenler devletin eğitim politikasını uygulamaya koyan , uygulama biçimleri ile bu politikaları etkileyen eğitim hizmetlerine anlam veren , eğitime ruh katan ve eğitimin en asli öğesi olan öğretmenler, eğitimin baslatıcısı, gelistiricisi, uygulayıcısıdır (3) Bu sebeple öğretmen okulda diğer etkenlere göre daha fazla ehemmiyete sahiptir.Finlandiya'nın PISA da göstermiş olduğu başarılarının en önemli sebeplerden biri öğretmen yetiştirme programıdır.

Bu programın en önemli özelliği başlangıçta motivasyonu yüksek ve yetenekli öğrencileri programa kabul ederek öğretmen eğitiminin kalitesini sürekli yüksek tutmayı başarmaktır(6) Finlandiya da öğretmen olmak isteyen bir öğrenci bu programa katılabilmek icin Azerbaycan daki **TQDK** benzer bir ***marticulation*** imtihanı vermelidir. Bu imtahandan sonra üç aşamalı olarak kabul testindende başarıyla geçmelidir. Üç aşamalı olan kabul testi kitab sınavı mülakat örnek dersden (grup tartışması yönetmek ) oluşmaktadır. Bu aşamalardan sonra basvuranların ancak % 10 –nu öğretmen yetiştirme programına kabul edilir.Finlandiyada 1-6 sınıflardaki eğitim sınıf öğretmenleri tarafından verilirken , 7-9 ve üstorta öğretim eğitimi brans öğretmenleri tarafından verilmektedir . Finlandiya□da ilkokul öğretmeni eğitimi sadece sekiz eğitim fakültesinde verilmektedir. Bu eğitim yüksek lisans seviyesine yönlendiren dört yıllık bir programı kapsar (3) Finlandiya öğretmen yetiştirme programlarının en dikkat çekici özelliği, uygulama ve teorinin bir sentez oluşturmuş

olmasıdır. (4) Öğretmenlik gözlem ve uygulamaları dört yıl devam eden lisans programının tümüne dengeli ve birbirini tamamlayacak şekilde yayılmıştır(6)

Öğretmen yetiştiren kurumlar kendi uygulama okullarına sahiptirler. Bu okullar genellikle üniversite kampüsü içerisinde ilgili bölümlere yakın yerlere konulmuştur. Öğretmen adayı olan öğrenciler branşlariyla alakalı eğitimleri ,öğretmenlik formasyonuyla bağli teori egitimlerini ve staj calışmalarının önemli kısmını bu uygulama okullarında yaparlar. Uygulama okullarında öğretmen adaylarının çalişabilmeleri ve hazırlık yapabilmeleri için onlara özel imkanlar sunulmuştur. Öğretmen adayları uygulama okullarının ilk üç yılında dörder hafta son yılında ise beş haftalık okul öğretmeni ve üniversite hocalarının rehberliğinde staj yapma imkanına sahipler.

Finlandiya'da, öğretmen adayları eğitimleri sürecinde dört aşamadan oluşan ve iki yıl süren bir staj (öğretmenlik uygulaması) eğitimine tabi tutulmaktadır. Bu stajların üçü eğitim fakültelerine bağlı uygulama okullarında, biri ise uygulama okulu dışındaki devlet okullarında yapılmaktadır. (4)

Stajın başlangıcı uyum staji olarak adlanir.öğretmen adayı eğitimi tanımakda öğretmen öğrenci ilişkisiyle bağlı gözlemlerini yapmaktadir. İkincisi temel stajdır. Uygulama okulunda öğretmen adayına kısada olsa ders anlatma imkanı verilir. Üçüncüsünde ise öğretmen adayı uygulama okulu dışında devlet okulunda eğitim faliyetlerini gözlemler ve pratik yapar. Stajın sonuncusunu öğretmen adayı tekrardan uygulama okulunda yapar. Burada öğretmen adayına eksiklerini giderme ve kendini geliştirme imkanı sunulur. Uygulama hocası ile üniversitedeki görevli hocanın öğrencinin stajı sürecinde uyum içinde çalışması başarıyı artıran sebeplerden birisidir. Derslerden sonra kendilerine ayrilmiş özel mekanlarda bir araya gelerek dersle ilgili gözlemlerin paylaşılması başarıyla uygulanmaktadir. Fakat öğretmen olmak için bu lisans programını bitirmek yeterli değildir. Bundan sonra sınıf öğretmeni (1 ile 6. sınıflar) adayları eğitim bilimlerinden branş öğretmeni (7 ile 12. sınıflar) adayları ise kendi alanıyla ilgili tezli-yüksek lisans derecesine sahip olmak zorundadır (7) Burdanda şu sonuca varabiliriz Finlandiya da öğretmenlikler için yüksek lisans düzeyinde öğrenim zorunludur. Bu sayede Finlandiya daki öğretmen adayları bilim ve teknolojiye açik araştırmayı seven problemleri tesbit edebilen farkli çözüm yolları geliştiren bireyler haline gelmiştir. Bu programi başaramamiş olan öğretmen adayları staj eğitimlerini tekrar almak zorundadırlar.

Finlandiya da öğretmenlik mesleği saygı duyulan popularitesi yüksek meslek dallarının başında gelmektedir. Finlandiya da öğretmenlik mesleğinin populerlik düzeyi % 26 seviyelerindedir.öğretmenlik populerlik düzeyi doktor mimar sanatçı gibi meslek dallarından oldukça yüksektir. İnsanların bu meslek dalına pozitif bakmasi öğretmenlik mesleğinin saygınlığı artırmaktadır. Bu sayede ülkenin en başarılı öğrencileri öğretmen olabilmek için birbirleriyle yarişmaktadır. Finlandiya eğitim sisteminde öğretmenlerin işsiz kalma gibi sorunları yokdur. Eğitim fakültesinden mezun olan öğretmen adayları çalışmak istedikleri kuruma giderek kendileri başvuru yapmaktadır.Finlandiya öğretmenlerinin tamamı devlet memurudur (5).Öğretmen seçiminde ve atanmasında yetki ve sorumluluk eyalet ve yerel yönetimlere bırakılmıştır. Öğretmenlerle ilgili kararlar alma yetkisi yerel yönetimlere ve okul müdürlerine aittir. Öğretmen eğitimi veren kurumları başarı ile bitiren adaylar ulusal bir sınav yapılmamaktadır (3).

Finlandiya nın PISA daki basarılarına ulaşabilmek adına bizler Azerbaycanda nitelikli öğretmen yetiştirebilmek için ne gibi çalismalar yapabiliriz?

Azerbaycan PISA değerlendirmesinde daha başarılı sonuçlar elde etmesi için PISA değerlendirmelerinde yüksek netice gösteren Finlandiya ,Güney Kore, Japonya gibi Ülkelerin eğitim sistemlerini iyi analiz ederek öz eğitim sistemlerinde reformlar yapmasi gerekmektedir. İlk olarak toplumda öğretmen mesleğinin popularitesini artıracak calışmalar yapmalı öğretmenlere sunulan imkanlarin OECD ülkelerindeki ortalama düzeye çıkarılması gerekmektedir. Daha sonra nitelikli öğretmen yetiştirme programı geliştirilmelidir. Elbetde nitelikli öğretmen yetiştirmek için Azerbaycan eğitim sisteminin gerekli alt yapıya sahip olmasi gerekir.Başarılı bir toplumun meydana gelmesi için mesleki bilgiye sahip çalişkan görev ve mesuliyet sahibi öğretmenlere ihtiyaç vardir.Bu yüzden öğretmenlik fakültesine giriş şartlarında değişiklikler yaparak sadece yüksek seviyeli bilgisi olan deyil hem bilgi donanımına sahip hemde öğretmenlik mesleğine motivasyonu yüksek talabeleri seçmek gerekmektedir. Gerekirse bazı durumlarda başarılı talabelere öğretmenlik



fakultelerini seçmeleri için burs kredi yurt gibi imkanlar sunularak teşvik edilmelidir. Öğrencilerin öğretmenlik fakültesini bitirdiklerinde iş bulamama korkusunun olmaması için öğrencilere iş garantisi verilmelidir.

Öğretmenlik fakültesini bitirmiş olan öğretmen adaylarından tezli yüksek lisans derecelerine sahip olmaları istenilebilir. Öğretmenlik fakültesini bitirmiş öğrencilerin yeterli seviyeye gelinceye kadar aday öğretmenlik yapmasına imkan sağlamak gerekir. Öğretmenlik uygulaması derslerine talebelerin ilgisinin artırılması gerekmektedir.Eğitim müfredatında uygulama agırlıklı derslerin sayısını artırmak gerekebilir. Öğretmen adaylarına gözlem ve staj imkanı sunan okul deneyimi ve öğretmenlik uygulamalarında istenilen sonuç alınamamaktadır. Bu sebepten dolayı gözlem ve öğretmenlik uygulama derslerinin son sınıfın dışında daha geniş bir zamana yayılması gerekir.

Eğitim Fakültelerine uygulama okulları yapılmalı ve buralarda çalışacak öğretmenlerin en az yüksek lisans düzeyinde olmaları sağlanmalıdır .Öğretmen adayları tecrübeli öğretmenlerin deneyimlerinden yararlanabilmelidir. (4)

Öğretmenlerin gelişen modern dünyada zamanı yakalıyabilmesi kendi gelişimini sağlıyabilmesi ve öğrencilerin taleblerine karşılık verebilmesi için hizmet içi eğitim kursları düzenlenmelidir. Bununla beraber bir ülkede başarılı eğitim ve öğretim sisteminin olabilmesi için öğretmeninde üzerine düşen vazifeler bulunmaktadır. Öğretmen adayının kendi mesleğine hakim olması gerekmektedir. Karşısına çıkan problemlere çözüm yolu bulabilmelidir. Eğitim kurumlarında öğretmenler ile ortak iş yapabilme kabiliyetine sahip olması gerekir. Aile ve talebe üzerinde etkisi olan ve onları beraber çalışmaya teşvik edebilen özelliklere sahip olması gerekir.

Sonuç olarak eğitimde yapilacak olan reformlar için bu konuda çalışacak olan akademisyenlerin desteklenmesi ve onlara gerekli imkanlarin sunulması gerekmektedir. Eğitimde yapilacak değişiklikler konusunda ilk iş hangi konularda değişiklik yapılacağına karar vermektir sonrasında ise uygulamalara başlamaktır. Eğitimde netice almak zaman gerektiren bir süreçtir. Sonuçlarını görmek için acele etmeden sabırla beklemek gerekir.

**Kaynaklar**


1. TC MEB *Milli Eğitim Bakanlığı basın bildirisi. OECD'nin PISA projesine Türkiye'nin katılımı.* [Çevrim-içi: http://www.meb.gov.tr/duyurular/duyurular/pi sa/pisaraporu.htm

2. Yrd. Doç.Dr ERASLAN Ali Finlandiya'nın PISA' daki Başarısının Nedenleri: Türkiye için Alınacak Dersler Necatibey Eğitim Fakültesi Elektronik Fen ve Matematik Eğitimi Dergisi (EFMED) Cilt 3, Sayı 2, Aralık 2009, sayfa 238-248.

3. *Yar Ali METE* Turkish Studies - International Periodical For The Languages, Literature and History of Turkish or Turkic Volume 8/12 Fall 2013, p. *859-878,* ANKARA-TURKEY

4. KOCAARSLAN Mustafa EĞİTİMDE İNOVASYONU VE BAŞARIYI TEMSİL EDEN ÖRNEK BİR ÜLKE:FİNLANDİYA Bartın Üniv. Eğitim Fakültes

5. ÖZOĞLU, M.,ALTUNOĞLU, A. ve Gür, S.B. (2013). Dünyada ve Türkiye de öğretmenlik. retorik ve pratik. Ankara : Eğitim Birsen

6. Malaty, G. (2006). What are the Reasons Behind the Success of Finland in PISA? *Gazette des Mathematiciens*, 108, 59-66.

7. Simola, H. (2005). The Finnish miracle of PISA: historical and sociological remarks on teaching and teacher education. *Comparative Education,* 41(4), 455-470.

8. Organisation for Economic Cooperation and Development (OECD) (2004). *Learning for tomorrow's world: first results from PISA 2003.* Paris: OECD.

9. Organisation for Economic Cooperation and Development (OECD) (2007). *PISA 2006 Science Competencies for Tomorrow's World.* Retrieved February 17, 2009, from http://www.pisa.oecd.org.


**PREPARATION OF TEACHERS IN FINLAND AND REQUIREMENTS TO PREPARE ELIGIBLE TEACHERS IN AZERBAIJAN**


***Summary***

Finnish students got the attention of OECD countries because of their successes in 2003, 2006 and 2009 on PISA project. Successes of Finnish students include 4 main characters. In this task, teachers' preparation project in Finland, which is the first of these characters, is analyzed in a detailed way. By taking Finnish education program into account, the preparation of eligible teachers in Azerbaijan is handled closely.

## FINLANDIYA ÖĞRETMEN YETIŞTIRME PROGRAMI VE AZERBAYCAN'DA NITELIKLI ÖĞRETMEN YETIŞTIREBILMEK IÇIN YAPILMASI GEREKENLER


ÖZET

Finli öğrencilerin pisa projesinde 2003, 2006 ve 2009 yıllarında göstermiş oldukları üstün başarılar OECD ülkelerinin dikkatini çekmiştir. Finli öğrencilerin göstermiş olduklari başarida 4 ana unsur bulunmaktadır. Bu calismada bunlardan birincisi olan finlandiya da öğretmen yetiştirme programı detaylı şekilde incelenmiştir.finlandiya öğretmen eğitim programi göz önünde bulundurularak Azerbaycan da nitelikli öğretmen yetistirmek için yapilmasi gerekenler detaylı şekilde ele alınmıştır.


# AZƏRBAYCAN FOLKLORUNDA MƏNƏVİ-PSİXOLOJİ, ETİK ƏXLAQİ MƏSƏLƏLƏRİN ƏKSİ


**Simnarə Heydərova,**
*psixologiya üzrə fəlsəfə doktoru*
*ADPU*
E-mail: elmi.hisse.08@mail.ru



*Açar sözlər: folklor, yeniyetmə,cəmiyyət, təhsil, xüsusiyyət*

*Ключевые слова: фольклор,подросток общество, образование, особенность*
*Key words: folklore, teenager,society, education, feature*


Azərbaycan folklorunda insanın mənəvi – psixoloji, etik – əxlaqi keyfiyyətlərinə aid istənilən qədər dəyərli fikirlər var. Bunlar maddi nemətlər qədər insan həyatında böyük əhəmiyyət kəsb edir. İnsan tarixi boyu maddi nemətlərə malik olduqdan sonra mənəvi nemətlərə nail olmağa çalışmışlar. Lakin, bu heç də insanların həyatında mənəvi nemətlərin rolunu azaltmır. Mənəvi tələbatlar nə qədər maddi tələbatlardan asılı və törəmə olsa da cəmiyyətin həyatında və tarixi tərəqqidə bunlar çox böyük əhəmiyyət kəsb etmişlər. Müəyyən inkişaf pilləsində müəyyən mənəvi sərvətlərə malik olmayan cəmiyyət təsəvvür etmək çətindir. Nəsillərdən – nəsillərə verilən, tarix boyu milyonlarla adamlara ibrət dərsliyi olan, hazırda elmi psixologiyanın mühüm metodoloji əsaslarını təşkil edən milli mənəvi sərvətləri mənimsəmədən nə elmi psixoloji fikrin inkişaf tarixi haqqında dəqiq təsəvvürə malik olmaq, nə də yetişən gənc nəsildə milli bəşəri, sosial- psixoloji keyfiyyətləri aşılamaq olar. Bunun üçün təlim- tərbiyə işçiləri və psixoloqlar gənc nəslin təlim- tərbiyəsində öz işlərini əsrlərin sınağından çıxmış xalq təcrübəsi zəminində yenidən qurmalıdırlar. Xalq təcrübəsinin mütərəqqi ənənələrini, faydalı məsləhətlərini canlandırmaq, bərpa etmək və cəmiyyətin xidmətinə vermək dövrün tələbidir.

Elin sözü, elin özü qədər qədimdir. İlkin nümunələri nə qədər bəsit olsa da təbiidir, canlıdır. El öz məişətində- təsərrüfatında, maldarlıqda, qoyunçuluqda, bağ- bostanda, əkin – biçində, çeşid – çeşid mərasimlərində, xeyir və şərində, təbiətlə təmasda ülfətdə iç duyğularını sözlə – nəğmə və türkülərlə müşayiət etmişdir. Bu nəğmələr dodaqlarda zaman – zaman səslənərək, dildən – dilə düşdükcə, eldən – elə dolaşdıqca dəyişmiş və bu gününmüzə qədər gəlib çıxmışdır.

Əsrlər bir – birini əvəz etmiş, zaman dəyişmiş, ancaq bu xalq inciləri əbədiyaşar olmuşdur. Xalq əsrlər boyu uşaq və yeniyetmələrin bədii – estetik zövqünü formalaşdırmaq, onların həyata hazırlığını təmin etmək, dilini, nitqini səlisləşdirmək, nitq mədəniyyətini inkişaf etdirmək üçün laylalar, oxşamalar, tapmacalar, yanıltmaclar, nəğmələr və s. yaratmışlar.

Şifahi xalq yaradıcılığı bir sənət abidəsidir. Onun hər sətirilə tanış olan həssas ürək, bu nadir inciləri yaradan xalqın dühasına dərin minnətdarlıq hissi ilə çırpınır. Ona görə ki, həmin sətirlərlə gözlərimiz qarşısında əzəmətli bir mənzərə canlanır. Xalq sözünün, xalq deyiminin bədii ifadə imkanlarının genişliyi və sonsuzluğu üfüq – üfüq qarşıda açılır.

Bu mənəvi sərvətlər içərisində əxlaq normaları ilə təsbit olunmuş hisslər, ictimai – sosial davranışlar xüsusi çəkiyə malikdirlər. Bu isə xalqımızın əsrlər boyu yaratdığı və nəsildən nəslə ötürdüyü milli və ümümbəşəri, əxlaqi və mənəvi hisslərdir. Biz bu hissləri daim uca tutmalı, ata babalarımızdan bir yadigar qalan bu mənəvi irsi qoruyub gələcək nəslə əmanət verməliyik.




**Ədəbiyyat**

1. Azərbaycan folkloru antologiyası. X kitab.
2. Məhərrəm Qasımlı. Aşıq sənəti. Bakı, Ozan, 1996.
3. İ. Ələsgər. Aşıq Ələsgər və XIX əsr Göyçə aşıqları:.namizədlik dissertasiyası. Bakı: ADU-nun kitabxanası, 1971.
4. Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş. Bakı: AzAll, 2002.


# CƏLİL MƏMMƏDQULUZADƏ ŞƏXSİYYƏTİN FORMALAŞDIRILMASININ ƏSAS PROBLEMLƏRİ BARƏDƏ


**Aygün Orucova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*AMEA-nın Naxçıvan bölməsi*
E-mail: orujovaaygun82@gmail.com



***Açar sözlər:** elm, təhsil, jurnal, karikatura, felyeton, mədrəsə*
***Ключевые слова:** наука, образование, журнал, карикатура, фельетон, медресе*
***Key words:** science, education, magazine, caricature, feuilleton, madrasah*


Cəmiyyəti kökündən dəyişmək, demokratik dövlət üçün ədəbiyyat və mətbuat vasitəsilə mübarizə aparmaq Mirzə Cəlilin zamanı üçün ölümü gözə almaq demək idi. Sonsuz təqiblərə, hədələrə, hətta ölüm fitvalarına belə baxmayaraq, böyük ədib fədakar bir mücahid kimi sonacan öz əqidəsindən dönməmiş və beləliklə, əbədilik, ölümsüzlük qazana bilmişdir.

Böyük sənətkarı daha çox narahat edən məsələlərdən biri XX əsrin əvvəllərində gələcək nəsillərimizin tərbiyəçisi olan qız uşaqlarının 8-9 yaşlarından sonra təhsil almağının eyib kimi dəyərləndirilməsi və buna yol verilməməsi olmuşdur. Kitabi Dədə-Qordud" dastanlarında Burla xatun, Selcan xatun, Banuçiçək kimi at minən, ox atan, qurulu evin dirəyi hesab olunan türk-Azərbaycan qadını Mirzə Cəlilin əsrində islam dininin ehkamlarının və onları öz mənfəətləri üçün istifadə edən şəriət xadimlərinin əlində bir qula çevrilmişdi. Yalançı din xadimləri "qız uşağının səkkiz yaşından sonra elm oxumağı ayıb işdir" (6, 399) – deyərək onu təhsil almağa qoymayır, doqquz yaşına çatanda özündən qırx yaş böyük hacıya, mollaya zorla ərə verirdilər. Azərbaycan qadınını elmli, azad görmək arzusu hələ gənclik illərindən dahi sənətkarda baş qaldırmışdır. Nehrəm kimi dini adətlərə çox bağlı olan bir kənddə Mirzə Cəlilin qız uşaqlarını məktəbə cəlb etməsi XIX əsrin sonu üçün böyük cəsarət, maarif sahəsində irəli atılmış çox mühüm bir addım idi. Bu barədə akademik İsa Həbibbəyli yazmışdır: "Hələ pedaqoji fəaliyyəti dövründə o, çox böyük çətinlik bahasına, 1893-cü ildə səkkiz nəfər qıza, o cümlədən istəkli bacısı Səkinə Məmmədquluyevaya Nehrəm məktəbində ayrıca sinifdə dərs deməyə nail olmuşdur" (1, 23).

Azərbaycan qadınının halına ürəkdən yanan ədib onların hüquqlarının çeynənməsindən 1907-ci ilə qədər gizli eyhamlarla, ötəri ştrixlərlə bəhs etməyi lazım görmüşdür. "Keçən günlər" felyetonunda bir erməni qızının digərinə Avstriya padşahının Adriatik səfərinə çıxmamağının səbəblərini tapmaq barəsindəki siyasi tapmacası və onun siyasi hadisələri çox düzgün anlayıb izah etdiyini göstərən dolğun və hərtərəfli cavabı Nurcahan və Hürinisənin bir-birinə verdiyi tapmaca ilə qarşılaşdırılmışdır. Nurcahanın müsəlman qadınına aid dediyi bu tapmaca qadının həm fiziki, həm də mənəvi cəhətdən təzyiqə məruz qaldığını nəzərə çatdırır:

Gündə döyür atası,
Alar başına tası.
Abbasını iki şahı bilib xərclər,
İki şahını da abbası (4, 75).

"Qafqaz şeyxül-islamına iki dənə açıq məktub"da Tiflisdə "İnstitut" məktəbində erməni, rus və gürcü qızlarının əksinə olaraq, müsəlman qızlarına elmi-ilahi və ana dili dərsi verilməməsi hadisəsinə göz yuman, onlarla rusca danışan şeyxül-islama Mirzə Cəlil kinayə ilə yazır: "Cənab şeyx, mən Qazı ağa Mirkərim ağa buyurduğu kimi "kafir" ola-ola yenə müsəlman qızlarına yazığım

gəldi və məktəbin rəisinə dedim ki, niyə müsəlman qızlarına elmi-ilahi və ana dili oxutmursunuz, amma siz müsəlmanların şeyxi ola-ola bu barədə heç kəsə bir söz deməədiniz" (2, 186).

İstedadlı sənətkar "Axund və keşişin vəzi" felyetonunda eyni bir coğrafi məkanda (Azərbaycanın İrəvan quberniyasının Samanlıq kəndində), eyni tarixdə – XX əsrin əvvəllərində və eyni tarixi şəraitdə yaşayan bir kəndin erməni və müsəlman əhalisini müqayisə etmişdir. Erməni uşağı ağacın dibində oturub dərs oxuduğu halda, müsəlman uşağı bekarçılıqdan pişiyin quyruğuna ip bağlayıb həyətin o tərəf-bu tərəfinə qaçır. Həyətin birində bir neçə erməni çörək yediyi halda, keşiş yemir, ayaq üstə durub sağ əlini yuxarı qaldırıb "vətən, vətən, vətən" deyir. "Yaşasın elmsiz alimlər, yaşasın dərs oxumamış müqəddəslər, yaşasın vaqiədə gələcəkdən xəbər verənlər! Min yaşasın belə müsəlman qardaşlar!" (7, 359) – deyən Mirzə Cəlil onların elminə, müqəddəsliyinə, vaqiəsinə gülmüşdür.

Yüz zəhmət ilə qonşuların elmi tapanda,
Sən alim olursan gedib asudə yatanda,
Sən eyş qıl, onlar toza-torpağa batanda,
Get yaru-rəfiq ilə gülüstanə, utanma! (2, 53)

Cəlil Məmmədquluzadənin "Laylay" satirik şeirində yeni nəslin tərbiyə olunmasında müstəsna rolu olan valideynlərin mühafizəkar görüşləri tənqid olunmuşdur.

Köhnə mürtəce dünyagörüşünə malik valideyn zamanın tələblərinə, xalqın inkişaf və tərəqqisi, maariflənməsi üçün görülən işlərə tamamilə etinasız qalaraq özünün həyatının eynisini övladına arzulayır. Yeddi yaşa çatan uşaq məktəbə gedib elm öyrənməli halda, valideyni ona küçəyə getməyi, orada müəlləq aşmaq, xəbərçilik etmək, o yüz bu yüzə qaçmaq kimi boş, mənasız işlərlə məşğul olmağı məsləhət görür. O, oğluna gələcəkdə müəllim, həkim, hüquqşünas kimi xalqa fayda verən peşələrdən birini yox, kəndirbaz, falçı, dərviş, ya da ilanoynadan olmağı və bu yolla özünə qazanc əldə etməyi tövsiyə edir.

Cəlil Məmmədquluzadə "Dəbistan" felyetonunda uşaqların əxlaqi tərbiyəsində mühüm rol oynayan, onların dünyagörüşlərini, vətənə məhəbbətini artıran, elmə, maarifə səsləyən Azərbaycanda ilk uşaq jurnalı olan "Dəbistan"ın (1906-1908), "İrşad" felyetonunda isə "İrşad" (1905-1908) qəzetinin müştəri sayının yetərsizliyi problemindən söhbət açılmışdır.

Böyük sənətkarın "Deyirəm dərsi-əlifbey sizə" satirik şeirində köhnə üsulla dərs verən mollaların tədris üsullarının artıq zamanının ötdüyü və zərərli cəhətləri onların öz dili ilə satirik şəkildə ifadə olunmuşdur.

Beləliklə, aydın olur ki, "müasirləşməyi milli tarixi kökdən uzaqlaşıb yad sivilizasiyaların və mədəniyyətlərin təsiri altına düşmək yox, xalqın öz milli kökü üzərində ucalmağı, yad ideoloji təsirlərə uymamağı" (8)kimi başa düşən Mirzə Cəlil XX əsrin bir çox ictimai mahiyyətli, maarif, təhsil, mətbuat, milli mentalitetlə bağlı məsələlərini publisistik məqalələri ilə yanaşı satirik şeirlərində də əks etdirmişdir. Bu sahədəki qüsurların aradan qaldırılması üçün böyük sənətkar çox mühüm təsirli vasitələrdən istifadə etmişdir.

### Ədəbiyyat


1.Məmmədquluzadə C.M. (fotoalbom). Bakı: İşıq, 1981.
2.Məmməquluzadə C.M. Əsərləri 3 cilddə. II c. Bakı: Azərnəşr, 1967.
3.Məmmədquluzadə C.M. Əsərləri: 4 cilddə, I c. (Tərtib edəni: İsa Həbibbəyli). Bakı: Öndər, 2004.
4.Məmmədquluzadə C.M. Əsərləri. 4 cilddə, II c. Bakı: Öndər, 2004.
5.Paşayev M.C., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Maarif, 1985.



**А. Оруджева**

***Резюме***

Джалил Мамедкулизаде (1869-1932), видный драматург, прозаик, публицист, главный редактор журнала «Молла Насреддин», в течение всей своей жизни неустанно и с большим мужеством вел борьбу за то, чтобы азербайджанский народ приобщился к мировой науке, знал свои права и был свободен. Одной из проблем, наиболее волнующих великого мастера, было то, что в начале XX века образование для девочек, которые должны были стать воспитательницами будущего поколения, после 8-9 лет расценивалось как ненужное и запрещалось родителями. Также в статье исследованы статьи и труды Джалила Мамедкулизаде, в которых рассмотрены некоторые недостатки и изъяны образования в медресе.





**A. Orujova**

***Summary***

Jalil Mammadguluzadeh (1869-1932), a prominent playwright, prose-writer, publicist, editor in chief of the magazine "Molla Nasreddin", struggled throughout his life tirelessly and with great courage for the Azerbaijan people's acquaintance with the world science, for their legal education and freedom. One of the problems, the Grand Master worried about most of all, was the fact that at the beginning of the XX century education for girls, who were to become nurturers of future generations, after 8-9 years was regarded as unnecessary and was forbidden by parents. Jalil Mammadguluzadeh's articles and works, considering some of the shortcomings and defects of education in the madrasahare also analyzed in the paper.


## MÜHACİRƏT ƏDƏBİ-NƏZƏRİ FİKİR VƏ MƏMMƏD SADIQ ARAN


**Aybəniz Məmmədova,**
*Sumqayıt Dövlət Universitetinin, baş müəllimi*
E-mail: elmi.hisse.08@mail.ru



***Açar sözlər:*** *mühacirət ədəbiyyatı, ziddiyyət, siyasət, mübarizə*
***Ключевые слова:*** *репрессия, литература, политика, борьба*
***Keywords:*** *migration literature, controversy, politics, fighting*


Sadıq Cəmih oğlu Axundzadə 1898-ci ildə Zəngəzur qəzasının Qarakilsə nahiyəsinin (indiki Sisyan rayonunun) Urut kəndində ruhani ailəsində anadan olmuşdur. Onun babası Qafqaz Şeyxülislamı, atası molla Cəmih bəy isə o dövrün tanınmış ziyalılarından idi. O, ilk təhsilini atasının kənd uşaqları üçün tikdirdiyi xüsusi məktəbdə, sonra nahiyə mərkəzi Qarakilsədə ibtidai təhsil almış, daha sonra isə Naxçıvan şəhərindəki səkkizillik məktəbdə təhsilini davam etdirmişdir. Hələ uşaq yaşlarından ədəbiyyata maraq göstərən Məmməd Sadıq ədəbi yaradıcılığa Naxçıvanda oxuyarkən yazdığı satirik şerlərlə başlamışdır. Şeirləri "Açıq söz"də və "Füyuzat"da çap olunmuşdur. Bu şerlərin nəşri ilə Məmməd Sadığın ağrılı-acılı ömrü başlamış və bu acı onun bütün ömrü boyu davam etmişdir.

Məmməd Sadıq Naxçıvan səkkizillik məktəbini bitirdikdən sonra polisin təqibindən yaxa qurtarmaq məqsədilə İrana qaçmış, 1914-cü ilin əvvəllərindən Marağa şəhərində yaşamışdır. O, Marağada bir ibtidai məktəb açmış və orda müəllimlik etmişdir. 1916-cı ildə Osmanlı imperatorluğu cihad elan edir. Məmməd Sadıq cihadın müddəalarını yaymaq məqsədilə yenidən Qafqaza dönür, aylarla Qafqazın müxtəlif yerlərini dolaşır.

1917-ci ildə Məmməd Sadıq Gorusa qayıdır. Orada bir məktəb açır və türk uşaqlarının təlimi ilə məşğul olur. 1917-ci il inqilabından sonra həmin mahalda türklərə qarşı ermənilərin başladıqları xəyanətkar əmələ qarşı Naxçıvana gedib, oradan Türkiyənin yardımını təmin edir.

1918-ci ilin dekabrında Azərbaycan Parlamentinə deputat seçilmiş, Azərbaycan Milli Parlamentinə Zəngəzurdan seçilən yeganə nümayəndə olub. Bundan başqa, o, Musavat Partiyasının mühacirlərlə əlaqədar olan komissiyasının üzvü vəzifəsində çalışıb. 1920-ci ildə 27 aprel istilasından sonra o, Musavat Partiyasının Qarabağda yaradılmış gizli təşkilatının sədri seçilir. Buna görə də davamlı təqiblərə məruz qalır. 1921-ci ilin ikinci yarısında Musavat Partiyası tərəfindən Türkiyəyə göndərilir və İstanbulda dövlət nümayəndələri ilə görüşlər keçirir. Azərbaycana qayıdan vaxt Batumda həbs edilir. İki il ərzində Tiflisdə "ÇK"-nın zindanlarında ağır işgəncələrə məruz qalan Məmməd Sadıq məhkəmə prosesində özünü ruhi xəstə kimi qələmə verir və həbsdən azad edilir.

1923-cü ilin sonlarına kimi gizli Musavat Partiyasının sıralarında fəaliyyətini davam etdirən Məmməd Sadıq yenidən İrana qaçmaq məcburiyyətində qalır və 1924-cü ilin yanvarında oradan Türkiyəyə gedir.

1924-cü ildən Məmməd Sadığın həyatının yeni dövrü başlamışdır. Müsavat Partiyasının Xarici Bürosunun qərarı ilə mədəniyyət komissiyasının nəzdində Azəri Türk Gənclər Birliyi yaradılır və həmin birliyin sədri seçilir. Birliyin əsas məqsədi-gəncləri təşkilatlandırmaq, onlarda

mili ruhun yüksəldilməsinə nail olmaq, həm də ehtiyac hiss edən üzvlərinə yardım göstərməkdən ibarət olub.

Bu vaxtdan etibarən M.S. Aranın mübarizəsi yalnız Azərbaycanı deyil, bütün türk ellərini əhatə edir.

1929-cu ildə mühacirlərarası ixtilafları dərinləşdirən əsas məsələlərdən biri də "Milli vərəq" məsələsi idi. 1932-ci ildən "Yeni Qafqaz" jurnalını M.Ə. Rəsulzadə ilə birlikdə nəşr etdirir. Bununla yanaşı 1928-1931-ci illər arasında "Azəri Türk" jurnalını, 1928-ci ildə isə "Yaşıl Yarpak" jurnalını nəşr etdirmişdir. Hər iki jurnalın sahibi və məsul müdiri olmuş, həmin dərgilərdə müxtəlif ictimai, siyasi, publisistik mövzularla çıxış etmişdir. Bu illərdə o, Azərbaycan istiqlalı uğrunda mübarizə apardığına görə "Aran" təxəllüsünü qəbul etmişdir.

1932-ci ildə Finlandiyada yaşayan türklərin dəvəti ilə oraya gedir və oradakı türk uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olur. O, eyni zamanda türk və fin dillərində "Yeni Turan" adlı qəzet nəşr edir, həmin qəzetin də amalı türkçülük, türk-rus mücadiləsi və həmin mücadilənin tarixi kökləri və s. olmuşdur.

1934-cü ildə Məhəmməd Sadıq təkrarən İstanbula qayıdır və Azəri Türk Gənclər Bilriyində fəaliyyətini davam etdirir. 1936-cı ildə isə fars və rus dillərini mükəmməl bildiyindən "Cumhuriyyət" və "Ulus" qəzetlərinin İran müxbiri sifəti ilə həmin ölkəyə göndərilir. Beş il İranda yaşayan Məmməd Sadıq Aran 1941-ci ildə İstanbula qayıdır. İranda yaşadığı müddətdə o, İran türklərinin həyatı ilə yaxından maraqlanır, Cənubi Azərbaycanın ictimai-siyasi vəziyyəti, tarixi, görkəmli şəxsiyyətləri, ədib və şairlərindən bəhs edən "İran Türkləri" əsərini yazır.

Ötən əsrin 1950-ci illərindən sonra Məmməd Sadıq Aranın mübarizələrlə dolu hərtərəfli fəaliyyətində insan psixologiyası, xalqın fikir və düşüncəsi əsas yer tutur. Bu illərdə o, "Azərbaycan Qarşılıqlı Yardım Cəmiyyəti"ni yaratmışdır. Xeyriyyəçilik adı altında fəaliyyət göstərsə də, cəmiyyətin əsas qayəsi Azərbaycan istiqlaliyyəti fikrini şüurlarda yaşatmaq, onun uğrunda mübarizə aparacaq gənclər yetişdirmək idi.

1951-ci ildə "Türk yolu" jurnallarını nəşr etmişdir.

M.S. Aranın gənc nəslin vətənpərvərlik və millətsevərlik baxımından "Türkün altun kitabı", "Millətlərin haqqı və məhkum türklərin davası", "Qardaş köməyi", "Gənclərə nəsihət", "Qara köynək" kimi nəsr əsərləri, "Qaçaq Nəbi", "Top səsləri" adlı pyesləri, yüzlərlə siyasi-publisistik məqalələri onun qoyub getdiyi irsin dəyərli nümunələridir.

M.S. Aran 1972-ci ildə İstanbulda vəfat etmişdir.

M.S. Aranın yaradıcılığının küll halında nəşr edilib xalqımıza çatdırılmasına ehtiyac var. İnanırıq ki, onun əsərləri demokratiya milli müstəqillik uğrunda mübarizədə ictimai fikrin, Azərbaycan mühacir ədəbiyyatının və milli mühacirət tariximizin mühüm səhifəsi kimi vərəqlənəcək, haqq işinin tərcümanı sayılacaqdır.

**Ədəbiyyat**


1. Hüseyin Baykara. Azərbaycan istiqlal mücadiləsi tarixi, 1975.
2. Cəmil Həsənli. Azərbaycan tarixi 18-20-ci illər, 1998.
3. Səbahəddin Şimşir. Azərbaycan istiqlal mücadiləsi, 2002.
4. Xaləddin İbrahimli. Azərbaycan siyasi mühacirəti, 1996.



**Репрессивная литературно-теоретическая мысль и Мамед Садыг Аран**

***Резюме***

В статье кратко освещана жизнь и деятельность Мамеда Садыга Арана. В его лице освещается общественно-политическая и литературно-публицистическая деятельность Азербайджанских эмигрантов связанных с Родиной. Статья ознакамливает читателя с другими представителями репрессивной Азербайджанской литературы.

***Summary***

In clause it is brief litened a life and activity of the well-known reprenstative emigratory Azerbaijan literature Mameda Saduga of Aran islans. In it is put forward on the foreound socially political and literatury social activity of the Azerbaijan emigrants connected with the native land. Clause introduce the Azerbaijan literatury public with other reprenstative of the emigratiry Azerbaijan literature.




## AZƏRBAYCANLILARA QARŞI SOYQIRIMLARLA YENİYETMƏLƏRİN TANIŞ EDİLMƏSİ TƏCRÜBƏSİNDƏN


**Sevda İsgəndərova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ARTPİ*
E-mail: sevda.i@mail.ru



***Açar sözlər:** soyqırım, insan hüquqları, hüquq və azadlıqlar, qanun*
***Ключевые слова:** геноцид, права человека, права и свобода, закон*
***Key words:** genocide, human rights, rights and freedoms, the law*


Azərbaycanın bütün təhsil müəssisələrində, o cümlədən ümumi təhsil müəssisələrində – eksperimentdə iştirak edən məktəblərdə hər il yanvarın 20-də yanlı yanvar günü; fevralın 26-da "Xocalı soyqırımı", martın 31-də isə "Azərbaycanlıların soyqırımı" günüş qeyd olunur, şəhidlər yad edilir. Eksperimentə cəlb edilmiş məktəblərdə keçirilən tədbirlərdən nümunələr:

Şagird T. – İnsan hüquqlarına dair beynəlxalq miqyasda bir çox bəyannamələr, konvensiyalar, qanunlar, qətnamələr var. Lakin qəribədir ki, müsəlman ölkələrinə, o cümlədən Azərbaycan Respublikasına gəldikdə bir çox hallarda beynəlxalq təşkilatlar üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmirlər.

Şagird S. -Azərbaycanın ərazi bütövlüyü pozulmuş, erməni faşistləri tərəfindən torpaqlarımızın beşdə bir hissəsi, yəni Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı yeddi rayon – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları 20 ilə yaxındır işğal olunmuşdur. Birləşmiş Millətlər Təşkilatının dörd qətnaməsi vardır ki, erməni işğalçıları qeydsiz-şərtsiz Azərbaycan ərazisindən çıxarılsın. Həmin qətnamələr 1993-cü ildə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən qəbul edilib. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul olunan 822, 853, 874 və 884 nömrəli qətnamələrdə ölkəmizin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqlənmişdir. Lakin həmin qətnamələrdən 20 ildən də artıq vaxt keçsə də, onlar yerinə yetirilməmiş qalır. Dünya dövlətləri bu hadisəyə biganədir, bir çox hallarda Ermənistanın tərəfini saxlayırlar.

Şagird H. – Lazım gələndə isə güc dövlətləri BMT-nin çıxardığı bir qətnamə ilə hər hansı bir ölkənin üzərinə gedir, hətta dövlət başçısını dar ağacından asdırır, öldürtdürür. İraqı və onun prezidenti Səddam Hüseyni; Liviyanı və onun prezidenti Müəmmar Qəddafini nümunə göstərə bilərik.

Şagird X. -"People in need" ("Ehtiyacda olan xalq, insanlar") beynəlxalq təşkilatı var. Bizim ərazimin işğal altında olduğu halda bu təşkilat istilaçılara, minlərlə azərbaycanlının qatili olan, şəhər və rayonlarımızı, kəndlərimizi yerlə-yeskən edən, tarixi abidələrimizi, maddi və mədəni sərvətlərimizi dağıdan Ermənistana, erməni qaçqınlarına durmadan yardım edir, mənəvi dəstək durur. Beynəlxalq təşkilatı olduğunu, üzərinə düşən missiyanı unudaraq, minlərlə insanın ermənilər tərəfindən qətlə yetirildiyini, bir milyondan artıq qaçqının olduğu ölkəmizə heç bit yardım göstərmir.

Şagird Y. -1915-ci ildə guya Osmanlı dövləti ermənilərə qarşı soyqırım törədib. Bu, uydurma və qondarmadır. Əksinə, birinci dünya müharibəsinin başlanmasından, Türkiyənin müharibəyə başının qarışmasından istifadə edərək, ölkədə yaşayan ermənilər dövlətə xəyanət edərək, soyqırıma, türkləri qırmağa başlayıb.

Şagird K. -Dünya dövlətləri ermənilərin bu qondarma soyqırım iddiasına daha çox maraq göstərir, hətta bəzi ölkələr bu uydurma, yalandan quraşdırılmış və heç bir əsası olmayan soyqırımı tanımışlar. Təxminən 20 il bundan əvvəl Azərbaycanın Xocalı şəhərində ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş soyqırıma isə göz yumurlar.

Şagird A. -Ermənilərin azərbaycanlılara qarşı soyqırım cəhdlərinin tarixi qədimdir. Ən faciəli belə soyqırım 31 mart 1918-ci ildə – Bakıda, Quba qəzalarında, Salyanda, Şamaxıda, Zəngəzurda, Naxçıvanda, Hacıqabulda, Xaçmazda, Lənkəranda, Qarabağda baş vermişdir. On minlərlə azərbaycanlı qoca, qadın, uşaq, gənc qılıncdan keçirilmiş, güllələnmişdir. Qubada və başqa yerlərimizdə öldürülmüş həmyerlilərimizin kütləvi qəbiristanlıqları aşkara çıxarılmışdır.

Şagird E. -Xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin bünövrəsini 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri qoymuşdur.

Şagird Q. -"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixdə Fərmanı olmuşdur. Həmin Fərmanda deyilir: "Gülüstan və Türkmənçay müqavilələrindən sonra "Azərbaycan xalqının milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş geniş miqyaslı proqramlar reallaşdırıldı. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər (1).

Şagird Ə. -Fərmanda Xocalı soyqırımına da münasibət bildirilir. Göstərilir ki, 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə yeksan edilməsi ilə qurtardı. Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınmış, çadırlarda yaşamağa məhkum edilmişdir. Ərazimizin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır. Xocalı sakini olan 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın işgəncə ilə öldürülmüşdür. 8 ailə bütünlüklə məhv edilmiş, 487 nəfər şikəst olmuş, 1275 sakin – qocalar, uşaqlar, qadınlar girov götürülərək ağlasığmaz təhqirlərə, zülmə və həqarətə məruz qalmışlar. Girov götürülənlərdən 150 nəfərin, o cümlədən 68 qadının və 26 uşağın taleyi bu günədək məlum deyildir. Mühasirədən çıxıb xilas olmağa çalışan dinc sakinləri yollarda, meşələrdə pusqu quran erməni hərbçiləri xüsusi amansızlıqla qətlə yetirmişlər. Azğınlaşmış cəlladlar insanların başlarının dərisini soymuş, müxtəlif əzalarını kəsmiş, körpə uşaqların gözlərini çıxarmış, hamilə qadınların qarınlarını yarmış, adamları diri-diri torpağa basdırmış və ya yandırmış, cəsədlərin bir qismini minalamışlar.

Şagird F. -Milli Məclisin müvafiq qərarına əsasən 26 fevral Xocalı soyqırımı günü elan edilmiş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Şagird P. -Xocalı soyqırımının dünya miqyasında tanıdılması üçün ölkəmiz müvafiq görür. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika və Pakistan parlamentlərinin qərarlarında Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı təsdiq olunub.

Şagird R. -Şagirdlər Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevin başladığı "Xocalıya ədalət" kompaniyasından söz açmış, bildirmişlər ki, bu kompaniyanın məqsədi dünya ictimaiyyətinin diqqətini müasir günümüzdə Azərbaycanın Xocalı şəhərində ermənilərin xalqımıza qarşı törətdikləri soyqırıma cəlb etmək, onları ədalətə, insan hüquqlarının qorunmasına səsləməkdir.

Eyni zamanda tədbirdə diqqət Bakıda – Xətayi metrosunun yaxınlığında Xocalı soyqırımına həsr edilmiş abidəyə yönəlmişdir.

Bu kimi tədbirlər düşmənə, qəsbkarlara qarşı yeniyetmələrdə nifrət hissi oyadır, eyni zamanda mübarizə ruhunu yüksəldir.

**Ədəbiyyat**


1. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublıkası prezidentinin 26 mart 1998-ci il tarixli Fərmanı.
2. http://az.wikisource.org/wiki/"Azərbaycanlıların_soyqırımı_haqqında"_Azərbaycan_Respublıkası_prezidentinin_Fərmanı

*«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində*
*səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 30.05.2015.
Format: 84x108 1/16. Qarnitur: Times.
Həcmi: 22,75 ç.v. Tiraj: 200. Sifariş № 118.
Qiymәti müqavilə ilə.

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA
MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125
596 21 44; 497 06 25; (055) 715 63 99
e-mail: mutarjim@mail.ru

www.mutercim.az

Ar 2015/536
101954